MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI



ƏZİZƏ CƏFƏRZADƏ

# Eldən-elə

ƏZİZƏ CƏFƏRZADƏ

Ш6
C 50

242411

# ELDƏN-ELƏ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2006

*Bu kitab "Əzizə Cəfərzadə. Eldən-elə" (Bakı, Gənclik, 1992) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

**894.3613-dc21**
**AZE**
**Əzizə Cəfərzadə. Eldən-elə.** Bakı, "Şərq-Qərb", 2006, 384 səh.

XX əsr Azərbaycan ədəbiyyatının tanınmış tarixi roman ustası Əzizə Cəfərzadənin əsərlərində əsasən müxtəlif dövrlərin ictimai-siyasi, mədəni-ədəbi hadisələri və bu hadisələr fonunda görkəmli şəxsiyyətlərin obrazları öz bədii təcəssümünü tapmışdır.

Kitaba daxil edilmiş "Eldən-elə" tarixi romanı həyatının otuz yeddi ilini səyahətdə keçirmiş XIX yüzilin Azərbaycan alimi və səyyahı Zeynalabdin Şirvaninin həyatından bəhs edir.

Ömrünün çoxunu səyahətlərdə keçirmiş, mənə də bu vərdişi aşılamış atam Məhəmməd Cəfər oğlunun və bu mövzunu işləməyə başlayanda dəyərli məsləhətlər vermiş görkəmli coğrafiyaşünas alim, mərhum professor Nurəddin Kərimovun xatirəsinə həsr edirəm.

**ISBN10 9952-34-015-X**
**ISBN13 978-9952-34-015-0**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# I HİSSƏ



# Uşaqlıq

*Ömrünün çoxunu səyahətlərdə keçirmiş, mənə də bu vərdişi aşılamış atam Məhəmməd Cəfər oğlunun və bu mövzunu işləməyə başlayanda dəyərli məsləhətlər vermiş görkəmli coğrafiyaşünas alim, mərhum professor Nurəddin Kərimovun xatirəsinə həsr edirəm.*

# ZİYARƏT

Ziyarətgaha tək gəlmişdi. O bu gün öz ağası, öz Hüseyni ilə razı-niyaz edəcəkdi. Çox da ki, kişi ona "Sidqin dürüst deyil" deyirdi. Amma o özü bilirdi ki, sidqi dürüstdür. Arvad, qonşu qadınlara qoşulub ziyarətgahın yolunu tutanda, nədənsə birinci dəfə bu torpağa qədəm qoyub, birinci ziyarətə getdiyi o günü xatırladı...

Axund İskəndər iki oğlu, arvadı və qohum-qardaşlarından bir neçə ailə ilə birlikdə Kərbəlaya gələndə Şirvan qazısı Mirəhmədağa ibn Mir Ağasıağa ibn Mir İbrahim ibn Mir Ələsgərin şəxsi məktubu ilə gəlmişdi və məktubu da birbaşa Kərbəlada İmam Hüseyn dərgahının xuddambaşısı Ağa Seyid Məmmədağa ibn Əbuturabın adına gətirmişdi. Ağa Seyid Məmmədağanın külfəti onları çox mehribanlıqla qarşıladı. Kişinin irəliki karvanla göndərdiyi pul-baratı ilə Axund İskəndərin külfəti üçün ev də almışdılar. Babət ev idi. Həyətində bu yerlər üçün zəruri olan hovuzu, bir-iki bəhərli xurma ağacı da var idi. Axund İskəndər yüklərin yerbəyer olmasına belə imkan vermədi. Şirinbəyimi tələsdirdi:

– İrəlidəki mənzildə o ki vardı dincəlmisiz, kifayətdi. Yığışın əvvəl-əvvəl qəbrinə, balalarım fəda olmuşun ziyarətinə gedək.

Arvad bir söz demədi. O, ümumiyyətlə, ərinin bir sözünü iki eləməzdi, eləyə bilməzdi. Axund İskəndər çox tündməcaz, ağırsəngin kişi idi. Altı-yeddiillik həyatında Şirinbəyim onun hələ ucadan güldüyünü eşitmək deyil, heç dodağının qaçdığını görməmişdi. Alnında namazdan möhür yer eləmişdi. Həcəmət yeri kimi iki qaşının üstündə burnunun lap yuxarısında gipgirdə yer qaralırdı və əlbəttə, bu, Axund ağanın möminliyinin birinci dəlili idi. Yadına gələni, gözünü Axund İskəndərin evində açandan onu ya qabağında səccadə[1] namaz qılan, ya qənşərində rəhil Quran oxuyan görmüşdü. Kişini ayrı sayaq təsəvvür belə eləmirdi.

Hərdənbir evdə yeməyə oturanda da heç kəs cürət edib onunla birlikdə süfrəyə əyləşməzdi. Nə baş yoldaşı Şirinbəyim, nə də oğlanları.

---

[1] Canamaz

Xırda uşaqların da, cavan gəlinin də qəlbində yer üzündə iki şeydən böyük vahimə var idi. Göydə Allah, yerdə Axund İskəndər. "Ataya itaət – Allaha itaətdir, ataya üsyan – Allaha üsyandır". Məhəmmədin dediklərindən uşaqların öyrəndiyi birinci ayə bəlkə də, elə bunun özü idi.

Uşaqlar dil açar-açmaz onlara özü dərs deməyə başladı: "Peyğəmbər salavatullah buyurub ki, heç bir ata övladına gözəl bir tərbiyədən daha yaxşı bir hədiyyə verə bilməz. Gözəl tərbiyə isə qadir Allahın, bir olan xaliqin qoyduğu yol ilə getməkdir".

Şirinbəyim şair könüllü, incə, zərif bir qız idi. Hələ atası evində heç bir şeydən qorxu-ürkü bilmədən yaşadığı illərdə adına "söz deyən", "söz qoşan" deyərdilər. Toy olmazdı ki, Şirinbəyim ürəyində gəlinə xoş bir söz qoşmasın və bunu yaşıdları arasında oxumasın. Bəzən onun düzüb-qoşduqlarını xanəndələr də oxuyardılar. Amma bu sözləri qoşanın ad-sanını ən yaxın rəfiqələrindən başqa bilən yox idi. Mahnıları rəfiqələri kimi qaqqıldaşardı, şənləndirərdi. Hərdən sirlərinə vaqif anası gülə-gülə deyərdi:

– Ay ağbaxt olmuş, heç olmasa bir dəfə bir mərsiyə də qoşsana. Allaha da xoş gedər, bəndəsinə də. Toylarda toyçu olmayacaqsan ki...

– Ay məmə!

– Can məmə!..

– Canın ağrı görməsin, məmə, heç mərsiyəxan da olmayacam. Amma qocalanda bəlkəm mərsiyə də qoşdum elə.

– Neynək, neynək! Allah bilən yaxşıdı. Məmə qurban, yeddi qardaş bacısısan, mərsiyə də qoşsan Allaha xoş gedər, qardaşlarını cənabi Əliəkbərə, cavan Qasimə bağışlar, onuyçun dedim, dərdin mənə gəlsin, dərd eləmə.

Qardaşları üçün ürəyi tiril-tiril titrərdi. "Nardanxatını" yeddi qardaşına bənzədirdi. "Harda dara düşsəm, yeddisi də başımın üstün alar. Namxuda – maşallah, hərəsi bir Rüstəm pəhləvandır. Yeddisi yox, bircəsi dadıma çatsa, o da bəsimdi". Belə düşünsə də, yaman gün yadına düşmürdü. Gülər, söylər, qəhqəhələr çəkər, mahnılar düzərdi. Bayatını bayatıya söykərdi:

Şirvanın elatları,
Çəmdə otlar atları,
Bəyə-xana baş əyməz
Şirvanın arvadları.



Sandığın üstə sandıq,
Yarın oduna yandıq,
Bircə dilək söylədik
Soni də adam sandıq.

Onun zarafatla "hərəyə bir qulp qoya-qoya" qoşduğu bayatılar qohum-əqrəbanın ağzından düşmür, dillərdə gəzirdi. 15-ini dolduranda qapılarına elçi karvanının başı açıldı. Qayınanalar bəhsə girişdi. Kimisi güləşliyini, kimisi işdi-gücdü olmasını, kimisi yeddiqardaş arxalı olduğunu aşıqlamışdı. Amma... Amma... Kaş bu "amma" sözü olmayaydı. Kaş Axund İskəndərə qismətini yazan fələyin qələmi yanılaydı. Nökər İskəndərə, bağban İskəndərə, lap kəndçi İskəndərə yazaydı. "Yazıya pozu, təqdirə tədbir yoxdu". Yazısı Axund İskəndərə yazılmışdı.

"Axund" deyilsə də İskəndər cavan idi. Şəhərdə sayılan kişilərdən birinin oğlu idi. Xorasanda, Məşhədi-müqəddəsdə təhsil görmüşdü. Gələn kimi də əməleyi-movta, ruhanilər arasında başqa yer tutmuşdu. Cavan olsa da, hörmət-izzəti böyüklər yanında da böyük idi. Ağırsəngin, yaşına görə ağır taxtalı, qarasaqqallı, qara əbalı, qara əmmaməli Axund İskəndər. Tezlikcə bu Axund adına layiq olduğunu, iman-quran sahibliyini hamıya sübut eləmişdi. İstər Quranı təfsirdə[1], istər ramazan ayında axund otağındakı istifta[2] gecələrində özünü dərin bilikli, savadlı göstərə bilmişdi. Elə geyinər, elə səliqəli, təmiz, hamar dolanardı ki, "elə bil kişi ilan boğazından çıxıb" deyərdilər. Heç bir dəfə də nə əməlində, nə felində büdrəmədiyindən şamaxılılar ona bir ləqəb də qoşa bilməmişdilər: Molla Quluya dərs dediyi şagirdlərlə bəd rəftarına görə "şümür Qulu" deyənlər üçün İskəndər elə Axund idi ki, Axund.

Şirinbəyimin atası belə bir imanlı cavanın elçilərinə "yox" deyə bilmədi, deyə bilməzdi də. Bir qız nə olan şeydi ki, ondan ötəri o cürə ağzı dualı, məşədi, cavanlığında iman sahibi bir kişinin nifrininə səbəb olsun, oğlanlarına sədəmə toxunsun, ağır nəfəs dəysin?! Kişi heç kəslə məsləhətləşmədi də. Elə gələn elçilərə özü "hə" dedi, mübarəkbadlıq elədi:

– Sizi neyşə get-gələ salım? Bizdə arvad ağzı aramaq ədəti yoxdu. Oğlanlarım cavandı, hərəsinin ağzından bir avaz gəlir. Onların məsləhətiynən oturub-duran deyiləm. Dayıları... Yox, elə heç kim məniynən şərik qız böyütməyib. Elə əhli-müsəlman oğulun qayınatası olmağı özümə şərəf billəm. Allah ulduzlarını barışdırsın, yarıyanlardan olsunlar.

[1] İzahat
[2] Dini sorğu-sual

Elçilər məsələnin belə gözlənilməz asan həll olunmasına sevindilər.

– Allah mübarək eləsin! Sən də, biz də gözümüz dolusu görək.

Elə o gecə Şirinbəyim hadisəni eşitcək ürəyi uçuna-uçuna:

Qəmlidi könlüm, doldu bu könlüm,
Qəmlər əlindən soldu bu könlüm –

dedi. Bu bir mahnının nəqəratına çevrildi.

İlk zifaf gecəsində Axund İskəndər gəlini gərdəkdə qoyub qiraətlə və ucadan, qızın anlamadığı kəlmələri xüsusilə uzada-uzada, bəzi səsləri boğazında qaynada-qaynada namaz qıldı. Sonra da rəhilin qənşərində diz üstə çöküb bir surə Quran tilavət[1] etdi. Həmin gecədən Şirinbəyimin ürəyinə əbədi bir qorxu, – indiyəcən heç zaman dadmadığı, nə olduğunu bilmədiyi bir qorxu çökdü. Nəğmənin nəqəratı ürəyinin vurğularına qarışdı. Üzüduvaqlı gəlin tanrısına yalvarmağa, toy sevinci əvəzinə qüssəsini ifadə etməyə başladı:

Ağlaram zar-zar, ağlaram zar-zar,
Könlümü sənə bağlaram zar-zar,
Həsrət əlindən, həsrət əlindən
Dərdli sinəmi dağlaram zar-zar.

Bu həsrətin təzəcə başlandığını anlamışdı. O xoş gənclik illərinə, o şaqraq qəhqəhəli ata evinə, o hər nazını min dillə qarşılayan, hər arzusunu göydə yerinə yetirən ana və qardaşlar qoynuna bir də qayıtmayacağını dərk eləmişdi. Qızın irəlicədən duymaq qabiliyyəti güclü idi. Ata evinə daha yol bağlanmışdı. Ana və qardaş üzü görməyi qiyamətə qalmışdı. Gərdəkdəki bu düşüncələr, bu qorxu Şirinbəyimi əbədi tərk etmədi.

Əslində ona ata evindəki qızyığdıdan başqa toy da olmamışdı. Axund İskəndər toy istəməmişdi:

– Bəy durmayacağam. Nakam ağalarıma – cənab Əliəkbərə[2], şahzadə Qasimə[3] qismət olmayan toy, mənə də gərək deyil. Qazi kəbini kəsib, vəssalam.

Şirinbəyim ər evində yalnız oruc gördü, namaz gördü, Quran gördü. Nəsihət eşitdi:

[1] Xüsusi qiraətlə Quran oxumaq

[2,3] Əliəkbər – İmam Hüseynin oğlu, Qasim – qardaşı oğlu; hər ikisi Kərbəlada şəhid olub.



– Cənab Əli əleyhüssəlam buyurub ki, öyüd-nəsihət dünyanın ən bahalı xəzinələri qədər qiymətlidi, amma bəzən çox ucuz tutulur.

Ata evində anası arabir ona qıymaz, "qış yuxusu dərin olar", "yaz yuxusu şirin olur" deyib bircə qızı namaza oyatmaz, "günaha batardı". İndi isə o sübh azanından tez oyanmalı, dəstəmaz üçün lüleyini ılıq su ilə doldurmalı, səccadələri açmalı, kişinin arxasında durub gözlərindən tökülən yuxunu qova-qova namaz qılmalıydı. Hamilə oldu, süd verdi, naxoş oldu, heç nəyə baxmadan "qaş-göz işarəsi ilə olsa da" namazını qılmalıydı. Orucluqda kişidən bir yarım saat əvvəl oyanıb, manqalda axşamdan bişirdiyi obaşdanlığı qızdırmalı, süfrə salmalıydı. Bəzən kişi iftara evə gəlməzdi. Hər gün, hər gecə məhəbbət pıqqıltıları əvəzinə Axund İskəndərdən eşitdiyi bunlar idi:

– Bu gecə nimeyi-şəbandır, barat gecəsidir, gərək gecəni namazda, gündüzü orucda keçirəsən.

– Bu gün rəcəb ayının 26-sı Peyğəmbər salavatullahın meracı günüdür. Beş vaxt namaz müjdəsi bu gecə verilib.

– Bu gün 27 ramazan Qədir gecəsidir. Quranın ilk ayəsi bu gün nazil olub.

– Bu günlər əhyadı. 3 şəban imam Hüseynin, 13 rəcəb Həzrət Əlinin, 12 rəbiül-əvvəl Peyğəmbər əleyhüssəlamın mövlududur. Yadında saxla. Namazı var. Rəcəb ayının ilk cümə gecəsi Əminəxatun peyğəmbərə hamilə olduğunu bilib. Əziz gecədi, öz namazı var...

Bu namazlardan, dualardan, razi-niyazdan, bu günahsız tövbələrdən başını itirmiş Şirinbəyim, bir də onda gözünü açdı ki, iki oğul anasıdır. Körpələr 5-6 yaşına çatıb. Axund İskəndər onlara dərs verir, arabir dodaqaltı deyinir:

– Yox, bu namüsəlmanlar arasında mən bunları Allahın buyurduğu, peyğəmbərin hidayət etdiyi yolda böyüdə bilməyəcəyəm. Aparmalıyam, getməliyəm Hüseyn qulluğuna.

Ölkədə doğrudan da qarışıqlıq idi. Ağası xanın gözlərini Quba xanıyla Şəki xanı birləşib çıxartdırmışdı. Şirvanı pay-puş eləmək söhbəti gedirdi. O yandan da İran ikidə, beşdə bir barmağını Şirvana, Muğana, Qarabağa tərəf silkələyirdi. Axund deyirdi:

– Hər dərədə bir xan, bir sultan peyda olub. Xanların birinə yaxınlaşacaqsan, başın salamat olmayacaq. "Qürbüs-sultan atəşi-suzan"[1]. Sabah o biri gələcək, diyirlədəcək səni. Olmayacaqsan. Getdikcən

[1] Sultana yaxınlıq yandırıcı oddur (*ərəb məsəli*).

kafiristana dönən məmləkətdə qan-qan deyənlər içində gora salamat baş aparmayacaqsan.

Qərəz, Axund İskəndər sel oldu çağladı, çay oldu gurladı, külək oldu cövlana gəldi, yay oldu oxu çillədən çıxdı. Şirinbəyim bir də onda gördü ki, kişi səfər tədarükündədi. Əvvəlcə məsinmədi. Elə bildi səfərdə məqsəd Kərbəla ziyarətidi. Kişi Kərbəlaya gedər, uşaqları da aparıb gəzər, ziyarət elər – tasası yatar, qayıdıb gələnlər kimi yığışar evinə. Sonra gördü ki, yox, bu səfər axirət səfərinə oxşayır. Bu ayrılıq ölüm-dirim ayrılığıdır. Marfaşlar yüklənib, barxanalar bağlananda, Şirinbəyimin köç sözü çıxandan dolub-boşalan gözləri qurudu, dərindən odlu bir ah çəkdi. Məcnun olsaydı başında yuva salan quşlar yanardı. Üzünü anasının sinəsinə qoydu. Yasa batmış qardaşlarını bircə-bircə öpdü, vidalaşanda "ata, bu qürbəti sənə halal eləməyəcəyəm" deyib ürəyində pıçıldadı, amma bu pıçıltıda bir fəryad, bir aman var idi:

Gəzmişəm Şirvanı payızda, qışda,
Naxış görməmişəm mən bu naxışda,
Qurbanı olduğum Vətən, bağışla!
Gözlərimin yaşın silən, əlvida!

Əlvida dağlarım, əlvida elim,
Əlvida ay əziz, ay doğma dilim,
Əlvida qardaşlar – yeddilər gülüm,
Bacının dərdini bilən, əlvida!

Anamı qoymayın qubar bağlasın,
Qardaşlarım qüssə çəksin, ağlasın.
Qohum-qardaş xatirində saxlasın
Döşündən pak südün verən, əlvida!

Şirinbəyim, haralısan, haralı?
Dərdü qəmdən yaralısan, yaralı,
İndən belə aralısan, aralı
Şamaxıda deyən-gülən, əlvida!

Kərbəlada da kişinin iş-gücü ya dərgahda zikr, ya namaz, ya Quran tilavəti, ya da oğluna ayələrin təfsiri idi. Ayrı bir işlə ürgahı yox idi. Ömrü bu dünya üçün fikirdə-zikirdə keçirdi. Kişinin etiqadı əvvəlcə Şirinbəyimdə belə bir fikir oyatmışdı ki, bəlkə o, lap cavanlığında nə isə bir günah işlədib, ağır bir bəd əməl tutub. Allaha razi-niyazı da



onun üçündü. Gecələr pərdənin o biri üzündə namazı bitirəndən sonra canamaz üstündə Allaha yalvarmaları gəlini qorxudurdu: "Ey Allahım, böyük xudavəndgarım, mənə ağıl ver, – səni dərk edim, – deyirdi, – mənə eşq ver, – təkcə səni sevim, – deyirdi, – son nəfəsiməcən dilimi alma – sənə zikr edim; məhəbbətindən toxunmuş ürək ver, xudavənda, ey xəllaqi ləmyəzəl – sənə afərinlər oxuyum, yaratdıqlarına məftun olum, – deyirdi, – ilahim, nəfəsim kəsilənəcən sənin xəlq etdiklərinə qüdrətini car edim. Gözlərimi alma, ey pərvərdigar, xəlq etdiyin gözəlliklərin möcüzəsini məxluquna bildirim, seyrdən, sənə səcdədən doymasınlar, – deyirdi. – Qulaqlarımı alma ki, yalnız və yalnız sənə afərinlər, sənə söylənən sənalar, dualar, zikrlər eşidim. Amin..."

Sonralar Şirinbəyim anladı ki, Axund İskəndərin gəncliyində heç bir günahı-zadı olmayıb. Sadəcə sidqi sədaqəti, cəhənnəm, o dünya, axirət qarşısında qəlbində möhkəmlənən qorxudandır. O əsil mənada Allahın quludur, kölgəsidir. Yaratdıqlarının ən acizidir. Elə bu iczi[1] bu sədaqəti ilə də axirət dünyasının əbədiyyətinə inanır. Bu fəna, beş günlük dünyadan karvanını axirətə çəkəndə, əbədiyyət qazananda, mütləq istirahətə nail olmaq istəyir. Bunun üçün də dinin qoyduğu qanunlardan yarım qədəm kənara qoymaq deyil, bunu heç ağlına da gətirmək istəmir, gətirə bilmir.

Kərbəla ruhaniləri, Hüseyn barigahının xuddamları[2] arasında da, dərs dediyi hücrədəki tüllablar[3] içində də, tərifi dillərə düşmüşdü. Bir şeydən incik olanda "Səndən yalnız sənə, təkcə sənə şikayətçiyəm, inayətini məndən əsirgəmə xudaya!" deyirdi. Özü üçün heç nə istəməzdi. Ailəsi dolanan miqdarda qazancından başqa heç bir şey qəbul etməz, nəzir-niyazda gözü olmazdı. Şirvandan onun üstünə – Hüseyn məqbərəsinə göndərilən nəzirləri fülusuncan aparıb təslim edir, özü üçün heç nə götürmür: "Cənab Əli buyurmuş kimi mən dünyanın təkcə haramından deyil, halalından da keçmişəm" deyirdi.

Şən, oynaq nəğmələr, şeriyyət aşiqi Şirinbəyimlə əri kimi bir-birinə yabançı ikinci bir cütün dünyaya gəldiyini Adəmdən bəri heç təsəvvür etmək olmazdı. Əgər beş yaşlı Zeynalabdinlə, təzəcə süddən ayırdığı iki yaşlı Məhəmmədəli olmasaydı, elə onda, yalçın Şirvandan ayrılmamış Şirinbəyim atası ilə qardaşlarının ayağına düşər, "kəbinim halal

[1] Acizlik
[2] Xidmətçi
[3] Tələbələr

– canım azad" deyər, yalvarardı: "Məni bu behiştliyin cəhənnəmindən azad eləyin, çardaşlarım", – deyərdi. Amma Şirinbəyimin iki qolu vardı: birindən Zeynalabdin, o birindən Məhəmmədəli sallanmışdı. İki ayağı vardı: hər oğlu bir ayağına buxov olmuşdu. Amma o bu "buxovları" sevirdi. O bu "buxovların" xatirinə dirigözlü cəhənnəmin orta göbəyində yanmağa hazır idi... Yanırdı da. Kərbəlada, müqəddəs məkanda olsa da. Yanırdı.

Gələn günü yerbəyer olmamış ziyarətgaha yollandılar. Evdən çıxıb geniş bir küçəylə irəliləyirdilər. Axund irəlidə gedirdi. Küçənin hər iki tərəfi kələ-kötür, nahamar dükanlardan ibarət idi. Bu dükanlarda ərəb-fars-türk tacirləri gələn zəvvarlara müxtəlif əşyalar satırdılar. Məkkə ətri, təsbeh, möhür, canamaz, Quran, sürmə, sürmədan, düyü küləşindən hörülmüş xırda qablarda quru xurma, müxtəlif biçimli ucuzbəsər parça, bəzək əşyası, üstü dualar yazılı hazır kəfən, "Nuşican" yazılmış qələmkar süfrələr, qədifələr, boğçalar bir sözlə Kərbəla töhfələri.

Meydan tələbəlik illərində gördüyü meydan idi. Ortada, Hüseyn məqbərəsinin qənşərindəki türbə də yerindəydi. O zaman İrandan gəlmiş tələbə yoldaşlarından biri ona demişdi:

– Hüseyn xuddamlarından biridi. Gör necə sidq ürəknən xidmət eləyib ki, belə bir yerdə dəfn olunmağına baş ruhanilər izn veriblər. Deyirlər, sənin həmvətənindi, özü də şair imiş... Füzuli...

İskəndər elə o zaman da, indiki kimi düşünmüşdü:

– Bəxtəvər başına, gör bir necə yerdə dəfn olunmaq qismət imiş.

Amma Şirinbəyim kimi qürbətdə, yad torpaqlarda, vətəndən didərgin... bədbəxt... deməmişdi.

Əslində bütün bunları Şirinbəyim rübənd altından sonralar gördü. O birinci gün isə... Yorğun idi, Zeynalabdin çarşabının ətəyindən tutmuşdu, totux Məhəmmədəli qolunu sındırırdı. Uşağı bu qolunun üstündən götürüb o biri qoluna alır, rübəndinin şəbəkə gözlükləri arasından kişinin – Axund İskəndərin dalınca gedir, onu gözdən itirməməyə çalışırdı. Geniş küçənin axırında nəhəng qızıl günbəzi hər şeydən əvvəl gördü, ürəyi titrədi. Elə bu vaxt kişinin səsini eşitdi:

– Uşaqları apar, o dama gir. Özün də dəstəmaz al! Qayıdın gəlin, mən də bu biri, kişilər olan damda dəstəmaz alıb, sizi gözləyəcəm burda...

Kişinin dam dediyi yer geniş, tövləvari bina idi. Hər iki tərəfində suaxanlar[1] və dolu aftafalar var idi. Şirinbəyim cəld rübəndini arxaya

[1] Yuyunan yer



atıb, uşaqları "çiş" tutdu, yanlarını yudu, sonra da dəstəmaz alıb rübəndini saldı və yenidən küçəyə çıxdı. Zeynalabdin artıq atasının əlindən tutmuş, qabaqda gedirdi. Şirinbəyim addımlarını yeyinlətdi. Naxışlı darvazaya yaxınlaşanda özü kimi arvadların qapıdan, divarlardan öpə-öpə irəlilədiyini gördü. Uşaqları da öpməyə məcbur edənlər hərəkəti ləngidirdi. Kişi: "Hələ cümə deyil, cümə günü adam day da çox olur" dedi. Şirinbəyimin gözü adamların üzündəydi. Hamının üzündə qulluq, köləlik. Hamının üzündə razi-niyaz, yalvarış, yardım istəyi, inam, etiqad, dilək var idi. Hamı bu dərgaha dərdiylə, kədəriylə gəlmişdi. Xəstə – şəfa, doğmayan – övlad diləyirdi. Kasıb – pul, mal, bir başqası ad-san istəyirdi. Bütün bunları seyr etdikcə və irəlilədikcə Şirinbəyimin ürəyində son 6-7 ildə susan duyğular baş qaldırdı. O bunu ilham adlandıra bilməsə də ilham idi:

Ağalar ağası, ağalar xası
Qəbul elə ibadətim, amandı!
O ali, o uca dərgahına mən
Gətirmişəm şikayətim, amandı!

Əlac eylə qəriblərin dərdinə,
Nəzər sal zəvvarın ruxi-zərdinə[1],
Küllünə deyirəm, həm də fərdinə
Əsirgəmə inayətin, amandı!

Uca-uca dağlarından irağam,
Yaşıl-yaşıl bağlarından uzağam,
Dürlü-dürlü çağlarından qırağam
Özün göstər hidayətin, amandı!

Şirinbəyim həsrət qalsa elinə,
Şirvanın ətirli, qızıl gülünə,
Əlini ver Şahi-Mərdan[2] əlinə,
Qəbul eylə ziyarətim, amandı!

Ayaqqabılarını başmaqsaxlayana təhvil verdilər. Səhnədə[3] keçib qızıllı qapıdan dərgaha daxil oldular.

[1] Saralmış sifət
[2] İmam Əli nəzərdə tutulur
[3] Geniş daş həyət

Hüseyn dərgahı böyük, kvadratşəkilli otaq idi. Dörd divarın dördü də adam boyunacan çini kərpiclərdən yapma ayələrlə bəzədilmişdi. Bundan yuxarı daş güzgü və büllur parçalarından düzəlmə stalaktitvari bəzək günbəzin içərisinə doğru qalxırdı. Ortalıqdakı məzarın üzərinə yaşıl örtük çəkilmiş, ətrafı qalın gümüş çubuqlardan uca hasara alınmışdı. Şəbəkə çərçivəli qapı ilə üzbəüz gözəl xətlə yazılmış Ziyarətdəmə qızıl çərçivə içərisinə salınıb asılmışdı. Ziyarətdəməni kişi özü oxudu:

– Əssəlamü əleykə ya əba Əbdüllah...

...Sonralar o bu dərgaha neçə dəfə gəlmişdi. Əvvəllər hər gün. İki rükət ziyarət namazı qılmışdı. Donuxmuş uşaqları müqəddəs məzarın gümüş şəbəkə hasarının dibində əyləşmişdi. Şirinbəyim namazı qurtarıb, tələsik uşaqlarının yanına qayıdanda ərindən ömründə bəlkə, birinci dəfə belə bir nəvazişli, mehriban səs eşitdi:

– Ziyarətün qəbul, indi sən oldun Kərbəlayi... Ağa mətləbüvi versin...

– Amin!..

Şirinbəyim indi də həmin duanı eşitdi: "Ağa mətləbüvi versin... Amin... – dedi. – Amin... İlahi, balalarımı yerin-göyün afətindən hifz elə". Qapıdan dərgaha girdi.

Kim isə ucadan ziyarətdəmə oxumağa başladı. Şirinbəyim də başqa zəvvar arvadlar kimi ziyarətdəmə oxuyanın arxasında durub sözləri təkrar edirdi:

Xuddam

Əssəlamü əleykə, ya əba Əbdüllah[1]
Əssalamü əleykə, ya ibn rəsulallah![2]

Ürəyi isə öz salamını verdiyi Hüseynə deyirdi:

Şirinbəyim

Eşqin girdabına düşdüm düşəli,
Dərgahına qədəm qoydum, əssalam!
Gecə-gündüz atəşinə tutuşdum,
Şirin cana ecəb doydum, əssalam!

[1] Salam olsun sənə, ey Abdullahın atası
[2] Salam olsun sənə, ey Allahın elçisinin oğlu



Xuddam

Əssəlamü əleykə ibn Əliyyun vəliyullah, vəsiyyun rəsulillah.[1]

Şirinbəyim

Xuddamların kisvətini geymədim,
Heç kimsənin xatirinə dəymədim,
Sultan, xaqan deyib başım əymədim,
Bir sənin eşqinə uydum, əssalam!

Xuddam

Əssəlamü əleykə ya müinəzzüəfa.[2]

Şirinbəyim

Şirinbəyim, şirin candan bezaram,
Matahın açmamış bağlı bazaram,
Öz əlimlə məzarımı qazaram,
Əcəlin gəlməyin duydum, əssalam!

242411

Uşaq on beşini doldura-doldurmaya Axund İskəndər, indi artıq Kərbəlayı Axund böyük oğlu Zeynalabdinə üzünü tutub dedi:

– Evlad, sən indi ağlı, kamalı, dərrakəsi, qavrayışı ilə yaşıdlarından – şagirdlərimdən qat-qat üstün bir adamsan. Artıq mən sənə bir şey öyrədə bilmərəm. İndi sən məni məndən artıq bilirsən. Əgər tinətinə bələd olmasaydım, tərbiyəndən əmin olmasaydım, bunları sənə belə açıq deməzdim. Bilirəm ki, qürur qəlbinə hakim ola bilməz, alçaqkönülsən.

Zeynalabdin qıpqırmızı olmuşdu. Təriflə birlikdə deyilən iraddan qızarmışdı. Əlinin kiçik bir hərəkətilə atası və müəllimi olan bu insana nə isə demək istədi, amma sözünü kəsməyə cürət etmədi. Sakitcə diz üstə əyləşib, gözlərini atasına dikdi və əllərini dizləri üstünə qoyub qaldı. Axund bu xırda əl hərəkətini də gözdən qaçırmadı:

[1] Salam olsun sənə, ey Əlinin oğlu
[2] Salam olsun sənə, ey zəiflərin köməkçisi (*hamısında şiələrin ikinci imamı Hüseyn nəzərdə tutulur*)



M.F. Axundov adına
Azərbaycan Milli
Kitabxanası

– Evlad, bir gün bir ərəb Peyğəmbər salavatullaha dedi: "Səni sevirəm, ya rəsulallah!" Cavab verdi: "Onda nə durmusan? Dəmir zireh gey, bəlaları qarşıla və yoxsulluğa hazırlaş. Çünki bəla və yoxsulluq aşiqlərə verilən hədiyyədir". Mən də, cənab Məsuməli şah[1] da, Bağdadda Nurəli şah[2] da, Məğzubəli şah[3] da təhsilini davam etdirmək üçün Bağdada getməyini məsləhət bilirik. Vaxt-vədəsi çatıb. Daha ali, daha dərin biliklərə, elmlərə yiyələnməyin zəruridir. Çünki aşiqliyin – elm aşiqliyin hər bir hərəkətindən bəllidir. Bu aşiqlik, bu eşq böyük səbir, mətanət, dəyanət, fədakarlıq istər. Bir-iki kitab oxuyub, bir neçə ayə əzbərləyib qədəm geri qoyan, aşiq deyil. Get! Bəradərim – Məsuməli şahın Bağdad Ali Ruhani mədrəsəsində təhsilini davam etdir. Anan südünü, atan sidqini unutma. Ağvalideyn olmamısan, genə də olma! Unutma ki, behişt ananın qədəmləri altındadırsa, ataya itaət də Allaha itaətdir. Qoy o böyük, o ulu, o adil, o rahim, rəhim Allah hər bir işində, hər bir nəfəsində sənə yar olsun.

Zeynalabdin iki il Bağdadda qaldı. Amma Bağdad haradı ki? Şirvan deyil, əl çatmaya, ün yetməyə. Arada bir neçə dəfə evlərinə dəyməyə gəlmişdi. Bir dəfə də Kərbəlayı Axund İskəndərin könlünə İmam Museyi-Kazımın ziyarəti düşmüşdü. Kərbəladan Kazımiyəyə gedən bir karvana qoşulmuşdular. Ananı iki qızıl günbəzli məqbərədən çox, Bağdaddan Zeynalabdinin da onlara qoşulub bir-iki günlüyə Kazımiyyəyə gəlməsi və ana-balanın bir-birinə qovuşması sevindirmişdi. Axund Kazımiyyədə onları hücrədə qoyub Kazımiyyə üləması ilə görüşə, dini sorğu-suallara, ziyarətə, Qurana, namaza cummuşdu.

Şirinbəyimin heç yadından çıxmır. Zeynalabdin qara çadraya bürünmüş anasının əlindən tutub Kazımiyyə bazarının içindən keçirtdi.

– Burda da bazar var?

– Var ana, bütün ziyarətgahların darvazası ağzından o yana bazar başlanır. Hər yerdə belədi. Axı ziyarətə gələn zəvvarlara, karvançılara yemək-içmək, alver də lazımdı. Kimisi tacirdi, malını xırda gəlib, kimisi ziyarətdən qayıdanda külfətinə, əqrəbasına xırım-xırda pay-puş aparmaq istəyir.

Bazar uzun bir küçə idi. Hər iki tərəfində xırda-xırda dükanlar vardı. Bu dükanlarda quş iliyi, can dərmanı, nə desən, tapardın. Amma əsas

[1, 2, 3] O vaxtkı alimlərdən Məsuməli şah Hindistani, Nurəli şah İsfahani və Məczubəli şah Həmədanı Zeynalabdin Şirvaninin müəllimləri olmuşlar. Şah – dərviş məcazlılarına işarədir. Sonralar Zeynalabdin özünə də Məstəli şah təriqət ləqəbini qəbul edib.



matah möhür, təsbeh, türbət qabı, canamaz və xırda hörmə qablardakı türbət və quru xurmaydı.

Tacirlər uca səslə mallarını tərifləyib, alıcı səsləyir, sövdələşirdilər. Görünür, Kazımiyyəyə bir neçə karvan gəlmişdi. Bazar tünlükdü. Tuluqlarda susatan saqqaların işi başından aşmışdı. Satdıqları sudan çox tər tökürdülər. Bazar yarı olmamış imam və oğlunun məzarı üstündə tikilmiş məscidin qoşa qızıl günbəzi, qızıl taclı mavi çinidən incə minarələri göründü. Böyük, çini gül-çiçək ornamentli firuzəyi darvazadan nəhəng sal daşlar döşənmiş həyətə keçdilər. Günbəzlər və incə minarələrin dövrəsində yüzlərlə göy göyərçin uçurdu. Ayaqqabılarını çıxarıb təhvil verdilər. Təkcə corabla bu isti havada belə adama sərin gələn daşlar üzərilə məscidə girdilər. Həyət zəvvarlarla dolu idi. Evsiz, yurdsuz, pulsuz, piyada zəvvarlar hərəsi həyətin bir küncünə çəkilib, tapdıqlarını yeyirdilər. Xırda xuddamlar deyinə-deyinə uzun süpürgələrlə həyəti çalğılayırdılar.

Ziyarətnaməni onun üçün balası oxudu. Zeynalabdinlə məzarın başına dolanandan sonra Şirinbəyim qadınlara məxsus namazgaha keçdi. Möhürdandan möhür aldı, rübəndini başının dalına atıb üzünü qibləyə çevirdi. Amma namaz dualarının biri də dilinə gəlmirdi.

– Ey imam, ey məzarında da istəkli oğluynan yan-yana yatan İmam, sənə sığınmışam. Düzü dünyada, bu gen dünyada, bu işıqlı dünyada, qara günümü iki oğul – iki gözüm işıqlandırıb. Mənə kömək elə, mənə yazığın gəlsin, Allah yanında balan eşqinə şəfaətçim ol! Elimdən-günümdən ayrılmışam. Balalarım ümidliyəm. Ümid böyük Allahdı, gözəl Allahdı, sən məni dərgahından naümid qaytarma. Balalarımdan ayırma. Cənazəm bala çiynində getsin.

Şirinbəyimin ürəyinə dammışdı ki, balaları – ciyərparaları heç vədə yanında olmayacaq. Bir eşq, bir həvəs, eşqi-ilahi onun hər iki balasını əlindən alacaq. Bu eşq, elm, bilik gözəl dünyamızı görüb tanımaq, öyrənmək eşqi olacaq.

Elə bu qabaqcadan duymaq hissi Şirinbəyimin qəlbini indidən acı hicran, ayrılıq, firqət kədərinə bürümüşdü. Ana ayrılıqdan dəhşətlə qorxurdu. Ona görə də ziyarət namazını unudub bu ayrılığa yol verməməsi üçün sidq ürəklə oğlu ilə yan-yana yatmış imamına yalvarırdı...

İkicə il ildırım sürətilə keçdi oğul üçün. Ana üçünsə, ana üçün bu ayrılığın hər günü bir il idi. Amma nə yaxşı ki, hələ yanında kiçik oğlu Məhəmmədəli var idi. Yoxsa qüssədən ölərdi. Məhəmmədəli mədrəsədən qayıdanacan ona istədiyi xörəkləri bişirmək, pal-paltar yumaq,

ev təmizləmək, sil-süpür qayğısı günlərini doldururdu. Məhəmmədəlinin də Bağdada oxumağa getməyi Şirinbəyimin amanını üzdü. Gen dünyası daraldı.

Dünyanın işi budu. Beş günü qara olanda, bir günü də çırağban olur. Şirinbəyim belə çıraqban günlərinin birində Zeynalabdinin Bağdaddan dərsini qurtarıb qayıtması ilə kişinin oğlunu evləndirmək xəyalı bir vaxta düşdü. Şirinbəyimin ürəyində bir ümid çırağı yandı. Zeynalabdini Şamaxıya göndərib göbəkkəsməsi, – dayısı Məşədi Səməndərin qızı Telizəri almağı və götürüb Kərbəlaya gətirməsi məsələsi ortaya çıxdı.

Bu gün dərgahdan Şirinbəyimin duaları balasının Şirvana sağ-salamat gedib, xoşbəxtliyinən nişanlısına qovuşub geriyə, anasının yanına qayıtması üçün idi. Bəlkə onda Şirinbəyimin yarasına məlhəm qoyulacaqdı. Qadın anlayırdı ki, əri millətin cibindən gedib. Onun öz xalqına, əqrəbasına, millətinə heç bir xeyri yoxdur. Ölən günəcən işi dərgahda xuddamlıqdır. Ana qorxurdu ki, oğlu da atası yolu gedər, imam qulu olar, o da millətindən, dilindən ayrılar... Gedir... Gedəcək... Anası öləndən sonra, burada fars, ya ərəb qızı alandan sonra daha öz doğma anasının dilində heç kəslə, bircə kəlmə də danışa bilməyəcək... Danışmayacaq... Şirvanın yaşıl düzənlərini, yalçın qayalarını, zümrüd dağlarını, şır-şır axan anasının gözyaşı kimi duru bulaqlarını yadına sala bilməyəcək, unudacaq. Quranda cənnətin təsvirini oxuyanda gözləri önündə uşaqlıq xəyallarının dumanına bürünmüş doğma Vətəni canlanmayacaq... Bibiləri, dayıları, xalaları, onun yadına düşənəcən (əgər düşsə də) artıq bu dünyadan köç təbilini vurub gedəcək. "Uşağım qərib eldə, yadlar içində, tək-tənha qalacaq"...Ananın böyük dərdi buydu. Ana oğlunun burda yerliləşdikcə, doğmalaşa biləcəyinə inanmırdı. Təsəvvür eləmirdi. Çünki özü bunu bacarmırdı. Yerliləşmirdi, doğmalaşmırdı. İstəmirdi də. Ana ağlına da gətirmirdi ki, ciyərparası ömrü uzunu vətənsiz gəzəcək, el-el, oymaq-oymaq, oba-oba, ölkə-ölkə, diyar-diyar, heç yerdə öz evi olmayacaq. Heç yerdə yurd salıb, binə qurmayacaq. Heç yerdə bu dünya üçün qudası, axirət günü üçün qonşusuna rast gəlməyəcək.

Ana bunu bilmirdi. Bilsəydi, elə dərgahda Allahından ölüm istərdi. O verməmişdən bağrı partlardı, ölərdi.

Namazını qıldı, duasını elədi. Yenidən imam Hüseynin türbəsinin başına dolana-dolana dua etməyə başlayanda, qəribə mənzərə gördü. Cavan, gözəl bir qızın başını yaşıl sarıqla imamın məzarını qoynuna almış gümüş şəbəkəyə hörükləyib bağlamışdılar. Qızın üzü açıqdı, yanaqlarının hər biri birər lalə kimi alışıb yanırdı, amma bu qızartı xəstə qızartıydı. Bir kəlmə də danışmadan, gözyaşı axıtmadan, quzu kimi bağlanıb durmuşdu. Qızın ətrafını qara əba, çadralı ərəb arvadları yarımdairə şəklində əhatə edib, ağlaşa-ağlaşa mərsiyə deyirdilər.



Şirinbəyim ananın qəlbi bu yazıq, bəlkə də ruhi xəstəliyə tutulmuş azarlı qıza yandı.

– Can-can, ay yazıq bala! – dedi və ürəyində vətənin ataları deyən bir neçə məsəli səsləndi. "Özündən yuxarıya baxma, aşağıya bax". "Başqasının dərdi yanında səninki toya getməlidi".

Eh, məsəl o qədərdi ki!.. Ana bu acı mənzərədən qəribə də görünsə, sükunət tapıb ayrıldı. Onun, o ərəb ananın dərdi böyükdü, balası key kimi olub qalıb. Ona baxanda Şirinbəyim ana özünə təsəlli verirdi: "Şükür kəraminə! Balalarım sağ-salamatdı. Azar-bezarları ki yoxdu, dünyanın malına dəyər".

Bu fikirlərlə də ziyarətgahı tərk edib evə qayıtdı.

Kərbəlayı Zeynalabdinin Şirvan səfəri üçün hazırlıq görməliydi. Kişi irəliki karvanla Şirvana qaynı Məşədi Səməndərə oğlunun gəlməyi haqqında xəbərdarlıq məktubu yazıb göndərdiyini bildirmişdi. Qoy onlar da işlərini bilib, vaxtikən hazırlıqlarını görsünlər.

Hökm Axund İskəndərin idi. Nə Zeynalabdinin, nə də Telizərin arzusunu, diləyini soruşub öyrənmək heç kəsin ağlına gəlmirdi.

## SƏFƏR

Evdə qızğın hazırlıq gedirdi. Şirinbəyim Zeynalabdini səfərə hazırlayırdı. Bu gün o, Bağdaddan qayıdacaq və gələn şənbə günü Vətənə qayıdan kərbəlayılar karvanı ilə Şirvana gedəcəkdi.

Şirinbəyim axşama Şinafə[1] düyüsündən zirəli plov bişirdi. "Anan ölsün, bir də haçan yeyəcəksən, ana bişirən xörəyi?" – özü də sualından qorxdu:

– Buy, iraq-iraq, Şirvana gedib-qayıtmaq, nə şeydi ki, Allahın əlində? Bu nə asi sualdı dilimə gəldi? – bu sözlərlə də ana dəmə qoyduğu qazanın qapağını qaldırdı, dəmi kənara tökdü. Sonra yenidən düyünün üstünə yağ gəzdirib qapağı pərçim elədi:

– Şükür Allaha, dəmini yaxşı tökür, bir az altının odunu azaldım, dibi yanar. Başına döndüklərim qazmağı çox xoşduyullar. Ha deyirdim

[1] Kərbəla yaxınlığında kənd adı

balacalıqlarında ay bala, az yalayın qazanın dibini, az yeyin qazmağı, toyunuzda qar yağar. Sizi söyərlər, məni danlayarlar ki, az yedirdəydin bu pir olmuşlara qazan dibini.

Özü öz sözlərinə gülümsədi. Son aylarda öz-özü ilə ucadan danışmağa adət eləmişdi. Heç olmasa, özününkü olsa da, qulağı doğma söz eşidirdi, ürəyində danışmaqdan qubar gətirirdi.

Evlənmək məsələsini Axund özü aralığa atandan, özü də oğlunu Şirvandakı deyiklisi ilə evləndirmək istəyəndən bəri Şirinbəyimin uçmağa qanadı yox idi. Gəliniynən öz dilində danışacaqdı. Yanında gecəbə-gündüz doğma nəfəs olacaqdı, qulağı doğma səs eşidəcəkdi. Bəs görəsən nə əcəb Axund İskəndər bu fikrə düşmüşdü? Onun ki, qayınları ilə bir elə arası yox idi. Vətən adı çəkən deyildi.

Axund İskəndərin də bu barədə öz fikri var idi. Ata övladının savadından, elmə cidd-cəhdindən, tərbiyəsindən, qabil adamlarla söhbətə həvəsindən, hətta xəttinin gözəlliyindən məmnun idi. İstəyirdi ki, Zeynalabdin həmişə onun yanında, böyründə olsun, hər gün onunla birlikdə Hüseyn dərgahına getsin, ziyarətdəmə oxusun, azmışlara yol göstərsin; dərdlərə əlac eləsin. Dərgah böyründəki bimarıstanda yatan xəstələrə dava versin, elmlərdə təkcə tibbə yiyələnsə, bəsidi. Amma Zeynalabdin... Amma Zeynalabdin... Zeynalabdin hər şeyin qabığını soyub içərisinə baxmaq, kitab oxuyursa – mənbəyini və sonunu, qərib görürsə – soyunu-sopunu, naməlum böcək, ot görürsə nəliyini, zərər və xeyrini dərk etməyə çalışırdı. Quşların ardınca göylərə uçmaq, oradan dünyamızı seyr etmək, karvanlara qoşulub yollara çıxmaq, qızıl qumlu səhralardan o yana şəhərləri, kəndləri, insanları görmək istəyirdi. Dərsdən və ibadətdən vaxt tapan kimi söz-söhbəti qərib ölkələrdən idi. Uzaq ellərdən gələn zəvvarlar, dərvişlərlə söhbət edirdi. Kimdilər, hardan gəlirlər? O yerlərdə nə var?..

Bax, elə Axund İskəndəri də narahat edən məsələlərin biri və başlıcası bu idi. Doğrusuna qalanda bu məsələlər çox deyildi. İkicəydi, birincisi bu idi ki, Axund İskəndərin haradasa qəlbinin dərinliklərində Şirinbəyim anaya yazığı gəlirdi. O görürdü ki, arvadı açıq-aşkar qürbət mərəzinə tutulub. Öz-özünə danışmağını neçə dəfə evə qəfil bir işçün qayıdanda öz qulağıyla eşitmişdi. Axundun başı ibadətə, mədrəsəyə, dini mübahisələrə, təfsirlərə elə qarışmışdı ki, arvada baş qoşmağa nə macalı var idi, nə həvəsi. Bişirdiyini yeyir, yuduğunu geyir. Döşədiyi səccadə üstündə namaz qılır, saldığı yorğan-döşəkdə yatırdı.



Evdə tez-tez dil üstündə, namaz üstündə, dini ehkamların yerinə yetirilməsinə görə qilü-qal olurdu. Bir də görürdün Şirinbəyim dedi:

– Kişi, başa düşmədim, o nədi?

Axund İskəndər özündən çıxırdı:

– Ay Allahın lənətinə gələsən, neçə ildə Allahın kəlamının dilini uşaq öyrənir alim olur, sən öyrənə bilmirsən?

Şirinbəyim acıqlı-acıqlı deyinirdi:

– Kişi, vallah sənin danlaqlarından axırda həlahil[1] atıb, özümü öldürəcəyəm.

– Qaragora öldür. Özünü bu dünyadan da elərsən, o dünyadan da. Yaxşı ay lənətlik, həlahili öyrənə bilirsən, Allahın kəlamını yox? İbadət yadına mən evə gələndə düşür.

Arvadına qəzəbi tutanda deyirdi:

– Gör kimin dərgahına gətirmişəm səni. Padşahlar həsrətindədi. Xalqlar ellər basır, aylarnan dilənə-dilənə, pay-piyada ziyarətinə gəlir. Sən isə... Deyir, bir padşah bülbülü qızıl qəfəsdə saxlayırdı, öz əliynən suyun-dənin verirdi. Amma bülbül elə "vətən", "vətən" deyirdi. Padşah təngə gəldi, maraq üçün bülbülü buraxdılar ki, görək axı bunun vətəni haradı? Getdi qondu qanqalın başına. Sən də Kərbəlada, Hüseyn qulluğunda, şühədalar məzarının böyründə ola-ola ibadət etmək, axirətini fikirləşmək əvəzinə, o bir-birini qıran, bir-birinin gözünü çıxardan, qanlı-qadalı xanların, hər dərədə bir bəy, bir xan, bir sultan çıxan Şirvanın qüssəsini eləyirsən? Sən də müsəlmansan? Əqidən dürüst deyil.

Şirinbəyim belə mülahizələrin qabağında deməyə söz tapmırdı. Güc verirdi gözlərinə. Elə Şirvandan gələn zəvvarların da əvvəlinci sözü bu olurdu. "Nə var orda? Qırdı-qırdıdı. Xanlar sovxaşıb bir-birinin canına. Axta Qacar o yandan, o birisi bu yandan. Arada qırılan əlsiz-ayaqsızdı. Quru yurdda qalan el-oba əhlidi. Siz nə xoşbəxtsiz. Bəxtəvər başınıza Hüseyn qulluğunda. "Amma Şirinbəyimin ürəyi heç bir dəlil-dəlayillə razılaşmırdı. Xan da cəhənnəm, Qacar da ondan o yana. Heç dini yerlərlə də, qorxusundan adını çəkməsə də, ürəyi barışa bilmirdi. Şirvanın havasını istəyirdi, torpağını istəyirdi. "Ölsəm bu torpaqda basdırsalar"... Arvad qüssədən özünə yer tapa bilmirdi... Xalq ölüsünü oradan gətirib burda dəfn eləyir, mən isə..." Bütün bu fikirlər ona asilik kimi gəlsə də, ürəyində, başında möhkəm yer eləmişdi. Axund İskəndər oğlunun göbəkkəsməsi ilə evlənməsini də elə buna

[1] Çox təsirli, öldürücü zəhər

görə istəyirdi. Deyirdi: "Bəlkə, qardaşı qızı yanında olar, arvad yorulub-usanar. Qulağım dincələr. Kafir qızı Allah kəlamı Quranın da dilini öyrənə bilmir ki, heç olmasa qonum-qonşu arvadları ilə söhbət eləyə bilsin. Gəlin gəlsə, sakitləşib oturar yerində". Bax, birinci səbəb bu idi. İkinci səbəb daha mürəkkəb idi və irəlidə dediyimiz kimi Zeynalabdinin dünyanı görüb öyrənmək həvəsiylə bağlayırdı. Axund cahangəşt[1] dərvişlərlə, karvanlarla, sarbanlarla söhbətlərindən qorxurdu. Qorxurdu ki, oğlu – bu qədər zəhmət çəkib Hüseyn qulluğunda özünə əvəz yetişdirdiyi Zeynalabdin bir gün karvana, dərvişə qoşula, dünyanı seyrə çıxa. Hər yan cəlayi-vətən dərvişlərlə doludur. Axund İskəndər istəyirdi ki, oğlunu göbəkkəsməsinə evləndirməklə bir oxla iki dovşan vursun. Həmi Zeynalabdinin buradan Şirvana getməsilə onun səfər, səyahət marağını təmin etsin, həm də ana qohumuna evləndirib ayağını buraya möhkəm bağlasın. Əlbəttə, bu fikirlərini arvadına demirdi.

Axund İskəndər oğlunun səfər hazırlığına Şirinbəyimin gözləmədiyi bir cidd-cəhdlə girişmişdi. Yol üçün kiflənməyən xüsusi çörəklər – "taxtax" bişirtdirmişdi. Qayınları, qaynı arvadları, xüsusilə gələcək gəlini Telizər üçün xüsusi hədiyyələr, Kərbəla sovqatları almışdı.

Şirinbəyim də tənbəkiyə qoyulmuş qədim məfrəşi, tənbəlidləri çıxarıb hazırladı. Oğlu üçün yollarda rahat keçsin deyə, bir yay yorğanı, bir yastıq, düyünçəsindən gəlin üçün xırda-para şeylər, səngi-sitarədən[2] düzəlmiş bir neçə bəzək əşyası topladı.

Bütün hazırlıqlar görülüb qurtarmışdı. Bu gün hər iki oğlu Bağdaddan qayıtmalıydı. Şirinbəyim bir də qazanın qapağını götürüb düyünün dəmini alanda, pələtdə[3] kişi səsləri eşitdi. Qapıya tərəf boylananda, əli bağlamalı oğlanları ilə birlikdə evə tərəf gələn ərini gördü. Kişi yolüstü oğluna başladığı nəsihəti davam etdirirdi:

– Oğul, mən səfərə çıxa bilmərəm. Anan da məlum. Dayılarına de, bizi əfv etsinlər. Səfərə çıxmağın iki düşməni var: qocalıq və kasıblıq. Sən cavansan, cavanlıq özü xəzinədir. Deməli, maneələr sənin üçün rədd olur. Get vətənə. Sənə bir neçə vəsiyyəti ululardan nəqlən söyləyirəm. Əvvələn, faydasız sözlərə qulaq vermə ki, başağrısı görməyəsən. Saniyən, elə doğru danış ki, təsdiq üçün şahid gərək olmasın və başın bəlalardan uzaq olsun. Salisən, bil ki, hər şeyi bilən adam dün-

[1] Cahanı gəzən, səyyah
[2] Ulduzcuqlu daş, bəzək əşyası düzəldilir.
[3] Darvaza



yaya gəlməyib, məgər ki, peyğəmbər və ya imam ola; odur ki, gördüklərini öyrənməyə cəhd eylə, ta ki heç bir kimsədən geri qalmayasan. Rabeən, ürəyivi Allahın evi elə ki, şeytan əməlləri ora yol tapmasın, kimliyüvü soruşana de ki: Allah adamıyam, Allahın evindən gəlirəm, Allahın torpağına gedirəm. Beləliklə də, şərri özündən uzaqlaşdırasan. Xamisən – imtahan etməmiş heç kəsə inanma. Bunu yaxşı bil ki, Allahdan başqa insanın dostu yoxdur. Sən də rəbbinə sığın, nə istəsən, ondan istə. Sənə dost kimi yanaşanı sına, gör qəsdi nədi. Qəsdi olmayanın nəyinə gərəksən? Yollarda ayıq-sayıq ol! Bil ki, "Yatan aslandan oyaq tülkü yaxşıdı".

Şirinbəyim həyətdə də uşaqların yaxasını nəsihətdən xilas etməyən kişisinin əlindən cəzana gəlmişdi. Bir neçə aydan bəri görmədiyi balalarını qucaqlayıb, öpə bilmirdi. Ata yanında oğlanlar da ədəb gözləyib, sakitcə dayanmışdılar. Atalarının söhbəti bitirməsini gözləyirdilər, çünki "Atanı xoşhal etmək – Allahı xoşhal etmək deməkdir" və yalnız ata özü sözünü bitirib susandan sonra onlar analarına yaxınlaşıb onun ağuşuna sığına, əlindən, sinəsindən öpə bilərdilər. Və yalnız bu zaman Şirinbəyim balalarını həsrət bağrına basıb alınlarından, gözlərindən dönə-dönə öpə bilərdi. Elə indicə ürəyi oğlanlarına tərəf uçur, pərvanə kimi başlarına dolanır, Zeynalabdinə yaşlı gözləri ilə yovuncuyurdu: "Ayaqlarına qurban olum – Şirvan torpağına dəyəcək. Gözlərinin qadasın alım – qardaşlarımı, Vətənimi, qohum-əqrəbamı görəcək. Dodaqlarına qurban, gedib əzizlərimi öpəcək. Qulaqlarına sadağa olum – Şirvan şikəstəsi, Sarıtorpaq şikəstəsi, hər kəlməsi bir bayatı, hər sözü bir şeir olan Anam dilini eşidəcək. Can bala, canımın yonqarı bala. Ürəyimin varağı bala".

Ana-bala arasındakı gözəgörünməz nazik, ipək tellər onları bir-birinə elə bağlamışdı ki, biri digərinin sözünü xırdaca bir hərəkətindən, kiçik bir işarəsindən, yavaşca göz qırpımından, bəlkə də bəbəklərinin hərəkətindən anlayırdılar. Zeynalabdinin bircə dərdi var idi, o gedəcək, anası Kərbəlada tək qalacaq. Düzdü, kiçik qardaşı və atası burdaydı. Amma qardaşı Bağdadda təhsildə, atası isə ibadətgahda, ağası Hüseynin qulluğundaydı. Onun Şirinbəyimlə məşğul olmağa nə vaxtı, nə də həvəsi vardı. Bəlkə də, arvad, əgər dini ayinlərə, müqəddəs ehkamları öyrənməyə, Quran tilavətinə həvəs göstərsəydi, onda Axund İskəndər arvadı ilə məşğul olmağı savab işlərdən, vacib əməllərdən sayardı. Axı şəriətcə "əmr və məruf, nəhy əz münkər" hər bir müsəlmana vacib idi. Axund da həvəslə öz müsəlmanlıq borcunu yerinə yetirərdi. Lakin

elə məsələ bundaydı ki, Şirinbəyim, dinsiz deyildi, dinin vacibliyini yerinə bir vəzifə kimi yetirir, artıq həvəs göstərmirdi. Kişinin arvaddan soyumasının bir səbəbi də buydu və indi Zeynalabdin artıq özü gənclik – kişilik həddinə dolduqca, atası ilə anasının münasibətlərini dərk etdikcə bu uçurumu aydın görür və təəssüfləndikcə də anasına daha çox acıyırdı. Atası necə də olsa sevdiyi əməlində, sevdiyi əməldaşları arasındaydı, tək deyildi bargahda. Anası isə tək idi. Fələn və cismən tək idi. Elə bu düşüncələrin təsiri ilə də Zeynalabdin ata-anasının təklifini qəbul elədi, qəlbən qəbul elədi. Gedib anasına qulaqyoldaşı gətirəcəkdi. Bu qulaqyoldaşı da anasının doğmaca qardaşı qızıydı.

...Hazırlıq qurtarmışdı. Ana oğlu üçün yol azuqəsi hazırlamış, tez xarab olmayan çörək və xörəklər bişirmişdi. Sabah sübh namazından sonra Kərbəlanı tərk edib Şirvana yollanan karvanla Zeynalabdin də valideynlərindən ayrılacaq, beş yaşınacan gördüyü və indi artıq unutduğu vətənə yollanacaqdı. On iki il dilini, elm və mədəniyyətini, adət və ənənələrini öyrəndiyi, onun üçün ikinci vətənə çevrilmiş müqəddəs torpaqdan ayrılacaqdı.

Bu gecə evdə iki yatmış, iki oyaq var idi: İbadətlərinə layiqincə əməl etmiş, qəlbi sükunət tapmış Axund İskəndər və yol yorğunu cavan Məhəmmədəli ağır yuxuya dalmışdı. Böyür-böyürə yatan Şirinbəyimlə Zeynalabdin isə bu gecə sübhün gözü açılana qədər oyaq qaldılar, yerlərində uzansalar da, yuxu kirpiklərini ağırlaşdırsa da yata bilmədilər. Ana qolunu boynu altından salıb onu azacıq sinəsinə tərəf çəkmişdi. Arabir ağladıqca gözünün yaşı Zeynalabdinin üzünə damırdı. "Ağlama, ana! Nə var Allaha şükür?!" deyirdi. "Ağlamıram, day ağlamıram" cavabını ana verirdi. Amma bir az keçmiş yenə də ağlayırdı. Sözünə təzədən başlayırdı. Harda kəsdiyini, nə tapşırıb, nəyi tapşırmadığını unudurdu. Təzədən danışırdı. O qədər deməli sözü, tapşırmalısı var idi ki... Çoxunu yadına sala bilmirdi. Neçə gün idi ki, gündüzlər deməlisini ürəyində əzbərləyirdi. Amma indi baş-başa, nəfəs-nəfəsə qalanda, yadından çıxmışdı...

Hüseyn bargahının qızıl minarəsində azan səsi eşidilmədən bir urub[1] qabaq Şirinbəyim yerindən qalxdı:

– Vaxtdı, oğul, dur dəstəmazını al, namazını qıl ki, vaxtında karvana çata biləsən.

Ev oyandı.

---

[1] On beş dəqiqə



# YOLDA

Dərviş gəncin gözəl simasına baxdıqca Onun[1] üzünü görürmüş kimi ürəyi titrəyirdi. Oğlanın ədəbi, qabiliyyəti, cavan olmasına baxmayaraq, özünü təmkinlə aparması dərvişin xoşuna gəlmişdi. Kimdi? Haradan gəlib, hara gedirdi? Addımlarını yeyinləşdirib, oğlanla bərabər yeriməyə başladı. Yanakı üzünə baxıb elə bu sualla da oğlana müraciət etdi:

– Kimsən, övlad, hardan gəlib, hara gedirsən?

Bir istədi ki, atasının öyrətdiyi kimi cavab versin: "Allah adamıyam, Allahın yerindən gəlirəm. Allahın torpağına gedirəm" desin. Amma demədi. Bu nurani simalı, atası yaşında, bəlkə ondan da yaşlı, dünyagörmüş insana elə cavab vermədi. Zeynalabdinə elə gəldi ki, əgər o cavabı versə gözəl bir insanı ələ salmış olar, yaralayar. Dedi:

– Tələbəyəm, Kərbəladan gəlirəm. Şirvana gedirəm.

Şirvan sözünü eşidəndə nədənsə dərvişin üzündə mehribanlıq duyuldu, xoş bir təbəssüm göründü.

– Şir-vana[2], ya Şər-vana[3]?

Bu dəfə Zeynalabdin nədənsə sıxıldı. Yaşına uyğun gəlməyən təmkinlə dedi:

– O deyənin məqsəd, tərbiyə və əqidəsindən, tinətindən asılıdır. Şir əsillidisə Şirvan, şər əsillidisə Şərvan yozacaq. Mən Şirvana – vətənimə gedirəm.

– İncimə, övlad, mən sözgəlişi dedim. Təhqir məqsədim yox idi. Elə mən də o başıbəlalı diyarın bir guşəsindənəm. Cavad mahalından. Orada "Baba Samit" türbəsi var. Baba Samit təriqəti dərvişlərinin sığınacağı, pənahgahı Cavad mahalındakı Qalaqayın[4] yaxınlığında "Baba Samit" türbəsinə gedirəm. Ata-babam da bu təriqətdə olub, elə mənə də əkiz qardaşımla birimizə Sakit, birimizə Samit adı qoyublar. Bundan başqa bizim Qızılburun deyilən qəsəbəyə yaxın Gilgilçay kəndində, Şamaxının böyründəki "Dədə Günəş" mövqeyində və digər yerlərdə də Baba Samit təriqəti dərvişlərinin pənahgahı – sığınacağı var.

Zeynalabdin nə bu təriqət, nə də bu türbə sahibi haqqında bir şey eşitmişdi. Odur ki, huş-guşla, bütün diqqətilə dərvişin dediklərini dinləyirdi.

– Mən əkizlərdən Sakitəm.

---

[1] Allah nəzərdə tutulur.
[2] Şirlər ölkəsi
[3] Şərlər ölkəsi
[4] İndiki Sabirabad

Birdən Baba Sakit dərviş sanki yanındakı müsafir yoldaşını unutdu. Gülbang[1] çəkməyə başladı:

– Çırağı-nəbi, övladi-əbi... fəxri övliya... hüsni-xuda. Ya baba Samit... hu... hu... la ilahə illa hu...

Bir qədər sonra Baba Sakit dərviş özünə gəldi:

– Hansı dilləri bilirsən, övlad?

– Anam dilindən başqa, Qurani-kərimin ərəb dilini, şeir dili – fars dilini, bir qədər qonşumuz türkmanlardan öyrəndiyim türkman dilini, dilimizə yavuq olan osmanlıcanı...

– Neçə dil bilirsənsə, o sayda da adamsan.

Zeynalabdin dərvişin susmasından istifadə edib soruşdu:

– Baba dərviş, o irəlidə gedən dərviş də sizin əqidədəndi?

– O təhqiq dərvişdi.

– Yəni necə?

– Özü bir, sözü bir...

Zeynalabdin çaşıb qaldı. Baba Sakit dərviş nə demək istəyirdi? Məgər özü də "özü bir, sözü bir insan deyil?" Heyrət dolu baxışlarını dərvişə zilləsə də susdu, bir söz soruşmadı. Nurani babanın özünün danışmağını gözlədi.

– Təriqətlərlə çoxmu maraqlanırsan?

– Bəli... Dini ayrılıqlar məni narahat edir. Əgər dünyanı xəlq edən Allah birdirsə...

– Səncə, din nədir oğlum?

– İnananları bir-birinə və Allaha bağlayan anlayışdır. "Fiqhi-Əkbər"də oxumuşam. Yəqin sizə də məlumdur, baba!.. "Fiqhi-Əkbər" sahibi yazır ki, din – Allah tərəfindən mənsublarını dünya və axirətdə qurtuluşa, səlamətə gətirən etiqad və əməllərdən ibarət bir təşkilatdır. İslam dini – barış, sülh, səlamət, yaradılmışın – Yaradana, məxluqun – Xaliqə təslimi deməkdir. Bu yolu tutanlara müslim-müsəlman, yəni səlamətə yetmiş deyilir. Əlhəmdülillah, biz də müsəlmanıq.

Sakit babanın dodağı əyildi, ağ bığları tərpəndi:

– Əcəb səlamətdir ki, hər yerdə qan və qılınc gücünə yayılıb. Bütün islam tarixi başlanan gündən, başqa dinlər kimi, elə lap Firəngistanda gördüyüm xristianlığın tarixi özü də qanla doludu. Təkcə inkvizisiya[2]...

[1] Burada zikr, Allahın, ya Peyğəmbərin, ya türbə sahibinin müqəddəs ad və ləqəblərini mahnı kimi deyişmək.

[2] Orta əsrlərdə "cinayət" işlərilə məşğul olan katolik kilsə məhkəməsi



Zeynalabdin dəhşətə gəldi. Baba Sakit İslamiyyəti xristianlıqla yanaşı qoyurdu. Baba Sakit İslamiyyətin elə cəhətlərinə onun gözünü açırdı ki... Amma gənc sual vermədi. Donmuşdu. Ədəblə Baba dərvişin sözünə davam etməsini gözlədi. Dərviş yenə də yanakı ona baxıb, xəfifcə qımışdı:

– Təmkinin xoşuma gəlir. Gərək mənim küfrəbənzər sözlərimdən sonra sualı gecikdirməyəydin... Mürşiddən isə səbəb soruşulmaz.

Zeynalabdin qəlbində bu bir neçə saat ərzində dərvişdən eşitdiyi bu "təmkin" sözünü təkrarladı. Xoşlamışdı. Madam ki, baba da ilk tanışlıqdan onun səciyyəvi cəhətini, yəni təmkinini duydu, ilk baxışdan gördü... Onda... onda... Qoy bu söz elə Zeynalabdinin təxəllüsü olsun. Məsələ bundaydı ki, heç kəsə deməsə də, heç kəsə oxumasa da Zeynalabdin şeir yazmağa başlamışdı və xeyli vaxt idi ki, yazmağa başladığı gündən özünə bir təxəllüs seçmək istəyirdi. Axı şerinin möhrəsində[1] qaydaya görə mütləq təxəllüs işlətməliydi. İndi Baba Sakitin onu dönə-dönə təmkinli adlandırması, qəlbində çox xoşuna gəldi və bu kəlməni özünə təxəllüs seçməyi qət etdi. "Zeynalabdin Təmkin" Şirvani... Pis çıxmır – deyəsən. Təmkin. Gərəkli və gözəl məzmunlu sözdür. Təmkin..." Əgər şair olsa, mütləq Təmkin olacaq.

Baba Sakit danışmağa başladı:

– Məhəmməd salavatullah özü buyurub ki, bir gün elm uğrunda çarpışmaq, üç aylıq nafilə[2] orucdan xeyirlidir. Qədim zamanların ulu kişilərindən bir alim deyib ki, "ilahi, mənə kitab dolu bir ev, çiçək dolu bir bağ ver". Demək elm, elm, yenə də elm. Elmlərə yiyələnmək ibadətdən əfzəldi.

Əgər Zeynalabdinin atası baba Sakitin bircə kəlməsini eşitsəydi, oğlunu evdən kənara buraxdığına heyifsilənərdi. Kişinin qorxduğu başına gəlmişdi. Oğlu dərvişə qoşulmuşdu.

Karvan hələ İraqdan tamamilə çıxmamışdı. Onlar sərhəd karvansaralarından biri olan Şəhrəbanuya çatdılar. Baba Sakit ona buranın əla Şəhrəbanu narından yeməyi məsləhət gördü. Yolboyu Qəsri-Şirin yaşayış məntəqəsi, Fərhadın çəkdiyi süd arxları, Bisütunda həkk etdiyi Şirin surəti haqqında danışdı. Füzulinin "Etməzmidim" rədifli qəzəlini oxudu. Bu beyti xüsusi bir vurğuyla söylədi:

[1] Təxəllüs deyilən son beyt, bənd

[2] Zoruri olmayan

Ləhzə-ləhzə surətin görsəydim ol şirinləbin,
Sən kimi, ey Bisütun, mən həm qərar etməzmidim?

– Füzulinin külbəyi-əhzanın, yəqin ki, Hüseyn məqbərəsi önündə görüb ziyarət etmisən?

– Hər şeyə yetiklik edən gəncin marağını təskin üçün ətrafda görüb bildikləri, tanıdıqları haqqında ona məlumat verirdi.

Zeynalabdinin yadına düşdü ki, atasının kitabları arasında Məhəmməd Füzulinin "Hədiqətüs-süəda"sını görmüş və atasından bu sözləri eşitmişdi:

– Bəxtəvər bizlərdən olub, amma imam qulluğunda elə sədaqətlə xidmət edən xüddam olub ki, Hüseyn barigahının yaxınında dəfn olunmaq şərəfinə nail olub.

Bu kiçik, dərviş baba demişkən, "külbəyi-əhzan"ı görmüşdü. İçərisinə girib sadə, fəqir məzarı seyr etmiş, rəhmət duası oxumuşdu. Atasının kitabları arasında böyük şairin divanına, ölümsüz "Leyli və Məcnun"una rast gəlməmişdi. Mədrəsədə də bu barədə ona bir şey deməmişdilər. "Mütləq tapıb oxumaq lazımdır" düşündüyü anda, sanki onun fikirlərini oxuyan baba dərviş dedi:

– Sarbanın lütf edib dəvələrdən birinin yükü üstünə atdığı heybəmdə onun külliyyatı var. Karvansarada dayananda yadıma sal, verim onu, oxumadıqlarını oxu!

Karvan irəliləyirdi. Dəvələr löklədikcə, sarban öndə at oynatdıqca, susuzluqdan yanan piyada zəvvarların taqəti tükənirdi. İrəlidə gördükləri ilğımı, sulu-göyərtili karvansara, türbə ərazisi hesab edərək sevinirdilər.

Zeynalabdin ara-sıra karvanın həyatından çox uzaqlaşır, xəyallara dalır, gördüklərini, Baba Sakitdən eşitdiklərini, sarban və digər yeni tanıdığı adamlardan öyrəndiklərini dərkə çalışırdı. "Bir dəvə yükündən çox kitab oxumuşam bu az ömrümdə. Amma o təhsil, o mütaliələr mənə səfərimin hələ başlanğıcında öyrəndiklərimin ondan birini verməyib. Əsil elm buymuş, həyatın özüymüş" – düşünürdü. Gördüyü nə vardısa soruşur. Hər şeyin iç üzünü, mənasını, mənbə və mənşəyini öyrənməyə can atırdı. Uzun-uzadı fərəhsiz, ağır karvan yolunda müdrik kim varsa, bildiyini bu yetik gəncə öyrətməyə səy göstərir, səyi də əbəs getmirdi. Bəzən Ələvi Bəktaşi dərviş dəstələrinə rast olurdular. Dərvişlərin başında sikkə adlanan uzun, təpəsi yastı keçə papaq vardı. Sikkənin dövrəsinə dəstar-çalma bağlamışdılar. Əyinlərindəki kisvət – paltar ağ idi. Üz-



gözlərində bir çimdik deyəsən tük yox idi. Dərvişlər qorxunc səslərlə fırlanır, əllərini göylərə qaldırıb titrədir və gülbang çəkirdilər: "Huuu... Allah... Allah... Ağalar ağası, şəhvətçimiz ol". Bəktaşi dərvişlər dərhal gülbangdan sonra "Nadi-Əliyyən məhzərül-əcaib" surəsini oxumağa başlayırdılar.

Belə hallarda Baba Sakit onun heyrətli baxışlarına cavab olaraq deyirdi:

– Bənd olma, övlad, dünya təriqətlə doludur. İslamda o qədər təriqət var ki, saymaqla qurtarmaz. Bax, öyrən, bəyəndiyini seç, qul olma, amma iman sahibi ol.

Zeynalabdin düşünürdü: "Mən bu gözəl dünyamızı yaxından və lap dərindən tanımalıyam. Hərə bir iş görmək üçün gəlir dünyaya. Onu elə heyvandan fərqləndirən də budur. Mən də gəzib görməliyəm və gördüklərimi görməyənlərə, bildiklərimi bilməyənlərə çatdırmaq üçün yazmalıyam. Bu nə olacaq, necə yazılacaq – hələlik deyə bilmərəm. İndidən. Amma yazılacaq. Yazacağam!"

...Onlar karvansaraya çatanda günorta azanı verilməyə az qalırdı. Zəvvarlar – təzə kərbəlayılar tələm-tələsik namaz ehtiyatı görməyə başladılar. Karvansaranın iri, yüklü dəvə keçən darvazasının üstündə aydın nəstəliq xəttilə bu beyt yazılmışdı:

Qoşadc bad be taət həmişə ni dərgah,
Be həqqi əşhədu ən la ilahə illəllah.[1]

Karvan həyətə girmədi. Dəvələr elə darvazadan azacıq aralıda xıxırdıldı. Görünür sarbanın burada ləngimək qəsdi yox idi. Namaz qılınandan, günorta yeməyi yeyiləndən və havanın dəmi bir az alınandan sonra dərhal o birisi mənzilə yol almaq fikrindəydi. Odur ki, dəvələrin yükü alınmadı.

Adamlar həyətə girməmiş onları bir dəhşətli bağırtı qarşıladı. Qonşu kəndin ərbabı bir nəfəri nökərlərinə döydürürdü. Kişi üzüqoylu yerə sərilmişdi. Nökərlərdən biri onun boynu, biri də ayaqları üstündə əyləşmişdi. Şallaq köynəkqarışıq kişinin kürəyinə dəydikcən paltar zol-zol olur və bu zollardan kənara qan çırtlayırdı. Hamıdan əvvəl dərviş Sakit baba dəstəyə yaxınlaşdı: qəribədi ki, döyənlərə yox, üzünü döyülənə tutdu. Sükutla, adına layiq sakitliklə (sanki gözləri önündə insan alçaldılmırdı. Qanlı cinayət, adi bir hadisə kimi cərəyan edirdi) soruşdu:

[1] Allahın birliyi eşqinə bu dərgah (qapı) həmişə açıq olsun.

– Ey Allahın bəndəsi! Günahın nədi ki, sənə bu cəzanı rəva görürlər?

Yanda dayanıb verdiyi cəzanın icrasını seyr edən, xınalı saqqallı, boz çuxalı ərbab deyindi:

– Ağa dərviş, mənim adamımdı, mən billəm. Sənə dəxli olmayana qarışma.

Dərviş yenə də eyni sükunətlə söylədi:

– Bu adamın günahını görməmişəm. Sizin zülmü görürəm.

Zeynalabdin Baba Sakitin arxasına keçdi. Mübahisənin nə ilə nəticələnəcəyini bilmək olmazdı. Cavan oğlan müdafiə mövqeyini təzəcə tutmuşdu ki, karvanla gələn çavuşun azan səsi eşidildi.

Gözəl səsi var idi çavuşun. Zəminxara üstündə oxunan azan aləmi yandırıb-yaxmağa başlayanda, ərbabın işarəsi ilə nökərlər əllərini saxladılar və həyəti tərk etdilər. Yalnız bu zaman karvansara sahibi və adamları hücrələrdən çıxıb tanış çavuşun səsinə səs verərək, təkbir deməyə və bir-iki ay əvvəl burada dincəlib Kərbəlaya gedənlərə, "Ağa, ziyarətün qəbul, Kərbəlayı, ziyarətün qəbul" deyə-deyə təzə kərbəlayıları təbrikə başladılar. Hələ Kərbəlayı müraciətinə alışmamış təzələr iftixar və sevinc hissilə cavab verirdilər:

– Allah hamı arzusunda olanlara qismət eləsin, inşallah.

Baba Sakit isə yəqin ki, ərbabı nəzərdə tutaraq:

– Ey xuda, ey insanların qəlbinə ziya verən pərvərdigar! Niyə onun qəlbini bircə misqal ziyadan məhrum etmisən ki, sənin məxluquna bu əzabı verir? – deyə-deyə Zeynalabdinin köməyi ilə kəşkülündən çıxardığı, sirrini yəqin ki, təkcə özü bildiyi məlhəmləri döyülən adamın yaralarına sürtürdü.

Zeynalabdin zol-zol olmuş köynəyin bəzi parçalarını cırılmış, islahatdan çıxmış bədəndən güclə qoparırdı.

Təzə kərbəlayılar üzlərini qibləyə çevirib namaza duranda onlar hələ də bu işlə məşğul idilər.

Dərviş deyirdi:

– Qırx ildə bir namaz qılmaq istədim, onda da məscid uçdu. Neynək, övlad! Dərvişlərə namaz zəruri deyil.

Atasının bir sözü Zeynalabdinin yadına düşdü:

– Dərvişlərin çoxu dinsiz zındıqdı. Namaz bilməz, oruc bilməz, ibadət qanmazlar.

Dərviş isə deyirdi:

– Böyük Yəzdanın xəlq etdiyi, sonra da başlı-başına ərbabın hökmünə buraxdığı bu zavallıya kömək, namazdan vacibdi, övlad!



Zeynalabdin gözünü açandan namaz qılmışdı. Amma bu gün ömründə birinci dəfə indi dərk edirdi ki, dünyada və üqbada namazdan irəli iş, namazdan vacib əməl, namazdan xeyirli iş var. O da ilk dəfə idi ki, namaz qılmır, bu xeyirli işi görürdü.

Dərviş elə bil deyinirdi. Amma bu "deyinti" Zeynalabdinə aid idi. Qoca işini görə-görə, məlhəmini yaxa-yaxa deyirdi:

– Bir gün canavara deyiblər "Canavar qardaş, sənə bir sürü qoyun tapşırırıq". Canavar bunu eşitcək zar-zar ağlayıb. Sürü sahibləri soruşublar: "Niyə ağlayırsan?" Deyib "qorxuram yalan ola". Bax, təbiətin hakimi, padşahı, məxluqun xəllaqı qoyunu qurda, sürünü canavara tapşırmamalıdır. Tapşırıbsa, dalıycan göz olmalı, ondan cavab soruşmalıdı. Soruşmasa, təbəə bu günə düşər... Bələləri üçün qanun yazılmayıb. "Qanun mənəm, ayrısı yoxdur" deyən hökmdarın ərbabı elə, təbəəsi belə olar. Qalx, övlad! Biz əlimizdən gələni elədik. Əgər ödü partlamayıbsa, bu gecə ölməsə, sabaha çıxsa, ömrü qalıb demək (məlhəmlər öz işini görər). Səhərə çıxmasa, sabah Allahının qulluğunda olub ərbabından ona danışar. Qalanı tanrının işidi.

Onlar kişidən ayrılan kimi karvansara xidmətçilərindən ikisi gəlib yaralını qaldırdılar. "Allah ölənlərinə rəhmət eləsin, baba dərviş", – deyə mızıldadılar. Yaralını qol-qıç eləyib xidmətçilərə məxsus hücrəyə apardılar. Zeynalabdin düşünürdü: "Yaxşılığın dilini hamı başa düşür, əcnəbi də, kar da, kor da, lal da".

Bir neçə günlük səfərdən sonra onlar artıq ata-oğula bənzəyirdilər.

Dərviş Baba Sakit ilə gənc Zeynalabdin, hər ikisi karvansara həyətindəki hovuzda əllərini yuyub, kölgəyə çəkildilər. Zeynalabdin xurcunundan anasının bişirdiyi "taxtax"lardan ikisini çıxartdı. Karvansara xidmətçisinin gətirdiyi iki piyalə isti çaya batırıb yumşaltmaq üçün birini baba dərvişə verdi. Dərviş "taxtax"ı alıb əvvəlcə iylədi, sonra əlini özündən xeyli aralı tutub baxdı, yenidən burnuna yaxınlaşdırıb yoxladı. Zeynabdinin gözü dərvişdə idi. O, çörəyə baxdıqca üzünə xoş, təsviri mümkün olmayan bir mərhəmət, mehribanlıq, heyrət və sevinc-qarışıq ifadə çökdü. Üzünə narın bir təbəssüm yayıldı. Elə doğma, elə mehriban oldu ki...

– Deyəsən, anan Kərbəladadı?

– Nədən bildiniz, baba? – Heyrət növbəsi Zeynalabdinin idi.

– Bu çörəyi, bu səfər "taxtax"ını heç yerdə, heç kəs Şirvan xanımları kimi belə ətirli, belə zərif, belə lətif bişirə bilməz. Bir zamanlar,

mən də sən yaşda olanda anam səfər heybəmə belə çörəklərdən qoyub. Bağdad kimi diyar olmaz, ana kimi yar.

...Köç təbili vurulanda onlar artıq yeməklərini yeyib bitirmişdilər. Karvan səfərə hazır idi.

İndi artıq sözsüz-sovsuz, təzə tanışlar kimi deyil, məhz, ata-oğul kimi, Mürşid ilə Mürid kimi yan-yana, çiyin-çiyinə gedirdilər. Baba Sakit ona gördüyü, gəzdiyi ölkələr, insanlar, dinlər, təriqətlər, adət və ənənələr, tarixlər haqqında danışırdı.

– Dünyadakı millətin sayı yetmiş iki deyil, bəlkə on dəfə bundan çox-çoxdu. Hər birinin öz yeri var. Bu böyük dünyamızda. Hər birinin öz dili, öz dini, öz anlayışı var.

O, bircə parça bulud görünməyən mavi səmaya işarətlə sözünə davam etdi:

– Bu göy çadır altında insan çox, din-təriqət çoxdur. Deyənlər dedi, görənlər söylədi. Mən də aradım, axtardım, kökünə, əslinə çata bilmədim...

Xırdaca bir kəndin yanından keçirdilər. Kəndlilər xırman salmışdı. İki ortayaşlı kişi, dərzləri tayadan yaba ilə onlara ötürən cavandan alıb, dəyirmi xırmanda açmışdı. Bir boyunduruq[1] öküz qoşulmuş vəli 10-12 yaşlı oğlan sürürdü. Vəlin üstündə iki qız uşağı oturmuşdu. Heyvanlar isti havada güclə hərəkət edirdilər. Kişilərin ağ köynəklərinin kürəyi islanmış, sünbül tozuna bulaşmış bığ və saqqalları bozarmışdı. Üzlərinin və əllərinin dərisi paxır mis rənginə çalırdı. Xırmanın bir tərəfinə, görünür öynədən əvvəl döyülmüş və közərdən çıxmış buğda əmbizi vurulmuşdu. Oğlan öküzləri sürdükcə arabir özü də atılıb vəlin üstünə minir, uzun qamçısını başının üstündə hərləndirib heyvanların kürəyinə endirirdi.

Tayanın kölgəsində əyləşib sovruq atmaq üçün axşamın düşməsini, meh əsməsini gözləyən kişilərdən biri hərdən-hərdən oğlana tərəf səslənirdi:

– Qovma, bala, qovma! Taxılın qırağı yayılır.

Sonra da şana və kürəyi götürüb, vəlin altından qırağı çırtlayan, yayılan əzik-üzük sünbülləri "qatlayır" – yenidən xırmana vəlin altına atırdı.

– Çörək belə qazanılır, övlad! Alın tərilə, kürək təriylə... Axşamacan evində kölgələnən ərbab, seyid, molla, indi təzə çıxan bəzi həyasız dərviş buğda sovrulub əmbizə vurulan kimi torbasını qapıb fağırın xırma-

[1] Bir cüt



nının qırağını kəsəcək ruzisini balalarının boğazından çıxardıb alacaq. Küz fəslində əkib, suvarıb. Qış qoruyub. Yaz becərib. Yayda belə... Gözünü ona dikib... O da ki... Ruzi belə qazanılır, övlad!..

Axşama doğru karvan qədim və çox böyük ərazidə yerləşən bir türbəyə çatdı. Bu imamzadalardan biri idi. Köhnə olsa da möhkəm, ətrafı tünlük bina idi. Türbənin ətrafında xeyli çinar, söyüd kimi ağaclar əkilmişdi. Qonaq evi karvansaradan fərqli olaraq daha təmiz idi. Yaxında ovdan, çörəkxana, mərizxana, namazgah tikilmişdi. Türbəyə vəqf olunan pul və əmlak hesabına buraya gələn pənahsız yolçulara yemək verilir, yol üstündə xəstə düşmüş səfərilər mərizxanada yatır, müalicə olunurdu. Bütün bunlar yalnız verilən nəzir, daha çox ehsan verən zəvvar cəlb etmək hesabına edilirdi. Türbənin lap yaxınlığında burada dünyadan köçənlərin dəfn edildiyi xamuşan – qəbiristan var idi.

– Qəribin, dərvişin səltənəti belə türbələrlə karvansaralardır.

Zeynalabdinin ürəyi zoqquldadı. Sanki az sonra bütün ömrü boyu, qırx ilə yaxın məhz belə türbə və karvansaralarda gecələyəcəyi, min kilometrlərlə yol qət edib Ərəbistandan, Qahirədən Seylon adasınacan gedəcəyi, xəstəykən, yorğun ikən məhz belə ehsan sahibi zəvvarlar hesabına bina olunub yaşayan türbələrin mərizxanalarında, şəfaxanalarında şəfa tapacağı indidən gözünə durdu.

İndi bu saat Baba Sakitlə həmin qurulu türbələrdən birini maraqla seyr edirdi. Hələ ki, Bağdad ilə Kərbəla, Kərbəla ilə Şəhrəbanu qəsəbəsi arasında beləsinə rast gəlməmişdi.

Hamıdan əvvəl karvanın qabağına başı iri əmmaməli bir molla çıxdı. Buranın başçısı, türbənin baş ruhanisiydimi, ya nəyidisə, bəlkə də, səfərilərdən idi, hər halda Baba Sakit onu görcək, gülümsünüb cavan dostuna dedi:

– Peyğəmbər salavatullah buyurub ki, əmmamə müsəlmanın tacıdır. Amma day bu boyda da yox da.

Zeynalabdini də gülmək tutdu. Doğrudan da, arıq, çəlimsiz mollanın başındakı əmmamə çox böyük idi, onu lap göbələyə bənzədirdi.

Molla sarbana yaxınlaşdı:

– Əxəvi[1], belə görürəm ki, yönünüz Şirvanadı?

Sarban ədəblə mollaya vermədiyi salamı xatırladırmış kimi cavab verdi:

– Əleykümələssəlam, axund ağa! Bəli, yolumuz Şirvanadı.

[1] Qardaş

Axund salamı qulaqardına vurub soruşdu:

– Burada çoxmu qalacaqsız?

– Xeyr. Sübh namazından əvvəl dan ulduzu doğan kimi dəvələri qaldıracağıq. İrəlidəki mənzil xeyli uzaq, havalar istidi. Bir qulluğunuz var?

Sarban mollanın cavabını gözləmədən dəvəçilərə, kirəçilərə, çarvadarlara tərəf döndü:

– Ay uşaq, tuluğları suynan doldurun indidən. Sonra macal olmayacaq.

Yorğun gözlərindən yuxu tökülən adamlar sarbanın əmrini yerinə yetirmək üçün vurnuxdular. Sarban yenidən mollaya sarı döndü:

– Bir qulluğunuz var?

– Bəli, bərадər, bir başı bağlı kağız var. Badi-Kubədə Şamaxı yolundakı Qəriblər karvansarasının sahibinə verib deyərsən ki, zərkubi[1] məhəlləsində zərgər İsrafil ağaya çatacaq.

– Nə eybi var, axund ağa! Yolumuzun üstündədi. Çatdırarıq. Amma yiyəsinin adını üstünə yaz, yaddan çıxmasın.

– Bəçeşm[2]. Onda gedim indidən yazım gətirim, yoxsa xudanəkərdə sübh-sadiqçağı sizi görə bilmərəm, ibadətdə ollam, ya nə.

– Buyur, ağa, buyur. Necə könlün çəkir, elə də elə. Ya indi gətir, ya obaşdan...

Yol uzunu türbədən onlara qoşulmuş Bəktaşi dərvişləri ilə müsahibə Zeynalabdinə yolun yorğunluğunu, istini, bürkünü, toz-torpağı unutdurmuşdu. Baba Sakit mane olmurdu. "Zeynalabdin, qoy eşitsin, öyrənsin. Onsuz da öyrənmək həvəsi onu çəkib dərvişlər cərgəsinə qatacaq. Qoy indidən təriqətini özü bəyənib seçsin", – düşünürdü.

...Ovdanlardan birinin başında dayandılar. Burada qarağacların kölgəsi çətirləri altında dincəldilər, ovdanın sərin suyundan sirab olub, onu tikənə rəhmət oxudular. Təmizliyini qoruyub saxlayana Allahdan inayət dilədilər. Zeynalabdinin Bəktaşi dərvişlərlə söhbəti də elə burada, qarağac kölgəsində başladı. Yeddi dərviş idi. Konyaya-aşiqlər kəbəsinə gedəcəkdilər. Bəzi dərvişlərin əynində kisvət, başında dövrəsinə dəstar sarınmış sikkə var idi.

Bir azdan dərvişlər karvandan ayrılacaqdı. Odur ki, Zeynalabdin sualı sual dalınca verirdi. Dərvişlər də gözəl xislətli cavanı dəstələrinə cəlb etmək üçün onun bütün suallarına məmnuniyyətlə cavab verirdilər. Hərəsi özü, əqidəsi, duyğuları haqqında bir söz deyirdi:

[1] Zərgərpalan, zərgərlər küçəsi

[2] Göz üstə



– Mən onun dərgahına eşqdən də üstün bir duyğuyla gəlmişəm. Qulam, köləyəm, siddiqəm.

– Bu dərgahın qapısını iyirmi beş ildir ki, döyürəm, haqqa verdiyimi duymadım hələ.

– Bəktaşi dərgahı ata evidir. Orada aş evi, əppək evi, mehman evi, meydan evi, Pir evi var, türbə var. Hər evin öz babası var. Meydan evi yığıncaq – cəm-səma məclisləri üçündür. Meydan evində on iki imam eşqinə on iki post[1] var. On ikilər bu postların üstündə əyləşir.

– Ya Allah, ya cabbar, ya qəhhar, yə qəni, ya nəbi...

– Ya həyyül qəyyum! Ya həyyül qəyyum. Ya hu. Ya həq!..

– Dünyada iki növ insan var: 1. Alimlər; 2. Aşiqlər. Alimlər hər an "mən", aşiqlər isə daima "o" deyirlər.

– Əsil aşiq Ömər kimi adil, Əli kimi verimli və mətin, Osman kimi həlim və rəhim olmalıdır.

– Mövləvi Bəktaşinin bütün var-yoxu dəstar, sikkə, cübbə və əbadan ibarət olsa da, əslində bunlar da zahiri əlamətdi, evlad! Əsil məsələ batini eşqdir.

Bəktaşi dərvişin əlamətləri: tac, xirqə, süfrə və ələmdir. Tac – imani-həqiqətdir, kəlməsi zikirdir; qəlbi – pirdir, fərzi – məhəbbətdir, sünnəti – himmətdir; qüslü – fənalıqlardan uzaq olmaqdır; kilidi – insanlığa xidmətdir. Xirqə: mürşidi sevindirmək, hər ayıbı örtmək, batini ədəb üçündür. Bəktaşi üçün insan vücudunun dəyəri bunlardan ibarətdir: başında taci-dövlət, alnında namazi-itaət, qulağında gülbəngi-Məhəmməd, burnunda rayiheyi-məhəbbət, ağzında imani-şəhadət, köksündə Qurani-hikmət, əlində dəsti-Vəliyyət, belində kəməri-hidayət, dizində dəmi-təriqət, ardında əcəl, önündə qismət...

Zeynalabdin onun üçün tamamilə yeni olan bu əqidənin əsaslarını diqqətlə dinləyib dərkə çalışırdı.

Dərviş isə deyirdi:

– Eşq yaradanın yaratmaq qüdrətidir. Sən o yaradanın qüdrətinə tapın. Nəyin varsa onun yolunda sərf elə. Əgər bu dünyaya çılpaq gəlib, cümlətanı on arşın bezlə gedəcəksənsə, dünya malı yığmaq üçün özünü öldürməyin nəyə yarar? Axı heç nə aparmayacaqsan. Sən bu dünyanı gözəlləşdirənlər cərgəsində ol. Yaradanın zərrəsi var səndə. Yaradan nə yaradıbsa, dünyanı gözəlləşdirmək üçün yaradıb.

[1] Dəri

Zeynalabdin səbir edə bilmədi, biçarə yolçulara, xüsusilə didərgin fəqirlərə, dərvişlərə əzab verən bit-birə yadına düşdü. Biri elə danışanın çiynində yavaş-yavaş gəzirdi. Sözünü kəsib soruşdu:

– Biti də?

Müsahibi etimadını pozmadı, eyni ahənglə cavab qaytardı:

– Biti də... Onun da biz anlamadığımız bir xeyri, bir yaradılmış səbəbi var. O da bu silsilədə özünə müəyyən bir mövqe tutur. Hansı mövqeyi? Biz bilmirik. Öyrənsək, heç nəyi məhv etməyə əlimiz qalxmaz.

Bədəni qaşınmaqdan zol-zol qabıq qoymuş, yeməyinə qonan sərçəni belə qovmayan bu dərvişdəki canlıya mərhəmət hissi Zeynabdinin yadına ötən düşərgələrdən birində rast gəldiyi ərbabı salmışdı.

– Allahı sevmək – onun yaratdığı xilqəti sevməkdir. İstər ali yaradılmış insan, istər xırdaca bir qarışqa... Mən xaliqin xəlq etdiyinə zülm edə bilmərəm. Mən kiməm?! Kainat miqyasında götürsək, həmin arıdan, qarışqadan da xırda bir məxluq.

Zeynalabdin fikirləşirdi:

– Düşünmək lazımdır. Qəribə təriqətdir, nəsə yaxşı, nəsə yox... Hər halda mən...

O bayaqdan bəri səbirlə dinlədiyi halda birdən etiraz etdi:

– Qarışqanın, arının şüuru yoxdur. Allah insana verdiyi ali şüuru...

Sözü kəsilən dərviş qəzəblə üsyan etdi:

– Olsun. Ali şüuru olan oğrudan, cəlladdan, qaniçən hökmdardansa, şüursuz, lakin bəşərə bal kimi dərdlər əlacı bağışlayan arı, anam torpağa xeyirsiz olmayan qarışqa min kərə yaxşıdı.

Dərvişin səsindəki heybət Zeynalabdinin qəlbini titrətmişdi. Məntiqi isə yadına həmin ərbabı salmışdı.

Heç bir şüursuz xilqət, heyvanat, həşərat öz qövmünə, öz cinsinə insanın insan başına gətirdiklərini gətirə bilməz. Gətirməz. Gətirməyə qabil deyil. "İt də itin ayağını basmaz", deyib ərən dədələr. Amma insan, amma insan... amma insan... Həbsxanalar tikir, cəzalar icad edir. Göz çıxartdırır. Əl, burun, qulaq kəsdirir. Boyun vurdurur, dara, çarmıxa çəkdirir. Bu azmış kimi, qanlı müharibələr salıb dullar, yetimlər, əlsiz-ayaqsızlar törədir. Bu da sənə ali şüuru olan İnsan...

"Atam da bu qanlı müharibələrdən, öz qövmünü, qəbiləsini qıran xanlardan, evlər dağıdan, uşaqları yetim, anaları oğulsuz, gəlinləri ərsiz qoyan hərbdən qaçırdı, vətənini ona görə də tərk etmişdi", – gənc



düşündü. Amma hər halda dərvişə cavab verməsə də, qəlbinin dərinliklərində nədənsə onunla razı deyildi.

Türkiyəyə tərəf gedən yolda Bəktaşi dərvişlər karvandan ayrıldılar. Zeynalabdin uzun müddət "Aşiqlərin kəbəsi" – Konyaya üz tutan dərvişlərin ardınca baxdı... Baxdı...

Dünəndən bəri Zeynalabdinin dərvişlərlə müsahibəsinə mane olmayan Baba Sakit əsasına yaslansa da, yüngül addımlarla yanınca yeridikcə soruşdu:

– Necə gördün, Bəktaşi babaları?

– Hə, dərk etmədiyim şey çoxdur.

– Kainat dərk etmədiyimiz sirlərlə doludur.

Karvan qəsəbəyə daxil olanda donub qaldılar. Qəsəbə darvazasının hər iki tərəfindən şaqqalanmış bədən asılmışdı. İsti havada çürüməkdə olan ət və qan iyi ətrafı başına götürmüşdü. Milçəklər qan iyinə cəmdəklər üzərində vız-vız vızıldaşırdı. Cənazənin başı nizə ucuna keçirilib ayrıca payaya bənd edilmişdi. Üzünə baxmaq olmurdu. Olsaydı da tanımalısı qalmamışdı. Cavan idimi, qocaydımı, arvad idimi, kişiydimi, bilmək mümkün deyildi. Qaralıb kömürə dönmüş sifətin üstündə yüzlərlə milçək, iri at milçəkləri, qarışqa qaynaşırdı. Darvazadan girib-çıxanların bəzisi əba və ya çuxasının ətəklərini yığışdırırdı. Sanki indicə üstünə dama biləcək və ya sürtünə biləcəyi qandan, nəcasətdən qorunurdu. Adamların əksəriyyəti belə şeylərə adət etmiş kimi şaqqalara, kəlləyə baxmadan darvazadan girib-çıxır, getdiyi yerinə gedir, almalısını alır, satmalısını satırdı. Təzə gələn karvan içində də belə şeyləri ömrü uzunu çox görmüş olanlar heyrət etmədən, bəlkə də, heç nəzərə almadan – iş-güclərini düşünə-düşünə, alverini fikirləşə-fikirləşə irəliləyirdilər. Lakin bir neçə təzə kəblayı, xüsusilə Zeynalabdin heyrətdən donub qalmışdı. Karvan cərgəsindən çıxıb bu bədbəxtin kimliyi, cəzasının səbəbi haqqında düşünürdülər. Cavan Zeynalabdin belə şeyləri nağıllarda eşitmişdi. Balacalığında Şirinbəyim ona nağıllar söyləmişdi. Bu nağıllarda zalım şahlar olurdu. Qalib gəldikləri əsirlərin, zalım həramilərin, kəlləsindən minarə qurdururdular. Oğrunu, binamusu şaqqalatdırırdılar. Amma onlar nağıl idi, bu isə... bu isə... bu isə həqiqətin özü idi... Öz gözləri ilə görürdü: "Şənidən key bavəd manəndi didən" bələmi yazmışdı o qoca şərqin ağsaçlı şairi? "Yüz eşitməkdən bir görmək yaxşıdı", bələmi demişdi dədələrin diliylə Şirinbəyim ana?

Gözlərindən süzülən yaşları duymurdu. Qoluna toxunan Baba Sakit onu çəkib aparırdı, amma ayaqları getsə də, gözləri bu məşum mənzərədən ayrıla bilmirdi. Baba Sakit isə deyirdi:

– Döz, bax, gör övlad, unutma, bala! Mən də birinci dəfə kəlləminarəni görəndə beləcə sənin kimi qalmışdım. Gözlərim ağlayırdı, dilim kəlamdan qalmışdı, ayaqlarım məni üstündə saxlamırdı. Yadıma gələni bu, xaçpərəstlər ölkəsindəydi, deyəsən Niş[1] qəsəbəsində...

Oralara da gedib çıxmışdım... Dünyanı görmək istəyə-istəyə. Səmənddən tikilmiş bir qüllənin üstündə yağışın yuyub, günəşin qurudub sədəf kimi ağartdığı, dişləri baxanın üzünə "gülən" doqquz yüz qırx yeddi baş gördüm. Dedilər doqquz yüz əlliymiş, üçünün yeri boş, çökək kimi qalmışdı. Anasımı, arvadımı, qızımı, kimiysə öz əzizinin kəlləsini gecəykən oğurlayıb aparıb basdırıbmış. Onda hələ səmənd bərkiməyibmiş, başlar da əbədilik kəlləyə çevrilib ağ sədəf cərgələrlə quruyub minarəyə "həkk olunmayıbmış". Doqquz yüz qırx yeddi kəllə baxanın üzünə "gülürdü". Elə bil dil olub deyirdi: "Ey insanlar, zülmü unutmayın, zülmün kökünü cahandan kəsin. Təkcə bunun uçun bu dünyaya gəlməyə dəyər. Təkcə bunun üçün yaşamağa dəyər. Ey insanlar, cərgə düzülmüş, səmənd divara – qülləyə həkk olunmuş doqquz yüz qırx yeddi öz azadlığı uğrunda çarpışan insanı unutmayın". Bax, elə ordaca dilim tutuldu, üç gün-üç gecə nə yeyib nə içdiyimi bilmədim. Üç gün-üç gecə gözümün yaşı qurumadı. Bu nədir ki?! Sən birini görmüsən. Mən isə birdən-birə doqquz yüz qırx yeddisini birdən görmüşdüm. Özünü ələ al, övlad! Özünü unutma, övlad! Bunu da unutma, övlad!

Ətrafda söz-söhbət gedirdi. Qorxudan, həyəcandan dilləri topuq çalan susqunlaşmış kəblayılar eşitdiklərini bir-birinə danışırdılar.

– Deyir guya rüşvət alıb, ona görə şaqqalayıblar...

– Eh, yalansa onu deyənin saqqalı ağarsın. Kişi, inanma! Padşahın özündən tutmuş bütün əmələcatınacan, vəzir də, vəkil də rüşvətxordu; bəxşiş, hədiyyə adıynan dərbara işi düşənləri soğan kimi soymasalar ürəkləri uf deməz. Onda gərək elə əvvəlcən onlardan başlayalar. Bir işim düşmüşdü o irəli dərbara. Ticarətimə görə. Mən bildim nə çəkdim. Axırı mən başa düşənəcən, boğazlarında qalmışı tıxdıranacan dərimi soydular. Sonra hər şey yerini aldı.

– Düzdü, balam, rüşvət girən qapını döyməzlər.

[1] Yuqoslaviyada kiçik şəhərdir.



– Bəs onda bu bədbəxtə nə olub?

– Deyir, padşahlıqda arvada sataşıb, qıza gözü düşüb.

– Namus məsələsidisə, nə eləsələr yeridi...

– Qanunların qurtardığı yerdə namus başlar...

– İnsana zülm yox, ədalətlə, yaxşılıqla yol göstərmək gərəkdi.

Hər ağızdan bir avaz gəlirdi.

– Gədə, hələ o harasıdı? Deyillər, padşah, vəzirinin arvadıynan yovuqluğunu ört-basdır eləməkçin vəzirin şikəst qızını alıb oğluna.

– Bıy bismillah!.. Balam, bəs oğul ona yiyə durub, necə qəbul eləyib?

– Hünəri nədi, qəbul eləməsin. Padşahnan padşahlıq eliyəcək?

– Atasıdı axı?

– Nolsun, çarəsi nədi? Bir də ki, şəriət dörd arvad almağa izin verir. Bunda görmədiyini o biri arvadlarında görər. Bir də ki, saray cariyyəynən doludu, bunda tapmadığını onlarda tapar.

– Hə, balam, sən öz qayduva qal. Kəsək oturub daş üçün ağlamasın.

...Şəhərkənarı yarıuçuq, yappa, baxımsız, qapısı pərdə, pəncərəsiz, çiy kərpic evlər artıq dalda qalmışdı. Qəsəbənin qismən abad evləri başlanmışdı. Qəribəsi də buydu ki, karvan şəhərciyin içindən keçib gedirdi. Bu başdan o başa. Sonra o bir başda, meydanın ayağındakı karvansaraya girirdi. Beləliklə də, qəsəbə geniş karvan yolunun iki tərəfinə səpələnmişdi. Hər iki tərəf də xırda dükanlardan ibarət idi. Yol boyu qızğın alver gedirdi. Heç kəs heç kəsin dərdinə qalmırdı. İllah da ki, darvazanın, yəni baş yolun əvvəlində nəhəng alaqapının cəhənglərinə vurulmuş o cənazə... Deyəsən heç kəsin yadına düşmürdü. Arabir qəsəbə üstündən dəhşətli qarıltı ilə uçuşan qarğalar, iri kölgə salıb tək-tük toyuq-cücəni və xırda uşaqları qorxuya salan quzğun kölgələri darvaza qənşərindəki faciədən xəbər verirdi.

Hər tərəf dilənçilərlə dolmuşdu. Hər löyün geyimdə. Tamamilə löyünsüz geyimdə. Əbanı çarşaba çevirmiş, belinə bir uşaq sarımış arvadın hər iki tərəfindən birər uşaq sallanmışdı. Uşaqlar dünyaya gəldikləri geyimdəydi, his-pas, çirk içində sifətlərinin rəngləri bilinmirdi. Arvadın başında müxtəlif cır-cındırdan vurulmuş dingələr qəribə bir əlvanlıq təşkil edirdi.

Qolsuz, burunsuz, ayaqsız bir-birinə təkyə etmiş dilənçilər dəstəsi kərbəlayıları tanıcaq milçək qana cuman təki karvanın üstünə tökülüşdülər. Zarıltı, yalvarış, sızıltı aləmi başına götürmüşdü. Ağız deyəni qulaq eşitmirdi. Sədəqəni kimə verdin, kim qaldı, bilmirdin.

Elə bu vaxt dəstəni əhatə edən dilənçilərdən biri Baba Sakitin nəzərini cəlb elədi. Bədbəxt adamın cındırından cin ürkürdü. Dilənmirdi. Əlini bir-birinin üstünə qoyub maddım-maddım baxırdı. Baba Sakit bu yollarda həmin dilənçiyə çox rast gəlmişdi. Cavan dostunun fikrini bayaqkı mənzərədən bir az yayındırmaq, amma düşüncələrinin istiqamətini daha da müəyyənləşdirmək üçün gəncin diqqətini bu dilənçiyə cəlb elədi:

– Ona bax, sağ əli biləngindən kəsilib. Oğurluq üstündə. Bu yerlərdə oğrulara belə cəza vermək dəbdi. Oğurluğu üstündə sabit olan adamın cəllad sağ əlini biləngindən vurur, elə oradaca dağ yağa batırır. Gözümlə görmüşəm belə bədbəxti. Elə bilmə ki, mən oğurluq tərəfdarıyam. Yox, həqiqətən oğruya nə cəza versən, başqasının min zəhmətlə qazandığı əmlaka göz dikənin gözünü də çıxarsan, mənim fikrimcə yeridi. Amma əsil böyük oğrular qalır, bunun kimi xırda-xuruş cəngə keçir. Əsil böyük oğrular rüşvət verib aradan çıxır, bu bədbəxt isə şah bağından bir alma üzübmüş. Xalqın canına, malına, irz-namusuna qəsd eləyən böyük oğrular qalır, gizlədilir, bunun kimisi girə keçir. Camaata özlərini ədalətli göstərmək istəyənlər bu xırda-paranı ələ verirlər, pişiyi döyüb gəlini qorxuzmaq istəyirdilər.

Dilənçi xəcalət içində sol əlilə sağ "əlinin" üstünü örtüb durmuşdu, müxtəlif yalvarıcı səslərlə dilənmədiyi üçün girinə bir şey də keçmirdi. Ürəyi yuxa kəblayılar "Kəblayı, Allah ziyarətini qəbul eləsin! Kəblayı, Allah cənab Əliəkbərə bağışlasın! Mənə bir çörək pulu! Zəliləm, fəqirəm, möhtacam, kəblayı!" deyənlərə daha çox sədəqə verirdilər.

Baba Sakit əli kəsiklə bərabərləşəndə, onun belinə bağlanmış balaca, içi boş quru tamaşaqabağı nə isə atdı və dişləri arasında yalnız onun eşidə biləcəyi bir səslə dedi:

– Xalqdan yox, xaliqdən utan. Xalq görməyəni xaliq görür.

...Qəsəbənin ortası qələbəlik idi. Karvansaranın önündə gəzəri qaragöz dəstəsi meydan tamaşası verirdi. Dövrələrində bir xeyli bekar toplanmışdı. Qaragöz, keçəl, kosa hansı bir məhəlli hadisəni isə canlandırmışdı, indi pul yığmaqla məşğul idilər, bir tərəfdə isə kisvə[1] geymiş iki gənc güləşirdi.

Elə bu zaman qəsəbə axundu Seyid Səfər Əbapuş aralıda ağ bir ulaq üstündə göründü. Tamaşaçılar dərhal meydanın kənarına tərəf çəkilib "cinayət" üstündə, yəni hoqqabaza tamaşa edən yerdə axundun

[1] Türk pəhləvanlarının geydiyi qısa, dəri şalvar



gözünə görünmək istəmədilər. Elə oyunbazların özü də dalda yerə çəkildi. Heç kəs Seyid Səfər Əbapuşun qəzəbinə düçar olmaq istəmirdi. Seyidin bu qəsəbədə qılıncının dalı da kəsirdi, qabağı da. İndi görünür, meydandan keçib qəsəbə məscidinə yollanırdı. Meydanda təkcə su satanlar, tabaqçılar, səyyar qənnadı, meyvəsatanlar qalmışdı. Yuxulu-yuxulu ora-bura sülənən itlər belə quyruqlarını böyürlərinə qısıb kölgəyə çəkildilər. Onlar da axundun süpürgəçilərini, ulağının ovsarını çəkənləri, onu ulağa mindirib düşürən möminləri yaxşı tanıyır, təpik yemək istəmirdilər.

Kəblayıların bəzisi yolüstü seyidə təzim edərkən, Baba Sakit dərviş gənc dostuna deyirdi:

– Əba-qəba və əmmamədə deyil kəramət, kəramət insanın özündədi, övlad, insanın özündədi kəramət.

Karvan qəsəbə meydanının günçıxanında yerləşən karvansaranın önündə dayandı. Dəvələr lökküldədi, ulaqlar anqırdı, atlar kişnədi. Yükünün, əhl-əyalının qayğısına qalan insanlar bir az əvvəl qəsəbə darvazasının hər iki tayına asılmış insan cəsədini unutmuşdular. Hərə öz işindəydi. Boğazı tikilən, Baba Sakitin bayaqdan bəri söhbətlərinə bircə kəlmə cınqırını çıxardıb cavab verməyən Zeynalabdin, keyimiş kimi dərvişin kirələdiyi hücrəyə doğru irəliləyirdi.

## MƏKTUB

Məşədi Səməndər Kərbəladan qayıdanların görüşündən çox fikirli gəlmişdi. Axund İskəndərin məktubu onu qəm dəryasına salmışdı. Doğrusu, uşaq vaxtı qızı Telizər ilə Zeynalabdini göbəkkəsmə elənmələri lap yadından çıxmışdı. Çoxdan idi ki, ailədə bu barədə söz olmurdu. Atası öləndən sonra bircə bacısı Şirinbəyimin ərindən ara-sıra məktublar alırdısa da, ağırtəbiətli axund uşaqların gələcəyi haqqında bir kəlmə də yazmırdı. Elə məktubun sonunu "Ev əhlindən, uşaqlardan, xahərinizdən[1] cümlənizə salam-dua var" sözlərilə bitirirdi. Özü də hər dəfə çavuş səsi eşidən kimi məhləyə çıxır, Kərbəlaya gedənlərdən yaxın adam varsa onunla, yoxsa elə çavuşun özü ilə bacısı ərinə məktub yazır, arada Şirinbəyim üçün Şamaxı kəlağayısı, Basqal alınlıq çərtməsi göndərirdi.

[1] Bacınız

Amma bu gün aldığı kağız irəlikilərin heç birinə bənzəmirdi. Axundun məktubunda bu dəfə bir hərarət duyulurdu. Axund İskəndər yazırdı: "... Bəradər, xahəriniz çox darıxır. Bizim əqrəbadan bir qismi – ona yaxın olan zənən – uşaq Şirvana qayıdandan sonra qəlbinin qərarı kəsilib. Nökəriniz və xahərzadəniz[1] Zeynalabdin də həddi-büluğa çatıb. Burada və Darüssalamda[2] təhsilini ikmal edib.[3] Odur ki, xahəriniz xatirinizə bir əhdü-peyman salır. Bu gələn səfər Kərbübəladan qayıdan zəvvar ilə xahərzadənizi qulluğunuza irsal[4] edəcəyəm. Xahişimiz budur ki, onun deyiklisi ilə xeyir işini təmamə yetirib, şəri qanuni[5] icra etdirəsiniz və münasib bildiyiniz dəstə ilə Kərbəlayə azim[6] olmalarına şərait yaradasız. Bacınız nəhayətdə bu məsələdən ötəri biqərardır. Ümidvarıq ki, lazımi hazırlığı görüb, inşallah xəhərzadənizin gəlişinə müntəzir olacaqsınız..."

Kişi evdə məktubu oxuyanda və məzmununu arvadı Soltanbikəyə başa salanda, arvad od götürdü:

– Necə? Necə? Bir Şirinbəyim cəlayi-vətən oldu, el-obasından, qohum-qardaşından aralandı, Kərbəla dustağı oldu, bəs eləmədi?

– Kəs...

– Nə kəs, ay kişi, nə kəs? Dədən rəhmətlik öləndə də axır sözü Şirinbəyim oldu. Yeddi qardaşın bircə bacısını qoyduz sapanda, atdız diyarbadiyar.

– Arvad, ağzın əyilər, küfr danışma...

– Ağzım əyilər, cəhənnəmə-gora əyilsin. Bunun nəyi küfürdü? Mən anayam. Gözüm görə-görə balamı qürbətə ata bilmərəm. Dəli-divanə ollam. Çərləyib ölləm.

– Finnara çərlə. Qızımı qürbətdə sinədağlı bacıma qurban deyirəm, yolunda qurban kəsirəm. Qərib bacıma. İbrahimin İsmayıl qurbanı kimi...

– Bəs mən? Ölləm.

– Ölməzsən. Sənin yanında mən varam, o biri uşaqların var.

– Onun da yanında əri, oğlanları var...

[1] Nökəriniz və bacınız oğlu
[2] Bağdad
[3] Bitirib
[4] Göndərmək
[5] Kəbinin kəsdirin
[6] Yola düşmək



– Sənin yanında qohum-əqrəban, öz dilində danışan el-oban var. Sənin yanında Vətən var. Sən Vətən qoynundasan. Bacım orda təkdi. Qız da əvvəldən göbəkkəsmədi...

– Kaş olmayaydı. O günə daş düşəydi. Kimin dilinə gəlmişdisə o göbəkkəsmə sözü, dilini şahmar ilan çalaydı.

– Ay tünbətünün nəvəsi, elə bil heç doğmamısan. Elə bil Allah vermişdi, Allah da alıb. Hüseyn yolunda. Bəlkə ağaları çağırır onu. İmam qulluğuna gedir.

Bədbəxt ana deməyə söz tapmayıb üzə durdu:

– Xələt, barat, mükafat deyib, gül kimi balamı tutuzdurum əlinə ki, götür apar dünyanın o başına?

– Kərbəlaya, Hüseyn qulluğuna, ay nacins! Hamı sənə bəxtəvərlik eləyir, arzısındadı...

– Arzısında olanlar gedib qayıdacaq. Kəlbayı olmaqçın gedir onlar. İllər ayrısı olmağa getmirlər. Kişi, o dünyada səndən peyğəmbər balasına şikayətçi olacam. Həzrəti Fatimə ananın ətəyindən tutacam. Deyəcəm: bu ata deyildi, daşdı-dəmirdi. Balasını bacısına qurban elədi. İstəməyə-istəməyə, gözüyaşlı qoydu, elindən-obasından didərgin saldı. İstəklisini də yandırdı, balasını da. Mən bədbəxt ananı da... Kişi, üzün Fatimeyi-Zəhra yanında...

– Ana sözünü qurtara bilmədi. Ağzına dəyən şillə dodaqlarını qana boyadı.

...Qardaşların yeddisi də bir yerdə Məşədi Səməndərgildə şam eləyirdi. Soltanbikə qayınları üçün şamkababı bişirmişdi. Döymə ətdən xırda tavakababları düzəldib qızartmış, üstünə xeyli ayrıca qızartdığı soğan əlavə edib sirkə-şirə gəzdirmiş və vam odda saxlamışdı. İndi də qayınları onu vaxtilə baharda gəlin gəldiyi üçün "Baharcan" adlandırdıqları Soltanbikənin bişirdiyi şamkababını ləzzətlə yeyirdilər.

– Bəs nə yazır o axund ağa?

– Ağalığı onun təpəsinə dəysin, axundluğu da üstəlik. Bacım nə təhərdi?

Sualı verən kiçik qardaş Dövran idi. Elə o vaxtdan axunddan xoşu gəlmirdi.

Məşədi Səməndər məktubu oxumağı şam yeməyindən sonraya qoymuşdu. Dövranın qanqaralıq salacağını bilsə də, kiçik qardaşının xətrini istədiyindən sərt cavab vermədi, süfrə üstüydü.

– Qoy süfrə yığılsın, Dövran oxuyarıq. Ayrı məsləhətim də var.

Dövranın tikəsi boğazında qaldı.

– Əgəmləri[1] sənin məlahətin o axundun bir işiynən bağlıdısa, qabaqcadan mən pəs.

Onlara qulluq göstərən Soltanbikə qaynının sözünü eşitcək, az qala, əlindəki qabı sevindiyindən salıb sındıracaqdı. "Sənə qurban olum, balaqardaş! Dərdin ürəyimə gəlsin. Balamın pənahı olasan balaəmi!"

Böyüklər məsləhətə çağırdığından Telizər o biri uşaqlarla birlikdə dəhlizdə şam eləyirdi. Kərbəladan, bibisigildən məktub gəldiyini və əmilərinin bu məktubu oxumaq üçün yığıldığını bilirdi. Amma neyçün məktub gizlində oxunacaqdı? Bir halda ki, Bircəbibidən gəlib, qardaşları da bu adını eşidib, üzünü heç vaxt görmədikləri Bircəbibini uzaqdan-uzağa sevirdilər... Telizər hərdən Bircəbibidən gələn töhfələri də alırdı. Amma ha çalışırdısa, yadına sala bilmirdi. Bibisi Şirvandan gedəndə qız təzəcə üç yaşına girmişdi. Amma atası da, əmiləri də, anası da, lap elə yaxın qohum-əqrəbadan qoca qadınlar da hərdən-hərdən Telizərin üzünə uzun-uzadı, maddım-maddım baxır, sonra da doluxsunub deyirdilər:

– Qız böyüdükcən necə də Şirinbəyimə oxşayır!

Sonra da məhəbbətnən qızın alnından öpürdülər.

– Elə bil qərib-qürbətə düşmüş Şirinbəyim fağırı öpdüm. Anası ölsün, necə də ki çərləyib öldü. Allah atasına insaf verəydi, bircə qızı dərbədər saldı. Qulağı cingildəsin Şirinbəyimin, – deyirdilər.

...Bu gecə məsləhət gecəsiydi. Həm Kərbəladan Bircəbacıdan gələn məktub oxunacaq, həm də Telizərin Zeynalabdinə verilmək məsələsi danışılacaqdı.

Süfrə yığıldı. Soltanbikə çölə çıxıb süfrəni çırpanda, haradasa qonşulardan birində namaz qılan kişi səsinin ucadan azan-iqamə söylədiyini eşitdi. Bu səs arvadın ürəyinə Allahın sədası kimi dəydi. Üzünü qaralmaqda olan göylərə tutdu:

– Ey bu azanın sahibi, ey uca göylərin kərəmi bir Allahı, ey qəriblər pənahı, ey əlsiz-ayaqsızlar ümidi, gözəl Allahım, böyük Allahım, xaliqim! Sən mənim balama rəhm elə. Atasının ürəyinə rəhm sal, rəhim Allah, kərim Allah, cabbar Allah, gözəl Allah!..

Arvadın öz Allahı ilə söz-söhbəti çox idi. Amma içəridə məsləhət başlana bilərdi. O isə bir kəlmə də ötürmək istəmirdi. Cəld süfrəni bir də silkələyib qayıtdı, Telizərin əmiləri və atası üçün süzdüyü çayları siniyə yığıb içəri keçdi. Piyalələri bir-bir əri və qaynılarının qənşərinə

[1] Əgər



düzüb, qapının sağ cəhəngində əyləşdi, dizlərini qucaqlayıb büzüşdü. Arvadın pəjmürdə, pərişan halı Dövranın nəzərindən qaçmadı. Bu ata evindən ən axırda o evlənib ayrılmışdı. Baharcandan da çox hörmət və məhəbbət görmüşdü. Yerində qurcalandı, nə isə xoşagəlməz bir hadisə baş verdiyini duymuş kimi dedi:

– Baharcan, orda neyşə elə büzüşdün? Azarramısan yoxsa?

Qardaşlar hamısı qadına tərəf dönəndə, Məşədi Səməndərin acıqlı səsi eşidildi:

– Azarrayıb eləməyib. Qarınağrısı ayrıdı. Qulağınız məndə olsun, – bu sözlərlə də Məşədi Səməndər əlini qara sətin arxalığının cibinə saldı, dörd bükülü bir kağız çıxarıb dedi:

– Əvvəlcən Şirinbəyimin kağızını oxuyuram sizə... Şeirdi. Bunu heç özüm də təklikdə oxumamışam. Dedim birgə...

Məşədi Səməndərin qəsdi özgəydi. Düz demirdi. Şeirdən halıydı. O, bacısının qəmli kağızını əvvələ salmışdı ki, onların qardaş ürəyini yumşaltsın. Axundun məktubu üçün. Telizər məsələsi üçün hazırlıq görsün. Odur ki, özünə yaxşı məlum olan şeri bir qədər də titrək səslə oxumağa başladı:

Qürbət qəmi əcəb büküb belimi
Qardaş, salamımı Şirvana yetir.
Bu ayrılıq kəsib mənim əhdimi,
Qardaş, salamımı Şirvana yetir!

Dövranın kövrək səsi eşidildi:

– Can, Bircəbacı, can!

Qapının cəzəngində oturan Soltanbikənin çənəsi dizlərinə söykəndi. Çiyinləri əsirdi.

Məşədi Səməndər oxuyurdu:

Öpüb-öpüb torpağından doymadım,
Gül-çiçəyin yaram üstə qoymadım,
İmam qulluğunda gülün iylədim,
Qardaş, salamımı Şirvana yetir!

Yaz olanda çiçəkləyər bağları,
Al-yaşıl geyinər uca dağları,
Telizər balama al duvaqları,
Qardaş, salamımı Şirvana yetir!

İndi bu ölüsüz yasxanaya bənzəyən otaqda Soltanbikə ilə Dövranın hönkürtüsü bir-birinə qarışmışdı. Dövran həsrət üçün ağlayır, "Telizər-duvaq" fikrinin hələ ona çatmadığı aydın idi. O biri qardaşlar da ucadan hönkürməsələr də yaylıqlarını ciblərindən çıxarıb gözlərinin üstünə basmışdılar. Məşədi Səməndər oxuyurdu:

Qardaşlarım bir qapıdan girəydi,
Giribəni dərdi-dilim biləydi,
Dövran mənə oğul toyu quraydı,
Qardaş, salamımı Şirvana yetir!

De ki, Şirinbəyim həsrətdi sənə,
Qəmli, qərib qızın möhnətdi sənə,
Yad ellərdə ölsəm, bu dərddi sənə,
Qardaş, salamımı Şirvana yetir!

Hönkürtü ucalmışdı. Dövran əlini dizinə çırpıb yana-yana deyirdi:

– Can, Bircəbacı, Dövran hardan qapından girsin? Tabaqçılığınan nə qazanır ki, Kərbəlaya gedə? Sənə oğul toyu eləyə?

Məşədi Səməndər bir qədər ara verdi:

– Di bəsdi, arvad, yasxana açma! Xeyir işə məğlətə salma, lənətüllah! Ağlamaqçın imam təziyəsi var, get nə qədər istəyirsən, döy boş başuva, ağla imam yolunda.

Dövran böyük qardaşının nə üçün arvada acıqlandığını başa düşmürdü. Axı o ki, baldızının – bacımızın halına ağlayır. Elə o da imam müsibətidi. Gözünü silib dizləri üstünə dikəldi:

– Ağa dadaş, neyşə Baharcanıma acıqlanırsan, neyniyib ki?

Kişi yenə də qəzəblə səsləndi:

– Özü yaxşı bilir. Di bəsdürün. Qulaq asın, Axund yeznənin kağızını oxuyum.

Və oxudu. Və elə bil Dövranın dövranı çöndü.

– Necə? Necə? Elə bir bu çatışmırdı? Qürbətə Bircəbacım düşüb az çərləyib, indi də qızı bədbəxt eləyək?

– Bədbəxt neyşə? Qoy bir Zeynalabdin bacoğlu gəlsin, baxaq, görək. Bəlkə elə layiqli oğlandı?

– Layağı onun dədəsinin təpəsinə dəysin.

Soltanbikə ürəyində qayınlarına dua eləyirdi: "Allah sizə də, balalarınıza da qıymasın, ay əmilər".



– Bir də qızın dayıları, xalasının əri var... Ağsaqqal-qarasaqqal var. Yığ hamısını məsləhətə...

– Mənim sözüm yoxdu. Lap bütün dünyanı istəyirsiz, yığım məsləhətə. Mənim bircə axır sözüm olacaq: qız bacımındı. Həm göbəkkəsməsidi Zeynalabdinin ona görə, həm də Şirinbəyim orda təkdi. Qızı ona qulaqyoldaşı verirəm. Mən onu gözüyaşlı qoya bilmərəm, ay qardaşlar, başa düşün! Elə bilin bacımız bizdən qurban istəyir. Bir qızdan ötəri Kərbəla kimi yerdən, Hüseyn qulluğundan gələn kağızı, xahişi rədd eləyim?

Söz bu yerdə qaldı. Çaylıya – Soltanbikənin qardaşlarına və bacısı ərinə də xəbər elənsin. Böyük külfətin, hər iki tərəfin əqrəbası toplansın, bir də məsləhət elənsin. Zeynalabdin gələn karvan Şamaxıya çatanacan hazırlıq görülsün. Məşədi Səməndər bu yerdə bir də yalan danışmağa məcbur oldu ki, arvad əvvəl dediyinə inansın:

– Dövran, axund mənə bir miqdar pul da göndərib hazırlıq, bazarlıq üçün. Cehizi özüm düzəldərəm. Bircə bacın oğlunun toyunu sənin boynuna qoyub. Bazarlıq sənin öhdənə düşür. Zərgərdə, bəzzazda ismarışlarım üstündə gözün olsun.

Dövran həm bacısı, həm də qardaşı balalarının xeyir işində dava, qanqaralıq salmağın yaxşı əlamət olmadığını bilsə də, yerindən durdu; nə hə, nə də yox demədən, dodaqaltı deyinə-deyinə məsləhət məclisini tərk edib, getdi.

## ATA

Elə o gündən kişi hazırlıq işləri görməyə başladı. Ata qəlbi Soltanbikə ananın kədərini duyurdu. Amma əlacı yox idi. Onun üçün də Telizərdən ayrılmaq çətin idi. Amma istəkli, bircə bacısı yadına düşəndə əynində köynəyi də yanırdı: "Bir qız nədi ki, bacımın – özü də Şirinbəyim kimi bacının sözünü yerə salım? Qardaşlarım nə deyər? El-oba nə deyər? Qohum-əqrəba, yad-biganə nə deyər? Deməzlərmi ki, Məşədi Səməndər bir qızı bacısına qıymadı, göbəkkəsməsindən ayırdı, Hüseyn qulluğuna, Kərbəla kimi yerə gətirməyə qoymadı? İmam yolundan saxladı? Bəlkə Allah eləməmiş, hələ bunun xatası o biri balalarıma da keçər, imamın qəzəbinə düçar olarlar".

Kişi bütün bu fikirləri ürəyində dolandıra-dolandıra həftəbazarında tərəkəmələrdən yun aldı, yorğan-döşəkçin, yastıq, dirsəkaltı, qayınana

döşəkçəsiyçin, nimdərlərçin. Başqa bir gün də arşınmalı satan tacirlərin yanına – bəzzazbazara getdi. Yorğanüzü üçün qanavat, heyratı ipəklərdən, döşəküzü üçün al, abı məxmərdən, yastıq üzləri üçün əlvan xaralardan aldı. Oğlanın valideynləri burda olmayacaqdı. Bacısı oğlu ilə qızının toyunu özü tutacaqdı, deyə gəlin bazarlığı da elədi. "Nə bilmək olar, Axund ağa ordan oğluna gəlinçin nə göndərəcək, nə göndərməyəcək. Mən Şamaxı arvadları, qız-gəlinləri içində nə qızımı, nə də anasını xar eləyə bilmərəm". Bu fikirlə də kişi zərgər Məşədi Yusifə qızıl bilərzik, sırğa, üzük, ətəkli, telbasan və başqa xırım-xırda sifariş elədi. Bəzzazdan tumanlıq məxmər, arxalıq üçün kimxa, köynək üçün qanovuz, zər butalı al bənarə örpək aldı. Bütün bunları oğlan evi adından xonçaya qoyduracaqdı.

Soltanbikənin yanğısı sönmək nədi, heç yavaşımaq, koruxmaq da bilmirdi.

– Xeyir başımıza. Gül kimi, xanlara layiq qızımızın bazarlığını da özümüz eləcəyəkmişik. Hər şey Axund üçün havayı keçəcəkmiş. Xələtbarat-mükafat! Ay axund, oxuduğuna qurban olum, al, bu sənə on beş il əməyin çəkdiyim qız, bu da üstəlik bazarlığı, zəhmətini çək qəbul elə, başımızı ucalt...

– Seyrəkləmə arvad, pulu bazarlıq üçün axund özü kağıznan birgə göndərib ki, nə gərəkdi özümüz bu yerin dəbiynən alaq.

Arvadının inanmağı gəlmirdi.

– Sən dedin, mən inandım. Desənəm bacım Şirinbəyimin bircə canıyçın bu pulu o axund göndərib?

– Bircə sənə andım qalıb, cəhənginin çıxmağını istəyirsən, yoxsa?

Kişi yalan danışmaq bacarmırdı, yalanın üstündə dura bilməyəcəyindən, işin açılacağından qorxub qəzəblə qapını çırpıb, evdən çıxdı.

* * *

Böyük məsləhətə çağırılan çox olmağına görə kənd qohumları bölgü olub, hərəsi yeddi qardaşdan birinin evinə düşmüşdü. Amma Çaylıdan gələn Reyhan gəlin öz hörmətli ərilə birlikdə Məşədi Səməndər kişigilə gəlmişdilər. Bacılar çoxdan görüşməsə də bir-birindən xəbərdar, bir-birinin dərdindən, sirr-sözündən hali idilər. İş-gücü bərabər görür, axşamkı məsləhətə çağrılanlar üçün yemək hazırladıqca dərdləşirdilər. Reyhan gəlin gələn kimi məsələni bacısından öyrənmişdi. İndi kişilərdən heç kəs evdə yox idi. Toy sözü deyiləndən bəri gözlərinə



güc vermiş Təlizər həyətdə qab sürtürdü. Bacılar evdə onları eşidən olmasa da pıçıltıyla danışırdılar, Soltanbikə deyirdi:

– Reyhan, qız özünü tələf eləməsə yaxşıdı. Yamanca dərdə düşmüşəm, neynim, – bilmirəm.

– O canıyanmış baldızın bu nə işdi qurayıb? Şahdan buyruq çıxıb?

– Qurayıb-eləməyib. Doğrudan da elə çoxdanın sözüdü. O vədə ağlım özümdə deyildi, Telizər doğulanda Şirinbəyim başımın üstündəydi. Vallah, yaxşı yadımda deyil, rəhmətlik qayınanamdı bilmirəm, ya mamaça Məşədi Ağbacıydı bilmirəm, hansısa dedi ki, gəl göbəyin Şirinbəyimin oğlu Zeynalabdinin adına kəsək. Kəsdilər də... Qızın sarışın saçına baxıb, elə adını da bibisi özü Telizər qoydu.

– Nə olsun, o canıyanmış qürbətdə nə çəkdiyini özü bilmir bəyəm?

– Sən allah, Reyhan, canıyanmışı az de... Yazıqdı. O özü də elə bədbəxtdi ki, cəlayi-vətənin biridi.

– Taxt üstə qalsın onu. Bəs qardaşı balasına neyşə qıyır?

– Axı göbəkkəsməsidi...

– Sağ olmayaydı. Özünə qulaqyoldaşı istəyir. Cəhənnəmə gedən yoldaşını özündən çox istəyər.

Soltanbikə xoflandı:

– Ay ağılsız, nə danışdığındı? Sözüvün nə behi var, nə baratı. Arvad İmam Hüseyn qulluğundadır. Ağzın əyilər. Sən də gör bir nə deyirsən. İraq-iraq...

Reyhan özü də deməyinə peşman olmuşdu:

– Neynim, ay bacı, beçara qıza yazığım gəlir. Dilim deyəni ürəyim yandığından deyir. Əstəğfürullah, Allah özü bağışlasın. Yaxşı, bəs neynəyək indi?..

– Heç bilmirəm... Bura bax, Reyhan, səni and verirəm Həzrət-Abbasa, o balalarının canına, sənə bir sirr açacağam. Nə diş bilsin, nə dodaq.

– Soltanbikə ətrafına baxınıb səsini bir az da qısdı.

Reyhan maraqlandı və bacısını arxayınlaşdırmağa çalışıb dedi:

– Nə danışdığındı, bacı? Dilim kəlməyə gəlməsin, əgər bir bıçaq da dodağımı açsa. Sözünü de.

– Bilirsən, qızın könlü qonşumuz Türfə arvadın nəvəsi İrəhimdədi. Göz qoymuşam, görmüşəm ki, gedə də buna hayıl-mayıldı.

– Bıy, Allah xoşbəxt olanlardan eləsin!

– Hardan? Hardadı məndə o baxt.

– Bəlkəm Allah irasta saldı, bu gecə məsləhətdə söz pozuldu? Axı bizim kişi heç bu məsələyə razı deyil. Sənin ərin də onun sözünün

qabağına söz deməz. Evə qayıdanda xəlvətə salıb ərimə deyərəm ki, sözünün üstündə möhkəm dursun.

– Yox, – Soltanbikə başını buladı, – ondan bir şey çıxmaz. Allah ərindən razı olsun. Amma bu xına o xınalardan deyil. Məsləhətdən keçib. Məşədi dediyindən dönməyəcək. Deyir, qızı bacıma qurban verirəm. Qardaşları da çox dedi, illah da bala qaynım Dövran, qadasın aldığım! Amma hamısı Bircəbacını çox istəyirlər. Bir kağız yazıb, oxumağını eşitsən, gözündən ümman yaş gedər.

– Yaxşı, bacı, ağlıma bir şey gəlir. Əgəm sən o İrəhim oğlana yaxşı bələdsənsə...

– Bıy, gül kimi uşaqdı. Əlində sənəti – papaqçıdı. Savadı – Quran qurtarıb. Salamlı-kalamlı, dili-tavazalı. Allah bədnəzərdən saxlasın.

Reyhan xeyli susdu. Birdən ağlına bir şey gəlmiş və qət etmiş adam kimi, kimdənsə intiqam alan kələkbaz kimi qəhqəhə çəkib güldü və tezcə də səsini qısıb bacısına sarmaşdı:

– Başına dönüm, indi ki elədi, onda xəlvəti çağır oğlanı bir daldaya. Danış, biliş! Fikrində möhkəmdisə, qızın əlini ver əlinə, sal yola.

Soltanbikənin ürəyi atlandı:

– Hara gedəcəklər? Elnən bir olduq. Kişinin göbəkkəsmə qızı qoşulub qaçıb.

– Özgə yerə nöş getsinlər? Göndər bizə. Heç bir biyabırçılığı da olmaz. Mənim ərimə pənah gətirənə heç kəs heç nə eləməz. Özü seyid-peyğəmbər övladı. Adı-sanı. Bir də xalası evindən çıxan qıza heç bir üzüqaralıq da yaxılmaz. Lap elə adətiynən aşıqlı-zaddı toy elərəm. Yengə-dərnə qoşaram. Üzüağlığını aləmə car çəkdirrəm.

Soltanbikəni fikir götürmüşdü:

– Baş tutsa, yaxşı şeydi. Amma sonra Məşədi həm sizinən qanlı-bıçaq olacaq, həm də bu işdə mənim barmağım olmağını bilib, kələkimi kəsəcək.

– Aaaz... neynəyəcək sənə Məşədi Səməndər? İntəhası bir beş-altı qapaz ilişdirəcək. Biz arvadları Allah elə döyülməkçin yaradıb. Bir də istəyən ərin qapazı arvada tumardı...

– Yox, iş qapaznan qurtarmayacaq. Sən onu yaxşı tanımırsan. Bacısının arzusunu ürəyində qoydurduğumuza görə qorx ki, məni də boşayıb, sənin qapına göndərməsin. Onda məni nə deyib oxşayacaqsan? Amma neynim? Hər şeyə dözərəm, Telizər ayrılığına tablaşmaram.

Ananın səsi titrədi, ağlamağa başladı. Reyhan da dolmuş gözlərini köynəyinin qoluyla silib səsləndi:



– Sən yurdda qalmış, mən cana doymuş. Nə olacaq olacaq. Ağlamağın yeri deyil. İş gör, iş olsun. Qızınan mən danışaram. Duyuq sallam onu. Sən oğlanı danışdır. Mən tanımıram.

– Bir Allah bilir ki, balam dərdi olmasaydı, çörəyini yediyim, hələ bir hərzə-hədyan eşitmədiyim Məşədi Səməndərin sözünün qabağına çöp uzatmazdım.

– Aaz, vallah axırı yaxşı olacaq. Beş-altı ay keçəndən sonra ata ürəyidi, yumşalacaq, mum kimi olacaq. Barış-görüş olacaqsız, vəssalam...

– Bəs Şirinbəyim? Ordan bura yeddi qardaş üstünə oğul göndərir toy eləməyə... Əvvəli meydan, axırı zindan Şirinbəyim...

– Onun da dərdi sənə qalıb? Ölənə mürdəşir, qalana yengə olma! Nə çoxdu Şirvanda qız. Qabağına düşüb bir halal südəmmiş yetimdən-yesirdən taparsız, alarsız, salarsız yola. Telizəri görməyib, heç arvadın özü də bapbalaca görüb qızı. Ona qürbətdə qulaqyoldaşı lazımdı. Ala, o da bu...

Reyhan elə danışırdı ki, söhbətdə hər şey asan düzəlirdi.

– Kaş dediklərin baş tuta.

– Tutar, tutar. Sən əlli tərpən. Allahdan buyruq – ağzıma quyruq eləmə. Allah səndən hərəkət, məndən bərəkət deyib.

– Sözün yerin alsın, oruc tutaram, nəzir verərəm.

– Mən də üç gün Fatimeyi-Zəhranın vəfatı günü təziyə saxlayıb, "allahaşı" paylaram, ayaqyalın.

Susdular. Reyhan soruşdu:

– Bacı, oğlanın anası, atası necə adamdı? Sonra qızı yağışdan qurtarıb, dolu altına atmayaq ha...

– Yox... nə dediyindi? Türfə nənənin gəlini İrəhimin anası ipək kimi arvaddı. Adı da İpəkdi, özü də. Özünün də elə qızda çoxdan gözü var. Anası ölmüşümün xətrin çox istəyir. Hər bayramda min bəhanəynən xonçadan, pay-paradan göndərir. Arabir "belə gəlinim olaydı Allahın altında" deyir, – hayıf ki, göbəkkəsməsi var, dilimiz gödəkdi. Gələ bilmirik". Özləri də fığaradılar, heç kəsnən işləri yoxdu. Dədə-baba papaqçı olublar. Ev-eşikləri, bir parça çörəkləri var.

– Olsun, olsun. Onda sözümüz sözdü. Əvvəl-axır bu canın bir yiyəsi olacaq. Bu gecə mən Seyidqulunu sovxaşdıracam Məşədinin canına. Tutdu aşım suyu, tutmadı başım suyu. Onda dediyimizi elərik sabahdan. Qoy o Kərbəla yolçusu gəlsin görsün ki, yel əsib yengələr oynuyur: oba köçüb, yurdu boş! Onda məcbur olacaq kimi desəz, onu da alıb çıxıb gedəcək. Layaqlı toy da elərsiz gedər.

– Təki sən deyən olsun.

– Olar, olar, inşallah! Allah nəzirimi yerdə qoymaz! Mənim hələ bircə aliahaşı nəzirim qəbulsuz qalmayıb!

Soltanbikə üzünü qibləyə çevirib əllərini göyə qaldırdı.

– Ya rəbbim-qiblə, hər kəsin öz əlinin qarasını öz üzünə çək, hər kəsin layağını özünə ver! Özünə əyandı ki, ana ürəyi nələr çəkir! Bala dərdiynən qapı-qapı dilənnəm, gözümdən irağa qoya bilmərəm. Baldızım bədbəxtin nələr çəkdiyini bilirəm. Qıyma balama, ey gözəl Allah! Qıyma ki, istəklisindən qoparılıb Kərbəla çölünün nakam, əsir qızları, imam balalarının gününə düşsün. Yandırma məni, ilahi, yandırma!

Reyhan hıçqıra-hıçqıra bacısına sarıldı.

– Allah səni yandırmamışdan, sən məni yandırdın. Bəsdi axı! Çarığında əsirgəyən, patavasında çıxar. Sən iş gör, heç nə əsirgəmə balançın, Allah da əsirgəməz. Canım canı dərdindən, yalvarar qanlısına! Canının dərdindən, nə gəlir əlindən onu da elə! Gəlməyəni də elə. Təki balan gözündən uzaq getməsin.

## MƏSLƏHƏT

Məşədi Səməndərin evinin hasarına sarı bir kölgə keçdi. Sonra da on dörd gecəlik ayın dumduru işığından daldalana-daldalana evdən bir qadın aralandı və hasarın bu biri üzündəki tayanın kölgəsinə qısılmış şəxsə yaxınlaşdı. İndi ikisi də ot tayasının kölgəsinə qarışmışdılar. Elə bu anda başları üstündə, hasarın üzərilə yeriyən qara bir pişik bərkdən miyoldadı: "Miyov" səsi hər iki gənci diksindirdi. Bir-birinə uzanmış, amma tutuşmağa cürət etməyən əllər birləşdi. Bərk-bərk. Bu Rəhimlə Telizər idi. Bir neçə vaxtdan bəri seçdikləri taya dibində çiyin-çiyinə yumşaq otun içinə batıb oturmuşdular.

– Miyovv... – pişik daha daha da bərkdən miyoldadı və qara sifətində bir cüt yaşıl işıq parladı.

Məşədi Səməndər nədənsə narahat idi. Həyətə çıxdı, yerdən bir kəsək alıb pişiyə tərəf tulladı:

– Lənətə gələsən, çər dəymiş. Bu nə miyoltudu? Baş-beynimiz getdi. Qoysanam yataq, rahat olaq.

Kişinin səsinə səksəkəli Soltanbikə də həyətə çıxdı:

– Nə var əyşi, nə yeddi qonşunu bizar eləmisən? Pişikdi də... Allahın heyvanı miyoldamasın ki, sən...

– Uşaqlar yatıb? Bayırda qalan yoxdu?



– Yatmamış neynəyəcəklər? Keç içəri, soyuqlarsan, genə öskürəyin tutar. Tiryək zəhrimar da qurtarıb. Qalarsan öhüldəyə-öhüldəyə.

Kişi yenə də pişiyin qarasına deyinə-deyinə içəri qayıtdı. Ana bir az arxayınlaşıb ərinin dalınca getdi.

Gənclərin qorxudan ödü ağzına gəlmişdi. Bir-birinin ürəyinin tappıltısını eşidirdilər.

– Anam yamanca qorxdu...

– Anovun qadasın alım...

Oğlan da, qız da yalnız indicə çiyin-çiyinə əl-ələ olduqlarını duyub utandılar. Telizər cəld əlini Rəhimin əlindən çəkib azacıq aralandı:

– Xalam deyir ki...

– Qadasını alım xalanın, nə deyir?

– Deyir: əgər istəməyin yalan deyilsə...

– Ay insafsız, deyəydin yalan deyil axı...

– Nədən bilirəm?..

Bu ərk də oğlanı incitdi:

– Yanı mənə inanmırsan? Bibin oğlunun gəlməyini eşidəndən az qalmışam özümü həlak eləyəm... Neçə dəfə...

Qız onun sözünü kəsdi:

– İrağ canından. Həlak neyşə? Xalam deyir ki...

– Qız "məni apar" deyə bilmirdi. Utanırdı. Oğlan isə, o da buna cürət edə bilmirdi. Qızı əbədilik itirəcəyindən qorxurdu.

– Nə deyir xalan, dərdin mənə?

– Deyir ki, sən anamnan bir özün danış. Xalam nəysə bir təhər çəkib.

Oğlan yalnız indi anladı ki, Telizər keçən gecəki kimi qüssəli deyil, səsində nəsə bir ümid var.

– Ananla? O mənnən danışar? Utanıram axı...

Qız küskün-küskün dilləndi:

– Onda məndən əlini üz.

– Allah eləməsin.

– Onda anamnan danış. Bizim barəmizdə. Yoxsa, dədəm sözündən dönəsi deyil. Məni bibim oğluna...

– Onun yolu yumrulsun, gələn yerdə.

– Elə demə, bibimoğludu axı...

– Bəlkə meylin onadı?

– Bəsdi, meylim olsa, sənnən burda neynirəm? Amma deyirəm onun da günahı yoxdur. Nə o məni tanıyır, nə mən onu. Bu Allahın yazısıdı, məməm deyir.

– Allah yazıbsa, səni mənə, məni də sənə yazıb, Telizər!

– Onda anamnan danış. Utanıb eləmə, xətrini çox istəyir.

– Qayınanama qurban kəsim.

– Tələsmə.

– Yaxşı, bə nə vədə danışım xalamnan?

– Elə indi. Mən gedənnən sonra, anam bura gələcək. Qoy dədəm əməlli yuxuya getsin, sonra. Gözətlə.

– Sən gedirsən?

– Hə...

Oğlan həyəcanla qızın titrək, nazik barmaqlarından yapışdı. Yox yapışmadı. Toxundu bu barmaqlara. Toxunan kimi də hər ikisinin əli geri sıçradı. Hər ikisinin pozulmamış vücudunu həya təri basdı. Və qız quş kimi uçdu, xəyal kimi gözdən itdi.

Oğlan tayanın dibində tək qaldı... Xeyli gözlədi. Həyəcandan havanın getdikcə sərinlədiyini duymurdu. Gözünü gah səmada ağır-ağır süzən dolğun, haləli aya, gah da bir az əvvəl Telizərin arxasında qeyb olduğu qapıya zilləyirdi... Nə qədər vaxt keçdiyini bilmədi. Birdən ətraf sıx qaranlıqlaşdı. Ay buluda girmişdi. Hardansa göyün üzündə peyda olmuş sıx qara bir bulud nəhəng əjdaha kimi ayı kamına çəkib udmuş, bayaqdan süd kimi, Telizərlə Rəhimin qəlbi kimi aydın, duru aləmi qaranlığa qərq etmişdi. Rəhim üşüyən kimi oldu. Otun içində çevrildi.

Qəflətən hənirti duydu. Əvvəlcə, hənirtinin bayaqkı miyoldayan qara pişik olduğunu zənn edib baxındı və lap yaxında iri topa bir qaraltı gördü. Seçməkdən çox bunun Soltanbikə ana olduğunu duydu.

– İrəhim... – pıçıltısını eşitdi.

Arvada doğru irəlilədi.

– Bəli, xala...

– Oğul, səni bütün əziz istədiklərinin canına, ağam Əbülfəzl-Abbasın qələm olan qollarına and verirəm, bu aramızdakı söhbəti bir sən bil, bir mən, bir Allah...

Oğlan bir az ürəkləndi. Qadına, sevdiyinin anasına yazığı gəldi. Ana ağlayırdı.

– Nəyə deyirsən and içim, xala, bu söhbət məniynən qəbrə gedəcək.

– Can xala, ömrün uzun olsun. Bax, qızımnan görüşməyinizdən xəbər tutmuşam. Məşədi əmin bilsə, onun başını it başı kimi kəsər. Neyçün ki qız körpəlikdən bacısı oğlu Zeynalabdinə deyiklidir.

Rəhimin səsi batdı. Elə bildi ki, arvad indi ona yalvarıb yaxaracaq: "Əl çək qızdan, yolundan eləmə! Qoy deyiklisinə verilsin. Ayrı əlac



yoxdu. Sən də özünə babını tap, Allah xoşbəxt eləsin" deyəcək. Odur ki, ölgün səslə dilləndi:

– Bilirəm, xala!

– Can xala! Belə xalan sənə qurban olsun. Telizər o Kərbəladan gələnə veriləsi olsa, avaravətən olsa, qürbətə düşsə, bircə bibisi kimi çərləyər, çürüyər. Elə mən özüm də vərəmləmişəm. Uzun azara tutulub öləm balamsız. Özü də eşidən gündən güc verib gözlərinə. Yaşı qurumur. Bilirəm, meyli sənədi.

Oğlanın ürəyində nə isə guppuldadı. Ana sözünə davamla tələsik deyirdi:

– Kişilərdən hay çıxmadı. Məşədi əmin heç kəsin sözünə baxmadı. Nə qədər mən də, əmiləri də, seyid peyğəmbər övladı xalası əri də minnətçi düşdük. "Yox dedi ki, yox. Mən bacımın diləyini örədəm gərək. Bacım orda təkdi. Qızımı ona qulaqyoldaşı verirəm". Onda qızın xalası, o çaylı Seyidin arvadı, bacım bir qurğu qurub. Əgəm sənin sözün safsa...

Oğlanın ürəyində ümid çırağı yandı. Arvadın əllərinə sarıldı, utanmağı-zadı da unudub yalvarmağa başladı:

– Qurbanın olum, xala! Məni çevir o biri balalarının başına. Bizi ayırmayın. Nəyə desən, and içim...

Ana arxalığının cibindən balaca bir Quran çıxartdı:

– Bax, əlüvü bu Qurana bas. And iç ki, sonra balamın başına qaxınc eləmiyəcəksən. Sirri də, yanı qazın əlini sənə tapşırıb yola salmağımı, heç kimə bildirməyəcəksən.

Rəhim qulaqlarına inanmırdı. Deməк, bayaq Telizərdəki dəyişiklik buymuş. Oğlanın ürəyi sevincdən partlamağa gəlirdi. Həyanı atıb bu müqəddəs, indi ona göydən enmiş xilas mələyi görünən ananı qucaqladı, sinəsindən, Quran qarışıq əllərindən öpdü:

– Bu Quran mənə qənim olsun, əgəm bu sirri bir adama açsam, sonra da dilimə gətirsəm...

Ana əllərinə doğru əyilmiş, indi ona doğma olan bu alından öpdü:

– Onda durma, get yat. Dincini al. Sabahnan at tədarük elə, yol ehtiyatı gör. Məndən olmasın, özün də ananı duyuq sal. Gecə şər qovuşandan sonra qızı götürüb çıx şəhərdən. Gedərsiz Çaylıya. Elə siz şəhərə yavuq çataçatda ağa Seyidin nökəri sizin qabağınıza çıxacaq. Amma bax, nəbadə-nəbadə gəlinínə toxunasan ha!.. Ağa Seyid kəbininizi kəsdirib halalın eləməyincən ona əl vursan, anan südünün dustağı olasan. Nə bilmək olar...

Qadın fikrə daldı, oğlan yenidən and içdi:

– Sözüm sözdü, xala! Sən ki bu haqqı mənim boynuma qoydun, ölüncən qulunam, axirət dünya anamsan mənim.

– Balamsan, Allah yazan yazıdı, mən yazmamışam, mən pozam. Deməli, hər ikinizin alnının yazısıdı bu. Gedin, xudam sizə yar olsun. Ulduzunuz barışsın. Kəbininizi göylərdə tanrım kəssin. Mələkləri amin desin...

– Ayə... kimsən? Hayyy...

Səs Məşədi Səməndərin idi. Kişi dərin yuxuya dala bilməmiş, oyanıb arvadın yerini boş və soyuq görüb eşiyə çıxmışdı. Rəhim ot tayasına gömüldü. Ay yavaş-yavaş buluddan çıxırdı. Arvad əyilib yerdən aftafanı qaldırdı. Rəhim yalnız indi görmüşdü aftafanı, bayaq qaranlıqda, həyəcan içində arvadın əlində nə olduğunu, əyilib yerə qoyduğunun fərqinə varmamışdı.

– Nə var, əyşi? Nə salmısan səsinin yoğun yerinə?

– Hansı cəhənnəmdəsən səhərdən?

– Harda olacağam? Qarnım pozulub. Qoymazsan, yıxılaq azarımızdan ölək?

Arvad əlindəki aftafa ilə evin səkisinə yanaşdı. Hirslə aftafanı yerə çaxdı, deyinə-deyinə içəri keçən ərinin dalınca evə girdi.

Rəhim quş kimi tayanın dibindən qalxdı. Qapıyacan getməyə hövsələsi çatmadı. Məhəbbət onu qanadlarına alıb, uca daş hasarın üstündən aşırdı.

O gecə dünyada iki xoşbəxt, iki qayğılı, iki yuxusuz adam var idisə, onların biri Rəhim, biri də Telizər idi.

...Gecə aydınlıq idi. Əslində bu, gecənin səhərə dönməyə başladığı, amma hələ heç dan yerinin bircə zərrə belə ağarmadığı bir vaxt idi. Onlar üçü də həyətdə idilər. Telizər, Rəhim... və... və... Soltanbikə ana... Qayğısı başından aşmış ana. Ana da balasını yad oğlan əlinə verib yola salarmı?.. Bəs ana neynər? Ana göydə Allah, yerdə bir ər bildiyi, hər fərmanını Allah hökmü kimi qəbul elədiyi ərinə sabah bu iş üzə çıxanda necə cavab verəcəkdi? Kimləri şahid tutacaqdı ki, bu işi öz əlilə görməyib? Kişi ona nə üsul biçəcəkdi, onu bir Allah bilir. Qoy olsun. Analar bundan betərinə dözür bala yolunda.

Hazırlıq qurtarmışdı. Heç biri bu gecə gözünü yummamışdı. Göz yummaq zamanıydı? Elə bil qoşulub qaçan Soltanbikə ana idi. Ürəyi çırpına-çırpına oğlana axır tapşırıqlarını verirdi. Telizər isə bir kənarda dayanmışdı. Gecə soyuq idi. Qız şalına bərk-bərk bürünüb başını sinəsinə endirmişdi. Bir kəlmə də çıxmayan dodaqları sımsıx sıxılmışdı. Nə düşünürdü? Nə düşünmürdü? Toy günü ola bilərdimi? Ona da qızlara nəsib olan toydan niyə qismət olmadı? Niyə onun başına ata əl qoymadı, lampa başına dolandırmadı, xeyir-dua vermədi, qaynı gəlib belini bağlamadı? Qızara-qızara: "Anam-bacım qız gəlin" demədi. Anası o cavanın boynuna al kəlağayı dolamadı? Qapıdan "Allah-allah" sədaları, "Xeyir versin getdiyi evə. Ulduzları barışsın. Allah yarıyanlardan eləsin", – deyib dualı, sənalı yola salmadılar? Nəydi günahı? Oğru pişik kimi daldalardan keçməlidi. Üzüqara çıxmış kimi qaranlıq gecəyə qovuşmalıdı. Başına duz, üzəlrik dolandırıb "Get, alnı açıq balam, üzün ağ olsun, məni xəcalət eləmədin",– deyib bir el dolusu sevinməli olan anası, Şirvanın xanım-xatın, üzünurlu analarından biri üzüağ balasını qaraüzlü eləyir? Atasının papağını yerə soxur, əmilərini xəcalətli eləyir, el içində. Qayınxatınları qaxıncı olacaq bu iş yazıq Soltanbikə anaya. Nə şəbədələr bağlayacaqlar? Nə mahnılar qoşacaqlar, toylarda, seyrlərdə oxuyacaqlar. Anası qızını öz əlilə verdi, – bundan sonra Telizər gələcək qayınanasının, qayınatasının üzünə necə baxacaq? Urvatı olmayacaq. Olacaqmı? Başa düşəcəklərmi ki, bu dərd eyib-qeyib dərdidi. Ana özünü də, balasını da toy tamından, toy bəxtəvərliyindən məhrum eləyir. Başını qaxıncl, üzünü danlaqlı eləyir. Təki balası qürbətə düşməsin. Təki Telizər də bibisi Şirinbəyim yolu yollanmasın. Təki avaravətən olmasın...

Rəhimin isə ürəyində bu qaranlıq gecədə minbir çıraq yanırdı. O bilirdi ki, toy da eləyəcək, bəy də duracaq, başı üstündə çörək də kəsəcəklər, duz, üzərlik də dolandıracaqlar, boynuna al-yaşıl kəlağayılardan xələt də dolayacaqlar. Bacıları, qardaşları, istəkli qohumları qabağında oynayacaqlar. Tək bircə dərdi vardı indilikdə. Atası ona atla getməyi məsləhət görməmişdi. "Atla getmə, Rəhim, – demişdi, – daldalardan apar, gözdən iraq olarsız. İt-qurda irast olmazsız. Çaylı haradadı ki, budu buradaca, qulağımızın dibində. Cavan adamsız, heç səhərin gözü açılmamış gedib çıxarsız mənzilə". O da atsız getməyi məsləhət bilmişdi. Amma ürək eləyib bunu Soltanbikə anaya deyə bilmirdi. Tələm-tələsik arvadla vidalaşdı, verdiyi boğçanı aldı, əyilib əlindən öpdü. Soltanbikə ana da bir anlığa döşlərindən süd vermiş kimi ona doğmalaşmış bu başı sinəsinə sıxdı, alnından öpdü:

– Gedin, Allah amanatı, İrəhim, can sənin, can balam amanatı.

Sonra da Soltanbikə qızına sarıldı, onu da yanan bağrına basdı, söz tapa bilmədi. Leysan kimi yanaqları aşağı axan göz yaşları içində bircə bunu pıçıldaya bildi:

– Allah amanatı.

Cavanlar həyətdən çıxdılar. Soltanbikə əyildi, aftafadan onların dalınca su çilədi: "Allah bu qaranlıq gecədə yolunuzu aydınlıq eləsin, balalarım!" – deyə pıçıldadı və cəld evə qayıtdı, qor dolmuş yorğanına girdi.

Rəhim qabaqda Telizər arxada gedirdilər. Öz məhəllələrindən tez aralandılar. Şəhərdən çıxıb Çaylı yoluna düşəndə Rəhim addımını yavaşıtdı; indi o, qızla yanaşı gedirdi.

– Telizər, atnan getməyimizi atam məsləhət bilmədi. Yorulacaqsan.

Telizər bir kəlmə də cavab vermədi, ürəyi uçundu. "İlahi, atası da getməyimizi bilir. At cəhənnəm" düşündü.

Xeyli getmişdilər ki, qabaqlarına köhnə bir arx çıxdı. Rəhim cəld o biri taya hoppanıb əlini Telizərə uzatdı, lakin qız əlini ona vermədi, arxın içinə düşüb, çətinliklə o biri taya keçdi. Rəhim heyrət içində soruşdu:

– Az, əlini neyşə vermirsən, keçirəm səni? İndi paltarın o quru arxdakı pıtrağnan, qılpınlarnan doldu.

Qız duruxmuş dilləndi:

– Sən mənə əlini vurma...

– Nolar ki, əlini tutanda?

– O olar ki, hələ kəbinimiz kəsilməyib. Birdən atamgil, əmilərim gəlib məni səndən alarlar, geri – evimizə apararlar, amma əlim naməhrəm əlinə dəydiyiyçün günaha bataram...

Rəhim güldü, dan yerinin ala-toranında qızın üzünü aydın görmürdü, amma ürəyinin gözü ilə indi bu üzü təsəvvür eləyirdi. Gülə-gülə dedi:

– Ay qız, dəli olma! Bizim kəbinimiz göydə kəsilib, xeyir-duamızı da sənin ananla, qadasın aldığım qayınanamla, mənim atam verib. Sabah da ağa Seyid kəbinimizi kəsəcək, inşallah.

Telizər bir addım da ondan yan yeriyə-yeriyə cavab qaytardı:

– Hə, bax onda heç bir sözüm də olmaz. İndiysə, məndən bir addım aralı yeri ki, andım dürüst olsun, yerini tutsun.

Rəhim heyrət və heyranlıqla bir gün irəli Telizərin ona əhd-peyman vaxtı dediyi sözləri xatırlayırdı: "Atam da var, anam da. Atamsız da dözmərəm, anamsız da. Amma sənsiz qalmağa taqətim yoxdu. İndi ki sən də bu fikrə gəlmisən, onda al məni, apar məni, harda koma qursan – ora kaşanəmdi. Atını kola bağlasan – dibi evimdi. Ağac altını düşərgə eləsən – yurdumdu". Qız onunla yad kimi yanaşı gedirdi, amma doğma səsi oğlanın qulaqlarını oxşayırdı.



## ANA

Elə bil bütün Şamaxı Kərbəladan gələnləri qarşılamağa çıxmışdı. Karvanın gəlmək xəbərini hələ dünəndən, çaparxanadan eşitmişdilər. Şəhərdən Kərbəlaya gedən qohumlarını qarşılamağa gələnlər, xüsusi mollalar dəvət eləmişdilər. Həl'əta, ərrəhman, yasin[1] oxuyanların səsi bir-birinə qarışmışdı. Təpəsinə, belinə xına yaxılmış ağ yunlu, burma buynuzlu qoç-qurbanlara qənd yedizdirən uşaqlar hərdən böyüklərdən yayınıb, göz-göz eləyib qoçları döyüşdürürdülər də. Amma böyüklərin nəzərinə çarpan kimi şapalaq yeyir: "Haramzada, qurban qoçu döyüşdürərlər?" sözlərilə yenidən ciddi sima taxınır, qoca əlinə gələn şirnidən-zaddan verirdilər. Su, şərbət nəziri olanlar da satılını, dolçasını əlinə alıb gəzdirir, mis qırxhaçar camı ilə şərbət meyli çəkənlərə şərbət, su istəyənlərə imam Hüseyn, susuz can verən "körpə Əliəsgər" eşqinə su paylayırdılar. Şəhərin dilənçiləri, tabaqçıları, ayaqçıları da arada-bərədə dolaşır, dilənən payını yığır, alverçi alverini eləyirdi.

Hava hələ çox qızmamışdı. Uzaqdan toz dumanı göründü. Yorğa səmənd at minmiş çapar tozun içindən peyda oldu.

– Gəlirlər... gəlirlər...

Məşədi Səməndər də burada idi. Abırlı kişilərlə birlikdə iri bir tut ağacının altında əyləşib, Kərbəladan gələn karvanı gözləyirdi. Bircə bacısı Şirinbəyimin oğlu Zeynalabdin bu karvanla gələsiydi. Kişi zahirdə sakit otursa da, batində özünə yer tapa, heç bir məkanda duruş gətirə bilmirdi. Neçə gecə idi gözünə yuxu getmirdi: "İlahi!" – deyirdi, – "Məni üzüqara elə" deməyə də dilim gəlmir. Neynim, necəliyim? Baladı. Balanı bəla eləyəni lənətə gəlsin, min təsbeh. İlahi! Özün məni xar eləmə də, deyə bilmirəm, xar olmuşam. Həm el içində, həm bacı qabağında. Həm Allah qulluğunda... "Kişinin dili tanışlara cavab verirdi, amma qulağı öz ürəyinin sözlərindən başqa söz eşitmirdi. İndi düz bir ay idi ki, Telizər Rəhimə qoşulub qaçmışdı. Elə bir onunçun görünməmişdi bu dərd. Bircə Məşədi Səməndərin başına gəlsəydi, kişi namusa-qeyrətə boğulub əvvəl əldə Çaylıya baldızıgilə gedib qızı tapar öldürər, sonra da gəlib xəncəri öz qarnına soxar, töhmətdən yaxasını qurtarardı. Amma eldə-obada o qədər qız qaçırdan, qoşulub gedən var idi ki, birini vermirdilər; birinin toy xərcinə gücü çatmırdı,

[1] Quran surələrinin adıdır.

birinin tay-tuşu deyildi. Qərəz, o qədər dərd vardı bu dünyada ki! Hansını sayasan? Ayrı vaxt olsaydı bəlkə də, Məşədi Səməndər qızın bu işinə o qədər də məhəl qoymazdı. Bir qızdı, qoşulub gedib. Hələ üstəlik də Çaylı Ağa Seyid kimi adamın evinə. Ağa Seyid kimi bir kişi onlara sığınacaq verib, doğmaca xalasının evində kəbini kəsilib, toyu olub. Ağa Seyid kişinin, seyid peyğəmbər övladının əliynən kəbini kəsilib... Başqa vaxt olsaydı, bir-iki aydan sonra Ağa Seyid günahkarları onun evinə özü öz ayağıynan, öz əliynən gətirər, bir qoyun da kəsər, barışıq eləyərdi, hər şey də qurtarıb gedərdi. Amma iş elə ondadı ki, bunlar mümkün deyil. Qız Şirinbəyimin oğlu Zeynalabdinə deyikli idi. Oğlan qızı aparmağa gəlir. Burda oba köçüb yurdu boş! Day bu dərdin altından nəylə çıxmaq olar? Bu ağıllı qurama anası Soltanbikənin qurraması olacaq. Yoxsa qızın ağlına qoşulub qaçmaq da gəlsəydi, xalasıgil, Ağa Seyidgil ağlına gəlməzdi, cürət eləməzdi. Elə Soltanbikə bacısıynan düzəldib bu qurğunu. Özü də qız gedəndən dərdəcər olub düşüb yorğan-döşəyə. Elə birinci gün qızın Ağa Seyidgildə, baldızının əlində olduğunu bilən kimi Məşədi Səməndər işin əslini anladı, arvadını bir xub əzişdirdi. "Amma day hay hara çatacaq? Qıza naməhrəm əli dəyib. Bir gecə qız gedəynən bərr-biyabanda Ayşəynən Səffan kimi bir yerdə qalıb. Qeyrətinə qurban olduğum şahi-Mərdan, Həzrəti Əli qəbul eləməyib. O mənim birinci imamımdı. Mən necə qəbul eləyim? Yox, ona verə bilməzdim. Heç bacım balasını da başıaşağı eləyə bilməzdim, – geri qaytarıb. Naməhrəmnən bir yerdə yol gedən qızı".

Düşüncələr Məşədi Səməndəri yamanca yıxmışdı. Amma yaxşı ki, çoxbilmiş şirvanlılar hələ işin yarısını bilirdilər, yarısını bilmirdilər. Hamı Telizərin qaçmağını eşitmişdi. Şamaxılılardan söz gizlətmək olar? Bilirdilər. Bir şeyi bilmirdilər ki, yaxşı, axı bu qız niyə qaçıb? Rəhim onların qonşusu. Bir ağıllı oğlan. Əsil-nəcabəti, varı-halı da ortabab, pis deyil. Görəsən nə var burda? Bəlkə xudanəkərdə qız üzüqaraymış. Yox əşi, onda heç Rəhim özü də yovuq durmazdı haram tikəyə. Toyunu da doğmaca xalası əri seyid peyğəmbər övladı Ağa Seyid eləyib. Burda nə hikmət var? Hikmətin Zeynalabdinlə bağlı olduğunu şamaxılılar bilmirdi. Şamaxılılar bilmirdi ki, Zeynalabdin məhz bu günlərdə, məhz elə təkcə evlənmək qəsdiylə ata-anası tərəfindən Şamaxıya göndərilib.

Məşədi Səməndər bacısı oğluna nə yolla cavab verəcəyini kəsdirməmişdi, heç bir qərara gələ bilməmişdi.



Çavuşun Zəminxara üstündə oxuduğu münacat eşidiləndə kişinin gözlərindən leysan yağışı yağmağa başladı. Durdu, çuxasının qolu ilə gözlərini sildi, karvana sarı irəliləməyə başladı. Aləm bir-birinə qarışmışdı. Oğullar "ata", qızlar "ana", bacılar "qardaş", ağsaqqalı döşünə düşmüş ata-babalar "oğul" deyib, Kərbəla karvanına sarı cumdular. Qoyun-quzu sağın vaxtı mələşən kimi hamı səs-səsə vermişdi. Bir-birini qucaqlayan, bir-birinin əlini öpən, ayağının tozuna qurban-sadağa gedən kim idi... Bu ayaqların tozu Kərbəla tozu idi.

– Ziyarətlər qəbul!

– Allah sizə də qismət eləsin!

– Ağa mətləbinizi versin!

– Allah qismət eləsin!

– Mübarək... Kəblayı... – səslər bir-birinə qarışmışdı.

Təzə kərbəlayılar "kərbəlayı" adı ilə çağırıldıqlarını eşitdikcə çiçəkləri çırtlayırdı. Bəzisi əlaltında belə məqam üçün saxladığı xurmadan görüşə gələnlərə bir-bir paylayırdı. Təbərrik xurmanı gözünə, ağrıyan yerinə sürtüb, yanından xırdaca bir dişdəm götürəndən sonra müqəddəs bir şey kimi təmiz əsgiyə büküb qoltuq cibinə qoyanlar da var idi. Bu müqəddəs xurmadan evdəkilərin də feyzyab olmasını istəyirdilər.

Ara sayxaşmağa başlayanda, tanımadığı bacısı oğlunu gözlərilə axtaran Məşədi Səməndər hay-huylu dəstədən xeyli aralı durmuş cavan oğlanı gördü. Bacısının doğma cizgiləri hələ sərt tüklənməmiş bu cavan üzdə çox aydın görünürdü. Yüz cavan içində görsəydi də qanı çəkərdi, doğma gözləri, qaşları, dodaqları və çənəni tanıyardı.

Məşədi Səməndər onu Şirinbəyimin cizgilərindən tanıdı. Amma Zeynalabdin dayısını heç xəyalında da canlandıra bilməzdi. Əgər anasına bənzər cizgidən-zaddan vardısa da, onları çoxdan bozarmağa başlamış saqqal, bığ ört-basdır eləmişdi. Bu ağlayan, sevincindən, vəcdindən, həsədindən gözyaşı tökən, riqqətə gəlib başına döyən, bir-biri ilə qucaqlaşıb öpüşənlər içində onun dayılarından da olduğunu ayırd edə bilmədiyindən çəkilib bir qıraqda durmuşdu. Görüşlərə mane olmamaqçın, eləcə dayanıb baxırdı. Gözləyirdi ki, ilk həyəcan keçsin; kim isə ona diqqət etsin. Etməsə özü şəhər camaatından birini qaralayıb dayılarını, ən əvvəlcə əlbəttə, məşədi Səməndər dayısını xəbər alsın.

Məşədi Səməndər isə artıq onu tanımışdı. Amma kişi bacısı oğluna yaxınlaşmağa cürət eləmirdi. Axı yaxınlaşıb nə deyəcəkdi? "Deyiklin qoşulub qaçıb, atasının, əmilərinin papağını yerə soxub", – bununu

deyəcəkdi? Elə ürəyi bu uçunmadaydı ki, Kərbəla karvanına yaxınlaşan kiçik qardaşı Dövranı gördü. Daha dayanmaq yeri deyildi. Özünü irəli verib, Zeynalabdinə yaxınlaşdı:

– Bala, sən Zeynalabdin deyilsən?

Cavan bu sualı gözləsə də kişinin dayılarından hansı və ya onların qarşılanmaq üçün göndərdiyi başqa bir qohum olub-olmadığını bilmədiyi kişinin üzünə mehribanlıqla gülümsədi. Dövran isə bacısı oğlunu eləcə bu təbəssümdən tanıdı. Şirinbəyimin təbəssümüydü. Qızlıq çağındakı... Uzun illərin həsrəti qardaş bircə söz demədən qürbətin çürütdüyü bacısını qucaqlayırmış kimi oğlanı Məşədi Səməndərdən əvvəl bağrına basdı:

– Xoş gəlmisən, bacıoğlu, bu sənin dayın Məşədi Səməndərdi, mən də kiçik dayın Dövran. O birilər də ya elə hindilərdə özlərini bura çatdıralar, ya da biz evlərə çataçatda irastlaşarıq.

Məşədi Səməndər də bacısı oğlunu qucaqlayıb öpdü. Zeynalabdin ortada, dayıları yanda evə tərəf yollandılar. Məşədi Səməndər elə birinci dəfədən sözü Dövranın yanında kəsə kəsmək istədi. Sonra evdə, qonum-qonşu arasında söz-sov, çaşbaşlıq olmasın deyə indicə "Deyiklin ölüb, bala, başın sağ olsun" demək istədi. Məgər gecə sübhəcən Kərbəla karvanının gəlməyini eşidib yerində qovrulan Məşədi Səməndər üçün Soltanbikə ana ağı çəkməmişdi:

> Dədəm olmayacaqsan,
> Nənəm olmayacaqsan,
> Niyə belə yanırsan?
> Kərəm olmayacaqsan...

deməmişdi? Məgər bu ağı əzizinə ağlayanlar, əzizinə yananlar üçün deyilmirdi? Məşədi Səməndər üçün indilikdə Telizər ölmüşdü.

Kişi bacıoğlunun üzünə baxa bilmirdi. Zeynalabdinin əlindən tutub fasiləsiz hal-əhval soruşan Dövran onun qanının arasına girmişdi. Qardaşının vəziyyətini bildiyindən Dövran ara vermədən bacısını soruşur, yolu necə gəldiyini xəbər alırdı. Birdən qəlbində qəti qərar verən Məşədi Səməndər Dövranın sözünü kəsdi:

– Oğul, dedi, – bizə bir iş üz verib, qoy elə əvvəl əldə deyim ki, sonra...

Dövran təəccüblə qardaşına baxdı, bir söz demədi. Məşədi Səməndər sözünə davam etdi:

– Bacımın sənə deyikli elədiyi qız ölüb. Qırxı da çıxıb. Anası elə indinin özündə də azarrdı. Qabaqcadan deyirəm ki, sonra...



Dövran özünü itirdi. O bu yalanı gözləmirdi. Zeynalabdin isə duruxdu, belə hallarda dayıya nə deyiləcəyini bilmirdi. Odur ki, atasından eşitdiyi "Allah rəhmət eləsin, başınız sağ olsun"u mızıldadı. O, dayısına, dayısı ailəsinə üz vermiş bədbəxtlik üçün kədərləndi, amma tanımadığı, üzünü ömründə görmədiyi bu deyikli üçün nədənsə o qədər də sıxılmadı. Sadəcə bir təəssüf hissindən başqa qəlbində heç bir şey yox idi.

Onlar daha danışmadılar. Dövran da suallarına ara verdi. Təziyəyə xas dərin sükut içində evə yaxınlaşdılar. Qapının ağzında onları xeyli adam gözləyirdi. Dayılar, dayıdostular, dayıqızı və dayıoğlanları... Elə ailə özü bir xeyli adam idi. Dayılarından hansısa qara bir qoçu onun ayağı altına yıxıb qurban kəsəndə, bütün külfət bircə-bircə Zeynalabdini qucaqlayıb öpür, hal-əhval tuturdu. Dövran qəm dəryasındaydı. Qardaşlarını və qardaşı arvadlarını bircə-bircə yanlayıb, xəlvətləyib Telizərin "ölümü" məsələsini onlara da anlatdı ki, sərkeşlik düşməsin... Zeynalabdinin Şirvanda, onun paytaxtı Şamaxıda birinci günü belə başladı...

## ŞAMAXIDA

Zeynalabdin Şirvan torpağına qədəm basanda təbiət hamilə idi. Bütün aləm nəsil qayğısına dalmışdı. Ağaclar çiçəyini töküb meyvəsini düyməələməkdə, toyuqlar hində, quşlar yuvada bala bəkləməkdə, taxılların qurşağacan qalxmış göyərtisi sünbül üçün dit vurmaqdaydı. Quzular, çəpişlər göy otlar üstündə oynaşır, qarakeçə komalı kəndlərdə köç təbili vurulurdu, yaylağa qalxmaq vaxtıydı. Belə bir zamanda Zeynalabdini cavan dayısı Dövran seyrə çıxarmışdı. Onlarla seyrə gedən beş-altı gənc Zeynalabdinlə Dövran arasında irili-xırdalı cavanlardı. Dövran onları bacısı oğluna uyğun qohum gənclər içindən seçib çağırmışdı. Oxuyanı da var idi, çalanı da, şeir deyəni də. Cavan olsa da, hamı Zeynalabdini "kərbəlayı" çağırırdı.

– Deməsək, günaha batarıq, – deyirdilər.

Quzu kəsmişdilər, kabab bişirəcək, çöldə göy otlar üstündə bulaq başında əylənəcəkdilər. Bütün bu əyləncə həvəsinə baxmayaraq, Zeynalabdin çox fikirliydi. Bir neçə gün idi ki, böyük dayısının evinə düşməsinə baxmayaraq, o biri dayıları və başqa qohumlar onu növbəylə evlərinə qonaq aparırdılar. Aparmaq üstündə mübahisə düşürdü. Bəzən gecədən xeyli keçənəcən qonaq aparıldığı evdə qalır, sonra ona

bir cüz Quran oxutdurub avazına, tələffüzünə "qurban olum" deyə-deyə qulaq asırdılar. Anasını, atasını, Kərbəlada yurd salmış qohumlarını soruşurdular. Günlər bütöv bir qonaqlıq dəsgahı içində haylı-küylü keçirdi. Evə çox gec, yatmaq üçün qayıdırdı. Qayıdırdı deyəndə ki, az tanıdığı şəhərin qaranlıq küçələri ilə onu evəcən ötürürdülər. Bəzən elə qonaq getdiyi yerdəcə qalmağa məcbur olurdu. Amma bu təsadüfi halda olurdu. Çünki dayısı Məşədi Səməndərin inciyə biləcəyindən ehtiyat eləyirdi. Bununla belə xəstə dayıdostusu Soltanbikəyə də əziyyət vermək istəmirdi. Soltanbikə xəstə idi. Amma Zeynalabdin bunun bala itirmiş ana xəstəliyi olduğuna şübhə etməyə başlamışdı. Ümumiyyətlə, dayılarının münasibətində nə isə bir qəribəlik duyurdu. Əvvəlcə, deyiklisinin öldüyünə doğrudan da inanmış, təəssüflənmişdi ki, dayısının başına belə bir fəlakət gəlib, bəsböyük övlad itirib. Amma günlər keçdikcə o bu evin ölüm girmiş ev olduğuna inanmağa başlamışdı. Ürəyinə girən şübhəni kimdən, necə öyrənə biləcəyini bilmirdi. Necə deyirdi Baba Sakit dərviş: "İnsan da peyk kimidir, Günəş ətrafında fırlanan Yer kimi. Odur ki, mən də, biz də fırlanırıq. Onun başına fırlanırıq və həqqə çatmaq, həqqə irişmək, Yəzdana qovuşmaq üçün yoldur bu. Boyun bükmək – təslim əlamətidir. Təslim olma. İslam təslimdən gəlsə də, onu sülh kimi qəbul et, təslim kimi yox!"

Bu sözlər dayısı Dövranın elə dünən ona Telizər məsələsini danışdığı andan bəri qulağında cınlayırdı: "Nə yaxşı eləyib o üzünü görmədiyi, tanımadığı deyiklisi Telizər qız?! Lap əcəb eləyib ki, təslim bayrağı qaldırmayıb. Kərbəlayı Axund İskəndərin hüzurunda anam nə gördü ki, o nə görəydi? Lap yaxşı eləyib o Telizər qız! Sevdasına, diləyinə, istəklisinə qovuşub. Məni də qayğılardan azad edib. Onsuz da... bu yol mənim yolum deyildi".

Göy çəmənlikdə dirsəkaltılara yayxanmış bir cavan könlünü açmaq üçün Zeynalabdinə Şirvan lətifələrindən birini danışırdı. Aralıda cavanlar daşları cərgələyib arasına kömür tökmüş, Şamaxı qaydası ilə quzu ətini xırda tikələrə doğrayıb şişlərə çəkir, kabab bişirməyə hazırlaşır, eyni zamanda yoldaşları arasında lətifə ustası kimi tanınan oğlanı dinləyirdilər:

– Deyir, bir molla qəbiristanlıqda namaz qılırmış. Bir dəstə lotu da fit çala-çala qəbiristanlığın qırağında dayanıb mollanın namaz qılmağına tamaşa eləyirmiş. Molla namazı qurtarıb üzünü onlara tutur, təhnəynən deyir: "Ayıbdı, axı burda sizin də qohum-əqrəbanız var, qıldığım namazdan onlara da çatır. Siz fit çalıb qoymursuz nə dediyimi biləm". Deyirlər: "Molla, burda qohumumuz var, amma yaxşı tanıyırıq onları.



Bəzisinin namazdan, bəzisinin fıştırıqdan xoşu gəlir. Sən namaz paylarını verdin, biz də fıştırıq paylarını".

Hamı gülüşdü. Zeynalabdin isə öz aləmindəydi. Baba Sakit deyirdi: "Ölümdən heç kəs, nə cahil, nə kamil yaxa qurtara bilməyəcəyini bilə-bilə bizə sığınan, lakin ölümə məhkum bigünah uşaqları niyə dünyaya gətirək? Axı bilirik ki, o günahsız, o zərif, o köməksiz körpələr öləcək?" Yaxşı elədi Telizər qız qoşulub qaçmaqda. Mənim yolum başqadı. Arabir lətifəçi cavanın səsi qulağına dəyirdi.

– Deyir canavardan soruşublar: "Canavar qardaş, aran yaxşıdı, yaylaq?" Cavab verib ki: "El dağa köçəndə yaylaq yaxşıdı, arana köçəndə aran".

...Dünən dayısı onu xanın qulluğuna aparmışdı. Xan vaxtilə Şirvanda baş verən keşməkeşlərə, qoşunkeşdiliyə, xanların bir-birilə didişməsinə, qanın su yerinə axmasına dözməyib bu "kafiristandan, qan-qan deyənlər" ölkəsindən baş götürüb gedən cavan Axund İskəndər haqqında eşitmişdi. Onun Kərbəlaya köçməsi xəbəri xanın qulağına çatmışdı. Özü də Şirvan bər-bəzəyi ilə. İndi xan onun oğlunun Kərbəladan gəldiyini, özü də çox qabil cavan olduğu xəbərini eşidincə qulluğuna çağırtdırmışdı.

Sevincindən yerə-göyə sığmayan Məşədi Səməndər bacısı oğlunu da götürüb xanın qulluğuna yollanmışdı. Xan Fit dağındakı qalaçasına arandan təzəcə köçüb gəlmişdi. Əynində al məxmərdən çuxa vardı, çuxanın yaxası xırda mirvarilərdən tikilmiş yaxalıqla bəzənmişdi. Göy məxmər şalvarının rənginə münasib boğazı tikməli uzunboğaz çəkmə geymişdi. İran padşahlarını təqlidlə yarımtaxt üstündə əyləşib qəlyan çəkirdi. Büllur qəlyanın qəmişi Zeynalabdinin indiyəcən görmədiyi bir uzunluqda və yaraşıqda idi. Buna heç qəmiş də demək olmazdı. Yekəcə bir zurna kimi qara qalın ağacdan qayrılmış üzərinə sədəf və qızıl pilləklərdən bəzək vurulmuşdu. Ucundan uzanıb yerdəki büllur qəlyana bənd edilmiş xortum görünməsəydi, xanın zurna çalmağa hazırlaşdığını zənn edərdin. Amma qəlyanın xorultusu, xortumu büllur qabdakı suyun pıqqıltısı, üstdə tütünün arabir tüstülənməsi bunun zurna deyil, məhz qəlyan olduğunu bildirirdi.

Xan Axund İskəndərin oğlunu mehribanlıqla qarşıladı. Uşaqlıqdan, gənclik illərindən tanıdığı, amma indi unutmaqda olduğu simasını yadına saldı. Bir şey çıxmadı. Xoş-beşdən sonra öz şəxsi Quranını gətirtdi. Nökərlər xanın əmrilə rəhili Zeynalabdinin qənşərinə qoyub, yetmiş misqal qızıl və əlvan rənglərlə müzəyyənləşdirilmiş, ipək

vərəqlərə gözəl təstəliq xəttilə yazılmış qədim dədə-baba Quranını onun üstünə açdılar.

Xan buyurdu:

– Kərbəlayı, bizə bir neçə ayət təlavət eylə.

Görünür, Zeynalabdinin Quran oxuması xanın xoşuna gəlmişdi. Tərifləyib dedi:

– Allah müəlliminin imanını kamil eləsin. Amma mən molladan başqa heç kəsin gedib o müqəddəs məkanlarda təhsil almasının tərəfdarı deyiləm. Çoxlu ehsan da göndərirəm tüllablara, Kərbəla xuddamlarına, Hüseyn qullarına. Dua eləsinlər. Bu qarmaqarışıq zamanda kafir qoşunları, düşmən ayağı bizim torpağa, xanlığa dəyməsin. Az çəkməmişik çəkişmələrdə. Aralıq çox qarışıqdır, kərbəlayı, xanların çoxu kafiristana üz tutublar. Elə bilirəm, üstümüzə dağ gəlir...

Cavan olsa da, indi xeyli gözü açılmış Zeynalabdin düşünürdü: "Bəlkə elə o xanlar haqlıdı. Bəlkə elə silahımız bu birlikdədi? Onsuz da hər kiçik məmləkət arxasını bir dağa dayamalıdı. Dünyagörmüş Baba Sakit də belə söyləmişdi".

Xan isə deyirdi:

– Elm öyrən, dünyanı gəz öyrən, amma molla olma! Balaca bir xalq üçün bu qədər molla bəsdi.

"Bunu nə zaman dedi xan? Hə... Mənə yanında qalıb vəzifə təklif eləyəndə. Dünyanı gəzib görmək istəyirəm deyəndə ona. İstə məndən hansı vəzifəni istəyirsən?" – deyib soruşdu. "Vəzifə, ad, mükafat layiq olana hökmdar tərəfindən verilməlidir, – dedim, – öz arzusu, diləyi çalışıb-çapalaması, dil-ağız yalvarmaq ilə mükafat, vəzifə alınmaz, ləzzəti itər, xalq arasında layiq olmadığı vəzifə, mükafat alan adamın qiymət və hörməti də olmaz", – dedim. Hə, bax, onda mənə dedi ki: "Elm öyrən, dünyanı gəz öyrən, amma molla olma". Deyəsən, söhbətlərimiz döşünə düşmüşdü, razı qalmışdı. Gözüaçıq, başa düşən adamdır".

Zeynalabdin yerindən qalxdı, xatirələrini yenidən yaşaya-yaşaya meşəliyə doğru üz tutdu. Əli ilə ağaclara toxunmaq, hər tumurcuğa toxunub "bağa xoş gəlmisən" demək istəyirdi. Qəribə bir hal keçirirdi. Heç özü də bilmədən gecə dayıdostusundan eşitdiyi bir bayatı xatirində səsləndi:

Aydan arı, ay bala!
Sudan duru, ay bala!
Mən yarıya bilmədim
Sənsə yarı, ay bala!



Allah yarıtsın, balanı dayıdostu! Xoşbəxt olsun balan. Baba Sakit deyirdi ki: "Dünyaya qonaq kimi gəlib-gedənlərdən zəhləm gedir. Tənbəldilər. Bu gözəl dünyamızı gözəlləşdirmək, bir iz qoyub getmək lazımdır bu dünyadan. İllər uzunu gəzib-dolandığım cahan mənə bunu öyrətdi. Odur ki, vətənimə qayıdıram. Bir iş görmək, bir əməl qoyub getmək üçün. Yoxsa heç dünyaya gəlməyin mənası olmazdı. Dünya da xaraba qalardı. Dünya elə bu "nə isə"ni eləyib gedənlərin havasına, hesabına yaşayır və gözəlləşir. Mən də gəzib, görüb etməyə qayıdıram", – dedi.

Dayıdostu! Sənin də balaların dünyanı gözəlləşdirənlər cərgəsindədi. Xoşbəxt olsunlar. Mənim yolum isə, mənim yolum başqadı... Necə soruşdu o əddamə dərviş? "Yolun haradı, baba?" Baba Sakit dedi: "Şirvana". "Şirvan nədi, nə deməkdi? Şir-van – Şirlər ölkəsi? Ya şər-van – Şərlər ölkəsidir?" Sakitcə məndən eşitdiyi cavabı bir az dəyişdirib dedi: "Deyənin qabiliyyətinə baxır". İndi mən də bu şirlər ölkəsi – Şirvandan səyahətimə başlayacağam. Gəzib Sakit baba kimi görəcəyəm. Sonra bəlkə, mən də bu gözəl dünyamızı gözəlləşdirənlər cərgəsinə qoşula bildim. Qoşuldu...

– Kərbəlayı... ııı... i... i...

– Ayə, kabab soyudu, harada qaldın?

Təzə dostları və kiçik dayısı Dövran onu çağırırdı.

## SEYR

Yollar onun təcrübəsini artırmışdı. Yollar onu öz əsrarəngizliyi, yeni-yeni biliklər verməsiylə cəzb edirdi. O indi-indi kişi həddinə dolurdu. Dayıqızı əhvalatı onu hələ Qəhqəhə qalasındaykən gəldiyi bir fikirdə möhkəmlətdi. Əgər dayıqızı Telizər öz sevdiyinə qovuşmasaydı, atası iradəsi əleyhinə getməyib bibisi oğlunu gözləsəydi, bəlkə də Zeynalabdin ona evlənib Kərbəlaya qayıdar, dünyanı səyahət etmək fikrinə düşməzdi. Bəlkə də Şirvan gözəli Telizərin məhəbbəti, bu məhəbbətin Kərbəla günəşi kimi yandırıcı ehtirası gəncin qəlbinin dərinliklərinə nüfuz edərdi. Baba Sakit də unudulardı, onun nəsihətləri də, verdiyi biliklər də, yollar da... İndi o artıq ata seçkisi ilə evlənməyə məcbur olan cavan deyildi. Bu bir neçə ay səyahət və Şirvan qonaqlıqları onu tamamilə dəyişmişdi. İndi o kişi idi, ər kişi idi. Bir neçə aylıq yollarda bir neçə illik böyümüşdü. Təcrübə qazanmışdı. İndi taleyinin

həllinə özü qərar verə bilərdi. Verdi də. Evlənməyəcək. Dayısı Telizər məsələsinin üstü açılanda ona demişdi: "Oğul, sənin istəkli ananın yanında məni xəcalət qoyan qız mənimçün, doğrudan da, ölüb. Sən onu da görməmişdin. Nə təfavütü, razı ol. Sən də məni anan yanında üzüqara eləmə! Qoy səni elmizin-günümüzün ən gözəl, ən başıaşağı namuslu, adlı-sanlı külfətlərindən birinin qızına evləndirim".

Zeynalabdin Məşədi Səməndərə bir söz deyə bilmədi. Yanaqları al-atəş yandı. Başını aşağı dikib durdu. Sonra bu sükutun razılıq kimi qəbul oluna biləcəyindən ehtiyat etdi. Üzünü kiçik dayısına tutub dedi:

– Dayıcan, əvvələ, bir insanı istəmədiyi tikəni yemədiyi üçün ölü saymaq Quranın kəlamlarına da ziddi. Digər tərəfdən bu addımı atmağa ata-ana rizası vadar etmişdi. Mən dünyanı gəzmək, görmək istəyirəm.

Dayılar bir söz deyə bilmədilər. Zeynalabdin Şamaxıda keçirdiyi bütün qalan günlərini düşüncələrə dalğın, susqun keçirirdi.

Baba Sakit Qaradağ nahiyəsində Baft adlanan yerdə uca dağın zirvəsində yerləşən Qəhqəhə qalasını ona göstərmək üçün sarbandan xüsusi izin istəmişdi. Bir neçə maraqlanan dərviş, səyyah və hətta təzə kərbəlayılardan da onlara qoşulmuşdu. Baba Sakit Qəhqəhə qalasının tarixindən, onun hələ monqollara qarşı mübarizədə rolundan, səfəvi şeyxlərinin təhlükə zamanı öz xəzinələrini burada gizlətməsindən, şah İsmayıldan sonra qalanın öz əhəmiyyətini itirib, qədim mübarizələr məskəni şöhrətini həbsxanaya dəyişməsindən, Təhmasibin oğlu İsmayıl Mirzənin, Şirvan bəylərbəyi Əlqas Mirzənin, daha kimlərin bu qalada ömür çürütməsindən, nə arzular, nə ümidlər bəsləməsindən danışdıqca deyirdi:

– Möhkəm, etibarlı qalaydı. Şah və xanların sığınacağıydı. İnsan öz keçmiş tarixini bilməlidir ki, öz həyat yollarında düzgün istiqamət götürə bilsin. Sapmasın. Kimin nəslidir, hansı kökün üstündə bitib. Bilməlidi insan. Dünyamız yalçın bir güldandır, övlad, içində tikan da əkə bilərik, gül də. İnsanlığımızdan asılıdır. Bu insanlığı isə dünyanı gəzib, onun yaxşılı-pisli adamlarını, ölkələrini, quru səhrası ilə behişt vahəsini, uca dağları ilə dərin dərələrini, gur şəlalələri ilə kor bulaqlarını görmək, tanımaq lazımdır. İnsan əməli dünyanı cənnətə də döndərər, cəhənnəmə də. Qəhqəhə qalası kimi. Qürur mənbəyi, yenilməzlik rəmzi də [illegible]lər, həbsxana da. İnsan əməlindən asılıdır. Bir insanın ömrü[illegible] qədərliyini bilmək istəyirsənsə, onun əməllərini say. Elə əməlləri sayılmalı olan insanlar yaxşılardır. Elə əməlləri sayılmalı insanlar dünyamızı behiştə döndərməyə qadirdilər. Fərabi buyurub ki: "Gözəl



əxlaq və zəka insanın fəzilətlərindəndir. Bunlar bizə yetkinlik qazandırır. Bu insan fəzilətini bilmək, öyrənmək üçün insanın yaxşılarını və pislərini görüb tanımaq lazımdır".

Elə o zaman Qəhqəhə qalasından enəndə Zeynalabdinin səyahətlər etmək fikri möhkəmlənmişdi. Qəlbində ata-ana rizasına boyun əymək zərurəti təəssüf doğururdu. İndi şükür ki, bu manеə də öz-özünə dağılıb getdi. Telizər xanım ağıllı iş tutub, onun yolunu açdı.

## ŞİRİNBƏYİM

Kərbəlada ana əli duada bala yolu gözləyirdi.

Qonşularında bir kərküklü qadın var idi. Bir gün qoltuğunda qara bir toyuqla həyətə girdi. Kərbəlayı İskəndər təzəcə getmişdi. Həyətdə Şirinbəyimdən başqa heç bir kəs yox idi. Arvad yaşmağını aşağı saldı, toyuğu başının üstünə qaldırdı.

– Bacı, – dedi, – sənin balan üçün fal açacam.

Şirinbəyim maraqla arvadın hərəkətlərini izləyirdi. O bu qara toyuğu yaxşı tanıyırdı. Başağrısından şikayətlənənlər gəlib yalvarıb-yaxarar, ondan bir qara toyuq yumurtası alar, ya da dəyişib aparar, mollaya dua yazdırardılar. Deyilənə görə, dua ancaq bircə dənə də ağ ləkəyi olmayan zil qara toyuğun yumurtasına yazılsa, xəstənin yatacağının üstündən asılsa, başağrısı yox olub gedər. Hə, bax bu həmən toyuq idi, amma Şirinbəyim onda fal hikməti də olduğunu bilmirdi.

Qonşu arvad öz adətlərincə evin damına çıxa-çıxa da Şirinbəyimə deyirdi:

– Bax, indi mən toyuğu uçuracam, öz həyətinizə, ya da yaxın bir yerə qonsa, onda oğlun tezcənə qayıdacaq. Uzağa qonsa, horyatda[1] deyilən kimi gec qayıdacaq.

– Hansı bayatıdı o?

Arvad toyuğu uçurmağa hazırlaşarkən bir dua, bir tilsim oxuyurmuş kimi horyadı deməyə başladı:

Uçurtdum qara toyuğ,
Qondu Erbilə yovuğ.
Hamı gedənlər döndü,
Dönmədi başı savuğ.

[1] Bayatı

Şirinbəyimin ürəyi qopmacaya düşmüşdü. İndi o həm toyuğun uçurulmasını istəyir, həm də qorxurdu. Qorxurdu ki, balasının qayıtmayacağına dəlalət eləyə. Ananın inamını qıra. Ana ürəyi inanırdı. Qonşu arvad toyuğu döşü bərabərinə qaldırıb, bir-iki kərə yellədi və əllərini yuxarı hərləyib, göyərçin uçuranlar kimi uçurtdu. Toyuq, görünür, çox güclü və qızğın idi, xəstələrə yumurta satdığından arvad onu deyəsən, yaxşıca yemləyir, qayğısına qalırdı. Güclü qanadlarını lap az qala qara qartal qanadları kimi açıb yellədi, kiçik həyətin üstündən xeyli aralandı, çəpərin o biri üzündə harasa uçub endi. Amma hara düşdüyünü, nə həyətdə durub əli döşündə həyəcanlar içində gözləyən Şirinbəyim, nə də damda durub onun uçuşunu izləyən sahibəsi gördü.

Şirinbəyim ufuldayıb yerə çökəndə, qonşu qadın təəssüf və bədbinliklə damdan yerə endi. "Çər dəymiş hara düşdü görəsən? Mənsə yazıq arvada təskinlik vermək istəyirdim", – peşman-peşman həyəti tərk elədi.

* * *

Şirinbəyimin artıq Zeynalabdindən əli üzülmüşdü. Axır məktubunu gətirən Şirvan zəvvarları gedən vaxtdan nə öldüsü məlumdu, nə qaldısı. Bu yandan da Məhəmmədəli – qardaşı yolu getmək xəyalına düşmüşdü. Dərs oxumağı bəhanə eləyib Bağdada yollanmışdı. Amma ana yəqin eləmişdi ki, Məhəmmədəlidən də bu evə dönən olmayacaq. Gedəndə: "Ana, incimə, – demişdi, – mən də Zeynalabdin kimi bu gen dünyanı görmək, elm adamlarıynan görüşmək istəyirəm. Südünü halal elə, ana!" deyə yalvarmışdı. Haram eləyə bilədimi, Şirinbəyim ana?

Arvad bir də onda gördü ki, dörd divar arasında tək qalıb. Kişi gecə-gündüz ya mədrəsədə, ya da xuddamlarla imam qulluğunda olurdu. O isə... özbaşına buraxılmışdı. Arabir kişinin kitablarından götürüb oxumaq istəyirdi. Bunların da hamısı ərəb və fars dillərindəydi. Kişi az qala xörəyi də ondan ərəbcə istəyirdi, çayı da. Şirinbəyim də ki...

Qərəz, bir gün nədənsə axund evə vaxtından bir az tez gəlmişdi. Şirinbəyim onun yeməyini verdi. Qəhvəsini dəmləyib gətirdi. Kişi qəhvəni içib, əlini yanındakı taxçada duran kitablara uzadanda Şirinbəyim dilləndi:

– Əl saxla, Axund, sənə sözüm var.

Şirinbəyimin səsində Axund İskəndərin indiyəcən eşitmədiyi bir ahəng var idi. Ayrı vaxt olsaydı heç eşitməzliyə vurardı. Amma bu səs Axunda nə isə başqa bir təsir bağışladı. Diksindi elə bil. Kitab üçün uzanan əli havada qaldı. Yarımçıq bir yol cızıb dizinin üstünə qayıtdı. Möhür



yeri qaralan alnına tərəf qalxmış qaşlar altından maraq dolu gözlərini Şirinbəyimə zillədi. Şirinbəyim bu gözlərin əsil rəngini bəlkə də heç indiyəcən belə aydın görməmişdi. Onlarda heç vaxt eşqi-ilahi zikrindən başqa bir hiss oxumamış, duymamışdı.

– Buyur...

– Axund, – Şirinbəyim sözə başladı və Axund Kərbəlayı İskəndər özlüyündə bunu da qeyd elədi ki, Şirinbəyim deyəsən, çoxdan ona "Axund" deməyə başlayıb.

– Axund, məni Şirvana yola sal.

– Necə, kimiynən, neyçün?

– Neyçünün bilirsən. Balalarım yox, qohum-qardaşım yox, çərləyirəm. Şirvan zəvvarlarıynan sal yola gedim.

"Qayıdaram", "gələrəm" demədi.

– Sən naməhrəm adamlarnan necə gedə bilərsən? Yoldu. Bunun dəvəyə, ata minib-düşməyi, gecə karvansaralarda qalmağı var.

– Qoca arvadlardan birinə, anasını ziyarətə gətirənlərdən birinə qoş.

Deyəsən, arvad hər şeyi fikirləşib qət eləmişdi.

– Mənim talağım altında olan zənən yad-naməhrəm adamlara qoşulub gedə bilməz. Cəmbəm götürməz.

– Neynək, "kəbinim halal, canım azad". Geri oxu özün talağımı. Axund ağa, sənə nə övlad, nə də arvad lazımdı. Onsuz da günün ziyarətgahda keçir.

Kişi diksindi. Amma yenə də özünü ələ aldı, qeyzini zorlayıb, sakit səslə danışmağa başladı:

– Əgər talağını geri oxumasam? Axı yaxşı bilirsən ki, talaq şərən kişiyə məxsusdu. Verə də bilər, verməyə də...

Şirinbəyim də sakit, amma qəti səslə dilləndi:

– Neynək. Onda günahıma, babalıma qatlaşarsan. Gətirdiyin çörəyi yeməyəcəm, suyu içməyəcəyəm. Libası geyməyəcəm.

– Nəynən dolanacaqsan? – kişi bu qətiyyətə anlamadığı və heç bir zaman anlamayacağı heyrətlə qulaq asırdı.

Şirinbəyim əlilə xalçanın xovunu hamarlaya-hamarlaya dedi:

– Heç neynən. Yeyib-içməyəcəm. Allah neçə gün ömür qoysa, canıma qəsd eləyəcəm.

– Cəhənnəmlik olacaqsan, xəsərəddünya...

– Olum. Allahımın qulluğunda, Fatimeyi-Zəhra qulluğunda özüm cavab verəcəm. Səni mənim qəbrimə ki qoymayacaqlar. Əgər talağımı xoşluqla versən, mənə bircə yol xərci, bir də bu əynimdəki paltarnan.

çarşabımı halal elə! İyirmi ildən artıq qulluğunda durmuşam. Səndən bir xoş üz görməmişəm. Əməyim halalın olsun – bu paltarı mənə halal elə. Eləməsən, Şirvana çatan kimi qardaşlarım onun da qiymətini sənə göndərər.

– Mədinə arvadları Rəsuli-xudanı[1] "Tülaül-bədri-əleyna"[2] nəğməsilə qarşıladılar.

– Anlamadım...

– Anlamazsan. Çünki ürəyində Allah xofu, peyğəmbər məhəbbəti yoxdur.

– Nə sən peyğəmbərsən, axund, nə mən mədinəli arvad...

Kişi yaralanmışdı. Əgər Axund İskəndər ömründə elmə həvəsdən başqa bir hiss, bir həyəcan keçirmişdisə, o da elə bu gün idi.

– Yaxşı, – dedi, – talaq, talaq, talaqsan. Siğəni özüm elə indidən geri oxuyuram. Bu gündən sən mənə naməhrəmsən. Lap bu günlərdə Şirvana gedən karvanda münasib adam tapıb, səni onlara tapşıraram. Qalan günah öz boynuna. Nə istəyirsən evdən yığ-götür... Mənə də kitablarımdan başqa heç nə lazım deyil. Amma dur itil gözümün qabağından. Yola düşən günəcən bu evdən qədəm kənara qoyma. Mən dərgahdakı hücrədə qalacağam. Vaxtına hazır ol. Səfər günü sənə xəbər olunar.

Axund Kərbəlayı İskəndər bütün bunları birnəfəsə deyib qalxdı, hirslə qapını çırpıb getdi.

Şirinbəyim üzünü qətlgaha tərəf çevirdi, əllərini göyə qaldırdı.

– Şükür sənə, xudaya, ey qətlgah sahibi, ey mənə indi qəriblik pənahı, qibləmə çevrilən ağam Hüseyn, şükür Allahın birliyinə. Canım azad oldu, ay gözəl Allahım!

## XOŞ GÖRDÜK, SƏYYAH!

Baba Sakit onun fikrindəki dəyişiklikləri tez duydu. Özünəməxsus bir həssaslıqla gəncin gözlərindən oxudu bu arzuları, dedi:

– Övlad, səyahətlər, böyük qüvvət tələb edir. Səyyah dərvişə qardaşdır. Cəlayi-vətəndir. Bu yola qədəm qoydunmu, daha evindən, ailədən, əqrəbandan əl çəkməlisən. Əhli-əyalın olmayacaq. Yurdun, yuvan tonqallar başı, dostun ötəri karvanlar, ev-eşiyin birəli-taxtabitili karvansaralar, zaviyələr, mağaralar, yağışdan-günəşdən daldalanacağın, kölgələnəcəyin qayalar dibi, kahalar qoynu olacaq. Qərib, qürbət ellərdə azarladınmı baxanın, acdınmı yeməyini verənin olmayacaq. Yolurdunmu altının döşəyi anan torpaq, üstünün yorğanı atan göylərdir. Başına, alnına, sənə rahatlıq gətirən isti, mehriban bir əl toxunmayacaq. Çox şeylərdən məhrum olacaqsan. Amma Yusif Sinəçak kimi sultanlara belə baş əymədən dünyadan keçən məğrur insanlar həmsöhbətindi. Yollarda "Allah dostu" dərviş qardaşlarının, gəzdiyin kənd-kəsəklərdə füqəranın acı həyatını görəcəksən. Zülmün, ədalətin daban-dabana zidd olduğunu, haqsızlığın dünyanı başına götürdüyünü, insanların ömürbillah ədalət, haqq axtarmaqda olduğunu görəcəksən. "İnsanların ən yaxşısı insanlara yaxşılıq edəndir" deyən ərəb müdrikinin həqiqətini dərk edəndən sonra bu qərara gələcəksən ki, əsil insan Günəşə oxşamalıdır. Onun sıcaq nəvazişi də, təbəssümü də hamıya eyni dərəcədə nur saçmalı, çatmalıdır.

Bir neçə gündən bəri böyük səfər hazırlığı başa çatmışdı. O, Kərbəlaya gedən bir karvanla öz qərarını ata-anasına bildirmiş, evlənməkdən özünün imtina etdiyini, səyahətlər eşqini bacardıqca bu məktubda aydın izaha çalışmışdı. Məktubu göndərəndən sonra tamamilə sükunət tapmışdı. Atasının ona verdiyi bir miqdar toy puluna Şirvandan xam ipək alıb, Hindistana səfərə çıxmağa hazırlaşan bir karvanın sarbanına təhvil vermişdi. Bütün bu günlərdə kiçik dayısı Dövran onun yanında olmuş, ondan ayrılmamış, gördüyü işlərdə yardımçısı olmuşdu. Dövran onun verdiyi əmrlər, göstərişlər, apardığı danışıqlar ilə xeyli maraqlanmış, Zeynalabdinin 17 yaşlı bir cavan deyil, 25-30 yaşlı qabil bir kişi kimi rəftarını, iş tutduğunu görüncə bacısı oğlu sarıdan lap arxayınlaşmış, özü də bacısına bir məktub yazıb biçarə ananı arxayınlaşdırmağa çalışmışdı.

Sabah sübh vaxtı karvan Təbrizə, oradan da Hindistana yola düşəcəkdi. Bu karvanla Zeynalabdin 37 illik səyahətinə başlayaraq, 37 il sərgərdan, evsiz-eşiksiz dolaşdığı Hindistan, Pakistan, Banqladeş, Sərəndib, Seylon, Uzaq və Yaxın Asiya, Uzaq və Yaxın Şərq ölkələri, Ərəbistan, Türkiyə və başqa yerləri, dünyanın yarıdan çoxunu gəzib görəcəkdi. İndi şair Təmkin idi o! Səyyah Zeynalabdin idi o! Aşiq Zeynalabdin idi o! Coğrafiyaşünas etnoqraf Zeynalabdin idi. Və başlıcası bizim həmvətənimiz, bizi dünyaya saydıran ulu vətəndaşlarımızdan biri. Yerlimiz, dünya ünlü vətəndaşımız, ulu babamız. Canımız-ciyərimiz idi o!

İndi o bu yolun astanasında dayanmışdı. Kaş onun kitablarından başqa xalqlar, ölkələr, qəbilələr, tayfalar haqqında, zəmanəsinin ulu,

[1] Məhəmmədin Məkkədən Mədinəyə köçdüyü hicrət ili nəzərdə tutulur.
[2] "Allahın nuru tülu elədi".

ünlü insanları haqqında öyrəndiklərimizin yüzdən biriycən özü haqqında da öyrənə biləydik. Bu müdrik, bu təvazökar insan öz tərcümeyi-halını yazmayıb, haradasa əsərlərinin ora-burasına səpələnən xırdaca işarə və qeydlərdən öyrəndiklərimizdə də o qədər sual var ki! Alimlər onun haqqında dissertasiyalar müdafiə edib, cild-cild əsərlər yazıblar, onu dünya tanıyır, amma həyatı hələ də dəqiq, dürüst öyrənilməyib. Zidd fikirlər, dürüst olmayan tarizlər... Nə olar! Olsun! Onun həyatı əfsanələrə qarışsa da, bizimçün əzizdir. Bir müqəddəs kimi. Bir bilgin alim kimi, bir ermiş ərən kimi. Adımızı beş kitabı ilə dünya elminə tanıdan adlı-sanlı vətəndaş kimi. Qəlbimizin doğması şair Təmkin kimi. Baba dağından çıxan ildırımlar kimi. Muğanın göy xalı çəmənləri kimi, Şirvanın nar çiçəkləri kimi.

Zeynalabdin səyyahlar, dünyanın, kainatın sirlərinə vaqif olmağa cəhd edən və buna nail olan bilginlər kimi dühalar süfrəsindən payını götürmüşdü. Əzəl məclisində badəsini içmişdi – butasını almışdı. Bu buta – dünyamızı dərk etmək, öyrəndiklərini başqalarına da anlatmaq eşqi idi.

Dövran ona dedi:

– Bəlkə, bir az da qalasan, gələn karvanla gedərsən.

Cavab verdi:

– Xeyrül-xeyr, ma kanə acilətün – xeyir işi gecikdirmə.

Əgər o zaman yanında olsaydıq, biz də deyərdik:

– Səfərin xeyirli olsun, yolun uğurlu olsun. İndi səfərinə çıxdığın hind məsəlində deyilir: "Yolu tanıyan adamla yoldaş olmaq, şəkər yemək kimi şeydir". Uzun yollarında, sonsuz səfərlərində həmişə şəkər yeyəsən, baba! – deyərdik və ardınca bir cam Nanəli bulağının suyundan atardıq.

Aydın olsun, ətirli olsun yolların!






# Gənclik

# ÇOVĞUN

Səhər karvan yola çıxanda hava aydın idi. Payız günəşi arabir buludların arasından boylanır, yerə, axşamdan qırov bağlamış yola zərli şüalar saçırdı. Qırov minbir almaz dənələri kimi par-par parıldayır, elə bil günəşlə bəhsə girib, dünyanı daha çox işığa, nura qərq eləmək istəyirdi. Adamlar bərk-bərk bürünsələr də, səhərin şaxtası, ayazı qılınc kimi kəssə də üşümürdülər, sevinclə, fərəhlə irəliləyirdilər. Zeynalabdin də beləydi. O da yarımkürkünün üstündən boğazına doladığı başlığı bir az da geri itələmişdi, alnını açmışdı. Tər alnından buxarlanıb nəfəsindən çıxan buxara birləşir, başının üstündən havaya qalxıb donur, itirdi. Özü də səbəbini anlamadığı, qəlbinə dolmuş fərəh hissi onu irəlilədirdi. Dövran dayının bağışladığı başlığın bir ucunu da açdı; dolanıb boynunu qızdıran ikinci ucunu da açmaq istəyəndə, yanınca gedən İmam Rza zəvvarı mane oldu:

– Qızışma, oğul! Heç özün də bilməzsən ki, soyuq səni hardan qapıb aldı. Başlığın ucunu alnına çək, insana nə gəlsə başdan gələr. Başdan gələn azarın davası yoxdu.

Zeynalabdin bir söz demədisə də, ürəyində mızıldandı: "Dünya gör-götürünə söz deyə bilmərəm, baba, amma... Amma tər məni isladıb paltarımı yaş eləsə, onu harda, nəynən dəyişəcəm? Bəs eşitməmisən ki, yeriyən adama soyuq dəyməz?"

Bir söz demədən, qocanın qayğıkeş qəlbini qırmamaq üçün başlığını azacıq alnına tərəf itələdi. Addımları sözünə baxmadan sürətini artırırdı. Cavan qəlbi nə üçünsə, kimin üçünsə çırpınırdı. Yeni-yeni yerlər, dünyalar, – yeni-yeni insanlar görmək həvəsi ürəyini titrədirdi. Bununla belə öyrənməyə başladığı bu yerlərin adamlarının dillərində təzə nə eşidirdisə, indi və elə həmişə də ürəyində təkrarlayırdı: ərəbcə, farsca, doğma dilində və yeni öyrəndiklərini... Şəcər dərəxt – ağac. "Belədə dillərin heç birini unutmaram. Müəllim belə demişdi: bildiyin dilləri unutmamaq üçün yol getdikcə, harasa tənha yeridikcə ətrafında gördüklərini ürəyində həmin dillərdə təkrarla. Bu sənə bir neçə cəhətdən xeyirdir: əvvələ, öyrəndiyin dili yaddan çıxarmazsan, digər tərəfdən, qəlbində heç vaxt, heç kəsin qarasınca deyinməz, basıb-kəsməz, fikir

eləməzsən – bihudədi. Həmişə ürəyin təmiz, kin-küdurətdən pak olar. Ətrafında gördüklərini təkrarlayandan sonra əzbər bildiyin şeirlərə keç! Hansı dildə nə şeir bilirsənsə, ürəyində oxu. Həm şeri unutmazsan, həm də dediyim kimi bihudə fikirlər qəlbinə yol tapmaz".

Baba Sakitin nəsihəti indi karvanda adam tanımadığı, dost-aşinası olmayan bir zamanda onun köməyinə gəlirdi. Zeynalabdin Həzrəti İmam Rza zəvvarı qocadan bir-iki addım irəlidə yeridikcə ürəyində ətrafında gördüklərini, bildiyi dillərdə təkrara başladı. Fəza – asiman – göy!.. Allah – xuda – yəzdan!.. Göy – tanrı!.. turab – zəmin – torpaq!..

Torpaq isə az qırov altından görünməyə başlayırdı. Günəş yeri isindirdikcə qırov buxarlanıb yox olur, nəmiş torpaq ağımtıl köynəkdən çıxırdı. Qurumuş qağdan, dəvətikanı üzə çıxırdı. Dəvələr aram-aram, ləngər vura-vura irəlilədikcə hərdənbir əyri boyunlarını yolun qırağına tərəf uzadır, lök dodaqları ilə bu tikandan bir tutam qoparıb, yaraşıqlı başlarını havaya qaldırır, sarımtıl uzun dişlər gövşək vurduqca tikan yağ kimi əriyib yox olurdu. Amma dəvə elə uzun yolu, xeyli vaxt aram gedişinə həmahəng olaraq, göyşək vurmaqda davam edirdi.

Karvan irəliləyirdi. Heç bir şey havanın pozula biləcəyini bu parça-parça ağ pambıq kimi buludlar arasında görünən firuzəyi göylərin tutula biləcəyini xəbər vermirdi, soyuq kəssə də buludlar elə uzaq, səma elə dərin, göylər elə aydın, buludlar elə ağ idi ki...

Zeynalabdin karvanın tərkibi ilə xeyli maraqlanırdı. Bu karvan onun Kərbəladan Şamaxıya gələrkən qoşulduğu karvana o qədər də bənzəmirdi. Orada nə var idi ki?.. Bir neçə dərviş dəstəsi... burda da var... Özü də onlardan xeyli çox, tərkibi də, geyimi də müxtəlif... Orada bir neçə ərəb, fars, türk taciri, əksəri isə azərbaycanlılar idi... Zahirləri ilə də, o tacirlərin, ya dərvişlərin geyimi bir-birindən çox seçilmirdi. Qara, ağ, xınalı-qırmızı saqqal... düz biçimli burun, daha nə ilə?.. Hə... Dilləri... Əgər eyni bir dildə danışmasaydılar, bəzən seçmək də çətinləşirdi... Amma burada, bu karvanda... Bütöv bir qoyunun uzun tüklü dərisindən olduqca böyük papaq qoymuş, zolaqlı sırınma xalat geymiş və belini qurşaqla sıx bağlamış türkmənlər, əlvan çapanı üstündən əlvan yaylıq qurşaq bağlamış özbəklər, üst-üstdən bir neçə taqə şalı başına, belinə, çiyninə dolamış urdular, keçə uzunboğaz, ağ qoyun dərisindən kürk geymiş və başına xəz papaq qoymuş ruslar, kufiyəsinin damalı uclarını boynuna sarımış, qalın əbalı ərəblər... Eh daha kimlər var idi?.. Hamısı da zəngin Şirvan bazarından Təbrizin məşhur bazarına gedirdi.



Zeynalabdin hər mənzildə yol boyu gördüyü kəndlərin, şəhərlərin adını, xüsusiyyətini, insanların geyimini, bir sözlə, hələlik nə "əcaib-qəraib" görürdüsə, Şamaxıda, Dövran dayısı ilə birlikdə bazarda gəzərkən kitabsatanın dükanından aldığı mixəyi meşin cildli bayaza qeyd edirdi. Hələlik bu qeydləri nə üçün, nədən ötəri yazıldığı özü üçün də o qədər aydın deyildi. Sadəcə, vətənə qayıdandan sonra bu qəribəlikləri unutmayıb bəlkə də, ata-anasına nağıl etməyi, ya da yadına salıb müsahiblərinə danışmağı, bəlkə də elə öz-özü üçün unutmamağı nəzərdə tutmuşdu.

Bayaza bütün bu gördüyü aləm də öz qış gözəlliyi, öz nurlu ənginliyi ilə daxil olacaqdı: milyonlarla "almazı", milyardlarla parıltısı göz qamaşdıran şəfəqi, az sonra köynəyini soyunmuş torpağı, tikanları, qağdanları, dəvələri əyri boynu, lök dodağı ilə. Asiyadan gələn tacirlərin qıyıq gözləri, almacığı qabarıq yanaqları, yastı burunları ilə.

Belə qışı, belə qırovu Ərəbistanda az-az, bəlkə də heç ömrün boyu görə bilməzsən. Belə buxarlı, buxar qalxan nəfəs haqqında danışsan da, inanan olmaz. Lap qazandan, çaydandan qalxan buxar kimi... Qaynar sudan qalxan buxar kimidi insan nəfəsi...

Külək şimaldan qalxdı, özü də yavaş-yavaş, heç kəsi narahat etməyən meh kimi... Addımlar, qızğın cavan yerişləri bu mehdən narahat olmadı. Yol yeriməkdən qızmış gənc bədənlər, hətta xoşhallandı da. Yol da dəyişməyə başlamışdı. Enişli-yoxuşlu olmuşdu. Bayaqkı düzənlik öz qumluqları ilə arxada qalmışdı. Haradansa qara qayalar çıxmışdı ortaya... Göyün üzünə hərdən-hərdən bir parça qara bulud gəlməyə başladı. Karvanın qabağında gedən çarvadar[1] sarbana[2] bəzirganbaşıya[3] nə dedisə, sarban qara lökün ovsarını bazusuna dolayıb bağırdı:

– Ey... ha... ha... ey... ha...

İllərin yolçusu lök sahibinin səsindəki həyəcanı hansı bir gizli instinkt iləsə anladı, yerişinə haram qatdı və sürətini artırdı. Bəzirganlardan ən cavanı karvan boyu atını geri çapdıqca bağırırdı:

– Hava dəyişir, hava dəyişiiirr... Yerişinizə haram qatın...

Zeynalabdin yalnız indi, mənzildə dincəlirkən bayazına yazmalı olduğu qəribəlikləri unudub, başını qaldırdı və göyə baxdı. Necə olub

[1] Bələdçi
[2] Karvan sahibi
[3] Tanınmış baş tacir

ki, o fikir verməyib? Göyün üzünü qara buludlar alıb. Bayaqkı ağ buludlar, firuzəyi səma yoxa çıxıb...

Narın, xırda, quru qar dənəcikləri xırdagöz ələkdən ələnən kimi səpələnməyə başladı... Bir an içində bu quru, narın qar dənəcikləri paltarların büküşünə, papaqların, əmmamələrin, sarıqların, qara qayaların, təpələrin, torpağın üstünə ələnib aləmi ağ yorğana, ağ kəfənə, ağ libasa bürüməyə başladı. Olduqca narın, amma bərklikdə doludan seçilməyən qar dənələri gözlərə, dodaqlara, yanaqlara çırpdıqca iynə kimi sancır, bığ-saqqalları ağardıb, bir az əvvəlki şəvəsaqqal cavan taciri yüz ilin qocasına çevirirdi. Qar dənəcikləri o qədər bərk idi ki, nəfəsdən, üzün istisindən, bədənlərin hərarətindən ərimək bilmir, əksinə damarlardakı qana da sirayət edib bu qızğın həyat çeşməsini də dondurmaq istəyirdi. Qar dənələrinin elə bil insanların və heyvanların gözlərilə xüsusi düşmənçiliyi var idi. Dənəciklər gözlərə dəydikcə kirpiklər örtülür, bəbəklər acışırdı. Adamlar da, heyvanlar da gözüyumulu hərəkət edirdi. Külək getdikcə güclənib, sərin mehdən qasırğaya, sakit yağan qar çovğununa çevrilirdi. Dəvələr, atlar başlarını külək səmtindən yana çevirib irəliləyir, yolu görmürdülər.

Adamlar atların quyruğundan, dəvələrin budundan, kapanından[1], ovsarın bir bəndini əlinə keçirə bilən ovsardan yapışır, əlinə bir şey keçməyənlər əl-ələ, qol-qola, çiyin-çiyinə yeriyirdi. Bir az əvvəl bir-birini tanımayıb kəlmə kəsməyənlər, indi bir-birini və özünü xilas etmək üçün nəfəs-nəfəsə gedirdi. Əlinə heç bir şey keçməyən zavallılar, tək dərvişlər, tənha zəvvarlar, yolçu-yolaqçılar yıxıla-dura güclə hərəkət eləyirdi. Ağız-burnunun qanı bir-birinə qarışıb donan əlsiz-ayaqsızlardan yıxılıb, yolda qalan olsaydı da, karvandan kimsənin xəbəri olmazdı. Donub qar altında qalardı. Bir də qar çəkiləndən sonra meyiti tapılardı...

Çovğun getdikcə daha da şiddətlənirdi.

Zeynalabdin bir az əvvəl ona ağırlıq edən geyməsinə daha da sıx bürünüb boşaltdığı qurşağını bərkitmişdi. Dövran dayısının başlığını qaşlarının üstünəcən çəkib uclarını boğazına dolamış, sonra da arxada düyün vurub kürəyinin ortasına atmışdı. Dayıdostunun toxuduğu əlvan yun şətəllər çarığın içində ayağını, ikibarmaq əlcəklər əllərini isti saxlayırdı. Özündən arxayın idi Zeynalabdin. Kirələdiyi ata da minməmişdi. At üstündə adam daha çox üşüyər deyə, piyada gedirdi. Elə bu

[1] Dəvənin üstünə salınan palaz örtük



zaman yanınca gedən, indi isə ondan azacıq arxada qalmış imam Rza zəvvarı qoca yadına düşdü və əlilə gözlərini qar dənələrindən qoruya-qoruya göz gəzdirdi, qocanı axtarmağa başladı... Qoca karvandan lap axırda irəliləyir, küləyə müqavimət göstərə bilmək üçün qabağa əyilib, iki bükülmüşdü. Zeynalabdin geri döndü. Küləyin əks istiqamətində yerimək asan idi. Sürətlə qocaya çatıb, qoluna girdi, ağzını onun qulağına söykəyib küləyin səsindən bir şey eşitsin deyə ucadan səsləndi:

– Sən gözlərini yum, baba! Qorxma, qolunu buraxmaram!

Sonra da karvana, dəvələrin daldası ilə irəliləyən adamlara tərəf yönəldi. Qocanın dodaqları təşəkkür pıçıldadı. Amma Zeynalabdin bunu eşidə bilməzdi, eşitmədi də. Heç vəziyyət də elə deyildi, təşəkkür-zad yada düşmürdü. Deyən də, eşidən də eyni vəziyyətdə idi. Təbiətin qəribəliklərindən biri, küləyin amansız qamçısı qamçılayırdı karvan əhlini. İnsanlar yıxıla-dura yeriyir, acı ruzigarın, hər zərrəsi bir iynə kimi sifətləri deşən qar-buz dənəciklərinin zərbələri altında bir-birinə dayaq olmağa çalışır, bir-birindən kömək umaraq küləyə qarşı sinə gərib yeriyirdilər.

Külək yerdəki qarı göyə, göydəkini insanların bədəninə çırpdıqca, azacıq bir büküşdən, yamaq yerindən yol tapıb qar dənəcikləri bədənlərə, üz-gözün açıq yerlərinə sancılırdı. Ərimək bilmirdi. Paltarlar da, bığ-saqqallar da buz bağlamışdı. Əllər qaxaca dönmüşdü. Nəfəsgaha gedən hava da donub, içərilərə qana-iliyə sirayət edirdi.

Dəvələr, atlar, qatır və uzunqulaqlar başlarını bir-birinin böyrünə qısıb hərəkət eləyirdi. Heyvanların da kirpiklərinin dibi nazik buz şırımı bağlamışdı.

Ara qarışıb məzhəb itmişdi. Yol-riz az müddətdə elə bağlanmış, qarla elə örtülmüşdü ki, tanınmalısı qalmamışdı.

Çarvadarlar, sarbanlar, bəzirganlar bir-birinə qarışmışdı, hərə öz hayındaydı. Yol haqqında düşünən yox idi. Hamı zərrə-doludan başını qoruyurdu. Nəfəs kəsən soyuq, ayaz, şaxta iliklərə nüfuz edən macalda yol heç kimin yadına düşmürdü. İnsanlar can gəzdirir, can qoruyurdu. Qoruyurdu ki, bu yandırıcı, dondurucu bəladan xilas olsunlar. Sonra... sonra yolu tapmaq olardı!

...Neçə saat belə çəkdi? Heç kim bilmədi. Bircə şeyi təcrübəli yolçular yaxşı bilirdilər ki, dayanmaq olmaz. Dayanmaq – donmaq, dayanmaq – ölmək deməkdir. Yerimək, hərəkət lazımdır... Heyvan da, insan da bir-birindən qopunub ayrılmaq istəmirdi. Dirilik birlikdəydi. Heyvan da duyurdu bunu, insan da. Süd kimi ağ qar pərdənin dalında günəşmi

çıxmışdı, aymı çıxmışdı, axşammı düşmüşdü – bilən yox idi. Yolda neçə zəif, neçə cansız, neçə əlsiz-ayaqsız, karvana qoşulub bir neçə mənzil o yandakı şəhərə gedən yolçu yolda düşüb qaldımı, qalmadımı – bunu bilən yox idi...

Deyəsən, qar yavaş-yavaş azalmağa, seyrəkləşməyə başladı. Deyəsən ruzigar da gücdən düşürdü. Deyəsən nəfəslər də nisbətən asan alınır, qanı, iliyi dondurmurdu. Deyəsən ayaqlara gir gəldi, amma əllər hələ də qaxac idi. Donu haçan açılacaqdı bu əllərin – bilən yox idi.

Bəzirganbaşı bükülüb oturduğu yəhərdə azacıq dikəldi. Çovğun bərkiyəndə atın cilovunu qoluna keçirmiş, qollarını da çarpazlayıb qoynuna soxmuş, üz-gözünü buz dənəciklərindən qorumaq üçün yəhər üstündə iki bükülüb əyləşmiş, başını az qala yəhərin qaşına söykəmişdi. Ağıllı heyvanı – atı öz ixtiyarına buraxmışdı. O, atı sürmürdü, at özü aparırdı onu. İndi yəhərdə qalxındı, seyrəlmiş qar arxasında güclə bəlirən ətrafa göz gəzdirdi. Həyat eşqilə ölümə qarşı sinə gərən, bir-birinin qoluna söykənmiş, gözüyumulu irəliləyən insanları seyr etdi. Hamı yorulmuş, əldən, taqətdən düşmüşdü. Qar isə getdikcə lap seyrəlir, hava aralanırdı. Deyəsən, günorta namazı çoxdan ötmüş, qəzaya qalmışdı. Xilas olduqları üçün böyük pərvərdigara niyaz etmək zamanı çatmışdı. Bəzirganbaşı atını saxlayanda sarbanlardan, çarvadarlardan bir neçəsi də özünə gəlib dayandı. Bəzirganbaşı yan tərəfdə qar altında zorla seçilən qayanı göstərdi:

– Sarban... Həmdullah, karvanı qayanın daldasına tərəf sürün. Heyvana da, adama da dinclik gərəkdi.

İnsanlar yavaş-yavaş yorucu, qorxunc yuxudan oyanırmış kimi, qaxac olmuş əlləri ilə üst-başlarından, bığ-saqqallarından qarı silkələməyə, hoyxurub azacıq isinmiş nəfəsləri ilə əllərinin donunu açmağa başladılar. Eyni zamanda nicat yeri imiş kimi qayanın daldasına doğru irəlilədilər.

Bura, nəhəng qayanın altı çadır kimi boş bir yer idi. Künc-bucağa xeyli qar vurub toplamışdısa da, külək onu sovurub dağıtmışdı. Bəyaz yerlər çox idi. Adamlar yenə qüvvə qazanmış kimi işə girişdilər. Qar topalarını təmizləyib, tonqal qalamaq üçün yer açdılar. Tələm-tələsik yandırılmış tonqalın istiliyi insanların vücuduna qan kimi axmağa başladı.

Sarbanlardan biri tonqalın hər iki tərəfinə linglər basdırıb, üçüncü lingi də onun haça ucunun üstündən atdı. Bu ara o biri sarban və çarvadarlar xurcun və məfrəşlərdən çıxardıqları satıllara, sərpiclərə təmiz



yerin qarından basıb doldurdular, zəncirlə atma lingin ortasına, düz alov dillərinin yaladığı yerə bərkitdilər. Qar əriyib suya çevrildi və qaynamağa başlayanda ovucla, xışma-xışma sərnic və satılların içərisinə quru çay tökdülər. Donmaqdan canı üzülənlərin bəzisi çay atılmasını belə gözləmədən qaynanmamış sudan piyalə, fincan, mis tayqulp, birəlli qismindən əlinə keçən nə var idisə, onu doldurub, ağzını pörşələyə-pörşələyə hortuldadırdı...

Çay hazır olan kimi bütün karvan adamı tonqalın başında çay içirdi. Hələ ki, yemək heç kimin yadına düşmürdü. İsinmək, qızınmaq... Onların hələlik yeganə arzusu yalnız bu idi. Ağız-burunlarında donmuş qan, saqqal və bığlarda əriməkdə olan qara qarışıb üzüaşağı axır, çaya qarışırdı, amma heç kim bütün bunlara əhəmiyyət verəcək halda deyildi. His iyi verən, içinə çör-çöp, ocaqdan qalxan qara-qura dolmuş bu çay, indi onların dünyada içdikləri ən dadlı, ən şirin mayelərdəndi.

Bir-iki piyalə çaydan içib qızışandan sonra adamların yemək də yadına düşdü. Qar dayanmışdı. Kəndiri, çatısı, örkəni donub, bərkiyib doğanaqdan güclə açılan çuvallardan, xurcun və heybələrdən yol azuqəsi çıxarmağa başladılar. Daxili isinmə insanların üzünə təbəssüm gətirmişdi. Qorxu arxada qalmışdı. Xurcun və heybələrdən çıxarılan "tax-tax" çörəkləri qaynar suya salıb yumşaldır, fəsəli, külçə və kömbələrin donunu önlərinə çəkdikləri közdə açır, alayanıq, qarayanıq çeynəyirdilər.

Zeynalabdin də onların arasındaydı. Bütün yükünü – balaca çiyin heybəsini qasırğa vaxtında yolun harasındasa itirdiyinin fərqində olmayan imam Rza zəvvarı qoca, Zeynalabdinlə yanaşı tonqalın yanında əyləşmişdi. Cavan dostunun – xilaskarının verdiyi çaydan içir, yumşalıb pambığa dönmüş çörəyi dişsiz ağzında damağı ilə əzişdirib uda-uda düşünürdü: "Kimsən, nəçisən? Bilmirəm, bala! Allah amanında olasan. Mən yaşa çatanda özün qeyrətli dosta rast olasan. Sən olmasaydın, heybəmdən əvvəl özüm düşüb-qalmışdım o yollarda. O qarborandan çıxa bilməzdim. Allah özü birdi, birliyi xatirinə arxa-kömək olsun, səni yerin-göyün bəlalarından saxlasın, bala! Ağsaqqal atan varsa – atan, ağbirçək anan varsa – anan gözü yollardan qurtarsın. Bacın-qardaşın varsa, heç vaxt "vay qardaş" deməsin səninçin".

Zeynalabdin bütün bu düşüncələrdən xəbərsizdi. O yalnız insani vəzifəsini yerinə yetirirdi. O yalnız qocanın dərin düşüncəyə dalmış, yuxuluya bənzəyən gözlərində imdad oxuyurdu. O yalnız qarşısındakı

uzun illərin səfəri boyu, bir deyil, beş deyil, on beş deyil, dönə-dönə edəcəyi işləri görürdü. Bu hələ başlanğıc, ibtida idi. Hələ bu yollardan, bu qaralardan, bu çovğunlardan çox görəcəkdi. Çoxuna o, imdad əli uzadacaq, çoxundan özü kömək görəcək idi. Bu hələ harasıydı?! O qədər belə günlər, belə aylar, belə fəsillər, belə illər keçirəcəkdi. İndidən, ibtidadan irəlidə görməli olduğu işləri görürdü. İnsanlıq borcunu verirdi. İnsanlıq vəzifəsini yerinə yetirirdi.

## YENƏ YOLDA

Karvan Cavaddan cənuba tərəf irəliləyirdi. Bir qədər sonra Muğan düzü qurtaracaqdı. Araz çayını keçəcəkdilər. Bir qədər sonra da o, Təbrizi görəcəkdi. Eşitmişdi, Şirvan aşıqlarından biri toyda söylədiyi dastanda Təbrizi tərifləmişdi: "Təbrizin ətrafı bağdı, meşədi. İçində əyləşən bəydi, paşadı. Səkkiz min məhəllə, dörd min guşədi. Çarsusu, bazarı, yolu, Təbrizin". Əgər bunlardan dörddən biri də düzsə... O böyük, indiyəcən görmədiyi böyük bir şəhər, abad bir diyar görəcəkdi. Muğan səhrası bitib tükənmirdi. Atəşpərəst muğların adıyla bağlı, bir vaxt hunların "Ağhun" şəhəri kimi böyük, mərkəzi bir şəhər saldığı, türk-əsilli İran şahlarının tacqoyma mərasimi keçirdiyi, Xançobanın qoyun-quzusunun sığnağı – otlağı, "nahaq qanlara bais" Araz gözəli, Araz bəxyəli, xəncər kimi bağrı Arazla yaralı Muğan!.. Elə bil ki, Arazla bölünmüş Muğan dərdiydi aşığı dilləndirən. Gözəl səsiylə oxuyurdu; fəryad idi bu sözlər, bağrı parçalanmış bir xalqın fəryadı:

Ay həzarət, ay camaat,
Dağa qar düşdü, qar düşdü.
Özüm qaldım qürbət eldə
Yada yar düşdü, yar düşdü.

Gedin deyin anasına,
Sığal versin sonasına,
Yar, sinənin arasına
Bir cüt nar düşdü, nar düşdü.

Xəstə Qasımı qəm basdı,
Yar bizi zülfündən asdı,
Şeyda bülbül güldən küsdü,
Gülə xar düşdü, xar düşdü.



Bu fəryad, bu üşütmədən canı donmuş, gülü solmuş, bülbülü susmuş, aşığı xəstə düşmüş xalqın, başqa bir oğlu gəraylı bitər-bitməz ona səs verdi:

Bu yol Cavada gedər,
Aşar Cavada gedər,
Uçub könlümün quşu
Gör nə havada gedər.

Bu bölgü sonra olacaq, bu xəncər sonra saplanacaq köksümüzə. İndi isə Zeynalabdinin Təbriz üçün könlünün quşu uçmuşdu. Hələlik karvan ağır-ağır irəliləyirdi.

Dünən də belə gəlmişdilər. Təmkinlə, yırğalana-yırğalana. Gecəni karvansarada yatıb, bu gün təzədən yola çıxmaq istəyəndə, həyəti görüb təəccüblərindən məəttəl qaldılar. Bir gecənin içində qar yağıb aləmi ağ cunaya bürümüşdü. Boz qış göyünün üzü elə bozarmışdı ki, hamı bir-birinə dəydi. Sarban karvan əhlini tələsdirirdi:

– Tələsin, qardaşlar, nə qədər ki, külək, çovğun yoxdu çayı keçək. Sonra külək bərkiyər, əngələ düşərik. Çayı keçdik, karvansaradı. Ordan elə bilin ki, day Təbrizdi.

– Çoxdandı, neçə illərdi yollardayam, bu yerlərdə belə tez, payız macal qar görməmişəm...

– Təəccüblü şeydi...

– Allahın bəlasıdı...

– Hikmətdə sual yoxdu, Allah bilən yaxşıdı.

– La hövlə vəla qüvvətə...

– Mən gedəsi olmadım...

– Qalırsan qal, özün bil. Amma dalı qar day da bərkiyə bilər...

– Əşi... Nə qorxutmusuz özünüzü? İndi bir saatdan sonra gün çıxıb əridəcək, gedəcək qar işinin dalıycan. Bir az tütələyib yerə... Qış deyil ki, dalı çovğun ola. Payızdı...

Karvan artıq çayı haqlamışdı. Çayın üzünü nazik buz qanatov bağlamışdı. Qar hər yeri əməllicə örtdüyündən sarban dayaz yeri səhv salmışdı. Odur ki, dəvəçilərdən biri soyunub suya girdi. Qara nərin ovsarını qoluna keçirib yavaş-yavaş onu ardınca sürməyə başladı. Karvan ağır-ağır o biri sahilə çatanda soyunmuş dəvəçi gömgöy göyərmişdi. Dişləri şaqqıldayır, əsim-əsim əsirdi. Sarbanlar cəld bel götürüb "Şükür Allaha, salamat keçdik hamımız" deyə-deyə yeri bir yarım arşınacan qazdılar. Kişini lüt soyundurub, təzə qazılmış çalanın içinə uzandırdılar.

Boğazacan üstünü təzə torpaqla torpaqlayıb örtdülər. Çöldə qalan başını dəsmalla sarıdılar. Heç on beş dəqiqə keçməmiş kişinin rəngi özünə gəldi. Sifətindən buxar qalxmağa başladı. Sarbanlar, dəvəçilər onun bədənini qurulamaq üçün qətfə hazırladılar. Sonra yenidən torpağı açıb kişini çıxartdılar. "Anan torpaq qızışdırdı canını" deyib gülüşə-gülüşə və "təzədən soyuq dəyməsin" deyə tələsə-tələsə kişini qurulayıb, paltarını geyinməsinə yardım elədilər. Bütün bu əməliyyat zamanı hamı dəvəsi batmasın deyə, canından keçməyə hazır olan dəvəçiyə maraqla, sükut içində tamaşa eləyirdilər. Soyuqdan adamlar ayağının birini götürüb o birini qoyurdu. Çayın bu tayında qar az idi. Hava ayazımış, şaxta qarı qovurmuşdu. Qar ayaqlar altında xarıldayırdı.

İş bitən kimi Bəzirganbaşı işarə verdi və karvan yenidən yoluna davam etdi. Tələsirdilər. Heç kəs dayanmaq, ayaqüstü çörəkdən-zaddan yemək istəmirdi. Hamı çovğun qalxa biləcəyindən qorxub şəhərə çatmağa can atırdı.

Zeynalabdin quru qar üstündə yeridikcə düşünürdü: "Nə dərindir qürbət yarası şərimizdə? Görəsən bunun kökü nədədi? Nədən qürbətə düşüb bizim ellər? Ellərin adlı-sanlı oğulları? Soraqları məğribdən, məşriqdən, Afrikiyyədən[1], Rumdan... bütün yeddi iqlimdən gəlir... Didərgin... Yad ellərin bargahlarının zinəti... Yad iqlimlərin mədrəsələrinin, türbələrinin müddərisi, xüddamı... Atam kimiləri də olub... Kimdən, nədən qaçıblar? Nəyçün gediblər?.. Nə axtarıblar? Vətənlərində nə tapmayıblar? Bir vaxt o, atasının behişt misallı vətəndən cəhənnəmə bənzər Ərəbistan səhralarında yerləşən Kərbəlaya köçməsi haqqında Baba Sakit dərvişlə söhbət etmişdi. Onunla gedən söhbət indiki kimi yadındadı.

Çox iraqlardan başlamışdı Baba Sakit söhbətinə. Ağıllı hakimdən, sabit ticarətdən, qədirbilən hökmdardan danışmışdı. Sonra bölgü-bölgü olmuş, hər parçası bir dərəbəyin hökmü altında keçmiş vətənin yaralarından danışmışdı. "Hökmdarın", hər dərə bəyinin bir qaydası, "öz qanunu" var. Qanunsuzluq baş alıb gedir, – demişdi. Bir yerdə müəyyən bir günaha bir cəza, başqa bir yerdə həmin günaha başqa bir cəza verilir. Məmləkətin ticarəti kələntərlərin, darğaların, lap desən gəlmə tacirlərin rüsumuna verilib...

Aləm bir-birinə qarışıb. Gündə bu xan o biriynən dilləşir; bu, o birinin torpağını, o da bu birininkini ələ keçirməyə can atır. Qan-qırğın su

[1] Afrika



yerinə axır. Ara yerdə fağır-füqərə qırılır. Uşaqlar yetim, gəlinlər dul, qoca ata-analar oğulsuz, vətən – yiyəsiz qalır...

Təkcə son iyirmi-iyirmi beş il ərzində neçə qırğın baş verib.

Baba Sakitin söhbəti heç yadından çıxmır. O deyirdi:

– Dünya hələm-qələm dünyadı, övlad! Atan neynəsin?! Elə mənim özüm də o nisbətdə... Bir dəvə nəhr eləyənəcən[1] bir də görürsən ki, aləm dəydi bir-birinə...

Oğlan düşündü: "Yox, sən mənim atam kimi ola bilməzdin, səndəki mehribanlığın bircə zərrəsi atamda olsaydı, dünyanın ən xoşbəxt bəndəsi mən olardım".

Dərviş isə sözünə davamla deyirdi:

– Hə... Elə mən özüm də... atan fikirdəyəm. Bir nəzər yetir: Bakıda – Məlikməhəmməd xan, Şəkidə – Hüseyn xan, Qubada – Fətəli xan, Gəncədə – Cavad xan, Cavadda – Həsən xan, Qarabağda – İbrahim xan, İlisuda – Daniyal sultan, Talışda – Mirmustafa xan, Qazax... Şəmşədil... Eh! Xan, xan, sultan!.. Bircə mən əsgiyəm. Mən də özümə bu yiyəsiz dərələrin birini seçib adımı Sakit xan və ya Sakit sultan qoysam, mətləb tamam olar. Heç olmasa adımdan qan-qan yox, qada yox, sakitlik iyi gələr. Atanı qınama. Neynəsin? Qan-qadadan qaçıb fağır...

Baba Sakitin sözləri ağlına batsa da, anasının vətən həsrətilə çırpınan ürəyini başı altında həmişə duyar, qulağını sinəsinə söykəyib eşidər, yaş dolu gözlərini görərdi. Çəkdiyi ahlar yeri-göyü yandırırdı. Ana da hərdən Baba Sakitin dediyini deyirdi: "Kişi neyləsin? Xanlar bir qan-qada salmışdı ölkəyə ki, başını götürüb qaçdı". Bir ayrı vaxt isə deyinirdi: "Bəs eylə camaat necə dolanır? Xalx necə, biz də elə. El-günümüz içində dolanardıq. Elnən gələn qara gün toy-bayram olardı. Hamı necə, biz də elə".

Bir tərəfdən atası, bir tərəfdən anası haqlıydı. Baba Sakit deyirdi:

– Bir torpağın yolunda ölən, canını fəda eləyən yoxdursa, o torpaq oğulsuzdur, o oğul vətənsiz... Laqeyd hökmdarlar vətənimizi oğulsuz, oğullarımızı vətənsiz qoyublar.

İndi o bu sözlərə haqq verir, dünyanın yeddi iqliminə yayılmış alimlər, şairlər, rəssamlar, memarlar itirmiş vətənin gələcəyini düşünürdü: "Sən də onlardan biri oldun. Sən də səndən asılı olmayaraq didərgin düşdün. Yazdığın başqa dildə... Həyatın qürbət ellərdə..."

O daha üşümürdü. Həm qar yerdən çəkilmişdi. Həm də qızğın fikirlər vücudunu od kimi yandırırdı.

[1] Dəvə kəsilib soyulana qədərki vaxt

## YOL YOLDAŞLARI

Qocanın əynində ağ şalvar və ətəyi dizindən bir qarış yuxarı düz tikilmiş ağ köynək var idi. Bu qolsuz ağ, ərəbi donvari köynəyin üstündən gödəkcə – cübbə geymişdi. Həmişə açıq qalan tüklücə qollarını yağış yumuş, günəş qurutmuş küləklər döyüb aşılamışdı. Qollar qaralıb dəridən çox tünd mixəyi rəngli qaba parçadan tikilmiş qolçaqlara çevrilmişdi. Daha deyəsən, isti-soyuq duymayan bu qolların üstünü tərdən şoranlı, ağımtıl qabıq bağlamışdı. Şoran atmış torpağa bənzəyirdi. Əlindəki ağır çomaq da qollarının rəngində, biçimindəydi. Uzun, çoxdan daraq, su görmədiyindən kol-kol olmuş saçları yağlısov, qara qarğa qanadı kimi bərq vurur, çiyinlərinəcən uzanırdı. Heç kimə müraciət etmədən, heç kəsə yaxınlaşmadan iri, ər addımları ilə irəliləyir, çomağını özündən xeyli qabağa ata-ata addımlayır, kimsəni qaralamadan öz-özünə, ucadan deyirdi?

– Ey xuda, ey insanların qəlbinə ziya verən pərvərdigar!..

Bir dəfə Zeynalabdinin təzə yol yoldaşlarından biri, hərzə dərviş bu ziya sözünün ucundan tutub qocaya yaxınlaşdı:

– Mənimləsənmi, dədəm?

– Səninlə deyiləm...

– Bəs ziya dedin... Mənim adımdı Ziya...

– Addı... Sən eşitməsən də olar... Qəlbinin səsini eşit.

Ziya gülümsəyib qocadan ayrıldı, yoldaşlarına yaxınlaşdı.

– Dərsimi aldım.

Qiyasəddin:

– Elə də olmalıydı... Sənin belə dərslərə ehtiyacın çoxdu, – dedi.

– Qoca kişiylə nəyşin var?

– Xoşuma gəlir. Qocadı da, qoca deyil də.

– Allah adamıdı.

– Deyirlər, Həzrəti İmam Rza zəvvarıdı.

– Onda axıracan bizimlə yol-yoldaşıdı.

Başqa bir vaxt qocanın öz-özünə ucadan bu sözləri dediyini eşitdilər:

– Sənin daxilindəyəm, heç yerdən gəlməmişəm, heç yerə də getmirəm. Varlığındayam.

Bu daxili, amma ucadan səslənən mükalimədən sonra Zeynalabdinin qocaya olan marağı daha da artdı. Yavaş-yavaş özü də hiss etmədən İmam Rza zəvvarına yaxınlaşmağa başladı. Qoca da ona isinişirdi.



Hərzə, hər şeyə əbəs yerə burnunu soxan cavan olmadığını anladı, bir-iki müsahibədən sonra kamalını bəyəndi. Zeynalabdin onun bir dəfə ucadan səslənən daxili monoloqunu eşidib ona daha da yaxınlaşanda, sevdi qocanı.

– Allaha qovuşmaq istəyən insansansa, insanlar arasında yaşa və pak ol! Özgə malına xəyanət eləmə, yalan danışma, əməyi sev! Heç kəsin namusuna xəyanət gözü ilə baxma! Allaha çatmaq üçün bircə yol var: həqqin yolunu gərək düz gedəsən.

Qoca bu sözləri kimə deyirdi, bilmədi. Baba kimi sevdi onu Zeynalabdin. Bu sözlərdə atası Axund İskəndərin sərt tələbləri, anası Şirinbəyimin mehriban öyüdləri bir-birinə qovuşmuş, bir vəhdətə çevrilmişdi. Qoca isə sözünə davamla deyirdi:

– Özünü tanımayan insan Allahını da tanımaz. Sübhün gözəlliklərini yaradan, gecəni zülmətlərinə hakim, buludu göydə yeridən, ulduzları hərəkətə gətirən pərvərdigar, əvvəlimci dərəcədə insanın özünü müqəddəs yaratmışdır. İnsan özünün bu ali, bu müqəddəs vücudunu, varlığını dərk etmirsə – Allahını da dərk etməz. Başqa müqəddəs axtarmaq əbəsdi.

Zeynalabdin bacardıqca yumşaq şəkildə etiraz etmək, qocaya nəyi isə xatırlatmaq istədi:

– Bəs özünüz müqəddəs İmam Rza ziyarətinə... pay-piyada...

– Mənə baxma! Mənim dərd-sərim özgədi... Sən isə... Müqəddəslər sənin ətrafındadır. İntəhası sənin dideyi-həqbinlərin bağlanıb; görmürsən onları.

– Nədir o müqəddəs?

– Nə yox, kim!

– Kimdi?

– Göydən od yağdıran Günəş altında tər töka-töka biçin biçib övladlarına ruzi qazanan ata! Bətnində övlad gəzdirən gəlin! Od-alov içinə əyilib balaları üçün təndirə çörək yapıb xörək bişirən ana! Hansını deyim? Gedib minbir şübhələr içində, ölənlərin soyuq məzarının daş-divarını öpənlərin halına yazıq! Saydıqlarımın hərarət, insanlığa xidmət saçan qabarlı əllərini öp! Onlardı müqəddəs! Onlar!

Zeynalabdin günlər ötdükcə qoca yol yoldaşını daha böyük bir məhəbbətlə sevməyə başlayırdı. Qoca özü haqqında heç bir şey danışmırdı. Kim idi, hardan gəlib hayana və nə üçün gedirdi? Bunun əslini bilən yox idi.

Qəribə bir aləm idi karvan. Karvanın öz qayda-qanunları var idi. Bir neçə ay birlikdə yol gedən adamlar az vaxtdan sonra bir-birinə isinişir, dostlaşır, bəzən son tikəsini də yol yoldaşı ilə bölməli olurdu. Belə uzun, üzücü yollarda bəzən günlərlə dəyişməyən, darıxdırıcı mənzərələr insanları bir-birinə elə yaxınlaşdırırdı ki, adam, arabir ən yaxın dostuna belə etibar eləmədiyi sirrini karvanda yol yoldaşına açırdı. İnsanın əsil siması, əsil insanlığı da bu ağır yollarda üzə çıxırdı. Əbəs yerə deməyiblər ki: "Qardaşın necə adamdı? Yol yoldaşı olmamışam". Bir ana bətnində yatdığın doğma qardaşın da əsil insan siması belə yollarda üzə çıxır. Su qurtaranda əgər sən son damla, axırıncı qurtum suyunu atəşdən yanan başqasına verirsənsə, aclıqdan üzülmüşə sonuncu tikəni uzadırsansa, yorulub əldən düşmüşün qolundan yapışırsansa!.. Bu "əgər"lər çoxdu yollarda. Hər karvanın sarbanı, bəzirganbaşısının xasiyyətinə uyğun öz qanunları olur. Hər karvanın öz təlxəyi, öz pəhləvanı, öz xanəndəsi, öz əllaməsi olur. Yol uzunu bütün bunlar olmasa, insan, sonu görünməyən, susuz, gah sarı, gah qızılı, gah qara qumlu səhralarda, səraba[1] uyar, dəli olar, ağlını itirər.

Karvan yolları çox müdrikin iç üzünü açdığı kimi, çox oyunbazın da əsil insan olduğunu meydana çıxardıb. Bu karvan da eləydi. Ən azı üç ay yol getməliydilər bu karvanla. Hərəsinin öz Hindistanı vardı. Zeynalabdin də öz Hindistanını kəşf etməyə gedirdi. Mallarını xeyli əvvəl, hələ Şamaxıda başqa karvanla yola salmışdı. Dövran dayı belə məsləhət görmüşdü:

– Tacir deyilsən ki, bacıoğlu! Mal üstə getməyi neynirsən? Tapşırıq Kərbəlayı Vəli onu Təbrizdə tanınmış karvansaraların birinə təhvil verər. Özü də sənə yerini göstərər. Sən də rahat gedərsən. Bəlkə, istədin bir görməli şəhərdə, ya ibadətgahda bir neçə gün qaldın, dincəldin, ziyarət elədin. Gəzdin – baxdın, sonra da yoluna yollandın.

İndi Zeynalabdin dayısını minnətdarlıqla xatırlayırdı. Hər dəfə olduğu kimi düşünürdü: "Nə gözəl, qohumcanlı dayılarım, əqrəbamız var imiş!.. Allah insaf versin atama! Bizi qohumsuz qoyub, vətənliykən vətənsiz eləyib!"

Bu sərbəst, maldan, ticarətdən azad karvan səfərindən o nə qədər maraqlı şeylər, yerlər, insanlar görmüşdü... Say-hesabı yox. Bax, elə karvanda hamının Həzrəti İmam Rza zəvvarı adlandırdığı qoca da onun belə nadir kəşflərindən biri idi. "Görəsən, niyə onu belə adlandırırdılar?

[1] İlğım



Hamı ona "Həzrəti İmam Rza zəvvarı" deyir. Görünür ki, karvana bizdən əvvəl qoşulduğu ilk günlərdə, kim isə hardan gəlib, hara getdiyini ondan xəbər alanda qoca əsil məqsədini, kimliyini demək istəməyib, "Həzrəti İmam Rza ziyarətinə gedirəm" deyib. Adı belə də qalıb. Amma olduqca maraqlı insandır. Ziyarətçi-zad da deyil. Duyuram bunu. Anlayıram ki, o nə isə çox ağır bir faciə keçirib. Dərdi böyükdür. Çarəsizdir. Heç kəslə də bölüşmək istəmədiyi əlacsızlığındandır", – Zeynalabdin düşünürdü. Qocanın hər bir diləyini irəlicədən anlayıb yerinə yetirməyə can atırdı. Bəzən ona gərək ola bilən hər şeyin qayğısına irəlicədən qalırdı. Bu da görünür ki, qocanı çox kövrəldirdi. Əvvəllər bu qayğıya yarıkönül "sağ ol"lar deməklə cavab verirdisə, sonra "sağ ol"ları nəmli gözlərindəki nəvaziş, mehribanlıq, minnətdarlıq əvəz etdi. İndi artıq onlar baba-nəvə kimi bir-birini bir baxışdan anlayırdılar. Bu da Zeynalabdinə xüsusi zövq verir, yoldaşlarının isə zarafat hədəfinə çevrilirdi. "Qoy gülsünlər, yolun zəhməti onsuz da ağırdı", Zeynalabdin düşünür, yoldaşlarının zarafatından incimirdi.

Qoca isə hər hərəkəti, hər sözü ilə ona dərs verən bir müəllim, bir dədə mövqeyi qazanmışdı onun qəlbində. Dünən qədimlərdən rəvayətlə bir hekayət danışmışdı:

– Deyirlər ki, qədim ərəblərdə Rəbiə adında bir qadın varmış, anaymış, əhd eləyibmiş ki, peyğəmbərinin qulluğuna tək yollansın, piyadə getsin. Oğlanlarının etirazına baxmır, bir gün yol azuqəsi, su götürüb yola çıxır. Az yeyir, qənaətlə içir, mənzil başına çatmağa azacıq qalmış yolunun üstündə bir şəxsin yıxılıb-qaldığını görür. Ana ürəyi məsələni anlayır, cavan yolçunun suyu qurtarıbmış, susuzluqdan, aclıqdan taqətdən düşüb, huşunu itirib, Ərəbistan günəşinin yandırıcı şüaları altında qovrulub qalıbmış. Rəbiə ana baxır... Baxır... Qumqumasında qalan, onu son mənzilə yetirə biləcək axırıncı qurtum suyunu cavana içirdir, üzünə səpir. Cavan ayılırsa da, görünür bir neçə günün əzabından özünə gələ bilmir. Rəbiə ana aclıqdan, susuzluqdan arıqlayıb çöpə dönmüş bir uşaqcan canı qalmış cavanı birtəhərnən kürəyinə alıb, yola düşür. Susuzluqdan yana-yana gedir. Mənzil başına çatmağa heç bir ümidi olmaya-olmaya o tanımadığı cavanın çöldə qalıb ölməyini, qurd-quşa yem olmağını rəva görmür. Aparır şələsini... Aparır... Ana qəlbindən qüvvət alır. İnsanlığından güc alır... Ölüm-zülüm mənzil başına çatır. Ərəb uluları belə analar haqqında deyib: "Behişt axtarma, behişt ananın ayaqları altındadı".

Qoca danışdıqca Zeynalabdin onun nəsihət və bilgilərini sinəsinə cəmləyirdi. Axşamlar hücrədə hamı yatandan sonra bayazına köçürür. gələcək, amma hələ adını özü də dürüst bilmədiyi, fəqət sonralar bizim kimi oxucuları üçün qiymətli "Bustanüs-səyahə", "Riyazüs-səyahə" kimi kitabları üçün mətn hazırlayırdı.

Qoca deyirdi:

– Nəvai rəhmətullah buyurub:

> Getdi ömrüm nəqdi qəflət birlə nadanlıqda, heyif!
> Qalğanı sərf oldu ənduhü pərişanlıqda, heyif!

Gərək elə yaşayasan ki, o rəhmətlik dediyi kimi peşmanlıqda keçən ömrün üçün təəssüflənməyəsən, hayıfsılanmayasan.

Qoca elə bil ki, necə deyərlər "Nəvai dəlisiydi". Şeri dilindən düşmürdü. Görürdün ki, hər hansı bir münasibətdəsə yerinə salıb Nəvainin bir beytini, ya rübaisini söylədi, özündən heç nə əlavə etmədən böyük şairin nüfuzunu meydana çəkdi. Dinləyicilər də susdular: "Cəmiyyət əgər tapmasa yox eyib, Nəvai; Bu təfriqə kim künci-fəraqimə yetişdi", – deyən kimi təfriqə, qilü-qal salanlar adamdısa eşidir, hərə öz payını götürürdü. Qocanın Nəvaidən xüsusilə sevdiyi bir beyt var idi: "Kamil adəm gözləri Xızır bulağıdır hənuz; Kim anın dadmış suyun, tapmış abadlıqdan dəray", – deyərdi.

Bir neçə gün idi ki, Zeynalabdin demək olar ki, hər şeyi tamamilə olmasa da, hər halda unutmuş, ona Baba Sakit dərvişi nə iləsə xatırladan İmam Rza zəvvarının yanından ayrılmır, ondan yol boyu səma cisimləri, bəşər cəmiyyəti, ölkələr, adətlər, gördüyü bu gözəl və gözəl olduğu qədər də çətin dünya haqqında söhbətlər dinləyir, dərs alırdı.

Bu sabah yola çıxandan sonra Zeynalabdin yenə də cavanların deyil, qocanın yanıyla gedirdi. Söhbət İran padşahı Ağa Məhəmməd şah Qacarın Qafqaza hücumlarından, Qarabağ, Tiflis qəziyyələrindən gedirdi. Qoca adda-budda eşitdiyi xəbərləri öz dərin ağlının süzgəcindən keçirib qiymətləndirir və nəticə çıxarırdı. Əslini, kökünü bilmədiyi bir söz danışıb, cavanın fikirlərini yanlış yola salmır, belə bir işi rəva da görmürdü.

İran məsələsinə gələndə görünür ki, o bu məmləkətdə və onunla qonşu yerlərdə çox olmuş, gəzmiş, görmüşdü. Odur ki, danışıqları da müəyyən və bitkin idi. Görünür ki, bu ölkələrin tarixini, ədəbiyyatını yaxşı bilir, tanınmış tarixi şəxsiyyətlərini də yaxşı tanıyırdı. Elə danışırdı ki... Yalnız bu danışıqlardan sonra Zeynalabdinin ürəyində bir fikir yarandı: bəlkə, özü haqqında heç bir şey söyləməyən qoca da haqqında danışdığı həmvətənləri kimi didərgin olmuş alimlərimizdən, şairlərimizdən biridir? Kimdir? Bilmədi. Qoca isə deyirdi:



– Biz Farsistanda və Qafqaziyyə məmləkətlərində cahangirin cahangirlik məqsədilə xırda dövlətləri, xanlıqları birləşdirməklə nə siyasət apardığını görürük. Bu xanlıqların qüvvətlənməsi üçün neynəyə bilmişik? Əlimizdən farslaşdırma siyasətinə qarşı nə gəlib?

– Qacar özü heç fars ki deyil!

– Nə olsun? Ona heç türk qəbiləsindən çıxan da demək olmaz. Farspərəst olub türkəsilli şahların çoxu İran taxtında. Ana dilimizin məhvinə çalışıblar. Hansı hakimiyyətə keçibsə, farslara əsaslanıb. Amma təkcə Şah İsmayıl bizim milli dilimizi saraya çıxarıb, özü də bu dildə danışıb, yazıb və doğma dilimizi saray dili səviyyəsinə qaldırıb, diplomatiya dili eləyib. Millətimizi "türkəxər" ifadəsinin töhmətindən, zülmü altından qurtarıb. Təəssüf ki, belə şahımız mənə bircə danə bəllidir. Amma tarixi öyrənsən, bəlkə başqası da olub. Biz bilmirik. Bina, özül üzərində qurulur. Tarix millətin gələcəyinin özülüdür. Onu dərindən bilmək lazımdır. Yoxsa gələcək nəsillərə yadigar da qoymaq mümkün deyil.

– Çalışıram...

– Çalış... Keşməkeşli olub vətənimizin taleyi. Amma behişt deyiləndə vətənimizi düşünmüşəm hər yerdə. Dünyanın ən gözəl məmləkətlərini gəzmişəm, sən də gəzib görəcəksən, amma vətənimin dadı damağımdan, ətri burnumdan getməyib, sən də bunu özün görəcəksən. Harda göyərən taxıl, firuzəyi göylərdə uçan quş, çöllərdə cüyür, tikilməkdə olan ev, beşiyində uyuyan körpə görmüşəmsə, sevincimin hüdudu olmayıb, o yer mənə vətənimin bir parçasını xatırladıb. İran şahlarına gələndə, onların çoxu türkəsilli qəbilələrdən çıxsa da, farsları qabağa çəkir, onları dəstəkləyir, fars-türk ədavətləri, nifrəti törədib öz hakimiyyətlərini möhkəmləndirmək istəyiblər. Bir torpaqdan, qonşu kimi nəşvü nüma tapan insanları, iki xalqın övladlarını bir-birinə qırdırıblar. Mədrəsələrdə bir yandan ərəb, bir yandan da fars dilini yaymaqla öz doğma ana dilimizi bizə unutdurmaq istəyirlər. Ərəb dili – elm dili, din dili təkin müqəddəsləşdirilib. Fars dili də şeir dili kimi göylərə qaldırılıb. Körpələrimiz mollaxanalara və mədrəsələrə ayaq qoyan gündən "əbcəd-həvvaz" deyir, mənasını heç cür dərk eləmədiyi, anlamadığı mətnlər oxuyur. Bəs belə getsə bizim dilin taleyi necə olacaq?

Cahangirlər bizim dilin kökünü kəsmək, körpəlikdən uşağın şüurundan silmək istəyiblər. Bu cür təhsil siyasətinin bəlasıdır ki, ərəblər gələndən bəri yaxşı təhsil görmüş ziyalılarımızın əksəriyyəti ölkə-ölkə, diyar-diyar dağılıb. Öz vətənində el-obası içində nə onu başa düşən olub, nə də o başa düşüb. Anlaşılmadığından baş götürüb gedib. Dünyanın harasında desən bizim ziyalılardan tapa bilərsən. Amma çifayda? Oralarda ad qazanan, şöhrətlənən ziyalılarımızı, alimlərimizi, şairlərimizi öz xalqı tanımayıb, yazdığını oxumayıb. Qürbətdə can çürüdüblər.

Amma ərəblərin bir məsəli var: "Aqibətü külli-leyl naharun" – yəni bütün gecələrin sonu gündüzdür. Bu böyük ümid olmasa, insan yaşaya bilməz. Əbül-bəşər[1] övladı ümidsizlik azarına tutulsa, məhv olub gedər. Ümid et, ümidlə yaşa, ümidlə yaz-yarat! Bil ki, insan yalnız özünün kiməsə lazım olduğunu, kiminsə onun yardımına ehtiyac duyduğunu bildikdə, öz ləyaqətini dərk edir. Və yaşamağının mənasız olmadığı üçün sevinir. Özündən asılı olmayaraq əksinə insan heç kəsə, eləcə də cəmiyyətə gərəksiz, faydasız olduğunu dərk eləsə, həmin anda o, mənən ölür, yaşamır.

Qoca açıq havadakı "mühazirəsini" davam etdirdikcə Zeynalabdin bu dərsləri sinəsinə çinləyir, beynində təkrarlayır, hafizəsinə həkk edirdi.

## ZƏLZƏLƏ

Karvansara olduqca köhnə və kasıb idi. Əslində bunu heç karvansara adlandırmaq da doğru deyildi. Xərabə... Xarabaxana idi... Ötən dərvişlərin, yersiz-yurdsuz yolçuların, böyük şəhər karvansaralarında yeri olmayanların... Pulu olmayanların yurdu idi... Dilənçilər oylağıydı. Yolüstü Zeynalabdinlə dostlaşmış dörd cavan dərviş də bu karvansaraya yağışdan pənah gətirmiş, karvandan ayrı düşmüşdülər. Yolüstü qədim bir türbəyə etdikləri ziyarət onları karvandan ayırmışdı. İndi Allah bilir karvanla gedən yolçular, tacirlər, bəzirganlar mənzil başındakı böyük karvansarada ləzzətli xörəklərdən yeyir, təmiz yorğan-döşəkdə dincəlirdilər. Bura isə... Bura birə yurdu, taxtabiti yuvası idi... Salındığı gündən su üzü görməyən, yapranıb dilənçi libasına dönmüş, yamağının yırtıqlarından yunu, pambığı tökülən yorğanın rəngi bilinmirdi. Sırıqlarının arası zol-zol bit-birə oylağıydı. Çirkdən işım-işım işıldayan yorğanın kəsif iyi ürək bulandırırdı. Amma çarə yox idi, soyuq əhdini kəsən yolçular belə yorğana da şükür eləyirdilər. Heç çırağın piltəsi öləziməmiş birələr geştə qalxdılar. Hücrədə yatmaq istəyənlər, xam xəyala düşdüklərini anladılar. Qaşına-qaşına durub yerlərinin içində əyləşdilər. Çırağın işığını artıran kimi divarlarda taxtabitilərin xışıltı sala-sala zolaq-zolaq, yol-yol süründüklərini görüb, dünyagörmüşlər belə dəhşətə gələrdi. Birələri isə görmək, tutmaq qeyri-mümkün idi. Hərəsi Zeynalabdinin və yol yoldaşlarının bədənindən bir diş götürüb ox sürətilə sıçrayır, başqa bir yerə "qonurdu". Birələrin hər biri az qala xırda bir taxtabitiycən idi. Qonaqların qanından şişmişdilər.

Zeynalabdin bu həngamənin içində heç cür yatıb yorğunluğunu çıxara, dincini ala bilməyəcəyini anladı. Qalxdı, hücrədən çıxdı. Hücrənin toz-torpaq basmış döşəməsi birəylə dolu idi, onlar Zeynalabdinin baldırlarına sarmaşmışdılar. Cavan oğlan həyətdə var-gəl eləməyə, bacardıqca pal-paltarını çırpıb bu birə əzabından xilas olmağa çalışırdı. Gözlərindən yuxu tökülürdü. Taqəti kəsilmişdi. Hardasa başını bir yerə söykəyib, mütləq dünyadakı ən ləzzətli şeyi – yuxusunu almalıydı. Deyəsən, soyuq öz təsirini göstərdi. Yağış kəsmişdi, amma hava xeyli sərin idi. Birələr insandan "zərif!" çıxdılar, soyuğa dözməyib Zeynalabdinin paltarını tərk etdilər... Zeynalabdinin bədəninin gicişməsi kəsildi. İndi də soyuq canına yer eləməyə başladı. Soyuğa davam gətirmək üçün Zeynalabdin gəzinir və düşünürdü. Bu günü mücərayla keçmişdi. Axırıncı çaparxanada "barat"ını qəbul etməmişdilər. Bu barata görə Mustafa xanın hökmü keçən yerlərdə ona gecələmək üçün yer, yemək və at verilməliydi. Mustafa xanın mülkü bitəndən sonra qonşu xanlığın, əmirliyin hakimlərindən barat almalıydı. Şirvandaykən baratlar Azərbaycan və fars dillərində yazılırdı. Bu yerlərin xan və əmirləri bütün buyruqlarını fars dilində yazdırırdı. İndi həmin baratlardan birini əldə etmək üçün sabah çarə çəkməli, bu yerlərin nüfuzlu şəxslərindən birinin vasitəsilə yerli hakimə müraciət edib, mütləq barat almalıydı. Yoxsa günü beləcə taxtabiti yuvalarında keçərdi.

Birdən qonşu hücrələrdən birinin qapısı açıldı. Bir az əvvəl onlar üçün yemək hazırlayan qarı göründü. Arvad fəri sönməkdə olan gözlərini təzəcə boylanan hilalın güclə işıqlandırdığı şövkəli həyətə gəzdirdi. Zeynalabdini gördü.

– Yata bilmirsən, oğul? Soyuqlamaqdan qorxmursan?

[1] Bəşəriyyətin atası nəzərdə tutulur.

– Birələr aman verir ki, nənə?

– Hə... Birə sarıdan varrıyıq... Nəyimiz yoxdusa, birəmiz çoxdu.

Qarı dişsiz ağzı ilə güldü, deyəsən. Xırıltıya bənzəyən gülüşünü kəsdi, nə düşündüsə dedi:

– Keç bizim hücrəyə, sənə layiq yerimiz olmasa da, nəvəmlə bir yastığa baş qoyarsan. Bu xərabənin birəsi azdı. Əlimdən gələni eləyirəm. Yoxsa qoca gözlərimin yuxusu onsuz da ərşə çəkilib, birə də bu yandan... Qurumuş dəri canımda nə var birəyə yem eləyəm?

Zeynalabdin utanırdı. Amma qarının təklifini şükranla qəbul elədi:

– Yerinizi darısqal eləmirəm ki, nənə?

– Nənən qurban, nəyimiz boldu ki, yerimiz darısqal olanda kefimiz pozula? Keç içəri! Yazıq yetim daş kimi düşüb yorğunluqdan, heç yanına girməyini də bilməyəcək. Bütün günü çar-çar çapalayıb.

Qarı nədənsə Zeynalabdinə acıyırdı. Cavanlığınamı yazığı gəlmişdi, bayaq yemək-içmək verəndə kiminə-kimsənəsinəmi oxşatmışdı, nəydisə, indi onun soyuq havada girlənməsinə ana ürəyi davam gətirməmişdi.

– Keç, keç, bala! Yol adamısan, soyuqlarsan, azarrarsan, sonra da necə deyərlər: "eşşək gətir, mərəkə yüklə". Yol adamı azarramaya gərək. Beləsini çox görmüşəm. Gəlib düşüb-qalıblar. Qərib-qürbət yerdə ana deyib əlim altında tarı rəhmətinə gedəni də olub səndən iraq yerdə.

Onlar hücrəyə girdilər. Hücrənin ocaq – buxarasının sağ əlində qarının, sol əlində "yetim" adlandırdığı nəvəsinin yeri salınmışdı. Bayaqkı hücrədən müqayisə olunmaz dərəcədə təmiz otaqda, təmiz yatacaqda 13-14 yaşlı bir oğlan uşağı yatmışdı. Elə yetim kimi də büzüşüb yatmışdı. Yorğunluğundanmı, səhər geyinməyindənmi, ya da duran kimi iş dalınca qaçacağından geyinməyə artıq vaxt sərf etmək istəmədiyindənmi, bəlkə də elə canına soyuq yer eləyib üşüdüyündən, isti otaqda, isti yorğan altında, nənə nəvazişiylə belə qızına bilmədiyindən oğlan geyimli yatmışdı. Nəyi vardısa əynindəydi. Təkcə yalın gəzməkdən döyənək bağlayıb, buynuz kimi bərkimiş dabanları açıqdaydı.

Zeynalabdin də onun kimi soyunub eləmədi, azacıq özündən kiçik oğlanı oyatmaqdan ehtiyat edib, indi haradasa Bağdadda və ya Kərbəlada olduğunu belə bilmədiyi kiçik qardaşı Məhəmmədəlini yadına salıb, uşağın yanında uzandı. İndi Məhəmmədəli Kərbəladadırsa, anası Şirinbəyimin qu tükü, şirvansayağı nazbalışlarına baş qoyub, altında



ikipudluq məxmər üzlü yun döşək, üstündə qanavat yorğan... Peşlənir özü üçün... Səhər də anası ona dəvə südündən çərilmiş qaymaq verəcək, yanında da nəfəs hərarətindən belə əriyə bilən bal kimi şirin, təzə xurma... xurma... Ana... Ana çayı... Şirvansayağı nazbalış... Gözlərini bu dadlı ana nəvazişinin təsirilə haçan yumduğunu bilmədi.

Qarı cavanın yatdığını görüncə dodaqaltı, qoca deyintisini kəsdi, əlini belinə təkyə verib iki bükülməyə başlayan qəddini bir az da bükdü, yükdən aldığı yorğançanı gətirib qonağın üstünə çəkdi. "Beçara, yaman yorulub... Anası ölsün, varsa..."

Şirinbəyim ana bu gecə birə yemi olan balasının yuxusuna qonaq gəlmişdi. Zeynalabdinə elə gəldi ki, yuxulu-yuxulu üstünü örtən Şirinbəyim ananın əlləridir. Sonra da Şirinbəyim ana, həmişə olduğu kimi onun yanında uzandı, yastığına dirsəklənib, qolunu başı altına qoydu. Bağdadda təhsilarası Kərbəlaya – evlərinə gələndə Şirinbəyim ana həmişə belə edərdi. İndi də... Yanında uzandı. Lap ondakı kimi hal-əhval soruşmağa başladı. Dərslərindən, ustadı müəllimlərindən, yoldaşlarından bircə-bircə xəbər aldı. Zeynalabdin də lap elə ondakı kimi gülə-gülə, anasının qayğı dolu sualları ilə əylənə-əylənə cavab verməyə başladı. Amma Şirinbəyim ana bu dəfə adi, həmişəki suallarını versə də çox qayğılı idi. Tez-tez ah çəkir, köks ötürürdü. Zeynalabdin onun kəlağayısının yelənini sığallaya-sığallaya soruşdu:

– Nə olub sənə, ana, nəyindi? Yoxsa bir yerin ağrıyır? Azarrayıb eləməmisən ki?

– Yox, dərdin mənə, nəyim olacaq? Azar-bezarım da yoxdu. Elə sən sarıdan niyaranam.

– Məndə nə var ki?

– Heç nə... Şükür Allaha. Amma elə bircə bayatı nə vaxtdı ki dilimdən düşmür.

– Hansı bayatı, anacan?

– Bucuğaz:

Axşamlar, ay axşamlar,
Şam yanar ay axşamlar.
Evli evinə gedər,
Qərib harda axşamlar?

...Zeynalabdin yuxudan hövlnak oyandı. Anasının yanında olmadığına, yanındakının Şirinbəyim ana deyil, qarının yetim nəvəsi olduğuna uzun müddət inanmaq istəmədi. Axı Şirinbəyim ananın isti nəfəsini

alnında, əlinin hərarətini yanağında duymağı bir yana qalsın, ömründə eşitmədiyi o bayatı, yuxuda, birinci dəfə eşitsə də eynilə yadında qalmışdı:

Axşamlar, ay axşamlar,
Şam yanar ay axşamlar.
Evli evinə gedər,
Qərib harda axşamlar?

"Qərib harda axşamlayacaq, ana? Birəli karvansaralarda. Bəxti gətirəndə sənin kimi nəcib bir nənə, sənin kimi qayğıkeş, ürəyi yuxa bir ana, yetim balasının yanında yer verəcək. Can ana, yuxumda da qəriblikdən danışdın. Qərib dərdi çəkdin. Təkcə balana görəmi? Sən müqəddəs Kərbəlaya, bütün şiə aləminin can atdığı o imam qulluğuna belə öyrəşə bilmədin. On iki ildə o torpaqda bala böyütdün – doğmalaşmadın. Nə dil öyrənə bildin, nə o yerin ərkanına baş əydin. Vətən həsrətilə saralıb-solur, sönürdün. Allah Axund İskəndərə ömür versin, yox, özü demişkən "Allah onun axirətini versin", səni qürbətdə çürütdü. Mən qəribliyin nə olduğunu bilmirəm. "Vətənsizəm". Vətən sözünü səndən eşitmişdim. Getdim gözümlə gördüm. Cənnətmisallı bir vətənimiz var imiş. Niyə atam səni də, bizi də vətənsiz elədi?"

Üsulluca çevrikdi. Oğlanı ayıltmamaq üçün çox ehtiyatlı davranırdı. Xəyalları da yuxusu kimi Şirinbəyim ana ilə – anasıyla dolu idi. Yenidən gözləri yumulub, onu yuxu apardı. Yüngüllüklə, məhz uşaqlıqda olduğu kimi yumşaq ləpəsiz uyqu dənizinə qərq oldu, yırğalana-yırğalana... Lay-laylar altında... Amma bu lay-laylar lay-lay deyildi. Şirinbəyim ananın qəriblik, qəriblər haqqında qoşduğu bayatılar, qoşmalar, gəraylılar idi... Doldurmuşdu Zeynalabdinin həyəcanlı, narahat yuxusunu. Röya aləmində Zeynalabdin Şamaxıdaydı. Yaşıl çəmənlikdə, yumşaq yoncalar üstündə uzanmışdı. Qəribəydi ki, anası da burdaydı və Zeynalabdinin başını dizinin üstünə alıb telini sığallayır, alnını ovur, dodaqlarındakı həzin təbəssümlə qəriblik haqqında mahnı qoşurdu.

Qərib-qürbət eldə bala böyütdüm,
Aldı məndən, fələk aldı, neynəyim?
Gen dünyam başıma dar oldu mənim
Dərin dəryalara saldı, neynəyim?

Gözüm yaşı göl-göl oldu gölləndi,
Dərdü qəmim ürəyimdə lilləndi,



Tərlan könlüm asimana milləndi,
Viran ürək viran qaldı, neynəyim?

Şirinbəyim, hazaransan, hazaran,
Öz əlimlə məzarımı qazaram,
Qürbət eldə ərzim kimə yazaram?
Anan ölsün, bala baldı, neynəyim?

Anasının nədənsə o görməyəli bürüşmüş yanaqlarına əl gəzdirib, mehribanlıqla soruşdu:

– Anacan, indi ki sən Şamaxıdasan, mən də... Qəriblikdən niyə danışırsan? Məgər bura deyil vətənin?

Anasının gözləri yol çəkdi:

– Bəs Məhəmmədəli? O ki... qürbətdədi... Bağdad hara, bura hara?

– Buy, Bağdadla Kərbəlanın arası nədi ki?

Zeynalabdin sözünü çaşdırdı. Fikri dolaşdı. Yenidən nəyisə yadına salmağa çalışdı, bacarmadı, təngişdi. Və yenə yuxudan ayıldı... "Hə... Yuxuymuş... Bəs nə ola bilərdi ki?" Röya... Röya... Şirin, dadlı... Xoş xəyallar aləmi... Dinclik gətirən... Yorğunluğu çıxaran, aclığı unutduran röya... Yenidən Zeynalabdini qoynuna alıb ləpəsiz, yumşaq röya ümmanına daldırdı, yırğaladı... yırğaladı... Xoş xəyallar, analı günlər yuxusunu doldurdu.

Anası qədər olmasa da, o tez-tez atası və ilk müəllimi Axund İskəndəri, yeganə qardaşı Məhəmmədəlini də yuxuda görürdü. Çox vaxt uzun – yorucu yollarda bu "görmüşlər" xəyala çevrilib onu təqib edir, başını qatır, sonsuz, nəhayətsiz qumlu səhraların üzücü həyatını, keçidlərini bir növ bəzəyir, ona unutdururdu. Axund İskəndər bu xəyallar dünyasında bir dəfə də olsa onunla danışmamışdı. Yəni elə-belə ata-bala söhbəti eləməmişdi. Əslində Zeynalabdin heç belə söhbətləri xatırlamırdı da. O, atasını həmişə ciddi, qaşqabaqlı, təmkinlə, dodaqaltı danışan görmüşdü. Bu zamanlar da atası ona ya hansı bir təfsiri isə aydınlaşdırır, ya da nə isə oxumalı olduğunu yadına salır, yeni-yeni kitablar oxumağı tapşırırdı. Elə xəyallarında da belə canlanırdı, nə isə tapşıran, nəyi isə başa salan. Bu münasibətdə ata məhəbbəti duymur, ata təbəssümü ilə fərəhlənmirdi. Əgər atasının qəlbini oxuya bilsəydi, görərdi ki, kişi deyir: "Ağam Hüseyn bala məhəbbətinin fərəhini görməyib, mənə də haram olmalıdır. Övlad fərəhi qismət olmayan ağamdan artıq deyiləm ki!" – Başa düşərdi ki, kişinin öz atalıq məhəbbətini gizlətməyə qoymayan nədir. Yoxsa Axund İskəndərin

valideyn məhəbbəti bəlkə də, başqalarınınkından az deyildi. Bacı-qardaş adına bircə Məhəmmədəli var idi. Ondan cəmi ikicə yaş kiçik olsa da, az qala əkiz kimi bir-birlərinə bənzəsə də, Zeynalabdin qardaşını balaca hesab edər, ona qayğı göstərər, şitəngiliklərindən incimәzdi. Həyət-bacada, küçədə, bazar yolunda, məktəbə gedəndə həmişə Məhəmmədəlini qonşu ərəb uşaqlarının nadinclərindən qoruyardı. Nazını çəkərdi. Yollar boyu uzun xəyallarında Məhəmmədəlini elə həmişə oynayan, şitəngilik eləyib onun kitabını əlindən qapan təsəvvür edirdi. Öz xəyallarına gülümsəyir, çox vaxt qəlbində Məhəmmədəli ilə söhbət edir, danışır, dərdləşirdi. Yox! Yox! Yuxuda belə üsyan etdi. Məhəmmədəli dərd danışmaq üçün deyildi. Dərdi Şirinbəyim ana ilə bölüşmək olardı. Yalnız onunla açıq, ürəkdolusu danışmaq, ən gizli sirləri ona etibar etmək olardı, fikirləri arzu və xəyalları onunla, yalnız anayla bölüşmək olardı. Onda da... İndi də... Xəyallarında da... Yuxusunda da...

Sübhün gözü açılmamış qarı nəvəsini ehtiyatla oyatdı. Yetim işgücünə getməliydi. Karvansara sahibi hücrəni onlara əbəs yerə verməmişdi. Oğlan ayılanda yanında Zeynalabdini görüb təəccüblə gözlərini ovdu. Qarı düyün-düyün olmuş, əyri doğanaq cınağına bənzəyən quru barmağını rəngi çoxdan solmuş və əski şəklini itirmiş, boz qaytana çevrikmiş dodaqlarının üstünə qoydu, "sıss".

Oğlan yerindən qalxıb, qapıya doğru yönəldi. Həyətdə üzünə bir qoşa ovuc su çırpıb, geri qayıtdı. Nənənin hazırladığı bir piyalə çayı içdi, çörəyi pendirlə dürməkləyib yedi. Qarı pıçıltı ilə deyirdi:

– Allah qonağıdı, bala! Rəhmim gəldi, yata bilmirdi... Dedim yol adamıdı, yolda soyuqlar, azarlar...

– Heç xəbərim olmayıb haçan gəlib...

– Sən də yorğunuydun... Bərk yatmışdın... Gecə də yarıdan keçmişdi...

Zeynalabdin bu sözləri eşitmirdi. Həyəcanlı da olsa dərin röya dənizində Şirinbəyim ana ilə qol-boyun üzürdü...

Qəfil təkandan yuxusundan oyandı. İlk anda nə baş verdiyini heç anlamadı. Təkcə Şirinbəyim ananın qoynundan ayrılmağına təəssüflənirdi ki, qarının bağırtısını eşitdi:

– Çıx, ay bala, çıx bayıra! Zəlzələdiii...

Zeynalabdin həyətə atıldı. Bütün karvansara sakinləri meydançaya səpələnmişdi. Amma hamının qorxusu tez keçdi. Nə bir ağac yerindən tərpəndi, nə bir kərpic. Köhnə də olsa, karvansara möhkəmdi, xoşbəxtlikdən zəlzələ zəif, daha doğrusu ani idi. Yer bircə dəfə titrəyib dayandı.



Elə bil yeri buynuzlarında saxlayan öküz, milçəyini qovmaq üçün başına bircə dəfə hərəkət vermişdi.

Bir qədər gözləyib özünə gələndən sonra yerlilərdən, belə təkanlara adət etmiş adamlar iş-gücünə qayıtdılar. Artıq səhər idi. Qarı nənə də deyinə-deyinə işinə girişdi. Təndirə odun salmağa başladı:

– Ay gözəgörünməz, bu zəlzələ nəyçünmüş? Bu nə zəlzələ dəbidi düşüb? Həftə səkkiz, mən doqquz... Yer dingildəyir...

Keçisaqqal bir dərviş təndirin alovuna qızına-qızına, səhər ayazından donuxmuş əllərini ova-ova qarıya deyirdi:

– Asi olma, qarı!

– Buy, Allah sən saxla, asi nöş oluram?

Asi olma dedim. Yaradan Allah yer üzündə müvazinəti saxlamaq üçün zəlzələlər... taunlar, vəbalar... İnsan oğlu isə...

– Allah iraq eləsin... getsin gəlməsin.

– Kütləvi qırğınlar, müharibələr törədir... Əks halda insan çoxalır, kürreyi-ərzi basar, bir-birinin burun-qulağını gəmirər...

– Sən nə danışırsan, ağa dərviş?!

Dərviş gəvəzələyirdi.

– Bir gün Ənuşirəvana dedilər: "Filan düşmənin ölüb, gözün aydın". Soruşdu: "Məndən nə dedilər? Mən yaşayacammı?" Dedilər: "Yox". Dedi: "Mən də öləcəyəmsə, sən mənə nə gözaydınlığı verirsən?" Hamı ölməlidi, qarı, hamı öz rəbbinə qovuşmalıdı...

Qarı qəlbində düşünürdü: "Qələt eləmədik bir söz dedik? Bu tanrı bəndəsinə ürcah olduq. Səhər-səhər nə xeyir eləmişik, nə şər... Başlayıb ölümdən".

Dərviş gəvəzələməyində davam edirdi:

– Ölümdən qorxma, qarı! İnsan hərçənd ki, qocaldıqca ölümdən lap çox qorxur... Dünyanı şirin bir zad bilir. Amma acıdı dünya... Fanidi dünya... Beş günlükdü dünya... Sənə bircə o dünyaya gedəndə verim qalacaq.

O danışıb qarının qəlbinə qorxu saldıqca, bir az sonra bu alovlanan təndirdən çıxacaq ətirli, qırmızıyanaq çörəklər gözləri qabağında canlanır və ağzı sulanırdı. Bilirdi ki, bu söhbətdən sonra qarı qada-balanı özündən, balasından uzaqlaşdırmaq üçün elə birinci çörəyi ona verəcək. Allah adamına.

Zeynalabdin bu mənzərəni seyr etdikcə fikirləşirdi: "Bəli, beləsi də dərviş adlanır, Baba Sakit də, imam zəvvarı qoca da. Amma onlar hara, bu hara?!"

## TƏBRİZ

O Təbrizi gənclik həvəsilə gəzirdi. Qədim abidələrini, örtülü və açıq bazarlarını, məscidlərini, bağlarını. Axşam bayazına yazırdı ki, Təbrizdə iyirmi mindən ziyadə ev var. Ab-havası sağlam, suyu gözəldir. Çiçəklənən bağa bənzəyir Təbriz. Bütün bunlar Azərbaycana ikinci səyahətindən sonra tamamlayacağı "Riyazüs-səyahə" ("Səyahət bağları") adlı birinci kitabının birinci hissəsinə daxil ediləcək idi. O, Təbriz haqqında "Nigaristan" ("Gözəlliklər diyarı") kitabını oxuyacaq, bu qədim azərilər şəhəri, onun şairləri, alimləri, orada dəfn olunmuş həmvətənləri haqqında məftunluqla danışacaqdı. Bütün bunlar sonra olacaq idi. İndi isə... İndi isə...

Təbrizin ətrafı bağdı, meşədi,
İçində əyləşən bəydi, paşadı,
Səkkiz min məhəllə, dörd min guşədi
Çarsusu, bazarı, yolu Təbrizin.

Bu aləmdən keçirdi və hələlik o, müşahidə etdiklərini bayazına yazırdı. Bu bayazda az əvvəl Marağada gördükləri xüsusi yer tuturdu. Marağada Zeynalabdin, ustad Nəsirəddin Tusinin rəsədxanasının qalıqları olan yeri, məzarlığı gəzmişdi. Ona elə gəlmişdi ki, bir zamanlar bu yerlərin mərkəzi olmuş, paytaxt Təbrizə keçəndən sonra kiçik bir şəhərciyə çevrilmiş, vaxtilə elm və ədəbiyyat mərkəzi olan Marağada, indi də ölümsüz Nəsirəddin Tusinin, onun şagirdləri – alim riyaziyyatçı Şəmsəddin və Qiyasəddin Şirvani, Marağalı Əvhədinin ruhu dolaşır. Bəlkə də, onların ruhu, indicə orada küçədə ərsinlə şumaqədər oynayan iki oğlan uşağına keçmişdir. Bəlkə də, həmin ruh bu uşaqları da bir zaman Tusi və Əvhədi kimi böyük alimə, şairə çevirəcək.

Zeynalabdin düşünə-düşünə təzəcə tanış olub dostluq binası qoyduğu cavan şair Mirzə Əhməd və Mirzə Məsud ibn Əbdürrəhim ilə birlikdə Surxaba (qızılsu) – Məqbərətüş – şüəraya ziyarətə gedirdi. Mirzə Əhməd dünən ona demişdi:

– Sənin həmvətənlərin, Şirvan şairlərindən də bir neçəsi burada "Məqbərətüş-şüəra"da yatır. Qədim abidələri görmək yaxşı şeydi. Amma qərib qürbət torpaqda dəfn olunmuş həmvətəninin məzarı üstünə gedib onu yad etmək, bircə "Fatihə" surəsi oxumaq daha yaxşıdı.

Belə də etmişdilər. Üç təzə dost bu gün səhər birlikdə şəhərdən çıxmış, şəhərin kənarında yerləşən Surxaba gəlmişdilər. "Məqbərətüş-şüəra" ta qədimdən Təbrizdə vəfat edən şairlərin dəfn olunduğu bir növ məzarlığı idi. Ata Şirvandan üz döndərməyə, ana – Təbrizə pənah gətirməyə məcbur olmuş, övladını, halalını itirmiş fələkzədə şair Xaqani "Şirvan" deyə-deyə can vermiş, burada basdırılmışdı. İndi dərindən səbəbini axtarıb bilmədiyimiz; bəlkə də, zəlzələlər, müharibələr, basqınlar nəticəsində bütün sənədləri, yazı-pozuları itib-batdığından səbəbini heç bir zaman bilməyəcəyimiz keçmələr, qaçqınlar sayəsində buralara yollanmış Seyid Zülfüqar Şirvani də burada dəfn olunmuşdu.

Didərgin ömrün astanasında dayanan Zeynalabdin Şirvani özü bəs harada dəfn olunacaqdı? Bunların məzarından doğma torpaqlarda heç olmasa bir nişanə qalıb. Onun özünün məzarından bir nişanə qalacaqdımı? Bütün bunlar indi Zeynalabdin üçün aydın deyildi. Ola da bilməzdi və o bunları heç bəlkə də, indilik düşünmürdü. Cavan idi. Gəncliyə xas qayğısızlıq... Yox o, gəncliyindən kamal sahibi, düşüncə sahibiydi. Sadəcə seçdiyi həyat yolunun dürüstlüyünə əmin olduğundan ömrünün harada bitəcəyi onu maraqlandırmırdı. Təki insanlara; təki vətəninə xidmət etsin. Dünyanı gəzib gördüklərini qələmə alsın. Bir insan kimi bu dünyada əbəs yaşamasın; bir iz qoyub getsin. Bu vacib idi. Qalanı yox... Bu duyğuların tək bircəsi də indi müqəddəs şairlər məzarlığına qədəm qoyduğu dəqiqədə onun qəlbinə yol tapsa, beləcə qovardı ürəyindən o fikirləri.

İki dost qəbiristanın önündə dayanıb, burada yatan bütün şairləri rəhmətlə yad etdilər. Şair Mirzə Əhməd görünür ki, bu yerlərdə tez-tez olurdu. Çətinlik çəkmədən bir-birindən bir əsr qədər aralı yaşasa da, təxminən eyni cərgədə, eyni qara torpaq örtük altında yatan Xaqani Şirvani ilə Zülfüqar Şirvaninin qəbrini ona göstərdi.

– Təmkin, – dedi, – sənin həmvətənlərin, amma bizim hamımızın ustadı olmağa layiq şairimizin qəbri budur.

Həyəcan içində hər iki məzarın önündə qollarını köksündə çarpazlayıb durdu. "Fatihə" surəsini oxudu. Bir az da digər məzarları, qəbiristan yanındakı qəssalxananı (ölü yuyulan yer), ovdanı, kiçik və böyük türbəni, qədim məscidi gözdən keçirdilər.

Gün qalxıb bazarın qızışan vaxtında Təbrizin məşhur örtülü bazarına gəlib çıxdılar. Burada hər iki dost ondan ayrıldı, salamatlaşıb, axşam Sultaniyyə mədrəsəsində görüşməyi qərarlaşdıraraq hərə öz işinə çıxıb getdi. Zeynalabdin bazarı tək gəzəcəkdi. Və tək də qaldı.

Bağdadın Suk-ər-Rəşid bazarında olmuş, Şamaxının həftəbazarını, bazarı xatırladan dükanlarla mal dolu küçələrini görmüşdü. İrandan

Şamaxıya gedəndə də bazarlara baş çəkmişdi, amma bu bazar onları xatırlatsa da, heç birinə bənzəmirdi. Buradakı əlvanlıq ayrı aləm idi. Elə ilk baxışda qaraüzlü, qıvrımsaçlı zəncilər, ağbənizli, qızılısaçlı ruslar, qıyıqgözlü, qarahörüklü çinlilər, yaponlar, mixəyiyə çalan üzlərinin ətrafına dümdüz, parlaq qara saç şoqqaları sallanmış hindlilər, əlvan çapanları ilə həmirqlərindən seçilən özbəklər, ağ, böyük papağının uzun tükləri alnını, gözünü örtmüş türkmənlər, millət çox, geyim müxtəlif, davranış məqsəd bir idi: satmalını satmaq, almalını almaq... Bazarın dörd dövrəsini karvansaraların hücrələri sarmışdı. Hücrələrin qənşəri hündür səkilər idi. Bu ağ-qırmızıyla mayil səkilərin üstündə dünyanın hər tərəfindən gətirilmiş mallar satılırdı. Ürəyin nə istəsə tapa bilərdin bu bazarda.

Bu ənbər – ətir satanların yeridir, burada zərirə adlı hind qamışından alınan ətirli toz, xoş qoxulu, dərdlər dərmanı səndəl, lotos ətiri, ənbər, buxur, ud, kafur, gülab... yanındaca əttarlarda mixək, hil, darçın, zəncəfil, badyan, ceviz, quluncan... bədnəzərə, caduya qarşı südab, üzərlik, dərman bitkiləri və otlar: isfanəyri, acı zindan, şirin zindan, Əbucəhl qarpızının toxumu, aqərqərha...[1]

Buradaca Misir və Kiçik Asiyadan qulam və kənizlər müxtəlif mallar gətirmiş fars və Şam tacirləri, sərraf və sələmçi yəhudilər, duz və neft tuluqları, dərman kimi işlədilən qara neft və neft yağları gətirən Bakı tacirləri yerləşmişdi.

Öz mətahını özü satanlar çiyninə alıb küçə və meydanlara çıxır, karvansara həyətlərində bağıra-bağıra tərifləyib, müştəri axtarır və satırdılar. Bir az o yanda dəvələrlə Hicaz ərəblərinin gətirdiyi Cəzirətül-ərəbdə – Ərəbistan yarımadasında aşılanmış heyvan dəriləri, rus tacirlərinin satdığı samur, su samuru, çöl pişiyi, dələ, sincab, tülkü xəzləri. Yunan sandıqları, Dəməşq və Bağdad libası, "xəz" adlansa da, Misirdə toxunan yalnız varlıların libas və baş sarığı kimi istifadə etdikləri qırmızı, yaşıl, sarı rəngli ipək parça, qiymətli geymələr üçün istifadə olunan Tibra ipəyi, küplərlə Fələstindən gətirilən zeytun yağları, bir az aralıda köhnə paltar, kəndir kimi şeylər satan "simsar" adlandırılan satıcının kasıbfəndi mətahı. İpək, zərli, güləbətinlə işlənmiş al-əlvan parçalar, məxmər, zərdur, qarazey, mahud, tafta, xara, qanovuz, zərxara, iynəbatmaz-qayçıkəsməz, kimxa, şəmsi-qəmər, zərbaf topları bazarı başına götürmüşdü. Benaresdən gətirilmiş bənarə

[1] Dərman bitkisi



örpəklər, Şəki-Şirvan-Gəncə kəlağayıları, Kufə işi kufiyələr, qaqum dərisindən kürk, güləbətinlə gəlin əllərinin bəzədiyi gül muncuqla butalanmış araqçınlar, daraqqabılar, quranqabılar, sürmədan qabılar,[1] mirvarilə düzəldilmiş tumanbağı milçiləri, əlvan yundan, ipəkdən, mirvaridən toxunmuş saçbağılar, zərgər işi gümüş, tunc sürmədanlar, xırdaca əl içi boyda bəzəkli güzgülərdən tutmuş bədənnüma aynalaracan, müxtəlif çəkili və ölçülü kəllə qəndləri, Misir nabatı və qəndi, qabqacaq, iri adamboyu küplərdən tutmuş xırdaca bərnilərəcən, balaca canamaz xalçalarından tutmuş ev bərabəri nəhəng xalılara, sumaqlara, kilimlərə, gəbələrə, zillilərəcən; dərvişlərin geydiyi yundan toxunmuş suf adlı parçalar, zərq adlı göy rəngli yenə yundan dərvişlərin geydiyi alt köynəkləri, hər şey, hər şey satılırdı bu bazarda. Müxtəlif ölçülər, müxtəlif biçimli tərəzilər qızıl, dərman, ədviyyə çəkən misqal-tərəzidən tutmuş ağır yüklər çəkən, tay götürən qapanacan, piyalə ölçüsündən tabağacan... hamısı da dürüst "iman tərəzisi" olmalıydı. Tacirlər arasında belə bir məsəl vardı: "Şərabı almaq da haramdı, satmaq da. Amma hər halda onu da gərək düz ölçəsən"; dürüstlüyünə şübhə oyanan tacir etibardan düşürdü. Onunla alver günah sayılır, onunla alver haram elan edilirdi və həmin tacir "sınıq çıxır", vardan-yoxdan olurdu. Odur ki, Təbriz bazarı kimi bazarların daimi tacirləri, nə olursa olsun, düzlükdə ad qazanmağa, etibar sahibi olmağa can atırdılar.

Cəmiyyət çoxluğundan azacıq aralı "canlı bazar" idi. Haça kühənli, təkkühənli dəvələr: nərlər, arvanalar, mayalar, müxtəlif məqsəd üçün yetişdirilmiş atlar: yorğası, çaparağı buradaca yoxlanılan kəhərlər, səməndərlə, qara ürgələr, boz madyanlar, ağ-çal yabılar... ağır yük dözümlü qatırlar, ağ həmədan eşşəkləri, qara zır yük ulaqları, döllük qoçlar, batmanquyruq ətlik qoyunlar, kabablıqçün altıaylıq qara toğlular, burmabuynuz döyüş qoçları, yoğunbiləng döyüş köpəkləri, qarnı dalına yapışmış zərif itiüzlü, uzunquyruq ov tazıları, tulaları, döyüşkən ları xoruzlar, müxtəlif oxuyan quşlar, danışan tutular... şahin, toğan kimi ov quşları...

Kələntər və darğa köməkçiləri ov itləri kimi bazarda vurnuxur, qayda-qanunun pozulmasına, oğru-əyrinin əl-qol açmamasına nəzarət edirdilər.

[1] "Sürmədan" sürmə qabı deməkdir, metaldandır, "sürmədanqabı" isə həmin sürmədan üçün tikilib güləbətinlə bəzədilmiş xüsusi qabdır ki, sürmədan bunun içinə qoyulur və əl-ayaqdan uzaq, bəzək əşyası kimi divardan asılırdı.

Ağız deyəni qulaq eşitmirdi. Hərə ucadan öz malını tərifləyir, müştəri çağırırdı, bütün tacirlər bir-birinin və yerli əhalinin dilini bilirdi. Uzun illər karvan yollarında can qoymuş tacirlərin çoxu bir neçə dildə danışırdı. Bütün türkdilli xalqlar arasında anlaşılan Azərbaycan dilində özbəklə də, türkmənlə də, tatarla da, qırğızla da, qazaxla da, osmanlıyla da danışa bilirdilər. Rus tacirlərinin çoxu ya türkcə, ya farsca bilir, işlərini aşırırdılar. Fars dili bilənlər, taciklər, əfqanlar, beluclar, urdularla anlaşırdı. Zeynalabdin indi anlayırdı ki, bir neçə dil bilməsi onun köməyinə gəlir. Bazarın hay-küyü içində o, cərgələr arasında gəzir, müxtəlif məmləkətlərdən gətirilmiş qəribə, indiyəcən görmədiyi mallara baxır, adını, qiymətini öyrənirdi.

Birdən karvansaranın baş darvazası önündə xırda səkidə salınmış xalça üstündə əyləşib, şirazi qəlyan xoruldadan bir kişinin tacirlərdən biri ilə söhbəti onun diqqətini cəlb elədi. Kişinin altında döşəkçə, arxasında püştü vardı, dirsəkaltıya təkyə eləyib qəlyan çəkirdi. Qəlyan əlvan nəbati naxışlarla bəzədilmiş çini idi. Kişi başına kənarı hərəmili ağ sarıq qoymuşdu. Uzun köynəyinin üstündən kənarları samur dərisiylə həşyələnmiş diba gödəkcə geymişdi. Qalın bığları arasından qəlyanının qəmişini sıxıb sümürən dodaqları görünmürdü. Nazik xətt saxlamışdı. Bazarın kələntəri idi. Qarşısında dayanıb onunla söhbət edən tacirə gileylənirdi:

– Vallah, bizim böyüklərin işindən baş açmıram. Bazarda hansı xarici tacirə əl vurursan, gömrüksüz, rüsumsuz ticarətə icazənaməsini çıxardıb, gözümüzə dürtür. Biz də heç nə eləyə bilmirik. Sədyek[1], tərh[2] də ala bilmirik. Bu ingilis, bu firəng, bu uzaq rum, bu urus, bu filan... Öz tacirlərimizin, sən demiş, gönünü soyuruq. Özgə, gəlmə tacirlər də camaatımızın gönünü soyur. Belədi qardaş, belə deyil?!

– Vallah, billah, Allah elədi. Gözüm, elədi, canım, elədi. Bunu gərək başa düşə böyüklərimiz. Öz tacirlərimizin də ticarətinə rəvac verə. Nəyinki tək gəlmələrin. Axı qardaş, biz tacirik – mal satmalıyıq. Yüz zülümnən yollardakı çapovulçulardan mal saldırıb gəlirik. Amma sata bilmirik, əcnəbi tacirlər az qala bazarlarımızı qılınc-qalxansız fəth eləyiblər. Odur ki, biz də həm xarici tacirlərin nüfuzuna, həm də bu nüfuzu onlara lütf eləyənlərə qarşı cihada məcburuq. Bizi zorla şurişçi[3] qayırıblar. Bizə, öz bazarlarımızda azad ticarətə, rəqabətsiz alverə şərait

[1] Dərgaların xeyrinə yığılan vergi
[2] Tacirlərdən alınan vergi
[3] Üsyançı



yaradan padşah lazımdı. Yoxsa indilik bizimki ticarət deyil, Əzrayılla çilingağac oynamaqdı.

Qəlyanın qəmişini sümürüb tüstünü göyə buraxan kələntərin gözü bir tacir kimi tanımadığı, ömründə görmədiyi Zeynalabdinə sataşdı. “Birdən hökmdarın qulaqçılarından olar”, – düşündü və cəld uzaq qohumu olan tacir müsahibinin əlvan ipək xələtinin qolunu dartdı.

– Allah hökmdarımıza ömri-tulani bəxş eləsin. Eləyər inşallah! O qayğıya qalmayanda, kim qalar? Ticarətə o rövnəq verməyəndə, kim verər?

Tacir də dönüb Zeynalabdinə baxdı, tanımadı. Cavan idi, ticarət yollarında çox cavan, təcrübəsiz, təzə işə başlamış tacirə çox rast olmuşdu. Amma bunu heç görməmişdi. Kişi adamtanıyan idi. Bunun dərvişxislət, elm həvəskarı cavanlardan olduğunu daxili bir hiss ilə anladı. Sakitlik tapdı. Onsuz da kələntər qohumu olsa da, əsil satqın özü ola bilərdi. O daha qorxulu adam idi, nəinki bu üzünə təzəcə tük gəlməyə başlayan cavan. Qohumunu sakitləşdirmək üçün dedi:

– Tanıyıram, elə adam deyil, qorxma. Bir də ki, mən nə deyirəm axı? Qardaş, sözün olanını deyirəm, işin olanını deyirəm, işin olanını. Məgər yalandı? Yalandısa, özün tut qanır, kəs başımı...

Zeynalabdin müsahiblərin ondan şübhələndiyini duyunca yavaş-yavaş darvaza ağzını tərk etdi və başqa mallar satılan cərgələrə doğru irəlilədi.

Yolu bazar əhlinə xidmət edən, açıq havada xörək bişirib satanların cərgəsinə düşdü. Burada iri teştlərdə iç-ciyər qovrulur, nəhəng qazanlarda plov bişirilir. İri tiyanlarda ət xörəkləri hazırlanırdı. Hazır isti qutab, bol ədviyyatlı müxtəlif halvalar, şirniyyat və bişmişi tabaqlarda gəzdirib ayaqüstü alver edənlərə satanlar bazarı dörd dolanırdı.

Zeynalabdin iç-ciyər qovurması satanlardan birinin yanında çömbəlib ağ, pambıq kimi yumşaq təzə, zəfəranlı-xaşxaşlı təndir çörəyi ilə qovurma yeyənlərin yanına keçdi. Pulunu alıb xırda mis nimçədə ona qovurma, əl boyda təndir çörəyi verdilər. Zeynalabdin də xörək yeyənlərin oturduğu yerdən azacıq aralı taxt üstündə çay içənlərin yanında əyləşdi. Bir çaydan çay və bir piyalə çay istədi. Qovurmanın üstündən dərhal çay içməli idi ki, piy donub damağına yapışmasın. Belə də etdi. Xörəyini yeyib çayını içdi və yaxın karvansaralardan birində hücrə kirələmək üçün yollandı. Günorta namazının vaxtı idi.

O hələ nə dərviş kimi dərviş, nə tacir kimi tacir, nə də səyyah kimi səyyah idi. Elə beləcə... öz adətlərini hələ tərk etməmiş, seyrə, bəlkə də, başmaqseyrinə çıxmış bir cavan idi.

Zeynalabdin bazarı doldurmuş, tacirlərin əl-ayağına dolaşan, alıcıların hesabına mane olan əhli-sual – dilənçilərin arasından keçib Şirvanın ipəyi və kəlağayı, Təbrizdə dörd rəngli istehsal olunan "darayı kəssab" parçalar satılan cərgəyə keçdi. Burada onu ən çox məşğul edən kitablar, dünyada məşhur Səmərqənd kağızına qara mürəkkəblə yazılmış, əlvan rənglərlə naxış və miniatürlərlə bəzədilmiş əlyazmaları satan "kitabfürüş" tacirlərin yanına yönəldi. Dayanıb əlyazmalarına baxdı. Elmin müxtəlif sahələrinə aid bu ölümsüz əsərlər arasında irili-xırdalı Quranlara rast gəldi. Göz oxşayan yeddi rənglə yazılmış əlvan Quran surələri, cüzlər, ayələr, bismillahlar elə gözəl işlənmişdi ki, insan bu sənət möcüzəsinə valeh olmaya bilmirdi.

Qəfil qulağının dibində qəribə bir səslə kitabsatandan Quran istəyən adama dönüb baxdı. Geyimi, dili, milləti, dini, əqidəsi zahirindən bəlli deyildi. Bu adamın sualı qəribə idi. Heç nəyi ilə bazar əhlindən seçilməyən kişinin sualları və sonra gəldiyi nəticə küfr idi.

– Mənə sünnü Quranı ver.

– Elə Quran yoxdu, kişi!

– Onda şiəməzhəb Quranı ver!

– Eləsini də görməmişəm!

– Bəs necəsi var?

– Quran qurbanı olduğum birdi. Onun nə sünnüsü, nə şiəsi? Allahın kəlamıdı. Sünnünün, şiənin kəlamı deyil, nə əbləh-əbləh söz soruşursan?

– Əbləh özünsən! Ay Allah evinizi yıxsın, indi ki, Quran da bir, Allah da birdi, onun göndərdiyi peyğəmbər də birdi, day onda bu nə sünnü-şiə ayrı-seçkiliyidi salmısız camaatın arasına, dili bir, dini bir millətin arasına?

– Gədə, bu nə danışır belə, gədə hanı o darğa qulları? Kələntərə, möhtəsibə xəbər eləyin... Bu nə vurçatdasındı?!

– Balam, Təbriz dübbəynən[1], şurişçiynən dolub.

– Adə qoyma...

Gec idi, dükançı əl-ayaq eləyənəcən sual verən aradan çıxıb, bazarın gur yerindəki adamlara qarışıb, gözdən itmişdi. Zeynalabdin qəlbində düşünürdü: "Axund İskəndər də bunu eşitsəydi, şübhə yox ki, dəhşətə gələr, küfr adlandırardı. Amma nə deyirsən de, deyəsən, kişinin sözlərində həqiqət var axı?!"

[1] Zarafatcıl



Əttar cərgəsi nisbətən hay-küysüz idi. Dərman bitkilərini müştəriyə satmaq üçün xırda misqal-tərəziyə qoyub çəkə-çəkə nüsxəbəndin gördüyü işi görür, izahat da verirdi:

– Beş misqal zəncəfil, beş misqal qulunçan, dörd misqal aqərqərha qatarsan xalis beçə balına, yarım girvənkə... Diz ağrısı canından tərtəmiz getməkçün qaraçörəkotunu bal ilə qarışdırıb ye. Gör nə görürsən.

Bu nüsxələrdən Bağdad əttarlarından da çox eşitmişdi. İran əttarlarından və nüsxəbəndlərindən daha çox.

Çayxananın qabağında təbərzinin oynada-oynada oxuyan bir dərviş, əslində öz dini, əqidəsi, təriqəti ilə heç bir əlaqəsi olmayan Şəkkəri təxəllüslü şairin qəzəlini oxuyurdu. Görünür, qəzəl onun çox xoşuna gəldiyindən, şövqlə oxuyurdu: "Ağlamaqdan gözümün yaşını pürxun eylədin. Birini ayni – Ərəs; birini Ceyhun eylədin".

Onunla birlikdə gəzən ikinci dərviş isə çaydanı qabağına qoyub piyaləyə çay süzdükcə Allahına yalvara-yalvara ucadan dualar, zikrlər söyləyirdi. Bu mənzərə ötənlərin nəzərini cəlb etdikcə arabir ürəyinaziyin biri bu dərvişə tərəf əyilib onun kəşkülünə xırda pul atırdı. Dərviş heç kəs üçün dua və ya təşəkkür eləmirdi. Öz işində, öz Allahına yalvarışlarında idi və məhz elə bu yalvarışlar dindar ürəkləri riqqətə gətirirdi, dərviş deyirdi:

– Barilaha! Ürəyimi açıq, gözümü işıq, nəfsimi sabitqədəm elə! Bu nemətlərə şükür eləyərəm, ya rəbbim! Əlimdən tutmasam, yolumdan azaram. Sənə pənah aparıram, sənə pənah aparıram, sənə pənah aparıram! Mənə yol göstər, mənə hadi ol! Kəramətini məndən əsirgəmə! Sənə pənah aparıram. Məndə əmanət olan canı sənə tapşıranacan, hüzuruna qayıdanacan gözlərimdən işıq, qəlbimdən ziya, zehnimdən nurunu əsirgəmə! Sənə pənah aparıram. Səndən başqa pənahım yoxdur. Pərvərdigara! Bu gen dünyada nə qədər canlı varsa, onun baisi – həyatı, dəlili sənsən. Ləənallahü ümmətən qətələtikə və ləənallahü ümmətən zələmətikə[1]! Məni zalımdan, qatildən qoru! Məni oğrudan, əyridən, yol azdırandan, yolunu azmışdan, xaindən, insan ömrünün bir ləhzəsini belə behüdə keçirəndən qoru, ya rəbbim! Rəhim Allah, kərim Allah! Əzizlərindən, kəramət sahiblərindən biri deyib: Dünya gözəl bəzənmiş, fitnəkar qadındır; mən onu "get, sənə üç talaq vermişəm"

[1] Allahın ləanəti qatil, zalım ümmətinə gəlsin.

deyib, məni fitnəkar gözlərdən, şirin, zəhərli dillərdən xilas et, rəbbim Allah! Xudavəndigarım, tanrım! Beş gün mənzilim olan dünyada bir zövq-səfa görməmişəm. Dərdi-səri dağlar qədər, zövq-səfası oymaq-oymaq olan dünyadan tez çək ayağımı. Tamahımı azalt. Dünya eşqimi azalt. Doydur gözlərimi, ya Allah, doydur gözlərimi, doydur gözlərimi! Qulluğuna, dərgahına əliboş, üzüqara gəlməyim. Nameyi-əmalımı, əməl kitabımı xoş əməllərlə doldur, ya İlahi!

Sonra birdən dərviş nə üçünsə qəflətən yaxında dayanıb onu seyr edən, dua sənalarındakı qəribə ziddiyyətləri dərkə çalışan Zeynalabdinə tərəf dönüb dedi:

– Bidar yaşa! Pul, şöhrət və qol gücü sənə insanlığını unutdurmasın, övlad!

Lap Baba Sakit kimi dedi bu sözləri.

Bu bazarın da öz oğrusu, öz dilənçisi, öz yazılmamış və yazılmış qayda-qanunları var idi. Bu bazarda da xəyanətkarı rüsvay edər, istəsən birini göylərə qaldırıb, bay elər, o birinin vayına oturardılar. Bazarın baş möhtəsibi, kələntəri Allaha bəndəlik eləmirdi. Vəzifələrini satın aldıqlarından, saraya lazımınca məbləğ çatdırdıqlarından nabələd tacirin başına olmazın oyunlar açır, malını birə-beş ucuz alıb, əliboş yola salır, sonra da öz əlaltıları vasitəsilə satdırırdılar.

Namaz vaxtı çatanda bazar boşalır, dükan-bazar açıq qalır, hamı, hətta oğru-əyri də bazarın o başındakı Came məscidinə axışırdı. Kimin nə həddi var idi ki, əzan səsi eşidilər eşidilməz dəstəmaz almaq üçün aftafa üstünə cummaya, məscidə camaat namazına durmaya? Möhtəsiblərin qəzəbinə uğrayardı. Bazarda malını rahat satıb, almalısını rahat almaq istəyənlər çalışırdı ki, darğa köməkçilərinin, möhtəsiblərin qəzəbinə düçar olmasınlar.

Zeynalabdin əttar[1] cərgəsindən aralanmamışdı ki, əzan səsi eşidildi. Hamı təkbir deyə-deyə dəstəmaza cumanda Zeynalabdin qəribə bir həvəslə gözəl səsli azançıya diqqət yetirdi.

Şamaxının bəzi məscidlərində o, azanı "yarımçıq" eşidirdi. Əzan yalnız: "La ilahə illəllah, Məhəmmədən rəsulillah" şəklində verilir, "Əliyyən vəliyullah" deyilmirdi. Bu "çatışmazlıq" onu çaşdırırdı. O, Baba Sakit dərvişin danışıqlarından dünyada sünnünün şiədən çox olduğunu, başqa təriqətlərin də bolluğunu bilirdi. Amma adət belədir, adət etmişdi, heç cür bu "yarımçıq" əzana alışa bilmirdi. Burada isə əzan

[1] Ətriyyat, ədviyyat, dava-dərman satılan yer



Kərbəlada və Şamaxının Sarıtorpaq məhəlləsində olduğu kimi "tam" verilirdi. Nəydisə... Qarşısına gəldiyi dükanlardan birinin şagirdindən dəstəmaz üçün aftafa istədi:

– Məscidin həyətində çoxdu, dadaş, ora get! Biriydi, ağam götürüb aftafanı. Məscidə get, gecikərsən...

Zeynalabdin belə də elədi. Necə olmuşdu ki, məscid həyətlərinin səliqəsini unudub, özü də bilmədən uşağa müraciət etmişdi. Görünür, fikirli olduğundan beləydi. Dəstəmaz alıb, məscidə camaat namazı qılmağa yönəldi.

Namazı qurtarıb, hücrəsinə gəldi. Bir az dincələndən sonra qonşusu ilə söhbətləşmək istəyirdi.

* * *

Qonşu hücrədə maraqlı bir tacir yaşayırdı. Hücrənin qənşərinə xeyli əlvan çit topları, müxtəlif heyvan xəzləri, əlvan taxta qaşıq, çömçə, çanaq qoyurdu. Həm kəndlərdən gələnlərə, şəhər alıcılarına dönə-dönə, həm də müştəri – dəllallara topdan satırdı. Cavan bir nökərindən başqa, ayrı xidmətçisi də yox idi. Çörək-xörəklərini də həmin nökər hazırlayırdı. Yerli adətləri yaxşı bildiyindən heç kimə əl uzatmır, yalnız sağ əlini əvvəlcə döşünə, sonra da alnına aparıb yüngülcə baş əyirdi. Gələn adam ona əl uzatsa, əl verirdi. Gülümsər ağlı-çəhrayılı bənizini sarışın, qısa saqqalı həşkələmiş, qızılıya çalan sarışın bığları qırmızı dodaqlarının üstündə burulub, hər iki tərəfdən yanağına doğru qalxmışdı. Əynində əlvan saplarla bəzədilmiş yanyaxa qırmızı atlas köynək, "Şirvani" yaxası kimi dikyaxa, büzmə belli çuxaya, arxalığa bənzər qara mahuddan geymə vardı. Köynəyinin belini ucu qotazlı qaytanla bağlamışdı. Uzunboğaz çəkmələr geymişdi. Nökərinin də geyimi eynilə ağasınınkı cildində olsa da, malı ipək, mahud deyil, ucuzbəsər və köhnəydi. Ağa Azərbaycan və fars dillərini mükəmməl bilsə də, nökəri gücbəla ilə danışırdı.

Hər gün səhər əl-üzlərini yumaq üçün həyətə çarhovuz başına çıxanda görüşür və insanları bir-birinə yaxınlaşdıran təbəssüm bağışlayırdılar. Sonra salama keçdilər. Bir neçə gündən sonra artıq Zeynalabdin bilirdi ki, qonşusu rusdur. Şərqin bir çox ölkələrində xüsusilə sevilən, yaxşı satılan xəz və çit gətirir. Adı Vasilidir. Və öz vətəninə sadiqdir. Vasilinin ömrünün çoxu şərq bazarlarında ticarətdə keçib. Bu yerlərdə çoxlu dostları, tanışları, daimi müştəriləri var.

Tacir deyirdi:

– Sizin bu yerlər çox istidir. Bizim ölkədə elə yerlər var ki, il on iki ay qışdır, soyuqdur. Günəşi görə bilmirlər. Demək olar ki, həmişə qar yağır. Təkcə yayda azacıq havalar ılıqlaşır. Onu da yay adlandırmaq olsa. Günlər qısa, gecələr uzundur, təzə meyvəni ömründə görməyənlər var.

– Bəs özünüzün əkinəcəyiniz yoxdu?

– Niyə ki. Yazlıq dənli bitkilər, yemiş-qarpız becərən ərazilərimiz var. Taxıl çoxdu. Amma yerlərimizin çoxu meşəlikdi, əkilmir. Meşə təsərrüfatı, ovçuluq; bax, bu gördüyün ipək kimi xəzləri bizimkilər istehsal eləyir.

– Ölkəniz böyükdü?

– Böyükdü.

– Sizdə təkcə ruslarmı yaşayır?

– Nə danışırsan? Təkcə niyə? Ruslardan başqa, bizdə beloruslar, ukraynalılar, müxtəlif müsəlman xalqları, tatarlar, başqırdlar, noqaylar, qaraçaylar... yaşayır. Hamısı da rus çarının təbəələridir.

– Ticarət necədi?

– Yaxşıdı. Sizdə olan kimi bizdə də başqa millətlərin tacirlərinə hörmət var.

Günlərlə çəkən bu kimi söhbətlərin nəticəsində Zeynalabdinin bayazına bu sözlər də yazıldı: ruslar da bir xalqdı. Başqa ölkələrə xəz, çit ixrac edirlər. Rus çiti firəng ölkələrindən[1] gətirilən çitdən daha yaxşı satılır, qiymətə gedir. Ruslar gümüş, qızıl, mübadilədə, ticarətdə daha uyğun və yüngül gələn kağız pulu belə sikkələyirlər.

Zeynalabdin uzun müddət öz doğma vətəni haqqında həvəslə ona məlumat verən tacir Vasilini unutmadı. Sonralar Şərqin hansı məmləkətində rus tacirinə rast gəlsəydi, mütləq Vasilini səmimiyyətlə yad edərdi.

* * *

Bu gün işləri yaxşı gətirmişdi. Hava da olduqca gözəl, mülayim, günəşli, nəvazişkar ana kimi mehriban idi. Səhər mədrəsəyə getmiş, üç aydan bəri dərs almaqda olduğu müəlliminin sorğu məclisində iştirak edib, bir xeyli bilik qazanmışdı. Bazar başında şirvanlı bir tacirə rast gəlmişdi. Dayanıb xeyli söhbət etmişdilər. Sən demə, bu tacir, onun Dövran dayısının yaşıdı və məhəllə yoldaşıymış. Balaca vaxtında

[1] Avropa ölkələri mənasında işlənirdi.



mədrəsəyə də birlikdə gedərmişlər. Bir dəfə Dövran onun əvəzinə molla Nəcəfquludan hələ çubuq da yeyibmiş. Tacir Əlsəmidlə xeyli söhbət etdilər. Sonra da bazar başındakı çayxanada birlikdə çay içdilər, nahar elədilər. Hal-əhval tutub bir-birini tanımaları da çox qəribə olmuşdu.

Zeynalabdin adəti üzrə, kitabsatan dükanın qənşərində dayanıb əlyazmalarına baxır, nəyi ala biləcəyini götür-qoy edirdi. Dükançıya bir müştəri yaxınlaşdı. Görünüşündən tacirə bənzəyirdi. Yol adamı libasında olan bu tacirlərin ilk baxışdan milliyyətini müəyyənləşdirmək o qədər də qolay deyildi. Zeynalabdin qeyri-ixtiyari tacirlə dükan sahibinin danışığını eşitməli oldu. Onlar görüşüb-öpüşdülər. Görünür, çoxdanın tanışı idilər.

– Hə... Əlsəmid qardaş, çoxdandı yoxsan... Nə var, nə yox o qədim şairlər yurdunda?

– Bir Allahdan başqa, hər şey dəyişib...

– Mənə təzə bir şey gətirmisən?

– Yanında üzüqarayam, qardaş!

– Üzüqara düşmənin olsun. Nə əcəb əliboşsan?

– Əliboşam...

– Daha yazmırlar? Şirvan daha şair yetirmir?

– Kim deyir onu? Yetirir, niyə yetirmir. Amma qarğaşalıqda Şirvan, "börkaldıqaç olubdu Şirvanımız". Bunu elə kargər şairi Əhməd deyib. Doğrudan da, papağını başında möhkəm saxlayasan gərək... Odur ki, qilü-qaldan, hər gün dəyişən qayda-qanundan baş açıb, yazanın yazdığının surətini köçürən xəttatların da başı qarışıb, macalları, dinclikləri yoxdu. Bilmirsən, bu gün gözünü açıb nə görəsən, xanlıqdı, ya kamandantlıq... şair demişkən. Bir bahalıq düşüb, bir qəhətlik çöküb... "Turş alçanın söhbəti də pet qəpik"[1] olub. Yazı-zad yada düşmür. Gələn səfər inşallah... Allahın köməkliyi ilə ürək sakitliyi çökər Şirvanımıza, genə gətirərəm sənə təzə şairlərimizin divanından, müntəxəbatından – satarsan...

Tacir Əlsəmidin dilindən Şirvan sözünü söhbətin əvvəlindən eşidən kimi Zeynalabdinin ürəyi telləndi. Lap bu ötən il Bağdad səfərindən sonra dincəldiyi kölgəli qayalar, yamyaşıl məxmər yamaclar, çiçəkli "döşlər", başı ağ cunalı dağlar, Fit, Pirdəriki, Gülüstan, Qız

[1] Misra XIX əsrin əvvəllərində yaşayan şair-kargər Əhmədin ictimai-satirik şerindən alınıb.

qalası, Oğlanqala dağları yadına düşdü. Elə bildi ki, haradasa Nanəli bulağın başında Dövran dayısı və həmyaşıd cavanlarla birlikdə quzu ətindən şirvansayağı xırdaca-xırdaca doğranmış tikə kabab yeyir. Qızaran kababın kömür dəminə qarışmış iyi burnuna vurdu. Yerində mıxlanıb qaldı. O bu Əlsəmid tacirlə mütləq danışmalıydı. Bəlkə, elə vətən dedikləri hardasa uşaqlıq və gəncliyin xoş xatirələri ilə bağlı olan torpaqdı.

Azacıq kənara çəkildi ki, dostlar sərbəst söhbət eləyə bilsinlər, qulaq asdığını, qəsdən dayandığını duyub, söhbətlərini yanılmasınlar, xısın-xısın pıçıltıya keçməyə məcbur olmasınlar. Bəlkə, pünhan, məhrəm söhbətləri var. Qoy arxayın danışsınlar.

Amma deyəsən, dükançı ilə tacir Əlsəmidin dostluğu pünhan sirlərlə ilgili deyildi. Bir də qucaqlaşıb salamatlaşdılar, bir-birinə xoş arzular, "səfər səlamət olsun", "sağlıqla qalın" deyib ayrıldılar. Elə bu vaxt Zeynalabdin cürətini toplayıb tanımadığı olsa da, Şirvanın bir zərrəsinə – tacir Əlsəmidə yanaşdı.

– Əssəlaməleyküm.

– Vəəleykümməssəlam. Mənə sözünmü var, oğlum?

Zeynalabdin gülümsədi. Əlbəttə, o Əlsəmidin oğlu və ya Əlsəmid onun atası yaşında deyildi. Müraciət formasıydı. Şirvanda eşitmişdi, böyük qardaşa kiçik qardaş "qağa" deyirdi.

– Qağa, – deyib sonra cəld sözünü düzəltdi.

Bəlkə tacirin bu "qağadan" xoşu gəlməyəcək, onu qardaşlığa qəbul etməyəcək. Odur ki, tez sözü dəyişdi.

– Bağışlayın, ağa, mən də Şirvan əhliyəm. Görünür, təzə gəlmisiz, hal-əhval tutmaq istədim...

Nisbətən cavan olsa da, ölkələr gəzmiş, xalqlar, ədəb-ərkan görmüş, uzun yollarda qəriblik çəkib, dadını bilən tacir Əlsəmid gülümsədi:

– Lap əcəb elədin. Xoş gördük. Səfa gördük.

– Sizi də xoş gördük.

– Ciyərim yanır, keçək o pürrəng çaydan bir piyalə nuş eləyə-eləyə söhbətləşək. Qərib ölkələrdə ellimə irast olmaqdan dadlı heç bir şey bilmirəm.

Zeynalabdin, əlbəttə, etiraz etmədi. Çayxananın qabağındakı taxtlardan birinin üstündə əyləşdilər. Çayçı cəld onlara bir iri çaydan çay və iki xırdaca piyalə gətirdi:

– Nuş olsun, – deyib getdi.

Əlsəmid çaydanı aldı, piyalələrə yerli dəblə çay süzüb Zeynalabdinə üz tutdu:



– Hə... Gəl əvvəlcə bir-birimizi tanıyaq, bələdləşək. Mən Qalabazar məhəlləsindən tacir Hacı Mürsəl ağanın oğlu Əlsəmidəm. Sən kimlərdənsən? Görünür, vətəndən çoxdan çıxmısan, tanıya bilmədim səni...

– Mənimki uzun məsələdi, tanıya da bilməzsiz. Mən... Yəni biz külfətliklə Kərbəlada oluruq. Əslimiz də, qohum-əqrəbamız da Şirvandadı. Atam Kərbəlayı Axund İskəndərdi. Şamaxıda...

– Dayan, dayan! Dalını demə! Mən sənin yeddi dayını – yeddiqardaşları lap yaxşıca tanıyıram. Kiçik dayın Dövran ilə birgə oxumuşuq. O şümür Nəcəfqulunun məktəbində. Falaqqalarının dadı indi də damağımdan getməyib...

Güldülər.

Əlsəmid tacir sözünə davam etdi:

– Sənin Şirvana gəlməyini də eşitmişəm. Sən gələn vaxt mən Urisiyətə yarmankəyə[1] ticarətə getmişdim. Qayıdanda eşitdim. Dövran dayın özü danışdı mənə. Biz onuynan curuq axı. Hər gələndə səfərlərarası bir neçə dəfə görüşüb qonaqlaşmasaq, dinimiz dürüst olmaz. Hə... Şirvana gəlməyini də, getməyinin macərasını da, başınıza gələn qəzavü-qədəri mənə Dövran dayın özü danışdı. Bu barədə heç nə deməsən də olar. Amma səndən yaman nigarandı, kağız-zad da yazmamısan.

– Kimdən göndərəcəkdim? – Bu nigarançılığı yaratmasından utanan Zeynalabdin dilləndi.

Xəcalətdən qıpqırmızı qızarmışdı.

Əlsəmid cəld dedi:

– Əşi, Şirvan tacirləri Şamaxıdan Hindistanacan düz-dünyanı tutub. Hansı karvansarada tacir görsən soruş, öyrəş. Bundan sonra dayılarını, ananı gözü yolda qoyma. Amma nə sevinəcəklər? Yeddi-səkkiz ay olar Şirvandan çıxdığın?

– On aydı...

– İnsafsız... Onda yəqin ananın, Şirinbəyim bacının da Şirvana gəlməyindən bixəbərsən?

Zeynalabdinin gözləri az qala hədəqəsindən çıxdı:

– Necə, necə? Anam Şamaxıdadı...

– Hə... Bəs necə!..

– Doğrudan?

– Yalan neyçün? Bilmədiyimi niyə deyim ki, sənə? Deyirlərdi ki, səndən sonra o biri qardaşın da harasa gedib. Şirinbəyim bacının da

[1] Yarmarka sözünün təhrif olunmuş şəklidir.

tək-tənha tabı qalmayıb qəriblikdə. Axunda yalvarıb qoşub onu Şamaxı zəvvarlarına, salıb yola... İndi gərək xəbər aparam ki, səni öz gözümnən görmüşəm... Dünyanı bağışlayacağam onlara. Ananın da gözü yollardadı... Dayılarının da... Hələ dayıqızıynan da anan barışdırıb dayını... Qoca, bircə qərib bacısından keçə bilməyib...

Yenə də Telizərin tanımadığı, görmədiyi simasını xəyalında canlandırmağa çalışdı, bacarmadı... Amma anası sarıdan ürəyi arxayınlaşdı. Həsrətini çəkdiyi vətəninə, qardaşlarına qovuşandan sonra bala dərdini çəkmək qismən asan olar onunçun. Belə də dedi:

– Allah səni sevindirsin, ağa! Dayılarım öz yerində, amma anam barədə ürəyimə sərin su səpdin. Arxayınlaşdırdın məni. Həmişə şad olasan. Bu elə xoş xəbərdi ki, ömrüm uzunu qulam sənə...

– Allahın qulu olsan, bəsdi.

Tacir güldü. Piyalələrə bir də çay süzdü. Bundan sonra onlar birlikdə nahar etdilər. Nahar vaxtı da tacir Əlsəmid tez-tez zarafatlaşır, Dövran dayı ilə birgə məktəb həyatından danışırdı. Ayrılana yaxın çayçıdan kağız, qələm-davat istədi və Zeynalabdindən anasına, dayılarına məktub yazmağı xahiş etdi:

– Bilirsən, elə-belə gedib danışsam, inanmayan da olar. Elə bilərlər ki, səni görməyimi qəsdcən deyirəm ki, onların ürəyini sakitləşdirim. Kağız yazsan, bu ayrı iş olar. Əlimdə sənəd olar. Şahdan fərman gətirən pişik kimi sözüm də ötər, muştuluğum da nəqd, könlümcən olar.

Zeynalabdin həvəslə xahişini yerinə yetirib, iki məktub yazdı. Birini anasına, birini də dayılarına.

– Elə mən özüm də sizdən xahiş eləyəcəkdim. Dedim, gedib hücrəmdə yazıb gətirərəm. Saxlamaq, iş-gücdən eləmək istəmədim sizi.

– Bu nə sözdü... bu nə sözdü? Ayıbdı ki!.. Hamısı cəhənnəm olsun. Bir nigaran, intizar ananın gözünü yoldan yığmaq, sevindirmək, bir dostu nigarançılıqdan qurtarmaq, o dünyanı da satın almaq kimi şeydi... Savabı savab, sevinci sevinc, qazancı muştuluq...

Görüşüb ayrılanda bir qədər qısıla-qısıla oğlana dedi:

– Bəlkə, bir ehtiyac... Puldan-zaddan?..

Zeynalabdin tüklərinin dibinəcən qızardı, cəld dedi:

– Yox-yox! Heç bir şeyə ehtiyacım yoxdu. Həmd olsun Allaha.

– Nə deyirəm ki! Özün bilən məsləhətdi. Hər halda elə bil ki, mən də sənin dayılarından biri... Dövran əvəzi...

– Çox sağ olun... Allah köməyiniz olsun; bütün səfərlərdə, bütün yollarda. Həmişə işiniz avand olsun.



– Allah ağzından eşitsin.

Onlar ayrıldılar. Hə! Doğru deyiblər, "dağ dağa qovuşmaz, insan insana qovuşar". Bu uzun yollarda, bu qərib diyarda nə desən ağlına gələrdi, bəlkə, elə şirvanlı tacirə də rast gələ bilərdi. Amma beləsinə ki, anasından da ona xəbər versin. Bax, bu heç ağlına gəlməzdi. Bu gün burnuna ana iyi dəymişdi. Ona görə də şad idi, sevinirdi. Bu sevinclə də evə qayıdırdı.

Sonralar, səyahətləri boyu o Şirvana, doğma Şamaxı şəhərinə bir də gələcək, onu az qala kəndbəkənd gəzəcək, Şirvan şəhərlərini, onun tanınmış, tarixdə iz qoymuş adamlarını təsvir edəcək, filosof şair Xaqani, şair və nücum elminin tanınmış ərlərindən biri olan Fələkli, şair Seyid Zülfüqar Şirvani, Heratda tanınmış müddəris mövlana Kəmaləddin... onlarla, yüzlərlə daha başqa şəxsiyyətlərin adlarını çəkəcək, xüsusilə Şamaxı şəhərinin ab-havasını, iqlimini, suyunu, əhali tərkibini göstərəcək, şəhər əhalisinin bir qisminin yayda yaylaqlara köçdüyünü "Bustanüssəyahə" kitabında söyləyib, yazacaqdır: "Hörmətcillik və qonaqpərəstlik onların səciyyəvi xüsusiyyətidir. Onlar həqiqətsevən, açıqürəkli, mehriban və sədaqətlidirlər. Qəriblər və yoxsullarla yaxşı rəftar edirlər. Xasiyyətləri yumşaq, sakitdir, ömürlərini şən keçirməyi sevirlər..."

Şirvan, Şamaxı ömrünün axırınacan Zeynalabdinin yadından çıxmayacaq, arabir dayılarına qonaq olduqca atasının Kərbəla, anasının Şamaxı torpağında vəfat etdiyini öyrənəcək. Rast gəldiyi tacirlər uzaq-uzaq məmləkətlərdə, hətta gedib çıxa bildiyi Sərəndib – Seylon adasında belə, müsahibi olsa, mütləq Şirvani olduğunu söyləyəcək. Şirvan taciri görən kimi vətəndən hal-əhval tutacaq. Şirvan ipəyi, Şirvan kəlağayısı, Şirvani geymə Hindistanda belə qənşərinə çıxanda ürəyini titrədəcək, gözünün qarşısında artıq bir neçə uşaq anası olmuş Telizər (sonrakı gəlişində dayıqızını gördü, nəhayət) can dostu Dövran dayı və başqa dostları canlanacaq... Başı ağ cunalı Niyal, Fit dağı, Gülüstan qalası, Qız qalası, Oğlanqala, Pirdirəki, Russarçayı, dünyada yalnız ikicə nümunəsi mövcud olan, Günəş məbədinin üstündə Əşəs ibn Qeysin hökmilə tikilmiş qədim Cümə məscidi, Sünnü məscidi, Diribabaqaya abidəsi, gah sulu, gah selli, gah quru Pirsaat, Dədə Günəş türbəsi... Heç nə və heç kim, heç kim və heç nə yadından çıxmayacaqdı. Hər gözünü yumanda könlünün gözü ilə gördüyü zümrüd torpaq, firuzəyi göylər, biri ata, digəri ana timsalı kimi gözü önündə canlanacaqdı. Bütün bunlar sonra olacaqdı. İndi isə yenə də yönü yollardı.

# SÜHEYLA

Təbrizdən ayrılmaq çox ağır idi. Elə bil canını cananından ayırırdılar. Vətənin, doğma dilin içində yaşayırdı bu bir ildə. Təbriz ona böyük dərs vermişdi. Səkkiz aya yaxın Təbrizin görkəmli alim və şairlərinin söhbətində olmuşdu, hələ onların çoxu ilə dostluq binası qoymasa da (bu sonrakı gəlişində olacaqdı), bir şagird, müəllimini dinləyən kimi dinləmişdi Təbriz alimlərini, müdərrislərini.

O birisi ilin yazında Təbrizdən çıxıb, Məşhədə tərəf səfər etmişdi. Belə güman edirdi ki, bundan belə daha doğma xalqının çoxluğu içində yaşamayacaq; bundan sonra doğma dilini az-az eşidəcək.

Yazın əvvəlində yola çıxan karvan Miyanəyə yaxınlaşanda aləmi gül-çiçək ətri bürümüşdü. "Təbriz üstü Miyanə, Bülbül gülə dayana, oxu bülbülüm, oxu... Bəlkə yarım oyana", – yaza, bülbülə mahnı qoşan xanəndənin səsi cəh-cəh vuran quşların səsinə qarışmışdı. Sarvan tələsirdi. O istəyirdi ki, səfərini tez başa vursun, mənzilinə tez çatıb, qış soyuqları düşənəcən heç olmasa Hindistana iki dəfə səfər eləyə bilsin.

Zeynalabdin Təbrizdə azacıq malının hesabını Kərbəlayı Əlinin nişan verdiyi karvansaraçı ilə çürütdü. Karvansara sahibi onun xam ipəyini xeyli qazancla satıb, pulunu verdi və Zeynalabdinə məsləhət gördü ki, indilik bir şey almasın. Məşhəddə Hindistan səfərinə başlayanda tacirbaşının məsləhətiylə Şamaxı tacirlərindən gərək olan mal alar. Zeynalabdin belə də elədi və Məşhəddə də Şamaxı tacirləri ilə görüşə bilmək ehtimalına xeyli sevindi.

Karvan Miyanə, Qəzvin, Tehran, Semnan, Səbzəvar yolu ilə gedirdi. Bu şəhərlərdə cəmi bir-iki günlük istirahət etmək hesabilə gəlib Nişapurun bir günlüyündə yerləşən Cəbərud karvansarasında əyləndi. Zeynalabdinin bu şəhərləri əməlli başlı görməyinə imkan olmadı. Yol uzunu, Məşhədə yaxınlaşdıqca, səfərinin əvvəlində rastına çıxan imam Rza zəvvarı qocanı xatırlayırdı: "Görəsən yolların ağırlığına dözüb o qədər çətinliklərlə getdiyi Məşhədə çatdımı?" Yola çıxmamışdan əvvəl qoca bir az nasaz idi. Zeynalabdinin Təbrizdə əylənmək, bir neçə ay qalıb Təbriz üləması ilə görüşmək arzusunu bilincə dedi:

– Sevinirəm də, sevinmirəm də.

Zeynalabdinin təəccüblə baxdığını görüncə, gözlərindəki dərin bir məhəbbətlə, şəfqətlə dedi:

– Oğul, sənə bu yolda çox isinişmişəm. Sevinirəm, çünki Təbriz üləmasının yaxşılarından dərs alacağın sevindirir məni. Bələdəm. Bilirəm



ki, əbəs qalmırsan. Bilirəm ki, təhsilin mükəmməlləşəcək. Bələd olmasaydım, onlara və ya haqlarında bədgüman olsaydım – qalma deyərdim. Amma indi bilirəm ki, xeyri nədi. Xeyir-duam səninlə olsun! Qal, oxu! Sevinmirəm ona görə ki, dedim: isinişmişəm sənə. Öyrəşmişəm. Hazırnazır oğul tapmışam sənin kimi. İndi ayrılıq ağır gəlir mənə. Neynək, qəm eləmirəm. Adəm oğlu bu gen dünyada ümidlə yaşayıb. Ümid edirəm ki, inşallah, gələn yaz-yay aylarında sən Məşhədi-müqəddəsə gəlib çıxarsan, ömür vəfa eləsə, görüşərik, inşallah!

Məşhədə yaxınlaşdıqca bu ümid və ümidqarışıq şübhələr onun qəlbində baş qaldırırdı. Görəsən qocanı görə biləcəkdimi?

Cəbərud karvansarası böyük idi. Əsaslı tikililərdəndi. Karvansara həyətində və qarşı meydançada xeyli səfəri və karvansara xidmətçisi var idi. Zeynalabdin özünə xırdaca bir hücrə tutub, Cəbərudu gəzməyə çıxdı.

Qayıdanda axşam düşmüşdü, karvansara camaatı şam yeyib yatmağa hazırlaşırdı. Zeynalabdin də şam və xüftən namazlarını qılıb, azacıq yemək yedi və hücrəsinə çəkildi.

Zeynalabdin yatağında uzanmışdı. Hücrənin, hücrə adlansa da, mazğalabənzər, uzunsov pəncərəsi var idi. İndi bu pəncərədən ayın onbeşgecəlik dolğun haləsiz çöhrəsi görünürdü. Elə bil ay bir az əvvəl söndürülmüş çırağı əvəz etmək, cavan səyyahın müvəqqəti yurdunu işıqlandırmaq, ona "yaz-yarat" demək istəyirdi. Uzaqda kim isə həzin səslə, sakit gecədə daha da həzin və yaxın gələn dəşti muğamını zümzümə edirdi. Muğamın pərdələrilə həmahəng göydə xırdaca ağ və qara buludlar aramla üzür, gah ayın dolğun çöhrəsini lisam[1] ilə yaşmaqlayırdı. Xırdaca buludlar keçdikcə ayın sanki pərgar ilə çəkilmiş kimi dəyirmi üzündə, qızılı simasında müxtəlif cizgilər, qaş, göz, burun müxtəlif ifadələr: kədər, küskünlük, sevinc əmələ gəlirdi. Buludların nə ağı təmiz ağ, nə qarası zil qaraydı. Qaralarda sürməyi rənglərdən, ağlarda isə qızılı, mavi və çəhrayı şüalardan nəysə qalmış kimiydi. Ayın bu dəyirmi çöhrəsini gözəllərin pənbə simasına bənzədən şairlər görəsən elə bu dəşti zümzüməsini, ya daha hansı bir musiqini dinləmişdilər o təşbihi yaradanda? Ay şölələnəndə Zeynalabdinin qəlbinə qəriblik qüssəsi çökür, gipgirdə qızılı çöhrəsi güləndə, qələmdanı çıxarıb bu gün gördüklərini, eşidib öyrəndiklərini yazmaq istəyirdi.

[1] Burunun üstünəcən çəkilib ağzı örtən yaşmaq

Yuxusu gəlmirdi. Durdu. Ay işığında həyətə endi. Gecə quşlarının, şəbpərlərin, yarasaların uçuşduğu quyu ətrafı ağaclığa tərəf yeridi. Aləm aydınlıqdı. Xırdaca buludlar arabir ayı yaşmaqlasa da dünyaya qaranlıq çökdürə bilmirdi. Gecə sehirlə, gecə məhəbbətlə, gecə şeriyyətlə dolu idi. Və bu məhəbbət, şeriyyət, möcüzələr dolu gecə cavan şairürəkli oğlana, özünə Təmkin təxəllüsü seçmiş Zeynalabdinə, doğma vətən torpağının çörəyini, suyunu dadmış, Şirvan gözəlinin döşlərindən süd əmmiş cavana şeir təlqin edirdi. Misralar misra dalınca düzülürdü. O bunları yazmalıydı. Amma fars dilində gəlirdi misralar. Nə qədər çalışırdısa, şeri ana dilində qoşa bilmirdi, axmırdı, gəlmirdi sözlər. Öz-özünə gileylənirdi:

– Allah sənə insaf versin, Axund İskəndər! Ata! sən məni təkcə vətəndən məhrum eləmədin. Sən məni Şirinbəyim anamın, gözəl anamın şirin, gözəl dilindən də məhrum elədin. Danışa bilirəm, şeir isə... şeir isə?.. O ipəklər səltənəti, o şeriyyət ocağı, o yaşıllıqlar, çiçəklər diyarı, o behişt timsalı vətəndən, heç olmasa, bircə şeriyyət dilini apara bilsəydim... "Canı, cananı, bütün varımı alsın da, xuda, etməsin tək vətənimdən məni dünyada cuda!" Kimindir bu beyt?! Bəxtəvərdir. Vətən məhəbbəti qanına işləyib. Dilindəcə deyib. Mənə bunlardan hansı qismət oldu? Kim aldı əlimdən? Allahmı? Deyil! Deyil! Doğmaca atamın cəhaləti, müqəddəslərə, min il, min yüz il əvvəl ölənlərə sədaqəti... Gör nələrdən ayırdı məni, qardaşımı, anamı?! Ya bu bədbəxt də anam kimi vətən həsrətiylə nələr demişdir: "Səfvətində ancaq vətən görünür; gözümdə titrəyən bir damla yaşın..." Nə dərin həsrət varmış sözlərində. Qəlbində, gözlərində giləlenən yaşların səthində də yalnız vətən görünüb! Vətən!

O gecə Zeynalabdin qəlbinə dolan misraları yazıya köçürə bilmədi. Nə çıraq yanırdı, nə dəli düşüncələr qoyurdu. Göylərin şux-şux yanan şamı da vərəqlərinə işıq saça bilmədi, düşüncələrini aydınlaşdıra bilmədi, qadir olmadı. Düşüncələr ağır idi, illərin dərdi, həsrəti var idi onda. Bəlkə də, Şirvanda böyüsəydi, bəlkə də, Şamaxıdakı dayıların əhatəsində, vətənində bəxtiyar Şirinbəyimin həsrət dolu ahıyla deyil, fərəhli qoşmaları ilə boy atsaydı... Bəlkə, onda vətəni də, dili də olacaqdı, hələ həyatı da başqa cür qurulacaqdı. Üzünü görmədiyi, dərdini dinləmədiyi, səsini eşitmədiyi, öz eşqinin dalınca dünya deyib gedən Telizər qız, bəlkə də, onun çırağını yandıracaqdı... Bəlkə də!!! Hər halda başqa cür qurulacaqdı həyatı. Bəlkə, elə onda da səyahətlər həvəsi Zeynalabdini çöllərə salacaqdı, dünyanı görmək eşqi onda da



könlünə hakim kəsiləcəkdi. Axı onun damarlarında üç qəbilənin qanı vardı: şahsevəndən döyüşkənlik, dəliqanlılıq, Şamaxı torpağından, güllübulaqlardan elmə, mədəniyyətə maraq, şairlik, köçəri Küdrü karıslarından[1] gəzəntəlik keçmişdi qanına. Gəzəcəkdi onda da dünyanı, amma hər halda öz dilində yaza-yaza, vətən deyə-deyə yazacaqdı; sonra da yurduna-yuvasına qayıdacaqdı, dönəcəkdi.

Gecə keçir, ay səmada irəlilədikcə yerini dəyişir, batmağa, yatmağa, yerini sübhün dünyadolusu işıq saçan Günəşinə verməyə gedirdi. Yatmaq lazım idi, heç olmazsa bir az, bir az... Sabahkı zəhmətlərə dözmək üçün... Sabahkı işlər üçün. Onsuz da adətkərdəydi. Gəncliyin şirin yuxusunu sübhün alca toranında azan səsi eşidilən dəqiqədə özünə haram etməyə, oyanmağa öyrənmişdi. Namaz qılsa da, qılmasa da birinci azan səsilə oyanmağa adət etdirmişdi Axund İskəndər onu. Anasına qalsaydı... Şirinbəyim ana bəlkə də, onu it-qurddan seçilməzdən oyatmaz; "uşaqdı, qoy yatsın... yuxusundan doysun, hələ qabaqda o qədər tez oyanmalı olacaq ki..." deyərdi. Öyrənmişdi tez oyanmağa. İndi ağır yolların yorğunluğu canından çıxmasa da, tez, ya gec yatsa da, azanın ilk lailahəsilə oyanır, əgər axşam bayazına qeydlər edə bilməyibsə, yazı-pozusuna məşğul olurdu.

Gecə keçirdi... Ayın batmasına az qalmışdı. O da otağına çəkildi, səssizcə, ay kimi... sükut içində... Sərili qalmış, soyumuş yatağına girdi. Az sonra röya ilə xəyal arasında şirin bir yuxu onu qoynuna aldı.

Yuxusu dərinləşməmişdisə də, dadlıydı, buraya nə isə gündüz həyətdə gördüyü, millətini ayırd edə bimədiyi bir cavan gəlin daxil olmuşdu. Bu yerlərdə gah qərbalbənd, gah girmişov, gah qırışmal, gah gəlilani, gah luli adlandırılan qaraçı qızıydımı, köçəri qəbilələrdən düşüb qalmış, yerliləşmiş və karvansarada yemək hazırlamaqla məşğul olan fars qızı, ərəbdimi, püştüydümü... Ayırd edə bilmədi. Amma hər halda daha çox qaraçıya bənzədirdi. Yanmamış elə gözəldi ki... Süheyla çağırırdılar onu. Süheyla!..

Qara gözlərindən od ələnirdi, qığılcımlar səpilirdi. Qalınca dodaqları təbəssümlər yağdırırdı. Elə indinin özündə də gözləri qarşısında gəlinin yerişi canlananda... Vücudunda nə isə indiyəcən oyanmayan bir duyğu baş qaldırdı... Süheylanın üst-üstdən geydiyi büzmə darayı tuman altında yançaqları oyum-oyum oynayırdı... Sol əlini belinə vurub elə bil dalğa-dalğa yeriyir, ləpələrdən aşırdı... Yuxusuna dolmuş bu

[1] Küdrü qəbilələrindən

əsrarəngiz yeriş canında dadmadığı bir hiss kimi, odlu nəfəs kimi püskürməyə başladığı anda, vücudunda bir cüt sıcaq əlin dolaşdığını duydu. Yuxu ilə mürgü arasındaydı. Zərif bir pıçıltı damarlarına işlədi:

– Səs salma, dərviş! Səs salma, ağam!

Qorxu içində hövlnak yerindən sıçramaq istədi:

– Kimsən?

– Süheyla. Səs salma, ağam!

Süheyla uzun qollarını onun boynuna doladı. Başını oğlanın baş görməyən sinəsinə söykədi, kişi ətrini sinəsinə çəkdi. Burnu incə hil-mixək ətrinə öyrənsə də, tər, toz iyinə bələşmiş bu qabarıq cavan sinə, bu pozulmamış bədən, onu qucaqlamağa cürət etməyən qollar... Süheyla iylədi... İylədi...

Süheyla cavanı hələ gündüzdən gözaltılamışdı. Bütün günü onun xəyalıyla, bu gecənin nəşəsilə yaşamışdı. Qəribə qadın idi Süheyla. Ehtiras... Bütün həyatının mənası ehtiras idi. Bəyəndiyi kişidə şəhvət oyada bilmək məharəti... Ona qovuşmaq məsələsi deyildi, bu oyanma anını görmək, görməsə də, duymaq istəyir, bundan, arzulandığını bilməkdən daha çox zövq alırdı.

Bu gün həyətdə rastına çıxan cavan isə onu bəkarəti ilə cəlb etmişdi. Təcrübəli Süheyla gəncin məhz təcrübəsiz cavan olduğunu ilk baxışdan anlamışdı. Bunun özü də onu odlamışdı: “Qoy Yaqubu yağ öldürsün”, deyə axşamı həsrətlə gözləmişdi. Sonra da gizlicə göz qoyub Zeynalabdinin gecə həyətdə gəzindiyini, yatağına çəkildiyini güdmüş, görmüşdü. Gecə yarıdan ötəndən, karvansara əhli bütünlüklə yatıb yuxuya gedəndən sonra durmuş və gözaltıladığı gəncin bəkarətini götürməyə gəlmişdi. Süheyla oğlanı yaylaq quzusu duz yalayan təki öpüb yaladıqca, dodaqları altından qaçmağa çalışan bu dodaqları indiyəcən heç kəsin dəymədiyini, bu dodaqların qadağan olunmuş busələrə ilk dəfə qərq olduğunu bildikcə odlanırdı... Dəliyə dönürdü. Yanırdı və yandırırdı Süheyla. Gəncin toxunulmamış vücudu bəkarət rayihəsi saçdıqca, Süheyla, acgözlüklə bu ətri qoxulayır, iylədikcə də alovlanırdı. Başı çox bəlalar çəkmişdi. Nəsibinə pis də düşmüşdü, yaxşı da. Amma bu... Amma bu... İndi özünə hesabat verə bilməsə də, anlayırdı ki, qismətinə düşən bu gecənin təkrarı yoxdur. Odur ki, doymaq bilməyən bir yanğıyla içirdi təsadüfün ona bəxş etdiyi bu bal şərbətini. Məst olurdu, oyulurdu.

Zeynalabdinə gəlincə, əlbəttə, belə bir qadın yaxınlığı haqqında eşitmişdi. Lakin gözlənilmədən dodaqlarını yandıran öpüşlər, sinəsi



üstündə yuvarlanan köküslər onu həm qorxudur, həm də anlaşılmaz bir zövqlə, yaxıcı cərəyanla bütün bədənini qaplayırdı. Boynuna dolanan qolları açmağa gücü çatmırdı. Bəlkə də, gənclik həvəsi heç açmaq da istəməzdi. Günah! Böyük bir günaha batdığını dəhşətlə anlasa da, müqavimət göstərməyə gücü çatmırdı. Gənclik qoymurdu bəlkə...

Qorxu, həyəcan hisslərinə qarışıb ona hər şeyi unutdururdu. Vücudunu qamarlamış coşqun Süheyla ona zaman-zaman qorxunu da, həyəcanı da, günahı da unutdururdu... Səhərə az qalırdı. Süheyla gəldiyi kimi qəfil də getdi. Əzgin, bitkin günahların ağırlığından yerindən qalxmağa qüdrəti çatmayan Zeynalabdin xeyli müddət yatağında sərildi, döşəli qaldı. Azan səsini eşidincə anladı ki, durmaq şirin olduğu qədər də acı günahlardan təmizlənmək üçün qüsl etmək, dəstəmaz alıb namaz qılmaq, istəmədən batdığı günahları təmizləməkdən ötəri qüdrətli, böyük, rəhm edən, bağışlayan Allahına dua etmək lazımdır. Vaxtdır.

## MƏŞHƏD

Məşhəd şəhərinə daxil olan günün səhəri, təzəcə tutduğu karvansara hücrəsində dincələndən sonra birinci işi, əlbəttə, şiələrin səkkizinci imam Rzanın türbəsini ziyarət etmək oldu. Hələ atasından bu barədə çox eşitmişdi. İmam Rzaya iranlıların rəğbətinin də səbəbini müəllimi Məsuməli şahın tarix dərslərindən bilirdi. Bilirdi ki, üçüncü imam Hüseynin arvadı İran hökmdarı Yəzdgürdün qızı Şəhrəbanudan doğulan imamlar nəslinin nümayəndəsi olduğu üçün imam Rza, bir növ, İran şahzadəsi və İslam dini nəzdində iranlıların müvəkkili hesab olunurdu. İranlı qızından doğulduğundan Ərəbistanda şiələrin düşməni olan xilafət nümayəndələrinin qorxusundan qaçıb, İrana pənah gətirib, burada da düşmənlərin uzun əli ona çatıb, zəhərli üzümləmi, xurmaylamı onu zəhərləyib öldürüblər ki, iranlılara qahmar çıxa, İran hökmdarlığını bərpa edə bilməsin.

Bu Zeynalabdinin Məşhəd şəhərinə, ümumiyyətlə Xorasan vilayətinə birinci səfəri idi. Hələ baxır, hələ öyrənirdi. 1822-1823-cü illərdə o bu yerlərə yenidən gəldi, dövrünün görkəmli alimi, adaşı olan Möyəmi ilə görüşmək imkanı tapmadıqda o yerlərin tanınmış elm adamlarından Mirzə Mehdi, Seyid Məhəmməd, Hacı Əbu Məhəmməd və başqaları ilə tanış oldu. Xorasan vilayətində, Məşhəd şəhərində gördüklərini, kəndbəkənd gəzdiyi şəhər və qəsəbələrin əkərini, biçərini, əhalisinin

sayını, iqlimini, nə yeyib nə geydiklərini, alimlərinin nüfuzunu, şairlərinin bəlağətini qələmə aldı və bunları ilk səyahətinin nəticəsi olan "Riyazüs-səyahə" kitabının birinci cildinə daxil etdi.

Xorasan vilayətini gəzəndə alim Zeynalabdin Şirvani böyük Firdovsinin doğulduğu, üzünü torpağa qoyduğu Tus şəhərindən danışıb dedi ki, indi bura o məşhur şəhərdən qalmış cəmi otuz evlik xırdaca, xaraba bir kənddir. Firdovsi şəhərinin kəndə, imam Rzanın dəfn olunduğu balaca Sinabadın isə – Məşhəd şəhərinə çevrildiyini təəssüflə qeyd etdi.

İndi isə...

Uzaqdan əvvəlcə gözünə mavi-firuzəyiyə çalan, göylərin yerdəki modelini andıran günbəzilə Gövhərşad məscidi göründü. Heyrətlə, sənətkar istedadının qüdrətilə yerə enmiş bu səma parçası mavi, buludsuz göylərin fonunda elə qəribə bir incəliklə cilvələnir, firuzəyi-mavi rənglərin bütün çalarlarını əks etdirirdi... Vurğun-vurğun, heyran-heyran durub baxdı... baxdı. Gözləri göy rənglərin ahəngindən yorulmurdu. İmam Rzanın öz türbəsini bir az sonra gördü. Doğrusu, İraqi-Ərəbdə, yəni Kərbəlada – Hüseyn, Nəcəfül-Əşrəfdə – Əli, xüsusilə Kazımiyyədə – imam Museyi-Kazım türbələrini, qızıl zənginliyini, Kərbəlada Həzrəti-Abbas məqbərəsi, Bağdadda Şühəda məscidinin, Samirədə Həsən-əsgəri məscidinin çini-kaşı kərpiclərdən düzəlmiş ağ-mavi gözəlliyin görəndən sonra imam Rza məqbərəsi onu o qədər də heyran etmədi. Təəccübünə səbəb olmadı. Əgər onları görmədən ilkin bunu görsəydi, başqa məsələ olardı. Türbənin baş darvazası mavi çini və qızılla işlənmiş, minarəsi və günbəzi Hüseyn və Əli məqbərələrində olduğu kimi qızıla tutulmuşdu. Formaca demək olar ki, bir-birinin eyni idi. Günəş altında ikinci, kiçik bir günəş kimi yanır, göz qamaşdırırdı. Qəbir və üzərində tikilmiş namazgah – məscid baş darvazadan başlayaraq, binanı əhatə edən ikimərtəbəli tağlı hücrələrlə dövrələnmişdi. Qapılar, baş darvaza, minarə və günbəzin alt dairəsi, hücrələrin bütün xarici divarları ağ-mavi-firuzəyi çini kərpiclərdən düzəldilmiş Quran ayələri aə nəbati naxışlarla bəzədilmişdi. Baş darvazanın önündəki meydanda çox da zəngin olmayan səkkizguşəli kiçik bir türbə də vardı. Məqbərənin burada səhn adlandırılan həyətinə iri, ağ sal daşlar döşənmişdi. Həmin böyük həyətə açılan kiçik, yaraşıqlı qapılardan biri Gövhərşad məscidinə gedən yol idi. Cümə günlərində ümumi namazlar Gövhərşad məscidinin olduqca böyük sütunlu salonunda qılınırdı. Baş darvazadan hər iki tərəfə gedən yolun sağı və solu müxtəlif dini yadigar şeyləri: müxtəlif ölçülü Quran, kəhrəba, yüsür, türbət, pazəhri təsbeh, canamaz,



möhür, qələmdan, düyü küləşindən toxunmuş xurma və gözlük qabları, sürmədan, ətir, şam, zərrəbin, xəstələrə şəfa suyu içirmək üçün yaraşıqlı gil qablar, şüşə, çini, mis və gümüşdən düzəldilmiş gülabzənlər, qəlyanlar satılırdı. Bal mumu kimi sarı üzərinə təkalduz üsulilə, ipək sapla sənubərlər tikilmiş məşhur Xorasan kürkləri əsas yer tuturdu buranın ticarətində. Bazarın açıq hissəsi qurtaranda buranın zəvvarlar tərəfindən yaxın Şərqə tanıdılan çarşı-örtülü bazarı başlayırdı. Örtülü bazar şövgəliliyi ilə şəhər həyətlərini xatırlatsa da, çox böyük və döngəli, cərgəli idi: misgərlər, xarratlar, zərgərlər, kuzəçilər, əllaflar, əttar və nüsxəvəndlər, qənnadilər, qəssablar, bəzzazlar, baqqallar... hərəsinin öz cərgəsi, öz darğası, öz alıcı və satıcısı var idi. Ticarət əsasən zəvvarlar hesabına aparılırdı.

Gövhərşad məscidinin nəzdində böyük bir mədrəsə olsa da burada bir neçə məhəllə məscidinin nəzdində yenə mədrəsə, az qala hər evdə mollaxana, təkyə fəaliyyət göstərirdi. (Bir zaman gələcək, bu yerləri ölümsüz "Molla Nəsrəddin" jurnalı "molla fabriki" adlandıracaq. Hələlik bu ad ona verilməyib). Burada az qala hər ev təkyədir, hər təkyə bir mollanın, axundun, seyidin, şeyxin "öz şəxsi fikirlərini" yaydığı nöqtədir. Şiəliyin ən qatı mərkəzi olsa da, burada çoxlu müxtəlif əqidəli dərvişlər öz əqidələrini, öz pirlərinin təfsirlərini, yeni yardaşlarına təlqin və onları hidayət etməklə məşğuldurlar. Burada beş nəfərlik ailənin ən azı iki, ya üç nəfəri ruhanidir, seyiddir, mərsiyəxandır, rövzəxandır, arvad mollasıdır, çərəkkə mollabacısıdır. Bütün şiəlik ərazilərinə dini qida verən adamlar – ruhanilər buradan ixrac olunur. Burada küləyin qaldırdığı qumun sayı var, amma dilənçilərin, korların, şillərin sayı-hesabı yoxdur, hətta gecə düşəndə dükanını bağlayıb evinə gedən baqqal da tanınmamaq üçün əbasını başına çəkib "ya Allah" deyə dilənə-dilənə evinə yollanır. Zəvvarların hesabına yaşayan böyük bir şəhər, böyük bir vilayət zahirdə tacir, ruhani, batinində dilənçidir.

Aşura günlərində dükanlar bağlanır, məscidlər, küçələr, bütünlükdə şəhər matəm libası geyir. Hüseyni qaradan kürəyi açıq köynək geymiş zəncirvuranlar dəstəsi, döş tərəfi açıq sinəvuranlar dəstəsi, ağ kəfən geymiş başyaranlar, bədəninə müxtəlif dəmir-dümür, qıfıl və sair "taxmış" nəzirlilər... alnı çərtilib qanı kəfənciyinə tökülmüş balaca uşaqlar... Xüsusilə şəbeh gəzdirənlər küçələri doldurur. Tamaşaçılar, əsasən, zəvvarlar olur. Kəcavələrdə şəhidlərin cənazələrini, imamların əsir düşmüş ailə üzvlərini gördükcə başına döyüb ağlayan, cibini nəzirə boşaldan zəvvarlar uzaq-uzaq diyarlardan gəlirlər.

Bayram günlərində bazarlar bəzənir, hər dükanda bir neçə çıraq, lopa, məşəl yandırılıb çıraqbanlıq edilir. Bütün satlıq mallar əlvan və zərli kağızlarla – bayraqcıqlarla bəzədilir. Nəhəng və əlvan nabat "qüllələri", noğul "dağları" qənnadı dükanlarına yaraşıq verir.

Belə günlərdə Məşhədin ad çıxarmış həyasız arvadları "Məşhədi, siğə mixahi?" deyə zəvvarların qulaqlarını dəng eləyirlər.

Qəbiristan, görünür ki, əvvəllər balaca qəsəbə olan şəhərin kənarındaymış, şəhər böyüdükcə qəbiristan onun ortasında qalıb. İndi çarşıya da, ziyarətə də gedənlər qəbiristanın böyründən keçib gedirlər. Qəssəlxanada[1] cənazə yuyana, qəbiristanda "bala vay"la ölü basdırana əhəmiyyət verən olmur. İnsanlar burada olduqca laqeyddirlər. Zəvvarlara münasibət puldan, əlaqədən asılıdır. Yıxılıb öləninə fikir verən olmur. Hərənin öz dərd-səri, öz bazar-dükanı, alveri, iş-gücü var.

Şəhər ətrafında taxıl da, bostan da əkən kəndlər var. O kəndlərdə farslarla yanaşı azərbaycanlılar da, türkmənlər də... yaşayır, əkin əkir, biçin biçir, xırman döyür, sovruq atır... Amma o kənd camaatının eləsi də var ki, hələ imam ziyarətgahını görə bilməyib, ya da ömründə bircə dəfə görüb. Zəvvarlarla, zəvvarları soyan ağaseyidlərlə heç bir işi, əlaqəsi, yoxdur. Burada yaxşı yemiş də, taxıl da, qarpız da becərirlər. Bağlarında gözəl meyvələr də yetişir. Bu meyvəni, taxılı şəhərdə dükanı olan baqqallar, əllaflar gəlib bir yerdən alır və aparıb zəvvarlara satırlar.

Bu il orucluq yayın axır ayına düşmüşdü. Qurtara-qurtarmaya Zeynalabdin Məşhədə gəlmişdi. Məşhədlilər Baba Sücəddin bayramına hazırlaşırdılar. Zeynalabdin burada mədrəsədə, tanınmış alimlərin hüzurunda bir neçə ay təhsillə məşğul olacağını nəzərə alıb, şəhərin kənar tərəflərində, mərkəzdəki bazar hay-küylərindən uzaq, kasıb həyətlərindən birində mənzil tutmaq istədi. Mədrəsədə təzə tanış olduğu bir neçə özü kimi elm aşiqi, dərvişxasiyyət cavan onlarla bir həyətdə, lap istəsə az miqdar kirə ilə onlarla bir otaqda qala biləcəyini ona söylədikdə sevindi. Ev tapmaq əziyyətindən xilas oldu. Çünki Məşhəddə zəvvar əlindən tərpənmək, ev nədi, heç xırdaca bir karvansara hücrəsi belə tutmaq çətin məsələ idi. Günlərlə gəzməli, ayaqdan düşməli idi. Dərviş cavanlar Qiyasəddin Nurillah, Qadirəddin və Ziyaüddin adlı, dərvişanə "şah" ləqəbli 25 ilə 30 yaş arasında, artıq xeyli vaxt idi ki, birlikdə təhsil alıb dostlaşmış, qardaş kimi bir ailədə

[1] Ölü yuyulan yer



yaşayan cavanlar idi. Zeynalabdin də onlara qoşulandan sonra "beş dərvişi" bu ətrafda tanımayan yox idi. Ev sahibinin külfəti onlara yemək hazırlamağı təklif etmişdisə də, onlar birlikdə günorta bazardan cilovpəzdən aldıqları xörəyi yeyir, səhər naharı, axşam şamı evdə özləri hazırlayırdılar. Bu bina artıq şəhərə qovuşmaqda olan əski kəndlərdən bir xırdasında idi. Hələlik nə kənd idi, nə şəhər. Camaat öz qanunları ilə yaşayırdı. Ağsaqqalları, ağbirçəkləri hələ şəhər adətlərini tamamilə mənimsəməyən kənd camaatı içində öz nüfuz və hörmətini saxlayırdı. Kəndçilər yaxındakı yerləri əkirdilər, amma qazanc gətirən "zəvvar-kirayənişin saxlamağa" da başlamış, zəvvarlara xidmətdən də gəlir əldə edirdilər. Kəndçilikdən çıxmamış, şəhərliləşənlərdən biri də "beş dərviş"in ev sahibi Hacı Tahir və onun arvadı Nənə qarı idi, oğlu və gəlini keçənilki vəbadan ölmüşdü. Ev sahibinin xırda nəvələri 5-6 yaşlı üç qız idi. Məsumə, Səkinə, bir də Əzimə. Baba Sucəddinin gəlməyinə ən çox bunlar sevinirdilər. Orucluq günlərində alınan yemişin tumlarını növbə ilə hərəsi öz bərnisinə toplayırdı. Qurudub Baba Sucəddin bayramı günündə çırtlayacaqdılar. Ayrı gün tum çırtlamaq olmazdı. Nənə qoymurdu. Suallı illərini yaşayan qızlar soruşurdu:

– Niyə günahdı, nənə?

– Ağamız imam Hüseynin qatili Şümür məlun tum çırtlayıb, tüpürmüş imamın üzünə. Siz də ona oxşamaq istəyirsiniz yoxsa?

Əlbəttə yox! Uşaqlar hələ bu məlun Şümürün nə fəlakətlər törətmiş olduğunu lazımınca dərk eləməsələr də, nənənin pislədiyi o pis kişiyə, əlbəttə, oxşamaq istəmirdilər. Tum da çırtlamırdılar. Amma yemişin tumu kəhrəba kimi sapsarı, iri-iri... Ləzzətli, adamı zorla çəkir özünə.

Əzimə soruşurdu:

– Bəs Baba Sucəddin bayramında olar, nənə?

– Olar, a canım-ciyərim, başımı qatma, qoy iftarı pişirim. Yoxsa baban gələr, görər duzu azdı, ya yoxdu, oruc ağız, asi-kifir olar.

Babanın yemək üstündə nənəyə qəzəbləndiyini görmüşdülər. Təkrar olunmasını nənənin bürüşük yanaqlarına, küləş üzünə qəm qonmasını, yaş axmasını istəmirdilər. Həyətə çəkilib oynayır, tez-tez də bərniyə yığıb "gəlmək üçün" qoyduqları yemiş tumlarını yoxlayırdılar.

Bu gün Zeynalabdin bir az nasaz idi; dərsə gedə bilməmişdi. Axşam dostları Nənə qarıdan bardağ alıb onun kürəyinə qoymuş, küpələmiş, qantəpər çayı dəmləyib içirmişdilər. Tərlətmişdilər. Səhər də paltarını dəyişib çıxıb getmişdilər. Gedəndə Nənə qarını səsləyib xahiş etmişdilər:

– Nənə, zəhmət olmasa təzə kirayənişinə bir azdan bir piyalə çay ver. Yaman azarlayıb.

Nənə qarının, əlbəttə, qərib yerdə anasız-bacısız azarlamış bu oğlana yazığı gəldi. Uzağı fərli görmədiyindən "beş dərviş"i bir-birindən o qədər də ayırd eləmirdi, hansının təzə kirayənişin olduğunu bilmirdi. Əlindəki çaydan və piyaləylə kirayənişinlərin otağına girəndə onu xəcalət təri basdı. Qoca da olsa, qarı da olsa, hər halda yad kişilərin mənzilinə daxil olurdu. Bu cavanlar onun nəvəsi yerində də olsa, naməhrəm idi. Arvad özündə daxili bir sıxılqanlıq hiss edirdi. Bununla belə qərib-dostluq vəzifəsi, qürbət eldə döşəyə düşmüş xəstəyə əl uzatmaq xeyirli saydığı işlərdəndi, savab idi. Qarı xəstənin yatağına yaxınlaşanda, oğlan qızdırmanın azalmasına baxmayaraq, hələ də tər içindəydi. Üzü al-ataş yanırdı. Qızdırmanın hərarətindən gözləri dolub şişmişdi. Dodaqları qaysaqlanmışdı. Yarıyuxulu, yarıoyaq kimi uzanmışdı. Qarını görcək əvvəl yuxu gördüyünü sandı. Sonra anladı, qalxmaq üçün yerində qurcalandı. Qarı yarımyaşmaq altından onun vəziyyətini görürdü. Qalxınmağa qoymadı:

– Buy-buy, tər içindəsən, ay bala, qalxma! Bax, budu, çay qoyuram səniyçin, iç, bir az tərlə. Sonra dəyişəgin varmı?

Zeynalabdin tanımadığı, heç nəyi olmayan bu qarının onun qayğısını çəkməyindən utandı:

– Var...

– Hə... Onda çayı içib bir də bərk tərləyəndən sonra paltarını dəyiş, bala! Atandan, anandan nəyin var?

– Hər ikisi var.

– Allah ömür versin, bəs haralısan?

– Şirvanlı... Amma ata-anam Kərbəlada olurlar.

– Kərbəlada? Bu, nə bəxtəvərdilər! İmam Hüseyn qulluğunda... Bəxtəvər ananın başına... Allah qismət eləyə, mən də gedəm bir ziyarət eləyəm...

Arvad bu sözləri deyə-deyə piyaləyə çay süzdü, artıq yaşmaqlanmağı da unutmuşdu. Köməkləşib oğlanın çiyinlərinə yorğan saldı, yan-yörəsini basdırdı, çayı içirtdi, taxçadakı çörək çanağını yoxladı, başını bulaya-bulaya dodaqaltı deyinə-deyinə çıxdı:

– Anan ölsün, indi yəqin ki, yuxusuna girmisən bu gecə, – hündürdən əlavə elədi: – Bu saat sənə bir kasa əvəlikli umac bişirib gətirərəm, içərsən, sappasağ olarsan, inşallah. Nə bilmək olar, bəlkə qismətimdə



var, mən də gedib, ağamı ziyarət eləyəndə anana qonaq ollam... Utanma, baaax, onda əvəzi çıxar.

"Bəxtəvərlik verdiyin anam özünü o imam qulluğunda heç də xoşbəxt hesab eləmədi. Vətən həsrətilə, qürbət azarına tutulub, qohumları, yeddi qardaşıyla ayrılıq yerini də yandırdı, göyünü də. Üz çevirib getdi deyirlər", – düşünən Zeynalabdin istiqanlı Nənə qarının piyaləyə töküb onun böyrünə qoyduğu çayı içməyə başladı.

Bir qədər sonra qapıdan girən Nənə qarı əlindəki buğlanan umacı onun qənşərinə qoyub dedi:

– İsti-isti iç, buxarı getsin nəfəsinə.

Zeynalabdin belə də elədi. Axşama artıq özünə gəlmişdi.

## SUAL-CAVAB MƏCLİSİ

Dini sorğu-sual-cavab günü olmasa da, bu gün tüllabların mürşid ilə sual-cavabı keçirilirdi. Adətən, dini sorğu-istifta günlərində əhalidən verilən suallara cavab verilirdi. Belə günlərdə tələbələrdən çox, şəhər və yaxın qəsəbə və kəndlərdən gələn dindarlar özləri üçün aydın olmayan dini məsələlərə dair suallar verir, cavablar alırdılar. Amma bu gün belə gün deyildi. Bu gün müəllim öz tələbələrinə cavab verir, həm də bunu dərs şəklində elə izahlı aparırdı ki, onlar gələcəkdə öz müridlərinə, dərs deyəcəkləri tələbələrə və avam camaata lazımınca başa sala bilsinlər. Birinci sualı Ziyaüddin vermişdi.

– Müqəddəs ay və günlər hansılardır və nə üçün onlar müqəddəs hesab olunur?

Cavab:

– Əvvələn cümə günü günlərdən ən müqəddəsidir, çünki bu günün bir saatı var, o saatda edilən dua mütləq qəbul olunur. Haqqın dərgahının açıq vaxtıdır. Cümə günü fəxri-kainat, rəsuli-əkrəm Peyğəmbər əleyhüssəlam dünyaya gəlib... Ramazan ayında Qurani-kərim nazil olmağa başlayıb. Aşura günü Nuhun gəmisi Gəmiqaya dağına söykənib və bəşər nicat tapıb. Adəm babanın tövbəsi bu gün qəbul olunub, Kərbəla çölündə imamlar bu gün şəhid olub...

– Nə üçün ona aşura deyilir?

– Ərəbcə "əşər"yəni on sözündən yaranıb aşura, məhərrəm ayının onuncu günüdür.

Sual:

– Hədislər necə yaranıb? Quranı, bildiyimiz kimi cənab Cəbrayıl Allah tərəfindən peyğəmbərə gətirib. Bəs bu peyğəmbər adına çıxılan hadisələr necə yaranıb?

Cavab:

– Əlbəttə, peyğəmbər vəfat edəndən sonra hərə onun adına bir rəvayət uydurub nəql etməyə, təzə qanun-qayda çıxarmağa təşəbbüs edəndə, onun ən yaxın adamları – yəni səhabələri yığıldılar. Qərar qoyuldu ki, kimin yadında peyğəmbərin Qurandan əlavə söylədiklərindən nə qalıbsa, onları toplayıb yazıya alsınlar ki, yanlışlıqlar baş verməsin. Hətta peyğəmbər salavatullahın ən yaxın sirdaşı kimi tanınan Hüzeyfə də bu məsələyə olduqca ehtiyatla yanaşır, bildiyi min hədisdən yüzünü söyləyirdi. Halbuki həmişə peyğəmbərin yanında olmuş, danışıqlarının şahidi idi. Beləliklə, rəsuli-xudanın yaxın adamları bildiklərini söyləyib yazıya aldılar. Bundan bir neçə cild kitab – hədis əməl gəldi. Amma çox ehtiyatla. Yoxlamadan yazmırdılar. Məsələn, xəlifələrdən birinin zamanında peyğəmbərə yaxın bir səhabə – Əbu-Musa adında, bir gün xəlifənin yanına gəlir, üç dəfə qapını döyür. Cavab almadan çıxıb getmək istəyəndə, arxadan xəlifə onu səsləyib soruşur: "Niyə qayıdırsan?" Əbu-Musa deyirdi ki: "Mən peyğəmbərdən eşitmişəm: bir qapıya üç dəfə salam verib, cavab almasan, dayanma, çıx get". Xəlifə deyir: "Sən yalan deyirsən, belə şey olmayıb". Onda Əbu Musa qəbiləsinə dönür, həmin hökmü eşidənlərdən bir neçə nəfər şahid gətirir. Doğrudan da, risalətpənahın bu sözünü xəlifə eşitməyibmiş, amma Əbu-Musa və başqaları bilirmiş. Qəvul və hədislərə daxil edirlər. Beləliklə də, peyğəmbərlərdən sonra islamiyyətin iki və üçüncü əsrlərində altı cilddən ibarət "Sihehi-sittə" (altı doğru hədis) kitabları meydana çıxır. Peyğəmbər özü deyib: "Mənim sözlərimi eşidənlər, eşitməyənlərə nəql etsinlər. Amma kim məndən eşitmədiyini mənim adıma çıxıb "ondan eşitdim" desə, cəhənnəmdə özünə yer satın almış olacaq".

Üçüncü sual:

– Məlumdur ki, zəkat adlanan xeyirxah dini vergi ən kasıb adama verilir. Bu adam kim və necə olmalıdır?

– Doğru dedin, övladım! Bu dini vergi ən vacibli və xeyirxah vergidir. Onu kasıblara verirlər. Əlbəəl. Yaxınında, qohumunda belə kasıb varsa, uzaqdakını axtarmaq günahdır. Ata, ana, nənə və nəvəyə, övlada zəkat düşmür. Çünki onlar kişinin ən yaxın adamlarıdır və onları saxlamaq sənin vəzifəndir. Belə zəkat vermək, bir cibdən götürüb o birinə qoymaq misalındadır. Bacı, qardaş, əmi, dayı, xala və bibiyə zəkat düşür. Əgər bir fəqir sənə borcludursa, sən ona zəkat verəndə "filan qədər zəkatdan borcuma çıxdım" deyib verə bilməzsən. Zəkatı ver, o özü həmin borcunu qaytarsa – ala bilərsən.

Sual:

– Qapınız həmişə bütün gələnlərin üzünə açıqdır. Amma adətən hökmdarların, böyük ruhanilərin qapısında gözətçi olur. Nədəndir?

Cavab:

– Hökmdarların da peyğəmbər yoluyla getdiyini zənn edən birisinin də qapısında gözətçi varmış. Bir gün qapıya kəndlərin hansındansa bir qoca gəlir. Sarayın darvazasından içəri girmək istəyən də gözətçilər qoymur, soruşurlar:

– Hara, kişi?

– Çobanın yanına.

– Kişi, çoban çöldə, dağda olar. Bura hökmdarın sarayıdı.

– Deyirəm buraxın məni çobanın yanına.

Üst mərtəbədəki pəncərədən bu dartışmanı seyr edən hökmdar maraqlanır. Qocanı içəri buraxmağı əmr edir. Qoca gəlir. Hökmdar soruşur:

– Sözün nədi, baba?

– Çobanı görmək istəyirdim. Amma sən bu ada layiq deyilsən. Xaliq sənə bir bölük məxluq etibar eləyib, səni onlara başçı qoyub. Çöldəki çoban bir kərə muşquranda onun itləri susur, yanına getmək asan olur. Amma sən qapına elə itlər bağlamısan ki, təbəələrinin birinin də sənin yanına gəlməsi çətin bir məsələ olub. Səndən əsil çoban iyi gəlmir. Səndən məxluqata rəhbər, başçı olmaz. Əsil başçının qapısı gələnlərin üzünə açıq olmalıdır.

Sual:

– İnsan üçün üç müqəddəs, üç zəruri söz var deyərlər, hansılardır?

Cavab:

– Yox vaxtında səbir, vara çatanda şükür, qəzaya düşəndə razılıq.

Zeynalabdin oturub diqqətlə qulaq asırdı. O bu kimi hədisləri Axund İskəndərdən – doğmaca atasından hələ Kərbəladaykən çox eşitmişdi. Boğazacan doymuşdu bunlardan. Gözəl sözlərə birinci riayət etməyən elə ruhanilər özləri olurdu. Onların içində o qədər nəfsinin qulu olanlar

var idi ki, nəinki zəkatı, həttа fitrəni də toplayıb "fəqirə paylayacağam" adıyla cibləyirdi. Zeynalabdin düşünürdü. "Yox, yox, mənə gərək olan bunlar deyil, mənə gərək olan o elmdir ki, deyəsən, onun cüzi bir hissəciyini də Xorasanda – Məşhəd ruhanilərindən ala bilməyəcəyəm. Mən... Mən insanlar, onların yaşayış yerləri, adətləri haqqında, nə əkdikləri, nə biçdikləri, necə güzəran keçirdikləri haqqında bilik toplamaq istəyirəm. Bu isə bizim müqəddəs kitablarda yox kimidir. İstər hədis, istər qisəs, istər rəvayət... Nə fərqi?.. Bütün bunlarda əfsanəylə həqiqət bir-birinə elə qarışıb ki, düzü əyridən ayırmaq üçün zərrəbin də kömək eləməz. Çətin məsələdir. Yox, yox! Mən getməliyəm, görməliyəm, həm də eləcə həyatın özündən öyrənməliyəm".

Bir şeyi nəzərə almırdı. Nəzərə almırdı ki, o artıq düz yoldadır. O artıq öyrənməyə, həyat dərslərini oxumağa və başlıcası oxuduqca, həyat kitabını vərəqlədikcə bayazına qeydlər etməyə başlayıb. O bizə "Riyazüs-səyahə", "Bustanüs-səyahə", "Hədayüqüs-səyahə", "Kəşfül-maarif" kitabları üçün addım-addım gəzdiyi, xətti-üstüva-ekvatoru az qala iki dəfə qət edib qırx ilə yaxın dolaşdığı dünyamızdan zərrə-zərrə topladıqlarını yadigar qoymağa başlayıb. Başlayıb, başlayıb!!!

Təbrizdə ayrıldığı imam Rza zəvvarı qoca ona danışmışdı ki, bir gün atlarını şəkər və alma ilə bəsləyən bir məğrur paşa qapısında bir dərviş görür. Soruşur: "Kimsən? Nə istəyirsən?" Dərviş deyir: "Yoxsul bir dərvişəm. Axurunuzda mənə də yer ayırmanızı rica etməyə gəldim".

Zeynalabdin indi artıq anlayırdı ki, dünya bu təzadlar üzərində qurulub. Cəmiyyət, Adəm övladı ağaya və qula, dövlətliyə və yoxsula bölünüb. "Əlin qabarını ağızın çörəyi" hesab edənlər əzilir, xırpalanır. Hələ İskəndəri-kəbir deyib ki: "Yaxşı adamın pisə möhtac olmasından böyük fəlakət yoxdu". Ondan daha əvvəl ulular buyurub: "İnsanların ən yaxşısı insanlara yaxşılıq edəndir". Amma bu hökmlərə, bu tapşırıqlara riayət edən kimdir? Gözəl hökmlər yaddan çıxıb, yerində zülm qalıb, istibdad qalıb. Halbuki, yaxşılığın dilini hamı başa düşür: əcnəbi də, kar da, kor da, lal da. İnsanın işi müxənnətlik etmək olmamalıdır. Bəşərin öz həmcinsinin başına gətirdiyi bəlaları heç bir canavar öz həmcinsinə etməz. "İt də itin ayağını basmaz" deyiblər. İnsan isə... Bu dünya dəyişməlidir. Bu dünya kökündən dəyişməlidir. Zülm, istibdad yer üzündən götürülməlidir. Ümidsiz yaşamaq olmaz. Ümidsiz ömür cəhənnəm əzabıdır. Nə gözəl deyib o dədələr: "Bütün qaranlıq gecələrin sonu gündüzdür".



## DOSTLAR

Heç bilmirdi bu yazıları bayazının arasına, kitablarının üstünə kim qoyur? Hardan düşür onlar bura? Bunlar təsadüfüdürmü? Təsadüfüdürsə həddini aşır. Təsadüf deyilsə, kim eləyir, necə eləyir ki, o bunlardan xəbər tutmur? Əvvəllər elə hər dəfə "Bəsdir bu sitəmlər", "Bu sevda olmasaydı..." "Həzrəti-rəsuli-xudanın dözdüyü əzablara sinə gərə bilsəydin, çoxdan peyğəmbər idin". "Məcnun nə bilir Leyli nə çəkir" kimi yazılara rast gələndə elə bilirdi ki, bunu hücrə yoldaşları zarafatla, ona sataşmaq üçün yazıb qoyurlar. Amma sonralar hansı bir hiss isə ona anlatdı ki, yox! Elə deyil! Bu dostlarının işi deyil. Əgər onlardan biri belə şey eləsəydi, gec-tez üstü açılmalı, zarafatlar başqa hallarda olduğu kimi aralarında ümumi, açıq şəkil almalı idi. Amma belə deyildi. Yoldaşları bu mövzulara heç toxunmurdular. Əvəzində anlaşılmaz, qəribə hiss ona anladırdı ki, bu yazıları çox vaxt bağda, bostanda, qapı-bacada rast gəldiyi o qız yazıb atır. Niyə bu fikrə gəlmişdi? Soruşan olsaydı özü də cavabını tapıb deyə bilməzdi. Amma hər halda qızın onu görəndə qızarması, gözlərini gizlətməyə çalışması, tez yaşmaqlanması, adam olmayan vaxtlarda gülümsəməsi, oğrun-oğrun baxması... Eh, o qədər şey, o qədər əlamət var ki! Xüsusilə bu son zamanlarda qız ona daha çox, tez-tez rast olurdu. Elə bil mədrəsəyə gedən – qayıdan vaxtlarını dəqiq bilir, yolunun üstünə çıxır... Bu hal dostlarının nəzərinə də çatmışdı. Qiyasəddin şah hətta demişdi:

– Bu qızdan xəta əskik deyil. Allah bəd nəzərdən saxlasın onu, bizi də onun bəlasından. Görəsən hansımızı salıb ürəyinə? Bircə şeyi bilmir ki, biz cəlayi-vətən adamlarıq. Bu gün burda, sabah... Sabahı bircə xudavəndi-aləm bilir.

Dostlarının ümumi söhbətindən anladı ki, o xırdaca kağızlar məsələsini heç biri bilmir. Yoxsa indi açılmalıydı. Bu axırıncı kağızda bircə misra var idi: "Bunca Heyrani-həzin salma ayaqdan özünü..." Zeynalabdin şairə Heyranın adını eşitməmişdi. Eyni zamanda, bilirdi ki, bu qızın adı Heyran deyil. Bir dəfə qapıdan çıxanda hardansa qızın "Altıntelliii..." çağırıldığını eşitmişdi. Qızın qızılı qırx hörüyünü nəzərə alıb "sənə ad qoyan nə yaraşdırıb", – düşünmüşdü də. Heyranın şerini seçməsi, özü də uyğun misra tapması qızın savadına dələlət eləyirdi. Yazısı da, əgər onunsa, aydın və yaraşıqlıydı. Elə bil xəttat yanında elm-münşəatdan dərs almışdı. Təkcə bu misraları, beytləri seçmək qabiliyyəti onun savad dərəcəsinin yüksəkliyini göstərmirmi? Gör bir şeirdəki

yüksək sözdən ustadlıqla istifadə olunmuş beyti necə seçib, uyğunlaşdırıb vəziyyətinə: "Ey Nəvai yar vəslin tapmasan yoxdur əcib. Nuş yox, lakin görər yüz niş güldən əndəlib!" Görünür təkcə öz doğma (bəs özü hansı millətə mənsubdur?) ədəbiyyatı ilə yanaşı, özbəklərin (bəlkə, elə özbəkdir?) də, farsların da şairlərini yaxşı tanıyır. Qərəz, Qiyas qardaşım demişkən, bu əllamə başıma bir bəla açmasa, yaxşı şeydir.

Bu tapıntılara elə alışmışdı ki, görəndə deyil, görməyəndə təəccüb eləyirdi. Gözləri axtarırdı sanki... Qızı yaşmaqlı, yaşmaqsız, çadralı, pərəncəli, kəlağay-saçaqlı, bənarəli, şallı görməyə o qədər adət etmişdi ki, küçəylə gedəndə bəzən hətta xoflanırdı da. Elə bilirdi ki, Altıntelli qız indicə haradansa bu döngədən çıxacaq, heç kəs yoxsa gülümsəyib keçəcək, ötüb gedəcək. Küçədə adam varsa, yalnız gözlərinin atəşləri parlayacaq, bir anlıq yanacaq, sonra da kirpikləri bu gözlər üstünə daraqlanacaq, qığılcımlar sönəcək... Bəzən küçəylə arxasınca gələn çadralı, ya pərəncəli, rübəndli, biçəli qadını Altıntelliyə oxşadırdı. Ürəyi döyünməyə başlayırdı. Ardınca gələn addımlar qəlbində səs verir, ürəyi də bu addımlarla həmahəng vururdu. Yerişini yavaşıdırdı. Qadın gəlib ötəndən sonra səhvini anlayır, qorxmasına özü də gülür, ürəyi yerinə gəlirdi. Çıxıb işinə gedirdi.

Günlərlə davam edən "gizlənpaç oyunu" böyük bir eşqin doğmasına səbəb ola bilərdi. Hələ təcrübəsiz gənc bunu dərin-dərin anlamasa da, duyurdu. Lənkəranda ikən eşitdiyi bir hadisə yadına düşürdü: Lənkəran xanı Mirmustafa xanın Seyyidə qızı bir rus sərkərdəsini sevib, ona ərə gedib! Seyyidə və kafir, müslimə və xaçpərəst! Bəzi tanışları hələ gözlərindəki sonsuz qorxu hissilə deyirdilər ki, "Seyyidə qız ərinin dinini də qəbul eləyib!" Kim bilir, bu Zeynalabdinin hələ dadmadığı, amma bu son aylarda haqqında çox eşitdiyi məhəbbətin işini? Baba Sakitin hələ Şirvan yolundaykən ona verdiyi Füzuli külliyyatını da oxumuşdu – qəzəllərini də, "Leyli Məcnun"unu da... Heyrət etmişdi eşqin böyüklüyünə! Məcnun məhəbbətinə, Leyli sədaqətinə! Amma hər halda bunları bir şair qələminin məhsulu bilmişdi. Doğrudur, Baba Sakit demişdi ki, "insan yemədiyi xörəyin dadını bilməz, övlad!" Zeynalabdin də bu eşq deyilən mənəvi qidanı dadmamışdı. Nə olduğunu, gücünü, qüvvətini, qüdrətini bilmirdi hələ.

Və qorxurdu! Özü üçün deyil, onun üçün qorxurdu. Qorxurdu ki, bu hiss həqiqətə çevrilə bilər. O zərif, o incə məxluq Seyyidə kimi bir iş tutar...



Hələ dostları ilə dünənki zarafatı onu yaman tutmuşdu. Qızın arabərədə çox görünməyi nəzərinə çarpan dostları Qiyasəddin, Nurillah, Qadirəddin və Ziyaüddin Zeynalabdini də mübahisəyə cəlb edib gülmüşdülər.

Qiyasəddin hamısından böyük idi, yaşı iyirmi beşlə otuz arasında sağlam, çoxdanın dərvişi bir cavan idi. Dostlarına nisbətən dünyanın istisoyuğunu çox dadmışdı. Elə qıza ilkin nəzər salan, bəlkə də, o olmuşdu.

– Leylanın kimi Məcnun seçdiyini öyrənə bilmədiz?

Ziyaüddin:

– Qardaşlar, dərviş babayıq, Məcnunuq onsuz da.. Amma dini-xuda məcnunuyuq... Bizə belə şeylər nə yaraşar?

– Özünü faqqılığa vurma. Günah işlədib ona gözaltı baxanların əvvəlimcisi elə sən özünsən.

Bunu Qiyasəddin dedi.

Nurillah əlavə etdi:

– Düz deyir... Düz deyir... Bizim yanımızda imandan, günahdan danışır, amma saman altından su yeridir.

Ziyaüddin:

– Zeynal, niyə mənə qahmar durmursan? Mənim sizdən seçildiyim haçan olub? Bu nə sözdü?

– Ziya möhkəmcə qızarmışdı.

Zeynalabdin dostunu darda qoymadı. Əslində, o qəlbən sevinirdi ki, dostları haqqında nahaq bəd gümana düşüb. Yazılardan onların xəbəri yoxdur, olsaydı, indi onu qaralayardılar. Odur ki, cəld Ziyaüddinə tərəfdar çıxdı:

– Ziyanın üstünə nə düşmüsüz, qardaşlar! O da bizim birimiz...

Qadirəddin yenə də özünü irəli atdı:

– Bura bax, sənə dinmirik, yolunu çaşırsan, deyəsən. Bəlkə, elə sən özünsən, hə? Suyun lal axanı, adamın yerə baxanı...

Qiyasəddin yenə də zarafatla bir-birinə "hücum" edən dostlarının içində müsahibənin daha doğrusu, mübahisənin cilovunu öz əlinə aldı:

– Bilirsinizmi, böyüklərdən eşitmişəm ki, keçmiş zamanlarda bir gəlinin əri ölür. Əlbəttə, əlindən çöl-bayır iş-gücü gəlməyən arvad evini kirayəyə verməli olur. Bu kirayə haqqı ilə də dolanır. Bir vaxt baxıb görür ki, kirayənişini səhər sübh azanında çıxıb evdən gedir, bir də axşam azanından sonra qayıdır. Deməli, evdə yalnız gecələyir. Arvad bundan qazanc çıxartmaq istəyir. Evini gecələr işləyən, gündüzlər evdə qalmalı olan başqa bir nəfərə də kirayəyə verir. Bu kirayənişin də axşam

azanı olmamış gedir, sübh azanından sonra qayıdırmış. Sən demə, bunların biri gecələr "işləyən" ev oğrusu, mal-qara oğrusu, o birisi də gündüzlər cibə girən cibgir imiş. Hər ikisi də cavan. Gəlin öz ləyaqətilə, insanlığı ilə, xüsusən təmiz, pak dindarlığı ilə hər iki cavanın ürəyini ələ alır. Ayrı-ayrılıqda hər ikisi könlünü ona açıb elçilik eləyir. Amma gəlin heç birinə könül vermir. Soruşurlar ki, niyə? Hər ikisinə ayrı-ayrılıqda belə cavab verir: "Deyirlər ki, peyğəmbər zamanında bir gün üç nəfər arvad peyğəmbərin qulluğuna öz ərindən şikayətə gəlir. Birinci deyir ki, ərimin bir xasiyyəti var. O çox hündürdən namaz qılır, səhər yuxusunu nəinki külfətinə, uşaqlarına, hətta qonum-qonşuya da haram eləyir. Qonşuların deyintisinə dözə bilmirəm. Boşanmaq istəyirəm; peyğəmbər salavatullah onun ərini çağırıb tapşırır ki, bundan belə astadan namaz qılsın, külfətinin və qonşularının rahatlığına xələl qatmasın. Kişi də söz verir. Rəsuli-xuda onları barışdırıb yola salır". İkinci arvad deyir: "Ey Allahın elçisi! Evimiz yol ağzındadı. Kişim adət eləyib, qonum-qonşu uşaqları, səhər axşam naxıra gedib – naxırdan qayıdan heyvanat həyətimizə ziyan vurmasın deyə, əlinə nə şüşə, dəmir, mismar gəlirsə tullayır yola. Camaatın heyvanının, arvad-uşağın ayaqları şikəst olur. Yoldan keçib ziyan çəkənlərin əlindən zara gəlmişik. Qulağım olmazın söyüş-qarğış eşidir. Kişiysə bunlara heç fikir vermir. Nəsihətə qulaq asmır. Bildiyini əldən qoymur, əlinə gələni tullayır yola. Peyğəmbər deyir ki, bacı, yol Allahındı, mən heç nə deyə bilmərəm. Qoy Allah özü öz yolu üçün ərinin cəzasını versin". Üçüncü arvad gəlir ki, Ya Rəsul Allah, biz ər-arvad əvvəllər çox kasıb idik, amma çox mehriban dolanırdıq. Oğul-uşağı yarıac, yarıtox da olsa, yola verirdik. Bir üç-dörd ay olar ərimin əli hardansa pula çatıb. Ev firavan olub. Amma günlərlə hara getdiyini, nə iş gördüyünü bilmirəm. Günüm göy əsgiyə bükülüb. Mənbəyini bilmədiyim qazancı yeyə bilmirəm. Boğazımdan getmir. Haramdı, halaldı, oğurluqdu, nədi? Bilmirəm. Odur ki, mən kişimdə qala bilmirəm. Peyğəmbər bu arvadın da ərini çağırıb soruşur: Kişi deyir: "Ya Rəsul Allah, kasıb idim, külfətdən xəcalət çəkirdim. İşim gətirmirdi, bənnalığımla, yarıac, yarıtox, üzüqara idim arvad-uşaq yanında. Dostlarımdan eşitdim ki, Bəsrədə bir kifir arvad var, çox dövlətli olsa da, heç kim rəğbət eləyib onunla evlənmək istəmir. Mənim əlacım kəsildi, gedib onunla evləndim. Qazancım burdandır. Arvadın dövlətindən".

İndi mənim əziz kirayənişinim, mən namaz qılan, oruc tutan, Allahın buyurduğu pak yolla gedən adamam. Sənin qazancının yerini bilmirəm, nə sənətin sahibisən – demirsən. Mən sənə gedə bilmərəm. hər



iki oğru ayrı-ayrılıqda bu cavabı alıb çıxıb gedir. Daha bu şəhərdə, bu gəlinin evində qala bilmir. Belə gətirir ki, onlar ikisi də bir gün çöldə rastlaşır. Gecəni bir ocaq başında keçirir, bir süfrədə tikə kəsirlər. Başlarına gələn qəzavü-qədəri bir-birinə nağıl eləyirlər. Hər ikisi eyni şəhərdə, eyni küçədə, eyni bir arvadın mənzilində kirayənişin olduğunu, eyni bir gəlinə vurulduğunu anlayır. İndi siz bilən o gəlin kimə düşür? Gecə oğrusuna, gündüz cibgirinə? Ya bizim gözəl siz dörd qardaşdan hansına düşür?

Ziyaüddin nağıl dinləyən uşaq kimi kəsildiyinə hayıfsılana-hayıfsılana hamıdan əvvəl dilləndi:

– Bəs özünü niyə demirsən?

Hamı güldü:

– Mən sizdən qocayam, axı...

– Qocaya bax, sən allah!..

– Saqqalında üç tük bitir qocanın...

– Kosadı ona görə... Yoxsa indi qurşağına çatmışdı saqqalı.

Söhbət beləcə zarafatla, gülüşməylə bitdi. Belə bitməsinə Zeynalabdin ürəyində çox sevindi. Dostları ona yazılan, möcüzəylə bayazlarının, kitablarının arasına düşən yazılardan bixəbər idi. Yoxsa əsil zarafat, əsil gülüş hədəfi o özü olacaqdı...

Söhbətin istiqaməti dəyişdi. İndi onların mübahisələri şeir ətrafındaydı. Beşi də bu yaxınlarda növbəylə Füzulinin divanını, külliyyatını oxuyub bitirmişdilər. Qiyasəddin deyirdi:

– Ərənlər! Mən Füzulini sizdən xeyli əvvəl oxumuşam. Türkcə də, farsca da divanlarını bir neçə dəfə başa çatdırmışam. Köhnədir tanışlığım qoca aşiqlə. Hələ siz yaşında ola-olmaya idim, əlimə "Leyli və Məcnun" keçdi əvvəlcə. Sonralar "Bəngü-badə", "Səhhət və mərəz". Hər üç dildə ustad olub. Və mənə elə gəlib ki, Füzuli əşarının bircə mövzusu var. Nədən yazırsa yazsın, bircə mövzusu var – eşq.

Ziyaüddin onun səsinə həmahəng bir şəkildə davam etdirdi:

– Bircə, bütün əşarının içərisindən bircə qızıl xətt keçir: eşq.

Nurillah gənclərə məxsus coşqunluqla sözə qoşuldu; təntənəylə söylədi:

– Təzə bir şey kəşf etmədiniz, ərənlər! Bunu Füzuli özü təsdiq edib. Qayəsini özü deyib: "Səcdədir hər qanda bir büt görsəm ayinim mənim. Xah kafər, xah mömin tut, budur dinim mənim!!!"

Qadirəddin mübahisəyə yekun vurdu:

– Füzulinin dini, ayini uca, pak, müqəddəs bir eşqdir. Eşq! Elə ona görə də Orta və Kiçik Asiyada, Yaxın Şərqdə haraya qədəm qoyduqsa, gəncliyin, şüəranın dilindən əvvəlinci növbədə Füzulinin adını və əşarını eşitdik.

Şeir haqqında müsahibə və mübahisə xeyli çəkdi. Amma beş yoldaş bir şeydə həmfikir idilər: böyük Füzuli eşq şairidir və elə buna görə də gəncliyin sevimlisinə çevrilib. Məhəbbət gəncliyin haqqıdır, ona görə də Füzuli gəncliyin şairidir. Eşq də, Füzuli də gəncliyin nəsibi olan ən yüksək, ən gözəl nemətdir.

## DÜYÜNÇƏ

Məclisin başında, daha doğrusu, minbərin dibində fəqih – onun müəllimi Eynuddin əyləşmişdi. Əslində, dərs mədrəsədə keçməliydi və həmişə belə də olurdu. Amma bu cümə günü dini sual-cavaba gələn çox olduğundan cənab Eynuddin həzrətləri dərsi sual-cavabla birləşdirmişdi. O həm verilən dini sorğulara cavab verəcək, müridlərini razı salacaq, həm də şagirdlərinə sual-cavab örnəyi olacaqdı.

Birinci sual beləydi:

– Arvadım əmim qızıdı, anam onunla keçinmir, dolanmırlar. Neyləyim?

– Mən sənə arvadını boşa və ya ananın üzünə qayıt – əmrini verə bilməyəcəyəm. Təkcə bunu xatırlatmaq istəyirəm ki, ulular deyiblər ki: "Özgə behişt axtarma! O sənin ananın ayaqları altındadır. Elə et ki, ananın haqqı tapdanmasın".

İkinci məsələ iki düşmən, iki bir-birilə yola getməyən qonşu haqqındaydı. Yaxın kəndlərdən birindən gəlmiş molla vermişdi bu sualı:

– Qonşulardan biri, doğrudan da günahkardır. Günahı olmayan qonşu mütləq ona cəza verilməsini tələb edir. Qisas tələb eləyir. "Gözə göz, dişə diş..." deyir.

Eynuddin cavab verdi:

– Bəs sən onlara bağışlamaq savabından danışmamısan? Bəs deməmisən ki, bağışlamağın savabı, bağışlayanın yeddi arxada dönəninə kifayət olduğu kimi, bağışlamağı bacaranın aldığı zövqdə heç bir şeylə ölçüyə gəlməz?

Üçüncü sualı verən cavan tələbələrdən biriydi:

– Ən savab olan şey nədir?



Eynuddin heç düşünmədən, saqqalını sığallaya-sığallaya cavab verib dedi:

– Ulular buyurublar ki, dünyada küsülüləri barışdırmaqdan savab şey bilmirəm. Küsülüləri barışdırmaq oruc tutmaq, namaz qılmaq və sədəqə verməkdən daha yaxşıdır.

Dördüncü sualı yenə də kənd mollarından biri verdi:

– Bir çərçi ona şəhərə aparıb satmaq üçün yağ verən arvadı aldadıb.

Cavab xeyli çəkdi:

– Mən sənə İmami Əzəmin mənqəbəsində[1] baş vermiş bir rəvayəti danışacağam. İmami Əzəm Kufədə paltar dükanı saxlayırmış. Arabir əhalidən də aldığı qiymətli əlibisələri həmin dükanda satırmış. Bir gün onun dükanına bir arvad gəlir, ah-vayla düyünçəsini açıb gözəl bir don çıxarır, yüz dinara satmaq istəyir. İmam deyir: "Paltarın qiyməti bundan yüksəkdir". Arvad: "Neynək iki yüz olsun", – deyir. "Yox, bu da azdır". Arvad ağlayır: "Məni ələ salma", – deyir. İmam: "Mən sənin qiymət bilməməyindən istifadə edib səni aldada bilmərəm. Axı peyğəmbər əleyhüssəlam buyurub: "Mən qəşşə fə leysə minna – yəni kim aldadırsa, o bizdən deyil". Kim mal alıb satmaqda aldatmağa adət eləsə və bunu yayırsa, o ən böyük cinayətkarlardan biridir və yalan, aldatma, hiylə yolu ilə dövlət qazananların hamısının günahı da o birinci aldadanın boynuna düşür. Get, küçədən keçən iki nəfərdən malının qiymətini soruş". Qadın küçəyə çıxır, donu göstərir, beş yüz dinar qiymət qoyulan donu İmam Əzəm alır. "Əbu Hənifə" adlı kitabda bu haqda yazan şəxs qeyd edir ki, arvad gözyaşı içində pulu aldı və dedi: "Allah səndən razı olsun, bu paltar mənim gəlinlik donum idi. Evdə balalarım acdır. Çarəsizlikdən nə versəydin, qəbul eləyəcəkdim".

Zeynalabdin dostları ilə birlikdə aralıda əyləşib dinləyir və düşünürdü: "Kaş bütün baqqallar, tacirlər, çərçilər bu ayəni biləydi, heç kim heç kimi aldatmayaydı... Dünya həqiqi mənada cənnətə dönərdi. Halbuki bazarlar, o gördüyüm, o indiyəcən gəzib seyr etdiyim bazarlar hiylə, riya, yalan və aldatmalardan xali deyil. Neyçün bu ağıllı nəsihətlər, bu düşünülmüş, insanları yaxşılığa dəvət edən rəvayətlər camaat arasında yayılmır? Hərə öz xeyrini güdür. Hər hakim, hər qazi öz hökmü dairəsində olan ərazidə yaşayan insanlarla, məhz öz bildiyi kimi rəftar eləyir. Birinə bir, başqasına müxtəlif, özünə bəlli səbəblər ucundan başqa cəza verirlər. Bu kənddə bir, başqa kənddə həmincə günah üçün ayrı cür

[1] Müqəddəs şəxslərin həyatından hekayələr

cəza verilir. Yox! Burada nə isə çatmır. Burada nə isə düzgün qurulmayıb. Görəsən islam olmayan başqa millətlər, tayfalar arasında, digər məmləkətlərdə vəziyyət necədir? Rast gəldiyimdən soruşub öyrənəm gərək.

Dini sual-cavab davam edirdi. Bu adi bir məhəllə mollasından soruşulan suallar deyildi. Eynuddinin yanına gələnlər daha çox məhəllə, kənd mollaları idi ki, bilmədiklərini, dini ayinlərdən anlamadıqlarının şərhinə möhtac idilər və görkəmli ruhanidən öyrənməyə gəlmişdilər.

Eynuddin tələbələrinə sanki əyani dərs verirdi. Deyirdi:

– Yerlərdə belə çətinliklərə, anlaşılmazlıqlara məruz qalacaqsınız. İndidən öz gözlərinizlə görün və öyrənin.

Onun tələbələri gözlərilə birlikdə ağızlarını da açıb məşhur təfsirçinin izah və nəsihətlərini, məsləhətlərini ağıllarına toplayır, hafizələrinə yazırdılar. Bu tələbələrlə yanaşı əyləşmiş Zeynalabdin və dörd yoldaşı – tanımadığımız "beş dərviş də ruhaninin şagirdlərilə birlikdə eşidib gördüklərini yaddaşına qeyd edirdi. Gecə bütün bunlar da öz növbəsində onun bayazında yer tutub, "Riyazüs-səyahə"nin səhifələrindən birini təşkil edəcəkdi.

Günortadan sonra onları başqa bir məşğələ gözləyirdi: tələbələr gözəl xətt salmağı öyrənmək və yazı savadını artırmaq üçün müəllim Eynuddinin seçdiyi bir əlyazmasının üzünü çıxaracaqdılar. Zeynalabdin və dostları da ruhaniyə tədris haqqı verə bilmədiklərindən, onlar da Eynuddin üçün onun vacib bildiyi bir əsərin surətini çıxarmalıydılar. Xətti gözəl olan, nəqqaşlıqdan, rəngkarlıqdan başı çıxan tələbələr üzünü köçürdükləri əlyazmalarını, onun mövzusundan asılı olaraq bəzəyirdilər də. Əlyazmasına naxışlar salır, əlvan bəzəklər də vururdular. Yox, əgər əlyazması çox ciddi, elmi bir əsərdirsə, onu sadə çərçivələr içərisinə alır, heç bir bəzək-düzək vurmurdular. Təkcə nücuma aid əsərlərdəki cədvəllər, diaqramlar və başqa xüsusi qeydləri qara mürəkkəbdən seçmək üçün qırmızı rənglə yazırdılar. Vəssalam. Nəqqaşlıq qabiliyyəti olmayan Zeynalabdin bu gün məhz belə, onu, öyrənmək baxımından daha çox maraqlandıran elmi əsərlərdən birinin surətini köçürəcəkdi. Yəni həm əlyazmasındakı elmi öyrənəcək, həm də "təhsil haqqı"nı verəcəkdi.

Bostanların yanından keçəndə əlvan şahıdan paltar geymiş, qırxkakili dövrəsində fırlanan o qızı gözləri deyil, könlü axtardı. Amma qız o yerlərdə yox idi. Gözə görünmürdü. Bostan o qızsız, "suyu sovulmuş dəyirmana", "quru olmuş ləklərə" bənzəyirdi. Bu nə qəribə duyğuydu? Axı onun bu qızı sevməyə deyil, könlündən belə keçirməyə ixtiyarı yox idi. Bu yerlərdə ustad yanında qaldığı müddətdə aldığı dərslərin



tamamına bircə aydan da az qalmışdı. Getməli idi, gedərgiydi... Cahangəştlə, elə bir ev üçün, ailə üçün yaranmış mələyin nə haqq-salamı ola bilərdi? Olmamalıydı. Düşünə-düşünə gedirdi.

Ev tutduğu binanın hasarına çatanda, haradansa, hasarın üstündənmi, böyründəmi xırdaca bir dünyünçənin düz qənşərinə düşdüyünü görüb diksindi. Heyrətlə ətrafına baxındı. Heç kim yox idi. Göz işlədikcə ətrafda kimsə görünmürdü. Yəqin hasarın harasındansa o biri üzündən atılmışdı bu düyünçə. Əlvan idi. Qaldırdı. İslami qayda ilə üç dəfə ucadan səsləndi:

– Ay düyünçə itirən!.. Ay dü-yün-çə itirəəən! Ay düyünçə itirəəənn!..

Cavab verən olmadı. Maraqla düyünçənin düyününü açdı. Yüngülcə, qız barmağı ilə vurulmuş, zərif əllə düyünlənmiş, dartılıb bərkidilmişdi. Açdı... İçərisində darçın qoxulu bir kağız var idi. Arasına yerə asan düşsün deyə, xırdaca bir çınqıl da qoyulmuşdu. İpək əlvan yaylığı cibinə qoydu, darçın qoxulu kağızı açdı. Natamam bir şeir yazılmışdı. Füzulinin şeriydi, tanıdı.

Ney kimi, hər dəm ki, bəzmi-vəslini yad eylərəm,
Ta nəfəs vardır quru cismimdə, fəryad eylərəm.
Ruzi-hicrandır sevin, ey mürği-ruhim kim, bu gün
Bu qəfəsdən mən səni, əlbəttə azad eylərəm.
Bilmişəm bulman vüsalın, leyk bir ümmid ilə
Gah-gah öz xatiri-nişadımı şad eylərəm.

Məktub-zad yazılmamışdı. Ad da yox idi, hətta qəzəlin möhrə bəndi də yazılmamışdı. Əvəzində kağızın o biri üzündə zarafatca, naşı bir şairin qoşduğu tuyuq – bayatı var idi.

Ağ dəvə kallah gedər,
Gah əyilər, gah gedər.
Qorxma, a dərviş oğlan,
Üstündə Allah gedər!

Bu, yalnız o ola bilərdi. Bostanda gəzən, ürəklər əzən əlvan şalı ipəyindən don geymiş, "gül muncuqdan" butalı araqçın qoymuş, qırxkakili günəş şüaları kimi nərmin bədəninin dövrəsində şölələnən qız... Altıntelli! Altıntelli!. Bu axırıncı dörd misra olmasaydı, Füzuli qəzəlinin, bəlkə də, dostları tərəfindən ona qəsdlə, zarafat üçün yazılıb atıldığını güman edə bilərdi. O dörd misra isə... Başqa şeylər deyirdi o dörd misra. Bircə dərsləri bitsəydi. Sağ-salamat qəlbinin odu şölələnməmiş, manc olmamış getsəydi... Onu yollar gözləyirdi... yollar... Hindistana gedən yollar...

# MƏHƏBBƏT

Payızın qızıl çağı idi. Bostanlarda qızılı yemişlər dəyməyə başlamışdı. Yaşıl tağlar arasında nəhəng kündələr, zərrin xonçalar kimi saralırdı yemişlər. Yaşılla qızılı rəngin ahənginə uyğun ipək paltar geymişdi, Altıntelli. Altıntelli gözəllik bulağından təzəcə su içmişdi. Gözəllik aynasına bu il baxmışdı. Qırxkakillinin üstündən başına göy məxmərdən araqçın qoymuşdu. Araqçının üstünü öz əli bəzəmişdi. Xırdaca "gül muncuqlardan" butalar tikmişdi. Belə araqçın, belə bəzək bu ətrafda heç bir qızın başında yox idi. Belə uzun, belə qızılı hörüklər də bu ətrafda heç bir qızın ay kimi girdə, ağ pənbə simasının dövrəsini sarmır, belini qucaqlamırdı. Mərcan bilərziklərinin arasında dönədönə şəvə görünürdü. Mərcanlar elə bil ki, qızın altın tellərinə, bostanındakı qızılı yemişlərə meydan oxuyurdu, üzünə şəfəq saldıqca "mən mərcandan siz də al-ataş od alın, Altıntellinin üzünə şəfəq saçın" deyirdi.

Altıntelli hərdənbir yerə əyilir, qum üstündə yeri əyilmiş, yöndəmsiz düşmüş bir yemişi sahmanlayır, yerini rahatlayırdı. Bu zaman onun qırxkakili belinin yanından üzüaşağı sarxır, uzun-uzun, şüy-şüy qızılı günəş şüaları kimi daraqlanırdı. Aralarından mavi səma görünürdü. O zaman qızın Günəşlə bənzəyişi daha da çoxalırdı.

Yeridikcə çəpkəninin yaxasındakı gümüş pullar, boynundakı mərcanlar, gümüş bəzəklər – düymələr, qulaqlarındakı gümüş piyalə sırğalar, bilərziklər incə gümüş bir səs çıxarır, kiməsə, haçansa sirli bir məhəbbət dastanı, sehrli bir eşq zümzüməsi oxuyacağından xəbər verirdi.

Əlində işlənməkdən, yuyulmaqdan nazilsə də, naxışlarının rəngi solmamış bir xurcun tutmuşdu. Hərdənbir dəydiyinə əmin olduğu bir yemişi dərib xurcuna salırdı. Xurcun qədərincə dolub ağırlaşanda Altıntelli bostanın qırağına gəlir, buradakı yemiş əmbizinə gətirdiklərini də əlavə edirdi. Yenidən bostandakı səliqə-sahmanına qayıdırdı.

Öz işindəydi Altıntelli. Bütün qəlbi, bütün varlığı ilə öz daxili aləminə dalmışdı. Gözləri bəlkə də, heç dərdiyi yemişləri görmürdü. Xəyalının gözü önündə bu yemişlərdən daha şirin bir xəyal canlanırdı. Dərviş... Dərvişlər... Onların içində biri... O qara xətli, o həya dolu baxışlarını gizlədən cavan dərviş... "Görəsən onun gözlərinin rəngi necədi? Amma mənimki kimi badamı deyil. Bəlkə də, elə qaradı... Badamı deyil. Qaşları xətti, nazik bığları var... Bizimki kimi... qaradı... Üzü də mənimki kimi qızılıya çalmır, buğdayıdı... Nazik dodaqlarında bircə



dəfə təbəssüm görsəm... Görə bilsəm... Uca qaməti var... Çinara bənzəyir... Qurşağı nazik belini elə qucub ki... Arı belinə bənzəyir... Dərviş nə yeyir ki? Dərviş... Dərviş... Bəlkə, indi o da məni düşünür... Umulmayan baxt olardı... Amma hardan? O heç başını demirəm, kirpiyini qaldırıb mən tərəfə baxıb ki, məni də görəydi?! Məni də düşünəydi... Yox!"

Qız nədənsə başını qaldırıb baxındı, baxındı... Ürəyi bir anda soyudu... "ilahi!.. Bu ki onlardı! o baş dərviş... İçlərində də o! Canımı oda salan... Ürəyimi yerindən oynadan... Doğulan gündən tanıyıb sevdiyim, görüb valideyn kimi bağlandığım adamları da mənə unutduran o!"

Yolda Zeynalabdin və dostları göründü. Beş yoldaş, beş cavan, beş dərviş: Qiyasəddin şah, Nurillah şah, Qadirəddin şah, Ziyaüddin şah və sonralar Məstəli şah dini təriqət adını qəbul etmiş Zeynalabdin. Bir-birini bu "şah" ləqəblərinə baxmayaraq, öz aralarında sadəcə Qiyas, Nuri, Qadir, Ziya və Zeynal adlandıran oğlanlar hamısı cavan idi. 25-30 yaşlarında olardılar. Ən kiçiyi Zeynalabdin idi. Bir rəngdə, bir ölçüdə, bir biçimdə, bir ülgüdə bəkarət timsalı olan ağ parçadan kisvə geymişdilər. Başlarında kalansuva adlanan börk vardı. Cavan idilər, dini ayinlər aparmır, əllərində əsa gəzdirmir, hələ hansı şəhərə çatsalar, oradakı təriqət başçılarının məclisinə gedir, moizələri, müsahibə və mübahisələri dinləyir, arabir özlərini heyrətə salan, təəccübləndirən, anlaya bilmədikləri məsələlər barəsində suallar verirdilər. Hər şəhərdə pirin moizələrinin məzmun və marağından asılı olaraq bir neçə gün ilə bir neçə ay arasında qalırdılar. Ya bir neçə gün, bir həftə və ya beş, altı, bəlkə də, yeddi ay. Bu dəfə Məşhəddə görəcəkləri iş çox idi, bir neçə ay bəlkə də, bir il burada pir Eynuddinin qulluğunda qalıb onun moizələrinə qulaq asacaqdılar. Asırdılar da.

Şəhərin kənarında bostanlara gedən yol üstündə ev tutmuşdular. Məscid hücrəsində qalmaq istəməmişdilər. Bu yolla onlar hər gün eyni vaxtda mədrəsəyə gedirdilər. Dostları da cavan idi, amma yaşca ondan böyük idilər. Dünyanın isti-soyuğunu ondan çox dadmışdılar. O Altıntelli qızla dostlarından birinin arasında incə, gözlə görünməyən ipək tellər, məhəbbət şüaları əriş-əriş uzanmağa başladığını duymuşdular. Hərdənbir Zeynalabdinə sataşırdılar da:

– Dostum, Məstəli şah, gəlsənəm dərvişliyin, nə qədər gec deyil, daşını atasan, öyrənmişik...

– Öyrənmişik, ata-anasının bircəsidi...

– Sonə də elə baxır ki, elə bil ruhunu "Qalu-bəla" vaxtından ruhuna təslim edib.

– Hə, təslim bayrağını qaldırıb.

– Gəl alaq! Ev-eşik ol! Yaraşır sənə, qal bu bostanda, bəyəndiyin şirin yemişlərdən ye!..

– Özü də bostanın qızılı şamamasına bənzəyir...

– Şirin yemişlərdən o qədər yeyib ki, yəqin yemişlərindən də şirin olub...

Cavanlıq idi, gülüşürdülər öz aralarında söhbətləşirdilər. Bu söhbətlər çox vaxt Axund İskəndərin sərt tərbiyəsini görmüş mömin, utancaq Zeynalabdinə xoş gəlməsə də, açıq-saçıqlığı, bayağı söhbətləri bəyənməsə də, gənc vücudunun harasındasa xoş bir duyğu oyanır, şirin xəyallar bədəninin bütün hücrələrinə yayılırdı. Dinmirdi. Danışmırdı. Etiraz edəndə də qızara-qızara, güclə bir-iki söz deyə bilirdi: "Yaxşı deyil... xalqın qızını..." Bundan uzağa gedə bilmirdi etirazı.

Altıntelli elə bil ki, dərvişləri görmürdü. Elə bil üzü həm günəşdən, həm mərcanlardan, həm bostandakı qızılı yemişlərdən, həm də daxilində coşan hisslərdən rəng alıb, işıq saçmırdı. Eləcə öz işini görə-görə də oxuyur, oxumur, özü üçün zümzümə edirdi. Mazarat qız dərvişlərə sataşmağı da unutmurdu, düzdüyü sözlərdə:

Yolnan gedən beş dərvişlər!
Sinəmə çəkilib şişlər,
Tökülsün də zəhər dişlər...

Yandım aman, yandım aman!
Qandım aman, qandım aman!
Qara gözlər süzüləndə
Din-imanı dandım, aman!

Yolnan gedən bala dərviş,
Təbərzini kəsmə gümüş,
Bostanımdan apar yemiş.

Yandım aman, yandım aman!
Qandım aman, qandım aman!
Xumar gözlər süzüləndə
Din-imanı dandım, aman!

Yol bostanın başına halay vuran sayaq qövsi bir cizgiylə dolanıb getdikcə cavan dərvişlər qızı görür, xeyli müddət dəcəlin səsini dinləyə, ara-sıra yalan-yanlış toqquşdurduğu sözlərin bir-ikisini ayırd edib başa düşə də bilirdilər. İndi də elə oldu. Oğlanlar gülüşdülər.



– Qızın bostanından bostanımıza daş atılır deyəsən, qardaşlar! Cavabını kimin hünəri var, versin.

Zeynalabdinin ürəyi cavab verirdi bu səsə. Amma... Amma bu nəzm, Təmkin təxəllüslü şair Zeynalabdinin şerini o incə səsli, mələk xislətli qız başa düşə bilməzdi. Farsca söylənirdi qəlbində əşar. Farsca "Axund İskəndərə Allah insaf versin. Deyirdi ki, əşar yalnız və yalnız fars dilində məqbuldur, bəyənilləndir, övlad! Götür Firdovsini, həmvətənin Xaqanini, Nizamini, Seyid Zülfüqarı, Fələki rəhmətullahı. Lap elə Kərbəla xuddamı Füzulini. Əşar deyəndə onun yalnız və yalnız "Hədiqətüs-süəda"sı oxunmağa layiqdi. Üləma arasında məqbul əşar sayılır". O qədər dedi ki, anam dilində iki sözü dalbadal deyəndə o qədər üstümüzə göz ağartdı, danladı ki, mən də, elə qardaşım Məhəmmədəli də ana dilindən məhrum olan kimi olduq. Nə düşündük farsca düşündük, farsca yazdıq. Qurani-məcid dili – ərəbcə düşündük, danışdıq. Yaxşı ki, yazıq anam bizimlə öz dilimizdə danışırdı və tamam-kamal unutmamağımıza səbəb oldu. İndi bir neçə aydı gəzirəm ölkəbəölkə, görürəm ki, anam dili dünyanın ən məqbul dillərindən biri imiş və bu dildə nə qədər can, nə qədər nüfuz danışırmış. Elə bu dəcəl qızın oxuduqları lap anacığazımızın qoşduğu əşar, tez-tez çəkdiyi bayatılar kimi şirin, dadlı gəlir mənə. Ürəyə yatımlıdır. Əsil şeir dilidir.

Dostların da xəbəri yox idi bu mükalimədən. O dəcəl, o oynaq, o çaparaq gedən atlını atdan salan, axar suya dayan desə dayandıra bilən, odlu-atəşli, qığılcımlar saçan tonqalı istəsə nərmin əli ilə söndürə, qaralda bilən, könlündən keçsə, sal buzları bircə nəfəsilə əritməyə qadir olan qız da bu düşüncələrdən bixəbər idi. Kim nə bilirdi ki, fəttan, faqqı, qığılcım saçan qız gözlərinin baxışları altında ayaqları bir-birinə dolaşa-dolaşa gedən, sevda deyilən möcüzənin piyaləsindən indicə dodaqlarına dəymiş, amma bircə qurtum hələ içməmiş cavanın, kövrək qəlbindən nələr keçir? Halbuki, bu qəlbin qapıları indi bütün cahanı bağrına basmaq, bütün canlıları sevmək üçün açıq idi, hazır idi, gözləyirdi. Gələn, gəl, gələ bilərsənsə! İçəri girmək istəyən, gir, girə bilirsənsə!

Dərviş dostları onu dövrələdilər, xumarlıq yağan gözlərinə baxmağa çalışdılar, gülə-gülə göz qapaqlarını açmağa cəhd elədilər. Bacarmadılar. Gözlərini onların baxışlarından xilas etmək üçün kirpiklərini elə sıx qapamışdı ki!

– Dərin dəryaya girmə, batarsan, cavan oğlan!

– Boy verməzsən...

– Hamımız bir-birinin çiyninə çıxıb, sənin ayaqların altında dursaq da, eşq dəryasına boy verməik.

– Düz deyil, bizim qəlbimiz eşq ilə doludur.

– O eşq bu eşqdən deyil, özünü nadanlığa vurma!

– Eşqi-ilahi elə bir qüvvədir ki, bizdən əvvəl, yaradılışımızda vücudumuza daxil edilib. Əzəlidir, əbədidir. Onun varlığına sorğu-sual yoxdur. Bir olan pərvərdigarın vəhdaniyyətinə sorğu-sual olmayan kimi.

"Bu eşq də eləcədir. Mən biləni. Bu eşq də yaradılışından insanın mayəsinə vurulan mayadır. Bunsuz da insan susuz səhradakı atəşdən yanan yolçu kimidir. Bunsuz da insan heçdir. Telizər dayıqızını ata-ana rizasına qarşı çıxardan, xırdaca bir qıza o boyda qüvvət bəxş edən də odur. Yoxsa bəşər məhv olardı. Yoxsa insan dəvami-həyatdan məhrum olardı, yaşamazdı, artmazdı. Yox, yox! Dostlarım, mən biləni siz bu məsələdə nədənsə səhv edirsiz. Eşqi-ilahi, eşqi-mənəvi ilə eşqi-həyat eyni qüvvəyə malikdir və yaradan tanrı onların hər ikisini insanın bədəninə, onun doğuluşundan əvvəl, hələ nütfə şəklində ikən daxil etmişdir. Bu mənim qənaətimdir. İndi bacarmasam da, vaxt gələr, kifayət qədər dəlilim-sübutum olanda sizi də anladaram". Zeynalabdin dostlarının zarafatlarına cavab vermədən düşünürdü.

Bostan da arxada qaldı. Xırda-xırda, narın-narın yeridikcə əlvan şahısı əynində atəşlər saça-saça şölələnən və özü də bu sarı-qızılı, al-abı şahının naxış-dilimləri kimi alovlandıqca zümzümə edən qız da arxada qaldı. Zeynalabdin dostları ilə birlikdə həmin illərdə Məşhəddə öz moizələri ilə şöhrət tapmış məşhur təriqət başçısı – sufi Eynuddin şahın müsahibəsinə yollandılar.

Altıntelli bostanda tək qaldı. Elə əvvəldən də o bostanda tək idi. Amma ürəyi tək deyildi, cismi tək idi. Elə indi də zahirdə bostanda bircə qız gəzişir, əyilib-düzəlir, qırx hörüyü günəş şüaları kimi daraqlanır, gah yemiş dərir, gah yemişin narahat yerini hamarlayıb düzəldir, arabir zümzümə də edirdi. Bu yalnız kənardan baxana belə gələ bilərdi ki, Altıntelli bostanda təkdir. Amma əslində o tək deyildi. Qəlbində, ruhunda daşıdığı o cavan dərviş, o dərviş libaslı cavan oğlan onunla yan-yana yeriyir, iş-güc görür, onunla birlikdə zümzümə eləyirdi. Onunla müsahib idi o qara xətli, dərviş libaslı oğlan. Onunla mübahisələr edir, məhəbbət alış-verişi gedirdi aralarında. Oğlan qızın qəlbindən keçən suallara, Altıntellinin istədiyi, ürəyini oxşayan cavablar verirdi. Qəribə aləmdəydi bostançı qız. Yalnız ürəyin, yalnız könlün, yalnız eşqin, yalnız gənclik arzularının hökmran olduğu bir aləmdə.



## ALTINTELLİ

Altıntelli evdə tək idi. Ata-anası uzaq qohumlarından birinin xeyir işinə getmişdi. Yolüstü qızın rəfiqəsi Aybikəni səsləmişdilər:

– Başına tovlanım. Aybikə, Altıntelli təkdi, evdə darıxar ürəyi... Sənəm bacı, a Sənəm bacı, qoy Aybikə getsin bizə. Biz qayıdanacan bir yerdə olsunlar.

– Nə deyirəm, göylü istəyir, getsin...

– Göyülə qalsa, onunku bundadı, bununku da onda, mən biləsi...

– Düz deyirsən vallah, gecəli-gündüzlü bir yerdə olalar ha... Söz-sovları qurtarmır. Elə cükküldəşirlər görürsən. Heç bilmirəm bu qədər sözü hardan tapıb quraşdırırlar?

– Çox sağ ol, Sənəm bacı! Allah razı olsun səndən. Kişi çöldə gözətdəyir, mən getdim. Qız amanatı, tək qoymayın!..

– Bu nə sözdü, onu Aybikədən ayıran kimdi? O da bizim balamızdı. Gedər, niyə ki getməz, gedər... Elə indicə...

– Allah balalarını saxlasın...

– Sənin də birin min olsun. Getdiyin yerin qızı da, oğlu da xoşbəxt olsun, gözləri dolusu görsünlər.

– Sən də balalarından görəsən...

– Bütün subaylar üçün olsun.

...İndi Aybikə qapıdan girəndə çöl pişiyi kimi elə səssiz-səmirsiz girdi ki, Altıntellinin bu gəlişdən xəbəri belə olmadı. Qız taxtın üstündə yarıuzanmış halda nəsə oxuyurdu. Amma nə oxuduğunu heç özü də bilmirdi. Gözləri yuxuya getmiş kimi yarıqapalı idi. Nə yatmışdı, nə oyaqdı...

Aybikə yavaşca ona yanaşdı, gülümsədi, qoruxutmamaqçın yavaş səslə, amma şitəngilliklə oxumağa başladı:

Dağların qarı düşüb,
Gecənin yarı düşüb.
Qınamayın bu qızı –
Yadına yarı düşüb.

Altıntelli bilirdi ki, anası onu tək qoymayacaq. Haradan olsa, Aybikəni tapıb onun yanına göndərəcək; sevdiyi rəfiqəsinin gələcəyini bilsə də, qəfil mahnıdan diksinən kimi oldu. Aybikə zarafatla onun başına "əl-ayaq" qoyub gülə-gülə yanında əyləşdi; qucaqlaşıb taxtın üstünə yıxıldılar.

– Cavabımı niyə vermirsən?

Almanı al vaxtında,
Heç yemə kal vaxtında,
Açdı yaxam bəndini
Dilimin lal vaxtında.

– Sən allah?

– Yox bir, mən allah!..

Aybikənin gözləri maraqdan yanırdı. Həvəslə bacılığını qucaqladı. Bayatını özü istədiyi kimi yozmuşdu. Gənc, həvəsli qızlara məxsus maraqla bir də soruşdu:

– Sən allah, Altın, görüşdüz yəni?

– Yox ey!.. Sənin də lap...

– Bəs deyirsən, açdı yaxam bəndini? Mən də deyirəm, yağın ki, görüşüb danışmısız...

– Görüşməyinə mən onu gündə görürəm... Mədrəsəyə gedəndə də, gələndə də; bunu bilirsən. Amma o da məni görürmü? Bunu bilmirəm.

– Gözü yoxdu bəyəm? Heç sənin kimi qızı görməmək olar?

– O sənin gözündə... elədi...

– Yox, vallah onun gözündə də elə olar, mən biləni. Onda gərək Allah onu kor yarada!

– Dilin yansın, necə qıyırsan kor deyirsən?

– Məsələtün dedim də...

– Heç məsələtünü də ona qıyma!

– Baş üstə, can üstə.

– Canın ağrı görməsin. Bilirsən... Aybikə, deyəsən anam duyuq düşüb axı?..

– Sən canın?..

– Vallah!.. Belə mənə birtəhər baxır. Əvvəlki kimi tək heç yana buraxmır. Evdə tək qoymur, ah çəkər. Heçdən görürsən danlayır...

– Elə şey olmaz! Nədən duyuq düşsün ki? Eləcə ana ürəyidi, görür ki, böyümüsən, gözəlləşmisən. İstəyənin də çoxdu. Biri elə Ömür bəy. Odu ki, qorxur səninçün. Deyir yağın: götürüb qaçarlar, adına söz çıxar. Odu ki, qoruyur səni. Anadı da...

– Elə sən də indi lap anam kimi danışdın. Ona deyəndə nə olub, ana, niyə məni qorğalayırsan? Sən deyənləri deyir. Amma yox! Deyib ki, dünən mənə, sənnən danışmalı sözüm var. Bilirəm ki, o məsələ olacaq...



– İstəyirsən atanın da, ananın da dilini-ağzını bağlayım, sənə o sarıdan heç nə deməsinlər.

Altıntelli gülümsədi:

– Onu da bacarırsan? Dünyada görəsən sən bilməyən nə var?

– Ölən günümü. Bağlayım?

– Bağla! Nə deyirəm ki, amma onlara zərəri olmaz ki?

– Nə zərəri, ay gicəsula? Dur görüm! Məhəbbət ağlını aparıb lap, vallah! Dur, iki dənə taxta qaşıq gəti, bir qulac da qatma.

Altıntelli durdu, rəfiqəsinin dediyi qaşıqları və ip gətirdi. Aybikə qaşıqları ağız-ağıza qoydu, qatma iplə qaşıqları bir-birinə möhkəmcə sarıya-sarıya "duasına" başladı:

– İlahi rəbbi-qiblə, Yarməhəmməd əmimlə Suyunbikə xalamın dilini, ağzını sən də beləcə möhkəm bağla! Altıntellinin o dərvişə söygüsü barəsində ona qoruq-qadağa qoymasınlar. Nə desə "yox" deməsinlər. İlahi, sən özün Altıntelliyə kömək olasan. Ata-anasının ürəyinə rəhm salasan, mən bağlayan kimi dil-ağızlarını möhkəm-möhkəm bağlayasan. Mənim əlim olmasın peyğəmbər qızı, xanımlar xanımı, behiştin xanımı Həzrəti-Fatimənin əli olsun.

Bu sözlə də qız bir qulac qatmanı ağız-ağıza qoyulmuş taxta qaşıqlara bərk-bərk sarıdı. Uclarını da qayım-qayım düyünlədi, rəfiqəsinə verib dedi:

– Apar bir xəlvət, qaranlıq yerdə gizlət. İşlər düzələndən sonra açıb atarsan, inşallah.

– Hansı işlər, a faqqı?

– Özünü faqqılığa vuran sənsən. Özün yaxşı bilirsən ki, hansı işlər... Bilmirəm hardansa ürəyimə damıb ki, sənin o dərviş oğlanla toyunda oynamaq mənə qismət olacaq. O qədər oynayacam ki, üç gün davanlarımın sızıltısından gəzə, üç gecə yata bilməyəcəyəm.

Altıntellinin ürəyi əsdi, amma qaqqıltı ilə gülməyini də saxlaya bilmədi. "Allah ağzından eşitsin, Aybikə!" dedi qəlbində; amma dilinə gətirməyə utandı bu duanı, bu alqışı. Utandı.

Aybikə isə dayanmaq, dil-boğaza qoymaq bilmirdi.

– Bura bax, Altın, gəlsənə bir kərə Hafizlə fala baxaq, hə?

Altıntelli qıpqırmızı qızardı. Əlini uzadıb bir az əvvəl Aybikə otağa girəndə taxtın üstündə qənşərində olan kitabı aldı.

– Ay fırıldaq... Mən gələndə oxuduğun bu idi? Mən də deyirəm qız Qurandan, çərəkədən oxuyur. Sən demə, işi-peşəsi fal açmaqmış.

Doğrudan da, bu Hafizin divanı idi və bir az əvvəl Aybikə gəlməmişdən o bu gün "öz dərvişini" görüb-görə bilməyəcəyinə fal açmışdı. Aybikə divanı əlinə aldı: "Ey Hafizi-Şirazi! Bər mən nəzər əndazi!"[1] – "Hafiz divanının duasını oxudu" və ucadan niyyət elədi:

– Əgər Altıntelli o dərvişə qismətsə, yaxşı bir qəzəl gəlsin, – divanın üstünə bir neçə dəfə əl gəzdirib, sözünə əlavə etdi:

– Özüm niyyət eləyirəm. Bilirəm ki, sənin ürəyin bu saat məxşuşdu, qarmaqarışıq niyyət elərsən, düz gəlməz. Mən yaxşıyam. Bircə niyyətim var, o da sənsən.

– Qız bir neçə dəfə əlini kitabın üstündə gəzdirib qaralmadığı bir yerini açdı, sağ vərəqədən səhifənin üst tərəfindəki beytləri oxumağa başladı:

Həme movseme-təfərroc be çəmən rəvəndo səhra,
To qədəm beçeşme-mən neh, benişin kənare-cuyi,
Həme xoşdelənd ke moqreb bezənəd betar çəngi
Mən əzin xoşəm ke çəngi beznəm betar muyi.[2]

– Görürsən! Aləmdi, aləm! Vallah, mən deyəndi. Qismətindədi, könlündəsən. Heç vaxt Hafiz yalan deməyib. Mən ona inanıram. O dedi – qurtardı! Sən onun könlündəsən. Gör bir nələr arzulayır, ilahi! Sən xoşbəxt olacaqsan, Altın! Xoşbəxt olmaya bilməzsən, ata-ananı Allah təkcə bala, təkcə səninlə sevindirə gərək!..

Rəfiqəsinin arzularından, dua-sənalarından, alqışlarından qəlbi daha da kövrəlmiş, ürəyi ümidlə dolmuş Altıntelli, Aybikəni qucaqlayıb bağrına basdı.

– Sən nə yaxşı yoldaşsan, Aybikə!

Aybikə gülə-gülə onun qolları arasında çırpındı, bacarıb üzündən öpdü.

– Yoxsa şübhən var idi?

– Yox... Şübhəm yox idi. Sən yaxşı dostsan, nəcib qızsan. Qoy Allah özü sənin də istədiyin kimi bəxtini açsın.

– Allah ağzından eşitsin. Deyirlər ki, doğan arvadla, sevən qızın duası Allaha tez çatar.

Gülüşdülər.

[1] Ey Şirazlı Hafiz, mənə nəzər sal.

[2] Hamı bahar vaxtı çölə-çəmənə seyrə çıxır, sən ayağını gözümün üstə qoy, bulaq kənarında əyləş. Hamı mütribin mizrabı tara vurmasından, mən isə əlimi sənin tellərinə vurmaqla xoşam.



Həmişə beləydilər. Sözlə də, sazla deyişən kimi deyişərdilər. Sirdaş idilər. Sözləri-sirləri bir idi. Aybikə onun yanına gəldimi, başlayırdılar pıçıldaşmağa. Son vaxtlar mövzu "beş dərviş"dən idi.

Əvvəl, Aybikə zarafatla soruşdu:

– Sən allah, nə görmüsən bu bitli-sirkəli dərvişlərdə?

– Elə demə! Bunlar o dərvişlərdən deyil. Elm oxuyurlar, tələbədilər. Nənə qarı deyir ki, çox ağıllı, hörmətcil, fərasətli uşaqlardı...

Aybikə qaqqıldadı:

– Əcəb uşaqdılar?! Hamısı da bığlı-saqqallı əmilərdi. Bircə o kiçiyi yanmışdan başqa. Deyəsən, sənin də ağlını o oğurlayıb. Şahlıq şahbazın gedib qonub onun başına: "Ay doğdu dam üstünə. Gün doğdu dam üstünə. Bu gedən gözəl dərviş, durub qızlar qəsdinə", – deyirsən, vallah! Gözlərindən oxuyuram.

Altıntelli də gülürdü. Hər ikisi şitəngilliklə bir-birinə sataşır, bir-birini zarafatla sancırdı:

– Guya sən olasan, onu deməzsən? Bir də onlar əlbət ki, Nənə qarının gözündə uşaqdılar, bizim yox. "Ay doğdu dam üstünə. Dərviş, bürün postuna. Dünyada xayın çıxmaz, əsil dost can dostuna".

Aybikə qaqqıldadı:

– Allah ağzından eşitsin. Təki xayın çıxmasın.

– Altıntellinin qolundan bir "xırda çimdik" götürdü. Altıntelli ufuldadı:

– Aybikə, sən cinnisən, vallah cinnisən!

Qızlar gülüşə-gülüşə qarşılarına tökdükləri yunu didirdilər. Aybikə yenə də dinc durmadı:

– Bura bax, Telli, bu sənin gəlinlik yorğanının yunu deyil ki?

– Yoooxxx... Necə ki?

– Səninki olsaydı, bir az da yaxşı didərdim. Yoxsa Suyun xala öz gəlinlik yorğan-döşəyinin yununu diddirir bizə?

Bu dəmdə Suyunbikə eyvana çıxdı. Qızların gülüşərək yun didiklərini gördü; gənclərin şənliyi ona da sirayət etdi, gülümsədi, talelərinə bir alqış yolladı:

– Allah sizi ağbaxt eləsin, balalarım!

Bu gün isə Altıntelli heç özündə-sözündə deyildi. Amma rəfiqəsinin "falı", sözləri ürəyini açıb dedi:

– Sən mənim həmişə ürəyimi ümidlə doldurmusan, sən olmasaydın, çoxdan canıma qəsd eləmişdim. Bura bax, Aybikə!

Altıntelli bacılığını qucağından buraxdı. İndi onlar taxtın üstündə yanaşı oturmuşdular. Çiyin-çiyinə:

– Hara baxım?
– Mənə.
– Gözüm elə səndə deyil?
– Məndədi. Amma zarafatı burax, Aybikə, sənə deyəsi sözüm var.
Aybikə ciddiləşdi:
– Hə... de görüm.
– Deyirəm ki, – Altıntelli nədənsə duruxa-duruxa danışırdı.
– Ürəyimi üzmə görək...
– Hə... Ürəyimə damıb ki, anam mənim barəmdə səninlə danışacaq. Bildiyini gizlətmə.
– Necə?
– Hə... Gizlətmə. Onsuz da anam bilir ki, səndən ayrı canım, səndən gizli sirrim-sözüm yoxdu. Bax! Əgər anam səninnən danışsa, hər şeyi necə var, elə də danış. De ki, dərvişlik deyil. De ki, hər şeydə mən, təkcə özüm günahkaram. Taxsırlar hamısı məndədi. De ki, dərviş heç nə bilmir. Mənnən danışıb eləməyib. De ki, mən onsuz yaşaya bilməyəcəyəm. De ki, onsuz öləcəyəm. Əgər mənim ölməyimi istəmirlərsə, de ki, ondan oyanası yoxdu. Ya odu, ya qəbir! – Hönkürdü.

Aybikə heyrət, kədər qarışıq təəccüb içində donub oturmuşdu, bir kəlmə də deməyə qadir deyildi. Dostunun tufan kimi püskürən nəfəsi, alov kimi sözləri onu qorxutmuşdu. Altıntelli isə artıq hıçqırıb ağlayırdı. Rəfiqəsinin dizləri üstünə üzüqoylu yıxılıb hönkürtmə çalırdı.

Aybikənin əli bacılığının saçını tumarlayır, ürəyi dərvişin qarasına deyinirdi: "Qara gələydi, yolu yumrulaydı, sağ gəlib çıxmayaydı bu yerlərə o dərvişi! Dinc adam kimi oturmuşduq yerimizdə. Hardan gəldi çıxdı, yaloya saldı bizi?"

Aybikənin gözləri qəzəb saçırdı. Əgər bu anda o dərviş əlinə keçsəydi, yəqin ki, caynaqlarını gözlərinə sancardı onun.

* * *

Evdən zəncəfil, darçın, mixək, hil qoxusu gəlirdi. Kişi içəri girəndə birinci dəfə burnuna dəyən elə bu hil-mixək iyi oldu. Qəlbində düşündü: "Rəhmətliyin qızı! Elə bil ev əttar dükanıdı. Nə adın bilir, nə dadın. Elə hey səpələşdirir ədviyyatı, nə xörək bişirdi doldurur ona. Bir demir bunu bəyənən varmı, yoxmu?!" Kişinin qanı qara idi. Əgər başqa vaxt olsaydı, belə düşünməzdi. İndi bəlkə də, hirsindən yadından çıxarmışdı ki, arvadının xörəklərinin ətri yeddi qonşunu şirin yuxudan



bidar eləyər və özü də həmişə onu belə dadlı, ləzzətli, ədviyyəli xörəklər bişirdiyi üçün tərifləmdi. İndi qanıqara olduğuyçün hər şey ona həddini aşmış görünürdü. Axı ona elə beləcə də çatdırmışdı bacısı:
– Qardaş, qızından yaman xəbər dəyib qulağıma.

Ağzında dili kimi saxladığı, həmişə gözünün qabağında olan, bir an özündən uzaqlaşdırmadığı qızı haqqında yaman xəbər ona əvvəlcə çatmadı, bacısının sözünə güldü:
– Nə danışırsan, bacı?
– Elə bildi ki, bu dəfə də bacısı baldız-qardaşarvadı qovğası salmaq, Suyunbikəni yamanlamaq üçün söz axtarır. Amma belə deyilmiş:
– Deyillər, qonşuluğunuzda bir dərviş var, tovlaşdırır onu.
İlahi! Kişini ilan çalsaydı bəlkə də, belə çığırıb yerindən dik atılmazdı.
– Hansı köpəkoğlunun oğlu deyir onu?

Arvad qorxdu. Deyəsən, xəbəri pis çatdırmışdı. Qardaşının əlindən xəta çıxardı. Əllərini yuxarı qaldırıb, qardaşının döşündən basdı:
– Bir hövsələ elə! Elə bir qorxulu şey yoxdu hələ... Nə özündən çıxırsan?

Bacısı yaşda ondan böyük olsa da, Yarməhəmməd hörmət məqamını unutdu:
– Məni əvvəlcə yaman sözlə din-imandan eləyirsən, sonra da deyirsən ki, özündən çıxma?! O nə sözdü, kimin uydurmasıdı?

Yarməhəmməd ayrı vaxt olsaydı, bəlkə də, heç belə özündən çıxmazdı. Dərviş sözü onu öfkələndirmişdi. Çünki birdən ona elə gəldi ki, deyəsən, axı bu dərvişlər axır vaxtlarda onun gözünə tez-tez dəyirdi. Dərviş olanda nə olar? Kişi deyil? Cavan deyil?! Qərəz ki, bacısının sözü kişinin həftadını yandırdı. Tələsdirdi arvadı.
– Tez ol, de görüm, nə eşitmisən qız sarıdan?

Bacı dediyinə də peşman olmuşdu; kişini ovundurmağa çalışıb dedi:
– Əyşi, Yarı, o bir olan Allah haqqı, qızdığ bir şey yoxdu. Dərvişlər cavan adamlardı, o tərəflərdə çox tez-tez hərlənirlər. Dedilər... Mən dili yanmış da sənə çatdırdım ki, sərvaxt olasan. Qız uşağıdı. Nə qanır, ağlı nə kəsir? Özünü də ərkəsöyün böyütmüsüz... Bir iş, bir əngəl çıxar. Sonra da eşşək gətir, mərəkə yüklə. Qardaşımsan iki gözümsən, o da sənin balandı – mənim balamdı. Gündə ləkə olmağına razı ollam, onda yox. İstəyənləri var, ver birinə çıxsın getsin. Qız uşağını evdə çox saxlamağın faydası yoxdu, zərərindən başqa... Deyiblər od qalar köz olar, qız qalar – söz...

Kişinin köpü alınırdı. Ürəyinə damdı ki, bacısı elçilərdən kimə isə tərəfdardı; ona görə də bu yolla onu tələsdirmək istəyir. Bir qədər sakit səslə soruşdu:

– Bacımsan, bibisən, dərdinə qal, oduna yan! İstəyənləri vərəvürd elə. Seç, sonala. Birini de! Ağlıma batandısa, verim. Un çuvalına tay eləyib bucağa basmayacağam ki! Amma verəndə də bilim ki, kimə verirəm. Bircə kəsiyimdi. Gözümü yumub hər istəyənə verə bilmərəm. İtə-qurda ata bilmərəm. Bilmə-rəm! Bildin?

– Orası elədi. Amma istəyən də az deyil. Biri elə o Ömür bəy. Pis nəsildi? Dədəsi səndən pisdi, nənəsi Suyunbikədən pisdi?

– Ya bibisi səndən pisdi? Bayaqdan həftadıma od vuranacan, elə bunu de ki, sən bibisinin könlü Ömür bəygilədi. Mən də işimi bilim. Yoxsa dərviş elə gəldi, qəmiş belə getdi...

Kişi deyinə-deyinə qalxdı, salamatlaşmağı da unudub çıxdı və düz-doğru evinə yollandı. Arxasınca bacısının acıqlı səsi gəlirdi:

– Hər halda sən ağbirçəyin də sözünü qəribliyə salma! Qızdı, əməlli gözün olsun. Hər şeyin bir həddi var... Özbaşına buraxma!

...Kişi evə çatanacan bu sözlər qulağında səslənirdi: "Hər şeyin bir həddi var... Biz isə... mən də, anası ölmüş də, ona hədd qoymamışıq. Bircə qızdı deyin, kefinə dəyməmişik. Araqçın qoydu, çarqat örtdü, rübənd örtdü, pərəncə büründü... Yaşmaqlandı, yaşmaqlanmadı... Qabağına çöp atan olmayıb. Ana da ki... Getmə gözümdən, gedərəm özümdən... O gün görürəm ki, bostanın qırağında oturub, gözlərini yumub. Deyirəm: "A bala, neynirsən?" Deyir: "İçəri baxıram". Deyirəm: "Dünyada day görməli şey tapmırsan?" Deyir: "Darıxıram, dədə! Görmək istədiyimi içəridə görürəm". Ürəyim cızz elədi, cızıldadım. İndi day bəs-böyük olub. Yes-yekə qızdı. Day onun üzüaçıq bağ-bostanda veyillənən vaxtı deyil. Çoxdan, lap çoxdan gərək qoymayaydım çöl-bayıra. Dinimiz, şəriətimiz var. Doğrudu, buralar xali yerdi, biz də şəhərdən çox kətçiyik. Amma yenə də olsun. Qız uşağını Allah adama verənəcən, bir qara daş versə ondan yaxşıdı. Həm yükü ağırdı, həm də qız özü elə Allahından bədbəxtdi. Bazar görmür, dükan görmür. Səhərdən axşamatan arvadın-qızın gördüyü özüdü, qucduğu dizi. Dörd divar. Odu ki, mənim yazığım gəlib, bağ-bostana buraxmışam. Bu da axırı. Bu da cəzam. Allah verməyəni mən vermək istəmişəm ona. Allah da adama deyər: "Ay filan-filan şüdə, bu necə olan işdi? Özüvü nözən-billah məndən ağıllı sayırsan? Məsləhət bilsəydim, mən özüm elə onu oğlan yaradardım. Ya qıza o ixtiyarı verərdim. Uşaq vaxtı, oğlan



paltarı çox geyindirirdim, saldım yanıma, bazar-dükan gəzdirdim. Dedim: Allahın yazığı gələr bəndəsinə, oğul da verər. Vermədi yara-dan tanı! Bu da belə".

Kişi evə girəndə arvad ərini görcək yerindən qalxdı:

– Gəl, gəl, yəqin acmısan, xörəy hazırdı.

Kişi qaşqabaqlı cavab verdi:

– O qədər darçın əndərmisən ki, elə yeməmişdən doydum. Evi əttar dükanına döndərmisən.

Arvad kişinin qırımını anladı. Bildi ki, hardansa bir dəyintisi var? Odur ki, etiraz eləmədi, sözünün dalını gətirmədi. Və demədi ki, "ədviy-yatı əttardan alıb gətirən elə sən özünsən".

– Bəs qız hanı?

– Harda olacaq? O biri evdə, güləbətin çəkir.

– Çağır gəlsin yeməyə.

– Gələr indi. Elə bayaqdan ürəyi acından çəkilib. Ha illah eləmi-şəm, demişəm, bala, bir tikə sal ağzına. Deyib: Sumbacı, dədəm gəlməsə, boğazımdan getməz. Yeməyib ki, yeməyib.

Kişinin ürəyi suya döndü. Mum kimi yumşaldı. Gözlərindəki qəzəbi, narazılığı arvadından da gizlətməyə çalışdı, baxışlarını evin divarlarında, orda-burda gəzdirə-gəzdirə titrək ata ürəyinin hökmilə ipəyə döndü, mehriban səslə dedi:

– Çağır uşağı, ac saxlama. Nə bişirmisən?

– Musamma...

Suyunbikə Yarməhəmmədin hirsinin soyuduğunu, qızının adını eşi-dincə bütün dərd-sərini yadından çıxardığını anladı. Qonşu otağa tərəf səsləndi:

– Telli, Altın... Dədən gəlib, qızım! Acdı, sən də acsan, gəl süfrəni sal!

Altıntellinin gümüş kimi cingiltili səsi o biri otaqdan eşidildi:

– Gəldim, Sumbacı, gəldim...

– Uşaqlıqdan anası Suyunbikəni böyükləri yamsılayıb belə adlan-dırardı. İndi də çox vaxt zarafatla anasını Sumbacı deyib səsləmək adəti var idi. Qız əlində süfrə içəri girdi, süfrəqarışıq, lap uşaqlıqda olduğu kimi atasının boynunu qucaqladı. Üzündən marçıltı ilə öpdü. Yarmə-həmməd qızının qoynunda yumağa dönmüşdü. Bu nadinc, bu mehriban, bu xoşxasiyyət qız onun başına nə istəsə gətirə bilər, ona nəyi istəsə qəbul etdirə bilərdi. Ata bunu bütün varlığı ilə duyur və bu duyğuya etiraz da eləmirdi. Onun üçün Altıntellinin arzularını yerinə yetirmək həyatın mənasına, məqsədinə, nəticəsinə çevrilmişdi.

Xörək yeyildi, süfrə yığıldı. Altıntelli qabları götürüb həyətə çıxdı, həyətin ortasından axan nazik arxın duru suyunda saçaqlı söyüdün altında, böyürtkən kollarına qarışmış güllərin arasında əyləşib, qab, dərdəsmal yaxalamağı sevərdi.

Ata ilə ana evdə tək qaldılar. Kişi yenidən bacısının sözlərini xatırlayıb fikrə getdi. Nədən başlasın, necə başlasın? Suyunbikə də sözlü adama oxşayırdı. Ərinin qənşərində əyləşib, üzünə baxmadan xalçanın xovunu tumarlayırdı. Nəhayət dözmədi, sözə ilkin ana başladı:

– Kişi, o Ömür bəylidən genə adam gəlmişdi.

Kişinin əlinə girəvə düşdü. Amma yenə də ər, ata sanbalını saxladı, ağır-ağır dilləndi:

– Nə deyirdilər?

– Arvadları gəlmişdi, ağbirçəkləri. Oğlanı tərifləyirlər. Səndən cavab gözləyirlər.

Kişi:

– Day elçi gələn oğlanı pisləməyəcək ki... Mən də o nəsli pis tanımıram. Yaxşı əsilli-köklü adamdılar.

Kişi gözlərini gizlədə-gizlədə əsil ürəyindən keçəni demirdi, deyə bilmirdi. İstəyirdi ki, bunu da Suyunbikə desin. O isə bu barədə heç nə danışmırdı. Axırı ki kişi dözmədi, yarıacıqlı-yarıxoş həyətdə qız eşitməsin deyə xısıntılı səslə soruşdu:

– Ay zalımın balası, ərə gedən qızındı axı... Anasan axı... Haçanacan mən sənə başa salım? Bir ağzını arasanam...

Arvadın səsi batdı. Susdu. Yenə xalçanın xovunu tumarlamağa davam etdi. Kişini hirsləndirmək istəmir, deyəcəyi sözü də deyə bilmirdi.

– Danışsana! Ay mərdimazar çuğundurunun toxumu!

– Kişi söyüş bilməz, söyləməzdi.

– Vallah, kişi, deməyə də bir təhərim gəlir. Amma neynim, nə çareliyim? Keç günahından, atasısan.

Kişinin damarlarında qanı dondu, güclə:

– Nə günahdı o? – pıçıldaya bildi.

Arvad anladı ki, əri başqa xəyala düşə bilər, cəld dedi:

– Ömür bəylidə ürəyi yoxdu, kişi! Neynəyək?

Kişinin ağlı üstünə gəldi, rahat nəfəs aldı. Arvad sözünə davam edirdi:

– Bircə balamızdı. Saç-saqqalımızın ağaran vaxtında, kəramınə qurban olduğum tarı bilən yaxşıdı. O boyda nəvəmiz olardı... İndi onu da ürəyi olmaya-olmaya verək, getsin istəmədiyi evdə düşsün odun içinə? Canından uzaq yerdə yansın qiyamətəcən, cəhənnəm odunda.



– Yaxşı, yaxşı, ürəyimi suya döndərmə! İstəmir, verməik. Əlbət ki, bircə balamızı bilə-bilə ki istəmir, zorla verə bilmərəm. Lap padşah ola. Lap dünyanın malı-dövləti ola. Qoy kasıbfəndi olsun, özümüzə bab olsun. Uzağın buğdasından, yaxının arpası yaxşıdı. Bir qarın çörəyi olsun, bəsdi. Təki qızın ürəyiycən olsun.

Bu dəfə arvad rahat nəfəs aldı:

– Kişi! Bu ürək ki səndə var, heç neynim-neceliyim deməyəsən. Allah axirətüvi versin. Mal-dövlət nə olan şeydi? Əl çirkidi dünyanın malı. Təki uşağımız xoşbəxt olsun. Biz də ömrümüzün düşgün çağında baxaq onnara fərəhlənək. Kölgələrində dolanaq. İnsan adam olar əgəm.

– Bəs kimədi meyli, bilmirsən?

– Bilməyinə yəqin bilmirəm. Amma duyuq düşmüşəm. Sənəmlinin qızı o Aybikə var ey, bacılığı. Onu da bucağa qısıb ağzın arayacam.

– Bilməmiş olmazsan.

– Hardan?

– Əh... Ağzı əyilmiş!.. Söz tapdın da... Qızın sirr-sözünü ana bilməyəndə kim bilər?

– Bilirsən kişi, bir nəfər var, qəribdi, kasıbdı, ürəyi də onadı deyəsən. Yəqin bilmirəm, amma mənə belə gəlir. Əgər o ola, razılaşasan, çəkərdik cınağımıza, oğul olardı bizə...

Yenə də kişinin dalağı sancdı:

– Mən tapmaca tapmaq bilmirəm. Açığını de. Bilirsən ki, bir balamçun ölümə gedərəm. Ancaq təhəri ola, başaşağılıq olmaya. Elə olmaya ki, adam öz-özündən iyrənə o işi tutancan.

– Yox, ay kişi, Allah eləməsin, Telli heylə iş tutmaz ki, sən özünözündən iyrənəsən. Bu nə sözdü ağlına gəldi?

– Deyirəm də... Axırı ki, kim olur olsun, el adətiycən, üz ağlığıynan olsun. Papaq yerə soxmasın.

– Buy Allah sən saxla!

Bu anda Altıntelli içəri girdi. Bir qucaq gümüş kimi tərtəmiz qab yuyub gətirmişdi. Bircə də olsa, iş-gücdə anasını tək qoymurdu.

Bu söhbətdən beş gün keçmiş Yarməhəmməd kişi bostanın qırağında dayanıb öz-özünə danışırdı: "Eh... üzün qara olsun dünya! Ataların ən bədbəxtiyəm. Böyük bir qəsəbədə beş-on elçi düşüb qıza, abırlısı da var, həyasızı da. Varlısı da var, kasıbı da... Qədir Allah onlardan birini salmayıb ürəyinə, gözümün işığının. Bir gəldi-gedər, bir gəzəntə, əslini-nəslini bilmədiyim dərvişin məhəbbətini salıb ürəyinə! Gör nə bədbəxt atayam. Ataya minnətçilər gedər, atanın qapısının dabanını

ağsaqqal-qarasaqqal çıxardar, ilan dili çıxardıb yalvararlar, qız istərlər, başını ucaldarlar. Mən bədtələhsə özüm öz qızım üçün, kimliyini tanımadığım bir cəlayi-vətənə elçi düşməliyəm. Minnətçi olmalıyam. Gəl qızımı al, ömrüm uzunu azdan-çoxdan qazandığıma vərəsə ol, evimə yiyəlik elə! Görəsən bu bəla bir də kimin başına gəlib? Ay övlad, övlad! Yaxşı nemət olsaydın – Allah özünə də övlad yaradardı. Amma o biri tərəfdən də, vallah, arvad yazıq da haxlıdı. Əgər bu iş baş tutsa, Allah qismətinə yazıbsa, bir balamız iki olar. Fağır arvad mənə bu məsələni açanda yumub-tökürdü leysan yağış kimi gözünün yaşını. Neynəsin? Ciyərparasıdı! Anadı! Balasından keçə bilmir. Elə mən də".

Dünən arvad Aybikədən məsələnin əslini öyrənəndən sonra kişi ilə danışmış, döyülüb-söyüləcəyini gözünün altına almışdısa da, Yarməhəmməd kişi ona çırtma da vurmamış, həmişəki kimi "əh, ağzı əyilmiş" deyib "söymüşdü" də. Dərindən ah çəkmişdi:

– Allah bilən yaxşıdı. Bəlkə, elə qisməti budu. Alnına belə yazılıb.

Arvad məsələni açanacan qorxusundan bir köynək ət tökmüşdüsə, indi uçmağa qanadı yox idi. Yarməhəmməd rəhmətəlayiq kişinin oğlu idi. Özü də balasını canından artıq istəyirmiş.

Bu dərvişi o tanıyırdı. Cavan oğlan idi. Bığ yeri təzəcə tərləmişdi. Beş yoldaş idilər. Beşi də Sənəmlidən o yana, Hacı Qafurun evinin alt mərtəbəsində iki otağı kirayələmişdilər. Deyirdilər ki, Eynuddin mədrəsəsində təhsil alırlar. Hər sabah dərsə gedəndə və axşamçağı geri qayıdanda Yarməhəmmədə bostanda, bağçada rast gəlsələr, mütləq ədəb salamı verib keçirdilər. Başları dərsə bərk qarışdığından ayrı bir nalayiq hərəkət görünməyib onlardan. Hacı Qafur dərvişlərdən böyük bir məmnuniyyətlə danışır, deyirdi:

– Şükür Allaha, o dələduz, tiryaki, qapılar gəzib türkəçarəyə də əl atanlardan deyillər. Elm adamıdılar. Yaxşı uşaqlardı. Görünür abırlı külfətdəndilər. Elm, təhsil dalınca gəzirlər.

Yarməhəmməd özü də göz qoymuşdu, cavan dərvişləri həmişə salamlı-kalamlı, axşama şam azuqəsindən başqa, qoynu kitab dolu qayıdan görmüşdü həmişə.

Bu gün girəvəyə salıb arvad nişan verən dərvişlə söhbətləşmək, kimliyini, əsil-nəcabətini öyrənmək istəyirdi. Baxtı gətirdi. Cavan dərviş yoldaşlarından azacıq dala qalmışdı. Yarməhəmməd də əti töküləköküə oğlana qoşuldu. Zeynalabdin, kişinin sözlü olduğunu duyub bir az da addımlarını yavaşıtdı. Ürəyindən bir üşütmə keçdi. O, Altıntellinin Yarməhəmmədin qızı olduğunu artıq bilirdi. Ona elə gəldi ki, indi kişi



onu danlayacaq: "Dərvişsən başqa zənəndə-qızda nə işin? Çıx get bu evdən. Ya başqa yerdə mənzil tut, ya məscid hücrəsində qal" deyəcək. O bütün bunlara hazır idi. Özündə heç bir qüsur görməsə də hazır idi. Təki heç kimin dincliyini pozmasın.

Yarməhəmməd daxili bir sıxılqanlıqla sözə başladı:

– Adın nədir, oğul?

– Atam qoyan adım Zeynalabdindi. Dərvişlikdə Məstəli şah, el ağzında elə-belə: dərviş...

– Atanın adı nədi?

– Axund kərbəlayı İskəndər.

– Haralısan?

– Əslən Şirvan əhliyik, amma Kərbəlada olur atam.

– Şirvanı böyük eşitmişəm. Harasındansan Şirvanın?

– Darülmülk Şamaxı şəhərindən, onun lap qədimi Sarıtorpaq məhəlləsindən.

– Bacıdan, qardaşdan nəyin var, bala?

– Bircə məndən kiçik qardaşım var, əmi!

Oğlan bu əmi sözünü elə mehriban, elə açıq bir ürəklə dedi ki, Yarməhəmmədin ürəyi titrədi.

"Kaş elə əmin olaydım. Tutaydım qolundan, aparaydım qazının yanına, "kəs ağa qazi, kəbinlərini göydə Allah kəsib, oğulsuz əmisinə oğul olacaq deyəydim. Çırağımı yandırardın. Başına dolanardım. Dünyada iki zəifə qoyub gedəndə də, ürəyi toxdaq gedərdim, gözüm dalda qalmazdı. Bir çırağın işığına yüz adam yığışar. Allah bəlkə, birimi min budaq elədi".

Zeynalabdin, kişinin suallarından məqsədini anlamırdısa da, ona ayrı cür cavab verə bilmirdi. Həm daxili mədəniyyəti, həm qəriblikdə onunla məhrəm danışan adam, həm də qocalara qəlbində həmişə dərin bir hörmət duyurdu. Hara getsə qocalara yanaşır, görməli, öyrənməli nə varsa, bu dünyagörmüşlərdən soruşub öyrənirdi.

Qoca dedi:

– Oğul, səninlə bir nazik məsələ barədə danışacağam. Otur burda, bir yanını yerə qoy. Mən də bir nəfəs dərim, görək Allah başımıza nə gətirir.

Qəlbində isə dərin-dərin düşüncələrə qərq olmuşdu: haradan necə başlayacağını bilmirdi. "Dünən qızdan əl suyu istəyirəm, gətirir, görürəm bu su odda qızmayıb, eşq atəşilə qaynayıb, əlimi yandırdı. Baxıram bu bir neçə gündə balam gül yarpağı kimi öləziyir. Onsuz da qız gözəlliyi

ömür kimi şirindi, amma elə ömür kimi də vəfasızdı. Balam əlimdən gedər. Anasının deməyinə görə deyib ki, "ya onunam, ya qara yerin. Atam məni bir damcı istəyirsə, talehimə yazılandan ayırmasın".

Hər ikisi mərzin qırağındakı daşa dönmüş, iri kəsəklərin üstündə əyləşdilər.

Yarməhəmməd çubuğunu çıxardıb doldurdu, çaxmaq çaldı, qovu alışdırıb tənbəkinin üstünə qoydu, bir qullab vurub soruşdu:

– Bəs indi Kərbəlada atan nə iş görür?

– İmam Hüseyn qulluğunda xidmətdədi, həm də mədrəsədə dərs verir.

– Bəs atan rəhmətliyin oğlu, özü müdərris ola-ola, sən niyə bu məkana gəlmisən dərs almağa?

– Atamın məktəbini çoxdan bitirmişəm, əmi! Bir müddət də Bağdadda oxumuşam, sonralar elə öz müəllimlərimin də məsləhətiynən təhsilimi davam və ikmal etmək üçün, yəni tamamlamaq üçün çıxmışam atam evindən.

– Deməli, dərsini qurtarıb qayıdasısan Kərbəlaya?

– Onu bilmək olmaz, əmi! Tarı böyük, altı gen deyiblər. Allah haranı yazıb mənimçün nə bilim?!

Kişi bir cəhətə sevindi ki, oğlanın hələlik məkan seçmək barədə qəti fikri, qərarı yoxdur. Özü də halal, Allah adamıdır, soruşdu:

– Bəs buradakı alimlər necə, xoşlayırsan biliklərini? Ürəyincədimi dərsin?

– Əlbəttə! Bilmədiyim çox şey var. Orada öyrənmədiyim çox şey var ki, burda öyrənirəm. "Alimlər peyğəmbərlərin varisidir", – deyib rəsuli-xuda. Odur ki, hər bir alimdən biliyini əxz etmək zəruridi.

– Çox əcəb, – Yarməhəmməd öskürdü.

Daxilində kəsilə-kəsilə düşündü: "Yox! Yox, mindəfə yox! Deyə bilmərəm! Köməyim ol, ilahi!" Və birdən ağlına işıqlı bir fikir gəldi. Gülümsədi. Xəcalətdən xilas olmuş kimi sevinclə bu fikrin ucundan yapışdı:

– Bilirsənmi, oğul! Xudavəndi-aləm məni oğul sarıdan məhrum eləyib. Oğlum yoxdu. Azdan-çoxdan bu fəna dünyada qazanmışam. Evim-eşiyim var. Amma baş yoldaşım – halalım da, mən də başımızı yerə qoyduq – əməyimiz zay olasıdı. Çırağımızı yandıran, bir fatihə surəsilə bizi yad eləyən olmayacaq. Bir kəriməmiz var, o da çıxıb gedəcək, özgə çırağı yandıracaq. Deyirəm, nə vaxtdı sənə göz qoyuram. Ağlın, kamalın, dolanışığın ürəyimə yatıb, xoşuma gəlib. Arvadın da könlü tutub səni. Deyirəm, gəlsənə elə qalasan burada. Mənə oğul olasan.



Bizim qoca ömrümüzü işıqlandırasan. Var-yoxdan nəyim varsa sənin olar. Lap qazı əliynən evi də, vərəsəlik haqqını da adına yazdıram... Nə deyirsən?

Zeynalabdin nə desən gözləyirdi, bunu yox: "Afərin? Yüz afərin! Qızımı da al!" demədi, deyə bilmədi, amma bütün qəsdi budu. Görünür. Hayıf! Yaxşı kişidi, hayıf ki, mən bu yolun qulu ola bilməyəcəyəm. Əvvəla, yolumun əvvəlindən elə geri qayıdacaqdımsa, dayılarımın təklifini qəbul edib vətənimdə qalardım. Elə xanın da təklifi buydu. Yox! Mən gəzib dünyanı görməliyəm. Gəzib görürəm ki, babalarımız əkinçi, biçinçi... gərək olanda cəngavər döyüşçü... əsil vətənpərvər olublar. Amma bu əməllərini gələcək nəsillər üçün yazıb, yadigar qoymaq ağıllarına da gəlməyib. Çoxunun savadı olmayıb. Bir qisminə də fənafillah mane olub. Beş günlük fəna dünyadan fayda yoxdur, o dünya üçün çalış, fəlsəfəsindən asılı qalıblar. Mən isə yazmalıyam, gördüklərimi xalqımız, gələcək nəsillər üçün yazıb yadigar qoymalıyam. Mənə elə gəlir ki, mənim də əzəli vəzifəm budur. Biz insanlar çətinlikləri qarşılamaq və onları yenmək üçün yaradılmışıq. Elə dünən Eynuddinin yanında nədən danışılırdı? Cənab Fərabi buyurub ki: "İnsan bilik və əməlin birliyi ilə ucalır". Yox, mən bilik toplamalı və əməlyazı yadigar qoymalıyam. Bu ikiillik dərbədərlik zamanı öyrəndiyim və qət etdiyim hələlik budur. Digər tərəfdən, bu iki ildə anladım ki, dərk etmədiyim o böyük eşq deyilən duyğu heç bir dildə anladılmaz. Onun öz dili var. Altıntelli qız bu dildə danışır mənimlə. Atasını bu dildə o danışdırır. Lakin mənim üçün indilik bu əməl çətin bir əmrdir. Mən onu qəbul edə bilmərəm. Bəlkə, mən də o qız kimi bu böyük, bu ülvi eşq dilində danışsaydım, qəlbim onun səsinə səs versəydi... Düşməni bağışlamaq – asan, dostu bağışlamaq çətin, öz-özünü bağışlamaq isə qeyri-mümkündür. Əgər indi mən bu əməli tutsam, sonra öz-özümü heç bir vaxt bağışlamayacağam".

Bütün bu fikirlər Zeynalabdinin xəyalından elə bir sürətlə gəlib keçdi ki, Yarməhəmməd cavabı gözləyə-gözləyə darıxmağa macal tapmadı. Zeynalabdin üçün isə saniyələr illər kimi uzanmışdı. Bu mehriban, bu naçar, bu məcburiyyət qarşısında qalmış atanın vəziyyətini anlayırdı. Elə danışmaq, elə rədd etmək istəyirdi ki, qocanın könlü qırılmasın, təhqir olunmasın. Böyük bir ehtiyatla sözə bişlayıb dedi:

– Əmi, təklifiniz mənim üçün böyük bir şərəfdi. Allahın böyük nemətidi. Şükranla qəbul edərdim. Amma mənim yolum başqadı. Mən

qalü-bəladan gəzəntəlik aləmini götürənlərdənəm. Gəzib dünyamızı görmək, peyğəmbər varisi alimlərdən öyrənmək xəyalındayam. Mənim də alnıma belə yazılıb. Yoxsa Kərbəla kimi müqəddəs bir məkandan, anam kimi gözüyaşlı, oğulsuz qalan anadan, atam kimi əhli-təğva bir alim ruhanidən ayrılıb cəlayi-vətən olmazdım. Məni bağışla, əmi! Əgər könlündə bircə zərrə inciklik varsa, Allah adına bağışla məni! Görürsən ki, səmimi qəlbdən deyirəm. Ədəbdən xaric hesab eləmə! Mən çətin dönəm bu yoldan.

Kişinin ürəyi sükunət tapdı. Az qala durub Zeynalabdini qucaqlayıb öpəcəkdi. Deməli, qızının bu hadisəsində oğlanın heç əli yox imiş. Onun isə hələ də ürəyində qalmışdı ki, bəlkə qızı elə yoldan eləyən bu "avara dərvişdi". Deyilmiş, deyilmiş! Qız uşağının ağlı öz gözlərindəymiş. Onun başından çıxarmaq lazımdı bu sevdanı.

Zeynalabdin isə deyirdi:

– Bir də, beş də bağışla məni, əmican! Deyir: "Ab dər küzevo ma təşne-zəban migərdim. Yar dər xanevo ma gərd-cahan migərdim". Yəni su sənəkdədi, biz yanqulu-susuz gəzirik. Dost evin içindədi – biz cahanı dolaşırıq! Bu biz dərvişxislətlərin, elm axtaranların qismətidi. Bağışla!

Kişi arxayınçılıqla, bəlkə də sevinc içində cavab verdi:

– Allah bağışlasın, oğul! Qulun nə haqqı var Allahın yaratdığını bağışlaya? Bu Allahın işidi. Özü bağışlasın.

Durdular. Kişi evinə yollandı. Arvada deməliydi ki, "qızını başa sal, oğlan dünya seyrinə çıxıb. Ev-eşik olmaq xəyalından da keçmir. Day biz onu zorla saxlaya bilmərik ki!"

Zeynalabdin də Hacı Qafurun evinə tərəf yönəldi. İndi dostları şam hazırlayıb onu gözəlyirdilər. Çatan kimi soruşacaqdılar:

– Yarməhəmməd kişinin səninlə nə alveri?

* * *

Bir neçə gün idi ki, Altıntelli onun yolunu izləyir, getdiyi və qayıtdığı vaxtı müəyyənləyib güdürdü. Rəfiqəsi Aybikənin gətirdiyi cavablar qızı qane eləməmişdi. O bu sözlərə inanmırdı. Özü eşitməliydi "yox" sözünü onun ağzından. Yoxsa qıza elə gəlirdi ki, bu sözləri onun vətənindən ayrılmasını, ata-anasını atıb getməsini böyük qəbahət sayan Aybikə uydurub. Anasının təsirilə. Bəlkə, Suyunbikə qızının qərarından bir ana qəlbilə duyuq düşüb, sudur anlayıb və Aybikəyə



yalvarıb ki, necə olur olsun Altıntellini bu bəd yoldan qaytarsın, bu bitməz – baş tutmaz fikirdən daşındırsın.

Odur ki, qız sevdiyi ilə mütləq özü danışmalıydı. Neynəyəsən ki, Zeynalabdin tək gəzmirdi. Mədrəsəyə də yoldaşları ilə birgə gedir, birgə qayıdırdı. Amma bu gün Altıntellinin baxtı işləmişdi. Bu gün necə olmuşdusa, Zeynalabdin mədrəsəyə tək gedirdi. Qız qarabaqara onun ardınca düşüb getdi. Pərəncəsinin qara-qıl rübəndini üzünə elə salmışdı ki, tanınmalısı qalmamışdı. Doğma ata-anası belə onu bu cilddə tanıya bilməzdi. Dar küçələr başlandı. Hər dəfə oğlana çatanda, döngədən çıxan bir adam onu diksindirib, geri atırdı. Qızın ürəyi çırpınırdı. İndi geniş meydanlar başlanacaq, o da Zeynala yaxınlaşa bilməyəcəkdi.

Uzaqdan baxan onların bir-birini tanıdığını, ürəklərinin həmahəng döyündüyünü ağlına da gətirməzdi. Nə var ki?! Küçə ilə bir-birindən aralı iki nəfər gedirdi. Bir kişi, bir qadın. Zahirən bir-birlərinə məhəl qoymadan, iki bir-birini tanımayan adam kimi irəliləyirdilər. Amma səkinin bu başından o başına məhəbbətin, naşı gözlərin görə bilməyəcəyi ipək telləri çəkilmişdi. Bu ipək tellər teleqraf simləri kimi o iki gənc ürəyindəki duyğuları, qızın məhəbbətini, istək və arzularını, oğlanın gileyini ən əziz sözlərini bir-birinə söyləyirdi, keçirirdi. Gedirdilər. Haradasa bu tellər qısalacaq, məsafə daralacaq, iki ürəyin yolu birləşəcəkdi.

Elə də oldu.

Zeynalabdin ardınca gələnin Altıntelli olduğunu duymuşdu. Bunu ona gənc ürəyinin duymaq qabiliyyəti xəbər vermişdi. Bəlkə, elə o özü də bu görüşü arzulayır, bu görüşə tələsirdi. Amma həm qız üçün, həm də öz adı üçün qorxur, ehtiyat edirdi. Qərib, müqəddəs şəhərdə onun da, naməhrəmlə danışan qızın da başına min bəla gələ bilərdi. Qızın addımları lap arxasında səslənəndə bu addımlar onun qəlbilə həmahəng vurmağa başladı. Ayaq saxladı, ürəyi sıxıla-sıxıla yad qadını irəli buraxmaq istəyirmiş kimi özünü döngənin divarına tərəf verdi.

Və Altıntelli onun qənşərində dayandı. Danışıqdan çox pıçıltı ilə dedi:

– Aybikənin dedikləri doğrudu? Gedirsən?

– Gedirəm...

Qız sanki əllə tutula biləcək qədər yaxın bir kədər heykəli kimi dayanmışdı. O danışdıqca elə bil uzaqlarda tənha bir çinar xışıldayır,

həzin sızıltılarla, şikayətlərlə sular ağlayırdı. O danışdıqca Zeynalabdinə elə gəlirdi ki, saçaqlarını həzin-həzin şırıldayan sulara sallamış tənha bir söyüdün qarşısında durub. Kədər nağılı dinləyir. Hicran hekayətinə qulaq asır...

Altıntellinin bu fədakar məhəbbəti heyrətamiz idi. Əslində, məhəbbət bəşər qədər əzəli və əbədi olsa da, həmişə, hər yeni cütün timsalında yenidir. Məhəbbət həmişə hamı üçün möcüzədir, bayramdır, həyatın qələbəsi, varlığın təntənəsidir. Qoca Məhəmmədə "Məni dünyaya təref çək, ya Ayişə!" dedirdən də budur. Elə həmin qüvvət idi ki, bu gün Zeynalabdinlə Altıntellini qarşı-qarşıya gətirmişdi və danışdırırdı.

– Gedirsən... Bəs mən? Bəs mən?

O düşünmürdü ki, oğlan ona "Səndən mənə nə? Atan var, anan var. El-oban, ulusun var, yurd-yuvan var". Qız bunları düşünmürdü. Bu bir neçə ayda qəlbinin dərinliklərində oğlanla o qədər üz-üzə dayanmışdı ki, o qədər ürəyində onunla danışmışdı ki, o qədər gözlərilə bostan içindən ona sözlər demişdi ki, bütün hiss və düşüncələrinin oğlana aydın olduğuna əmin idi. Axı o bilmirdi ki, Altıntelli onsuz bir gün də yaşaya bilməz? Yaşaya bilməyəcək? Bu məgər ona aydın deyildi? Bəs qızın ürəyində onunla danışanda ayrı sözlər demişdi. Qızın məhəbbətinə gözləri cavab vermişdi, axı?! Bu necə ola bilərdi ki, atası Yarməhəmmədlə, anası Suyunbikə ilə, rəfiqəsi Aybikə ilə söhbətlərdən sonra da, o, Altıntellini başa düşməmişdi? Başa düşməmişdi ki, onları dilləndirən, qız atasını oğlan ayağına göndərən Altıntellinin şıltağı deyil, böyük qələbə çalınması, yenilməsi mümkün olmayan məhəbbətidir? Qəribə oğlansanmış, Zeynal! Qəribə oğlansanmış!

Zeynalabdin isə bütün bunları dərk edirdi. Amma... deyirdi:

– Səni unutmayacağam, başqasıyla gülməyəcəyəm. Əbədiyyətim, səadətim səndədir, bilirəm. Amma qala bilməyəcəyəm. Çağırır məni yollar. Dərvişxislətlik, böyük və gözəl olduğu qədər də zəlil dünyamızı görmək çağırır məni, aparır məni. Yanında qalsam – qalan, bütün hissiyyatdan xali, boş bir bədən olacaq. Ruhum isə... Çox-çox uzaqlarda olacaq ruhum... Sənin kimi duyğulu insan buna dözə bilməz. Dözməz. Qəbul eləməz Anam saxlaya bilmədi, dayılarım – vətən timsalı Dövran dayım saxlaya bilmədi... Saxlamadı. Sən də saxlama bu yoldan məni. Bu yol mənim üçün həyatın özü deməkdir. Getməliyəm.



Qız onun sözlərini eşidirdi, mənasını isə anlamırdı, anlamaq istəmirdi. Xəyallarına, arzularına uyğun gəlməyən, qəlbini öldürən bu sözlər onun nəyinə gərəkdir? O bütün bu uzun-uzadı deyilmiş sözlərdən yalnız bircəsini anladı, bircəsini dərk etdi: "Gedirəm".

"Gedir... Qalmır... Heç bir şey onu yolundan saxlaya bilməyib... Bəs mən nəyə qalıram? Mən onsuz nəyə gərəyəm? Onsuz həyat, onsuz bu dünya, bu yamyaşıl meşəliyə qərq olmuş şəhər, bu bağ-bağatlı həyətlər içindəki evlər, bu kənarlarındakı arxlarından bulaq suyu axan küçələr nəyimə gərəkdir. Onsuz, o olmasa bu gözəllik olacaqmı? O olmasa bu işıqlı aləmə zülmət çökməyəcəkmi? Sular yenə də belə məhəbbət zümzüməsilə şırıldamayacaq... Quşlar nəğməsindən qalacaq... Nəyimə gərəkdi onsuz bu dünya? Dünya yalnız onun olduğu yerdədi. Harda o var, orda həyat var. O harda, mən də orda. Ardınca gedəcəyəm. Ov tulası kimi ayaqlarına dolaşa-dolaşa ardınca qaçacağam. Getsin... Qoy getsin, məni ki yolumdan saxlaya bilməyəcək. Məni ki yolumdan döndərə bilməyəcək! O necə höcətdisə, mən də eləyəm. Ona oxşayıram. Torpağımız bir yerdən götürülüb. Doğru deyib Füzuli: "Ey könül, yarı istə candan keç. Səri-kuyin gözət cahandan keç. Bütün arzularımdan, bütün sevdiklərimdən vəsliyar üçün keçəcəyəm, candan da, cahandan da keçəcəyəm".

Qız bunları düşünə-düşünə oğlandan ayrıldı, geri dönüb evlərinə tərəf yol aldı. Gedirdi, ixtiyarsız gedirdi. Onu evə tərəf öyrəncəli ayaqları aparırdı. Qəlbində tufanlar qopmuşdu. Qarşısına dağ da çıxsaydı, yarıb keçərdi. İnanırdı buna. "İstəyirəm demək – bacararamın yarısıdı. Mən də istəyirəm. Adım dillərə düşəcək. Olsun "Lövhi-aləmdən yudum əşk ilə Məcnun adını. Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm". Mən cəhənnəm, amma ata-anamın adı da bu əfsanəyə qoşulacaq. Bircələrinin əllərindən getməsi bir yana, üstəlik də "qızları qoşulub qaçdı" deyəcəklər. Kim bilir, adıma daha nələr qoşacaqlar? Mən heç! Onlar... Nankor övlad oldum, amma nankor sevgili olmayacağam. Böyük Allahın mənə bəxş etdiyi bu böyük məhəbbətin ardınca gedirəmsə, kim mənə qədəğən edə bilər? Talehim beləymiş, alnıma belə yazılıbmış. O yazılıbmış. Gərək gələydi uzaq ellərdən. Gərək görəydim onu. Gərək qəlbim odlanaydı. Məgər elimdə-ulusumda cavan azlığıydı? Allah onlardan birini mənə nəsib-qismət yazsaydı... Yazmadı. Onu yazdı! Odur, ondan özgəsi yoxdur, ola da bilməzdi! Gedirəm. Ardınca gedirəm. Hara getsə – mən də varam..."

Bostan yerinə çatdı. Bostan bir neçə gün əvvəl uru olmuşdu. Tağların çoxu çevrilmişdi. Acı payız külələkləri tağlara divan tutmuşdu. Elə qonşu mal-qarası da. Bostan uru olandan sonra onu qoruyan olmurdu. Heyvanat səllimi gəzir, ara-bərədəki yaşıl nə varsa yeyirdi. Qız bostanın yanından ötüb evlərinə doğru getdi. Rübəndini qaldırıb başı üstündən arxaya atmışdı. Ayaqlarını sürüyə-sürüyə gedirdi. Bir ayağı evə gedir, biri getmirdi. Bu tərəflərdə yad adam olmadığından pərəncənin rübəndini atmış, açıq hava ilə nəfəs alır, göz yaşlarını rahat silə bilirdi ki, evə çatanacan gözlərinin qızartısı keçib getsin. Anası, evdə isə atası ağladığını görməsin, duymasın. Dərd çəkdiyini bilib qüssəyə qərq olmasınlar.

## ÖMÜR BƏY

Ömür bəyin qərarı yox idi. Özünü Altıntelliyə elçi düşənlər içərisində ən ləyaqətli, əslini başqalarından qat-qat üstün bilsə də, nədənsə ürəyi çox vəsvəsədə idi. Bir neçə dəfə qız çadraya girəndən bəri onu görməyə, heç olmasa özünü ona göstərməyə təşəbbüs etmişdi.

Qız onu görməmişdi. Bəlkə də, görməməzliyə vurmuşdu. Hər halda gördüyünü duydurmamışdı. Hər halda Ömür bəyin indiyəcən ev-eşikdə istəyinə qarşı durulmadığından bu arzusuna da mütləq çatacağına inanırdı.

Elçilər əliboş qayıdanda, birinci anda nə baş verdiyini anlamadı. Elə bildi ki, nənəsi, anası və bibisi onunla hənək eləyir, zarafatlaşırlar.

– Vallah, ay bala, qızlarına bəlkəm padşah oğlu axtarırlar...

– Qızları da başlarına dəysin, sən ürəyinə salıb eləmə.

– Ürəyinə nöş salır? Ağrısı onların ürəyinə? Özlərinə gərək "şa" biləydilər ki, qızlarını belə oğula istəyirik.

– Axı nə dedilər?

– Sualı hövsələdən çıxmış Ömür bəy verdi.

– Yanı əslində elə də tutarlı bir söz demədilər. Dedilər qız handa, getdi handa? Qızımız hələm uşaqdı.

– Axı demədiz ki, uşaq niyə olur? Gözümüzün qabağında böyüyüb yaşını da bilirik, yaşmağını da tanıyırıq.

– Dedik, ay bala, niyə demədik ki! Amma qəti söz bu oldu ki, heçcə yerə özünüzə zəhmət verməyin. Bizdən hələ qız verdi yoxdu.

– Bəlkəm naz eləyirlər?



– Qadam onların nazına! Əh... Elçi qapısını yolçu qapısı eləmişik. Day suya gedən kimi, kandarlarının dabanını çıxartmışıq. Adamın astanasına neçə dəfə elçi düşərlər?

– Düşərsən, canın da çıxar. Bu qız qapısı – padşah qapısıdı...

– Həəəə?.. Elə bircə cındırından cin ürkən Yarməhəmməddən padşah olmaq qalıb. Vallah, əgər o qız bizə qismətdisə ha... Evimə gələndən sonra mən biləcəyəm, dabanlarımın sızıltısını o Suyunbikənin törəməsindən necə çıxacağam.

– Hələm bir arxı atdan, sonra bərəkallah de! Gör verillərmi?

– Cərə versinlər, cəhənnəmə də üstəlik. Verməzlər: ağa durub, ağacan durub. Götürüb qaçırdarıq. Gül kimi oğlumun arzusunu ürəyində qoyacayıq ki, nə var, nə var, Suyunbikə xanımın nəyimizsə könlünə yatmayıb.

Bu sözlər Ömür bəyin ürəyindən idi. Qəlbində sevindi: "Anam düz deyir. Gərək elə bir kələk işlədəm ki, qız özü mənə qoşulub gedə. Bir də axı bu kənddə məndən başqa kim onun xoşuna gələ bilər ey? Boy-buxun məndə, nəsil məndə, pul-mal dədəmdə, atıb-vurmaq da məndə. Məşhəddəki beş gözədəyən oğlanın əvvəlimcisiyəm. Mən nəyin dərdini çəkirəm?"

Beləliklə də, Ömür bəy dilli-dilavər əmiqızısını bu işə qoşdu. Əşrəf xanım adlı bu gəlin bir uşaq anası olsa da, dünyagörmüşlər kimi çoxbilmişin biriydi. Yavaş-yavaş Yarməhəmmədin evinə ayaq açmağa başladı. Əslində, ayaqaçmaq deyəndə ki, qəsəbə şəhərin bütün ailələrinin bir-birinə get-gəli var idi. Amma indiki halda Əşrəf xanımın get-gəli məqsədliydi. Tez-tez Suyunbikə ilə təklikdə qalıb, arvada əl verir, ağzını arayıb, qızı Ömür bəyə nə üçün vermədiklərinin səbəbini öyrənməyə çalışırdı. Çarəsini sonra eləyəcəkdi. Suyunbikənin sadəlövhlüyündən, ana kədərinin dərinliyindən istifadə edən Əşrəf xanım öyrəndi ki, Yarməhəmmədin könlü başqasınadı.

Əşrəf xanım canıyananlıqla əvvəlcə qıza "tərəf" çıxdı:

– Kim olar, ay xala?

Amma ana hər nə dedisə də, ad vermədi: Dərviş məsələsinin üstünü açmaqdan qorxur, qızının dilə-dişə düşməsindən ehtiyat edirdi.

– Hələ ki heç mən özüm də bilmirəm. Qəribdi deyin, atası bizə ad da vermədi. Deyir, bəlkə heç qisməti deyil... Bircə balamızı da qəribliyə verməyə ürəyimiz hardadı? Düşdük sabah öldük, gözümüzü örtən də olmaz. Balamız xəbər tutanacan sümüyümüz sürmə olar. Nigaran, əli bayırda gedərik bu dünyadan.

Arvadı ağlamaq tutdu. Əşrəf xanımın da ürəyi kövrəldi. Kirpiklərinin dibi nəmləndi.

– Yoooxxxaa! Heylə nöş deyirsən, ay xala? Biz el-camaat deyilik bəyəm! Hamı elə bu şəhərdə sizin xətrinizi istəyir. Hamının sizə hörməti var dəryalarcan...

– Allah hamını var eləsin. Amma çörəyimiz təknədə birdi, odu ki, ürəyimiz də nanə yarpağı kimi əsir. O yandan da qız yükü, duz yüküdü. Gərək verəsən gedə, yoxsa dədəsi də deyir ki, od qalar köz olar, qız qalar söz. Qərəz ki, qalmışıq iki can arası. Heç bilmirik, vallah, başımıza hansı qayanın daşını salaq ki, bu qız bizdən sonra bevarısa olmasın, gözümüz baxa-baxa oda düşməsin.

Bir neçə dəfə get-gəldən sonra bu mövzuda söz salmasa da, dərdini danışıb, ürəyini yüngüllətmək istəyən ananın eyhamlarından Əşrəf xanım anladı ki, məsələ heç də Yarməhəmmədə deyil. Deyəsən, qız özü səbəbkardı. Yoxsa ata da, ana da Ömür bəyi bəyənirlər və işin baş tutmamağına vaysınırlar.

Bu sevindirici xəbərlə də Əşrəf xanım Ömür bəyin başının üstünü kəsdirdi:

– Bilirsən nə var, qızın ata-anasının qarasıycan deyinmə! Onlar Allahdan istəyirlər ki, bircə balaları sənin kimi bir oğlana qismət olsun, çörəkli evə düşsün. O götürüb qaçırtmaq fikrini əgəm dəyişməmisənsə, sərvaxt ol! Hazırlaş. Bir də görərsən yoxsa, yatan öküzün başına duran öküz o söz eləyib.

– Zarafatından qalmırsan, əmiqızı! Sən nə vaxt deyirsən, mən hazır. Amma indi ki, o Yarməhəmməd kişi belə fikirdədi mən barədə, onun evini basıb qızı apara bilmərəm.

– Bəs neynəyək?

– Gərək qız özü çıxa o evdən. Mən dədəm yaşında kişinin evini basıb, biyabırçılıq eləmək istəmirəm.

– Ay tarısız! İndi özünə demədim ki, qız özü səbəbkardı? O öz göylüynən sənə gələndi, day elçilərinə niyə yox dedirtdirir? Hazır minallah, ədəli-dədəli, qaydaynan toy elətdirər dəəə.

– Qoy bir o Altın mənim əlimə keçsin, onun o altın tellərini bir kökə salım ki, hər şey yadından çıxsın. Dədə deyəndə də Ömür desin.

– Bu sonranın işidi, əmioğlu! Sən başda indinin tədbirini tök.

Ömür fikirləşdi, xeyli götür-qoydan sonra əlini nazik bığlarına çəkib gülümsündü. Deyəsən, ağlına məqsədinə uyğun fikir gəlmişdi. Dedi:

– Əmiqızı, sən mənim yazdığım bir kağızı aparıb ona verərsən?



– Nöş vermirəm? Lap o yana da keçərəm.

– Amma gərək, bax, deməyəsən ki, bunu sənə Ömür bəy göndərib.

– Bəs nə deyim?

– Eləcə heç nə demə. Ver kağızı – vəssalam!

– Birdən soruşdu. Nə deyim axı?

– Deynən "aç oxu, özün görərsən!" Tezcə də qoy qayıt, deynən tələsiyirəm, uşağım öydə təkdi. Qərəz, ad vermə!

– Baş üstə, can üstə.

– Canın gül üstə, əmiqızı! Qoy bir işim düzəlsin, sənə özüm bilirəm nə alacam.

– Qabaqcadan alsan yaxşıdı, sonraya qalar, Telliynən sözün düz gətirməz, day almazsan... Deyərsən bu nə beladı mənim başıma gətdin? – Əşrəf xanım gülə-gülə cavab qaytardı.

– Qorxma! Əmoğlun elə oğlanlardan deyil. Bilirsən ki, dedi – qurtardı. Lap heç baş tutmasa da... Yanı tutmayıb neynəyəcək? Sənin kimi köməkçisi olanın köməyi Allahdandı. Heç düzəlməsə də, deyirəm ha!.. Lap günü bu gün bazara çıxanda könlün nə istəyir, baş üstə.

– Başın Tellinin sinəsi üstə. – Əşrəf xanım qəhqəhə çəkdi. – Ay əmoğlu, dünyada sənin sağlığın mənə bəsdi. Səni o bircə qardaşımdan ayrı bilirəmsə, heç xoş gün görməyim bu dünyada. Nə danışdığındı? Zarafatdı eləyirəm. O daldeyda durub baxıram, uzaqdan ki gəlirsən, boyuna tamaşa eləyirəm... Deyirəm ilahi, dünyanın nə xoşbəxt adamıyam, qulluğunda nə xeyir əməl tutmuşam ki, Əsəd kimi qardaşım, Ömür kimi əmoğlum var. Qoşa qardaşım var! Qoşa görəndə sizi qoşa qollarımı qanad kimi açıb uçmağım gəlir. Deyirəm:

Gəlin gedək xanlara,
Yalvaraq imamlara.
Su səpək, çadır quraq,
Qardaş gələn yollara.

– Çox sağ ol, əmiqızı! Bunlar hamısı öz yerində, xələt də öz yerində.

– Nə deyirəm ki! Sən bilən məsləhətdi. Yaz kağızını, aparım verim istəklinə. Allah kamına çatdırsın səni, əmoğlu, qardaş! Allah kamına çatdırsın səni. Allı-güllü toyunda oynayım, bəy hamamından çıxanda, boynuna xələt dolayım. El içində mən də qoşa qardaş bacısı kimi süzüm toyunda. Yaz kağızını...

– Yaxşı, qoy Əsədlə də məsləhətləşim, əmiqızı! Nə eləməliyik, hara aparmalıyıq... Sonra, qızı aparası gündə kağızı verərəm sənə, aparırsan.

– Can üstə. Sən bizimkini də qoş bu işə. Əlli-ayaqlıdı. Köməyin olar.

– Vəlini deyirsən?

– Day bizimki kim olar, ay əmoğlu? – Əşrəf xanım qəşş elərcəsinə gülüb, nazik əllərini sürməli gözlərinə gəzdirdi, gülməkdən sulanmış gözlərini sildi.

– Düz deyirsən. Əsədlə ikimiz yəqin ki, azlıq elərik. Vəliyə mən deyim, ya sən deyirsən?

– Üzündə hələm utanmaqdan bir şey qalıbsa, onun yanında, mən deyim. Yox bir-birimizin "dərd-səri" bir olubsa, onda özün de!

Gəlin yenə də uğundu.

– Yaxşı... İndi ki belə oldu, arxamı yerə verməsəm. Hələm bir az abrımdan qalıb sənin ərinin yanında. Bir-iki yaş cəmi məndən böyük olsa da, ağır-səngindi.

– Yaxşı... Mən deyərəm, Ömür! Ömrüm ömrünə qurban, sən bu, necə deyərlər, o nağıldakı kimi "eşşək-eşşək söhbətindən" danışmağa həvəslisən. Hələ duza gedən vaxtındı, amma mənim evdə çağam var; indicə oyanıb ağlar. Mən qaçdım.

– Bəs qayınanan evdə deyil?

– Ay axıllı! Qayınanam cənnətlik arvaddı, düzdü, amma qayınanam uşağa süd verəcək? Bəsdi məni çərənlətdin, sağ ol!

– Salamat ol. O gün olsun, o balaca oğlun üçün qaçırdasan qızlardan.

– Ha... ha... ha... inşallah! Onunu birdən... Onunu birdən.

Ömür bəy də gülürdü. Qapıdan çıxıb uzaqlaşmaqda olan əmisi qızının ardınca səsləndi:

– Əsədi görsən, de gəlsin bura, məsləhətləşək...

– Yaxşı... ıı...

Səs uzaqlaşdıqca Əşrəf xanımın qəhqəhələri də uzaqlaşdı. Evdən sanki coşqun bir aləm, bir tufan uzaqlaşdı. Otağa sükut çökdü. Ömür bəy taxtın üstündə uzanıb əmisi oğlu Əsəd bəyi gözlədi. Doğrudur, məhəbbət onu Altıntellini götürüb qaçmağa vadar edirdi. Amma qəlbi də yaralanmışdı, izzət-nəfsi daha çox. Düşünürdü: "Görəsən məni kimə tay qoyub? Qabağıma çöp salan kimdi, görəsən? Bilsəm, canını alardım. Amma Altıntelli... Telli... Ölsəm də sən mənim olmalısan. Qoymaram ki, gözüm görə-görə mənim ürəyim tutan bir tikəni özgəsi yeyə. Mən də iraqdan baxam. Yox! Tay-tuşum içində hamı bilir ki, Ömür bəy Altıntellini istəyib, anası-bibisi o qapıya elçi düşüb. Sonra da bəyənilməyib. Elçisinə "yox" deyilib. Mən bu qeyrəti qəbul eləmərəm. Yeyə bilmərəm! Mənə yox deyən olmayıb indiyəcən genə də



olmayacaq. O gün anam deyir ki: "Qırxyamaqlı dərvişə nəzir aparacağam, Allah bu bəlanı sənin ürəyindən çıxartsın. Xəcalətimdən arvadlar içinə çıxa bilmirəm. Mənim onlardan nəyim əskikdi ki, qapılarına ağ üznən gedəm, qara üznən qaytaralar?!" Deyirəm ürəyimdə: "Ay ana, Qırxyamaqlı dərviş neynəsin? Sənin oğlunun vurğunu gözlərdən gəlib. Altın tellərdən gəlib. Amma bu vurğunun qisasını heç kimdə qoymayacam". Yazıq arvadı da salmışam o qapıya, bu qapıya. Ən yaxşısı götürüb aparmaqdı, vəssalam!

Ömür bəy fikirlərini təzəcə sahmana salıb, tamamlayırdı ki, Əşrəf xanımın qardaşı, əmoğlu Əsəd içəri girdi. Əsəd doğrudan da, bir bədəndəki iki qol, iki qanad kimi Ömür bəyə bənzəyirdi. Əmoğluları qardaş hesab eləyərdi ilk görən. Amma o da xasiyyətdə bacısı kimi güləş idi. İçəriyə də zarafatla, gülə-gülə girdi:

– Hə... Nə qəm dəryasına qərq olmusan? "Əlüvü mənə çəkərəcik" deyənin də yoxdu...

Ömür bəy qalxıb taxtın üstündə əyləşdi. Gülümsəməyə çalışdı.

– Niyə ki?! Sənin kimi qardaşı, Əşrəf xanım kimi bacısı olana da "əlüvü mənə" deyən olmayanda, bəs kimə olar?

Dostlar – əmoğlular taxtın üstündə yanaşı əyləşib Altıntellini nə zaman, hara, kimin "bəst"inə aparmaq haqqında düşünməyə başladılar.

Ana onları yeməyə çağıranda artıq qərarları müəyyən idi. Qızı Qoçana aparacaq, qazı Seyid Sədrəddin ağanın evi bütün bu ətrafdakı "bəst"lərdən möhkəmdi. Oradan heç kim, nəyinki Yarməhəmməd, heç Allahın nəüzənbillah bacısı oğlu da qız çıxarda bilməz. Seyid Sədrəddin ağa öz evinin hörmətini Allahdan sonra birinci bilən, tündməcaz bir adam kimi tanınırdı.

Ən yaxşı gün də gələn həftənin əvvəlində Yetim İmanqulunun oğlunun sünnət toyu günüdü. Şirvanlılar[1] onun fağırlığını nəzərə alıb "hümmət" toyu eləyəcək, yəni toyu bəhanə edib, uşağa pul verəcək, Yetimin külfətinə yardım göstərəcəkdi. Baş qarışıqlıq olacaqdı, it yiyəsini tanımayanda, qız aparmağa nə var? Az qala gecə yarıyacan Yarməhəmməd kimi kişilər, Suyunbikə kimi arvadlar yetim

[1] Başqa yerə köçəndə eyni mahalın adamları bir məhəllədə yaşayırdı, beləliklə, Şəkidə, Bakıda, Aşqabadda, Məşhəddə və başqa yerlərdə şirvanlılar məhəlləsi var idi. Son üç-dörd yüz ildə Şirvan dönə-dönə basqınlara məruz qalmış, döyüş meydanına çevrilmişdi. Tez-tez baş verən zəlzələlər isə Şamaxını dönə-dönə xaraba qoymuşdu. Ona görə də bu yerlərin adamları başqa şəhərlərə, ölkələrə, az qala Şərqin hər bir məhəlləsinə köçüb getməyə məcbur olmuşdular.

İmanqulunun evinə toplaşacaq, çənə söhbəti vuracaq, gecə adam yatışandan sonra ay işığına evlərinə dönəcəkdilər. Kələk baş tutsa, Altıntelli məktuba inanıb çölə çıxsa, onu basmarlayıb atın tərkinə almaq, birbaşa qazi Seyid Sədrəddinin kəndinə – Qoçana aparmaq asan işdi, İrəlicədən bəzi hazırlıqlar görmək üçün Seyid Sədrəddinin yanına getməyi Əşrəf xanımın əri Vəlinin öhdəsinə qoydular. Amma məktubu Əşrəf xanımın aparmağını Əsəd məsləhət görməyib deyir:

– İndi ki, məktub kələkdi, onda Əşrəf aparsa, qız duyuq düşər, inanmaz. Bilər ki, sənin əlin var.

Elə bizə yaxın, amma qohum olmayan oğlan uşaqlarından birinə verib, bərk-bərk tapşırmaq olar ki, Tellinin özünə versin kağızı.

Belə də razılaşdılar. Ömür bəy qalxıb kağız və qələmdan gətirib, Əsədin qənşərinə qoydu:

– Yaz!

– Nə yazım?

– Yaz ki, hörmətli...

– Bu yad adama yazan kimi çıxdı...

– Bəs necə...

– Əzizim, sevgilim... İstəklim...

Ömür bəy duruxdu. O xəyalında, yalandan da olsa Altıntellini başqasının "əzizi, istəklisi" adlandıra bilmirdi. Axı məktub özgənin adından yazılırdı.

– Yaxşı... Nəyi məsləhət bilirsən, onu yaz...

Əsəd də gənc idi, sanki əmoğlusunun ürəyindən keçənləri duydu:

– Hə... Yazıram. İstəkli Altıntelli...

– Bu yaxşıdı... Yaz ki, gecə əl-ayaq çəkiləndən sonra qapıya çıx, sənə deməli ikicə sözüm var. Gözləyəcəm.

– Sonra?

– Daha nə sonra?

– Bəs kim yazıb?

– Kim?

– Hə...

– Kim? Kim... Nə bilim. Qoy elə adsız olsun. İnanılmış olar. Axı heç bir ad bilmirəm. Uydurmayacam ki!.. – son sözləri qəzəblə dedi.

Əsəd onun kimə və nəyə acıqlandığını bilmədiyindən təəccüblə baxıb sakitcə dedi:

– Yaxşı, day acığın niyə tutur, Ömür?



Ömür doğrudan da niyə əmoğlusu ilə acıqlı danışdığının səbəbini özü də bilmədiyindən utandı. Əsədi qucaqlayıb öpdü, taxtın üstünə yıxıldı:

– Heç özüm də bilmirəm.

Əsəd də məktubu bitirib qatladı. Gəlib onun yanında əyləşdi:

– Sağ-salamat çatsın sahibinə. İşimiz də avand olsun. Kağızı mən özüm göndərsəm məsləhətdi. Sənin işin olmasın. Uşaqlardan birini tapıb göndərərəm. Sən də Vəliynən qalan hazırlığı görün. Uzatmayın.

Onlar sonra da bütün incəliklərinə qədər görəcəkləri işləri bir də düşünüb ayrıldılar.

* * *

Altıntelli heç bilmədi ki, məktub onun əlinə necə keçdi. Qəsəbənin bütün uşaqlarını az qala qırxlısınacan, üzdən tanıyırdı. Amma şövgədə məktubu əlinə kim dürtdü – başa düşmədi. Yanından bir neçə oğlan çox cəld keçirdi. Ona toxunan da oldu. Cəld uzaqlaşdılar. Üzünü də görmədi; çoxluğun içində boyunu da bəlləyə bilmədi. Heç əlinə dürtülənin nə olduğunu bilməyə də macal tapmadı. Ürəyi əsə-əsə evə gəldi. Çırağı yandırıb baxdı. Əsgiyə düyünlənmiş kağız idi. Açdı. "İstəkli Altıntelli!.." İstəkli!.. Kim olar bu? Görək nə yazır? "Gecə əl-ayaq yığılandan sonra qapıya çıx! Sənə ikicə kəlmə sözüm var". Bəs kimdi bu sözü olan? Odur! Odurmu? Ondan başqa kim ola bilər? O yazar! O bilir ki, ondan ayrı qərarım yoxdu. O bilir ki, ondan özgə heç kəsim yoxdu. Hardan bilir? Könlümdə danışdıqlarımı Allahım ona çatdırmayıbmı? Ürəyimdə danışmışam onunla... Atam da danışıb axı! Bilirəm. Anam dedi: "Gör kişini bala dərdi nə günə qoydu? Bala dərdi nə yaman dərdimiş? Bala dərdi! Bala dərdi! Dağ kimi kişini çöpə döndərib. Deyir o gün. Birdən elin ağsaqqalları yığıldı gəldi, üz vurdular mənə. Nə deyim onlara?" Deyirəm: "Deynən deyiklisi var... Deynən könlüm özgəsinədi... Deynən nəzirlidi..."

– Kimi deyim? Kim var ki, dövrəmizdə onlar tanımaya? Uzaq ellərdə qardaşım yox, bacım yox ki, "oğlunu gözləyirəm" deyəm. Kirvəm yox, "balasına göbəkkəsmə eləmişəm" deyəm. Başıma hansı qayanın daşını töküm? Hansı dağın qarını ələyim?

Mənim də gücüm gözümə çatır. Tökürəm leysan kimi. Ürəyi oycanlanır fağır kişinin. "Bəsdi, deyir, məni dindən-dondan eləmə! Allah bilən yaxşıdı. Bircə balamız xoşbəxt olsun təki".

Sən bu nə iş idi gətirdin qoca vaxtımızda başımıza, bala? Neynəyək axı? Atana "yox" deyəndən sonra ellərin balasını zornan tutub saxlaya bilmərik ki, burda?

Deməli atam deyib ona, o da "yox" deyib. Bəs indi bu nə kağızdı yazıb? Bəlkə, fikri dəyişib? Bəlkə, atama "hə" deməyə utanıb? Bəlkə, mənə ayrı deməlisi var? Çıxaram, görsəm o deyil qayıdaram, heç sözünə də qulaq verməram. Amma öz paltarımda çıxa bilmərəm. Gərək dədəmin paltarından geyinəm. Düzdü, başqarışıqlıqdı, hamı Yetimgildədi, amma genə qayıdıb eləyən olar. Məni gecə vaxtı xalxın oğluynan doqqazda görən olar... Sonra kimin ağzını beş ərşin beznən bağlayacaqsan?"

Doğrudan da, camaat Yetim İmanqulugildə yeyib-içməkdəydi. Məşhədə birləşməkdə olan kəndin ağsaqqalları ona əl tutmaq üçün özləri heyvan kəsmiş, Yetimin qapısında qazan asdırmış, sonra da yığılıb gəlib ətdən yemiş, sünnət olunan uşağın əlinə azdan-çoxdan pul da verib dağılışan dağılmış, dağılışmayan gecə yarıyacan hələ İmanqulugildə söhbət vurur, "Şahnamə"xana, "İskəndərnamə"xana qulaq asır, nağıl, rəvayət, lətifə danışıb gecəni keçirirdi. Yarməhəmməd də oradaydı. Xörək bişirməkdə arvadlara əl verən, çörəyə köməkləşən qadınlara qoşulan Suyunbikə də oradaydı. İndi-indi xörəyi paylayıb qurtarmış, əl-ayaqlarını yuyub evin aşağı başında dəstələşib oturmuş arvadların cərgəsindəydi. Ağrıyan belini divara dayayıb əyləşmiş, dirsəyini dizinin birinə dayaq vermişdi. Danışanlara qulaq versə də bir canı Altıntellinin yanındaydı. Qız uşağı, gözəl-göyçək, evdə tək... Allah eləməmiş kimi qorxar-elər... Düzdü, qorxacaq qız deyil. Düzdü, uşaqlarla, qız-gəlinlə çıxdı İmanqulugildən. Amma hər halda ananın canı evdəydi. Ananın ürəyi səksəkədə idi. Qulağı səsdə idi. Elə bil indicə onu çağırıb Altıntellidən yana nə isə pis bir söz deyəcəkdilər. Ana ürəyi bunu ona xəbər verirdi. Amma nəydi bu pis xəbər? – deyə bilməzdi. Belə hallarda hadisə baş verdikdən sonra deyirdilər: "Ürəyimə dammışdı". Bax, indi qızı Altıntelliyə nə isə ola biləcəyi ehtimalı ananın ürəyinə dammışdı. Bu yalnız analara xas olan bir hissdir ki, ona irəlicədən duymaq qabiliyyəti deyilir.

Altıntelli qətiyyətlə inanırdı ki, məktubu ona mütləq dərviş – tələbə Zeynalabdin yazıb. Ayrı kim ola bilərdi axı? Onun bütün varlığı bu gəncin xəyalı ilə dolu olduğundan, qəlbi belə bir çağırışa hazır idi. İnsan belədir: ürəyinə ən əvvəl məhz özünün arzuladığı, özünün istəklərinə uyğun fikirlər gəlir. Ağlında olmayan, fikrinə də gəlmir.



Anasınınkı kimi bir hiss Altıntellinin də ürəyinə dolmuşdu. Ona elə gəlirdi ki, bu evdən, bu doğma divarlardan, bu əziz, adət etdiyi əşyalardan həmişəlik ayrılır. Əslində "ayrılır" sözü nə dilinə, nə də fikrinə gəlmişdi. Amma hazırlıq gördükcə əlləri əsirdi, ürəyi titrəyirdi, dizləri girdən qalırdı. Atasıyla anasının yatdığı otağa keçdi. Əlbəttə, yük yığılıydı. Gecə düşməyə başladığından qız, adəti hərəkətlə atası ilə anasının yerini saldı. Mütəkkələri, yastıqları, balışları hamarladı. Əli bu balışlara dəydikcə sanki axırıncı dəfə ata və anasını sığallayır, tumarlayır, titrəyir, kövrəlirdi. Kövrəlməsini isə indicə yad oğlanla görüşə çıxmalı olduğuna, cürətinə, el şəmatətinə, ağızbüzmələrə, görüb söz düzəldənlərdən qorxmasına yozurdu.

Altıntelli yorğan-döşəyi tələsik də olsa, adəti səliqə-sahmanı ilə salandan sonra atasının çoxdan geymədiyi bir dəst tuman-köynəyini götürdü. Lifəli bağlı tuman qadın çaxçuru kimi gen bol idi. Geydi, qotazlı bağları dartıb belinə möhkəm bağladı. Bu əlvan qotazları atasının tumanı üçün keçənlərdə o özü düzmüşdü – düzəltmişdi. Sonra da gecə ayazında, onsuz da titrədiyindən, titrəməsi azalsın, üşüməsin deyə köynək üstündən arxalığı əyninə taxdı. Amma arxalıq əyninə o qədər gen gəldi ki, belinə kəlağayısından qurşaq sarımalı oldu. Sonra da qırx kakil – altın tellərini yığıb başının ətrafında hörmələyib düyümlədi və atasının köhnə börkünü başına basdı. Doğma anası da bu licimdə onu görsəydi, yəqin ki, tanımazdı. Heç kəs bu cilddə kənd adamı tanımadığından kimliyin görən də olsa, tanımayacaqdı. Vaxt keçirdi. O, gəncə nə deyəcəyini düşünmək istədi. Bacarmadı. Çünki qarşıdakı söhbətin mövzusunu bilmirdi. Ondan nə soruşacaqdılar ki, nə də cavab versin – bilmirdi. Ona nə təklif edəcəkdilər ki, qəbul eləyib-eləmədiyini söyləsin. Nə düşünüb, nə danışacağını müəyyənləşdirə bilmədən həyətə çıxdı. Çöldə səs-səmir yox idi. Haradasa bu yaxınlarda bir at kişnədi, bir başqası da ona cavab verdi. Sonra at ayağının tappıltısı eşidildi, sonra uzaqlaşdı. Haradasa dolğun aya hürən itin ulartısı eşidildi. Bu da susdu. Evin ətrafına sükut çökdü. Ay buluda girdi. Qız bir az gözlədi. Qoy ay buluddan çıxsın, sonra o da qapıdan çıxar. Qaranlıqdan qorxmasa da, indi üşənirdi. Ay çıxar, onunla birlikdə Altıntelli də şövgəylə, daldala çıxar qapıdan. Əlini darvazanın çəkicindən çəkməz. Eləcə qapının kölgəsində dayanar. Görən olsa? Ürəyinin tappıltısını qulağıyla eşidirdi. Elə bil ürək deyil, çəkic idi, küt bir şeyə tappıltıyla vururdu.

Ata-anasının da vaxtsız gəlib onların görüşünə vaqif olmasının qorxusu qızı tələsdirirdi. Darvazanı açdı, üsulluca başını bayıra uzatdı. Sağa

baxdı, kimsəni görmədi, qapını çevirib arxasına baxmaq istəyəndə, nə olduğunu düşünməyə macal tapmamış qamarlandığını, harasa dartıldığını gördü. Bağırmaq, köməyə çağırmaq istədi; amma onu qamarlayanlardan birinin əli elə bu andaca ağzını möhkəm qapadı. Başı kiminsə qoltuğunun altına soxuldu. Gözləri qapandı, nəfəsi tıxanmağa başladı. Çapaladı-çapaladı, qurtara bilmədi... Birdən dörd əlin onu at üstünə qaldırdığını duydu. Onu kiminsə bədəninə sarıdılar. Və at götürüldü. Ağlayırdı... Səssizcə ağlayırdı. Əvvəlcə ona elə gəldi ki, bu elə dərvişin özüdür. Pis adammış, nadürüst imiş, onu rüsvay eləməyə aparır... Lakin xısıltılı pıçıltılardan birсə şey ayırd edə bildi. Pıçıldaşanlardan birinin dilindən Ömür sözünü eşitcək hər şeyi anladı. Bildi ki, onu aparan Ömür bəydir. Səs də, deyəsən, Əsədin idi. Başına nə gələcəkdi, hara aparırdılar? Zorla aparılan ömründə bir o olmayıb. Amma ölsə də ondan Ömür bəyə arvad olmayacaq: "Öldürəcəyəm özümü. Yəni öz-özümə də gücüm çatmayacaq? Çaya tullanacam, asacam, yandıracam özümü. Amma o namərdə, o nadürüstə arvad olmayacam. O məni özünə arvad eləyə bilməyəcək! Hələm məni yaxşı tanımır. Aparmağa nə var ki, apara bilər. Bir qızı bir neçə qoluzorlu kişi yerindən qalxızıb apara bilər. Ömür bəyin gücü Altıntellinin canına çatar, ürəyinə yox!"

Qız uşaqlıqdan tanıdığı Ömür bəy tərəfindən aparıldığını anlayanda, özü haqqında ölüm hökmü verəndən sonra daha sakitləşdi. Əgər anlamadığı səbəblərdən onu dərvişin oğurladığını düşünsəydi, dərdi birə-on artardı. Axı nəyə aparsın? Atam ki, məni ona özü verirdi. Özüm öz dilimlə ona ürəyimi açıb bildirdim, – düşünərdi, – məni neyçün zorla aparsın? Yəqin rüsvay edib, çöllərə atıb gedəcək yoldaşlarıynan. Amma onu dərvişin – Zeynalabdinin deyil, Ömür bəyin apardığını anlayan kimi, xilas ola bilməsə, özü haqqında ölüm qərarı verdi və sakitləşdi.

Bir müddət beləcə çapıb getdilər. Gecənin havası sərin olsa da, duymurdu. Yaxşı geyinmişdi. Amma ağzını tələsikdə çox nahamar bağlamışdılar. Nəfəsi darıxırdı... Başını nifrət etdiyi və bağlandığı bu bədənə söykəyib itələndi və sarğını boşaltmaq istədi. Bacarmadı, hiddətlə inildədi. Atlı atın başını çəkib saxladı:

– Ə, Əsəd, bu batmışın ağzını aç day. Kənddən uzaqlaşmışıq. Hayı hara çatacaq? Qoy nə qədər istəyir bağırsın! Eşidən olmayacaq. Sonra boğular, boğulmamış.

Gülüş səsləri gəldi. Onlara bir atlı yanaşdı. Ağzına bağlanmış yaylığı açdı:



– Acığın tutmasın, ay qız! Gör səni bir necə oğlana aparırıq. Özün razılıq versəydin, incitməzdik səni axı...

Nəfəsi açıldı. Qolları hələ də Ömrün belinə sarıqlıydı.

– Ömür, qollarını da açım?

– Hələ yox! Çırpınıb-elər, atar özünü yəhərdən... Sonra çölün düzündə, gecənin qaranlığında qaşdı-tutdu oynayaq gərək. Əvvəlinci mənzilə çataq, orda açarıq. Özümüz də dincəllik.

Qız heç danışmırdı; cınqırını da çıxarmırdı. Qəzəbini içərisinə salmışdı. Onun sükutu, dillənməməsi oğlanları şübhəyə saldı. Qızın özü haqqında hökmündən, qərarından xəbərsizdilər. Bir neçə qədəm sakitcə at sürəndən sonra bu dəfə Əsəd əmoğlusunu səslədi:

– Ə, Ömür, bunun heç səsi-zadı çıxmır... Ölüb elər a... Cəncəlinə düşərik...

Ömür güldü:

– Yox əəə... Ölmək nədi? Bir az əvvəl nəfəsi tıncıxmışdı. Kürəyimin ortasına bir kəllə vurdu, sən ölmə, indi də ağrıyır.

Güldülər... Gecənin qaranlığında xeyli getdilər. Günirəlidən Daşaltı arxacında seçdikləri mağaraya gəldilər. Bu gün burada qalmalı idilər. Qoçana – qazinin yanına sabah axşamüstü gedəcəkdilər. Odur ki, irəlicədən seçdikləri mağaraya su və yemək ehtiyatı, üstündə əyləşib dincəlmək üçün palaz, döşəkçə qoymuşdular.

Onlar mağaraya çatanda artıq hava aralanmışdı. Atlardan endilər. Yalnız bu zaman oğlanlar Altıntellinin əcaib geyimini görüb qəşş edənəcən güldülər; xüsusilə Əsəd:

– Bu nədaaz? Bu nə geyimdi? Palçılığa gedirdin? Çobançılığa gedirdin? Hara yaraqlanmışdın aaz?

Ömür də ona qoşuldu:

– Qoşulub qaçmağa çıxmışdı. Amma gəlin atlandı, qismıəti hansı qapıya düşməkdi, onu Allah bilir. Allah da bizi məsləhət görüb.

– Ayy səni qız! Əəəə, mən ölüm bir bunun tumanına bax, arxalığına bax, qurşağına baaaxxx! Nə Əşrəf xanımın yeridiii! Gülməkdən ürəyi gedərdi... Aaaz, Yarməhəmməd əmimi soymusan ki.

Ömür də gülürdü: Amma ürəyinin bir yerində qısqanclıq arı kimi onu sancırdı: "Doğrudan da kimin üçün yaraqlanıbmış? Kimə qoşulub gedəcəkmiş, görəsən?"

Əsəd qızın yaxasını əldən buraxmırdı:

– Sən canın Telli, bu nə yaraq-əsbabdı? Kimindi? Dədənindi? Yarməhəmməd əminin köhnə-küləsini hardan eşələyib çıxartmısan, ay qız?

Altıntelli cavab vermir, acıqlı-acıqlı baxır, onun qəzəbilə oynayan Əsəd isə əl çəkmirdi:

– Aaz, dədənin özündən bürovuz almısan yoxsa? Yanı dədən bilirdi qaçmağını?

Ömür bəy gülə-gülə əmioğlusunu susdurmağa çalışdı:

– Əəə, Əsəd, mən ölüm, qayınatama sataşma. Qadasını alım qayınatamın, yaxşı dedikcən yaxşı kişidi. Məni də çox istəyir. Bilirəm.

Altıntellini elə bil ilan çaldı: "Yoxsa atam da bunlarnan əlbirdi? Nə bilmək olar? Bir balasıyam, bəlkəm, eldən-obadan köçməyimi, elin içindən uzaqlaşmağımı istəməyib, bunlara könül verib?! Bilirəm, düz deyir bu nadürüst. Meyli bunnara idi, amma belə iş tutmaz dədəm. İnanmıram! Məni çox istəyir. Görmədin dərvişnən necə danışdı? Heç ata eləməz o işi ki, o elədi. Amma çifayda? Neynəyəsən?! Mənim də talahıma bu yazılıbmış", – düşündü. Hər halda qızın qəlbinə atası haqqında bir şübhə girdi. "Bəlkə də, bəlkə də atam bunlara könül verib? Mənə görə, anamın göz yaşlarına görə. Anamın mənsiz ölməyindən, dərdimnən çərləməyindən, vərəmləməyindən qorxub bəlkə..."

Cavanlar qızın qəlbindəki tufanlardan bixəbərdilər, gülürdülər.

Altıntelli dözmədi; qəzəblə qışqırdı:

– Heç gülməyin. Məndən Ömür, sənə heçcə nə olmayacaq.

– Gic-gic danışma, aaz! Necə yanı olmayacaq? Adın çıxdı, canın da çıxacaq. Yeznəm Vəli, qazıynan danışıb, bu axşam səni aparacam qazının qulluğuna. Kəbinini kəsəcək mənə, qurtarıb gedəcək.

– Qalmayacam!!!

– Qalacaqsan, gözün də çıxacaq. Bir neçə gün Ömür bəylə çöllərdə, mağaralarda qalan qızı başqa oğlan demirəm ha... heç Yarməhəmməd əminin özü də qəbul eləməz. Səni it dəymiş tikə kimi elə murdarlamamışam ki, bir də adını çəkən olsun. Mənimsən, qurtarıb gedib.

– Yanı bu yer üzündə bir qeyrətli kişi, yanı bu göy üzündə qadir Allah yoxdu?!

Qız bu sözləri elə bir qəzəb, qeyz, fəryad, aman dolu səslə hayqırdı ki, sonralar Əsəd, Ömür bəyə deyirdi ki: "Elə bil damarlarımda qanım dondu. Az qaldım, qəməni çıxardıb, onu sənin əlindən alıb buraxam. Alnından öpəm. Get bacım! Heç kəsin səninlə işi ola bilməz. Dünya qeyrətli kişidən, göylər qadir Allahdan xali deyil, demək istədim".

Oğlanlar bu qışqırtıdan sonra xeyli müddət susdular; tutqun-tutqun çay-çörək tədarükü görməyə başladılar. Ocaq qalamaq üçün hazırla-



dıqları odunları ortaya töküb tonqal çatdılar. Xurcundan pendir-çörək, soyutma beçə çıxartdılar, süfrəni hazırladılar.

Bütün bu müddət ərzində qaya dibində dizlərini qucaqlayıb oturmuş Altıntelli cınqırını da çıxarmadı. Elə bil bütün qəzəbi o bir cümlədə söylənib qurtarmışdı. Arabir çiyinləri titrəsə də, ağladığı eşidilmirdi. Hıçqırmırdı. Başını qucaqladığı dizlərinə söykəmişdi, üzü görünmürdü. Çay-çörək süfrəsi hazır olanda Ömür bəy qıza yanaşmağa cürət etmədi; başı ilə Əsədə işarə etdi. Əsəd üsulluca qıza yanaşdı. Əlini xəstə çiyninə qoyarcasına Altıntellinin çiyninə qoydu. Qız diksindi. "Ondan nə istəyirdilər?" Oğlan ehmal səslə dedi:

– Gedək, bacım, gəl gedək bir tikə çörək ye!

Qız qurumuş, amma qıpqırmızı qızarmış gözlərlə Ömərə tərəf, sonra da Əsədə sarı baxdı. Yerindən qalxmadı. Tək bircə kəlmə "yemirəm" deyib yenidən dizlərini qucaqladı, alnını da dizlərinə söykəyib, əvvəlki vəziyyəti aldı. Ömür bəy qəzəblə səsləndi:

– Əə, Əsəd, cəhənnəmə yesin. Bir azdan aclıq əsər elər. Yeyər. Bəri gəl.

Cavanlar təmiz, sərin dağ havasında iştahla açılmış süfrəyə əyləşdilər.

## AYRILIQ

Dostlar axşam ibadətindən sonra otağa çəkilib söhbət edirdilər. Zeynalabdinin Məşhəddən getmək məsələsi müzakirə olunurdu. Ziya deyirdi:

– Axı sənə nə oldu, qardaş, yoxsa bizim birimizdən inciyib eləmisən?

Qədir də sözə qarışdı:

– Düz deyir dəəə... Axı deyirdin ki, burada qışı başa vurub, Herata yazda gedəcəksən? Yay hara, bura hara? İndidən yəhərlənmisən ki, gedirəm.

Nurillah deyirdi:

– Düzünü de, əl çəkək yaxandan. Yoxsa elə biləcəyik ki, bizə görə gedirsən. Bizə görəsə, indi qış düşür, zəvvarların ayağı çəkilir, yavaş-yavaş mənzil tutmaq asanlaşır, istəsən sənə ayrı mənzil, lap mədrəsəyə, ziyarətgaha yaxın yerdə hücrədən-zaddan tutarıq.

– Bəlkə, bu kasıbfəndi kənd-kəsək yerini xoşlamırsan?

Zeynalabdinin öyrəşdiyi, qardaş kimi sevməyə başladığı, bu bir neçə ayda onun üçün ən əziz adamlara çevrilmiş dostlarını əsla incitmək istəmirdi. Amma getməliydi. Ürəyindəkilər öz sirri olsaydı, deyərdi də bəlkə. Amma deyildi...

– Siz nə danışırsınız, qardaşlar? Mən sizdən heç vaxt incimərəm. Özünüz bilirsiniz ki, bu inciklik üçün səbəb də yoxdur. Sizin kimi dostları heç yerdə tapa bilmərəm. Amma mən getməliyəm...

Ziyaüddin:

– Tutub bir sözün ucundan "getməliyəm" vəssalam! Axı niyə?

Bu vaxta qədər dinməyən Qiyasəddin gənc dostlarının nəzərlərini cəlb etməmək üçün aralıda durub qulaq asır və susurdu. Birdən Ziya məhz ona cumdu, hücumla mübahisəyə çəkdi:

– Dillənsənə! Hamımızdan böyük qardaşsan, sən də de. Niyə gedir?

– Bəlkə, əsaslı səbəbi var, üzrü var...

– Desin, bilək də...

– Bəlkə, heç deməli deyil? Bəlkə, bu onun sirri deyil.

– Ohooo!.. Sirrə bax!..

– Qardaşlığa bax!

Hamı birdən susdu. Zeynalabdin minnətdarlıq dolu, yalvarıcı baxışlarını Qiyasəddinə zilləmişdi.

Hərə özünü bir şeylə məşğul kimi göstərirdi. Amma hamı bikef oturmuşdu. Biri kitab vərəqləyir, bir başqası dəftər qaralayırdı.

Qiyasəddin düşünürdü: "Deyə bilmir... Deyə bilmir... Başqasının qızını gülünc, adını bədnam eləmək istəmir. Bəzi yüngül cavanlar kimi bununla qürurlanmır da... Gücü özünə çatır. Qəbul eləyə bilmədiyi şey ən ləziz nemət də olsa, qaçır ondan. Tutduğu yol ayrıdır. Neçə vaxtdır, fikir verirəm; hər şeyə yetiklik edir. Acgözlüklə oxuyur. Bütün diqqətilə dinləyir. Görüb öyrəndiyi maraqlı nə varsa, yazır. Deməli, yaradan onu sakit bir ailə başçısı həyatı üçün yaratmayıb. O haqlıdı. Getməlidi. Qalsa, o ailə üçün də rüsvayçılıq olar. Getməlidi. Açıq deyə bilmədiyindən cavan dostlarım ondan əbəs inciyirlər". Bu fikirlərlə də Qiyasəddin ümumi, küskün sükut içində sözə başladı:

– Dostlar, – dedi, – Zeynalabdinin neyçün getmək istədiyinin səbəbi mənə də əyan deyil. Mənə də deməyib. Bunu ona görə deyirəm ki, ondan inciməyəsiniz. Sizdən gizli sözünü mənə deməyini zənn etməyəsiz. Bizim heç birimizdən gülcən inciməditinə mən əminəm. İstəyirəm ki, siz də əmin olasız. Amma o getməlidi. Getməyinin səbəbini



bizə demirsə, deməli, bunun da bir mühüm səbəbi vardır. İncimədən, gəlin əziz dostumuza uğurlu yol arzulayaq. Qoy onun səfəri xətərsiz olsun. Qabaqdan qılınc kimi qış düşəcək. Buradan birbaşa Heratadır yolu. Əynimizdə onun əyninə gələn qalın nə varsa, qoyun ortaya. İnciməyin yeri deyil. Gələn yaz biz də Herata səfər edəcəyik. İnşallah, bir səbəb çıxmasa, dostumuzu Heratda görüb bağrımıza basarıq. Sözsüz-sovsuz...

Zeynalabdinin gözləri yaşla doldu. Qalxdı, uzaq-uzaq ellərdə sorağını belə bilmədiyi qardaşı Məhəmmədəlini qucaqlayırmış kimi Qiyasəddini bağrına basdı.

Ən əvvəl Ziya yerindən tərpəndi. Vərəqlədiyi kitabı yerə qoyub camaxatana yaxınlaşdı. Solmuş, bir neçə yerindən yamanmış, amma qızılı rəngini itirməmiş Xorasan kürkünü çıxardıb Zeynalabdinin ayaqları altına atdı:

– Qiyas girdi qanının arasına, yoxsa sənnən qiyamətəcən danışmayacaqdım.

...Gecəni söhbətdə keçirdilər. Ay aydınlıq idi. Çıraq-zad yandırmamışdılar. Pəncərədən düşən gipgirdə ayın işığında əyləşmişdilər. Dərdləşir, vəsiyyətləşir, düşsə bir-birinə karvançılardan məktub göndərmək və gələn ilin baharında Heratda görüşmək xəyalları ilə sübh azanınacan yatmadılar. Sübh azanını eşidən kimi tələsik hazırlaşıb, karvansaraya yollandılar. Hələ dünən Zeynalabdin karvanın başçısı sarbanla, Herata gedən axırıncı karvanın bəzirganbaşısı ilə də danışmışdı.

Sarban onu başqarışıqlıqda deyəsən, heç tanımadı da. Yükləri çatılmış dəvələr nəriltiylə yerlərindən qaldırılırdı. Sarban nərin ovsarını qoluna keçirib "La ilahə illallah, Məhəmmədən rəsulallah, Əliyyən vəliyullah" deyib karvansara həndəvərindən yola tərəf dikəldi. Ovsarları bir-birinin cahazına bənd edilmiş dəvələr sapa düzülmüş iri kəhrəba, "yağ-bal" muncuqları kimi sıralandılar. Atlı, qatırlı tacirlər, ziyarətdən qayıdan təkbir zəvvarlar karvanın hər iki tərəfiylə miniyini sürməyə başladı.

Zeynalabdin lap axıra qalmışdı. O dostlarından, dostları da ondan qopunub ayrıla, görüşüb qurtara, son görüşdən doyub usana bilmirdilər.

– Səfərin xətərsiz olsun, qardaş!

Biz də "səfərin xətərsiz olsun" deyək, dostlar! Məgər belə səfər birinciydi, sonuncuydu? Qarşıda hələ illər vardı...

## YENƏ ÖMÜR BƏY

Məşhədkənarı kəndə səs düşdü: "Dərviş Yarməhəmmədin qızını götürüb qaçıb". Hamı bir-birinə dəydi. Suyunbikəyə ürək-dirək verən kim, Yarməhəmmədə təskinlik verən kim, atlanıb qaçqınların dalınca getmək, qızı geri qaytarmağı tələb eləyən kim idi...

– Azıblar!..

– Baba, day dərvişə də inanmaq olmur... Azıblar!..

– A kişilər, dərvişdə nə günah?! Qızın öz könlü olmasa, Yarməhəmmədin evinə basqın eləməyiblər ki?! Eləyiblər balam? Eləməyiblər axı!..

– Elədi... Basqın-zad olmayıb... Elə səssizcə...

– Deməli, öz köylüynən olub...

– Deyirəm axı... İnək göz eləməsə...

– Tıss...

– Adə nə tıss? Mən onun yerinə olsam, elə qızı ölmüş billəm. Heç qiyamətəcən adını da çəkmərəm. Çölün gəzəntə dərvişinə qoşulub gedən qız mənim nəyimə gərəkdi? Elə billəm öldü!..

– Yarməhəmməd də səndən əskik kişi deyil...

– Hər halda mənim qızım qoşulub qaçmağa cürət eləməzdi.

– Sənin qızın var ki, qoşulub qaça da?

– Heç oğlun da yoxdu. Nahaq yerə, kişinin onsuz da qanının qara vaxtında yarasına duz tökmə...

– Ona Allah eləyəni eləyib...

– A kişilər, burda Allahlıq nə iş var? Onu qızı eləyib, üzüqara!

– Dünya dünyaya dəyə, mən o qıza üzüqara deyə bilmərəm. Güldən təmiz qız idi.

– Başına dəysin...

– Baş vardı ki? Ağlını oğurlayıblar. Yeyiblər başını.

– Yəqin o dərviş allahdöymüş ifritə qarıdan, əcuzədənzaddan tapıb, qızı yoldan çıxardıblar... Yoxsa o yolun qulu qız deyildi...

– Dərviş də nissə[1] çıxıb, balam!

– Hə... Hacı Tahirgilə dəydim, o qalan dərviş tüllablar deyir ki, "haşa məkəlla, qız nədi, o nədi. Bu sabah üzü özümüz onu tək-tənha karvana qoşub Herata yola salmışıq". Qız harda, o harda?

– Yalan deyirlər zındıqlar.

[1] Yoxa çıxıb



– Bəlkə də, elə onlara da elə deyib iz itirməkçin. Özü də qızı karvanda qarıya-qocaya qoşub. Üz ürbəndli – kim kimədi?

Bu sözlərin bəzisi arabir qulağına dəyən bədbəxt ana, bilirdi ki, heç dərvişdə də, əcuzə qarıda-zadda da iş yoxdur, ifritəlik deyil. Qız öz ürəyinin hökmüylə gedib...

İşin əslindən bixəbər, Altıntelliyə uzaqdan-uzağa heyrət qarışıq fərəhlə tamaşa eləyən dəliqanlılardan bəzisi atlanıb, dərvişin gedə biləcəyi yola tərəf çapdı. Bəzisi karvan yoluna düşdü. Bəzisi də deyinirdi:

– Yarməhəmməd əmi özü dillənmir ey... Dillənsin, versin fitvasını, gedim cırım o dərvişin qarnını, qaytarım qızı...

– Əşi, Yarməhəmmədi o namısda adam bilirsən? Bəyəm o bir gecə-gündüz yad oğlanla çöldə qalan qızı qəbul eləyər?

– Namusu itə atıblar, it də toxunmayıb. Haram olsun bu dərvişlərə elin çörəyi. Gəlirlər, Allah qonağı, Allah adamı bilib evə buraxırsan, bu da axırı... Bu da çox sağ olu...

– Hələ çox şey gələcək başımıza.

– Balam, biz kətçi babayıq, kirayənişin neynirdik?

– Zəmanə dəyişib... Qardaşın qardaşa ehtibarı qalmayıb. İlla da ki, yad, buğuburma cavan dərviş ola, cavan da qız...

– Ay balam, nə düşmüsüz üstünə, kirayənişini Yarməhəmməd bədbəxt saxlamayıb ki! Qonşuya qadağa verəcəkdi yanı?

– Qonşuda da insaf ola gərək...

– Yazıq Hacı Tahir nə bileydi, bunlar nə yuvanın quşudu?

Ömür bəyin güləş, çılğın, dilli-dilavər əmiqızısı başında içi paltar dolu tabaq çaydan gəlirdi. Yarməhəmmədgilin qapısına çatanda, adamların çoxluğunu görəndə intiqam vaxtının yetişdiyini duydu. Onun gül kimi əmoğlusuna könül verməyən qızı, qızına əməlli tərbiyə verməyən anası Suyunbikəni rüsvay eləmək vaxtı çatmışdı. Əşrəf xanımın dili işə düşdü:

– Hə!.. Belə olar da!.. Qızını döyməyən, dizini döyər. Elin gözəl-gözəl, qeyrətli cavanlarını, çörəkli külfətlərini bəyənmədilər, çölün qapılargəzən, dilənçi dərvişinə verdilər... Bu onun anasının işidi, anasının! Ha... ha... ha...

Köynəyi var qırmızı,
Ətəyinə tökdüm duzu.
Kül başuva, ay anası
Dərviş apardı qızı...

Qəhqəhə qopdu. Yarməhəmmədin ailəsinə ürəyi yananı da gülmək tutdu. Acımayan da güldü, acıyan da.

Mədrəsə tərəfə gedən bir oğlan qayıdıb gəldi. Camaatın nə üçün gülməyini bilmirdi. Təəccüblə adamların üzünə baxa-baxa dedi:

– Ağa deyir, o dərviş oğlan üç gündü burdan çıxıb gedib. Bu gecə yox ey... Heç dünən də mədrəsəyə gəlməyibmiş.

Maraqlananlardan bir neçəsi gülməyini kəsib oğlana yaxınlaşdı. Onun dediyinə yenidən qulaq asdılar. Yenidən atmacalar başladı:

– İz itirməkçün eləyib. Bəs yoldaşları bayaq deyirdi, bu gün-sabah üzü karvanla yola salmışıq? Sən də üç gün deyirsən?

– Kor gözlərdən yaylıq asıb ki, guya onun xəbəri yoxdu...

– Deyir ki, mədrəsəyə, dərsə üç gündü gəlmir.

– Qəsdən eləyib... İz itirməkçindi...

– Bəlkəm elə bu aralardadı, gizləniblər, ara sarxaşanacan...

– Bundan sonra mən olan evimə, həndəvərimə, lap elə qonşuma da dərviş buraxam ha... Dədəmə lənət...

– A balam, dərviş neynəsin axı?.. Adam qızına bir qoruq-qadağa qoyar axı... Elə yerdən bir qarış qalxmamış günü evin damında keçirdi. bostanda, bağda keçirdi. Görürdün elə əlini tovlayıb oxuyur:

Ay qara oğlan,
Çıx damda tovlan.
Qoy qızlar görsün,
Dərdindən ölsün.

Bax... aaaxxxaaa!.. Onda ağlamaq lazım idi qızın gələn gününə. Keyfinə dəymirdiz, bircə dənəydi... Bu da axırı...

– Hə, balam, düz sözə nə deyəsən?

– Allah amanınızı üzsün. Qəzavü-qədərdi bu... Yoxsa o qıza hər ana canın qurban elərdi. Onun kimi əl tutan, könül oxşayan, dada çatan, ürək açan bircə də özüydü. Salamlı-kalamlı, dilli-tavazalı. Onda hamınız deyirdiz: "Allah verəndə də beləsini versin adama. Birdi... iii – pirdi". İndi nooldu? İşin vecini bilməmiş nə düşmüsüz qarğa-quzğun kimi bu bədbaxtların üstünə? Qarğa kimi göz deşirsiz! Açıq yaraya duz səpirsiz. Allah adamın başına daş salar... Dağılışın evinizə!..

Əhli qarıydı danışan. Burda dayananların çoxunu öz əliylə tutmuşdu. Dünyada neçə il ömür elədiyi heç kəsin yadında deyildi. Kimdən soruşsan bir cavab eşidərdin:



– Yaşı? Əhli qarının? Bir Allah bilir. Gözümü açıb onu belə görmüşəm. Nənəmizdi, nənəmiz...

Altıntellinin də, onun atasının da, anasının da nənəsiydi Əhli qarı.

Məşhəddə onun sözünün qabağına söz deyən, çöpünün qabağına çöp atan olmamışdı.

İndi də elə oldu. Adamların çoxu üzüsulu qapıdan aralandılar.

– Sən də çıx get, apar paltarını sər. Uşaqların cikkə çəkib ağlayır indi evdə. Yeri, yeri... Xalqın qızı sənin qardaşını – əminoğlunu bəyənib getməyib, özgəsinə ürək verib deyin, ata-anasını öldürməyəcəksiz...

Əşrəf xanım Əhli qarını yaxşı tanıyırdı. Onunla dilləşmək hünəri deyildi. Bununla belə, tabağı başına qaldırıb dikəldi, dodaqaltı deyinə-deyinə Yarməhəmmədin qapısından uzaqlaşdı:

– Cərə getmədi, cəhənnəmə getmədi. Ağ dolağım sağ olsun, tapılmayan qız olsun! Əmoğluma nə gəlib ki! Ata-anasının da cəzasıdı – çəksin! Qızını döyməyən dizini döyər. Düz deyiblər... Qadam onlara da, onların qızdarına da...

Əhli qarı, Məşhəddəki bütün evlər öz eviymiş kimi hamısına bələd idi. Hikkəylə Yarməhəmmədin qapısından içəri girib, yır-yığışa başladı. Ocağı qaladı, qara aftafanı dəmir millər üstünə mindirdi. Ev yiyələrindən heç birinin üzünə baxmadan deyinirdi:

– Ağlınızı başınıza yığın. Bu nə qəm dəryasına batmaqdı? Azarramayıb-eləməyib. Nə var Allaha şükür? Tarı onsuz da qızın çörəyini itgin, didərgin eləyib. Bəlkə elə təlahı budu? Allahı yazıb alnına, gözəl Allahı? Allahın da vecinə gedəcəksiz? Durun əl-üz yuyun. Çaydan-çörəkdən yeyin. Adam heç əziz ölənin dalıycan ac qalıb özünü öldürmür. Onda ki, qoşulub qaçan qız ola! O gözəl Allahı ki mən tanıyıram, Altıntelli kimi qızı bədbəxt eləməz, inşallah! Bir də görərsiz heç bir il keçməmiş budu, gəldi mənim yanıma: "Nənə, apar bizi dədəmnən-nənəmnən barışdır". Qucağı körpəli, yanı qayınanaqayınatalı, arxası qayınlı-baldızlı? Mən özüm də o dərviş oğlanı çox görmüşəm mədrəsəyə gedəndə. Heç pis oğlan deyil. Əhli adamın balasına oxşayır.

Ey yiyələri qarının cavabını vermədən üzlərinə su atdılar. Qaynatdığı çaydan, süfrəyə gətirdiyi çörəkdən yeyib-içdilər. Ata çubuğunu doldurub, dinməz-söyləməz çəkməyə başladı. Ana da ürəyində qarının hər sözün: "Amin! Allah ağzından eşitsin! A imam-Quran sahibi, Allah o dünyanı versin, axirətini kamil eləsin!" – dedi.

Axşama doğru at minib dərviş dalınca gedənlər qayıtdılar. Dörd yol ayrıcında dörd çaparxana, karvansara, düşərgə, ovdan-mənzil, yol yolçusu, karvan... nə vardısa, hamısından soraq tutmuşdular. Bu bir gecəgündüzdə dərvişlə gedən qız xeylağına rast gələn olmamışdı. Heç yerdə dərvişlə qız irizinə düşə bilməmiş, əliboş qayıtmışdılar. Hamı bu fikrə gəldi:

– Yəqin, dərviş gün irəlidən bu ətrafda kiməsə pənah gətirib. Sonra da qızı aparıb qoyub ora. Özü də gizlənib. Kəbini kəsiləndən sonra üzə çıxacaq. Götürüb aparacaq məmləkətinə, ya da gəlib Yarməhəmmədin əl-ayağına düşəcək, barış-görüş olacaqlar. Qurtarıb gedəcək. Bəzi oğulsuz Yarməhəmmədlə Suyunbikəyə yazığı gələnlər ürəklərində hətta sevinirdilər də.

– Olsun, olsun! Təki elə olsun. Yazıq kişinin yanında qalar, dərvişlikdən əl götürər, kişiyə oğul olar. Az olub dünyada belə işlər bəyəm?

Amma işin içini bilən, əsil həqiqətdən xəbərdar olan Yarməhəmmədlə Suyunbikə bilirdi ki, belə deyil. Qızı heç də dərviş aparmayıb. Əgər onun belə fikri olsaydı, hazır elə Yarməhəmməd özü onunla danışanda bədbəxt ataya "hə" deyərdi. Day bu biabırçılıq nədən ötəriydi? Yox, burada nə isə başqa bir iş vardı. Onu bilən yox idi...

## QAZI

Qazıya pənahəndə gəldiyini xəbər verdilər. Qəzavət otağının yuxarısında döşək üstündə əyləşib, püştüyə söykənmişdi. Qəlyan çəkirdi. Qəlyanın xırdaca qəmişini saralmış bığ və saqqal örtmüş ağzından çıxardı, həmişəki işarəsini verdi. Nökər anladı: qızı əndəruna – arvad-uşaq olan otağa, oğlanı isə onun yanına gətirmək lazımdı. Nökər çıxdı. İçəridə bir neçə adam var idi, qarşıdakı ramazan – orucluq ayının vacib məsələlərini məsləhətləşməyə gəlmişdilər. Qoçan qəsəbəsinin tanınmış adamları idi. Divar boyu palaz üstündə döşəkçəsiz-filansız diz üstə əyləşmişdilər. Kimisi qəlyan, kimisi demi-çubuq çəkirdi. Axşamın alaqaranlığını azacıq qovan zəif bir lampa otağı güclə işıqlandırırdı. Bir az da qəlyan və demilərdən çıxan tüstü otağın şövkəsini artırmışdı. Divarda qazının başı üstündə bir əlvan şəkil var idi. Şəkil üç insan təsvir edirdi. Ortada əyləşən dolğun bədənlinin paltarı mixəyi, yanlarda əyləşənlərin biri al qırmızı, digəri yaşıl libasdaydı. Hər üçünün də sifəti ağ "cuna ilə örtülü" çəkildiyindən üzləri bilinmirdi. Amma dini



rəvayətlərə əsasən bunlardan ortada əyləşən, şiələrin birinci imamı Əli, zəhərlə öldürüləcəyindən yaşıl geyimlisi ikinci imam Həsən, xəncərlə öldürüləcəyindən qırmızı geyimlisi üçüncü imam Hüseyn idi. Guya əzəl çağında ruhlar, Yaradıcıya müsbət cavab verəndə o imamların da taleləri alınlarına yazılmış və peyğəmbər də sonra bunları səhabələrinə xəbər vermişdi. Odur ki, islamiyyətcə insan təsviri çəkmək qadağan olunursa da, rəssam imamları üzüörtülü çəkməklə bu işin içindən çıxmış və hər halda dini əfsanəni geyimlərin rəngində saxlamışdı. Belə-belə şəkillər islam ölkələrində lap təzə-təzə yayılmağa başlayırdı.

Daha bundan başqa qazı Seyid Sədrəddinin qəbul otağının divarlarında heç bir şey yox idi. Buraya gələnlər məsləhətə, diləyə gəlirdi. Söhbətlər azacıq uzananda və ya qazının könlü çay istəyəndə bütün bunlar ona içəri evdən – əndərundan gətirilirdi.

Qazının qənşərində rəhil var idi. Rəhilin üstündə bir dinə müzəyyən Səmərqənd işi Quran, yanındakı qoz ağacından düzəlmiş yaraşıqlı qutunun üstünə bir neçə təfsir, qissəs, hədis kimi kitablar yığılmışdı. Qazı hər hansı bir məsələdə şübhə oyananda həmin kitablardan birini qaldırıb baxır, şübhəsini dağıda bilən bu və ya başqa dini qaydanı bir də gözdən keçirirdi. Doğrudur, qazı Seyid Sədrəddinin gözəl yaddaşı var idi, həmin kitabları da az qala əzbər bilirdi. Amma buna baxmayaraq qazı, həmişə bir şey düşünürdü və ya hardasa belə bir fikrə rast gəlmişdi: "Şübhə biliyin anasıdı". Odur ki, şübhələnən kimi dərhal xəta, səhv etməmək üçün kitablarına müraciət edirdi. Belə hallarda qəlyan tüstüsündən saralıb, qızılıya çalan bığlarını tumarlaya-tumarlaya deyirdi:

– Allah qocalığı fani dünyada köç etməyin birinci pilləsi kimi yaradıb. Bir-bir insana verdiklərini aldıqca, onu imtahana çəkir, xudavəndimütəal. Yaddaş da o cümlədən. Yaddaş ilahinin insanlara, öz qullarına bəxş elədiyi böyük nemətlərdən, möcüzələrdən deyərdim ki, biridi. Bax, qocalanda insanın yaddaşı get-gedə zəifləyir. Belə bir zamanda başqalarının taleyini həll etməli olan adam, əlbəttə və əlif əlbəttə, mütləqa gərək təkcə öz yaddaşına arxayın olmaya. Gərək şübhə doğduğu anda Qurani-kərimə müraciət edə. Qərarını da fəxri-kainat peyğəmbərimizin öz ağzından eşitdiyi səhabələr yazan, nəql eləyən şəkildə, ona uyğun icra eləyə.

Qapı yenidən açıldı. Əvvəlcə nökər, dalınca da Ömür bəy içəri daxil oldu. Salam verdi, məclisdən yer-yer cavanın ədəb salamını aldılar:

- Əleykümməssəlam!
- Axşamın xeyir.
- Xeyir əməllər çıxsın qənşərinə.

Ömür bəy özünü itirib ayaq üstündə dayanmış, qazının hökmünü gözləyir, dururdu. Əllərini bir-birinin üstünə və köksünə qoyub itaətkar bir görkəmlə dayanmışdı. Qazı Seyid Sədrəddin danışmağa tələsmirdi. Ehmallıqla qəlyanını ağzından çıxardıb, ilk dəfə görürmüş kimi diqqətlə və xeyli baxdı, sonra başını hələ də bütünlüklə oğlana tərəf çevirmədən aramla dilləndi:

- İrəli gəl, oğul, gəl əyləş! – qəlyanın qəmişi ilə öz qənşərində, rəhildən bir az aralı yeri göstərdi.

Ömür bəy yavaşca yaxınlaşdı, ədəb məqamında diz üstə çöküb əyləşdi. Qazı ilk sualını verdi:

- Hansı kənddənsən, kimlərdənsən, kimin oğlusan?

Ömür bəy əyləşmiş, əllərini dizlərinin üstündə qoşalaşdırmışdı. Günahkar idi. Utanırdı bu nurani qocadan. Qəzəbini eşitmişdi. Başını köksünə endirib əllərinə və dizlərinə baxır, ürək döyüntüsü ilə başını qaldıra, qocanın üzünə baxa bilmirdi. Ona elə gəlirdi ki, kol-kol olmuş, qəlyan tüstüsündən saralmış bu qaşlar altından ona tərəf dikilmiş nüfuzedici gözləri görsə, özünü saxlaya bilməyəcək. İşin əslini desə qazını qəzəbləndirəcək. Güclə dilləndi:

- Məşhədi-müqəddəsin böyründəki Mahravan kəndindən, Ömürbəylidən, kərbəlayı İsfəndiyarın oğluyam.
- Qız kimlərdəndi?
- Bəlkə də, tanıdız, ya yox, bilmirəm, həmin kənddən Yarməhəmməd adlı bir kişinin...
- Qız başqasına deyikli, nişanlı, siğəli deyildi ki?

Oğlan bütün varlığı ilə etiraz etdi:

- Yox! Yox! Yox! Elə şey olar?
- Olur. Olur. Öz rizasıyla gətirmisən?

Ömür bəy başqa cür cavab verə bilməzdi. Bütün məclisdəkilərin gözü də, qulağı da ondaydı. Amma yalanının səhər, bəlkə də, elə bu gecə açılacağını bilsə də, düşkün səslə cavab verdi:

- Bəli...
- Görünür valideynləri razı deyilmiş?

Sükutu qazı Seyid Sədrəddinin sağ tərəfində küncdə əyləşmiş bir kişi pozmasaydı, Ömür bəy nə cavab verəcəyini bilmirdi. Çünki bir neçə gündən sonra məsələ açılanda qazıya yalan dediyi aydın olacaqdı. Bu



müddət ərzində isə o, qazıdan kəbin kəsməsinə razılıq alacaqdı. Kəbini kəsdirəndən sonra nə olur olsun. Dad heç yana çatmayacaqdı. Axundun acığı tutsa da, Ömür bəyi gəncliyinə bağışlayacaq, məhəbbətin gücünə görə kələk işlətdiyini yəqin ki, anlayıb onu əfv eləyəcəkdi. İndi isə... Hə... indi isə qazının sağında, küncdə oturmuş ağsaqqal sözə qarışdı və bununla da Ömür bəyin imdadına çatdı:

- Qazı ağa! Mən ömürbəyliləri yaxşı tanıyıram. Bu uşaq da rəhmətlik Ömür bəyin nəvəsi, oranın ağır ad-sanlı adamlarından Kərbəlayı İsfəndiyarın oğludu. Onlardan namərd iş çıxmaya gərək. Mən o nəsli yaxşı tanıyıram. Allah xeyir versin. Sənə ki pənah gətirib, xeyirini də görər, inşallah.

Məclisdəkilər bir ağızdan ağsaqqalın duasını təkrarladılar:

- Allah xeyir versin, hər ikisinin valideyni gözüdolusu görsün.

Qazı Seyid Sədrəddin bir söz demədi. Ağsaqqalın müdaxiləsi və oğlanı tanıması onu bir qədər arxayın salsa da, səhər qızı şəxsən özü danışdırmağı qət etdi. Nədənsə oğlan, itaətkar görkəminə baxmayaraq, Seyidin ürəyində bir şübhə oyatmışdı: "Harda oxumuşam o sözü? Şübhə hər cür biliyin validəsidi. Bilməliyəm. Bilməsəm, kəsmərəm kəbinini. Oralara da adam göndərmək çətin məsələ deyil. Havalar pis keçmir... Müridlərdən birini... Lap elə Nəsibi... Göndərrəm. Yaxşı tanıyan da var, yaxşı nəsil... Bəs bu şübhə hardan girdi ürəyimə? Deyirsən nəcibdi, amma nəcabət quşunun qonması üçün onun üzündə yer yoxdu. Baaax, məni şübhəyə salan da, deyəsən budu". Seyid Sədrəddin bu fikirlərlə də aramla söhbətə yekun vurdu:

- Neynək, siz deyən olsun. Axşamın xeyrindən, sabahın şəri yaxşıdı. Sabah səhər sizin hamılıqca xeyir-duanızla bu məsələni də həll elərik inşallah. Hələlik qonağımsız. Get dincəl, oğul! Gecən xeyrə...

Seyid Sədrəddin qazının işarəsilə, qapının cəhəngində dayanmış nökər qapını açdı. Ömür bəy yerindən qalxıb nökərin müşayiəti ilə otaqdan çıxdı.

O gedəndən sonra bayaq söhbətə müdaxilə eləyən, ömürbəyliləri tanıdığını söyləyən qoca yenidən sözə başladı:

- Lap rəhmətlik babasına çəkib. Suratda da, əməldə də. Rəhmətlik beləcə sütül cavan idi mən onu tanıyanda. Ziyarət yollarında, xeyirdə, şərdə rastlaşırdıq. Dostluq binası da qoyduq. Aramızda xeyli yaş təfavütü var idi, amma dil tapmışdıq. Bir-birinin xeyir-şərini ötürməzdik. Bir də eşitdim ki, kişi altmış yaşını tamam eləyəndən sonra bir növrəstə cavan gəlin alıb. Yığışıb getdik Məşhədə. Həm ziyarət, həm də

mübarəkbadlıq. Gördük, sən ölməyəsən kişi çiyindən bir on-on beş yaş atıb, dönüb kəl igidə. Uşaqları da, uşaq deyəndə ki, bığıburma cavanlar, evli qız-gəlin idi balaları. Təzə analarına "beçə məmə" ad qoyublar. Kişinin zəhminin qorxusundan nə uşaqların anası, nə də oğlanları bircə kəlmə söz deyə bilmədi. Özü də qızı çığırda-çığırda götürüb qaçıbmış. Balam gəldi, dolandılar da. Kişi rəhmətə gedəndə həmin o "beçə məmə"dən bir üç-dörd "mafə cınqırovu" var idi. Arvad əri də, qoca günüsü də öləndən sonra ərə-zada da getmədi. Elə günüsünün uşaqlarına da, özününkülərə də indiyəcən yiyəlik eləyir. Deyəsən, bu babasının adı qoyulan Ömür o "beçə məmə"nin törəmələrindəndi. Babasına çəkib, rəhmətliyə.

Yer-yerdən: "Allah rəhmət eləsin" səsləri eşidildi. Amma qazı ağa ürəyinə dolan şübhənin bir az da artdığını mülahizə edib dedi:

– Bura bax, məşədi Ömürmalı, əgəm bu da rəhmətlik babası kimi qızın razılığı olmaya-olmaya, çığırda-çığırda gətiribsə, sən onu bil ki "bəstə"-zada baxmayacağam. Peyğəmbər salavatullahın qoyduğu qanunu bircə misqal pozmaram. Qızın razılığı varsa – o başqa məsələ.

– Əşi, qazı ağa! Cavandı, beyni qandı. Keç, elə də olsa, günahından. Qapına gələni naümid qaytarma.

– Hər nə isə. Dedim ki, axşamın xeyrindən, səhərin şəri yaxşıdı. Hamınıza əyandı ki, mən belə-belə işlərdə Qurani-şərifin hökmündən bir nəfəs qədəm kənara qoymaram.

Uzaq şəhərdə, kənd və qəsəbədə Ömür bəy kimilər bilməzdi, amma buranın adamları yaxşı bilirdi ki, bu qazı başqa axund, molla və qazılara bənzəməyən nadir vücuddur və doğrudan da, kəbin kəsəndə şahid-filan qəbul eləmir. Cavanların öz səsini, qızınkını çadra altından olsa da, özcə qulağı ilə eşitməsə, kəbin kəsməz. Ömür bəyin xətası da buradaydı. Özü də bilmədən həqiqətpərəst, qanunpərəst bir qazıya rast gəlmişdi.

* * *

Qazı Seyid Sədrəddin adət eləmişdi. Namazı arvadı Səliməxatunla birgə qılardı. Arvad ərinə etiqadla onun arxasında durar, cümə günlərində məsciddə, camaat namazında olduğu kimi "imam"ın arxasında namaz qılardı. Sübh namazından sonra qazı bir müddət arvadı ilə birgə canamazın bir qulağını örtüb qənşər-qənşərə əyləşər, canamazdan götürdüyü kəhrəba kimi sarı, beçə balının mumu kimi şəffaf xilil adlı, hil-mixək ətirli bitkinin bir çöpünü qoparıb dişlərinə sürtər, xəbər-



lərini dinlərdi. Bu gün də belə. Adəti sübh namazından sonrakı söhbət idi. Nökər bir fincan qəhvə gətirmişdi. Arvad öz payına süd əlavə etmiş, qazı üçün isə sadəcə qara qəhvə süzmüşdü. Arvad sözlü adama oxşayırdı. Qazı bunu dərhal duydu, xəfifcə gülümsədi. Arvadının adətini bilirdi: ər soruşmasa, öldürsən də, bir kəlmə dilinə gətirməzdi. Ürəyi söznən dolu olsa da, xəbərlər boğazından güc vurub dişlərinin dalından çıxmağa çalışsa da, arvad özünü saxlamağı bacarırdı. Çox vaxt qazı ürəyində fikirləşirdi: "Deyirlər arvadların hülqumu olmaz. Nə eşitdi, ağına-bozuna baxmaz, tullar. Amma bizim Səliməxatun bələlərindən deyil. Dişinin dibindəki sözü də gərək ondan maqqaşla çəkib çıxardasan. Heç bilmirəm bu barədə kimə oxşayıb? Rəhmətlik anasının dişindən mərcimək əylənməzdi. Nə ürəyindəydisə o da dilindəydi".

Qazı soruşdu:

– Hə, Səliməxatun! Allah ölənlərinə rəhmət eləsin, bilmirəm sözbaz olmamaqda kimə oxşamısansa, Allah ona da qəni-qəni rəhmət eləsin. Amma bir demədin axı o gecə evə – bəstə gətirilən qız kimdi, nəçidi, nə yuvanın quşudu?

Səliməxatun kişinin rəhmət dediyi adamlara dərhal "Allah rəhmət eləsin"lə cavab verəndən sonra gülümsədi; ərinin ondan nəyi xəbər alacağını yaxşı bilirdi. Odur ki, hazırlıqlı gəlmişdi.

– Ağam, geyimi bir az birtəhər olsa da, ağıllı qıza oxşayır. Hələmqəlləmə oxşamır. Halal südəmmişdir. Ağam, mən biləni qızın ya ayrı namzədi var, ya nədi. Bu gədə onu zornan götürüb gətirib. Ata-anası da razı deyilmiş, vermirmiş. O da qəfil götürüb qaçıb. Evdə adam yoxuymuş, yanı böyüklərdən heç kim yoxuymuş. Neyçünsə darvazaya çıxanda, qamarlayıb basıblar atın tərkinə, ağamı Allah saxlasın eləyiblər. Əvvəl kahalarda saxlayıblar. Bu biri gecəni də götürüb bura gətiriblər.

– Bəs o əcaib paltar nə olan şeydi dedin?

– Bilirsən, köhnə-külə kişi paltarı var qızın əynində. Görünür, evdə böyük olmayanda qız uşaqları olub, yığılıb oynuyullarmış, ya tağlıd çıxardırlarmış. Nəydisə, soruşdum, qıpqırmızı qızardı, bir söz demədi. Özüm elə belə başa düşdüm. Qızın nimdaşından bir dəst verdim geydi əyninə.

– Əcəb eləmisən, Allah ürəyincən versin. Sənə inanıram, gözün ovçu gözüdü. Yaxşı da anasan, bilərsən, düzünü başa düşərsən səni aldatmaq olmaz.

– Son cümləni Seyid Sədrəddin ürəyində düşünür və tütündən saralmış bığlarına sığal verirdi. Sonra da canamazdan güləbətin tikmə

daraqqabıdan saqqal darağını çıxartdı, ayşəkilli, sarı taxta daraqla saqqalını darayıb, təh-tov verməyə başladı. Qazı rəng və hənadan istifadə eləmirdi. Eləyənləri də o qədər də bəyənmirdi: "Allahın verdiyi səfa da xoşdu, bəla da. Qara tükü də bəyənib yaradıb, ağardanda da bəyənib ağardıb. Bir şeyi ki, xudavəndi-aləm eləyə, mən onun nöüzənbillah "qüsurunu" düzəltməyə cürət eləmərəm. Bəzək-düzək qız-gəlin işidi. Kişiyə yaraşmaz. Bir də ki, hər yaşın öz gözəlliyi var. Qaranın da, ağın da öz yeri, öz dadı. Dünyada ömür eləyəsən gərək, pillə-pillə sənə bütün əziz adlar deyilə: oğul, qardaş, ata, sonra əmi, dayı adlanasan, axırda da baba!" Heç necə olar bu ki, dünyada bir neçə qərinə ömür eləyəsən, sənə baba deməyələr? Bunun da ayrı ləzzəti var. Nadanlar anlamaz bunu! Mənə "baba" deyəndə elə bilirəm "palıd" deyirlər. Qərəz...

Seyid Sədrəddin saqqalını xeyli tumarladı, təh-tov verdi, bu müddətdə arvad bir kəlmə də danışmadan, onun sualını və ya tələbini gözləyərək, qarşısında əyləşmişdi. Nəhayət, qazı ağa sığalı qurtardı, darağı güləbətin tikməli daraqqabına qoydu. Sonra da onu səliqə ilə tikməli möhürqabı, balaca quranqabı və xilil üçün tikilmiş torba ilə birlikdə tirmə canamazın içərisinə yerləşdirdi. Arvad əlini uzadıb canamazı özü öz səliqəsi ilə bükdü və götürüb yerinə qoydu.

Qazı Seyid Sədrəddin ağıllı, amma şübhələnən adam idi. Hər şeyi öz gözü ilə görüb, qulağı ilə eşitməsəydi, əli ilə yoxlamasaydı, dünyada inanmazdı, hətta fələk gəlsəydi də, etibar eləməzdi. Bu dəfə də elə oldu. Arvadın dediklərini yoxlamaq, qızı görmək və Ömür bəyə gedib-getmədiyini öz qulaqları ilə eşitmək istədi. Arvadına inanırdı, ona yalan deməyəcəyini bilirdi. Bununla belə dedi:

– Səliməxatun, zəhmət də olsa sənə, o qızı bir bura çağır. Qardaşın Nəsibə de ki, pənaha gəlmiş Ömür bəyi də yanıma çağırsın.

Arvad kişisinin xasiyyətindən xəbərdardı, bilirdi. Odur ki, incimədi: "Mənə inanmır" deyə gileylənmədi. Dünyanın ən sədaqətli arvadlarından idi. Ərinin moizələrini, hədis və rəvayətlərini başına yığılan, xeyirdə, şərdə toplaşan arvadlara, yanına çərəkə oxumağa, Quran dərsi almağa gələn qızlara təkrar edər, etiqadla deyərdi: "Ər bir Allah birdi. Göydə Allahın, yerdə ərin kölgəsi, göydə Allahın, yerdə ərin qəzəbi. İtaət edin başınızın ağalarına". Səliməxatun qalxdı, yan otağa keçdi. Qızı bu görüş üçün hazırlamalı idi.

Səliməxatun, qardaşı Nəsib, ardınca da Ömür bəy lap elə dünən axşamkı kimi arxa-sıra otağa daxil oldular. Qazı havaların soyumağa



başladığını nəzərə alıb manqal gətirtmişdi. Qıpqırmızı qızarıb dəmi çıxmış kömürün üstündə, iş görməməkdən nazilib çubuğa dönmüş barmaqlarını qızdırırdı. Arabir qızınmış əllərilə saqqalını sığallayırdı. Gözlərini közərmiş kömürdən çəkmədən nə isə düşünürdü; Ömür bəy qəlbinə dolmuş bir nigarançılıqla salam verdi:

– Səlaməleyküm, qazı ağa!

– Əleykümədssəlam, Ömür bəy! Gəl, gəl, əyləş bax, burda! – deyə qazı hələ də baxışlarını manqaldan çəkmədən sağ əlilə divarın dibindəki döşəkçəni göstərdi.

Ömür bəy keçib diz çökdü, əyləşdi. Əllərini dizləri üstündə cütlədi. Özündən müştəbeh, atıb-vuran, ağzıodlu cavan olsa da, qazının vahiməsi onu basmışdı. Yeznəsi Vəlinin qazı ilə irəliləcədən danışdığını bilirdisə də, ürəyi arxayın deyildi. Döyünən qəlbinin guppultusunu qulaqları ilə eşidirdi. Bir ara belindəki qəmə diz üstündə oturmasına maneçilik törətdisə də, bardaş qurub oturmağı ağlına belə gətirmirdi. Zəhmli qazının oturuşundan, yer göstərsə də, "otur" desə də səsindən ziddiyyət yağırdı və Ömür bəy cürət edib onun qulluğunda bardaş qurub əyləşə bilməzdi. Ömür bəy gözləyirdi, qazı isə nəzərlərini bir nöqtəyə zilləyib oturmuşdu. Sımsıx sıxılmış dodaqlarından elə bil ömründə heç bir söz çıxmamışdı və çıxmayacaqdı da.

Əndəruna açılan qapı aralandı. Otağa iki qadın girdi. Geyimi və duruşundan birinin yaşlı, ikincisinin cavan olduğu bilinirdi. Hər ikisi yaşmaqlıydı, kəlağayılarını alınlarından aşağı, burunlarının üstünəcən çəkmişdilər. Həyəcan keçirən və Altıntellini bu evə "gülməli bir paltarda" gətirən Ömür bəy qızı tanımadı. Qazı yenə də başını qadınlara tərəf çevirmədən sol əlilə sol tərəfini göstərdi:

– Keçin, keç əyləş qızım! – dedi.

Səliməxatun Altıntellini yedəklədi və onlar dinməz-söyləməz keçib, qazının göstərdiyi divarın dibindəki nimdərlərin üzərində əyləşdilər. Qazı maşanı götürdü. Manqalda közərmiş kömürlərin üzünə çəkməyə başlayan bozumtul təbəqəni qarışdırdı. Ətrafa qığılcımlar saçıldı. Seyid Sədrəddin maşanı əlindən yerə qoyub üzünü arvadlara tərəf çevirərək soruşdu:

– Övladım, qızım! Səni mənim evimə gətirən bu Ömür bəy deyir ki, sən onunla öz könlünlə gəlmisən. Guya ata-ananın narazılığı və ya başqa bir səbəb olub. O da sənin razılığınla səni götürüb mənim evimə gətirib! Burada mənim yanımda, Ömür bəyin yanında və anan əvəzi Səliməxatunun yanında öz dilinlə iqrar elə ki, sənin heç bir narazılığın

yoxdu. Allahın əmri, peyğəmbər salavatullahın şəriətilə sənin kəbinini kəsim.

Qazı susdu. Yenidən baxışlarını oda tərəf çevirdi. Cavab əvəzinə yaşmağın altından hıçqırıq səsi eşidildi. Ömür bəyin ürəyi guppuldadı. Qazı dedi:

– Ağlamaq lazım deyil, qızım razılığın lazımdı. Şəriət hökmilə Ömür bəylə sənin kəbinini kəsmək üçün mən sənin razılığını öz ağzından eşitməliyəm.

Yenə də cavab gəlmədi. Hönkürtü gücləndi. Və birdən-birə Altıntelli üzü üstə yerə yıxılıb, qazıya tərəf dizin-dizin sürünməyə başladı. Süründükcə yalvarır və ağlayırdı. Ağladıqca özünü itirirdi və yaşmağının, örpəyinin sıyrıldığını, dəli dünyanın dərdləri çökmüş çiyinlərinə düşdüyünü duymurdu:

– Ağa, sənə qurban olum, ayaqlarının altında ölüm, balalarına sadağa gedim. Məni öz əlinlə öldür, başımı kəs, ətimi itlərə payla, ona vermə! O yalan deyir! Məni al diliynən evdən çölə çıxardıblar, qamarlayıb üç qolu zorlu kişi...

Ömür bəy yerində yırğalanır, qəzəbindən dodaqlarını çeynəyirdi. Qəflətən yerindən sıçradı, qəməsini qınından çıxardıb qızın üstünə atılmaq, onu buradaca, qazının bəst otağında parçalamaq, Altıntellinin dediyi kimi "ətini itlərə paylamaq" istədi. Amma bayaqdan bəri qapının kandarında sözsüz-sovsuz, səssiz-səmirsiz dayanmış Nəsib, hamıdan ayıq idi. Bir sıçrayışla özünü Ömür bəyin yanına yetirdi. Oğlan qəməni başının üstünə qaldırmağa macal tapmamış, qolu buruldu və qəmə yerə düşdü. Nəsib yenə də səssiz-səmirsiz qəzəbindən ağzına gələni deyən, gözləri hədəqəsindən çıxmış Ömür bəyi sürükləyib çölə çıxardı.

Heç kəs yerindən tərpənməyə macal tapmamışdı. Belə bir ədəbsizlik gözləməsə də, hər halda qazı işini möhkəm tutmuş, cavan qaynı Nəsibi qapıda nəzarətçi qoymuşdu. Odur ki, heç yerindən də tərpənmədi. Arvad da qımıldanmağa macal tapmadı. Təkcə Altıntelli arxasında nələr baş verdiyini duymur, hənirti belə almırdı. O taleyini tapşırdığı bu qoca, nurani ataya yalvarırdı. Yovuncumaqda davam edirdi:

– Ağa... Çevir məni xanım Səkinənin qəbri başına, həzrəti Fatimə kənizi kimi evində kəniz saxla! Ağa!.. Oxuduğuna qurban olum... Məni o namərdin... çənggi... iiinə... verr... mə məəə!

Qazı Ömür bəyin törətdiyi biədəblikdən çox hirslənmişdi. Bununla belə, təmkinini saxlayıb dilləndi:



– Səliməxatun, qızı apar, nə lazımdı, elə. Arxayın ol qızım! Nə qədər ki, sən bu damın altındasan, sənə heç kimdən zaval yoxdu. Get!

Səliməxatun Altıntellinin kəlağayısını başında düzəltdi. Qolundan tutub, yerdən qalxmasına kömək elədi. Yenə də yedəkləyib əndəruna gedən qapıdan içəri apardı.

Birunda qazı tək qaldı. Seyid Sədrəddin qızın taleyini heç şübhə etmədən fikirləşmişdi. Altıntellini atasına tapşıracaqdı. O vaxtacan Səliməxatundan da öyrənəcəkdi ki, namərdlər qıza bir afət toxundurmayıblar ki?!

Bu fikirlərlə də qazı Seyid Sədrəddin əlini əlinə çaldı və bir az bundan irəli Altıntelli ilə birlikdə otağı tərk etmiş Səliməxatun yenidən içəri girdi:

– Qız necədi, özünə gəldi?

– Bəli ağa, bir az. Əl-üzünü yudurtdum. Qıznan əyləşiblər.

– Çox yaxşı, bayırda nə var, nə yox? Nəsib bir söz bilmədi?

– Nəsibi görməmişəm. Amma Ümbül deyir ki, gədə canıyanmış həyətdə olmazın söyüşlər yağdırıb. Az qala Nəsibi də, o biri gədələri, müridləri də qatıb-qatışdırıb bir-birinə. Sonra da Nəsibgil onu özciyəzinin atına mindiriblər, qızı gətirdiyi atı da yedəyinə verib həyətdən doqqaza, ordan da o yana yoluzaq eləyiblər. Deyir elə hey deyirmiş: "Qalsın qırmızı qulluğunuzda! Mən bu hayıfı sizdə qoymayacağam. Belə də "bəst" olar? Belə də razı olar? Qız iki gün mənnən qalıb, ona indi it də yiyə durmaz"... Hey beləcə bağırırmış.

– Qoy bağırsın. Əlindən nə gələcək. Elə əsil peyğəmbər qulu, şəriət hökmünü yerinə yetirən qazı da, molla da belə eləməlidi. Yoxsa dünya malına, puluna tamahsılanıb bir müslimə – zəifəni bədbəxt eləmək. Allah rəva görməz bunu...

– Allah imanını kamil eləsin. Sən bilən məsləhətdi...

Qazı Seyid Sədrəddin adətincə, azacıq, saqqalını sığallayıb arvadına dedi:

– Nəsib qardaşına de ki, at yəhərləsin, işim var. Onu bir yerə səfərə göndərəcəm. Əməlli hazırlıq görsün.

Arvad "baş üstə" deyib çıxdı. Bir az sonra Səliməxatunun qardaşı Nəsib içəri girdi; qapının kandarında əl-əl üstdə dayandı. Sözsüz-sovsuz Seyid Sədrəddin ağanın əmrini, onu hara göndərəcəyi haqqında sərəncamını gözlədi.

– Nəsib, atlan...

...Nəsib Yarməhəmməd ilə birlikdə qazı Seyid Sədrəddinin evinə gəlib çıxanda artıq o biri gün axşamçağı idi. Qazı Yarməhəmmədi otağına çağırtdırdı. İçəridə özündən başqa heç kəs yox idi. Nökərə də əmr etdi ki, gələn-gedəni qəbul eləməsin, dedi:

– Gələn olsa, de ki, ağam ibadət məqamında olan bir məsələnin həllinə əyləşib. Bu axşam və bu gecə heç kəslə görüşə bilməyəcək.

Şam yeməyini də qazının qəbul otağına iki nəfəri nəzərə alıb apardılar. Otaqda ikicəciyi idi. Qazı hələ ki, heç bir söz danışmadan baxırdı. Yarməhəmməd onun göstərdiyi yerdə palazın üstündə əyləşib, bir dizini dikəltmiş və qolunu onun üstünə təkyə verib oturmuşdu. Çubuq dəmi, qəlyan təklifini qəbul eləmədi. Başı ilə, sonra "inciyərlər" deyə, dililə də təşəkkür edib dedi:

– İltifatınız artıq olsun, çəkmirəm.

Axşam namazının vaxtı gələndə qazı ona da namaz qılmağı təklif elədi:

– Mehmanım, dur dəstəmaz al, namazımızı qılaq. Mən elə əsrdən bəri dəstəmazlıyam.

Kişi qalxdı, bir kəlmə də danışmadan dərindən ah çəkdi. Həyətə çıxıb aftafanı götürdü, çarhovuzdan doldurdu, dəstəmaz aldı. Amma hər şeyi fərqinə varmadan, düşünmədən, şövq ilə, maraq, həvəs ilə deyil, məhz adət etdiyi şəkildə icra edirdi. Qayıtdı. Axund artıq iki açıq canamazdan birinin önündə əllərini qulaqlarının dalına qoyub azan-iqamə deyirdi. Yarməhəmməd kişi də arxadakı canamazın qənşərində durdu.

Qunut tutdu, iqtida elədi. Yaxşı ki, qarşısında imam mənzələsində olan qazı Seyid Sədrəddin var idi. Namazın dualarını o oxuyacaqdı, Yarməhəmmədə yalnız əyilib-düzəlmək qalacaqdı. Yoxsa, indiki halında kişi mürəkkəb duaları oxuya biləcəyinə inanmırdı. Bəlkə də evdə, ya ayrı bir yerdə tək olsaydı, ona namaz qılmağı indinin özündə seyid təklif eləməsəydi, ola bilsin ki, heç namaz qılmayacaqdı da. Yadına düşməyəcəkdi. Ürəyini fikir qovururdu. Bir tərəfdən şükür eləyirdi ki, qəsəbədən çıxan söz yalan oldu: yəni Altıntellini dərvişlər aparmayıb. Onlardansa Ömür məsləhətdi. Amma əslində, o dərviş məsələsinə heç əvvəldən də inanmamışdı. Çünki heç kəsin qəsəbədə bilmədiyi sirri o bilirdi. Bilirdi ki, özü dərvişə "qal, övladım ol" deyəndə dərviş ona nə cavab vermişdi. İstəsəydi qızı alardı, day oğurlamaq, qaçırıb aparmaq neyçün? Ayrı naqabil hərəkətlərə də inanmırdı; çünki oğlanın olduqca pak bir insan olduğuna inanmışdı. Desən, hələ oğlan onun ürəyinə də yatmışdı. "Adamın bircə oğlu ola, o da belə ola", – demişdi.



Ömürbəylilər qızı aparmaqlarını elə gizli saxlaya bilmişdilər və qəsəbədə dərviş əhvalatına camaat elə inanmışdı ki, heç kəsin fikrinə belə ayrı şey gəlməmişdi. Heç kəs Ömürdən şübhələnməmişdi. Qazı Seyid Sədrəddinin adamı onun evinə gəlib, qazı tərəfindən çağrıldığını bildirəndə, doğrusu, bir anlıq qəlbinə şübhə dolmuşdu: "Bəlkə, elə dərvişmiş?.. Qızın ölüsünü tapıblar dağlardan?.. Ona görə çağırır qazı?.." fikri onu dəhşətə gətirmişdisə də, hara, neyçün çağırıldığını ölüb sabaha qalmış Suyunbikəyə belə deməmişdi. Arvadın halına acımışdı. Əvvəl gedib öyrənər, sonra nə ağır xəbər olsa, gələr deyər. Sonra... "Nə olar, olar... Kim ölər, ölər, kim qalar, qalar..." – qalxıb Nəsiblə birlikdə atlanmış, yola düşmüşdü. Yolda bədbəxt ata əvvəlcə, ürək eləməmişdisə də, sonra Nəsibdən hal-əhval tutmağa başlamışdı. Ömür əhvalatını da qızının sağ olduğunu da Nəsibdən eşitmişdi. Qabaqca ona elə gəlmişdi ki, qazı onun razılığını almağa çağırır ki, kəbin kəsə bilsin. Sonra Nəsibdən eşitmişdi ki, qız "ölləm – Ömürə getmərəm" deyib durduğuna görə qazı kəbini kəsməmiş, qızın atasını çağırtdırmışdı ki, qızı ona tapşırsın.

Namaz üstündə, dua, əlhəm-qulhuvallah əvəzinə, Yarməhəmməd düşünürdü: "İlahi! Yaman dərd imiş qız atası olmaq! Yaman bəla imiş qız namusuna yiyəlik eləmək, qorumaq! Böyük, çox böyük güc istərmiş ondan, ilahi! Özün köməyimiz ol! İlahi, mən onu bu üzüqaralıqla hara aparacağam? Kənd-kəsək, qəsəbə, Məşhədi-müqəddəs əhli, el-camaat içinə nə üzlə çıxardacam? Pərvərdigara, o neyçün Ömür bəyi rədd eləyir? Başa düşmür ki, adı onuyla çıxıb, rüsvay olub? Bundan o yana ona kim yovuq düşər? Kim alar? Heç kim! Atayçün, bədbəxt anayçün bundan ağır dərd varmı, Allah!

Namaz qurtardı. Şam yeməyi də gəldi. Seyid Sədrəddin qonağı süfrə başına dəvət elədi. Tez-tez dərindən köksünü ötürən Yarməhəmməd çörək yemir, yalandan əlini "apar-gətir" eləyirdi.

Seyid dedi:

– Qardaş, oğul, Allahın nemətinə hörmət elə, ye! Yüz fikir bir borcu ödəməyib. Hər şeyin bir ölçüsü var. Duz nədi ki, təama çox tökdün, az tökdün – həddini biləsən gərək. Azı dad verməz, çoxu dadını qaçırdar. Ulular buyurublar ki: "İslamın şərti beşdir, amma altıncı da var. Bu – həddini bilməkdir. Həddi-ölçünü bilmək dinin şərtlərindən olmasa da, onu bilmək zəruridir". Dərd-qüssəni də həddiylə çək, yeməyini də həddiylə, ölçüsüylə ye!

Bu sözlərlə də qazı Sədrəddin kədərindən beli bükülmüş atanı yedirməyə çalışır, heç olmasa bir neçə tikə yeməsinə nail olurdu. Yemək

bitdi, süfrə yığışıldı. Qazı qəlyanın qəmişini saralmış bığları arasından ensiz cızıq kimi bilinən ağzına apardı, bir-iki dəfə xortuldadandan sonra qəmişi çıxardı və qəlyanın boğazına keçirdi. Sözə başladı:

– Qardaş oğlu, hər şeyin axırı xeyir olar, inşallah. Götür balanı, get! Görünür, bu talehi Allah onun alnına yazmayıb ki, cürət elədi, düzünü söylədi. Mən də ona inandım. Balan tər-təmiz, pak baladı.

Yarməhəmməd gözlərinə dolan yaşı arxalığının qolu ilə sildi, titrək səslə dilləndi:

– Qazı ağa! Oxuduğuna qurban olum, o indi mənim nəyimə lazımdı? Kim aparıb adını batırıb, ona da ver! Kəs kəbinini çıxsın getsin!

Seyid Sədrəddin qəzəblənməyə başladı. O bir tərəfdən kişinin dərdinin böyüklüyünü başa düşür, ona acıyır, digər tərəfdən də ömründə eləmədiyi, qanun əksinə getmədiyi halda, kişinin öz əli ilə balasını istəmədiyi adama vermək tələbi onu əsəbiləşdirirdi. Onsuz da kəmhövsələ, tündməcaz adam olan qazı dedi:

– Kişi! Sənə bayaqdan bir kitablıq söz dedim ki, qızında heç bir günah, ləkə yoxdu. Allah yanında da, bəndə yanında da üzü ağdı. Bilirəm, el şəmadətindən qorxursan. Amma bəhər hal, balanı gözgörə çölə tullamayacaqsan ki.

Bu zaman qapı aralandı, iki örtüklü qadın içəri girdi. Biri qazının arvadı Səliməxatun, digər Altıntelli idi. Qız bayaqdan qapı dalından atasının sözlərinə qulaq verib dinləmişdi. Mağaradakı şübhə yenidən qəlbinə dolmuşdu. Atasının "kim aparıb, ona ver" sözlərini eşidincə yenidən ürəyinə dolan şübhələr ona pıçıldamağa başladı. "Hə... Deyəsən, atamın öz əli var axı, Ömürə". Amma içəri girib, atasının ölgün simasını görəndə səhvini anladı. Yox! Min dəfə yox! Bu ata elə adam deyildi. Bu adam Ömür bəyə razılıq verə bilməzdi. Razılıqdan sonra da bu günə düşməzdi. Qız irəli yeridi, atasının ayaqları tərəfdə yerə çöküb alnını onun ayaqlarına dayayıb, hönkürdü.

Səliməxatun da ağlayırdı. Qazı gözləri dolmuş halda dilləndi:

– Get, apar balanı, kişi! Onu sənə Allah verib, Allah da alacaq. Özü bilən yaxşıdı pərvərdigarın. Təzədən qaytarıbsa sənə, deməli, onun haqqında öz fikri var Yaradanın. Apar! Allah özü xoşbəxt eləsin. Öz razılığıynan hamılıqcan, onda kəbinini də kəsmək mənə qismət olsa, şad olaram. Onlar bu gecəni qazı Seyid Sədrəddingildə qonaq qaldılar. Ömür bəyin "bəst"i nə zaman, nə üzlə, nə ürəklə tərk edib getdiyini bilmədilər. Səhər sübh namazından sonra alçaldılmış, rüsvay edilmiş iki bədbəxt "bəst"dəkilərlə vidalaşıb yola çıxdılar.



## QAYTARILDI

Qəsəbəyə səs düşdü ki, qızı dərviş yox, Ömür bəy aparıbmış Qoçan qazısı Seyid Sədrəddinin bəstinə. O da kəbin kəsməyib. Yarməhəmməd Altıntellini geri qaytarır. Hər ağızdan bir avaz gəlirdi:

– Nə bədtaleh qızımış bu bədbəxtin qızı!

– A balam, bəs deyirdilər, onu o dərviş aparıb?..

– Yox əyşi! Dərviş nə qayırır? Ömür bəy aparıbmış... Zornan. Qızın köylü yoxmuş... Vermirlərmiş də...

– Bəs neçə gün yad oğlan əlində qalandan sonra qazı nə deyib ona kəbin kəsməyib?

– Deyir deyib ki, qız öz diliynən razılıq verməsə, kəbin düz deyil – kəsmərəm. Deyib də, kəsməyib də.

– Bəs indi o qıza hansı qurumsaq yaxın durar, rəğbət elər?

– Deyir qazı ağa deyib ki, Yarməhəmməd kişi, sən cənab peyğəmbərdən axıllı çıxmayacaqsaq ki? O da həzrət Ayişə bir gecə cavan ərəbnən çöllü bəribiyabanda qalandan sonra qəbul elədi.

– Axı onnara cənab Cəbrayıl, Allahın mələyi keşik çəkib zamın durub ki, bəd əməl eləməyiblər.

– Deyir buna da Əsəd durubmuş qarovul.

Hırıltı artdı. Kim isə öcəşdi:

– Bəlkə, elə Əsəd özü də...

– Ey... latayır-latayır danışmayın ha!.. Ağzınızı cıraram hərzə uşağı! Dağılışın burdan! Kişinin bədbaxtçılığına bir bədbaxtçılıq da artırmayın.

Bu sözləri deyən kəndin sözüötər ağsaqqallarından biri idi.

– Düz deyir, dağılışın! İndi kişi, qızıynan gəlib burdan keçəcək, bədbaxt ata yazıqdı... Qoy el içində rüsvayi-cahan olduğunu görməsin.

Adamlardan hasar dibinə, divar kölgəsinə keçən oldu. Amma heç kəs uzaqlaşmadı. Hamı üçün bu olduqca qeyri-adi bir məsələ idi. İndiyəcən belə işi eşidib görən olmamışdı. O necə qızdı ki, qazı qabağında hünər eləsin, onu aparan oğlana getmirəm desin! Qab düşdü; ya sındı, ya cingildədi, təfavütü nədi? Səsi ki çıxdı – qurtardı. Ölüb qalmalı yeriydi Ömürgillərdə. Nə pis əməl görüb onlarda? Nəyinə qudurub görəsən?

Uzaqdan Yarməhəmməd göründü. Atlıydı. Çadraya bürünmüş bir arvad onun üzəngisindən tutub yanınca gedirdi. Hamı anlayırdı ki, bu bir həftə irəliyəcən görənlərin bağrın əzən, yuxa kağız kimi zərif və ağbədən, qızılı telləri günəş şüalarına meydan oxuyan Altıntellidir.

Amma nə gündə; Nə gündə? İlahi! Ən qəddar ürəklər belə oycalandı. Adamlar maraq dolu gözlərini kədərlə, qüssəylə yana çevirməyə çalışdılar. Bir-birinin belə üzünə baxmağa utanırdılar, sanki bu işdə onların da günahı vardı. Birdən hamını heyrətə gətirən bir qəhqəhə eşidildi. Bu Əşrəf xanım idi:

– Qara yer oğurlasın səni! Niyə ölmürsən? Hara gedirsən o üzlə, a görərindən olasan? Ay el, ay camaat bu ağlı sıyıq qız qardaşımda nə görmüşdü? Əmoğlumun nəyini bəyənmirdi? Özü cəhənnəmə. Bilmir ki, heç kim, indi ona heç it də rəğbət eləməyəcək? Hamı annamır ki, o, Ömür bəy kimi oğulun əlindən saf çıxmayıb?

Əşrəf xanımı tuturdular, tutulmurdu, elə hey bağırırdı:

– Ağız o mənim əmim oğlunun əlindən təmiz çıxıb? Ay inanan, daşa dönəsən! Mən tanımıram Ömürü? Öpüb, qucub...

Əşrəf xanımın səsi qəfil kəsildi, amma bərk bir şaqqıltı, şillə səsi eşidildi. Bu Əsəd idi; o, bacısını sillələyirdi:

– Kəs səsini, haşarı! Mən də orda olmuşam, boynuna lənət günahı götürmə!

Əşrəf xanım qan açılan burnunu silə-silə bu dəfə ayrı hava çalmağa başladı:

– Səni görüm ömründə bir xoş gün görməyəsən, səni görüm heç bəxtəvər olmayasan! Ağız, səni görüm ayıbını qara yerlər tezlikcən örtsün, sən bacı-qardaş arasına qan saldın...

Əşrəf xanımı arvadlar zorla qucaqlayıb apardılar.

Yarməhəmməd onsuz da iki bükülmüş bədənini yəhərin qaşına tərəf əyib, cilovu buraxmışdı. At özü yaxşı tanıdığı axurun yerləşdiyi həyətə doğru gedirdi. Üzəngidən yapışmış üzü çadrayla örtüklü Altıntelli atın böyrüylə yerimir, sürünürdü.

Deyir soruşublar: "Qara gün, hara gedirsən?" Deyib: "Qaraltmağa". Qapqara qaralmış Altıntelli çadranın qara pərdəsi altında boğula-boğula həyətlərinə daxil oldu.

Məhəllələrə təbəh davası düşdü. Bir qız nədi ki, ondan ötəri Yarməhəmməd kimi kişi abırdan salına? Ömürbəylilərlə Yarməhəmmədlilər əvvəlcə söyüşməyə başladılar.

– Aaaazzz... Aaaazzzz... eheyyyyyy... Aaz, o nə gözümçıxdıdı salmısız o fağır kişini? Elə? Aaaz, bu dünyada qızı qoşulub qaçan bir odu bəyəm? Göylüynən getsəydi, o da sizinkilər kimi hər balağı bir kol başında qalardı... Dünən gedərdi bu gün iki günü olardı.

– Bəs qayıdanda hansı üznən qayıdır görəsən?



– Getdiyi üznən. El bilir, aləm bilir, o qız bu işin yiyəsi döyül.

– O olmasın, başqası olsun...

– Dərdi sizə qalmayıb, köpək qızları...

– Hərə söyəndə öz dədəsini söyür.

– Döymə qapımı, döyməyim qapını...

– Yox, qudurmusuz, yalız artıq düşüb.

– İt oğlu it özüzsüz, yalı artıq düşən də...

– Adə, sən mənim dədəmi söyürsən? Sənin indi cəhəngini cırram.

– Cırmayan kişi deyil...

Heç bilinmədi ki, birinci daşı atan, birinci çomağı bulayıb vuran kim oldu. Ara qarışdı, məzhəb itdi. Arvadlar saçlaşdılar. Qız-gəlin qapazlaşdılar. Ahıllar bir-birinin rəddinə tüpürdü. Cahıllar çomaqla baş yarmağa girişdi. Təbəhlərdən heç birinə dəxli olmayan, aranı sakitləşdirmək üçün canıyananlıq eləyən yengə arvadın başına gələn hamının üstünə elə bil zarafat tozu səpdi. Gülmək götürdü hamını. Döyülən də gülürdü, döyən də. Başı yarılan da qaqqıldayırdı, baş yaran da ona qoşulmuşdu. Saçı yolunan da qəhqəhə çəkirdi, əlinə bir çəngə baş tükü keçirən də.

Sən demə, dava-qalaqlaşmanın şirin yerində kim isə xəlvətə salıb yengənin tumanının bağını kəsibmiş. Arvad "vayy" eləyib yerə oturanda, çadır kimi açılmış gen tumanı bədəninə yaraşdırmağa, qovuşdurmağa çalışdıqca kömək eləmək istəyən də uğunub getdiyindən bacarmırdı.

Bütün kənd, sonra da şəhər gülürdü. Heç kimin ürəyində kin-küdurət qalmamışdı bu anda. Axı nə olsun ey? Qız qaçırıblar. Baş tutmayıb. Ömür də öz balamızdı, Altıntelli də bütün qəsəbənin ahıllı-cahıllı istəklisidi. Bu gün baş tutmayıb, bir neçə gündən sonra ağsaqqallar işə qarışar, barışdırar küsülüləri. Ömürdən artığına verilməyəcək Altıntelli. Qız bu həngamədən sonra onsuz da onundu. Adamlar gülə-gülə, beləcə xoş fikirlərini bir-birilə bölüşə-bölüşə dağılışıb getdilər. Elə bil qəsəbədə toy olmuşdu. Hamının ürəyində fərəh vardı. Sanki toydan qayıdırdılar.

Amma kənddə üç nəfər var idi, onlar bütün bu dava-şavadan, qəziyyədən, yengə əhvalatından bixəbər idilər. Qəm dəryasına qərq olub, evin üç bucağında, hərəsi bir bucaqda dizlərini qucaqlayıb oturmuşdular. Məncə üçü də eyni şeyi fikirləşirdilər. Qərarlar, nəticələr müxtəlif olsa da, məsələ bir idi: "Bundan sonra necə dolanacaqlar bu elin içində?"

Ev ölüsüz yasxana idi.

...Qala bilməyəcəkdi. Qız bu həbsxanada qala bilməyəcəkdi. İnsan üçün doğulduğu evdən doğma yer yoxdur. Amma indi bu doğma ev onun üçün həbsxanaydı. Bu doğma insanlar ata-ana ona yad idi. Yox, yalandır, yad deyildi!.. Amma Zeynalabdin də deyildi. Ata-anası ilə danışa bilmirdi, onlarla bir süfrədə xörək-çörək yeyə bilmirdi. Üzlərinə baxa bilmirdi. Əriyirdi, yerə girirdi. Atasının ah-ufu, anasının göz yaşlarından qızarıb şişmiş gözləri canını alır, ruhunu yerindən oynadırdı. Yanına gizlincə gələn Aybikə ilə də danışa bilmədi. Bu yaşayış deyil, bu ömür deyil, bu qəbir də deyildi! Qəbirdə də bir rahatlıq var, sükunət var. Burada sükunət ahla, rahatlıq göz yaşlarıyla pozulurdu.

Cəhənnəm də deyildi. Cəhənnəmə nə var ki! Bir dəfə, min dəfə yanarsan – qurtarar. Buranın yanğısı, odu, atəşi qurtarmaq bilmirdi. Son günəcən də qurtarmaq bilməyəcəkdi və bu son gün onun üçün heç bir zaman olmayacaqdı da. Atası da, anası da dərddən, xəcalətdən ölsə də, o özü ölüb qurtarmayınca, bu yanğı qurtarmayacaqdı. Tüstüsüz, qığılcımsız alov-alov yanan yanğı...

Qız bu həbsxanada qala bilməyəcəkdi! Və bu qərarında möhkəmləndən sonra bu dəfə Aybikəni özü axtardı, özü gözlədi. Qız yenidən onun yanına gələndə, bu dəfə ondan qaçmadı. Başına gələndən sirdaşına danışdı. Aybikə onsuz da onun dərvişə məhəbbətini bilirdi; sirr-sözü onsuz olmamışdı. Bu dəfə də dərvişdən xeyli danışdılar.

– Mən sonra bildim ki, dərviş səndən bir gün irəli karvanla gedibmiş... Nənə qarı dedi. Nənə qarı dərviş sözünə inanmırdı: "O elə oğul deyil, – deyirdi, – görəsən Telli kimin zavalına gəlib. Dərviş pak südəmmiş adamdı, elə iş tutmaz". Ona deyəndə ki: "Bir gün irəli şəhərdən dərviş ona görə çıxıb ki, iz itirsin". Deyirdi: "Yox, yoldaşları da elə döyü, özü də". Hələ mən də inanmırdım. Ömürgillər də elə gizli tutmuşdular işlərini ki!.. Hamı bu tərəflərdə onun yoldaşlarına da birtəhər baxırdılar. Arvadlar dallarıycan boğma çıxardırdı, qarğış eləyirdi. Hamı səni çox istəyirdi axı... Başına iş gəlməyinə dözmürdülər...

Altıntelli Aybikəni fikirli-fikirli dinləyirdi. Elə bil dilinin altında nə isə bir sözü var idi, deyə bilmirdi. Qərarsızdı, qayğılıydı. Nəhayət, qət etdi:

– Aybikə, əgər məni çox istəyirsənsə, bir çarə tap, öyrən, gör Herata tərəf karvan nə vaxt gedir? Karvançılarla kağız göndərəcəm.

Aybikə heyrət içində donub dayanmış, onun hələ də, bu qədər əzab-əziyyətdən biabırçılıqdan sonra, yenə də onu sevdiyinə, adını dilinə gətirdiyinə təəccüb edirdi. "İşə bax, sən Allah! Hamı onu az qala



daşqalaq eləyir, bu da hələm o qaragəlmiş dərvişi yadından çıxartmır ki, çıxartmır. Xörəyin dadı duzda, dünyanın dadı gözdədi deyənlər haqlıymış... Rəhmət Nəvai sənə kim hər necə, zülmün çox etdi, mehrü vəfa az qalmadın", – bu yerdə deyib ey şair.

Ucadan isə deyirdi:

– Qəribə qızsan, vallah, Altın! Gah zirvə qarı kimi əriyirsən, gah dağ seli kimi durulursan. Baş açа bilmirəm səndən. Sən kağızını yaz, aparıb verrəm...

Altıntelli üsyan etdi, həyəcanla, cəld dedi:

– Yox, yox! Özüm... Ağlayanın malı gülənə xeyir verməz. Sən niyə ilişəsən, çəkəsən? Bu dərd mənə gəlib, bu bəla mənimdi, bu od məni yandıra gərək. Səninki deyil!..

Aybikə içini çəkdi:

– Vallah, sənə elə paxıllığım tutur ki!.. Az qalıram, xoşbəxtsən deyəm...

Eşqin və əzabın təlqinilə müdriklik qazanmış Altıntelli təmkinlə dedi:

– İnsan ömrü bir yuxuycan qısadı. Sevgisiz keçən hər ana yazıq. Mənə indi elə gəlir ki, bütün ömrün bəzəyi yalnız və yalnız eşqdir.

Sonra da rəfiqəsinə sarılıb öpdü:

– Çox sağ ol, zəhmətimi çəkməyinə çox qalmayıb...

"Yəqin özünə qəsd eləyəcək. Gərək xalaya deyəm, gözü üstündə olsun. Özüm də yedəyini gərək əldən qoymayam", – Aybikə düşündükcə Altıntelli, namaz qılırmış kimi diz üstə çökdü; əllərini qunuta qaldıran kimi üzünə tərəf qaldırdı. Həyəcan, dərin bir hüzn içində pıçıldadı:

– İlahi, mənə götürə biləcəyimdən artıq yük yükləmə! Sən hər şeyi bilən alim Allahımsan! Ürəyim götürməyəni mənə yedirtmə! Ulu tanrım, axı bu ürəyi mənə sən vermisən!

O ağlayırdı. Aybikə də ona qoşuldu, göz yaşları içində onun yanında əyləşdi. Sağ əlini rəfiqəsinin belinə dolayıb həmin ahənglə dedi:

Dəvə gəlir kallahı,
Ovsarın al kallahı.
Sən dayan, dur yerində,
Mən çağırım Allahı!

Altıntelli də hıçqırıqlar içində cavab verdi:

Yaralarım üzləndi,
Dərə-təpə düzləndi.
Durdum Allah çağıram,
Evliyalar gizləndi...

Göz yaşları içindəki bu pıçıltılar qonşu otaqda eşidilmirdi. Orada qəm dəryasına batmış bir ata ilə bir ana əyləşmişdi. Saç-saqqallarının ağaran vaxtında taleyin onlara bağışladığı, nəvələri yerində ola bilən bircə qızlarının halını düşünürdülər. Cınqırlarını da çıxarmamağa çalışırdılar. Bilirdilər ki, Aybikə onun yanındadır. Bəlkə, istəkli sirdaşı onun qaralmış könlünü aça bildi, bəlkə bu öynə dilinə bir tikə artıq çörək-xörək vurdu. Bir qurtum çay içdi. Əriyib quzey qarına dönmüş Altıntelli bəlkə, bu görüşdən sonra yenidən qönçə kimi açıldı, gülümsədi, təzədən Günəşin xırdaca qızına bənzədi?! Bəlkə... Bəlkə... Ata-ananın bala haqqındakı ümid və arzularının sahili varmı?!

## NEMƏTULLAHİLƏR

"Görəsən o niyə dərvişdir? Niyə və nə gəzir? Bu qədər biliklə o şahların saraylarında vəzir, alimül-üləma ola bilər. Ən azı elm mərkəzi mədrəsələrdən birinin başçısı ola bilər". Və Zeynalabdin elə bu sualla da dərvişə müraciət etdi:

– Nə üçün də yox, ustad?

Dərviş gülümsədi, əlini günəşdən yanmış, yağışdan və küləklərdən aşılanmış mis rənginə çalan sifətinə çəkib düşündü və həmişəki adətilə suala cavab vermədən birbaşa bir hekayət başladı:

– Deyirlər Əbu Əli ibn Sina bir gün Herat tərəflərdən Məşhədə, ya Səmərqənddən Herata gəlirmiş. Burası dəqiq deyil, oğul! Qış imiş, çovğun imiş. Soyuqdan donurlarmış az qala. Bir neçə müddətdən bəri şagirdi Bəhmənyar ondan "sən ki bu qədər dərin, zəngin elmi biliklərə maliksən, neyçün peyğəmbərlik iddiasında deyilsən, ustad?" – deyib soruşurmuş. Və müəllim də ona cavab verməyibmiş. Qışın bu çovğun günündə onlar axşama doğru özlərini bir karvansaraya çatdırırlar. Karvansaranın qənşərində arx axırmış, suyun üzü nazik buz pərdə-qanatov bağlayıbmış. Karvansara sahibi İbn Sina ilə Bəhmənyara isti bir hücrə verir. Ocaq qalanıb, odun köz salıbmış. Ustad və şagirdin donu açılır. Birdən İbn Sina çay süfrəsindəki piyalələrdən birini alıb Bəhmənyara uzadır və deyir:

– Dur, çıx bayıra, həyətdən keçən o arxın üzündəki buzu qır, mənə bir piyalə soyuq su gətir, içim.

Bayır çox soyuq, çovğun güclü idi. Bir az əvvəl həmin soyuqdan donub içəri girmiş, indicə az qala güclə donu açılmış Bəhmənyar ocağın isti qırağından qalxıb çölə çıxmağa ərinib etiraz edir, guya canıyananlıqla deyir:



– Nə danışdığındı, ustad? Sən özün, şükür xudaya, təbibsən. Bilirsən ki, buzlu su içmək insana ziyandı... Hazır çaydan süzüm, nə qədər keyfindi – iç!

Bəhmənyar soyuqda həyətə çıxmağın dərdindən xeyli belə sözlərdən deyir və ustadının buyruğunu yerinə yetirmir. İbn Sina gülümsəyir, cavab vermir. Gecəni yatırlar.

Səhər sübh namazının vaxtı çatanda həyətdən azan səsi eşidiləcək, Bəhmənyar, cəld yatağından fırlayıb qalxır, tələsik geyinib həyətə qaçır, iki aftafa götürüb arxın yanına gəlir. Axşamkı nazik qanatov gecə qalın buz təbəqəyə çevrilmişdi. Qərəz, Bəhmənyar xeyli vaxt qara aftafanın köməyilə buzu qırıb su doldurub gətirir. Ustadı da artıq geyinib hücrənin səkisinə çıxmışdı. Bəhmənyar aftafanın birini İbn Sinaya verib təkbir arası deyir:

– Allah əcr versin, Allah qəbul eləsin, domullo!

Və tələsə-tələsə buzlu su ilə dəstəmaz almağa başlayır. Onu seyr eləyən İbn Sina lap o axşamkı kimi gülümsəyib şagirdinə deyir:

– Oğul, Bəhmənyar! İndi bildinmi mən nə üçün peyğəmbərlik iddiasında deyiləm? Olmamışam da?

Bəhmənyar heyrətlə, heç nə başa düşmədən onun üzünə baxanda, İbn-Sina ondan cavab gözləmədən sözünə davamla deyir:

– Məni bir müəllimin kimi yaxşı tanıdığını və sevdiyini bilirəm. Elmimə görə də məndən nə üçün peyğəmbərlik iddiasında olmadığımı soruşurdun həmişə. Axşam səndən soyuğa çıxıb mənə bir piyalə buzlu su gətirməyini xahiş elədim. Ərindin, getmədin. Halbuki, mənə su gərək deyildi. Onu bu gün üçün demişdim. Çıxsaydın, qoymayacaqdım. Bu gün sübhçağı azan səsini eşitcək, soyuğu-filanı nəzərə almadan qalxdın, buzu qırdın, soyuq su ilə dəstəmaz almağa başladın. Sənə yaxın olan məni deyil, yüz illərlə əvvəl azan səsi ilə müsəlmanları ibadətə çağıranı eşitdin. Yüz illərlə əvvəlkinin səsinə səs verdin. Bax, elə buna görə də mən o iddiada olmamışam. Peyğəmbərlik də xüsusi istedad istər. Hər alimdən peyğəmbər olmaz. O da şairlik, nəqqaşlıq, səs-sövt kimi xüsusi vergidir, ilhamdır. Əks təqdirdə səni eşidən, qərinələrcə sözünü, səsini dinləyən olmaz.

Bəhmənyar xəcalət içində əli dəstəmazlı dayanıb durmuşdu. İndi, oğul Məstəli – Zeynalabdin, anladınmı ki, mən neyçün o sarayların dəvətini qəbul eləmirəm? Mövlana Cəlaləddin rəhmətullah deyib ki: "Şair – şah qapısında gədadan gəda. Şah – şair qapısında ucadan uca!"

Şahlar, hökmdarlar, ağalar qarşısında əyilmək də "xüsusi istedad" istər. O "istedad" məndə yoxdur. Unutma ki, "Əl-insan, əbdül-ehsan", yəni insan verimin, ehsanın quludur. Sənə nəysə verən hökmdarın qulu olmalısan. Baaax, bu qul olmaq "istedadı" da məndə yoxdur. Deyəsən, elə səndə də yoxdur. Elə ona görə də Məşheddən çıxanda rastlaşdığımız gündən bəri mən səni Nemətullahiyə dəvət edirəm. Zahirinlə batinin arasında fərq görmədim bu səfər müddətində. Zahirin batinin kimi, batinin də zahirin təki gözəldir, təmizdir, pakdır, aridir riyalardan. Qul olmağın öz adamı var. Necə də ki, buyurublar: "Likullin əməlun ricalun" – hər işin öz adamı var, yəni. Bir dərviş tanıyırdım, hətta islamın da qulu olmaq istəmirdi. "Söyüddən sandal iyi gələr, məndən müsəlman iyi gəlməz. Neyçün? Soruşsan, deyərdi ki: "Çünki müslim quldur, təslim deməkdir. Mənsə heç nəyə, heç kimə təslim olmaq xəyalında deyiləm. Xaliq məni mənsiz yaradıb, mənsiz aparacaq. Bu dünyaya gətirəndə razılığımı soruşmayıb, o dünyaya aparanda rəyimi soruşmayacaq. Odur ki, mən də təslim olmuram. Öldürürlər". O dərvişi belə müsahibələrini duyan bir hökmdar asdırdı. Hamı da "pis-pis" deyirdi ona. Amma, məncə, söhbət heç də o dərvişdən getməsin, insandan danışaq. İnsanın ancaq pis əməllərini yamanlamaq zərərdir. "Pis-pis" deyə-deyə mənfilikləri təsdiq etmiş olursan. İnada salıb yaxşını da pisə çevirə bilərsən. "Yaxşı" de ki, qoy insan öz yaxşılığına, yaxşı mənşəyinə inansın. Sənin də ağzın həmişə yaxşıya açılsın. İnsanı təkcə pisləməklə deyil, yaxşılamaqla da düz yola dəvət etmək olar. Qula çevirmədən, mənfilikləri sayıb cəhənnəmlə qorxutmadan, ona yaxşını xatırlada-xatırlada da pak yola salmaq olar. Və, məncə, bu daha doğru, daha müqəddəs yoldur. Pisliklər pis nütfəli adamı şirnikdirə bilər, "bir mən də bu pisdən dadım" fikri oyadar qəlbində. Eldən, xəlayiqdən gizli tutar əməlini. Yaxşını isə aləmə car çəkə-çəkə demək olar. Ona qul yox, şahanə məğrur hisslər dadızdırmaqla, yaxşı əməllərinə görə iftixar hissi aşılamaqla... Budur mənim əməlim. Məndən qul olmaz! Budur mənim rəyim. Məndən saraylara, hökmdarlara mənfəət gəlməz. Eləcə də saraylardan, hökmdarlardan mən xeyir görə bilmərəm, gözləmirəm də. Əksinə, onların rəyinə uyğun sözlər demədiyim, haqlarında tərifnamələr yazmadığım üçün cəzalanaram da. Məndən sənə əmanət: saraylardan uzaq ol! Sənin pak könlün ən uca, ən zəngin saraydır. Hökmdarların ehsanından da uzaq ol! Mədəni pozar. Səni yaltağa, qula çevirər. Qul olmaq isə insan üçün ən ağır cəzadır.



Bir neçə vaxt idi ki, həcc ziyarətindən – müqəddəs Məkkədən, Mədinədən Herata qayıdan Nemətullahi dərviş onunla yanaşı getdikcə danışır və onun təhsilini davam etdirirdi. Bu həyat məktəbi idi. Sinif otağı sonsuz, ucsuz-bucaqsız səhralar, çöllər, dağlar və meşələr, müəllimi müxtəlif təriqətli, müxtəlif əqidəli, müxtəlif bilikli səfəri alimlər, dünyagörmüş bəzirgan və sarbanlar, dərvişlər idi. Bəzən müsahibləri tərki-dünya, fəna-fillah təlqin edən dərvişlər də olurdu. Amma beləlləri onu çox da əyləyib saxlaya bilmirdi. Onun bilik üçün yanan, susuz ciyəri, ürəyi, ağlı əvvəlkilərə – alimlərə doğru çəkirdi onu. Dəftəri gecələr ulduzlu, kəhkəşanlı səma, gündüz ağaclar, güllər, çiçəklər, yabanı otlarla bəzənmiş düzənlər, karvansaralar, şəhər və kəndlər idi. Bu dəftəri o, gözü ilə oxuyur, hafizəsilə ağlının vərəqlərinə yazırdı.

Nemətullahi dərvişin nəsihət, vəsiyyət və tapşırıqlarını dinlədikcə, qəribədir ki, məhz milləti, vətəni, dini və dili haqqında fikirlər onu götürürdü. Atasının dedikləri, atası və ilk müəllimi Axund İskəndərin, sonra da bağdadlı müəllimi Məczubəlişahla bu Nemətullahinin söylədikləri arasında zahirdə o qədər təzad nəzərə çarpmırdı. Amma dərvişin sözləri onun varlığında, daxilində, içərilərində başqa-başqa, yeni-yeni, bir-birinə daban-dabana zidd fikirlər oyadırdı.

Məsələn, elə bu gün dərvişlə söhbəti atasının dil, millət, vətən, əqidə haqqında fikirlərini ona xatırladırdı. Atası üçün yer üzündə bir dil – Qurani-müqəddəsin yazıldığı ərəb dili, bir millət – "islam milləti", bir vətən – islam dünyası mövcud idi.

Yaxşı yadındaydı. Bir dəfə atası Axund İskəndər ilə mübahisəyə, daha doğrusu, atasına etiraza cürət etmişdi. Camaat namazı qılmaqdan utandığı üçün cümə günü ziyarətgahın məscidinə getmək istəməyib demişdi:

– Mən namazımı tək qılıb, Allahıma tək ibadət edə bilmərəmmi?

Axund İskəndər özündən çıxmışdı:

– İslamiyyətdə kütləvi namaz, kütləvi yığıncaqlar, ruzələr məhz "mən"çiliyə qarşı birliyi gücləndirmək üçün yaranıb, övladım! Anla bunu, qan! Gün gələcək, islam bayrağı yayılan ölkələrdə millət sözü olmayacaq, əvəzinə "islam" sözü qalacaq. "Hansı millətdənsən!" soruşana "müsəlmanam" cavabı veriləcək. Elə indinin özündə də çox yerdə belədi. Millət, milli dillər yer üzündən götürülüb tək bircə din, tək bircə millət və dil qalmalıdır: MÜSƏLMAN!

O zaman Zeynalabdin atasına cavab vermədi. Cürəti və biliyi çatmırdı. İndi isə xəyalında atasından soruşurdu:

– Neyçün? Neyçün? Neyçün? Məgər o bilmir ki, bir millətə milliyyətini unutdurmaq üçün əvvəlcə onun adını unutdurmaq və dilini əlindən almaq lazımdır?

O bu üsyankar fikirləri düşündükcə atasının səsi qulaqlarını dəlirdi:

– Ağlında möhkəm saxla: İslamın yaradıcısı fəxri – kainat, Məhəmməd-əl-Mustafa əleyhüssəlamdır. İslam Allaha bağlılıq deməkdir (bəs təslim deyil?). Qurani-kərim onun müqəddəs kitabıdır. 86 surəsi Məkkədə, 28 surəsi Mədinədə vəhy olmaqla, 114 surədən ibarətdir. Bu surələr 23 il ərzində bir yerə toplanıb. Katibləri onu dəriyə yazıblar, sonra birləşdiriblər. Müsəlmanlığın birinci şərti kəlmeyi-şəhadətdir.

Yadındadır, hamısı yadındadır... Bu gün ona "qul olmaqdan qaç" deyən mənəvi atası on iki ildə Kərbəla həyatında öyrəndiklərini darmadağın eləyirdi. Məşhəddə gördüyü mənzərələr... Ziyarət vaxtı bir barmaq enində "puşidə"[1]dən kəsilmiş parça zolağına az qala bir aylıq ruzusunun haqqını "nəzir" verən avam, bədbəxt zəvvarlar gözü önündən getmir.

Nemətullahi dərvişin dedikləri ilə o həyat, anlayışlar arasında nə qədər dəhşətli fərqlər var idi! Zeynalabdin vaxtilə bütün bunları dərk etməz, üsyan, günah – əzim, küfr hesab edərdi. İndi isə dərk etməyə çalışırdı. İndi görürdü ki, dünyada xristian müsəlmandan çoxdur... Dünyada bütpərəst var, brəhmən var, atəşpərəst var, yəhudilik var... bəs onları yaradan Allah niyə hamısına cəhənnəmi rəva görüb? Əgər o dinlər batilsə, bəs niyə Allah özü onların alnına islama dönmək yazmayıb, kafirlikdə baqi qalmağı məsləhət bilib? Axı onların günahı nədir? O dinlərin də bir qismi Quranın inkar etmədiyi dinlərdir, Allahın nazil etdiyi müqəddəs kitablara inanırlar.

Zeynalabdin bütün bunları dərk etməyə, həzm etməyə çalışır, özünə yeni yol, yeni təriqət seçməkdə tələsmirdi. Məşhəddə keçirdiyi günlər, dostları, Altıntelli macərası bu həyat və səfər, səfər və həyat dərsləri önündə ikinci plana keçir, az-az yadına düşürdü.

[1] Müqəddəslərin məzarı üstünə salınan örtük. Əvvəllər onu hökmdarlar və ya yüksək rütbəli şəxslər qiymətli parçadan göndərərdi, sonralar qazanc məqsədilə salınan ucuz parça. Ruhanilər zəvvara zolaq-zolaq kəsib satırlar.



## YENƏ ALTINTELLİ

Altıntellinin isə hər şeydən əli üzülmüşdü. Taleyinin necə olacağı ilə maraqlanmırdı. Ömrü harda qurtaracaq, necə qurtaracaq – əhəmiyyəti yox idi onunçun. Daha ağlamırdı da. Gözlərinin yaşı qurumuşdu. Atasının köhnələrindən daraldıb düzəltdiyi şalvar, çaxçur kimi daha əynindən tökülmürdü. Əyni istiydi, iri keçə papaq altına yığdığı saçlarının xırda hörüklərini əvvəlcə cuna ilə başının ətrafına sarımış, papağı üstündən qoymuşdu. O bu yolu getməliydi. O bu ələmi daşımalıydı. Alnına, taleyinə Zeynal yazıldığına elə əmin idi ki, ürəyinə heç bir şübhə yol tapa bilmirdi: "Allahdandı, – deyirdi, – Allahdandı. İstəməsəydi, qəlbimə niyə girirdi? İstəməsəydi, hökmü olmasaydı, ağzım nəydi ki, evdən çıxam? Ayağım quruyardı, belim quruyardı – yerimdən tərpənə bilməzdim. Deməli, bu yollarda sərgərdan olmağımda onun hökmü, onun əlilə, qələmilə alnıma yazılıb". Gedirdi. Karvanda heç kimə qoşulmurdu. Amma sarbanın, bəzirganbaşının bütün əmrlərinə dərhal əməl edir, ayağı girdən düşməmək üçün bir parça çörək qazanıb yeyirdi.

Qəfil, narahat düşərgələrdə ocaq qalayırdı, su qaynadırdı. Gərək olanda alayanıq, qarayanıq çörək də bişirirdi. Su da çəkirdi yolüstü quyulardan, daşıyırdı – ovdanlardan. Bilirdi ki, çox çəkməyəcək, mənzillərdən birində "ona" çatacaq. Axı "o" tələsmir. Harda qədim bir abidə görsə, tanınmış bir alim sorağı eşitsə – dayanır, ziyarət edir, dərs alır, şəhər və qəsəbələrlə tanış olur, sonra da növbəti karvanı gözləyir. Altıntelli bilirdi ki, yol birdir. Hindistana gedən böyük karvan yolu birdir. Burda yaxşı axtarsan, iynəni də taparsan. Diqqətli arıtsan düyünün sılıfını da tapıb üzə çıxardarsan. O ki qaldı "o" ola! Bəzən qıza elə gəlirdi ki, onun nəzərində bu qədər böyük, müqəddəs, əziz olan "onu" hamı tanıyır, hamı da sevir. Altıntellinin sevdiyi kimi! Başqa cür ola da bilməz! Məgər insanlar kordur? Məgər onlar görmür ki, aralarında necə gözəl bir insan gəzir? Əsil bir insan dolaşır? Bu ümidlər, bu xəyallar Altıntelliyə möhkəmlik, güc verirdi. O da karvanın bütün əziyyətlərinə, get-gedə sərinləyən havanın soyuğuna davam gətirir, dözürdü.

O qədər arıqlamışdı ki, necə deyərlər, qarnı belinə yapışmışdı. On üç, on dörd yaşlı oğlan uşağından seçilmirdi. Amma bununla belə, dünyanın hər üzünü görmüş, başı daşdan-daşa dəymiş sarban nədənsə şübhələnmişdi. Bir axşam şübhəsini bəzirganbaşı, Hacı Zahirə açdı:

– Hacı, bu karvana qoşulan gədədən gözüm su içmir.
– Nəyindən axı?
– Deyirsən, deyim yanı?
– Yoxsa oğru-əyriyə oxşadırsan?
– Yox, Hacı, tərsinə. Çox halal uşaqdı. Amma mən bir şeyə yaman fikir vermişəm. Dəstəmazda-zadda heç kişi xaylaqlarıynan birgə olmur. Meyli kişi məclisindən qırağadı. Hərdən əlini üzünə atır, elə bil, yaşmaq axtarır adamı görəndə.
– Mən də buna fikir vermişəm.
Sarban sevindi:
– Görürsən? Deyirəm axı, səhv eləmərəm.
– Kişi yığıncağından qaçmağına görə yox. Ola bilsin ki, nadürüst adama ürcah olmamaqçın belə eləyir. Mən də həm yaşlı adam görəndə əlini üzünə atmağından, həm də başqa əlamətlərdən duyuq düşmüşəm. Bu sirr Allahın sirridi. Gərək açılmamağına çalışaq. Görəsən hansı fələkzadənin balasıdı?!
– Hələ onu de! Fələkzadə olmasa, qız-gəlin xaylağının çöllərdə nə işi? Tək-tənha, kişi libasında. Bəlkə, yetimdi, pis müamilə görüb. Hardasa qohumu var, yanına gedir, pənah aparır.
– Hə... Pənah aparanları qorumaq müsəlmançılığın vacib şərtlərindəndi. Onun qeyrəti indi bizim ikimizə düşür. Çalış, gözün üstündə olsun, yetimi incidən olmasın.
Altıntellinin adı bu gündən sarban və bəzirgan yanında "yetim" olub qaldı. Hardasa bir tikə çörəyi artdı, hardasa daşıdığı suyun miqdarı bir satıl azaldı. Üzərində iki ata nəzarəti gücləndiyini isə duymurdu. Duymurdu – çünki bütün duyğuları "onunla" bağlı idi. Bu vücudda indi başqa duyğular, hisslər üçün yer qalmamışdı.
Dünyada istəsəydin, on karvançıya sifariş versəydin də belə görüşü yarada, təşkil eləyə bilməzdin. Bu görüş olmalıydı, baş tutmalıydı. Bu Leylini səhralarda düz-doğru Məcnun yanına aparan dəvə idi, eşq müğənnisi qoca Füzulinin dediyi kimi, şüursuz dəvəni, Leylini Məcnuna tərəf aparmağa məcbur edən eşq idi – cəzbəyi-Leyla idi. Elə bil o da Füzulinin tərənnüm etdiyi həmin dəvə idi ki, ovsarını eşq adlı böyük sarbanın əlinə vermişdi. Apar məni, hara məsləhət bilirsənsə, apar məni! – demişdi və eşq sarbanı da onun ovsarını çəkə-çəkə gətirmişdi Zeynalabdinə sarı...



Eşq Məşhəd ilə Herat yolunun tən arasında yerləşən "Torbəti-Cəm" mənzilinə gətirmişdi Altıntellini. Heç axtarmalı da olmamışdı. Axı "Torbəti-Cəm"də cəmi bircə dənə karvansara var idi. Karvan buraya axşam azanına azacıq qalmış gəlib çıxmışdı və bu zaman kiçik karvansara əhli hamılıqla abdəst-dəstəmaz alıb şam namazı qılmağa hazırlaşırdı.
Karvanın gəlməsilə də karvansaranın qənşərindəki böyük meydançanın dolması bir oldu. Maraqlananlar, səfəri gözləyənlər, karvanın Heratdan Kabilə hansı yolla: Meymənə – Bəlx – Məzari – Şərif yolu ilə şimaldan və ya Heyrat – Dövlətəbad – Qəndəhar yolu ilə cənubdanmı gedəcəyini öyrənmək istəyən səfərilər (yəqin ki, qış yaxınlaşdığından cənub yolu ilə gedəcəkdilər), kirəçi olmadığından karvansaranın azacıq əhalisi gələn karvanın dövrəsini aldı. Yük açan, dəvə xaxırdan, aftafa götürən, dəstəmaza qaçan bir-birinə qarışdı.
Bu cığ-vığ, bu tör-töküntü, bu qarmaqarışıqlıq içində Altıntelli birinci "onu" gördü: Zeynalabdin əllərini yuyurdu, səkinin qırağında dayandığından adamlardan bir səki hündürlüyündə ucadaydı. Bəlkə, ona görə. Yox! O elə ucada da olmalıydı. Başqa cürə ola bilməzdi. Məgər o bu insanların hamısı kimi bir ölçüdə, bir çəkidəydi Allah yanında? O, seçilmiş böyük bir məhəbbətə, böyük bir qəlbə layiq görülmüş xilqət idi. Tanrı belə ucaya qaldırmışdı ki, Altıntelli onu görə bilsin! Altıntellinin aşiq ürəyi, şair ürəyi onu görməyə, tərənnüm etməyə bilməzdi. Bilmirdi, bilməzdi də.
Zeynalabdin Herata getməzdən əvvəl bir müddət "Torbəti-Cəm"də qalıb, bu yerlərin qədim abidələri ilə tanış olmaq, mümkün olsa, Məşhəddəykən gedə bilmədiyi Türbəti-Heydəriyə getmək istəyirdi. Qəlbindəki ağır üzüntülər yollarda yavaş-yavaş azalmağa başlamışdı. Burada Məşhədə gedən karvançıyla dostlarına yazdığı ilk məktubu da göndərmişdi. Durduğu, əl-üzünü yumaqda olduğu səkinin üstündən açılmaqda olan karvana baxır, Məşhəddəki hadisələri, dostlarını düşünürdü. Birdən qarşısında dayanıb duran "oğlanı" tanımadı. Oğlan qənşərinə elə qəfil dikəldi ki, Zeynalabdin əlinə tökdüyü suyu saxlaşdıra, əl saxlaya bilmədi və bu su "oğlan"ın üstünə səpələndi. Zeynalabdin aftafanı yerə qoydu, gülümsədi, üzr istəməyə başladı.
– Bağışla, qardaş, böyürdən elə çıxdın ki, görmədim, islatdım səni!
"Qardaş" heyrət, həyəcan, səadət içində xəfifcə təbəssüm edir və düşünürdü: "Allahıma qurban olum, tapdım, itiyimi tapdım, axtardığımı

tapdım. Xoşbəxtəmmiş, deyirdim axı! Alnımdaymış, qədərimdəymiş! Nə tez tapdım. Allahım mənim day çox əziyyət çəkməyimə razı olmadı".

– Xoş gördük səni, mənim ağam!

"Mənim ağam!" Zeynalabdin dünyada nə desən düşünə bilərdi, amma Altıntellini burada görəcəyini ağlına da gətirməzdi. Özü də bu qiyafədə! İnanmadı! İnana bilməzdi. Odur ki, tanımadı da. Amma bu bəxtiyarlıq yağan baxışlarda elə bir utancaqlıq, elə bir işıq var idi ki, oğlana tanımadığı bu uşaq doğma kimi gəldi. Hardasa görmüşdü, bəlkə! Bəs harada?

– Məni tanımadınmı, mənim ağam? Elə günə qalmışam ki...

– İlahi!

– Sən!!!

– Mən...

– Burada?

– Burada...

– Kiminlə gəlmisən?

– Heç kimlə...

– Təkmi?.. Tək?..

– Tək... Mənim ağam! Qulun olmağa gəldim yollarda...

– Mənə qul lazım deyil! Özüm elə əqidəmin, Allahımın quluyam.

– Mən isə sənin qulun...

Kövrəldi. Bu böyük istək, bu nəhəng duyğu, bu ölçüyəgəlməz məhəbbət qarşısında kiçildi, kövrəldi Zeynalabdin Təmkin. Təmkin təxəllüslü cavan şair! Məstəli şah ləqəbli gələcəyin böyük alimi, Nemətullahi təriqətinin başçılarından, mübəlliğlərindən biri! İndisə didərgin, cəlayi-vətən, avarə dərviş tələbə dərviş kövrəldi və pıçıldadı:

– Altıntellim...

Qızın bu bircə kəlmə sözdən ürəyi titrədi, gözləri yaşla doldu: "Adımı bilirmiş!!!" Uçmağa qanadı olmadı. Sevincindən yamaqlı, birovuz libasına sığmadı: "Adımı bilirmiş! Özü də sonunda bir "mim" işlətdi – "Tellim" dedi! Altıntellim!!!"

Deyəsən, Altıntelli ömründə beləcə fərəhli xoşbəxt bir an yaşamamışdı. Hər halda yadına gəlmirdi. Hətta onun "məktubunu" alanda da belə xoşbəxt olmamışdı! Olmayacaqdı da!

Görüşün birinci anının heyrəti, təəccübü, hələ desəm, sevinci keçdi. Yerinə yersiz də görünsə, qəzəb gəldi. Zeynalabdin qıza deyil, onun vasitəsilə gəncdən sanki intiqam alan, onu çətinliklərə salan fələyə qəzəblənmişdi. O, yollarda bu qızı neynəyəcəkdi? Qərib ölkələri yanına



salıb gəzməlimi olacaqdı? "Belə şey olar? Ya Allah, sən onun qəlbinə nə qədər böyük bir hiss, böyük bir duyğu, böyük bir məhəbbət doldurmusan ki, o, belə bir addım atmağa vadar olub? Dünyada kiminsə tərəfindən belə sevildiyini bilməkdən böyük səadət yoxdur. Bu mənim üçün! Bəs o?" Bəs o! Bəs?! O bu addımı nəyin naminə atmışdır? Məgər mən ona da, atasına da olanını deməmişəm? Məgər mən ona bircə anlıq ümid vermişəmmi? Haradan dolub onun xırdaca, amma bu qədər böyük ürəyinə bu eşq, bu məhəbbət, bu inam? Məgər bilmir ki, mən onu rədd etsəm, burada da orada dediyim sözü desəm, o məhv olar, küçələrdə çöllərdə avara-sərgərdan qalar? Qız xeylağı! Qız xeylağı! Qız xeylağı! Görəsən bu məsələləri düşünübmü? Yox! Yox! Yox! Min kərə yox. Onun bu məsələləri düşünməyə imkanı, macalı, ixtiyarı olmayıb. Eşq əmr edib, məhəbbət buyruq verib – o da əməl eləyib, qalxıb yola düşüb! Dalısıycan nələr ola biləcəyiylə iş-gücü olmayıb. Aman fələk! Bu ziyanı mənə sən vurdun, sən! Məndən kimin, nəyin intiqamını alırsan, bu bədbəxt qızın əliylə!"

Qız onun qarşısında dayanmışdı. İndi əvvəlki kimi heç onun üzünə də baxmırdı. Başını köksünə endirmiş, çuxasının yaxasını didişdirirdi. Ağasının hökmünü gözləyən qul kimi! Bütün önündə ibadətə durmuş bütpərəst kimi. Məbuduna tapınmış brəhmən kimi. Müqəddəs odların qarşısında səcdəyə hazır olan atəşpərəst kimi!

Zeynalabdin ona nəzər saldıqca heyifsilənirdi. Qəribədir ki, o, bircə an da olsa, qızı yelbeyinlikdə, yüngüllükdə təqsirləndirmədi, təqsirləndirə bilmirdi. Qızın böyük eşqi onu qorxutmuşdu, möcüzə təkin heyrətə gətirmişdi. O yalnız bunu düşünürdü. Qıza bəzən həyatı, səyahətləri boyu rast gəldiyi qadınları kimi baxa bilmirdi. O, cavan olsa da artıq yaşına, yaşıdlarına görə zəngin həyat yolu keçmişdi, İraqı, İranı, Şirvanı gəzmişdi... Xeyli ölkələr, şəhərlər, kəndlər görmüşdü. Karvansaralarda, pirlərdə, zaviyyələrdə, hücrələrdə, xanəgahlarda gecələmişdi... Cürbəcür adam, cürbəcür kişi və qadın görmüşdü. Yaxşısı da olmuşdu, yamanı da. Ağırı da, yüngülü də. Ahılı da, cavanı da: dərin düşüncəlisi də, yelbeyini də. Altıntelli isə o gördüklərinin heç birinə bənzəmirdi. O özü üçün yaşamırdı. Altıntelli bütün varlığına hakim kəsilmiş ulu, uca, müqəddəs, əlirişməz, Allah qədər, bəlkə, ondan da artıq qüdrətə malik bir eşq üçün yaşayırdı.

Və Zeynalabdin bunu duyurdu. Özü Altıntelliyə belə bir duyğu bəsləməsə də, qızın qəlbini duyurdu. Yalnız acıyırdı. Bu qədər. Səsində

açıqca duyulan bir təəssüf hissilə dilləndi, yəqin ki, kiçik qardaşı Məhəmmədəli lazımsız bir hərəkət etsəydi, onda da beləcə, danlamadan, amma danlayarcasına danışardı:

– Gedək, yol gəlmisən, ac olarsan, gedək çaydan-çörəkdən yeyək.

"Yaxşı ki, oğlan libasındadı", – düşündü, – "yoxsa... nə edərdim?" Doğrudan da, Altıntellinin oğlan libasında olması işi xeyli asanlaşdırırdı. O, artıq yol uzunu paltara, onun verdiyi üstünlüklərə, ilkin gördüyü hər yad kişi qarşısında əlini üzünə atmamağa alışmışdı. Zeynalabdin özü də bu geyimdə qızla daha sərbəst danışa bilir, qız olduğunu unutmağa çalışırdı.

Namaz qılınıb qurtarmış, çörəkçilər, çayçılar, aşpazlar öz işinə – qazanının başına qayıtmışdı. Zeynalabdin Altıntelli ilə birgə çayçıya tərəf yollandı.

Sarban nə qədər işi çox olsa da, həmişə "yetimə" göz qoyurdu. Başı açılan kimi "yetimin" karvansaradakı bir cavanla danışdığını, birlikdə çayçıya doğru getdiyini görəndə, bəzirganbaşıya yaxınlaşdı:

– Hacı, – dedi, – yetim qohumunu tapıb. Bundan belə bizinən getməli olmayacaq, deyəsən. Ya əriymiş, ya deyiklisiymiş, qaçıbmış, küsübmüş. Nəsə bir Allah bilir, bir də özləri.

Hacı Zahir cavab verdi:

– Noolar! Təki elə özününkü olsun. Bizim də boynumuzdan vəzifə düşər.

## FACİƏLİ GÖRÜŞÜN SONU

Karvan tələsirdi. Herata getməliydi, qış düşürdü. Yolları qar-girvə tutandan sonra gediş-gəliş azalacaqdı. Karvan bazar ertəsi çıxmalıydı. Zeynalabdin də həmin bu mövsümdə bəlkə də, axırıncı karvanla "Torbəti-Cəm"dən çıxıb, Herata getmək fikrindəydi. Lakin Altıntellinin gəlişi onun bütün planlarını pozmuşdu. İndi o nə edəcəyini bilmirdi. "Torbəti-Cəm" balaca yer idi, kiçik bir məscidi, xırdaca mədrəsəsi var idi. Alimləri, dərin bilikli ziyalıları, şairləri çox deyildi. Doğrudur, buradakı xanəgahda tez-tez elm adamı səyyahlar, hər şeyə şübhə edən dərvişlər, xüsusilə Zeynalabdinin təzə-təzə təsirinə düşməyə başladığı Nemətullahi təriqətinin aşiqləri görünürdü. Onlarla bütün qışı bura-



da elmi, təriqi müsahibə və mübahisələrdə keçirmək olardı. Təbrizdə tacirlərin vasitəsilə satdığı maldan qazancı və xanəgahlara verilən vəqflər hesabına burda xeyli müddət yaşaya da bilərdi.

Bəs qız? Bəs Altıntelli? Onu neynəməli idi? Ona evlənə bilməyəcəkdi. Bu evlənmə onun həm arzularına, həm də duyğularına zidd idi. Arzularına zidd idi – çünki o hələ evlənmək istəmir, dünyanı gəzib, yeni-yeni biliklərə yiyələnmək və yazmaq istəyirdi. Bu onun ən ümdə arzusu idi. Duyğularına zidd idi – çünki qızı sevmirdi, təkcə bəyənməklə evlənmək istəmirdi. Altıntelli onun ürəyində öz böyük məhəbbətilə sevgi naminə demək olar ki, mərhəmətdən başqa heç bir hiss oyatmamışdı. Zeynalabdinin qızdan xoşu gəlirdi, onun ağlını, fədakarlığını, böyük məhəbbətini qiymətləndirirdi. Və yalnız bu qədər! Bundan oyana heç nə! Qız onun üçün bacı idi. Və yalnız bu qədər! Ondan o yana heç nə! Neyləməliydi?! Altıntelli öz hisslərinə "dayan" əmri verə bilmədiyi kimi, Zeynalabdin də öz qəlbinə "sev" hökmü verə bilmirdi.

Sevmədən evlənməklə, həm özünü, həm də o məsum, fədakar, sədaqətində hüdud bilməyən qızı aldada bilməzdi. Buna onun pak vicdanı yol verməyəcəkdi.

Deməli, qızı evlərinə qaytarmaq qalırdı. Deməli, qızın qayğısına qalmaq, onun taleyini düşümək lazım idi. Əgər evlərinə qayıtmaq istəməsə? Bəs onda? Onda o, Altıntellini neynəməliydi? Yox! Hər halda Altıntelli onu başa düşməliydi. Evlərinə qayıtmalıydı. Amma necə? Nə üzlə? Zeynalabdinin hələ irəliki macəradan xəbəri yox idi. O qızın artıq bir dəfə qaçırıldığını, Ömür bəy tərəfindən Zeynalabdinin öz adıyla aldadılıb aparıldığını, sonradan geri qaytarıldığını, məhəllədə necə qarşılandığını bilmirdi. Zeynalabdin bilmirdi ki, Altıntelli, əslində, ona "iki dəfə qoşulub qaçır". Birində Ömür bəylə olsa da, yenə Zeynalabdin eşqilə, Zeynalabdin adıyla gəlmişdi. İkinci dəfə isə... İkinci dəfə də məlumdur! Yenə də Zeynalabdin eşqilə, bu dəfə həm də el qınağı qorxusuyla və əbədi, tərk etmişdi doğma yurd-yuvasını. Doğmaca atasını, anasını, elini-gününü.

Zeynalabdin hələ bunları bilmirdi. Bu gecəni sabaha qədər yatağında eşələnirdi. Altıntelli hücrənin o başında geyimli-kecimli yorğana bürünüb divara söykənmişdi. Öz "bütünün" hüzurunda. O, oyaq ikən soyunub uzanmaq ağlına da gəlməmişdi. Zeynalabdin də hücrənin bu başında geyimli-kecimli yatağına sərilmiş, sübhə kimi də çevrilib-çevrilmişdi. Oyulmuşdu. Düşünmüşdü. Amma bir əncam çəkə bilməmişdi.

O başdan qızın mışıltısı da gəlmirdi. Səsini, nəfəsini necə batırmışdısa, Zeynalabdindən başqa hücrədə insan olduğuna inanmaq mümkün deyildi. Çarəsizlikdən girmişdi Zeynalabdinlə bir hücrəyə. Kiçik karvansara gələn səfərlərlə elə dolmuşdu ki, ayrıca hücrə tutmaq barədə düşünmək də olmazdı. Sonra da ki, Zeynalabdindən başqa dünyada onun indilik kimi var idi? Bu gen dünyada, bu milyonlarla insan dolu dünyada onun bircə adamı var idi: Zeynalabdin! Bircə ümidi, pənahı var idi: Zeynalabdin! Odur ki, utana-utana olsa da, səksəkəli getsə də, inamla girmişdi bu hücrəyə. Burada ona bir afət toxuna biləcəyi ağlına da gəlməmişdi. Onun nəzərində Zeynalabdin dünyanın ən pak, ən müqəddəs adamıydı. Çarəsiz, sevən bir qıza bəla, afət toxundurmaz, çirkin əməl tutmazdı. Çirkin əməl ona yaraşmırdı, buna əmin idi qız. Bununla belə, səksəkəliydi. Oyaqla yuxu arasında, röya ilə mürgü arasındaydı...

Zeynalabdin isə onun taleyini düşünə-düşünə çırpınırdı...

Axşam yeməyindən sonrakı mükaliمə qulağında səslənirdi. Eyvanın səkisində yanaşı oturmuşdular. Bir-birinin üzünə baxmasalar da, gözlərini görər kimi idilər. Qəribə mükaliməydi. Oğlan qızı inandırmağa, evə qaytarmaq üçün hazırlamağa çalışmışdı:

– Neyçün bu işi tutdun? – soruşmuşdu.

– Sənsiz yaşaya bilmədim.

– Dərvişəm...

– Bilirəm.

– Ev-eşiyim, mal-madarım, dincliyim yoxdur və olmayacaq da. Heç bir zaman...

– Bilirəm.

– Evlənə də bilmərəm...

Hiss elədi ki, Altıntelli qıpqırmızı qızardı:

– Bacı götür, kəniz götür... Xidmətində duraram...

– Dedim bayaq ki, mən özüm əqidəmin, Allahımın quluyam, mənə qul yaraşmaz... Bir də qız uşağı...

– Başa düşürəm, amma... Səni görmədən də yaşaya bilmirəm, dirilik mənə haramdı... Ölüm yaxşıdı... Yollara, libasa isə day öyrəşmişəm... Sənə ağırlığım çox düşməz...

Zeynalabdin bu sədaqət, bu fədakarlıq qarşısında çaşmışdı, nə edəcəyini əsla bilmirdi. Olub-olanları başa düşə bilmirdi. Çünki mükalimə zamanı Altıntellinin üzünü görmürdü. Yanakı əyləşmişdilər. Özü də heç bir başqa şey görməyən nəzərlərini karvansara darvazasından o



yanda əyləşib göyşək vuran dəvələrə zilləmişdi. Amma gözüyumulu halda yatağında uzanmasına, qızın da hücrənin o biri başında səssiz-səmirsiz divara qısılmasına baxmayaraq, Altıntellinin səsini lap aydın eşidirdi. Bütün çalarları ilə bu səs, hüznü, kədəri, arabir ani sevinci ilə onun qulaqlarında indicə eşidilirmiş kimi səslənirdi.

Və gənci anlaşılmaz qorxu, qayğı dolu bir həyəcan bürüyürdü. Düşünürdü: "Yarməhəmməd əmiyə məktub yazıb Altıntellinin yerini bildirmək lazımdır. Bəlkə, hələ bir qədər burada qallıq, bəlkə, kişi özü gələr, anası gələr, qız da onları görüb fikrindən daşınar, qayıdıb gedər evlərinə! Amma deyəsən, axı bu da mənim xam xəyalımdı. Gedənə, fikrini dəyişənə oxşamır. Kağız yazaram, kişi gələr, qışın ağır günlərinə düşər. Qız da üzə durar, getməz... Bəs onda?! Yox! Ata hərbəsinə dözməz. Bir də əlini atasının əlinə tapşırandan sonra qayğıları onun üzərinə düşür. Mənsə... bir də karvan olsa, Herata gedərəm, olmasa, burada qalıb Türbəti-Heydərə gedərəm. Bir az da oraları gəzib qayıdaram. O vaxtacan da yaz gələr, yenidən karvan yolları canlanar... Herat səfərinə çıxaram..."

Sözdə hər şey, xəyalda hər iş o qədər asandı ki!

Altıntelli də yatmamışdı. Deyəsən, qız onun fikirləşdiyini düşünürdü: "Necə olacam? Birdən istəmədi? İstəmirdi elə! Özüm gəlmişəm. Özüm də günahkaram, özüm cavabdehəm. Onnuq nə var ki? Deyəsən, məni evimizə qaytarmaq istəyir. Özü də mənnən qayıtsa, qayıdaram. Qayıtmasa – heç vaxt! Mən oraya qayıtmaq üçün çıxmamışam oradan. Birdən zorla qaytarmaq istəsə? Zorla qaytarmaq istəsə olmuşları danışacam ona. Amma elə-belə danışmağa üzüm gəlmir. Utanıram. Məni danlar. Gülər mənə! Xatama, səhvimə, onu Ömürlə dəyişik salmağıma, kələk məktubuna inanmağıma gülər... Yox, zorla salmasa, deməyə dilim gəlməz. Onsuz da məhəllədə heç kimin, evdə ata-anamın üzünə baxmağa üzüm yoxdu. Bir də! Bir də! Yox-yox! Heç vaxt! Heç vaxt!"

Və bu "heç vaxt"lar ürək döyüntüsünə çevrilmişdi. Dilində, qəlbində, beynində gürz kimi vururdu qızı... Daha düşünə də bilmirdi. Elə təkcə "heç vaxt!" deyib dururdu. Onsuz da özü öz ölüm hökmünü vermişdi. Bir də bu mayanı təzələməyəcəkdi ki! Əgər bu dəfə də, bu görüşdən sonra da "yox" desə, qız yaşamayacaqdı və bunu yaxşı bilirdi. Əmin idi ki, yaşamayacaq!

...Qəfil bağırtı, şaqqıltı eşidildi. Və hər ikisi geyimli uzandığından yerlərindən dik atılıb, birbaşa hücrənin qapısına çıxdılar. Səhər

olmamışdısa da, hava aralanmağa başladığından ara aydınlıq idi. Səhərə qalmış ayın ortalığı ölgün də olsa, bir qədər işıqlandırırdı. Karvansaranın önündəki meydanda aləm bir-birinə qarışmışdı. Dəvələr qaldırılmış və ya özləri küyə düşüb qalxmış, bör-bör böyürürdülər. Naməlum atlılar meydanı əhatə etmişdi. Kimin əlinə nə keçirdisə dəvələrin böyründəki yüklərdən qamarlayırdı. Yüklər bu gün səhər namazından sonra dəvələrə çatılmalı və karvan Herata tərəf yollanmalı idi. Dəvələrin böyründə yatan sarbanlar, dəvəçilər, nökərlər, hücrə tutmağa pulu olmayanlar, cahangəşt dərvişlər ayağa qalxıb, qorxu içində hərə bir tərəfə qaçırdı.

Atlılardan bəzisi sıyrılıb yerə düşmüşdü. Hücrələrə cumur, hücrədən çıxanları qamçılayır, gənclərdən, əllərinə keçsə cavan qız-gəlindən, mal-madardan yır-yığış eləyir, ata qatıra, dəvəyə çatıb aparmağa hazırlaşırdı. Piyadalanmış qaçaqlar bir-bir hücrələri gəzdikcə yesir və mal topladıqca, atlı qaçaqlar onları bir tərəfdən qoruyur, digər tərəfdən də karvan əhlinə qara-qorxu gəlmək üçün hey havaya, dər-divara, ürkmüş heyvanların, yuxudan sərsəm kimi qalxmış adamların ayaqları altına peydər-pey güllə yağdırırdılar. Əli qılınclı olanlar da var idi.

Elə bu zaman piyadalanmış qaçaqlardan birinin gözü heç bir şey dərk etmədən hücrənin kandarında dayanmış Zeynalabdinə, Altıntelliyə düşdü. Onlar dəhşətli mənzərəyə tamaşa edir, nə edəcəklərini bilmirdilər. Çünki heç birisi ömründə qaçaq görməmişdi və bu atlıların kim, nəçi olduqlarını bilmirdi. Karvan əhlindən nə istədiklərini, bu qırğını niyə törətdiklərini hələ ki, anlamırdılar, daha doğrusu, ağıllarına batmırdı. Gözlərilə görsələr də, inanmaq istəmirdilər bu zülmə.

Qaçaq hər iki gəncin simasını, görkəmini bəyənmişdi. Hər ikisi qul kimi yaxşı pula gedə bilərdi. Odur ki, cumub onların əlindən tutdu, dartıb yesir dəstəsinə tərəf aparmaq istədi. Zeynalabdin əlini dartdı, qızı da qaçağın əlindən çıxarmaq istədikdə, atlılardan biri yoldaşına köməyə gəldi, tüfəngini üzünə qaldırıb, piyada qaçağı döyməkdə olan gənclərə tərəf bir güllə atdı.

Zeynalabdin ufultuyla qolundan yapışanda Altıntelli özünü onun üstünə atdı, köməyinəmi gəlirdi, köməkmi istəyirdi, məlum olmadı. Kürəyi yandı. İkinci güllə Altıntelllinin düz kürəyindən dəymişdi. Qız Zeynalabdinə sığınanda hər iki yaralı yıxıldı. Qaçaq artıq onları ölmüş, ya da məsrəfdən çıxmış bildiyindən, başqa qarət malı üstünə cumdu. Bunlar daha əlindən çıxmışdı. Başqasını ötürmək istəmirdi.



Zeynalabdin yaralı olduğundan özünü saxlaya bilmədi, qız ona sığınanda ağırlıqla birlikdə yerə sərildi. Altıntelli də aşiqinin qoynuna sığınmış məşuqə kimi onun qoynuna yıxıldı.

Hər ikisini qan aparırdı. Qaçaqlar gəldikləri kimi də sürətlə və hay-küylə qamarlaya bildiklərini götürüb, karvansara meydanından uzaqlaşdılar.

Torbəte-Cəm əhalisi yuxudan oyananda hər şey bitmişdi. Karvansaraya yaxın evlərdən müxtəlif səslər eşidilirdi:

– A balam, bu nə səsidi?

– Deyəsən, çapovulçulardı...

– Allah, sən saxla, Allah sən saxla!..

– Day hardan saxlayacaq? Qırdıqlarını qırıblar, apardıqlarını da aparıblar.

– Köməyə gəlin, köməyə!..

– Kim imişlər görəsən?

– Deyir, bəxtiyarilərdənmiş...

– Yox əşi, şahsevən qaçaqları olar...

– A balam, buralarda şahsevən nə gəzir? Pəhləvilər olar.

– Yox, yooox... Beluclardı.

– Puştilərdi...

– Hər hansı it oğludursa, yıxıblar camaatın evini.

– Allah bəlalarını versin.

– Ay bilmirlər, il bilmirlər, həftə səkkiz mən doqquz cumurlar karvansaralara, karvanlara vay verirlər.

– Axı bir bilən yoxdu kimdilər?

– Əbül-bəşər övladıdılar...

– Hələ o Əbül-bəşər kimdi, baba dərviş.

– A balam, Adəm babanı deyir də...

– Hə... Belə de... Gedək görək karvansaraya nə divan tutublar? Bəlkə, köməyimiz dəydi...

– Toydan soora nağara, xoş gəldin Bayram ağa.

– Deme!.. Onu bilmək olmaz.

Aralıda siyiri kəsilmiş bir dəvə böyürürdü.

– Ayə onu tez kəsin, yazıqdı. Bir də ki, mındar olar. Əti də ələ gəlməz.

Karvansaranın həyəti məğlubiyyətə düçar olmuşların müharibə meydanına bənzəyirdi. Ölən, yaralanan, əzilən, döyülən düşdüyü yerdə

qalmışdı. Çapqınçıların əlindən düşüb-qalmış bir top parça, yerə dağılmış qoz-fındıq və başqa quru meyvələr; ləbləbi taylarının "qarnı" cırılmış, dağılan dağılmış, dağılmayan hələ də tayın yatma gücü ilə "axmaqda" idi. Sovçalar, sənəklər – saxsı qismindən olan su qabları, dəri meşklərin sınanı sınmış, cırılanı cırılmış, suyu dağılıb getmişdi. Mis güyümlər, dəbbələr içindəki su və ya yağ böyrü üstə yıxıldığından hələ də "loqqultu"su kəsilmirdi...

Çapovulçular yalnız atla, dəvə-qatırla apara bildiklərini aparmış, apara bilmədiklərini düşünülməz bir amansızlıqla darmadağın etmiş, vurub yıxmış, sındırıb-dağıtmışdılar. Qəflə-qatır sınmışdı.

İnsanlar da bu vəziyyətdə idi. Müqavimət göstərənlər yaralanmışdı, onlardan da öləni elə dəstinə ölmüş, ağır yaralananı can üstündəydi.

Karvansaradan xeyli aralı yerləşən evlərin adamları hay-həşirə yuxusundan vaxtsız durmuşdu. Sübhün gözü açılmamış qopan bu tufanın nə olduğunu dərk edənə, köməyə gəlməyə cürət edənəcən iş-işdən keçmişdi. Qarılar demişkən: "Olan olmuş, torba dolmuşdu".

Ən əvvəl özünə gəlib köməyə qoşan bəzirganbaşı Hacı Zahir oldu. Adamlarını yoxladı. Ölən yox idi. Amma bir xeylisi qılıncla, qırmancla, ucu dəmir qamçıyla yüngülvari yara almışdı. Hamısı da alt paltarında hövlanak yerindən qalxan adamlar idi. Hacı onları geyinməyə göndərdi.

Karvansara sahibi səs-küyün qaçaqlar tərəfindən törədildiyini, gecə basqını olduğunu anlayıb, yatağından durmamışdı. O, əndərunda istirahətə məşğul idi və quldurlara qarşı əlindən heç bir şey gəlməyəcəyini, əksinə, onları özünə qarşı da qəzəbləndirəcəyini bilirdi. Anlayırdı ki, qaçaqlar onunla düşmən kəsilib, hər üçdə, beşdə bir karvansaraya hücum çəkəcəklər. Odur ki, durub yardıma gəlməmişdi. İndi daxili bir xəcalətlə olsa da, mülkünə pənah gətirmiş adamların vəziyyətini görüb sıxıntı çəkə-çəkə bacardığı köməyi edirdi.

Birdən sarban, Hacı Zahirə yanaşdı, qəribə titrək bir səslə dedi:

– Hacı, bizim o "yetim" də foot olub, deyəsən.

Kişi bu sözlərlə də hücrələrdən birinin qənşərinə düşmüş iki adamı göstərdi. Deyəsən, sarban ağlayırdı. Hacının da ürəyi sıxıldı. Geyimindən "yetimi" tanımışdı.

– Bəlkə, yaralıdı?

Onlar ikilikdə yerdəkilərə yaxınlaşdılar. Bu iki nəfər cavan adam idi. Bir-birinin üstünə elə yıxılmışdılar ki, elə bil məhəbbətlə qucaqlaşıb yatmışdılar. Sarban yığılanlardan bir neçə adamın köməyi ilə Hacı Zahirlə



"yetim" adlandırdıqları üstdəki cavanı qaldırıb arxası üstə yerə uzandırdılar. Altdakı Hacı ilə sarbanın dünən karvan gələndə səkinin üstündə gördükləri oğlan idi. "Yetim"in bununla danışdığını da görmüş, qohumunu tapıb qovuşmağına, yolun əzablarından qurtarmağına sevinmişdilər. Oğlanı qaldıranda inildəməyindən yaralı olduğunu anladılar. Üstdəkinin də qanı onun əyin-başına axdığından neçə yerdən, haralarından yaralandığını bilmirdilər. Paltarının yaxasını açıb baxdılar. Yarası bekara şey idi. Yalnız qolundan yüngülcə yara almışdı. Qan "yetim"inki idi...

Mal-madarı əlindən çıxdığından indi-indi özünə gəlməyə başlayan sarbanı bu faciə elə sarsıtmışdı ki, yenidən bəzirganbaşıya yaxınlaşıb, təkrar etdi:

– Bu bizim bədbəxt yetimdi... Hacı...

Adamlar Zeynalabdinin yarasını sarıdılar. Çox qan itirib zəifləmiş, ağarmış oğlana bal şərbəti içirdilər. Güllələr ona "yetim"dən çovuyub, ötüb dəymişdi. Qolunun yarasını bağlayanda gözlərini açdı, özünə gələcəyin qalxıb əyləşdi, ətrafına göz gəzdirdi və yerə uzadılmış "yetimi" görüncə cəld ona doğru atıldı:

– Altın...

Hacı Zahir dərin bir kədərlə dilləndi:

– Hələ ölməyib...

Cavan oğlan "Altın" adlandırdığı yaralının başını sağlam əlilə qaldırıb dizinin üstünə qoydu. Sifəti qan içindəydi. Silmək istədi, bir şey tapmadı. Salamat əlilə yaralının alnına toxundu:

– Altın!

Yaralı əvvəlcə ağır-ağır inlədi, sonra da çətinliklə göz qapaqlarını qaldırıb qan sağılmış gözlərilə baxdı. Səsi tanımışdı. Dumanlar içində olsa da başının kimin dizi üstündə olduğunu, üzərinə əyilən sifətin sahibini tanıdı. Vücudundan sanki titrəyiş keçdi:

– Zeynal!.. Sağsan? – deyə bildi və yenidən deyəsən, huşunu itirdi.

Zeynalabdin ətrafına göz gəzdirdi. Çevrəsinə yığılmış adamların üzünə yalvara-yalvara baxdı, indi onun ümidi artmışdı. Yaralı danışa bildi. Əgər onu tanıya bildisə, deməli hər şey itməyib. Ümid var. Amma onu içəriyə – hücrəyə aparmaq lazımdır. Onun buna gücü çatmayacaqdı. Üzünə nə üçünsə ən ləyaqətli adam kimi görünən, tanımasa da ona yaxşı insan təsiri bağışlayan Hacıya çevrildi:

– Rica edirəm, başınıza dolanım. Kömək eləyin! Onu mənim hücrəmə aparaq. Yaralı orda sarınmalıdı.

Hacı Zahir hər şeyi anlayırdı. O, "yetim"in kimliyini bilməsə də, xəbərdar idi, bilirdi ki, Zeynalın "Altın" adlandırdığı yaralı qızdır.

– Bu saat... Əlbəttə... – dedi və sarbana pıçıldadı: – Biz "yetim"i onun hücrəsinə aparırıq. Sən qaç karvansaraçının arvadından, anasından, bacısından kim varsa, tap göndər ora! De ki, zənən xeylağı yaralıdı. Biz sarıya bilmərik, gəlsinlər görək!

Yığılanlardan kim isə dilləndi:

– Əyşi, Hacı, qoy elə burda sarıyaq, mən biləni onunku allahlıqdı...

Hacı etirazla əlini qaldırdı və nökərlərindən birinin gətirdiyi dəvə kapanını yerə saldırdı. Köməkləşib yaralını onun üstünə qoydular. Dörd adam kapanın dörd küncündən yapışdı. Zeynalabdin irəli keçib hücrəsinin qapısını geniş açdı. Kişilər içəri girdilər. Yaralını hazır yataqlardan birinin üstünə uzandırdılar. Yatağın ikiliyi Hacının nəzərindən qaçmadı...

Bir az sonra karvansaraçının arvadı ilə anası qızın pal-paltarını çıxardıb, yaralarını sarımışdılar. Güllənin biri kürəyindən dəyib sol döşünün altından çıxmışdı. Çiynində, belində də bir neçə yara var idisə də, ən çox ağırı o döşünün altından keçən yara idi. Altıntelli çətinliklə nəfəs alır, tez-tez su istəyir, tez-tez huşunu itirirdi. Arvadlar tanımasalar da cavan, gözəl qızın halına acıyırdılar. Göz yaşları ilə hücrəni tərk edib iş-güclərinə getdilər. Otaqda təkcə Zeynalabdin qaldı. O, qolundakı yaranın qızdırma verməsinə, qan itirməkdən xeyli zəifləməsinə baxmayaraq, bir an belə Altıntellinin yastığının kənarını tərk etmirdi. Su istədikcə xırdaca kətan parçasını mis piyalədəki suya batırıb, qızın bozarıb keşkə bağlamış dodaqlarına sürtürdü.

Altıntelli dilinin ucu ilə bu sərin maye damcılarını yalayır və yanğı içində pıçıldayırdı:

– Su... su... Zeynal... su!..

Hərdənbir əməlli-başlı özünə gələn anlarda Zeynalabdinin üzünə baxıb gülümsəyir, ummadığı səadətdən bəxtiyar olmuş insanlar kimi baxırdı.

– Səni i...şə sal...dım...

Zeynalabdin nə cavab verəcəyini bilmirdi. Hörmətlə, böyük bir məhəbbətlə qarşısında səcdə edirmiş kimi başını yaralıya doğru əyirdi. Belə canhövlü ayılmalardan birində Altıntelli ağrılarını yenib, yenə gülümsəməyə səy elədi:

– Gəl özümüzü aldatmayaq, Zeynal! Yuxumu da görmüşəm. Arvadlar yaralarımı bağlayanda... vay... vaysınmaların... dan da...bilirəm. Elə...



özüm də görürəm... ge... gedəriyəm... Yox, demə... Vaxtıma az qalıb... Canım boğazımaca...an gəli...b...

Zeynalabdin istəklisinin üzərinə əyilən kimi əyildi, dodaqları az qala Altıntellinin dodaqlarına dəyirdi, hər iki odlu nəfəs bir-birinə qarışanda qız xoşbəxtliklə gülümsədi:

– Ah!.. Kaş ömrüm bir az uzun olaydı... Yooox!.. Bunacığaz üçün də ölməyə dəyərdi... Zeynal... mə...ni... bağışla! Başına iş gəə...tir...dim...

Nəfəsi tıncıxırdı. Kəsik-kəsik, ağır-ağır nəfəs alaraq danışırdı:

– Gülmə mənə!.. E...lə bilirəm ki, ömrüüm elə bu... bu... birce... saat ooo...ooollub... sə...ninlə... dünyyyaaanı... ge...dib gəə...zə bilmədim. Tək gə...əəzəcəksən... Mənim də... gözlərimlə baaax dünyamıza... Mənim də...

Zeynalabdin ağlayırdı, amma Altıntelli daha bunu görə bilmirdi. Zeynalabdin anlayırdı ki, qız köçür dünyadan... Gəzmək, onunla yanaşı əl-ələ gəzib görmək istədiyi dünyadan əbədilik gedir. Amma qız bunu duysa da büruzə vermirdi. Son nəfəsində belə bir dünya dolusu sevdiyi insanı öz ölümü ilə qəmləndirmək istəmir, gülümsəməyə çalışır, amma daha bacarmayıb deyirdi:

– Mə...nim də... əvə...zi...məə... gəz... dünya...mızı...

Zeynalabdin artıq Altıntellinin onun əlindən getdiyini düşündükcə öz-özünü daxilində qamçılayırdı. O bu böyük məhəbbətin qədir-qiymətini bilməmişdi. Bilməyi bacarmamışdı. Qızın saçlarını sığallaya-sığallaya dərin təəssüf hissilə pıçıldayır, pıçıldayırdı:

– Bilmədim, məhəbbətinin qədrini bilmədim, Altıntellim!

Pıçıldayırdı, amma can verməkdə olan gözəlin bu sözləri, bu təəssüfü eşidib-eşitmədiyini bilmirdi. O sonralar da çox deyəcəkdi bu sözü: "Bilmədim. Qədrini bilmədim o böyük məhəbbətin! Keçdim. Yanından keçdim o böyük eşqin, fədakar qızın, sədaqətli qızın. Ata-anasından, el-obasından keçib öz böyük eşqinin dalınca gedən Altıntellinin!" Sonralar da bu və buna bənzər sözlər ürəyini çox deşəcəkdi hələ. Öz-özünə müraciətlə çox deyəcəkdi uzun-uzadı yollarda, qəlbi, ürəyi, düşüncəsilə tək-tənha qaldığı karvan yollarında, qumlu düzənlərdə, qarlı zirvələrdə, atəşdən, istidən qovrulan səhralarda, insanın iliklərini donduran qarlı-buzlu aşırımlarda... Sonu həyatının axırıncı günündə başa çatan, amma əsərləri ilə hələ indinin özündə belə dünyanı dolaşan Zeynalabdin, hələ bu və buna bənzər sözləri çox deyəcəkdi. Yadla, başqasıyla danışır kimi, ağır cinayətdə müqəssir bildiyi özgə birisinə söyləyir kimi

amansızlıqla danışırdı: "Keçdin! Elə bir məhəbbətin yanından keçdin! Qiymətləndirə bilmədin! Gəncliyinmi mane oldu? Cahilliyinmi qoymadı? Tutduğun yola, əqidəyə maneçilikmi etdi? Hər halda duya bilmədin Altıntellini! Dünyanın böyük bir hissəsini addım-addım, qarış-qarış gəzdin. Bir də könlünə elecə yatan başqa birisini görmədin. Çıraqla axtardın – tapammadın. Sənin üçün qədər olmuş ömrünün çoxunu yaşadığın qırx iki ildə... Qırx iki yaşında... adətlə evləndi... Amma heç kəs, ömrün uzunu karvansaralarda da, saraylarda da rastlaşdığın qadınların, qızların içində xoşa gələni də oldu, ürəyə yatanı da, ağıllısı da oldu, gözəli də... Hökmdarı da oldu, cənganəsi də... Amma heç kəs Altıntellinin yerini vermədi, verə bilməzdi. Heç kəs! O sədaqət, o vəfa ilə heç kəs sevmədi! Heç kəs! O səninlə dünyanı dolaşdı, gözlərinə işıq, dizinə taqət oldu çətin günlərində. Qürbət ellərin tənha xanəgahlarında atəşdən yananda, qızdırmalı alnının üstünə əyildi... Xəyalı məhəbbətində yaşadı, qəlbini doldurdu. Amma... Sən isə...

Səhər açılmışdı. Altıntelli artıq nəfəs almırdı. Zeynalabdinin fatihə surəsini oxumağa belə dili gəlmədiyindən yerindən qalxdı. Bu yerdə heç kəsi tanımayırdı. Altıntellinin dəfnini icra üçün karvansara sahibi ilə Hacı Zahirin dalınca yollandı. Gözləri qızarmışdı, kirpikləri nəm idi...

Zeynalabdin səhər hücrədən çıxanda, Hacı Zahir qapıda onu gözləyirdi. Cavan dərdindən salamını da unudub inlədi.

– Aman Allah!

Bəzirgan Hacı Zahir onun qoluna girib həyətin ortasındakı böyük səkinin üstünə qaldırdı:

– Nəyin idi?

– Əslin axtarsan, heç nəyim. Amma indi burada onun məndən, mənim də ondan yaxın adamım yoxdur.

– Biziynən gəlirmiş bura... Nə gözəl insan imiş... Belə iş tutmağına baxma, çox həyalı, abırlı qız idi. Gözəl idi də... Belə gözəllərə bizim şəhərdə "şəhraşub" deyərlər. Yəni şöhrətli, gözəlliyi dillər əzbəri olan qız...

Və bəzirganbaşı Yetimin yol həyatını Zeynalabdinə danışdıqca gəncin gözlərindən yaş süzülürdü. Sonra da Zeynalabdin Altıntellinin həyatından bildiyi səhifələri bəzirgan Hacı Zahir üçün çevirməyə başladı.

Bəzirganbaşının əmrilə kəfən hazırladılar. Karvansara sahibinin qoca anası, arvadı və buraya yaxın evlərdən bir neçə qadın yığışıb gəldi,



Altıntellinin cənazəsini yudular, kəfən biçdilər, üstündə ağı söyləyə-söyləyə kəfənlədilər.

Mal-madarı, dəvələri əlindən getsə də, bəzirgan Hacı Zahir "Yetim"in qarşısında öz insanlıq borcunu yerinə yetirirdi; müdrik, dünya görmüş adam idi. Bilirdi ki, ölən ilə sınanı geri qaytarmaq olmaz.

Əlbəttə, o həm də igid adam idi, silahı da var idi, karvanlarda ümumiyyətlə, döyüşə hazır, silahlı mühafizələr olurdu və bu karvanda da var idi. Amma qaçaqlar onları şirin yuxu içində; şəhərin demək olar ki, ortasında yaxalamış, qəfil, yatmış adamların üstlərini almışdılar. Ona görə də müqavimətə rast gəlmədən bu zülmü eləmişdilər. Əgər çöldə, ayıq vaxt olsaydı, bəzirgan Hacı Zahir və onun adamları hər qaçağa can verən deyildi. Arxayınlaşmışdılar. İndi daha təəssüfün, vaysınmağın yeri deyildi. İndi Heratdan Təbrizə qayıdan karvanı gözləyib, karvansarada qalmalıydı. Sonra da evinə dönəcəkdi. Odur ki, bəzirgan heç bir narahatlıq əlaməti göstərmədən, zahiri bir sükunətlə insanlıq borcunu yerinə yetirirdi. Öz böyük eşqinin qurbanı olan bu bədbəxt qız, hacının ürəyinə girib, məhəbbətini qazana bilmişdi. Bəzirgan onu bala kimi, kiçik qardaş kimi sevmişdi. Nə edirdisə, ürəkdən eləyirdi.

Onlar yaxındakı məsciddən molla da dəvət elədilər. Cənazənin dövrəsinə xeyli adam yığıldı, qürbət eldə şəhid ölən Altıntelli üçün cənazə namazı qıldılar. Sonra da götürüb qəbiristana apardılar. Burada da xeyli qəribdost adam toplanmışdı. Altıntellini ana torpağa tapşırdılar. Başdaşının üstünə "Altıntelli binti Yarməhəmməd" sözlərini yazdırdılar. Bəzirgan da, Zeynalabdin də belə düşünmüşdü ki, Altıntelli bu qürbət eldə, yad torpaqda əmanəti yatır. Ata-ana bircəsinin cənazəsini yəqin ki, atası gəlib aparacaq: doğulduğu Məşhədi-müqəddəsdə dəfn edəcəkdilər. Suyunbikə "bala" deyib ağlayanda başını qızının qəbirdaşı üstünə qoya bilsin.

Zeynalabdin camaat gedəndən sonra uzun müddət təzə qəbrin yanında nəm torpağın üstündə əyləşdi. O bu faciəli, amansız, vaxtsız ölümdə özünü də müqəssir hesab edirdi. Günahsız günahkar idi Zeynalabdin. Günahsız günahkar! Əgər o, Məşhədə gəlib Hacı Tahirin evində mənzil tutmasaydı, Altıntelli onu görüb sevməyəcəkdi. Başqasını, məhəlləsinin cavanlarından birini bəlkə də elə Ömür bəyin özünü sevib gedəcək, xoşbəxt olacaq, vaxtsız ölməyəcəkdi.

Əgər Zeynalabdin qızın məhəbbətini rədd etməsəydi, Yarməhəmmədin "oğlum ol, buralarda qal" təklifini qəbul etsəydi, diyarbədiyar düşməsəydi, Altıntelli bəxtəvər bir gəlin, oğul-uşaq anası olub yaşayacaq, vaxtsız ölməyəcəkdi. Buydu Zeynalabdinin günahı! Buydu günahı! Və oğlan öz-özünü danladıqca bir şeyi unudurdu ki, o heç vaxt vicdanı ilə mübadiləyə girməyib. Heç vaxt, heç kəsə yalan deməyib. Heç vaxt, heç kəsi aldatmayıb. O cümlədən Altıntellini. O cümlədən Yarməhəmmədi. Düzünü deyib. Düşündüyünü deyib. Bu qədər!

Bu düz sözü isə sevən, aludə qız qəlbi qəbul etməyib. Hardan biləydi bunu Zeynalabdin? Hardan biləydi? Evində bişməmişdi, qonşusundan gəlməmişdi.

Zeynalabdin günorta yeməyini bəzirganla birlikdə yedi. Şama çıxa bilmədi. Günortanı birtəhər dözümlü keçirmişdi, axşama yaxın qızdırması qalxdı. Qızdırma içində anası başının üstünə gəldi. Əlini lap Nənə qarı kimi onun alnına qoydu: "Dərdin alım, yanırsan ki! Qərib, qürbət eldə qayğını çəkən varmı? Xörəyini kim bişirir? Çayını kim qoyur? Yerini kim salır? Paltarını kim yuyur? Gözümün işığı, belə azarlayanda qayğına kim qalır? Ulular deyib axı.

Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəriblik yaman olur,
Baş yastığa yetəndə.

Başın yastığa yetəndə başucunda kim əyləşir? Çayını-suyunu kim verir? Dərdin ürəyimə bala, başından bir tük düşəndə mənə əyan olur. Ürəyim sızım-sızım sızıldayır". Şirinbəyim ana o gecə bir an da olsun balasını "tərk etmədi", başı üstündə şam kimi yandı. Tək bircə bəzirgan Hacı Zahir gecə düşəndə ona dəyməyə gəldi. Yenə də bal şərbəti gətirmişdi. Bax, təkcə bu zaman Şirinbəyim ana bir yarım saatlığa "evin bucağına çəkildi". Sonradan yenə də qızdırma içində, tənha hücrədə, təklikdə qalıb sayıqlayan balasına "ürək-dirək verməyə" başladı... Tək! Tənha hücrələr! Bu nə qədər olacaq? Ömrü uzunu! Şamaxıdan Seylona, Kərbəladan Məkkəyə qədər, Məkkədən Sumatrıya qədər... Bütün yaxın, Orta və Uzaq Şərq, Kiçik, Orta və Cənubi Asiya... Ömür boyu!



Bütün bunlar da hələ sonra olacaq! İndi isə gəlin, bala həsrətilə çırpınan Şirinbəyim ananı Zeynalabdinin yastığı ucunda, alnına sərin dəsmal sərən qoyub hücrədən çıxaq. Ana-balanı tək buraxaq...

Səhər Zeynalabdin gözünü açanda artıq qızdırması tamamilə çəkilmiş, rəngi nisbətən özünə qayıtmışdı. Hücrəyə göz gəzdirmək istəyəndə gözləri sancdı. Qalxıb əl-üzünü yumaq istəyirdi ki, bəzirgan Hacı Zahir qabaqda, nökəri də ardınca hücrəyə daxil oldu. Nökər əvvəlcə, aftafa-ləyən gətirdi, Zeynalabdinin əlinə su tökdü, dəsmal verdi. Sonra da suyu aparıb, süfrəylə qayıtdı. Süfrə saldı, çaydan-çörəkdən gətirdi. Zeynalabdin durub yerinin içində əyləşmişdi. Xəcalət içində qalxmaq istəyəndə bəzirgan onu qoymadı:

– Yox, yox! Hələ bu gün də yerindən durma! Səfəri adamsan. Dünənki həyəcandan, gecəki qızdırmadan sonra hələ bir-iki gün sənə əməlli istirahət lazımdı, oğul! Nə qədər ki, mən buradayam, elə mən də darıxıram, icazənlə gəlib çay-çörəyimi səninlə yeyərəm. Aşpaza sifariş vermişəm, nökərə də tapşırmışam. Günortaya da bizim üçün bir qaşıq xörəyi, səliqə-sahmanlı göndərsinlər. Əgər narazılığın olmasa, əlbəttə... – deyib sözünü gülə-gülə, zarafat şəklində bitirdi.

Zeynalabdin yorğanı çiyninə salıb əyləşməyə məcbur oldu. Hacıya etirazla cavab verdi:

– Nə danışırsınız, Hacı? Mən çox məmnun ollam. Amma cənabınıza əziyyəti əziyyət dalınca verirəm. Bir ondan xəcalət çəkirəm.

– Xəcalət düşmənin olsun, bala! Nə xəcalətbazlıqdı? Onsuz da karvan düzələnəcən bekarçılıqdı. İş-güc yoxdu. Avaraçılıqdı. Allahkəsmiş quldurlar bizi mal satmaq əziyyətindən necə deyərlər "xilas elədilər". Özümüzə, yəni cana qulluq eləməkdən başqa bir sənətimiz yoxdu hələlik.

Çay-çörək yedilər. Söhbət zamanı Zeynalabdin Hacı Zahirə dedi:

– Hacı ağa! Məni bir məsələ yaman narahat eləyir. O bədbəxt ailəyə bu xəbəri necə vermək məsələsi. Mənim onlara məktub yazmağım bir qədər nahamvar düşər. Deyirəm, bəlkə, siz yazasız.

Bəzirgan fikrə getdi. Səhra günəşindən qaralmış, əqiq üzüklü barmağı ilə qara saqqalını qarışdırdı, sonra tumarladı, bığlarına sığal çəkdi. Çox düşüncəli görünürdü. Birdən üzünə sanki bir nur yayıldı, işıq çiləndi, yaxşı bir fikrə gəlmişlər kimi dedi:

– Bilirsən oğul, sən bir məktub yaz. Ver mənə. Mən onu cuzdanımda saxlaram. Bu elə bir dərddir ki, bunu, məktuba, özü də sənin

məktubuna sığdırmaq, elə yolla xəbər vermək olmaz. Başqa bir günahsızın da fəlakətinə səbəb olluq. Məktubunu yaz. Qaldı kim çatdırsın? Onu mən öz öhdəmə götürrəm. Mən görürəm ki, mənim Herata getməyim, indilikdə bihudədi. Mən Təbrizə qayıdıram, inşallah, bu günsabah gələn karvanla. Yolüstü Məşhəddə dayanacağam. İmamın ziyarətinə gedib bu ağır bəladan canımızın səlamət qurtarması üçün dua-səna eləyib, nəzir-niyaz verəcəm. Onda özüm soraqlaşıb Yarməhəmmədin evini taparam...

Zeynalabdin onun sözünü kəsdi:

– Məlum yerdədi, təhərini, yönünü desəm, elə çox əziyyət çəkməmiş özünüz tapacaqsınız. Məşhədə ki, bələdsiz...

– Bələdəm, əlbət ki, bələdəm. Çox yaxşı. Hə... Gedərəm Yarməhəmmədin evinə. Həm başsağlığı verrəm, həm də olub-keçəni özüm ona danışaram.

– Bəs onda mənim məktubum nəyə...

– Nəyə gərəkdi? İki cəhətə. Həmi sənin bu işdə barmağın olmamağını bilməsi üçün. Həm də mənim adamlarımın nəbadə-nəbadə o cəvanəzən haqqında pis bir əməl etməməklərini anlatmaq üçün. Qoy bədbəxt ata evladından yana xəcalət çəkməsin. Onun balası Allah yazısının qurbanı olub. Heç olmasa bu sarıdan ürəyi təskinlik tapar. Bilər ki, balası binamus iş tutmayıb. O, yollardan tər-təmiz, pak keçib, ancaq və ancaq Allahın hökmüylə.

Zeynalabdinin gözləri yaşardı. Bu ağıllı, nurani insanın qəlbinin böyüklüyü onu riqqətə gətirmişdi. Kişinin əlini tutub alnına qoydu:

– Allah imanınızı kamil eləsin, Hacı, çox sağ olun. O bədbəxt ata mənim ürəyimə də dağ çəkib. Bu dağ vaxtsız, günahsız ölənin dağıdı. O, balasını, bircəsini, ümid-pənahını çox istəyirdi. Mən də taxsırkaram...

Bəzirganbaşı Hacı Zahir əlilə onun çiynini oxşadı:

– Sən neynəyəsən, oğul? Sən haqqı demisən. Özünü taxsırlandırıb, ürəyini üzmə. Yoxsa axşama qızdırman yenə də qalxar...

Bəzirgan qalxdı, qapının ağzına çıxdı, nökərə nə isə buyurub hücrəyə qayıtdı. Yenidən əyləşib sözə başladı:

– İnşallah, sən sağalandan sonra fikrin nədi? Burda qalacaqsan, ya Herata gedəcəksən?

Zeynalabdin gözlərini silib cavab verdi:



– Əlbəttə, getsəm yaxşıdı. "Torbəti-cəm"də artıq qala bilmərəm. Bundan sonra heç... qala bilmərəm. Həm də buralarda görməlimi görmüşəm. Herata gedərdim. Amma deyirdilər ki, guya sizinki axırıncı karvandı bu mövsümdə. Bir də yazağzı karvan ayağı açılacaq.

Bəzirgan yenə fikrə getdi, sonra nə düşündüsə dedi:

– Orası elədi. Amma mən bu səhər eşitdim ki, bir-iki günəcən buradakı dərvişlər, Məşhəddən evinə dönən zəvvarlar, dağılan karvan əhli, xırda-xırda ticarət adamları yüngül bir dəstə bağlayıb Herata yollanırlar. Onların burda qalması ziyandı özlərinə, həm də külfətləri nigarandı. Gedirlər. Sən də onlarla gedə bilərsən. Əlbəttə, əgər səhhətin yol versə.

Zeynalabdin sevindi:

– Əlbəttə, gedərəm onlarla. Bu yara nədi ki? Bir də yollarda dərvişlər yaxşı məlhəm-zad bilirlər, kömək elərlər. Nə yaxşı oldu!

– Hə!.. Yaxşı oldu. Onda ismarış əvəzinə ismarış. Necə deyərlər, Məşhəddə mən Yarməhəmməd kişiyə sənin məktubunu və o məşum qara xəbəri verəndə, sən də mənim məktubumu və tapşırıqlarımı Heratda Xorasaniyyə karvansarasının sahibinə və mənim oradakı şərikimə çatdırarsan. Dilcavabı ilə. Orada görməli olduğum, amma gedə bilmədiyim üçün onların görməli olacağı işlərimi bildirərsən. Neyçün gələ bilmədiyimi, qəziyyətimizi də, əlbəttə ki, danışacaqsan. Yazağzı başlayan birinci karvan ilə gələcəyimi xəbər verərsən. O çağacan yəqin ki, sən Heratda təhsildə olacaqsan. Gələndə axtarıb taparam səni, görüşüb danışarıq, inşallah. Mən də sənə Yarməhəmmədə necə sərsələməti verdiyimi deyərəm.

– Allah qoysa...

Bu zaman nökər içəri girdi. Bu dəfə o, kağız və qələmdan gətirmişdi. Zeynalabdin dinməmiş bəzirgan Hacı Zahir nökərə dedi:

– Qoy bura, – sonra da cavan dostuna döndü: – Hə... Oğul, babatlaşan kimi deyim kağızı yaz. Birimiz qəfil çıxmalı olduq, çatdırmarıq. Mən də gedib hücrəmdə şərikimə və karvansara sahibinə məktub yazaram.

Zeynalabdin dedi:

– Zəhmət çəkmisiz, hacı ağa, mənim heybəmdə kağız da, bayaz da, qələmdan da var.

Hacı Zahir güldü:

– Həəə... Elədi axı... Şirvanlısan! Şirvanlı kağız-qələmsiz olmaz. Bir də ki, oğul, var, day yaxşı... Sən çox da tələsmə! Hələm ki vaxt var.

Mən də gedim, bir namazi-xof[1] qılım, bəlkə bu qorxu canımdan çıxsın. Oğul, məni tanıyanlar qorxaq olmamağımı bilirlər. Amma düşməni həmişə açıqda görmüşəm, üz-üzə. Şəbxunu[2] əvvəliminci dəfəydi ki, görürdüm.

Hacı Zahir durub çıxdı. Zeynalabdin nökərin gətirdiyi kağız və qələmdanı yaxınına çəkdi. Qələmdanı açıb, içərisindən ucu tük kimi nazik çərtilmiş qamış qələmlərdən birini seçib götürdü. Qələmi qələmdanın mürəkkəbinə batırdı, yoxladı, yaxşı yazırdı. Sonra da yerindəcə dizinin birini dikəltməklə əyləşdi, kağızı dizinin üstünə qoyub yazmağa başladı:

"İnna lillah və inna ileyhi-raciun"[3].

"Çox hörmətli Yarməhəmməd əmi!"

Ona elə gəldi ki, dizlərini qucaqlayıb oturmuş Yarməhəmməd deyir:

– Əmin ölsün, bala! Kaş heç bu diyara gəlməyəydin!

Qələm Zeynalabdinin əlində donub qaldı. Nə, necə yazacağını, haradan başlayacağını bilmədən susub oturdu... Düşünməyə başladı: "Doğru deyir, bir gəlişimlə o şən, o xoşbəxt ailəyə nə qədər qəm-qüssə gətirdim? İstəsəm də, istəməsəm də. Məndən asılı olsa da, olmasa da! Yazıq elədim o atanı, o ananı, bədbəxt elədim Altıntellini! Günahkar olsam da, olmasam da, bir külfət dağıldı mənim ucbatımdan. Günahsız qana bais oldun. Mənim ucbatımdan. Doğrudur, mən onu bu qədəmdən saqındırmağa çalışmışdım. Amma eşitmədi məni, bədbəxt qızı bədbəxt! Qəsd elədi canına, qəsd elədi cavan ömrünə. Sonsuz elədi ata-anasını. Mənə görə, mənə görə, mənə görə!"

Yenidən öz-özünü danlaya-danlaya çırpındı. Ürəyi hövl eləməyə, başı dönməyə, bədəni zəifləməyə, gözləri axmağa, qızdırması qalxmağa üz qoydu. Kağızı və qələmi əlindən yerə, yatdığı döşəyin qənşərinə qoyub yatağına yıxıldı... Qızdırması artdıqca da huşunu itirməyə başladı.

[1] Qorxu namazı

[2] Qəfil, gecə basqını

[3] Allah yaradan axırda Allahın yanına qayıdacaq



## GƏNCLİKLƏ VİDA

Zeynalabdinin yarası üzə gəlməkdəydi. Altıntellinin məzarının üzərinə tökülən təzə torpağın da üstü bozarmaqdaydı. Bir neçə dəfə cümə axşamları bəzirganbaşı Hacı Zahir ilə bu "susmuşlar, əbədi uyumuşlar, sükuta dalmışlar ölkəsinə", – əhli-qübur ziyarətinə gəlmişdilər. Qızı yad eləmişdilər. Fatihə surəsini oxuyub sakitcə dayanmış, Altıntellini hərəsi öz qəlbində, öz gördüyü, tanıyıb-bildiyi kimi xatırlamışdılar. Çox cavan ikən, məşum bir təsadüfün qurbanı olması hər ikisinin təəssüfünə səbəb olmuşdu.

İndi isə getmək çağı gəlmişdi. "Torbəti-Cəm" torpağını, Altıntelli üçün əbədiyyət evinə çevrilmiş qəsəbəni birinci tərk etmək sırası bəzirganbaşıya gəldi. Bir gün səhər gəzintidən qayıdıb, nahara hazırlaşanda onlar haradansa uzaqlardan gələn kələng zənginin səsini eşitdilər. Hacı Zahir dedi:

– Herat tərəflərdəndi. Günorta namazına burada olarlar.

Zeynalabdin Hacı Zahirin dəqiqliyinə təəccüb eləmədi. Ömrü karvanlarla yollarda keçən Hacı Zahir hətta zəngin səsindən karvan sahibini də tanıya bilirdi.

Bəzirganbaşı sözünə davamlı dedi:

– Görünür getmək növbəsi mənə düşür. Bu gələn karvan Təbrizəcən getməyib, Məşhədəcən getsə belə, mən onunla yola düşəcəyəm. Düzü, burada işsiz-gücsüz darıxmışam, qəribsəmişəm. Sən də ki öz dərvişlərinlə Herata tərəf... İnşallah, yazağzı mən birinci karvanla Herata gələndə, sözləşdiyimiz kimi səninnən görüşərik. Hələ ki məzağına münasib gəlsə, zəhmət çəkib mənim işlərimi sahmana salarsan. Fikir verirəm bir neçə gündü səninlə söhbətlərimizə, görürəm ki, hər yerin ticarətindən, alverindən, adamlarının xasiyyətindən, ab-havasından xəbər alıb öyrənirsən. Dərvişdən çox bu dünya adamısan, elə belə də qal, qardaşım!

– Çox sağ olun. Mən sizdən hədsiz razıyam, hacı! Siz ki o bədbəxt ailənin dərdinə şərik olmaq yükünü boynunuza götürüb, məni ömrüm uzunu özünüzə kiçik qardaş elədiniz. Onlardan başqa, bir də həmin evin qonşuluğunda mənim dörd tələbə – dərviş yoldaşım var. Bir məktub da onlar üçün yazmışam, böyükləri Qiyasəddin şahdır. Zəhmət çəkib ona verərsiz. Bir də ev sahibi hacı Tahirin külfəti Nənə qarıya salamımı

yetirərsiz. Nəcib və qayğıkeş insandır. Zəhmətimi çox çəkib. Halal eləsin məni.

Doğrudan da, günorta azanına yaxın karvan karvansara qənşərindəki meydana daxil oldu. Dəvələr xıxırdıldı. Yüklər, taylar açıldı, dəvələrə navala[1] verildi. Günorta namazından sonra adamlar hücrələrdə yerbəyer oldu və karvansara sahibinin kələng zəngini eşidən kimi kəsdirdiyi heyvanların iç-ciyərindən hazırlanmış qovurma, ətindən bişirilmiş piti, quyruqlu, sarıköklü-zəfəranlı abgüşt-bozbaş, yorğunluq götürən noxudab, karvan xəbərini eşidən təki təndirsalan şatırın indicə təndirdən çıxardığı ətirli, xaşxaşlı təndir çörəkləri ortaya gəldi... Çayçı şagirdi xoruzpipiyi çay süzülmüş fincan və piyalələri əllərində üstbəüst qalaqlayıb hücrələrə, dəvələrin böyründə dincələnlərə, səkilərə, həyətə sərilmiş piyadə səfərilərə daşımağa başladı. Bir saatacan karvansara həyətində qab-qacaq şaqqıltısından başqa səs-səmir eşidilmədi. Bir saatdan sonra bu səs-küy də azaldı, təkbir xorultu, mışıltı eşidilməyə başladı. Uzun yolun acısını, ağrısını canından çıxartmaq istəyənlər yuxuya getmişdilər.

Karvan gecəni "Torbəti-Cəm"də keçirdi. Günorta istirahətindən sonra, axşam düşənəcən yerli tacir, baqqal və əttarlar, əllaflar karvansaraya gəlib xoşlarına gələn maldan aldılar, satmalı olduqlarını və ya Məşhədə göndərilməli nə yükləri var idisə onu sarbana tapşırdılar. Məktub alan, məktub göndərən bəzirganbaşı və sarbanı yanladı. Məşhədə getmək istəyənlər karvanın haçan çıxacağını xəbərləşdilər. Karvan əhli bu günlərdə "Torbəti-Cəm" karvansarasının qənşərində baş vermiş faciəni eşidəndən sonra, demək olar ki, gözlərinə çətin yuxu gedir, uyuyanlar da çox səksəkəli yatırdı.

Sübh azanına kimi sarbanlar, dəvəçilər artıq yükləri çatıb dəvələri qaldırmış, atları yəhərlətmiş, qatır və eşşəkləri yükləmişdilər. Sübh azanı eşidilən kimi hamı bəzirganbaşının arxasında durub iki rükət sübh namazı qıldı və sarban, nərin ovsarını qoluna keçirdi. Bəzirganbaşı atlandı və karvan yola düzəldi. Qarət olunmuş karvanın bəzirganbaşısı Hacı Zahir isə bu bir neçə gün ərzində qardaşlaşdığı, ağlına, hər şeyə yetikliyinə, bilik, elm aşiqi olmağına görə Zeynalabdini kiçik qardaşı, bəlkə də, oğlu kimi sevmişdi. Çətin ayrılır, onu Təbrizə qışlamağa dəvət edirdi:

[1] Arpa unundan hazırlanmış yem



– Heratda bütün qışı neynəyəcəksən, qardaş? Gəl qayıdaq Təbrizə. Oranın alimlərindən dərs al. Sonra gələn yaz birgə çıxarıq səfərə...

Zeynalabdin bu dəvəti yüngül, mehriban bir təbəssümlə qarşıladı: "Dost tapmaq çətin, onu saxlaya bilmək daha çətindir", – düşünüb dedi:

– Çox sağ olun, hacı, mən sizi Heratda gözləyəcəm. Gələn səfərimdəysə İranı, xüsusilə Vətənimi, o cümlədən də Təbrizimizi əməllibaşlı gəzəcəyəm, bütün kənd və qəsəbələrinə səyahət eləyəcəm. Onda görüşərik, inşallah!

– Salamatlıq olsun təki!

Qucaqlaşıb öpüşdülər. Lap ata-bala kimi! Qardaş kimi, dost kimi. Zeynalabdin atasından belə məhəbbət təzahürləri, nişanələri görmədiyi üçün hacının münasibəti bəzən ona qəribə gəlirdi. Amma belə səmimi insanla dostlaşdığına sevinirdi. Qəlbən şad idi.

Karvan xeyli aralanmışdı. Amma Hacı Zahir hələ də cavan dostundan ayrılıb, gedə bilmirdi. Nəhayət, təzə aldığı ata mindi, bir də yəhərin üstündən əyilib Zeynalabdinin alnından öpdü:

– Görüşənə qədər...

– Görüşənə qədər.

Hacı atı səyirdib uzaqlaşdı. Yorğadan çaparağa keçən at, az sonra karvana çatdı, dəstələrə, atlı, qatırlı səfərilərə qarışdı.

Zeynalabdin uzun müddət karvanın ardınca baxa-baxa qaldı. Bu karvan, onu vətəni ilə bağlayan axırıncı adamı – Hacı Zahiri də aparırdı... Elə bil qəlbində nə isə bir boşluq əmələ gəldi birdən-birə. Elə bil ürəyini bir kasa soyuq suyun içinə salıb öykələdilər. Gözləri acışdı. Burnu gicişdi, lap uşaqlıqda olduğu kimi, az qala ağlayacaqdı. Qeyri-ixtiyari əlini üzündə gəzdirdi. Başını silkələdi... Elə bil ağır fikirləri qovurdu başından. Buraya qədər o tamamilə də olmasa, hər halda həmvətənləri yayılmış yerlərdən keçirdi, anasının dilini eşidirdi arasıra. Bundan sonra; mükəmməl bildiyi fars və ərəb dilləri, öyrənməyə başladığı urdu dili var idi... Lal olmayacaqdı. Amma hər halda, bələd olmadığı o qərib, o qürbət ellərdə onu nə gözləyirdi? Bilmirdi. Kimlərə rast olacaqdı? Bilmirdi. Hələlik qarşıda Herat səfəri dururdu. O, Heratda böyük Əlişir Nəvaini yad etməyi, bir neçə ay burada qalıb mədrəsələrdə dərs deyən alimlər, tanınmış şair və müdərrislərlə görüşməyi qarşısına məqsəd qoymuşdu. Şəhəri əməllicə tanıyandan sonra Herat haqqında bu cümləni yazmışdı: "Əgər Xarəzmin suyunu, İsfahanın

torpağını və Heratın havasını bir yerə yığa bilsən, orada yaşayan adam ölməz".[1]

Zeynalabdin gəncliklə vidalaşmışdı. Gəzdiyi, gördüyü yerlər, insanlar haqqında xeyli məlumat toplamış, "Riyazüs-səyahə"ni yazmağa başlamışdı. İndi həyatının da, bütün ömrünə bərabər olan səyahətlərinin də yeni mərhələsi başlanırdı. Onu yollarda yayın istisi, payızın yağışları, qışın şaxtası gözləyirdi. Onu kəndlərdə, şəhərlərdə öz zəhməti, halal əməyi ilə dolansa da, bir parça çörəyi minbir əziyyətlə "daşdan çıxaran", amma eyni zamanda qonaqsevər, mehriban, qayğıkeş, qəribə, özü kimi yoxsula əl tutan insanlarla tanışlıq gözləyirdi. Onu saraylarda, kaşanələrdə heç bir zaman, heç bir vaxt alışa bilmədiyi zənginliklər içərisində qıfıllı sandıqlarda saxlanan xəzinələr, kitabxanalar çağırırdı...

Gəncliyə ilk qədəm qoyduğu, ağır səyyah ələmini çiyninə aldığı gündüz biz ona "xoş gördük, səyyah!" demişdik. Səfərin xeyirli, yolun uğurlu olsun, – ardınca Nanəli bulaqdan, Damcılı bulaqdan bir su cam atıb: məşhur hind məsəli ilə "Uzun yollarında, sonsuz səfərlərində həmişə şəkər yeyəsən, baba! Aydın olsun, ətirli olsun yolların".

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə", Tehran, 1339 hicri, səh.249.





# III HİSSƏ

# Kamillik

# KAMİLLİYƏ DOĞRU

Gənclik dövrü bitmək üzrə idi. Səyahətlərin çoxu arxada qalmışdı. İndi Zeynalabdin artıq gəzib gördüyü ölkələrin bir çoxunun alimlərinə, şairlərinə məlum şəxsiyyət idi. "Riyazüs-səyahə", "Hədayüqüs-səyahə" kimi əsərlərin müəllifi alim, çoxlu qəzəllər yazmış Təmkin təxəllüslü şair, Nemətullahi təriqətinin təbliğatçılarından dərviş Məstəli şah ləqəbilə tanınmışdı. Böyük səfərlərin çoxu geridə qalmışdı. Hindistan... Səkkizillik bir ömür keçirmişdi o qəribəliklər, möcüzələr diyarında. Tibetin qarlı aşırımları da heç vaxt yadından çıxmayacaqdı. Siamın, Sərəndibin o zəngin, o əlvan canlılar aləmi, insanları unudulacaq şey deyildi. Sultanların, şahların, əmirlərin, hakimlərin dəvətini qəbul edib bir yerdə bir-binə bağlamadı. Amma Şiraz... Şirazda bir "qəzalü-qəzəl", bir afət, bir ahu könlünü ovladı. Üç il... Tam üç il Şirazda binələndi. Mədrəsədə dərs dedi. "Şah" dostları: Müştaqəli şah, Cəfər Kirmani və başqa həmfikirləri ilə qaragüruh ruhanilərə qarşı mübarizə açdı. Bir neçə dəfə gah şəhərdən qovuldu, gah "hörmətə minib" saraylara dəvət aldı. Amma azadlığını əlindən vermədi, qələmini mədhiyyələr üçün işlətmədi, yalnız elm, elm deyib durdu. Günlərlə kitablar, yazılar üstündə ikiqat olduğunu görən riyakar zahidlər, qaragüruh onu "dinsiz dərviş", "imana rəxnə salan qələndər", "cadugər" qələmə verdilərsə də, hərdən-hərdən dostlarının köməyilə yaşıl bir adaya bənzəyən kənddə qulaq dincliyi tapanda o, qəlbini ovlayan, ona atalıq duyğusu kimi bir səadət dadızdıran gəlinin – Hümeyra xanımın dizi üstünə baş qoyub keşməkeşli ömrünün ən sakit, tufansız, ləkəsiz günlərini yaşadı. Hümeyra bu üç Şiraz illərində ona iki oğul bağışladı. Lap qayınanası Şirinbəyim kimi cüt oğul anası oldu. Cəlaləddin Məhəmməd, Hüsaməddin Əli... Hər yadına salanda vücudunu sıcaq bir atalıq hissi qoynuna alıb ona əbədiyyət, davamiyyət vəd edir. Hümeyra özgə sözünə baxmayan, "ərini bir, Allahını bir" tanıyan, zərifcə canının bütün qeyri-adi qüvvəsi ilə ərinə və balalarına bağlı bir qadındı. Bütün əzablara, çətinliklərə, köçəköçlərə, "qaçaqaçlara", təqiblərə heyrətamiz bir dözümlə, iradəylə sinə gərirdi. Zeynalabdin bilirdi ki, "Şah" dostları,

həmfikirləri, əməldaşları olan Müştaqəli və başqaları onun Şirazda qalan ailəsində göz olacaqlar. Səfərini başa çatdırıb artıq yazmaqda olduğu son kitabını bitirənəcən ailəsini bütün afətlərdən qoruyacaqlar. Zeynalabdin də yolüstü xırda ticarətindən əldə etdiyi qazancın çoxunu Şiraza, Müştaqəlinin adına göndərirdi ki, Hümeyra xanıma çatdırsın. Karvan başçıları, sarbanlar 20-30 ildə artıq ona gah bu, gah o diyarda, gah bazarda, gah karvanlarda və ya mədrəsə hücrəsində rast gəlməyə adət etmişdilər. Bir şəhərə gələn kimi karvansaraçılardan onu soruşurdular. Xatirini istəyir, matanını bacardıqca yüksək qiymətə satır, məktub və baratlarını, sovqatlarını məmnuniyyətlə, köhnə bir dost kimi Şiraza çatdırmağı müqəddəs vəzifə bilirdilər. Ailəsinin yemək-içmək sarıdan ehtiyac duymayacağına arxayın idi. Hümeyra "evdağıdan arvad" deyildi. Göndərdikləri anaya da, iki körpəsinə də çatırdı. Bu sarıdan nigarançılığı yox idi. Nigarançılığı qaragüruhdan, Şirazın o arqır bilməyən, Allahdan-bəndədən utanmayan mürtəce zahidlərindən idi. Onun Şirazda olmadığına inanmaya bilərdilər. Ya qəsdən özlərini elə göstərib evinə basqın edər, cəhalət gözünü örtən nadanları üstünə "qısqırdardılar". Əsərləri əllərə düşər, darmadağın edilər, yandırılar. Bax, qorxusu bundan idi. Hər yadına düşəndə az qala ağlını itirir, hər şeyi atıb geri qayıtmaq istəyirdi. Lakin eyni zamanda anlayırdı ki, o heç bir şeylə kömək edə bilməz. Bu faciə baş versə, orda oldu-olmadı – olan olacaqdı. Özünə nə qədər təskinlik versə də, öz-özünü inandırmağa çalışsa da o böyük alim, həm də ata idi; sevgili ər idi. Harda xırdaca, matdım-matdım baxan, dünyaya heyrət dolu muncuq gözlərini zilləyən uşaq görsə, başına əl çəkmədən ötüb keçə bilmirdi.

Hər yerdə, dayandığı mədrəsə hücrələrində, gecələdiyi düşərgələrdə başına yığılanlardan öyrənir, öyrədirdi. Sual verir, suallarına cavab alırdı. "Riyazüs-səyahə"ni "rozə"lərə, "Hədayüqüs-səyahə"ni "hədiqə"lərə bölmüşdü. İndi isə hər gecə başına yığılanlar dağılıb gedəndən, bütün qəsəbə, kənd və ya qaldığı yerdən asılı olaraq şəhər yuxuya gedəndən sonra alimin qarşısında şam, sinəsində ürək yanır: bu dəfə də "Gülşən"lərə böldüyü "Bustanüs-səyahə"ni yazırdı. Yolda da, mənzildə də, düşərgədə də, bazar-dükan, kənd-şəhər... Hər yerdə nə görürdüsə, diqqətini nə çəkirdisə qələmə alırdı. Alim iş başında, səyyah yollarda idi. Təmkin təxəllüsü ilə yazdığı şeirlər isə müxtəlif hadisələrin təsvirində kitabın müxtəlif səhifələrinə səpələnirdi. Şair



gördüyü gözəlliklərdən ilham alır, yaxud zülmlərdən, haqsızlıqdan qəzəblənib üsyan səsini ucaldır, həyat, həyatın mənaları haqqında xəyala dalırdı. Bütün bunlar onun qəzəl, rübai və başqa növ mənzumələrində əksini tapırdı.

Bir vücudda, bir ürəkdə, bir beyində birləşmiş bu üç şəxs alim, şair, səyahətçi bitib-tükənmək bilməyən yollarda, gah susuz qumlu səhralarda, gah yamyaşıl, sımsıx cəngəlliklərdə, gah da qarlı dağ aşırımlarından keçməkdəydi. Hacı Zeynalabdin yollarda idi.

## HƏLİMƏTÜN-NİSABƏYİM

Karvan çox gecikmişdi. Yolda xeyli əziyyət çəkmişdilər. Bir neçə gün bu yerlərə xas olmayan qəribə toz dumanı onsuz da buludlar arxasında gizlənən günəşi, aydın firuzəyi fəzanı görməyə qoymurdu. Gecələr bu toz-dumanın göy üzünə çəkilmiş qalın pərdə kimi bu yerlərdə xüsusilə aydın görünən ulduzların üstünə sanki yorğan çəkmişdi.

Karvanlarda çarvadarlar – bələdçilər var idi. Əsil səma biliciləri, ucsuz-bucaqsız səhralarda bircə zərrə səhvə yol vermədən ulduzların səmtilə yol aparır, karvanı gərəkli yerə çıxarırdı. Belə bilici çarvadarlardan bu karvanda da var idi. Amma indi nədənsə onlar da çiyin çəkir "belə möcüzə görməmişik" deyirdilər. Havadan, pal-paltardan toz-torpaq iyi gəlirdi. Yeyib-içdiyi də toz-torpaq tamı verirdi. Bürkü adamı boğur, toz gözə, buruna, qulağa dolurdu. Külək yox idi. Olsaydı bəlkə də, yerlə göy arasına sərilmiş bu qalın, boz örtüyü yırtıb dağıdardı. İki gün idi ki, karvan beləcə bələdçilərin hissiyyatına arxalanıb yol gedir, şübhəsiz ki, haradasa düşərgələrin yaxınından ötüb keçir, namaz vaxtını "qarasına" müəyyənləşdirib dincə dayanırdılar. Üçüncü gün hava aralandı. Tacirlər, zəvvarlar, dərvişlər, karvançılar sevindi. İndi artıq məlum düşərgələrdə karvançılar tələsir, tezdən durur, sübh namazını qılmaq üçün aftafaları və ya təyəmmüm kisələrini çıxarır, səs-küy gecənin sükutunu zil qaranlıqla birlikdə qovur, sıx-sıx qaranlıq göyləri dələn qızılı ulduzların rəngi göy bozardıqca tutqunlaşırdı.

Karvan şəhərə axşama az qalmış çatdı. Karvansara elə şəhərin qırağında idi. Camaat, karvansara sahibi bu karvanı iki gün əvvəl gözləyirmiş. Yerli tacirlər öz tanışlarını, şəriklərini gözləyə-gözləyə düşünür, söhbətləşirdilər. "Görəsən nə olub? Nə baş verib? Hacı Kazım bəzirganbaşı verdiyi sözün ağasıdı..." İki gün! Bu ağır, bu uzun yollarda

iki gün nədir ki?! Amma görünür ki, bu səfərdə o qədər də yaxınlaşmadığı bəzirganbaşı Hacı Kazımın dost-tanışlar arasında belə etibarı vardır.

Karvansaranın həyəti dəvələr, atlar, eşşəklərlə doldu. Karvan gəlişinin ilk anında həmişə gördüyü küy-kələk, itələşmə, pozğunluq, qarğaşa... Böyük daş həyətin bir küncündə hətta yaşlıların belə diqqətini cəlb edən karvan gəlişinə heç bir əhəmiyyət vermədən, sakitcə "aşıq-aşıq" oynayan iki uşaq nəzərini cəlb etdi. Oğlanlar 8-10 yaşında olardı. Şair görünür, "tez-tez karvan gəlişinə adət etmişlər", – deyə düşündü, lakin dərhal da ağıl ona cavab verdi:

– Yox, yox... Başları qumara yaman qızışıb. O bütün varidatından keçən, qumarbazlıq azarına tutulanlar bələlərindən əmələ gəlir. Bələləri böyüyüb bəlaya çevrilir, qumarbaz olur...

Ürəyi sancdı: "Mütləq ataları ilə tanış olub, uşaqları bu pis əməldən çəkindirməyi məsləhət görmək lazımdır".

Yalnız bu qərara gəldikdən sonra ilk dəfə daxil olduğu bu karvansaraya göz yetirməyə başladı.

Qədim karvansara gözləri önündə kitab kimi açıldı. Nəhəng tağlı darvaza, ikimərtəbəli hücrələrlə əhatə olunmuş olduqca böyük daş döşəməli həyət idi. Həyətin bir tərəfində böyük daş səki üstünə taylar yığılmışdı. Səkinin bir tərəfindən yüklərə doğru pillə qalxır, o biri tərəflərinə at-eşşək bağlamaq üçün daş halqalar vardı. Həyətin ortasında, dəvələr xıxırdılıb yatırdılmış, buradaca dincələn kim, alan-satan kim idi. İkinci mərtəbədəki hücrələr uzun müddət qalan səfərilər, birinci mərtəbə daha çox mal yığıb buradaca satanlar üçün idi.

Dərvişlərin də çoxu bu hücrələrdə gecələyirdi. Onlara ya karvansara sahibinin yazığı gəlib yer verir, ya da başqa birisinin nəzir, ehsan, təsəddüq kimi qurbanları, ianələri hesabına qalırdı bu hücrələrdə.

Bəzirganbaşı Hacı Kazımla karvansara sahibi, çoxdan bəri ticarət əlaqəsi nəticəsində dostlaşmışdılar. Elə karvan həyətə daxil olan kimi dostlar görüşdülər. İlk salam-kalam, hal-əhval sorğu-sualı bitə-bitməyə Hacı Kazım, dərvişlərlə bir tərəfdə durub, yer almaq üçün aranın sayxaşmasını gözləyən Zeynalabdini aralıdan dostuna göstərdi:

– Hacı, bu dərvişə əməlli yer ver. Muğayat ol ondan.

– Gözüm üstə. Kimdi ki?

– Alimdi. Nə qələndərdi, nə dərviş. Nə "tullanandı", nə "fırlanan". Yer üzünü gəzir bilik dalınca, elm dalınca, Həqiqət dalınca. Həqiqəti əsil kamil insanda görür.



Aralıdan Zeynalabdinin kalansuvasına[1], cübbə və qəbasına[2], üzükdən keçən incə belinə bağladığı qurşağa, ayaqları ucuna qoyduğu heybəsinə baxırdı. Zeynalabdinin zil qara, azacıq qıvırcıq saqqalı, qabağı vurulmuş qara bığlarını qoynuna almışdı. Bu bığlarla saqqalı bir-birindən sağlam adamlara çox yaraşan ensiz al dodaqlar ayırırdı. Burnunun üstündə, bir-birindən xeyli aralı qara qaşları, qara, azacıq yol tozu basmış tüklər arasında qırmızı, günəşdən yanmış sağlam yanaqları üzünə xeyli yaraşıq, təmkin verirdi. Birdən dərvişlərdən biri nə dedisə Zeynalabdin gülümsədi, iki cərgə sağlam, ağappaq, sədəf kimi dişlər göründü, saqqalın və bığların qaralığını daha da gücləndirdi. Gözlərindəki parlaqlıq təbəssümünə qarışıb üzünə elə bir mehribanlıq, nəciblik nuru səpdi ki, karvansaraçı hacının "quşu qondu" ona. Səbəbini özü də bilmədən gülümsədi. (O hardan biləydi ki, Zeynalabdin bütün təmizürəklilərə məhz beləcə məhəbbət, ehtiram təlqin edir?) Əlini dostunun çiyninə qoydu, yolçu alim haqqında daha nə isə öyrənmək qəsdilə "həqiqəti kamil insanda görür" – cümləsinə qarşı soruşdu:

– Sufilərdəndi yoxsa?

– Elə bir şey var... Hələ dəqiq bilmirəm ki, hansı təriqətdi. Amma elmə, biliyə, öyrənməyə həvəsini bütün yol uzunu görmüşəm. Hansı mənzildə əylənmişiksə, dinclik bilməyib, biz yatıb duranacan o pay-piyada ətraf kəndləri, qəsəbələri, qədim abidələri gəzib, tanınmış elm adamına rast olubsa, müsahibi olub; suallar verib dərin mənalı. Cavablar alıb... Mənim özümü də bundan irəli gəzib gördüyüm ellər haqqında az suala tutmayıb.

Hacı dostunu dinlədikcə Zeynalabdini gözdən qoymurdu:

– Kəsdiyimiz çörəyə and olsun, hacı qardaşa, ondan elə danışdın ki, quşum qondu ona. Axşam iş-güc azalar, əl-ayaq yığışandan sonra müsahib olluq. Feyz alarıq.

– Əlbəttə, əlbəttə. Elə mən də müştağam...

– O biri tərəfdən də yaxşı oldu. Nəvvab Aliyə Həlimətün-Nisabəyim bizim keçmiş hökmdarın qızı idi, hökmdarımızın oğlu yox idi, Allahın rəhmətinə gedəndən sonra, eşitmiş olarsan, Cəsarət xan keçdi yerinə, Həlimətün-Nisabəyimə qırx para kənd verdi ata mülkündən. Xanım öz sarayında həmin kəndlərin gəliri ilə yaşayır, camaata xeyli xeyirxahlıq göstərir. Elmə də rəvac verir. Nökərini karvansaralara

[1] Dərviş papağı növü

[2] Kişi geyimi, üst paltar

göndərir, harda bir bilici alim, yaxşı şair varsa, dünya görmüş tacir varsa dəvət edir. Özü pərdənin arxasında əyləşib məclisdəki elmi, ədəbi söhbətlərə qulaq asır. Əgər bu ağa da sən deyən kimidisə, nökər gələndə məndən soruşur, bunu dəvət etməyi məsləhət görərəm.

– Yaxşı, savab iş tutarsan. Lazımdı...

Zeynalabdin qəribə bir daxili qüvvəylə bu baxışları hiss edirdi. Elə bil hardansa bir şüa axıb alnını deşirdi. Söhbətin ondan getdiyini duyurdu. Lakin özünü o yerə qoymayıb karvansaranın tağlarındakı naxışlar; bu qədim binanın ümumi görünüşü, quruluşu haqqında söhbət edir, eyni zamanda qəlbində düşünürdü: "Kim bilir, hansı qərinədə, hansı əsrdə tikilib. Nə qədər karvanlar, neçə-neçə karvansaraçılar, bəzirganlar görüb, min-min adam bu həyətdəki hovuzdan əl-üz yuyub, bu daş divarlar arxasındakı hücrələrdə gecələyib, xəyallara dalıb, ümidsizliyə düşüb, ya arzularla yaşayıb. Kim bilir? Neçə əldən-ələ keçib?.. Kim bilir? Aclar da görüb, dövlətlilər də... Yalavac da görüb, xəz-zər libaslılar da... Hər halda ac-yalavacı daha çox görüb. Qan da görüb, qada da. Dünyanın neçə ölkəsindən, o yetmiş iki millətdən insanlar görüb... Yaxşısı da olub, yamanı da, nəcibi də olub, nanəcibi də... Alimi də, nadanı da... O əski, o qoca dünyanın bu kiçicik parçası..."

* * *

Həlimətün-Nisabəyimin sarayına yol alanda doğrusu bir qədər narahatlıq keçirirdi. Əslində onun ürəyində doğan şübhələri nə karvansaraçının, nə də Hacı Kazımın sözləri dağıda bilməmişdi. Elə bilmişdi ki, "Min bir gecə nağılları" dünyasına düşüb. Hansı bir xoşəxlaq, zəngin qadın isə onun kimilərini həmin nağıllarda qoca "əcüzə qarı"ların köməyi ilə, xəlvət yollarla, gecənin zülmət qaranlığında əlindən tutaraq, çəkib aparır eyş-işrət, kef məclislərinə. Bu yerlərdə görünür ki, iri mükafatlar müqabilində həmin qarıları kişilər əvəz edir. Ömründə karvansaraçıdan eşitdiyi sözləri eşidib görməmişdi. İslam dünyasında qadın dörd divar arasında yaşayır, küçələrə çıxmağa məcbur olanda da "səyyar həbsxanada" – çarşabda gedir; üzünə rübənd, biçə taxır. Burada isə qadın – yad kişilərin məclisində... Doğrudur "pərdə arxasından" dedilər... Həm də ağlı kəsməyən dərəcədə mötəbər alim... Saraylar, hökmdarlar, zəngin xanımlar nə istəsə... Yenə də gözlərində "Min bir gecə" surətləri canlandı: Dəlilə, Zeynəb... Yooox... hər halda karvansaraçı da, Hacı Kazım da abırlı adamlardır. Belə pis mənalı tapşırığı öhdələrinə



götürməzlər. İrəliki gecələrdə müsahiblərindən də aydın idi... Arxasınca bu gün, bu saatda gələn silahlı nökərin də belə pis əmələ bağlı olduğunu ağlı kəsmirdi...

Saray – geniş eyvanının sütunları və ön divarları şəbəkə şəklində düzülmüş, ağ-mavi çini kərpiclərlə bəzənmiş ikimərtəbəli bina idi. Uca hasarlarla dövrələnmiş geniş həyətin ortasında hovuz vardı. Binanın sağından hardansa saxsı novlarda bu hovuza gözyaşı kimi duru su axıb gəlir, sakit bir musiqinin xışıltıları ilə hovuza tökülürdü. Əlvan balıqlar bu süni şəlalənin dövrəsində sürətlə üzür, sanki xırdaca-xırdaca ləpəciklərlə əylənir, oynayıb yorulur, sonra da hovuzun sakit tərəflərinə üzüb gedirdi. Cənubdan su kulufu hovuzdakı suyu təzələyir, eyni səviyyədə saxlayıb artığını arxa buraxırdılar. İki qarış eni, iki qarış hündürlüyü olan bu arxlar qırmızı saxsı novlar kimi düzəldilmişdi. Bütün həyət əlvan bağ idi. Novun, hovuzun və arxın ətrafı sıx, uca otlar, qızılgül kolları ilə əhatələnmişdi. Bağda meyvə ağaclarından tutmuş, uca-uca sərvlər, çinarlar, qarağaclar göylərə həvəslə, fərəhlə baş qaldırmışdı. Arxın içinə, kənarına arabir burada uçuşan quşların saldığı yarpaq düşürdü. Bülbüllərin cəh-cəhi başqa quşların nəğməsi içində gözəl səslə oxuyan xanəndəni xatırladırdı.

"İlahi, – həyətdən keçib pillələrə doğru irəliləyəndə düşündü, – cənnətin bir guşəsi – "guşeyi-cənnət" deyən şairlər yəqin ki, bu bağı, ya buna bənzərini görüblər. Yox! Buna bənzəri ola bilməz. Yeganədir hələ ki, gördüklərimin içində. Zövqünə afərin". – Bu afərinin bağbanamı, bağın sahibinəmi aid olduğunu hələ heç özü də bilmirdi.

Böyük salon məxsusi qonaqlar üçün, məclis üçün hazırlanmışdı. Onlar içəri girəndə məclis demək olar ki, hazır idi. Qonaqların çoxu gəlmiş, divarlar boyu qoyulmuş döşəkçələrin üstündə bardaş qurub əyləşmiş, kimisi mütəkkəyə dirsəklənmiş, kimisi bizlərdə "qayınana döşəkçəsi" adlanan püştülərə söykənmişdi. Yuxarı tərəfdə iç otaqlara açılan qapının önündə otağın eni boyu ağ ipəkdən pərdə çəkilmişdi. "Hə, deyəsən, deyilən doğrudur və o yerdə Həlimətün-Nisabəyim oturacaq". – O qadının adını ilk dəfə ürəyində çəkdi.

Karvansarada onu bu görüşə hazırlayan hacı demişdi ki, Həlimətün-Nisabəyim Dəkəni mərhum hakimimiz Sadiqəli xanın qızıdır. Elmə, biliyə, savada həvəslidir. Məclisdə gedən söhbətlərə münasib şeirlər oxuyur, ayətdən, əxbardan xəbərdardır – söhbət açır. Çətin şeyləri soruşub cavab alır. Məclisində həqayiq, hikmət, təbabət, Şərq şerinin tanınmış ustadları haqqında danışılır.

Onun salamını məclisdə əyləşənlərin hamısı müxtəlif səs və ifadəylə aldılar, iki divar boyu əyləşmiş qonaqlar arasında yer göstərdilər. Bu adamların bəzilərini Zeynalabdin artıq görmüş, karvansarada qaldığı bu bir neçə gün ərzində, axşam yığıncaqlarında tanış olmuşdu. Zeynalabdin keçib əyləşəndə, oturanları gözdən keçirdi: burada müxtəlif təriqətə mənsub olan bir neçə dərviş, tacir, alim və başqaları var idi. Hamısının da geyimi mənsubiyyətliyi bildirirdi. Zeynalabdindən sonra otağa daha bir neçə qonaq daxil oldu. Deyəsən, əksəri buranı yaxşı tanıyırdı, bizim səyyah kimi bu salona birinci dəfə gəlmirdi.

Əvvəlcə yemək veriləcək, sonra elmi, ədəbi müsahibələr başlanacaqdı. Nökərlər hər iki cərgənin qabağına uzun və bizim qələmkarları xatırladan naxışlı ağ süfrələr saldılar. Maraqlıdır ki, heç kim qəlyan və ya çubuq çəkmirdi. Yəqin ki, ev sahibəsinə hörmət əlaməti idi bu.

Aftafa-ləyəndə əl suyu gətirildi və sonra da müxtəlif biçimli qablarda əlvan xörəklər, şərbətlər, ətri otağı dolduran çörəklər verildi. Məclisdəkilər dərin sükut içində, ciddi və vacib bir tapşırığı, vəzifəni yerinə yetirmiş kimi nemətləri yeyir, səssizcə gah ürəyi istəyən qızardılmış quş ətindən və ya pörtlədilmiş qoyun ətindən götürür, öz boşqabına düyü, piyaləsinə şərbət tökür, soyduğu meyvədən qonşusuna təqdim edirdi. Təşəkkürlər baş, qaş-göz işarələri ilə edilirdi. Qaşıqların belə səsi eşidilmirdi. Elə bil ki, hökmdar, ədəbli, hörmətli ev sahibəsinin özü görünməsə də xəyalı, kölgəsi otağın tavanında, havasında uçurdu. Hamı özünü ədəblə, ləyaqətlə aparırdı.

Yemək-içmək qurtardı, süfrələr yığışdı, yenə də əl suyu gətirildi.

Və birdən sanki heç kimə bildirmədən qapı açılmağı, addım səsi eşidilmədən o ağ pərdə tərpəndi, insan nəfəsindən titrəyən incə ipək kimi. Ev sahibəsinin səsi eşidildi.

– Ağalar xoş gəliblər. Xüsusilə eşitdiyimizə görə uzaq Şirvan məmləkətindən torpağımıza qədəm basmış möhtərəm alim, "Təmkin" təxəllüslü şair Zeynalabdin cənabları xoş gəlib, səfa gətirib, qədəm əziz eləyib, yurdumuzu şərəfləndirib, dəvətimizi qəbul edib məclisimizə gəldiyin üçün minnətdarıq. Uzaq ellərdə gördüyü insanlar, hadisələr haqqında danışmağa müştağıq.

Xanım danışdıqca səyyah qəlbində düşünürdü: "Afərin! Bir cümlə ilə həm məclis əhlinə tanışlıq verdi, həm də məni böyük ləyaqətlə salamladı. İlk sözündən görünən bu ağıl sahibi, təəssüf ki, bu pərdənin



dustağıdır. Qalmaq istəmir, o mənə yalnız dərvişlik yolu ilə qismət olan azadlıq səadətindən heç olmasa bircə zərrə dadmaq istəyir bu məclisləri ilə". Zeynalabdin xanıma hörmətini bildirdi və mübahisə, müsahibə başlandı.

...Məclisdə bu gün xanımın ortaya atdığı bir neçə suala cavab veriləcək, həmin cavaba etirazlar, müqabilələr ediləcəkdi. Birinci sual beləydi: "Dərviş kimdir, nədir, nə axtarır yer üzündə, niyə bir məkanda bin-binə bağlayıb durmur. Allahın qərar qoyduğu kimi ev tikib, ailə qurub, bəşəri davamı olan övlad bəsləmir? İnsanlığa xidməti nədən ibarətdir?"

İlk cavabı bu gün fikri gözlənilən təzə qonaq dərviş-səyyah Zeynalabdin verib, aramla dedi:

– "Dərviş o kimsədir ki, zəruri şeylərlə kifayətlənsin. Artığa tələbkar olmasın. Az bir ruzuya qane olmaq onu tamahkarlıqdan xilas edər, pak edər. Özgələrin malına tamah etməsin. Əgər ona gətirsələr – rədd etsin, mal yığmasın"[1]

Son karvan mənzildə onlara qoşulan və nədənsə yolçuların "cod dərviş" adlandırdıqları Nüsrətəli şah əlavə etdi:

– Dərviş çiçəklərin tozunu bu yerdən başqa bir yerə aparan bal arısı, külək və böcək kimidir. Xalqlar arasında, ellər, ölkələr, uluslar arasında dolaşdıqca elmi, maarifi, mədəniyyəti, xüsusən şeriyyəti yaradır.

Tacirlərdən biri səsləndi:

– Əh! Bir olan pərvərdigara and olsun ki, yollarda elə dərvişlər görmüşəm ki, içində oğurluq edəni də var, adam öldürəni də. Bəng atanı da var, şərab içəni də. Yığıcısı lap çoxdu. Qapı-qapı, xırman-xırman gəzib yığanı, zorla cəddinin payını alanı da görmüşəm, israf edəni də. Beləsi daha çoxdur.

Yenə "şah" dərviş cavab verdi. Amma bu dəfə səsində əvvəlki sükunət yox idi. Əksinə qeyzlə danışırdı:

– "Əgər bütün dünyanı bir loxma edəsən və dərvişin ağzına qoyasan – israf olmaz. İsraf odur ki, bir zərrə haqqın rizası olmadan sərf edəsən"[2]

Üzündən müdərrislik tökülən, tanımadığı bir kişi müdaxilə etdi:

– Həzərat! Mən biləni bəlkə, o yığan dərviş bu ağanın dediyi dərvişlərdən deyil. Bəlkə, adı dərvişdi. Ruzusu yoxdu, külfətini dolandırmaq üçün düşüb çöllərə?

---

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri, səh.935.
[2] Yenə orada, səh.938.

Zeynalabdin söz üçün hamı kimi izn almadan və heç kəsə müraciət etmədən dedi:

– Tanımaq səadətinə nail olduğum cavan dərvişlərin çoxu zalım hökmdarların, şahların, sultanların zülmündən can qurtarıb, azadlığı dərvişlikdə tapıblar. Dərvişlərin çoxu tarixən istibdad görmüş, lakin istibdada boyun əyməyən insanlar olub.

Bir anlıq sükut çökdü bu sükut içində pərdənin o biri üzündə deyəsən, katil üstündə oturduğu duyulan "qaranlıq xəyalın" səsi eşidildi:

– Ulular, millətin böyük ana və ataları həmişə belə hesab ediblər ki, əgər ocağım tüstürsə, oğlum-qızım doğulursa, əgər sələflərim doğma torpaqdakı məzarında rahat yatırsa, əgər vətən övladlarından oğullar əsarətdə, qızlar yesirlikdə qürbət dərdilə can vermirsə, əgər səmam aydın, suyum soyuq, çörəyim istidirsə... deməli yurdum dinc, azad, ulusum xoşbəxtdir, millətimin xoşbəxt gələcəyi təmin olunmuşdur. El-obanın cavanları hamılıqca dərvişliyə qurşansa, başqalarını da buna cəlb eləsə millətin davamiyyəti necə olar?

Yerlərdən səslər gəlir:

– Məhv olar...

– Zəif düşər...

– Düşmən ayağı altında tapdalanar.

– Oğlu əsir, qızı yesir gedər.

– Qəbilənin güclüləri bir-birini qırar, var üçün, səltənət üçün.

– Allah, Allah...

– Özün saxla bəladan...

– Afətlərdən...

Zeynalabdin daxilən, hələ özünə məlum olmayan hansı bir qüvvənin təhriki ilə isə Həlimətün-Nisabəyimin bu "peyğəmbərliyinə", dərvişlərə "hücumuna" qarşı çıxdı, dözə bilmədi: "Axı o kimdir, nə ixtiyarla bilmədiyi işlərə, tanımadığı adamların daxilinə qarışır". Elə bu fikirlər də sonralar həmin məclisdə cərəyan edən hadisələri kitabında təsvir etdi.

Əziz oxucu! Zeynalabdin Şirvaninin Həlimətün-Nisa ilə söhbətini öz dilindən eşidin; özü yaxşı deyər:

Fəqir o zaman Məlikəsinin xidmətində ərz etdi ki:

– Həzrət peyğəmbər buyurmuşdur ki, əqilcə və dincə qadınlar naqisül-əql və qadın tayfası əqilsiz və səbatsızdırlar. Buna görə pey-



ğəmbərlərdən qadın məbud olmamışdır. Bir kimsə ovliya firqəsindən qadınlar sinfindən dünya üzünə gəlməmişdir. Bu xəbər: "Bir qövm nicat tapmaz ki, onların hökmdarı, amiri qadın olsun" – ondandır. "Onlarla məşvərət edərlər və onlara müxalif olarlar".

Onu təsdiq edən cavabda buyurdu ki:

– "O həzrətin muradı o deyil ki, xalq onu elə anlamışlar. Bu sözləri özlərinə dəlil gətirib qadınların məzəmmətinə qoşulmuşlar. Bəlkə, o cənabın məqsədi budur ki, hər bir şəxs ki, naqis və natəmam və püxtəlik aləmində xam olursa, o qadınlar sinfindəndir. O, əgərçi onu saqqalı uzun və papağı bəzək-düzəkli olmuş olsun. Bu hədis: "Dünya talibi müənnəs (qadın)dır. Axirət talibi müxənnəs (namərd) olub, mövla talibi isə müzəkkər (ərkək)dir. Buna şahiddir". Bu xəbər: "Fatimə məndən bir hissədir, hər kimsə ona əziyyət versə mənə əziyyət vermiş olar" – bu mətləbə şahiddir. Bu ayə: "Ey Məryəm! Allah səni bəyənmiş, səni pak etmiş və səni dünya qadınlarından seçmişdir". Bu danışığı təyid edir. Bu ayə: "Onun Allahı onu gözəl surətdə qəbul etmiş, onu gözəl bir tərzdə göyərtmiş idi". Bu halı qüvvətləndirir...

Əgər qadınlar silkindən bir peyğəmbər məbud olmamış və onlardan bir imam dünyaya gəlməsə də, amma bütün peyğəmbərlər və tamam övliya, övsiya feyz batinindən onlar mövcud olmuşlar. Və qadınların bərəkətindən və onların hümməti sayəsində uca mərtəbələrə çatmışlar. Bütün hükəma və ürəfa onların tərbiyəsi sayəsində kamala yetişmişlər. Ruzigarın, biliciləri və hər bir ölkənin əqilliləri onların mehribanlığından əqil vadisinə və bilik səhrasına qoşmuşlar. Yəqin bil ki, heç bir qadın allahlıq iddiasında olmamışdır və dilini "mən sizin ən böyük Allahınızam" sözü ilə açmamışdır. Nə İbrahimi şəhərdən çıxarmış, nə Musanı Misirdən qaçırmış, nə də İsanı zillət darına asmış və nə də Rəsuli-Ərəbi (Məhəmməd) onların əlindən qaçmışdır. Əgər insaf gözünü açsan və həqiqət aləminə səyahət etsən, kişilərin övzaını müşahidə etsən və onların əhvalına diqqət gözü ilə nəzər salsan əlbəttə, bilərsən ki, hər bir əsrdə və zamanda fisqü-fücur, zülm, cövr, cəfa və ismətsizlik ümumi kişilərdə o qədər yayılmışdır ki, mindən biri və bir çox azı qadınlar sinfindən zahir olmur. Bütün aləmin fəsadı və bəniadəmin ixtilafı saqqal və papaq sahiblərindən baş verir. Ölkələrin övzaı və bəndələrin əhvalı və risalət əsası və xilafət binası onlardan puç və fasid olur.

Məclisdəki bütün kişilərin üstünə bu ittihamlar üzündən sanki su ələnmişdi. Heç kəs dinib-danışmaq istəmirdi. Sükut xeyli çəkdi. Zeynalabdinin təzə tanışlarından xarəzmli bir şair bu əzici sakitlik içində fikirli-fikirli söhbətə başladı. Sanki öz-özünə danışırdı:

– Bizim Xarəzmdə – Xivə şəhərində dünyanın heç bir yerində olmayan bir məzarlıq var; ümumi qəbiristandan ayrı; "Qadınlar məzarlığı" adlanır. Xüsusi bina içindədir. Qapısındakı yazıdan məlum olur ki, ustadi-xarəzmi Xudayberdinin əməlidir. Daş darvazaya şeir həkk olunub, kimindir, bilinmir. Bəlkə, elə memar ustadındır. Dəfn olunmuş xatın anaların dilindən deyilir: "Biz qadınlar sağ ikən sizin sevgiliniz, ömür məşuqəniz idik. Bizi gül-çiçək içində saxlayar, bəzəndirər, sevərdilər. Öldük, ayaqlar altına düşdük, qara torpağa tapşırıldıq. İndi heç kəs bizi yad etmir, bizə sarı baxmır. İnsanlar! Unutmayın ki, biz sizin ananız olmuşuq, döşlərimizdən sizə süd vermişik. Yerlə göy arasında ananın mövqeyi ucadır". Bizim türk dilində yazan ən qədim şairlərimizdən bu günəcən şerimizdə ana adı uca tutulub. Elə böyük, əvəzsiz şairlərimizdən Əlişir Nəvai də "anam Günəş, atam ay" deyib. Mən Nəvvab Aliyə Həlimətün-Nisabəyim həzrətlərin son rəddəcən haqlı bilirəm. Düz deyir: dünyadakı bütün qanlı-qadalı müharibələr, cəncəllər, dava-şava bizim əməlimizdir. Analar isə həmişə övladını, ciyərparasını dinc böyütmək, xoşbəxt görmək arzulayıb.

Hekayət hamıya dərin təsir bağışlamışdı. Zeynalabdinlə müsahibəsindən ev sahibəsinin inciyə biləcəyindən qorxurdular. Bəziləri qadının nəcibliyinə, bəziləri əliaçıq Həlimənin ehsanlarının kəsilə biləcəyinə, şeir, maraqlı söhbətlər məclisin qapana biləcəyinə heyifsilənir, sözü heç vaxt açıq, çılpaq demirdilər. Bu qonaq... baltanı sərt vurdu. Kim isə "qadın-ana qəbiristanı" haqqında danışan xarəzmliyə doğrudan da tərəfdar çıxdı.

– Doğrudur, bizim əməlimizdən ən çox ziyan çəkən övladı, əri, atası əlindən gedən, davalarda, can çəkişmələrində oğlu həlak olan analardı; qadınlardı.

– Baxır ki, hansı ana, hansı qadın? – bayaqkı "cod" dərviş qızğınlıqla sözə qarışdı. – Sizə, icazənizlə bəlkə də məclisdə əyləşənlərin bəzisinə tanış olan bir rəvayət danışım.

– Buyur, buyur!

– Buyuracaqsan.

Hamı o əzgin, o narahat sual-cavabın və xarəzmlinin ağıllı söhbətinin təsiri altındaydı. Dərviş sözə başladı:



– Deyirlər Həzrəti-Nuhun bircə qızı varımış. Günün müxtəlif vaxtlarında ibadət üstündəykən onun yanına üç elçi gəlir. İbadət üstündə heç kimin xahişini rədd etməyən Nuh elçilərin üçünə də "qızı verdim, mübarək!" deyir. Gecə düşəndə verdiyi sözdən dəhşətə gəlir: Allahına yalvarır. Rəhmət qapısı açıq imiş. Səhərə yaxın Nuhu yuxu tutur. Ayılanda görür ki, evdə üç qızı var, bir-birinə elə bənzəyirlər ki, doğma ata onları ayırd eləyə bilmir. Həyətdən isə eşşəyi ilə iti yoxdur. Başa düşür ki, Allahı onun dualarını eşidib. Eşşəyi də, iti də onun qızı surətinə salıb. Nuh peyğəmbər Allaha dua elədi, elçilər yanında üzüqara, yalançı çıxmadı. Toy edib qızların hərəsini bir evə köçürtdü. Bir ay keçdi. Nuh qızları yoxlayıb, doğma, öz tərbiyəsi ilə böyümüş qızının hansı kürəkənə nəsib olduğunu bilmək istədi. Birinci kürəkəninin evinə gəldi; qonaqladılar. Evdən çıxanda kürəkəndən soruşdu:

– Hə... Necədir arvadın, necə dolanırsınız?

– Yaxşıdır, baba, hər cəhətdən bacarıqlıdır, amma hərdən-hərdən adamın üstünə it kimi çımxırmağı var.

Nuh "itin yerini" öyrənib ikinci kürəkənin yanına yollandı. Burada da layiqincə qonaqlandı, gedərkən: "Hə, necədir?" sualına ikinci kürəkən belə cavab verdi:

– Yaxşıdır, baba, əlindən nə desən gəlir. Zəhmətkeşdi, amma hərdən-hərdən işə kahıllıq etməyi, eşşək kimi tərslik eləməyi var.

Beləliklə, Nuh-Nəbi "eşşəyin də yerini" öyrənib, öz qızının evinə getdi, çıxanda soruşdu:

– Hə, necədi arvadın, oğul?

Oğlanın dili ağzına sığmadı, ürəkdən gəlini təriflədi:

– Hər cəhətdən yaxşıdı, baba, sənin kimi atanın verdiyi tərbiyə necə olar? İpək kimi yumşaqdır. Ulular qadında üç əlamət, üç xislət – xasiyyət olmağını vacib sayıblar: ehtiyatkarlıq, yığımcıllıq – ev yığan olsun; dikbaşlıq da ki, ərinin şərəfini qorumaq üçün. Hər üçü qızınızda var. Bu tərbiyə üçün sizə minnətdarıq.

O vaxtdan bəri qadın qismi üç qismət olub, üç nəsildən böyüyüb, hürəyən, tərs və əsil insan. Bu axırıncı kimə qismət olubsa bizlərdə ona "qurdu ulayıb", "bəxti təxt üstəymiş" deyərlər.

Yenə də bu bölgüdə acı bir kinayə, xoşagəlməz eyham var idi. Əgər pərdənin o biri üzündə bəyim əyləşməmiş olsaydı, indicə çörəyini yeyib, həmişə ağlına "afərin" dedikləri Həlimətün-Nisa olmasaydı, hırıldayan, gülən tapılardı. Lətifələr, məzəli rəvayətlər bir-birinin

ardında düzülərdi. Amma indi... Amma indi... Onlar intizarla söhbətin mövzusunu dəyişə bilən, narahatçılığı aradan götürə bilən, "igid" arzulayırdılar.

Bu hisslər bu anda Zeynalabdinə yad idi. Çünki o ev sahibəsinin cavabını alandan sonra ürəyində heyrətlə təəssüf hissi bir-birini üstələyirdi. Xanımın kamalına, ağlına heyran olmuşdu. Özünü isə danlayırdı. Axı neyçün o, məhz o, şəninə layiq olmayan sual verdi? Məgər o özü bəyimin verəcəyi cavabı bilmirdi? Məgər anası Şirinbəyimin, onlarla, yüzlərlə Şirinbəyim kimi anaları görməmişdi, tanımırdı? "Neyçün toxundum qəlbinə? "Ab dər kuzevo ma təşnə-ləban migərdim. Yar dər xanevo ma gərde-cahan migərdim"[1] deyən ustad, sən haqlısanmış".

Sonra da hafizəsində indicə danışılan xüsusi "qadın məzarlığı" həkk olundu, bir anlığa şair qəlbini çulğayan hisslər içərisində alim, hər maraqlı şeyi görüb-götürmək istəyən ağlı özlüyündə qeyd etdi: "Mütləq Xarəzmə yol salıb o məzarlığı görməliyəm. Orada da, axır vaxtlarda Hindistanda, indi də bu yerlərdə tez-tez adına rast gəldiyim, rübailərini eşitdiyim Pəhləvan Mahmudun da el ağzında müqəddəsləşdirilmiş "pir" məzarını ziyarət etməliyəm. Hə... Necə oxudu o xivəli tacir karvansarada:

> Səd sal əsire-bənde-zindan budən
> Beh zonke dəmi həmdəme-nadan budən.[2]

Gözəl başlanan məclis onun üçün xeyli süst keçdi. Axıra doğru dinib-danışmırdı. Susub oturmuşdu. Məclis qurtaranda, qonaqlar "Ya Allah" deyib yerlərindən qalxanda, ev sahibəsinin səsi eşidildi, məlum idi ki, Zeynalabdini nəzərdə tutur:

– Möhtərəm qonaq! Qəlbimizə toxunmuş olduğunuzu güman etməyin. Və bizdən də incik getməyin. Nə qədər ki, şəhərimizdəsiniz, məclislərimizi şərəfləndirin, xahiş edirəm. Ayaq kəsməyin bu həqirənin evindən.

Zeynalabdin təşəkkür edib çıxdı. Qərarı da bu idi ki, bir də bu saraya qədəm basmayacaq. Amma sözünün üstündə dura bilmədi.

[1] Su kuzədə ola-ola biz susuzluqdan qurumuş dodaqlarla axtarırıq. Yar evdə ola-ola biz dünyanı dolanırıq.

[2] Yüz il zindanda əsir olmaq bir an nadanla qalmaqdan yaxşıdır.



* * *

Bir sabah Zeynalabdin sərinkən şəhər ətrafını gəzmək, mümkün olduqca ətraf kəndlər haqqında məlumat toplamaq məqsədilə karvansaradan erkən, sübh namazını qılan kimi çıxmışdı. Ətraf kəndlər çox uzaq olduğundan, miniksiz o yerlərə gedə bilmədi. Piyada yolçu qızmar gündüz günəşinə davam gətirməzdi. Karvanlar belə hallarda "karvanqıran ulduzu" görünəndə qalxır, bələdçilər ulduzların yerinə görə istiqaməti müəyyənləşdirir və karvanı gün qızmamış günorta mənzilinə çatdırırdılar. İndi nə Zeynalabdini kəndə aparan bələdçi var idi, nə də özü yolu tanıyırdı. Belə hallarda o karvansara sahiblərinin vasitəsilə öz kəndinə dönməli olan adamlardan tapar, gedərdi. İndi də kənd-kəsək səfərini münasib vaxta qoyub, şəhər kənarındakı qədim tikililərə tamaşa etdi və nahar vaxtına karvansaraya qayıtdı. Yol üstündə çox qəribə bir mənzərəylə üzləşdi. Geyimindən, zahirindən hindli olduğu anlaşılan bir kişini başqa birisi saqqallayıb döyürdü. Döyülən görünür çox aciz adam idi, ya da el içində rüsvay olmağından utanırdı, nə idisə, əsla müqavimət göstərmir, başını boynunun içinə çəkib arabir gözlərini qorumaq üçün əlini üzünə qaldırır, başına, çiyinlərinə, kürəyinə tökülən yumruq zərbələrinə səs çıxarmadan dözürdü. Döyülənin kasıb, döyənin varlı olduğu ilk baxışdan aydın idi. Aralıda divara qısılıb ağlayan bir hindli qadın heç bir şeylə kömək edə bilmədiyindən çarəsiz dayanmışdı, əllərini ovcalayır, sarinin ucu ilə gözlərini silirdi. Bir neçə tamaşaçı da, kişinin döyülməsinin çox adi bir şey kimi seyr edirdi. Zeynalabdin tamaşaçılara yanaşıb birindən soruşdu:

– Bu kişini niyə döyür o?

Cavabında ürəyini yandıran bu əhvalatı eşitdi:

– O döyülən fağır Ananddır. O da arvadıdır. Döyən sələmçi Rəhman sahibdir. Anandın bircə qızı var idi, ərə verəcəkdi, gücü çatmadı, gedib bundan sələminə borc pul götürdü, qızı toy eləyib köçürtdü. İndi sələmçi pulu tələb eləyir, borcun vaxtı bitib. Atanın sələmçiyə verilməsi pulu yoxdur. Nə qədər çalışıb əlləşdi, vaxt istədi, vermədi zalım.

Zeynalabdin dözə bilməyib Rəhman sahibə yaxınlaşdı:

– Əssəlaməleykə Rəhman sahib, Allah adına əl saxla!

Rəhman sahib əl saxladı, tanımadığı adama tərəf çımxırdı:

– Nə istəyirsən? Başqalarının işinə burnunu soxmaq məsləhət deyil.

Zeynalabdin bir ümidlə, qəzəbini yenərək təmkinlə səsləndi:

– "Əgər xalqa nəsihət vermək istəyirsənsə, əvvəlcə öz nəfsinə nəsihət ver. Əgər təslim olmaq qeydində olsan, başqalarını nəsihət et. Əgər belə olmasa – Allahdan utan!"[1].

Və nisbətən ucadan bir beyt bədahətən söylədi:

Allah lütfü səninlə eyləyirsə müdara
Həddini aşma!!! Aşsan, özün olarsan rüsva.

Düzünə qalsa Rəhman sahibin dərvişlərlə heç arası yox idi. İanəzad verən də deyildi. Bunu isə təzə görürdü. Kəlamından qorxmasa da, diksindi. Ətrafındakılar "Allahdan utan" sözünü eşidirdi. Dərvişi acıqlı-acıqlı süzdü, "rəhmdilliyini" bildirmək üçün üzünü indicə əzişdirdiyi bədbəxt ataya tutub cır səsilə bağırdı:

– Qurban olasan ağa dərvişə, yeri get xarabana. Sabah səhərəcən sənə vaxt verirəm, ya pulu gətir... ya da... özün bilirsən. Tanıyırsan məni, – deyə hədələdi, çönüb getdi.

Səslər eşidildi:

– Sağ olsun ağa dərviş.

– Əh, nə faydası...

– Səhərəcən hardan tapacaq eylə pulu?

– Allah kərimdi.

– Kərimin quyusu elə dərindi ki, düşən çıxmağının vaxtını bilməz.

...Zeynalabdin özü də səbəbini, nəticəni bilmədən düz Həlimətün-Nisabəyimin sarayına gəldi. Yaraşıqlı darvazanın önündə onu keçən dəfə bələdçilik edib qonaq gətirən silahlı nökəri gördü, salamlaşdılar.

– Bir qulluq, ağa!

– Nəvvab Aliyəyə bir sözüm var... Əgər həqir bəndəni qəbul üçün imkanı yoxsa, istəyimi yazıb verərəm.

"Yaz ver" sözü nökərin dilinə ilişib qaldı, dedi:

– Bu saat.

Az sonra qayıtdı:

– Buyurun, cənab səyyah, izindi.

Səyyahı həmincə, məclis qurulan otağa gətirdilər. Ağ pərdənin arxasında bu dəfə bir neçə nəfərin kölgəsi bəlirirdi. Zeynalabdin içəri girib salam verdi, əleyk aldı; keçib döşəkçələrdən birinin üstündə diz çökdü.

Sən gördüyün kəramət Misri xərab olubdu,
Sən gördüyün mərhəmət Nili sərab olubdu.

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri, səh.937.



dedi və "mərhəmət" istədi. Xanım nə olduğunu bilmədiyi üçün heyrətlənmişdi: "Doğrudanmı o günkü alim-səyyahdımı? Nə olub ona? Kimdən zülm görüb? Ailəsi üçün yardımmı diləyir?" deyə düşündü. Səyyah şair Təmkin bir az əvvəl gördüyü səhnəni təsvir etməyə başladı. O, sözünü bitirməmiş xanımın səsi eşidildi və şairin arxasındakı qapının qənşərində dayanan silahlı nökər səyyaha az tanış olan bir dildə əmr alıb çıxdı. Xanım onun sözünü yarımçıq kəsdiyi üçün üzr istədi:

– Ustad, – dedi, – xahişinizi dərhal anladım. Elə hadisələr, təəssüf ki, bizim məmləkətin bəlalarından biridir. Nökəriniz getdi. Anandın Rəhman sahibə olan borcu ödəniləcək elə indicə. Arxayın olun. Sizdən rica edirəm, ölkəniz, adətləriniz haqqında danışın. Mən böyük həvəslə dinlərəm. Günorta çörəyini burada kəsib, günorta namazını da arzu etsəniz buranın namazgahında qıla bilərsiniz. Axşam sərininəcən eyvanlarda, sərində dincələr, sonra da istədiyiniz vaxt gedə bilərsiniz.

Zeynalabdin qaldı. Bu zərif, incə təklif ovsunlamışdı onu. Günorta namazına qədər o danışdıqca ara-sıra suallar verirdi; Şirvan, İran, İraq haqqında bildiklərini ona danışdı. Bu ölkələrin tanınmış adamları, alim və şairləri barəsində məlumat verdi.

Günortaya doğru aralarında pərdə olsa da artıq əməlli-başlı bir-birini tanıyıb dostlaşmışdılar. Elə buna görə də Zeynalabdin özünü narahat edən bir sualı ərklə, amma həqiqi təəssüf, xahiş duyulan səslə verdi:

– Xanım, bəyim əfv edin, belə bir beyt var (o bu beytin ayələr əsasında elə indicə, bədahətən nitqinə gəldiyini demədi), belədi:

Naməhrəm adam bir gün əgər girsə qapıdan
Söz qıssa: "Hərəm əhli yaşınsın gərək ondan".

– Siz isə burada məclis, müsahibə-münaqişə-mübahisə meydanı açmışsınız. Bu məclisə gələnlər naməhrəmlərdir. Yəni sizə qanla-canla yaxın adamlar deyil. Siz doğrudur, ismət pərdəsinin arxasında əyləşmisiniz. Lakin axı insanların daxili-batini – "qəlp gözləri" var. Həm də kimliyinə bələd olmadığınız.

Həlimətün-Nisabəyim Zeynalabdini diqqətlə dinlədikcə dərin bir fikrə dalmışdı. O bilirdi. Bütün irili-xırdalı Şərq hökmdarları şairlərə, alimlərə yalnız "şerin, sənətin, elmin hamisi, rəvac verəni (istinad) şöhrətini qazanmaq üçün sənət adamlarına, alimlərə hörmət edir, çörək verirdilər. Aralarında əsil yetiklər tək-tük idi və Həlimətün-Nisabəyim məhz belələrindəndi. Və Zeynalabdinə hörməti böyük idi. İstəyirdi ki,

onu əsil dost görsün. Xudmani məclislərdə onu dinləsin. Dünyanı gəzdiyi, gördüyü yerlər, adamlar haqqında ona danışsın. Yaltaq deyil, yalançı deyil, sözün düzünü deyir.

Həlimətün-Nisabəyimin müsahibi çox olmuşdu. Bu məclislər neçə illərdir ki, çox söz-sova, danışığa səbəb olmuş və zamanın imtahanından çıxıb, əsil ədəb məclisi kimi şöhrət qazanmışdı. Görüşünə çoxları gəlirdi hər yerdən.

Həlimətün-Nisanın şairlərə, alimlərə hörmətini eşidənlər içində əsil sənətkarlarla yanaşı, asan yolla varlanmaq istəyən macəraçılar, tüfeylilər, fırıldaqçılar da olurdu. Xanım bunları çox tez ifşa edə bilirdi. Müxtəlif sorğu-suala tutub heçliyini, məqsədini aydınlaşdırırdı.

Ədəbi müsahibələr mükalimə şəklində gedirdi; qalib-məğlub. Xanım əsil şeri başa düşür, Firdovsini, Nizamini, Hafizi, Sədini tanıyır, tez-tez onlardan beytlər oxuyurdu. İndi o, qonağın dediklərini düşünür, cavab axtarırdı; Zeynalabdinsə deyirdi:

– Adamlar olur. Bilirəm, bu neçə müddət ərzində duymuşam ki, sizi qoruyan cənab yaradandan başqa, bir də öz şəxsi ləyaqətiniz, ağlınız, ismətiniz, bir də mərhum atanızın adıdır. Bu üç ünsür sizi qoruyan tilsimdir. Lakin axı sizdən "eşq nədir?" sualını soruşanın qəlbinin dərinliklərində nə düşündüyünü, məqsədini necə, hardan biləsiz?

Həlimətün-Nisabəyimin əlinə sanki cavab tapmaqdan ötəri vaxtı uzatmaq üçün girəvə düşdü:

– Möhtərəm ustad, – dedi, – zəhmət olmasa əvvəlcə, həmin sualın cavabını verin. Sizin sualınızın cavabını vermək, özümü, əməlimi izah etmək, anlada bilmək üçün mənə vaxt verin.

Zeynalabdin dərindən bir ah çəkdi. Ev sahibəsinin çətin sualdakı mövzunu dəyişmək istədiyini zənn edib dedi:

– Eşq yaradanın öz yaratdıqlarına bütün bu və o biri dünya əzabları müqabilində bağışladığı ən yüksək mükafatdır. Eşq bəşər hisslərinin ən ucası, ən təmizi və xoşbəxtlik gətirənidir.

Nə qədər qılsam da eşqdən bəyan,
Xəcalət çəkərəm rast gəlsəm, inan.

Əgərçi aydındır dildə eşq sözü
Amma dilsiz sevda aydındır ondan.[1]

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə" (sətri tərcümə)



Bəli, doğrudur eşq sözü dildə çox asan və aydındır. Ancaq onun dərindən dərin daxili mənaları var. Eşq təkcə bir-birinə qovuşmaq həsrəti ilə yanan iki qəlbin şöləsindən ibarət deyil. Aqillər bilir ki: "Məhəbbətin növləri beş qismə bölünür: 1. Zati məhəbbət; 2. Sifati məhəbbət; 3. Əsmai (adla bağlı) məhəbbət; 4. Əfali (işlə bağlı məhəbbət); 5. Əsərlər ilə əlaqədar olan məhəbbət"[1]; Cüzvün küllə meylidir.

"Gül üzünə aşiqdir ol bülbüllər
Cüzv dəxi küllə tərəf meyl edər"[2].

Bəndə sizə bu qədər cavab verə bildi, hörmətli xanım.

Pərdənin arxasında yalnız və yalnız xəfif bir kölgə kimi görünən xəyal "gülümsədi". Qonaq bu təbəssümü görmədi, eşitmədi. Amma nədənsə duydu ki, üzünü görmədiyi bəyim ona məhz incə təbəssümlə cavab verir:

– Möhtərəm qonaq! Mənə cavab imkanı yaratdığınız üçün sizə təşəkkür edirəm. Və belə güman etməyin ki... – o duruxdu, az fasilədən sonra sözünə davam elədi: – Elə güman etməyin ki, cavab tapmağa başım qarışıb, dediklərinizə qulaq asmamışam. Dəlil lazımsa, rübainizi də, bercəstə[3] beytlərinizi də əzbərdən söyləyə bilərəm. Zənnimcə, öz şeirlərinizdir.

Şair Təmkin qulaq kəsildi; cavab vermədi. Qız səhər mehi kimi incə, zərif bir səslə oxudu:

Nə qədər qılsam da eşqdən bəyan,
Xəcalət çəkərəm rast gəlsəm ondan.
Əgərçi aydındır dildə eşq sözü
Amma dilsiz sevda aydındır ondan.

Şair özünü saxlaya bilmədi; həyəcanla, heyrətlə dilləndi:

– Afərin bu hafizəyə.

Pərdə arxasındakı xəfif kölgənin təvazökar səsi eşidildi:

– Yaradana, o hafizəni öz bəndəsinə bağışlayan Yaradana afərin. Mən kiməm ki! Bəli, siz düz buyurursunuz. Məclislərimizə təsadüfi

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə" (sətri tərcümə)
[2] Yenə orada (sətri tərcümə)
[3] Seçmə

adamlar da düşə bilir. Yol tapırlar. Doğrudur, bizim adamlar adam seçəndə diqqətli olmağa çalışırlar. Amma bəzən zahiri görkəmə aldanıqları da olur. Tək-tək. O da tez üzə çıxır. Üfunətli maye doldurulmuş qabın ağzı açılan kimi pis iy ürək bulandırır. O adamlar da belədirlər. Cənab Əli rəzyallahi[1] *buyurub*: "İnsan öz dilinin altındadı. Danışdı – kimliyi meydana çıxar". Burda da müsahibin kimliyi meydana çıxan anda adamlarımız onu uzaqlaşdırır. Özüm də silahsız deyiləm. Narahat olmanıza dəyməz. Hər halda qayğınız mənə xoşdur. Mən özümə bu meydanı ona görə almışam ki, alimlərdən, şairlərdən, aqillərdən millətimin keçmişini öyrənim. Və bu keçmiş üzərində qurulan gələcəyini təsəvvür edim, yaranmasına əlimdən gələn köməyi göstərim. Axı yalnız öz tarixini, keçmişini unutmayan, onu yaxşıca mənimsəyib gənc nəslinə öyrədən xalq, millət zamanın keşməkeşlərinə sinə gərə bilər, iç və dış yağılara qələbə çalar, güclü millət olar...

Zeynalabdin Həlimətün-Nisabəyimi dinlədikcə "Sübhanallah... Möcüzədir, qadın deyil bu..." düşünürdü. Elə buna görə və sonralar Həlimətün-Nisabəyim haqqında ilk görüşdə xanıma verdiyi sualı, onun cavabını kitabında çox böyük fərəhlə, təriflərlə tamamlamışdı. Onu Şərqin ən məşhur xanımları ilə müqayisə etmiş, axırda "Nəvvab Aliyə" adlandırdığı Həlimətün-Nisa haqda yazmışdı:

"Nəvvab Sadiq Əli xanın qızıdır. Raqim[2] deyir: – Nəvvab Nasirüddövlənin böyük atası Nəvvab Cəsarət xanın o ölkəyə qoşmasından və məmləkətə qələbəsindən qabaq, Nəvvab Aliyənin atası o ölkənin hökmdarı idi. Onun mərtəbəsinin böyüklüyündən və sinə genişliyindən (çox bilikli olduğundan) o nahiyələrin əmirlərindən qabaqcıllıq topunu qapırdı. Nəvvab Sadiq Əli xanın oğlu yox idi. Buna görə Cəsarət xan o vilayətin hökmdarlıq bayrağını ucaltdı. Yaşamaq üçün kömək olaraq 40 para abad kənd Nəvvab Aliyəyə həvalə etdi. Raqim deyir: – Qadınlar sinfindən mərifət səbəbi ilə, kamal cəhəti ilə, gözəl əhvalı ilə, danışığının şirinliyi ilə, rəftarının yaxşılığı ilə səyahət aləmində o məlahət məcmuəsi olan kimsəyi az görmüş və ruzigarın dayəsi o dildar kimini öz beşiyində və ağuşunda az bəsləmiş idi. Bu surət və kəmalət və mənəvi fəzilətlər ilə və dövlətinin çoxluğu və dəsgahının bolluğu cəhətindən və gözəlliyin kamalı sayəsindən və cavanlığının çoxluğundan, vəcd və hal sahibləri ilə və fəzl-kamal sahibləri ilə nəhayət

[1] Allah ondan razı olsun!

[2] R a q i m – "yazan", yəni Hacı Zeynalabdin Şirvani özü



dərəcədə meyli var idi. Və ürfan əhlinin və yəqinlik sahiblərinin söhbətinə tamam meyil göstərirdi. O bir məclis bəzəyib, maarif əhlini pərdə arxasında saxlayaraq onlar ilə söhbət edirdi. Onlarla bəyənilmiş mübahisələr və gözəl sual-cavablar hər məqulədən (fəsil, bab) bəhs edirdi. Danışığın arasında münasib şeirlər oxurdu. Və ayələrdən və xəbərlərdən hüzzarın qulağına çatdırırdı. Bəzən müşkül hədisləri soruşurdu. Onun mənasını sual edərdi. Qəbuletdirici cavablar bulardı. Raqim deyir: "Əxbar" kitablarında böyüklərdən bir cəmin əhvalı görünmüşdü. Məsələn, Xosrov Pərvizin qızı Purandoxt və Zübeydə xatun Abbasi və İsmət-tac Səlcüqiyi Rumi və məlik müzzəm Misrinin qızı Şəcərətüd-dürr və Kirman hökmdarının Lalə xatunu və Hindistan hakiminin qızı Sultan Rəziyyə və Zibünnisa – Bəyim hindi və Mələk ağayi-Turani və onlardan başqaları şübhəsiz mənalarda dərk etməkdə və bəyan anlatmaqda Nəvvab Aliyə kimi olmuşlar..."

Raqim deyir: Nəvvab Aliyənin hekayələri çox olub. Hamısının təqriri çətindir. Çünki, xəyala gələn şeyləri ondan birini müşahidə etmək o şey göz görür, onun mində biri dilə gəlməz. O şey ki, dilə gəlir onun çox az bir qismini yazmaq olar.

## AŞIRIM

Aşırıma çatanda ilin bu fəslində gözlənməyən qar yağmağa başladı. Çarvadarlar, bələdçilər əllərindəki iri çomaq və dəyənəkləri yerə, qarın içinə dirəyə-dirəyə öndə gedirdilər. Atlılar atdan, qatır minənlər qatırdan, eşşəyi olanlar eşşəkdən enmiş, heyvanları yedəklərinə almış; atın, qatırın yüyənini, eşşəyin noxtasını çəkə-çəkə çarvadarın dalınca irəliləyirdilər. Sarban onların ardınca nərin ovsarını sol qoluna dolayıb karvanı çəkirdi. Hələ külək zəifdi; lopa-lopa yağan qar adamların üzünə düşüb əriyir, amma bığ və saqqallarda ilişib qalır; saqqalları ağardırdı.

Külək bərkidikcə hava pisləşir, göz-gözü görmürdü. Uçuruma yuvarlanmağın qorxusundan bəzi miniyi olmayan piyadalar önündə gedən atın quyruğunu əlinə dolayıb gözlərini yumur, küləkdən ikiqat bükülüb havasına yeriyirdi. Küləyin canavar kimi ulamağına baxmayaraq, adamlar elə bil boğulurdu. Hava çatmırdı. Gözlər həm öz-özünə küləkdən, həm də üzə çırpan, kirpikləri qovuşduran qardan islanır, adamlar "ağlayırdı". Dikə çıxdıqca adamın nəfəsi qaralırdı.

– Ya Allah.
– Allah, sən saxla!
– Ay aman...
– Fəryada yet, ya Allah.
Müxtəlif dillərdə, müxtəlif ləhcələrdə yüksəlirdi bu fəryadlar.
– Allah, sən saxla, Allah sən saxla...
Bəzirgan bələdçiylə yanaşı gedirdi. Atın yüyənindən çəkə-çəkə yeriyirdi. Sağlam, çətinliklər görmüş, bərk dərələr, sarp qayalı aşırımlardan çox keçmiş, möhkəm adam idi. Bununla belə adamlar, heyvanlar və yüklər sarıdan narahat idi. Bir anlığa ona elə gəldi ki, yolu azıb harasa dağa başqa səmtdən çıxırlar. Özünü itirməyini büruzə vermədi, möhkəm səslə çarvadar bələdçinin qulağına tərəf bağırdı:
– Çox qalıb? Azmamısan?
– Yox, ay hacı, azmaq nədi? Özün bilirsən ki, burda ayrı cığır yoxdu. Azcana qalıb dikin təpəsindəyik, indi day enişədi yol. Dağın o yüzündə bəlkəm, qar-girvə də olmadı. Kərəminə qurban olduğumun işin bilmək olur ki? İlin bu vaxtında...
Bəzirgan sözlərin çoxunu eşitmirdi; külək aparırdı, haradasa sözləri uğultular arasında itirirdi...
Az sonra doğrudan da enişə meyil başladı. Dağın bu üzündə külək də deyəsən azaldı. Adamlar üz-gözlərinin qarını silib nisbətən sərbəst nəfəs almağa başladılar. Amma hələ burada da qar yağırdı, dağ təkcə küləyin qabağını kəsmişdi elə bil, ya səmti dəyişmişdi.
Enişi sürətlə endilər, sürüşür, qara yıxılıb yumbalanır, atların üzəngisindən tutur, yəhərqaşına, quşquna əl atırdılar. Atlar sürüşüb yıxılanda elliklə kömək edib qaldırırdılar. "Mənim-sənin", "Gəl, kömək elə" çağırışı yox idi. Hərə bacardığını eləyirdi. Qatırın, eşşəyin aşırılan yükünü düzəltmək asan idi. Çətin dəvəydi. Xıxırdıb yük düzəltmək, tay samballamaq mümkün deyildi.
...Qarşılarına sərt bir qaya daldası, mağaraya bənzəyən daldalanacaq çıxanda karvanın adamları elə bil təzədən dünyaya gəlirdilər. Hamı yorulub əldən düşmüşdü. Sərt gəldik, sıldırımlı uçurumlar, dəhşətli dərin yarğanları, dərələri ilə məşhur aşırım yolçuların canını almışdı. İlk anda hərə bir tərəfə yıxılıb "inciyini çıxarmaq" istədi. Qaya dibinə, daldaya sərildi, söykəndi; elə bu da bir neçə dəqiqə çəkdi. O saat əyinlərindəki paltarların şaxtadan qaxaca çevrilməkdə olduğunu görüb yerlərindən qalxdılar. Haçansa, hansı bir çobanın, ovçunun, çarvadarınsa yığıb qayanın lap dib, dalda tərəfinə qoyduğu odundan tonqal qaladılar;



çaxmaq qov alışdırıb tonqalı yandırdılar. Üstünə dəmir atıb, satıl və səmiclərə qar doldururdular. "Çay qaynatmağa" və qızınmağa, paltarlarını qurutmağa başladılar.
Bəzirganbaşı qaynar çaydan dil-dodağını pörtlədə-pörtlədə içdikcə, yanında əyləşib qurulanmaqla məşğul olan Zeynalabdinə deyirdi:
– Afərin sizə, maşallah, dözümlüsüz. Fikir verirəm, çarvadarlardan geri qalmırdız. Əlinizi bir at quyruğuna atmadız.
– Əlbəttə... İllər... İllərin vərdişi...
– Yooox... Səfərlər möhkəmlədib sizi, lap bizim sarbanlar, çarvadarlar kimi.
– Hm...
– Yaxşı çıxdıq tələsindən aşırımın, Allahın köməkliyi ilə. Hacı, lap o gədiyin təpəsində nəzir elədim, inşallah təxti-Süleymana çatan kimi, bizi bu ütüdən qurtaran Allah yolunda qurban kəsəcəm.
– Qəbul olsun.
– Qəbul eləyib o gözəl Allahım. Eləməsəydi, çətin salamat çıxaydıq o çovğunda, o qar girvədə, o küləyin tüğyanında...
Günün qalan yarısını qar ara vermədiyindən elə buradaca gecələməyi qərara aldılar. Çarvadarlar razılaşmırdı, bəzirganbaşı və sarbana deyirdi:
– Axı ikicə fərsək aralıda xanəgah var. Ora gedək, orda da gecələyərik.
– Yox... Aşırım adamları da, heyvanları da yorub. Qar ara verməyib, yola çıxarıq, xanəgaha çata bilməsək, ya tapmasaq, gecə düşər bu dalda əlimizdən çıxar. Tonqalı gözləyin, qoruyun, sabah erkən çıxarıq.
– Hə... Yer don olar, elə də sürüşmərik... Axşamın xeyrindən sabahın şəri yaxşıdı.
– Sabah xanəgaha gedib bir, ya iki gün orada qalıb dincələrik; heyvanları da dincə qoyarıq. Sonra "ağamı Allah saxlasın" deyib düşərik yola.
Belə də qərara gəldilər. Çarvadarın təslim olmaqdan başqa çarəsi qalmadı. Dəvələrə navala verməyə başladılar; at və qatırların arpa torbasını başına keçirdilər. Yalnız bu hazırlıqdan sonra özlərinin yeməyi və bütün gecəni səhərəcən daldalanması qayğısına qaldılar...
Səhər yorğun, yarıac, yuxusuz, əl-ayağı uyuşmuş, bütün vücudu keyimiş insanları, xıxırdılmış dəvələrin böyrünə qısılıb, büzüşüb mürgüləyən adamları günəşin ilk şüaları işıqlandırırdı. Günəş... O ilk, o işıqlı, o hərarətli, o "göz çıxardan", iynə kimi batan şüalar karvan əhlinin

qəlbinə bir sevinc doldurdu. Yerlərindən sıçrayıb tonqalı gurlatmaq, çay qoymaq, bir qurtum qaynar su da olsa içib, ağızlarına bir şey atmaq istədilər. Amma çarvadar da, təcrübəli sarban da buna mane olurdu. Təcrübəsi az olanlar deyindi:

– Neyçün?

– Gün çıxır, qızınırıq. Qoy bir az da qalxsın, yeyib-içib gedək...

– Yox... olmaz.

– Olmaz.

– Neyçün?

– Ay Allahın bəndələri! Gün qızan kimi dünən yağan qar əriməyə başlayacaq, elə indidən ərginləşib. Bu dağlardan su sel kimi axacaq. Tez olun, tez olun...

...Sel onları dabanbasma qovurdu. Heyvanlar da təhlükəni duyub, addımlarını yeyinlətmişdilər. Karvandakılar yalnız cülgələr axmağa başlayanda çarvadar və sarbanın haqlı olduğunu anladılar. Atlar sürüşür, adamlar topuğacan su içində, palçığı fırçıldada-fırçıldada demək olar ki, dağı üzüaşağı yüyürürdülər. Xoşbəxtlikdən selin güclü hissəsi aşırımın o üzünə, az bir hissəsi bu üzünə axırdı. Qar dağın o üzündə daha çox idi. Bu üzdə su güclü deyil, yayğın idi. Əldən düşürdülər, nəfəsləri daralırdı, ürəkləri döyünür, ağızlarından buxar qalxır, papaq altından alınlarına tər süzülürdü. Beləcə ağır gün, ağır ruzigarda gəlib çarvadarın dediyi qədim xanəgaha çatdılar. Xanəgahda bir neçə dərviş var idi. Uzaq-yaxın kəndlərdən, obalardan, binələrdən nəzir gətirən bir-iki kişi və qadın karvana heyrətlə baxırdılar. Axı bu yerlərdə artıq yaz girmişdi. Düzəndə "bircə ayın biliyini sürən" otlar yamyaşıl, çiçəklər al-əlvan idi. Quşlar yuva tikir, məhəbbət mahnısı oxuya-oxuya gələcək balacığazları üçün yumşaq, rahat yurd qururdular. Adamlar qarı-qışı unudurdular, ürəklərdə yaz sevinci yaza-həsrət gülü kimi qar altından baş qaldırırdı. Bu gələnlər isə... Bu gələnlər "cülümbür" su içindəydilər. Yorğunluq, qorxu, yuxusuzluq hamısının üzünə kirəc ağlığı, susuz torpaq rəngi çəkmişdi.

– İlahi...

– Allah saxladı...

– Çovğuna düşüblər deyir...

– Əşi çovğun nə gəzirdi bu gecə?

– Burda... Allahın əlçatmaz aşırımında...

– Onu de, onu de...

– Fağırlar.



– Əldən düşüblər...

– Düşərlər də... Eylə yolu...

– İki gün, aşırım... çovğun.

– Vallah, Allah saxlayıb.

– Əşi Allah saxlayana heç nə olmur.

– İtkiləri olmayıb ki?

– Deyəsən, yox...

– Afərin, maşallah bu çarvadara...

– Əlbət ki!..

– Çarvadar olmasaydı...

– Sarban da bu yollara çoxdan bələd adamdı; işinin ustasıdı...

– Allah saxlayıb; o kişinin əlinin üstündə əl yoxdu.

Yerlilər başlarını qaldırıb indi günəşli, aydın, tərtəmiz yuyulub-silinmiş kimi par-par yanan göylərə baxırdı. Bircə əlcə bulud belə görünməyən göylərin maviliyi göz qamaşdırırdı. Dağların zirvələri, bax, bircə gecə əvvəl aşıb gəldikləri o gədik, göylərin o mavi libasını yırtıb ucalara, göz işlədikcə fəzanın dərinliklərinə can atırdı sanki.

Xanəgahdakılar danışdıqca, onların vəziyyətini müzakirə etdikcə, karvan camaatı, xüsusilə sarbanlar öz dərdinə qalmış, danışıqlara məhəl qoymadan, islanıb yumşalmış, "pambığa dönmüş" çarıqlarını, zığ içində rəngi bilinməyən patavalarını açıb kiminsə xanəgah həyətində qaladığı tonqalda qurutmaq əvəzinə heyvanları rahatlayır, dincəlsin deyə yükləri açır, xıxırdılmış dəvələrə, at, qatır və eşşəklərə "su göstərəndən sonra" yemləyirdilər. Birinci qayğı heyvanlarındı. Öz canları yadlarından çıxmışdı hələ ki.

Axşama doğru adamlar nisbətən özlərinə gəlmiş, dil-ağızları açılmışdı! Və yalnız bu zaman məlum oldu ki, bəzirganbaşı xəstələnmişdir. Heç olmasa, ən azı, üç-dörd gün yataqda qalmalı, küpə qoydurub, tərlədici ələfiyyatdan çay dəmlətdirib içməli, möhkəm tərləyib ayılmalıdır.

– Qoy hacı, "göy çay"ı çox içsin...

– Üstünü basdırın, tərlədin.

– Sirkə varsa, əl-ayağını ovun...

– Sinəsinə keçi piyi sürtün.

– Başına tuman sarıyıb deyin: "Tuman gəldi, tumo qaç!" Məsləhət məsləhət dalınca gəlirdi. Sabahı günü Hacının bir qədər "ağlı üstünə gəldi". O birisi gün yola çıxmaq haqqında binagüzarlıq verirdi ki, "Sultan, Sultan, Sultan" səsləri eşidildi.

Zeynalabdin xanəgahdan, bəzirganbaşının yanından çıxdı. Xanəgah arxası dağa söykənmiş, qabağı geniş meydanlı daş bina idi. Hansı əsrdə, kim tərəfindən tikildiyi məlum deyildi. Əslində qədim hənəfi məzhəb dərvişlərdən hansı birininsə vəsiyyəti ilə onun məzarı üstündə tikilmişdi. Sonradan həqiqət unudulmuş, məzar "müqəddəsləşdirilmişdi". Həqiqət isə bu idi ki, o dərviş bu xanəgahı gəzəri dərviş qardaşları üçün vəsiyyət etmişdi. Qələndərlərin, kimsəsiz yolçuların sığınacağı idi. Payızda – qışda onları yağışdan-qardan, yayda günəşin yandırıcı şüalarından qoruyurdu. Çətin yol üstündə, məskun karvan mənzillərindən aralıydı. Həyətində şirin sulu quyu vardı. Quyunun yanında kölgəsi bir neçə ailəyə bəs eləyən qarağac ucalırdı. Qarağacın budaqlarından həmişə sərçələrin, sığırçınların, qarğaların və fəslinə görə başqa quşların civiltisi, qarıltısı, cəh-cəhi eşidilirdi.

Zeynalabdin həyətə çıxanda quşlar da, həyətdəki heyvanlar da susmuşdu. Həyəti yarımdairə şəklində silahlı süvarilər əhatə etmişdi. Ortalıqda isə dümağ, qara qaşqalı at üstündə gənclikdən kamilliyə keçməkdə olan qabil bir adam oturmuşdu. Yəhər-əsbabı par-par yanan gümüşdəndi. Yavərlərin "Sultan, Sultan, Sultan" dedikləri buymuş. Zeynalabdin ətrafına baxındı. Xanəgahdakı bütün dərvişlərlə birlikdə, xəstə bəzirgandan başqa hamı burada idi və Sultanın salamını alıb nə deyəcəyini gözləyirdilər. Görünür bu xanəgaha bələd olan dərvişlər məsələni bilirdilər. Elə Zeynalabdin də dərviş qardaşlarının üzündəki sakitliyi, mehriban ifadəni görüb narahatlıq üçün səbəb olmadığını anladı. Maraqla tamaşa etməyə başladı. Haradansa bir kətil gətirdilər. Üstünə döşəkçə qoydular. Sultan enib əyləşdi və cərgə ilə adamlardan hardan gəlib, hara getdiyini, kimliyini soruşmağa başladı. Gözəl simasını qara nazik bığlarla ensiz qara xətt daha da gözəlləşdirir, onu yaşından cavan göstərirdi. Gözlərində dərin bir insani məhəbbət, qayğı, mehribanlıq var idi. Hərbi məşğələlər, ov, çöl-bayır həyatı çinara bənzər qamətini bir az da mütənasib etmişdi.

Zeynalabdin yaxınında dayanmış dərvişdən üsulluca soruşdu:

– Kimdir?

– Bədəxşan sultanı... Bədəxşan yaqutu kimi saf.

Yavərlərdən biri solunda, əli bağlamalı xəzinədar sağında dayanmışdı. Sufi dərvişləri, xanəgaha pənah gətirmiş fağır-füqəranı, karvanla gələn kasıbların "hamısı ilə bircə-bircə danışdı. Onlara çoxlu qızıl və gümüş pul bağışladı"

[1] Hacı Zeynalabdin Şirvani. "Riyazüs-səyahə" (sitat)



Növbə Zeynalabdinə çatanda ağıllı gözlərindəki böyük bir maraqla səyyaha baxdı... Baxdı... Birdən məni gördükdə mərhəmətlə soruşdu:

– Hansı ölkədənsən? Hansı gülzarın gülüsən?

Mən fəqir ərz elədim:

– Şirvan məmləkətindənəm, indi Bədəxşanda.

Yenidən lütfən soruşdu:

– Şirvanın çoxlu şəhərləri və saysız kəndləri vardır. Şirvanın hansı şəhərindənsən?

Mən fəqir dedim:

– Darülmülük Şamaxıdanam.

Oxucunun yadından çıxmayıbsa Zeynalabdin Şamaxıda cəmi beşcə uşaqlıq illəri yaşamış və on yeddi yaşında isə buraya gəlib bir neçə il qalmış, azacıq gəzib-görüb dünya səyahətinə çıxmışdı. Amma elə bu anda dilinə nə on beş il təhsil aldığı, ata-anasının yaşadığı Kərbəla gəldi, nə də arvadı Hümeyra gözəlin iki balası, qoşa oğlu ilə birlikdə doğulduğu Şiraz yadına düşdü. Şamaxı dedi. Qanı, canı ilə bağlı olduğu Şamaxını dedi...

İndi artıq Sultanın bütün diqqəti Zeynalabdində idi. Geyimi, danışığı, duruşu ilə Sultanın bu vaxtacan gördüyü dərvişlərə bənzəmirdi. Onda Sultanı cəlb edən nəysə, başqa bir xüsusiyyət vardı. Soruşdu:

– Hardandır, harayadır səfər, ağa?

– Sərəndib[1], Hindistan, Təbbət[2], Sind tərəflərdən... İndi... İndi isə yolum Türküstanadır... Hələlik isə bu xanəgahda bir müddət qalmaq istərdim.

– Mətaın nədi? Nə alıb nə satırsan?

– Elm, bilik alıram, "satacağım" əsəri isə hələ yazıram.

Sultan görkəmli bir alimlə qarşılaşdığını anladı:

– Lütfən adınızı bağışlayın.

– Dünya adamları arasında Hacı Zeynalabdin Şirvani, Nemətullahi dərvişlər arasında Məstəli şah, şeirdə... orada da Təmkin.

– Bəs nə axtarırsan cənab ağa?

– Uluların yazdıqları, yadigar qoyub getdikləri, qədim, ibrətli kitabları. Məscidlərdə, camelərdə, mədrəsə və xanəgahlarda saxlanan kitabları, əlyazmaları oxuyuram. Zamanın harda bir ağılbənd, ustad alimi, bilicisinə rast oluramsa onlardan dərs alıram.

[1] Seylon, Şri-Lanka
[2] Tibet

– Hələ də? Hələ də dərs alırsan?

– Dərs almaq heç bir zaman gec deyil və heç bir zaman qurtarmır. Biliyin sonu yoxdur. "Beşikdən ta qəbir evinəcən öyrən", deyiblər.

Sultan yerindən qalxdı, ona başqaları kimi pul-sədəqə verməyi rəva görmədən yaxınına gəldi; ətrafdakıların təəccüblü baxışları altında onunla əl-ələ görüşdü və narın bir təbəssümlə dedi. Bu təbəssümdə əziz, hörmətli qonaq dəvət edən bir mehriban ev sahibinin nəvazişi var idi:

– Cənab hacı, onda səadət üzümüzə gülüb. Sizin də, mənim də. Sizin – ona görə ki, sarayda mənim zəngin, nəzərimcə çox qiymətli əlyazmaların xəzinəsi var. Buyurun, canınız istədiyi qədər oxuyun, tanış olun; istəsəniz lap ömür boyu qalın. Mənim üçün səadətdir – ona görə ki, sizin kimi dünyagörmüş bir şəxsin söhbətlərinə qulaq asa biləcəyəm.

Təklif o qədər nəcib bir nəzakətlə edilmişdi ki, Zeynalabdin heç istəsəydi də "yox" deyə bilməyəcəkdi. Xüsusilə o zəngin kitabxanasını görmək eşqilə:

– Sultanım, – dedi – ürəkdən təbrik edirəm. Böyük bir minnətdarlıq və şükranla qəbul eləyirəm. Əlbəttə, həmişəlik qalmaq mümkün deyil; fəqirin Şirazda yolunu gözləyən külfəti var.

– Çox gözəl, çox pakizə. – Yavərinə döndü və əmr etdi: – Hacı üçün at və lazımi binagüzarlıq.

– Oldu.

Zeynalabdin tələsdi:

– Sultanım, bu karvan xanəgahdan sabah yola düşür. İzninizlə onları yola salandan sonra xidmətinizə gələrəm.

– Sizin arzunuzla, hacı, sizin arzunuzla.

Zeynalabdinin bütün dünyada, xüsusilə Şərq poeziyasında ləli qırmızı, çəhrayı yaqutu ilə şöhrət qazanmış Bədəxşan ölkəsi ilə tanışlığı belə başladı.



## BUZ ŞAQQILTISI

O birisi yaz açıla-açılmaya Zeynalabdin Türküstanda yaxşı tanınan və sevilən bəzirgan Hacı Ömər bayın karvanına qoşuldu.

Düzünə qalanda saray kitabxanası ilə tanışlığı qurtarmışdı. Artıq bir-iki ay idi ki, Sultanın könlünün xoş vaxtında "Yollar çağırır məni, Sultanım" deyib Bədəxşan ölkəsini kəndbəkənd, oymaq-oymaq gəzməyə, yerli əhalinin güzəranı ilə yaxından tanış olmağa başlamışdı. Elə bu zaman karvansaralardan birində Türküstana – Xoqand, Səmərqənd, Buxara, Xivə tərəflərə uzun müddətli səyahətə çıxmış Hacı Ömər bayın karvanına rast oldu, sarayla, onun elmə, şerə həvəsli sultanı ilə vidalaşıb hacının dəstəsinə qoşuldu.

Xeyli müddət idi ki, yol gəlirdilər.

Ceyhunun sahilinə xeyli qalmış karvan dayandı. Karvanın qabağında Türkmən atı minmiş bəzirgan Ömər bay sağ əlini gözünün üstünə hayıl edib uzağa, orada nəyəsə diqqət verməyə başladı. Sarbanlar, dəvə girəciləri ona çatınca dayandılar, onlar dəvələri yatırmadan öz növbələrində həmin tərəfə zənlə baxmağa başladılar. Uzaqdan boğuq uğultu gəlir, haradasa göy gurultusunu, ildırım çaxmasını xatırladan səslər eşidilirdi. Göyün üzü dupduru, aydınlıq idi. Nə bir bulud, nə bir duman... Hələ heç bu yerlərdə yazın nəfəsi də duyulmurdu. İrəliki mənzildə Ömər bay nə eşitmişdisə, elə yola "Allaha pənah" və narahat çıxmışdı: "Bəlkə, su artmamış keçə bildik", deyə düşünmüşdü. Amma indi...

Hacı Zeynalabdin Ömər baya yaxınlaşdı. İkiaylıq karvan yolu bu iki yetik adamı həmsöhbət, həmfikir, yaxın dost etmişdi.

– Nə xəbər var, bay əkə? Nədən dayandıq?

Bəzirgan qayğılar içərisində gözlərini Ceyhunun qıvrılıb-açıldığı səmtdən çəkmədən dilləndi:

– İrəlidə nəsə olub. Bir-iki fərsəx...

Sonra üzünü oğluna çevirdi:

– Murad bay sən atdan düş, ver ağa dərvişə köhlənini. Biz bir irəlidən xəbər tutaq.

Yaşı otuzu haqlasa da atasının qənşərində hələ də bir məktəbli kimi dayanan Murad bay heç bir etiraz etmədən səmənd ürgədən endi. Sarbanlardan biri nəsə soruşmaq istədi:

– Bəs?

Onun sözü yarımçıq qaldı. İndi daha aydın eşidilən uğultu – çatırtı sanki getdikcə yaxınlaşır, güclənirdi. Hacı Ömər bay tələsik binagüzarlıq etdi:

– Hasan bay, sən karvanı bax... baaxxx – əlindəki qamçı ilə arxada sol tərəfdəki bır qaraltını göstərib əlavə etdi: – baax, o qarağacın dibində çöndər. Biz ağa dərvişlə birgə irəliyə – Ceyhunun bərəsinə baxıb qayıdanacan orada açılın, dincəlin... biz dönənəcən...

Son sözləri o, dostu Zeynalabdin ilə birlikdə Ceyhuna tərəf çaparaqda söylədi.

Qara kəhərlə Səmənd ürgə ana-bala idi. Yanaşı nəfəs-nəfəsə, çiyin-çiyinə gedirdilər. Minicilər də danışmır, diqqətlə, gözləri ağrıyanacan irəli baxırdılar.

Bu yerlər, qış uzunu bərkimiş torpaqlar qar altından təzə-təzə çıxmağa başlayırdı. Uzun illərin təcrübəli bəzirganı Ömər bay tələsmişdi, Turan çöllərinin qışı da ona yaxşı tanış olduğundan cəld tərpənmək istəmişdi. O tayda xeyli malı qalmışdı. O tayda cavan arvadı Dildar bikə qalmışdı və Ömər bayın qoca könlü Dildar bikənin gənc vücudu, odlu nəfəsi, qaynar bal kimi yandırıcı dodaqları üçün darıxmışdı. Dildar bikə hər gecə yuxularında Kokand ipəyinə bürünmüş qollarını onun boynuna dolayır, "Gəl-gəl, hardasan, gəl! Necə olsan, gəl! Tələs! Qocalıq gəncliyimi əlimdən almamış gəl! Dodaqlarım bal şirinliyini itirməmiş, vücudumun odu-közü sönməmiş, gəl! Bu bal şərbətindən dadlı, bu qızılgül ətrindən iyli dodaqlarımdan qoca vücudun üçün gənclik, həyat əmi!" deyirdi

Ömər bay tələsirdi. O, Dildar bikənin hələ bir sözünü iki eləməmişdi. Dildar bikə hərdən-hərdən onun üçün nazlı, şıltaq, kövrək, ərköyün uşaq olurdu və o, gündüzlər bu "uşağın" nazı ilə oynadıqca, gecələr odu soyumaqda olan vücudunu bu körpə qolları arasında təsəvvür belə etmirdi. Dildarın gecəsi ayrı, gündüzü ayrı idi... Hər ikisi də Ömər bay üçün əziz idi, qiymətli idi... Keçiləsi deyildi heç birindən.

Ömər bay tələsirdi. Dostu Zeynalabdinin elminə, mərifətinə valeh olsa da, bütün yol uzunu gecə karvansara hücrələrində və günorta mənzillərində vaxtını onunla müsahibədə keçirsə də, Dildar bikəni bir an yadından çıxarmamışdı. İndi də qarşıdakı təhlükə ona yalnız və yalnız Dildar bikənin ağuşuna, vüsalına çatmaq yolunda növbəti manea kimi gəlirdi, başqa bir şey deyildi.

Zeynalabdin bayaqkı, cavabsız sualını bir daha təkrar etdi:

– Nə baş verib siz bilən, bay əkə?



Ömər bay artıq nə baş verdiyini təsəvvür etməyə başlayırdı:

– Deyəsən yuxarılarda, təcik[1] tərəflərdə yaz tez gəlib, isti tez düşüb, Ceyhuna sel gəlib...

Qarşıda üzü onlara tərəf gələn adamlar görünməyə başladı. Bu, fəlakətdən can qurtarmağa çalışan kəndlilər, dehqanlar idi. Kimi uşağı boynuna mindirmiş, kimi dalına almış, kimi çiyninə yükləmişdi. Əlində bağlama, çiynində heybə, xurcun olanlar da var idi. Ayaqyalın idilər. Üst-başları palçıq içindəydi. Suala küskün-küskün cavab verdilər:

– Allahın qəzəbinə tutulduq.

– Mal-qaramızı, kumalarımızı sel apardı.

– Yurdsuz-yuvasız qaldıq.

– İrəliyə getməyin, əkə, sel güclənir...

Yurdsuzlar arxada qaldı. Ömər bay sadəcə bir yetikliklə, Zeynalabdin alim marağı ilə Ceyhunu, sellərilə – sarı-palçıq suları ilə bir neçə, çaya lap yovuq düşmüş kəndi yuyub aparmış Ceyhunu öz gözü ilə, mümkün olduqca yaxından görmək istəyirdi...

İndi artıq yer islaq, qar, palçıq idi, atların ayağı bu lehmənin içində fırçıltı çıxarır, ətrafa yüzlərlə palçıq, sarı su zərrələri səpələyirdi.

Ömər bay atın yönünü sola, Ceyhunun axarına çevirdi. Səmənd ürgə öz süvarisini ondan ayırmadan irəliləyirdi. Bu yerlərdə Ceyhuna doğru sahil nisbətən yüksəlir, sahil boyu hündür, boz qayalardan azacıq o yana ucalan təpəliklərdə Tuqay meşələri qaralırdı. Lap bəridə dikdirdə nəhəng, qocaman bir qarağac ucalırdı. Su bu yerlərə qalxa bilməmişdi. Pamirdən, Tyan-Şan dağlarından axıb gələn sular, burada – "Aslan əniyi" adlanan dar dərədə güclü çaya çevrilib Ceyhuna qovuşurdu. Əfsanəyə görə... Burasını, qamçını irəli uzadıb indi buz qalaqları parıldayan yeri göstərərək Ömər bay danışdı:

– Deyirlər ki, şiələrin birinci imamı, peyğəmbərimiz həzrəti Məhəmməd əfəndimizin mübarək əmisi oğlu və kürəkəni, qızı Fatimə fəzlillahın əri, imamlardan peyğəmbər nəvələri Həsən və Hüseynin atası Əli, Xeybəri almağa gedəndə vaxtilə "Dəvə boynu" deyilən bu yerdə Düldül adlanan atı ilə çayı, baax, baax, həmin burda sıçrayıb keçmişdir.

Atlılar qarağacın dibinəcən qalxdılar və gözləri önündə cazibədarlığı qədər də dəhşətli bir mənzərə canlandı. Ceyhun bu yerdə nisbətən dar dərə ilə axırmış, qış ağır keçmiş, Ceyhun donmuşmuş. Hələ bu

[1] Tacik

yerlərdə yaz, istilər düşmədiyindən, qar əriməmiş, buz sınmamış, yuxarılardan – Pamirdənmi, Tyan-Şandanmı, göyün uca bulud köynəyini deşən, səmalara dirənən əlçatmaz zirvələrdən, "dünyanın dambacasından" qopub gələn bahar suları coşqun, sarı-bulanıq sellərə dönmüş, Ceyhunun sinəsindəki qalın buz örtüyünə güc gəlmiş, parçalamış, sındırmışdır. Şaqqırtılar bu səs imiş.

Bu yerlərin adətən bərəkətli torpağında nə bitmirdi? Ceyhundan ayrılan qollar – arxlar insan əlinin, Xarəzm kəndlisinin əlilə yaranan möcüzəydi, ildə iki dəfə hamılıqca biyara çıxıb, Ceyhundan ayrılan arxları təmizləyərdilər. Bostanlarda, dünyada məşhur Xarəzm yemişi yetişirdi, sanki yaşıl tağlar arasından sarı – narıncı alov saçır, bağlarda da Günəşdən qızılı rəng almış əncir-üzüm ötənə gəl-gəl eləyirdi. Lap qədimlərdə yunanilərin OKS, yerlilərin Öküz adlandırdığı, ərəblərin-farsların Ceyhuna çevirdiyi həyat mənbəyi çaya nə qədər zəhmət təri, nə qədər gözyaşı axıb? Bircə Ceyhun bilir. Daşanda düzü-dünyanı başına götürən Ceyhun Tuqay meşələri ilə həşyələnmiş, Ceyhun. Payızda bu Tuqay meşələrinin üstündə Şimaldan gəlib, Cənuba köçən quşların çığırbağırı aləmi başına götürürdü.

İndi isə... İndi...

Bu yerlərdə torpaq bərəkətli olur.

Ceyhunun uzun yollar boyu daşıyıb gətirdiyi lilli sular torpağın bərəkətini, ana, doğuran ana gücünü elə artırır, kənd təsərrüfatı üçün elə bir şərait yaradırdı ki, bu yerlərdə əkinçilər bol-bol əkir, bol-bol məhsul götürürdülər. Tarix boyu Ceyhun vadisində güclü əkin-biçin olub. Zəhmət çəkən, tər tökən xalq yaxşı da məhsul götürüb. Ceyhun ildə, daha doğrusu yaz aylarında dörd dəfə daşır, əkin sahələrinə, çay boyu bitən qamışlıqlarda, Tuqay meşələrinə bərəkət, həyat gətirirdi.

Quraqlıq illərində, sel gecikəndə əhali həyəcanlanır, ruhanilər Dəvəboynu boğazındakı "Aralçı övliya" adacığına gedib Müsəllaya çıxırdılar.

Nəhəng buz layları qopub şahə qalxmış, dəli, qızğın köhlənlər kimi bir-birini cığnamış, bir-birinin üstünə qalanmışdı. Güclü sellər ordan-burdan özünə yol tapanacan, nəhəng aysberqləri andıran buz layları sellərə yol verənəcən, sarı palçıq sular Ceyhunun daha alçaq olan sol sahilinə qalxmış, məcrasından çıxmış, vadini doldurmuş və sol əldəki xırdaca, yaşıl, zümrüd obacıqları tər-təmiz yuyub aparmışdı. "Aysberqlər" sahillərə basıldıqca selin dəli gücü onları xırpalayıb əzdikcə, doğrayıb əritdikcə su məcraya qayıdacaqdı. İndi isə... bu yerlər hələ də gürlayan sellərin uğultusu, parçalanan buz laylarının şaqqıltısından qulaq tutulan fəlakət məskəniydi. Mal-qara, payızlıq əkin yerləri, ev-eşik tamamilə məhv olmuşdu. Nə qədər insan tələfatı olduğunu cənazələri qoynuna alıb Arala tərəf axıdan Ceyhun bilirdi. Balasını itirən ana bilirdi. Qardaşını oxşayan bacı bilirdi. Evi külfətsiz qalan ər bilirdi.



Zeynalabdin bu böyük, bu acı, bu qarşısıalınmaz faciə qarşısında qəlbini çulğamış kədər hissilə donub durmuşdu. Bircə kəlmə də söyləməyə, bircə hissini ifadəyə heyi qalmamışdı. Ömər bay da susmuş, Dildar bikə ilə görüşünü azı bir 10-15 gün uzaqlaşdıran bu mancə qarşısında heyrət içində yəhərə yapışmışdı. Qoca bəzirganbaşı ömrü uzunu, ölkələr, şəhərlər, kəndlər el-el, oba-oba, oymaq-oymaq gəzdiyi məmləkətlərdə o qədər fəlakətlər görmüşdü ki... Onlar içində təbiisi də var idi, insan əlilə törənəni də. Lakin bu... bu... Bu xam köhlən kimi şahə qalxan buz qalaları içərisində qaralan insan meyitləri arvad, uşaq, qoca cənazələri onun, dünyanın çox acısını görmüş kühənsalın da laqeyd qəlbini titrətmişdi. Kişinin nazik, ağ dəyirmi saqqalı aşağı yaş süzülürdü. Amma özünün heç deyəsən, bundan xəbəri də yox idi. Dodaqlarının dövrəsindəki nazik, ağ, zərif bığları titrəyirdi.

Uzaqdan türkmən papağına bənzəyən qara keçə alaçıqların bəzisi buzun üstündə qara günbəz kimi qaralırdı. Eləcə "buz ayğır belinə almışdı" bir-iki gün əvvəl "alaçıq ev" adlanan kiminsə yurd-yuvası, sevib-sevildiyi, yer üzünə övlad gətirdiyi o sığınacaqları... İçində məhv olan vardımı, ya güclü zərbədən əvvəl qoyub qaça bilmişdilərmi?

## AXTARAN TAPAR

Yaxşı xatırlayırdı o məbədi. Dörd sütun üzərində tikilmiş günbəz... Ortasından asılmış zəng... Uzaqdan o qədər xırda, zərif, şəffaf görünürdü ki, ara-bərəsindən görünən mavi səmaya qarışmış ilğıma bənzəyirdi. Bəlkə də, elə naməlum memar onu qəsdən belə yaratmışdı; axı ilğım da od ələyən səhrada atəşdən, susuzluqdan yananların gözünə görünür. Bu məbədə tərəf qoşan, bir ümidlə nəzir gətirib, zəngi çalmaqla gəldiyini, itaətlə, ümidlə, pənah apararaq gəldiyini tapındığı "ilahi"sinə xəbər versin. Bu həsrət, bu dərd, bu yanğı ilə başını itirmiş diləkçilər, susuz səhrada ilğıma doğru qoşanlara çox oxşayırdılar. Gözlərdə eyni qüssə, ümid, arzu bir-birinə qarışıb, məbəddəki pənahgahdan ümid gözləyirdilər. Eləlləri də var idi ki, mərd-mərdana, arın-arxayın

gəlir, nəzirini məbədə doğru qalxan enli, geniş, dairəvi pillələrin kənarlarında oturmuş ağaclara, dilənməyən dilənçilərə, şikəstliyini gözə soxmayan əlillərə paylayırdı. Sonra da günbəzin altındakı zəngi titrədirdi. Sanki deyirdi: "Gəlmişəm hüzuruna, ey Yaradanım! Özün yaratmısan. Heç bir günahım yoxdur, qarşında alnı açığam. Özün haqqı nahaqqa vermə. Qurtar məni bu bəladan".

...Və əmin idi ki, tapındığı o ulu, qüdrətli, gözəgörünməz xaliq mütləq onu eşidəcək, haqqını özünə qaytaracaq.

Zeynalabdin də başqa dərvişlər kimi aralıda, nəhəng manqo ağacının iri "çadırı" – kölgəsi altında oturub dilənçiləri, diləkçiləri, zəvvarları, müxtəlif təriqətli dərvişləri, ibadətçi olmayıb sadəcə tamaşaya gələnləri seyr edir; hərənin üzündən, geyimindən millətini, mənsub olduğu təriqəti, gözlərindən isə kimliyini, hansı istəklə, diləklə yaşadığını bilməyə səy göstərirdi. Axşam sərin düşəndə isə balaca heybəsindəki kitablara cumur, qələmdanını götürüb gün ərzində gördüyü kəndlər, qəsəbələr, başlıcası insanlar haqqında qeydlər edirdi. Bəzi dərviş "qardaşlar"ı kimi qumara, "səbzəli-şah"a (tiryək) və ya "sürxəli-şah"a (al şəraba) uymurdu.

Uşaqlıqdan belə idi. Qeyri-adi biliyə həvəsi, zəhmətsevərliyi və saatlarla, günlərlə yemək-içməyi, əyləncələri unudub, kitablara dalmağı ilə seçilirdi. Donuq mədrəsə həyatından, atası da olsa Axund İskəndərin vəzlərindən uzaqlaşıb dünyanı görmək (eşitmək hara, görmək hara) öyrənmək, bilik toplamaq. Bu idi arzusu. "Bilik səni bəlalardan qoruyar" demişdi ustadları, müəllimləri. "Var-dövləti sən qorumalısan, bilik isə səni qoruyar" öyrətmişdi müəllimləri. Ən qədim zamandan Yaxın Şərqdə, eləcə də bütün İslam dünyasında adət idi: bilik əldə etmək istəyən adam şəhərbəşəhər, ölkə-ölkə gəzib o yerdə yaşayan, oralarda müdərris (dərs deyən) olan alimlərdən müəyyən vaxt ərzində dərs alardılar. Alimlər ölkələrə, böyük əraziyə (İslam dünyasına) səpələnmiş şəhərlərə: Məşhədə, Buxaraya, Bəlxə, Səmərqəndə, Nəcəfül-Əşrəfə, Hələbə, Qahirəyə, Bağdada... yayılmışdılar. Məhz bir ölkədə, bir darül-elmdə (elm ocağında) birləşməmişdi. Bir-birinə bənzəməyən, bir-birinin dilini bilməyən adamları bu bilik almaq eşqi, əlvan təbiəti görmək, ölkələr, xalqlar tanımaq həvəsi insanlar arasında əlaqə yaradırdı. O da beləydi. Onu Şərqdə yalnız böyük ərəb səyyahı İbn Bətutə və türk alim-səyyahı övliya Çələbi ilə yan-yana qoymaq olardı. İndi də şəraba, tiryəkə xüsusi adlar qoyub, bəzən ən murdar əməllərə qurşananların tənəsi, "Pah... oxuyub nə olacaq? Alim! Yazıb nə olacaq?



Şair!.." kimi kinayələri onu qorxutmurdu, avaravətənlər içində məhz zəhmətsevərliyi və biliyə, elmə həvəsi ilə seçilirdi.

Eşitdiyi bütün əfsanələr və rəvayətləri, nağılları, gözü ilə gördüyü canlı həyatı həmin gün, həmin gecə bayazına yazırdı. Yol üstündə dəvə üstündə, karvansaralarda, ovdan başında istirahət bilmir, harda olsa oturur, bayazını dizinin üstünə qoyur, qələmdandan qələm götürüb, şahidi olduqlarını yazırdı. Elə bu xasiyyəti üçün alimlər, qananlar tərəfindən sevilir, əzizlənirdi. Elə bu adəti üçün nadanların təhnə və istehzasına, acı gülüşlərə, danlaqlara məruz qalırdı.

Amma ağıl sahibləri... Belə ağıl sahiblərindən biri "Xacə Qüstəntin" adlandırdığı bir xristian keşiş idi. Yaxşı yadımdadır: keşişin dəvəti ilə bir neçə dəfə onlara qonaq getmiş, üzüaçıq gəzən xristian qadınlarını görmüş və yazmışdı: Konstantin "o İsəvi millət ariflərindən və o ölkənin bilikli adamlarından idi. Əhvalının yaxşılığı, gözəlliyi, təbiətinin xoşluğu tay-tuşlarından yarış topunu qapırdı (yəni irəli idi). Zahiri elmlərdən və rəsmi fənlərdən tamam bəhrəsi vardı. Həmişə lütf və ehsan toxumunu böyük-kiçiklərin qəlbində əkirdi. Uzun ömür etdiyi halda, eşq badəsindən məst və məhəbbət piyaləsindən bihuş idi... Dəvət dilini açıb fəqiri dostlardan bir nəfərlə çağırdı. Fəqir onun sədaqət və məhəbbətini bilib dəvətini qəbul etdi". Keşiş Konstantinlə söhbətində "Dünya – möminlərin həbsxanası və kafirin cənnətidir" – demişdi. Sonra Xacə soruşdu ki:

– Bu sözün mənası nədir?

Mən dedim:

– Dünya, möminlərinin və ürfan əhlinin zindanı və kafir qəlbi, kafirsirətlilərin cənnətidir.

Bir daha soruşdu:

– Küfr nədir və kafir kimdir?

Mən dedim:

– Kafir (satir – örtən mənasındadır). Ariflərin istilahınca "haqdan qəfil olmaq" deməkdir...

Bəli, o gecəki söhbətlərin və sonra kitabına keçən cüzi parçaların biri kifayət idi ki, "naməhrəm gözəllərə baxdığı, kafir xristianla bir süfrədə əyləşib çörək yediyi və murdar keşişi tərifləyib, dünyanı kafirlərin yox, "kafir qəlblilərin cənnəti" adlandırdığı üçün onu ən azı lənətləyər, islam yığıncaqlarından qovardılar.

Sonralar belə də oldu. Dama-dama göl oldu və Şiraz... Şiraz bəlaları başına gəldi. İran ruhanilərinin qaydası haqqında yazırdı: "Hər kimsə

riyazətdən, öz nəfinə qarşı çıxmaqdan, əxlaq təmizliyindən və nəfsi tərbiyə etməkdən söz söyləsə və batini təkmil etmək və təriqəti təhsil etmək və qəlbi saflaşdırmaq və ruha cila vermək və sirri boşaltmağa başlarsa və təriqət adını və həqiqət nişanını və mərifət rəsmini dilinə gətirərsə və zöhd, təqva, təslim, riza, fəqr, fəna yolunu tutarsa, o adam dəlilsiz və sübutsuz kafir və mülhiddir! Əgər ki o, əsrinin əllaməsi və zəmanəsinin Əbuzəri və Səlmanı ola!

Əgər bir kimsə şəkk və səhvdən, heyz və nifasdan, qüsldən danışırsa və ticarət məsələlərindən, riba hilələri etməkdən, alış-satış və dünya malından dəm vurarsa və şaribini tutub əl-ayağına hənə qoyarsa, bəzən məscidə gedib özünü camaat imamına bənzətsə, bəzi vaxt dəxi bir neçə dirhəm müftinin, yaxud imamın xidmətinə tapşırarsa, o adam şəkk-şübhəsiz Allahı bir bilən mömindir. Əgərçi o xalqın ən cahil və insanların ən alçağı olmuş ola və nəhy olunmuş işlərlə və oyun-oyuncaqlarla bulaşmış ola"[1]

Ruhanilərin, xüsusilə İran ruhanilərinin onun bu kimi fikirlərindən xəbəri yox idi. Zeynalabdin dinsiz deyildi, heç bir zaman "Allahı, peyğəmbəri inkar" etməmiş, hətta "kamala çatdığı illərdə" Nemətullahi təriqətinin başçılarından, təbliğatçılarından birinə belə çevrilmişdi.

Amma indi şübhələr içindəydi. Dünyada onlarla din – təriqət nümayəndəsi ilə qarşılaşmış, elmi, fəlsəfi, dini müsahibələr, mübahisələr aparmışdı. Diqqət etmiş, görmüşdü ki, hər kəs öz dinini, öz təriqətini başqalarından haqq sayır, doğru hesab edir. Xristian da, yəhudi də, müsəlman da, atəşpərəst də, bütpərəst də. Bu insanların hamısını "o gözəgörünməz pərvərdigar" özü yaradıb. Bəs niyə hamısına eyni dərəcədə ağıl, zəka, dərk edən beyin, şüur verdiyi halda, Allahın özünü eyni şəkildə dərk etmək qabiliyyəti verməyib? Nəinki başqa-başqa xalqlar, millətlər qovmlər[2] arasında, hətta Allahı bir, Quranı bir olan İslam dünyasında nə qədər ayrılıq, təriqət var? Budur, hər gün beş dəfə saraydan təbil səsi, minarədən azan səsi müsəlmanları namaza çağırır. O düşünürdü: "İlahi dini-islami, eyni vahid olan Allaha, bir peyğəmbərə, bir Qurana inanan, müsəlmanları gör necə bir-birindən ayırıb firqə-firqə eləyiblər ki, Allahın evində belə eyni vaxtda namaz qılmırlar. Halbuki, peyğəmbər salavatullah – Allah ondan razı olsun – kəlisanı

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri,səh.391-392.
[2] Qəbilə, tayfa



da, deyri də "Allah evi" adlandırıb, orada belə namaz qılmaq – ibadət etməyi qəbul hesab edib. Bunlara bax: Şafei... Hənəfi... İlahi, hardadır həqiqət? İlham et, anlat mənə!"

Bu baxımdan onun Bombay haqqındakı qeydlərinə əsil insan azadlığı ilə bağlı fikirləri olduqca maraqlıdır və bizə elə gəlir ki, oxucu bu düşüncələri məhz onun öz dilindən eşitməlidir:

### Bombay haqqında

Bombay ikinci iqlimdən olub, havası isti, suyu quyudan çıxır və pisdir. Torpağı həmişəyaşıl və şəndir. İstitəbiətli, meyvələri bol və ortabab, taxılı isə ucuzdur. Hind dənizinin kənarında yerləşir, sakinləri əksərən hindlilər, iqtidarlı firənglər, digər hissəsi müsəlmanlar, bir qismi gəbrlər, ismaililər, bir qismi də iyman əhli olub, 30 min ev vardır.

Doxsan ilə yaxındır ki, ingilis camaatı o bəndəri paytaxt etmişlər. Şəhərin dövrəsində bir milə qədər daşdan hasar çəkilib, yonulmuş daşdan möhkəm, top-tüfənglə və sair əsləhə ilə elə təhkim edilmişdir ki, ağıl o qalanı göründə heyrət dənizinə düşür. Orada minə yaxın uca evlər vardır. Orada Rum, Çin, firəng, hind, sind və s. mətalar çoxdur. Hər millətdən ticarət və sərvət sahibi çoxdur.

Orada zülm və təcavüzkarlıq olmaz. Orada hər kəsin hər nəyi olsa və hər bir məzhəb və ayini olsa, ona heç bir kimsə toxunmaz. Necə ki, hindlilərin bütxanəsi vardır, müsəlmanlar məsciddə namaz qılır; xristianların kəlisaları və atəşpərəstlərin atəşgahları vardır (hər bir kimsə öz dinini icra edərlər).

Beyt:

Behişt oradadır ki, orada əziyyət olmasın,
Bir kimsənin başqası ilə işi olmasın.

"Bir gün (yəni Zeynalabdinin özü) seyr qəsdilə Bombayı gəzirdim. Təəccüblü bir firqəyə rast oldum: hind riyaziyyətçilərindən (görünür yoqlar) bir dəstə nəzərə çarpdı. Onlardan biri özünü asmış, o biri ayaqlarını cütləşdirib əllərini yuxarı qaldırmış, bir başqası üzünü Günəşə tutub ibadət edirdi.

Müsəlmanlardan bir neçəsini gördüm, biri əlibağlı namaz (sünnü) qılırdı, o biri əliaçıq ibadət (şiə) edirdi. Biri Quran oxuyurdu, o biri övrad (Allahın adları) zikr edirdi. Bir neçə nəfəri şahmat və nərd oynayırdı, digər bir qismi xoruz döyüşdürürdü. Sünnü, şiə, hindli, gəbr

və başqalarından bir parası toplanmışdı və... qadınlar onların hüzurunda rəqs edib oxuyurdular. Başqa bir qismi söhbətə məşğul olur, bir qismi qumar oynayırdı. Xülasə, on yeddi məclis bir-birinə müxalif kimi görünürdü. Hamısı bir-birinin halından fariğ, rahat və azadə idilər, bir-birindən qorxu-hürküsü yoxdu".

Yaxşı yadındadır. Elə orada – Hindistanda müsahib olduğu hakimlərdən biri onu saxlamaq istəyirdi sarayında. Dünyada ən gözəl nemət sandığı kitablardan bu sarayda saxlananları artıq oxumuşdu. Öz kitabxanası yox idi, hardan olacaqdı? Mənzili karvansaralar, həmsöhbəti özü kimi "lüt" dərvişlər idi. Çörəyi ehsanlarda, suyu axar çaylardaydı. Gözəl qarşılandığı, hədsiz hörmət gördüyü saraydan qaçırdı. Hökmdar çox təəssüfləndi və heyrətləndi də:

– Qal, – dedi, – ev-eşik verərik, bu yerlərin adlı-sanlı misilsiz gözəllərindən birinə evləndirərik. Kitabxananı zənginləşdirər, xəttatlar, cildçilər, rəngkarlar dəvət edərik... İşlərsən.

– Gedirəm.

– Hara?

– Bilmirəm.

– Nədən qaçırsan?

Dərin-dərin düşündü.

– Nədən?..

Özü də bilmirdi. Yox, bilirdi!

– Ulu dünyamızı görmək istəyirəm. Ulu Tanrının yaratdıqlarını... Yetmiş iki millət deyirdilər, yetmiş iki dil deyirdilər yaradıb xaliq. Halbuki, təkcə Hindistanda... Nə qədər xalq, tayfa, dil gördüm. İrq gördüm. Dörd din verib deyirdilər pərvərdigar. Dörd müqəddəs kitab verib Yəzdən: Tövrat, Zəbur, İncil, Quran... Halbuki, hər tayfanın öz müqəddəsi, öz dini, öz müqəddəs kitabı var... Amma hamısının dərinliyinə varsan, Allah birdir. Çoxallahlığın da bir "baş Allahı – Zevsi" var. Bəs neyçün bu əslində bir olan yaradıcı qüvvə bu qədər bir-birindən seçilən irq, millət, tayfa yaradıb? Bunu qara, onu sarı, o birini ağ və ya qırmızı xəlq edib. Bunun sirrini, hikmətini bilmək istəyirəm.

– Çətin çatarsan o hikmətə. Ümmanda üzmək... Sən gəmi deyil, talaşa parçasısan, ondan da kiçik... Gəmi də olsaydın, bu sirlər ümmanından üzüb çıxa bilməzdin.

Müsahibini haqlı görsə də, təslim olmaq fikrində deyildi. Təkcə ona yox... Sirrin, ümmanın özünə də. Fikirli-fikirli söyləndi:



– Ulular "axtaran tapar" deyiblər.

Doğrudan da o hələ körpəliyindən, ilk gəncliyindən bu ölkələr haqqında, xüsusən Hindistan haqqında o qədər nağıllar, əfsanələr eşitmiş, "1001 gecə"dən, "Kəlilə və Dimnə"dən, anası Şirinbəyimin Qəndəhar, Multan, Pəncab şahzadələrin nağıllarından, məşhur ərəb, fars müəlliflərinin Əfqanıstan, Hindistan, Xarəzm, Səmərqənd, Buxara haqqında əsərlərini oxumuş, karvanların dayandığı məskənlərdə gecələr sarbanların, çarvadarların, bəzirganların, tacir və dərvişlərin həqiqət, əfsanə və rəvayətlər qarışıq hekayətlərini çox dinləmişdi. İndi bütün bunları öz gözləri ilə görməli, yalanı doğrudan, əfsanəni həqiqətdən seçməliydi. Özü... özü... yalnız özü... Öz gözləri ilə...

Onu diyarbədiyar gəzdirən də bu idi. Evi, ailəsi, mal-madarı yox idi. Dincliyi heç yox idi.

Yaxşı yadındadır. Buxaradan Xarəzmə gələndə karvandan ayrı düşdü. "Yolda, mənzillərin birində çataram, bir az yeyin getsəm" düşündü. Amma... onunku gətirmədi. Heç bir karvana, karvançıya rast olmadı. Yola özü üçün çox yemək götürməmişdi. Elə yoruldu ki, heybəsindən bu yemək ehtiyatını da yolda qoyub yükünü yüngüllətməli oldu.

Ucsuz-bucaqsız səhra, sarı-qızılı rəng... Göz işlədikcə uzanan boşluq... Bu üzücü, bu yorucu qumlar... İnsan gözləri ağrıyanacan baxsa da bircə qaraltı, bircə işartı görmür. Darıxdırıcı yekrənglik, yeknəsəqlik adamın canını üzür. Ətrafda cır-cındırla sarınmış ayaqlarından başqa hərəkət edən heç nə yoxdur. Arabir sarı-qızılı qumlar içərisində görünüb yox olan ərəbdovşanı, ayrı vaxt nifrət doğuran sarı-yaşılımtraq əqrəb... Görünəndə sevinirsən... Hər halda canlıdır... bu əbədi sükut, əbədi boş və cansız görünən aləmdə onlar... Heç olmasa canlıdır. Diridir, hərəkət edir...

Nə qədər getdi, haralardan keçə bilmirdi. Bomboz bozarmış dodaqları qaysaqlanmışdı, onları bir anlığa dili ilə nəmləndirmək üçün dilini çıxaranda dili quruyurdu, ağzında "tüfrük vəziləri" də qurumuşdu sanki.

Ac, susuz və yorğun... Bir quyu üstünə toplanıb nahar edən dərviş dəstəsinə rast gələndə, artıq taqəti qalmamışdı.

Dərvişlər ona "süfrəyə buyur" dedilər. Acmışdı. Cavan, sağlam mədə qida tələb edirdi. Üç gün idi ki, qurşağını hər dəfə daha sıx bağlayırdı. Beli üzükdən keçərdi. İndi "süfrəyə buyur"u eşidincə, dizlərinin taqəti kəsildi. Əllərini həyətdəki buzlu arxda yumuşdu, titrəyirdi əlləri. Çökdü, diz üstə əyləşənlərin dairəsi sıxlaşdı. Çiyinləri çiyinlərə, dirsəkləri dirsəklərə dirəndi. Bu hallara öyrəşmişdi. Hər karvansarada,

xanda, qonaqda... beləydi. Tanımadığı, ömründə görmədiyi bəlkə, sonra da bir daha görməyəcəyi adamlarla bir dövrədən, sinidən, bəlkə ömründə heç vaxt dadmadığı milli xörəklərdən, şirniyyatdan yeməyə alışmışdı. Bu həmsüfrələrin bəzisi sabah səhər onunla yola çıxacaq, çətin yollarda ölüm-dirimlə pəncələşəcək, biri xain çıxacaq, biri dayaq olacaq. Bir başqası vidalaşandan sonra başqa bir mənzildə ona rast gələcək... Yollar... Mənzillər... Karvansaralar... Xanlar... Qonaqlar... nə qədərdir bu dünyada? Ana qoynu kimi istisi də, ögey kimi sərti də... Bahar kimi üzə güləni, könül açanı, qış kimi soyuğu da, yay-payız kimi bol meyvəlisi, açıq süfrəlisi də rast gəlib ona bu yollarda.

Bir az dincini aldıqdan sonra bayazını, qələmdanını çıxartdı, Səmərqənd və Buxara haqqında qeydlərini etməyə başladı. Əvvəlcə Səmərqənd, sonra da Buxara tərəflərinə yenidən xəyali "səyahət" etdi.

Səmərqənd seyqəli ruye-zəminəst,
Buxara qüvvəti-islam-dinəst?[1] –

deyə tərifinən bu şəhərlərin gözəlliyi, qədim abidələri onu heyran qoymuşdu. Günlərlə gəzib-dolaşdıqca bu möcüzə şəhərlər haqqında "Bustanüs-səyahə" kitabına daxil olan məlumatı yazmağa başladı.

### Səmərqənd haqqında

Könülsevən bir şəhərdir. Oranın havası sağlam, suyu isə dadlıdır. Torpağı gözəl münbitdir, yeri fərəhlidir. Beşinci iqlimə daxil olub. Xalidat cəzirlərindən uzunluğu 102 dərəcə və eni isə ekvatordan 30 dərəcədədir.

Onu Gərşasf bina etdi, bir müddət sonra xaraba qaldı. Gərşasf onu yenidən düzəltdi və İskəndər Rumi onu genişləndirdi. Ondan sonra Tübbe-Yəməni nəslindən Şəmər (Səmər) adlı o ölkə əhlinin düşmənliyi üzündən oranı xaraba qoydu, o ölkə imarətlərini kökündən qazıdı. Ondan sonra o şəhəri Şəmər adlandırdılar. Axırda şin hərfini sin hərfinə çevirdilər, ona Səmərqənd dedilər. Ərəbi "kafı" ərəbləşdirib Səmərqənd dedilər.

Qədim zamanda, xüsusilə Teymurilər zamanında çox abad və məmur olmuşdur. Oranın bütün yeməli şeyləri bol idi. Zaman keçdikcə xarabalığa çevrildi. İndi orada yeddi minə qədər ev; ətrafında məşhur kəndlər, abad nahiyələr var. O cümlədən Soğd bölüyüdür. Bağlarının və axar

[1] Səmərqənd yer üzünün bəzəyi,
Buxara İslam dininin qüvvətidir.



sularının çoxluğundan Səmərqəndə dünyanın dörd cənnətlərindən biri demişlər. Səmərqəndin çox bağ və hədsiz bostanları vardır. Soyuq təbiətli meyvələri bol, taxılı ucuzdur. Xalqın əksəri hənəfiməzhəb, farsdilli; digər qismi türkdillidir. Ümumiyyətlə, qəribsevən və mehribandılar. Az bir qismi imamiyyə şiəsidir. Oranın hakimi Buxara valisi tərəfindən təyin olunur. O ölkədə fəzl-kamal sahibləri və vəcd-hal adamları nəşət etmişdir, onlar suri-kamalat və mənəvi fəzilət bəzəyi ilə bəzənmişlər. O cümlədən həkim Sənayinin müridi olan Şəmsüddin, həkim Suzəni və Seyid Mühəmməd Nürbəxşin müridi xacə Məhəmməd və Əmir Müəzza, şair və əruzi fazil və mahir olan Müinəddin Əşrəfi oradan nəşət etmişdir. O ölkədən bir çox əhli-sünnət vəl cəmaət alimləri zahir olmuşlar ki, zikri uzun çəkər.

### Buxara haqqında

İslam vilayətlərindən məşhur bir şəhər olub, dillərdə və ağızlarda söylənən bir ölkədir, orası müntəzəm bir şəhərdir.

"Buxara kəlməsi – darül-elm olub, Turanda ondan böyük bir şəhər yoxdur. Ora beşinci iqlimdən olub, suyu azdır. Havası qışda soyuq, yayda isə müxtəsərcə istidir. Buxara düz bir yerdə yerləşir. Ətrafı açıqdır, altmış min ev mövcuddur. Orada abad nahiyələr, məşhur kəndlər vardır.

Müxtəlif tayfaların məskəni əksəriyyətlə iqtidarlı olan hənəfi məzhəbindəndirlər. Orada on minə yaxın ev artıq təqiyyə (öz dinin qorumaq) halında yaşarlar. Orada min yəhudi ailəsi var. Şəhrin xəlqi "dari" dilində danışırlar və tacikdirlər. Onların arasında türkcə də danışan çoxdur. Kənd əhli və kəndlilər dəxi farsi-zəbandırlar. Ümumiyyətlə kasıblarla mehribandırlar. Tayfanın köçəbəsi və ulusu türk, türkmən, özbək, cığatay və tərxandan ibarətdir. Şəhərdə mədrəsələr, camelər, xanəgahlar çoxdur. Orada bəzəkli dükanlar və yaraşıqlı bazarlar, ürəkaçan imarətlər hədsiz-hesabsızdır. Onlar, ümumiyyətlə ağüzlü olub, gözəllik matandan nəsibləri vardır. Onlar qəribsevən və şiəsevməzdirlər.

Oranın bazar çörəyi və soyuq təbiətli meyvələri (seçmə) mümtazdır. Üləma, şüəra və əmirləri qismindən bir çox adam oradan zahir olmuşlar. Onlar elm və kamal bəzəyi ilə vəcd-hal və cah-calal zinətilə bəzənmişdir. Buxara əhlinin hamısı dərrakədən xali olmazlar. Lakin təəssübkar və inadcıl olarlar. Şəriətin zahirinə əməl edərlər. Onun surətindən keçməzlər. Gizlində və xəlvətdə nəhy olunmuş şeylər və oyuncaqları çoxdur"[1]

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə" (sitat)

Zeynalabdin öz işinə elə bir aludəliklə cummuşdu ki, aralıdan ona tamaşa edib hırıldayan iki dərvişin söhbətini eşitmirdi.

Əvvəlinci deyirdi: – İşə bax, sən Allah, cındırından cin hürkər, Şirazi qələmdan, Səmərqənd kağızından bayaz...

İkinci:

– Özü də acından ölə-ölə gələndə, yeməyi yox, bunları götürüb...

– Mən də elə bilirdim ki, heybəsindəki pul-muldu; qiymətdi şeydi ki, yorulub ölə-ölə gəlsə də, atmayıb...

– Yoxaaa... Pul ha... Ac toyuq yuxusunda darı görər. Dedin əlinə təkətəkdə düşsə, nə axırına çıxarsan.

– Hə... Eləsi rast olsa pis olmazdı ha... – Gözlərində xoşagəlməz parıltı görünüb yox oldu.

– Ay səni..

Yazısını bitirib başını qaldıranda alimin gözü xosunlaşan "dərviş qardaşlara" sataşdı. Elə ilk nəzərdə də səbəbini bilmədən canına üşənti düşdü. Xirqəsinə bir qədər də sıx büründü. "Deyəsən, yolda soyuqlamışam da" fikirləşdi. Qurşağını uzun köynəyinin belindən açıb xirqənin üstündən sımsıx bağladı. Onun hər bir hərəkətini izləyən "qardaşlar"dan hansısa istehza ilə ucadan söz atdı.

– Hə... Hə... Altdakın üstə, üstəkin altda...

– Altdan geyindi, üstdən qıfıllandı...

– Ha... Ha... Ha...

Səyyah bu sözlərə, atmacalara əhəmiyyət vermədi, bilirdi, cürbəcürünü görmüşdü dərvişlərin. Onların içində zəmanənin hakimlərindən, padşahlarından, sultanlarından narazı gənclər çox idi, bəzisi şair, bəzisi filosof-alim olan bu cavanlar öz zəmanələrini xeyli qabaqlamış, öz həməsrlərini ötmüş adamlar idi. İşığa can atan böcəklər, quşlar kimi onlar fərdin azadlığını yalnız dərvişlikdə tapa bilmişdilər. Amma heyif ki, onların içərisində oğru da, bəngi də, şürbi[1] də, əsil insanlardan, kişi xislətindən kənar adamlar var idi. Yollar uzunu bələlərini çox görmüşdü alim-səyyah. Bələlərindən oddan, əqrəbdən, zəhərli ilandan və başqa afətlərdən çəkinən kimi çəkinir, nifrət edirdi. Elə indi də... O iki nəfərə heç bir cavab vermədi. Qalxdı. Quyunun başına gəldi. Əl-üzünü, ayaqlarını istəyincə yudu, artıq bayaqkı üşütmə keçmişdi, heç yadına da düşmürdü.

[1] Sərxoşluğa aludə adam



## SARAYA

Hər yerdə belə idi. Dünyanın o gəzdiyi bütün karvansaralarında – İstanbuldan Kaşğaracan, Bədəxşandan Sərəndibəcən gördüyü bütün karvansaralarda belə idi. Gündüz qızğın topdansatış ticarəti gedir. Bir tərəfdə dərvişlər qəsidə oxuyur, başqa tərəfdə pəhləvanlar güləşir, nəhəng həyətin bir tərəfində kəndirbazlar hünər göstərir, başqa bir küncdə ayı oynadan, meymun oynadan tamaşa göstərir, ya tələk oyunbazlıq eləyir, sarbanlar, çarvadarlar dəvələri, atları, qatır və eşşəkləri yemləyir, sulayır, susuzlar çay içir, aclar yemək yeyir... Bir sözlə qızğın həyat qaynayır. Hərə öz işilə məşğul olduğundan heç kəsin bir-birilə işi olmur; heç kəs başqasından xəbər tutmurdu. Amma elə ki axşam namazı qılındı, elm, bilik, şeir, səyahətlər haqqında hekayətlər eşitməyin həvəskarları və ya sadəcə çənə söhbəti xoşlayanlar, yuxusu gəlməyənlər, dərviş döyüşdürənlər karvansara sahibinin böyük hücrəsinə toplanırdılar.

Elə burada da maraqlı görüşlər baş verirdi. Bəzən bu görüşlər müəllim-tələbə münasibəti yaradır, bəzən alim və şairlər arasında möhkəm dostluğa çevrilir, təriqət qulu dərvişlər özlərinə əməl-əqidə yoldaşları tapırdılar. Bu karvansaraların özünün tanınmış "Şahnaməxanaları", "Xəmsəxanaları" olurdu. Bu yerlərdə elmi, dini, təriqəti, dünyəvi müsahibələr baş verirdi. Bəziləri hətta çarpışmaya, dava-dalaşa, "dartma yaxam cırıldı"ya çevrilirdi. Amma demək olar ki, çox halda da sülh, barışıq yolu ilə həll olunurdu.

Xivədə Zeynalabdinin dayandığı, hücrə kirələdiyi karvansara da həmin karvansaralardan heç nə ilə seçilmirdi. Şəhərin qədim ticarət mərkəzi olan örtülü daş çarşının böyründə yerləşirdi. Burada da hücrələrdən birində tanınmış, sorağı aləmə salmış bir alim, səyyah və ya şairin uzaq ölkələrdən gəlib yerləşdiyini eşidib-bildndə, yerli ziyalılar mütləq onun görüşünə gəlir, günlərlə başına yığılıb söhbətlərini dinləyir, bilmədiklərini bilirsə soruşub öyrənirdilər. Əksinə də olurdu: uzaq-uzaq ellərdən elm, bilik həvəskarı gəlib karvansara hücrəsinə düşəndə soruşur, şəhərin görkəmli alim və ya şairinin yerini öyrənir; qulluğuna gedib söhbətlərini dinləyir, əgər arzularına uyğun gəlirdisə bir neçə müddət burada qalıb ondan dərs alırdı. Özü də bu alimlər, şairlər, səyyahlar haqqında xəbərləri karvançılar yayırdı getdiyi yerlərə.

Zeynalabdin karvansaraya düşüb hücrədə yerləşdi.

Yol boyu onunla həmsöhbət olmuş Prem Sahiblə yaxından bir-birinə bələd olmuş, mənzillərdə Prem Sahiblə çörək kəsmiş, xüsusilə o qarlı, o dəhşətli aşırımdan keçəndə bir-birinə dayaq olmuşdular. İki aya yaxın idi ki, birlikdə yeyib-içir, bir hücrədə gecələyirdilər. Prem Sahib uzun illər Hindistanda, İndoneziyada, Sərəndibdə yaşayıb bir böyük alim kimi tanınan dostu Zeynalabdinin həyatından, macəralarından, səyahətləri nəticəsində yazıb bitirdiyi "Riyazül-səyahə", "Hədayüqüs-səyahə" kitablarından xəbərdar idi. İndi də "Bustanüs-səyahə" üçün məlumat toplaya-toplaya qeydlər apardığını, bəzi "Gülşən"lərini yazmağa başladığını bilirdi. Odur ki, alim dostu üçün hər düşərgədə, hər mənzildə babət şərait yaratmağa çalışırdı. Buraya çatdıqda köhnə tanış karvansara sahibindən də Hacı Zeynalabdindən muğayat olmasını xahiş etdi:

– Mən gedəsiyəm, o qalır bu yerlərlə, Xarəzm, Xəta diyarı ilə tanış olmaq istəyir, əlindən gələn yardımı elə ona, qardaş!

– Gözlərim üstə. Axı kimdi o ki belə narahat olursan?

– Sorağı çox yeri tutub. Alimdi, şairdi, səyyahdı. Ölkələr, insanlar haqqında kitablar yazır. Elə böyük bilik mənbəyidi ki, çox padşahlar, şahlar, sultanlar, əmirlər, hökmdarlar, xanlar onu sarayına dəvət edib. Qalıb saray alimlərinə başçılıq etməsini təklif ediblər. "Alimül-üləma" adı vermək istəyiblər. Qəbul etməyib.

– Beləmi? Nə qəribədi!

– Hə, bəli. Mən bildiyimdən elə bizim Hindistanda Cinəqər hakimi Portab Çand onu üç aydan artıq qonaq saxlaya bilməyib. Bu üç ayda hacının biliklərindən bəhrələnib. Sonra Türkiyə sultanı Sultan Mahmud onu saraya dəvət eləyib. Nəinki sultan, hələ o vaxt İstanbulda Nemsə konsulu onu öz məmləkətinə qulluq etmək üçün çağırıb – getməyib. Misirdə ümmülbilad[1] Qahirə hakimi İbrahim bəy ona deyib ki, burada qalsan, sənə Nil xolunda[2] ən zəngin ərazi verərəm. – Qalmayıb. Böyük Moğollardan II Aləmşah ilə bir neçə dəfə görüşüb, dəvət alıb, bir müddət qonaq da qalıb, Dehli hakimi Şəfi xanla dost olub. "12 min kitabım var kitabxanada, hansın istəyirsən seç" deyən Dəkkə hakimi Nasirüddövlə və Bədəxşan sultanının ricasını da cavabsız qoyub. Tehranda İran şahənşahı Fətəli şah iki dəfə onu saray alimləri cərgəsinə dəvət eləyib. İki dəfə!!! Hər ikisində də "Yox, – deyib, – yalnız şöhrət üçün yaranan elm – elm deyil". Bu dəfə sənə belə bir qonaq əmanət verirəm. Sənin gözün onun üstündə, Allahın da nəzəri sənin üstündə olsun.

[1] Şəhərlər anası Qahirənin şöhrət adı
[2] Delta



– Amin.

Zeynalabdinin hücrədə yerləşdiyi ikinci gündə Prem Sahib vidalaşıb karvan köçünü çəkib getdi. Həmin gündən karvansara sahibi axşam düşüb, əl-ayaq yığılandan sonra bir neçə yerli ziyalı ilə onun hücrəsinə gəldi. Görüşdülər, tanış oldular... Beləcə bu yerlər, onun ziyalıları, görkəmli şəxsiyyətləri, qədim abidələri və onu maraqlandıran yerli adət və ənənələrinə bələd olmağa başladı... Məşhur Xarəzm şairi Munislə tanışlığı burada qismət oldu...

...Bu axşam söhbət müxtəlif dinlərdən, məzhəblərdən gedirdi. Zeynalabdin Hindistanda rast olduğu gəbrlərdən, induizmdən, brəhmənlikdən söhbət açmışdı. Hindistan buralara nisbətən yaxın ərazi olsa da, get-gəl ancaq tacirlər, bir də qələndər dərvişlər üçün mümkün idi. Ev-eşiyi, alveri, əkin-biçini, külfəti başlı-başına buraxıb çöllərə düşmək hər adama nəsib olmur. Odur ki, təkcə Hindistanda səkkiz ilə qədər yaşayıb hindlilərin həyatı, dili, dini ilə tanış olmuş səyyahın söhbətlərini dinləmək yerli həvəskarların ürəyindən idi.

Zeynalabdin əvvəlcə gəbrlərdən – atəşpərəstlərdən danışdı:

– Gəbrlər (atəşpərəstlər) deyirlər: Zərdüştün sözlərini başdan-başa belə bil, bu sayaqla oxu: Zərdüştün peyğəmbərliyini etiraf etmək vacibdir. Təmiz (pəhrizkar) adamlarla oturub-durmaq gərəkdir. Allaha ümidindən məyus olma. Kişi və qadın yun qurşaq bağlayıb, ona dörd düyün vurmalıdır. Odu daima yanar halda saxla və murdar bir şeyi odda yandırma. Ölünün kəfəni təzə olmalıdır. Ata-ananın ruhlarını şad və fərəhli saxlamalı, hər bir şey nəzərdə yaxşı görünsə, Allahın adını çəkməlidir. Oğlan və qızları tez evləndir. Əgər oğlun-qızın olmasa, birini övladlığa qəbul et. Günahlardan çəkin ki, günahlardan təmizlənmək oruc tutmaq, pəhriz etməkdən ibarətdir. İstər din əhli ilə və istər yad kimsələr ilə əhd və iqrar bağlasan, sözündə möhkəm dayan, əhd və iqrara xilaf çıxma! Əgər işin axırı məlum deyilsə, ona qədəm qoyma. Möbidlərlə (atəşgah sahiblərilə) məşvərət et! Comərd və səxavətli ol! Çox heyvan öldürmə! Din və millətə zidd olmaqdan çəkin! Ustad və mürşidə təzim et!.. Heyz görən qadınlar oda, göyə və suya baxmasın. Ayaqyalın gəzməsinlər. Həmişə günahlardan tövbə etsinlər. Uşaqlara din elmini öyrətsinlər... Ölülər üçün ehsan versinlər. Qadınlar üçün ibadət zəruri deyil, ancaq hər gün üç dəfə ərinin yanına gedib onun razılığını alsınlar. Doğruluğu özlərinə peşə etsinlər. Pəhriz etsinlər. Oğurluq və yol kəsməklə məşğul olma! Zahiri və batini günahlardan

çəkinin! Murdar ət yeməsinlər, günahkarlara bir şey verməsinlər. Səxavəti özlərinə peşə etsinlər ki, Allah buyurmuşdur, behişt kərim adamların yeridir.[1]

Bundan sonra Zeynalabdin sözlərini belə yekunlaşdırdı:

– Bilirsinizmi, harada nə görmüşəmsə, elə də yazıram. Mən çox-allahlılığa...

Məclisdən təkbir səslər eşidildi:

– Lənətullah...

Zeynalabdin sözünə davam etdi:

– ...Bütpərəstliyə, atəşpərəstliyə nifrətimi gizləyib, o xalqları, öz dinində möminləri başa düşməyə çalışmışam. Zəmanə elə qəribə olub ki, az qala hər dərviş özünə bir yeni din, bir yeni təriqət icad edir. Hər dəfə bu yollarda rastına keçəni öz təriqətinə çəkməyə cəhd göstərir. İndi meydana çıxan: oxuyan, fırlanan, tullanan, qəşş edən dərvişlərin təriqətlərini də dərk etməyə çalışmışam. Və bu qərara gəlmişəm ki, zəmanə əhli ada və şöhrətə giriftar və mübtəladır. Biri Ömər eşqindədir, can verir. O biri isə Əlinin adına başından keçir. Biri Ömərdən, o biri Əlidən savay ad bilmir. Əgər biri soruşa ki, Ömər kimdir, Əli nəçidir – cavabında bir şey deyə bilməz. Deyirlər keçmişdə Əli adlı birisi var idi, yamanlıqda tayı olmayıb. Şərarətdə Ömər – Səd kimiydi. O birinin adı Ömər idi, kəramətində və əhvalının səadətində ələvi təbiətli və Cəfəri məzhəb idi, həmişə itaət və ibadətdə ömür sürürdü. Təsadüfən Əli o qədər pis, şərir adamdı ki, ələvi olan Ömərə əziyyət verirdi. Gözəl xislətli Ömər bu Əlidən çox əziyyət və son dərəcə zillət çəkmişdi. Əslən Ömərə əziyyət versə də, Əli əsrin padşahının yanına gedib Ömərdən şikayət elədi, fəryad çəkdi ki, Ömər mənim günümü qara eləyib. Sultan şiəməzhəb idi, hadisəni öyrənmədən dedi ki, düz deyirsən. Ömər elə qədimdən Əliyə zülm edərdi. Ömərin Əliyə etdikləri aləmə əyandır. Əyan olan şeyi izaha nə hacət?

Sultan Öməri tələb etdi, hədə-qorxu gəldi. Bir müddət sonra sultana məlum oldu ki, o Əli adı daşıyan adam bədzat imiş, cüvəllağıymış. Haqq, Ömər adı daşısa da, çox təmiz adamın tərəfindəymiş. Əvvəlincini cəzalandırır, ikinciyə mükafat verir. Haqpərəst hökmdarın səltənəti əbədi olsun. Demişəm, yenə də deyirəm: Allahın bir xalqa, bir millətə yazığı gəlmir, acığı tutursa, o yerin hakimini ədalətdən üz çöndərir.

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri, səh.670-671.



– Belə hakimlərə rast olursanmı, hacı?

– İstədiyin qədər. Xatirimdədir. Hakimlərdən biri ova getmək qərarına gəlmişdi. Bir gün əvvəl qərarlaşdırılmış yerə mətbəx, aşpazlar, anbardarlar, sultanın süfrə nədimləri, nökər-naib yollandı. Nökər və qulluqçular çəmənzarda çadırlar qurdular, hərəmxana üçün...

– Necə, necə? Hərəmxana da ova gedirdi?

– Bəli, bəzən hərəmlər, hətta uşaqlar da gedir, bir gün irəli qurulan çadırlarda dincəlir, bəzən ovda iştirak da edirdilər. Sonra yedilər, içdilər, bir neçə gün çəmənzarda xanəndələrə, rəqqasələrə tamaşa etdilər. Çəmənlərdə, dağlarda, meşələrdə oxuyan quşların nəğməsinə, bulaqların zümzüməsinə qulaq asıb "yoruldular" və saraya qayıtdılar. Amma yolüstü bir ac-yalavac kəndə uğramadılar. Bir aca o zəngin süfrədən bir tikə vermədilər, bir yalavac doyurmadılar. Haqqı tapdalanan bircə bədbəxtə əl uzatmadılar. Belə hakimi olan ölkədə ədalət nə gəzir?

Başqa bir axşam söhbət dildən düşdü. Yerli, cavan ziyalılardan biri şair Hatifi dedi:

– Hacı, bir neçə dil bilirsiz, bu məlum, amma əfv edin, bəs neyçün xalqlarımızın yetirdiyi Nəsimi, Nəvai, Füzuli, Məxtumqulu və digərləri kimi öz dilimizdə yazmırsız? Əgər hamı türkün ziyalıları ərəbcə – farsca yazsa, qorxmurlar ki, bir zaman türkün övladlarını o dillərin sahibləri özlərinə çıxacaq, necə də ki çıxıb: farslar Azərbaycandan Nizamini, Xaqanini, özbəklərdən Əbu Əli İbn Sinanı, Farabini, Xocəndini özünə çıxdığı kimi. İndi bu xalqların övladları qalxıb "filankəs mənim həmvətənimdir, Şirvanda, Təbrizdə, Xocənddə, Daşkənddə, Xarəzmdə və ya başqa Türküstan kəndində doğulub" desə gülünc olur. Bu dəhşətdir. Dəhşətli həqiqətdir!

Zeynalabdin dərin xəyala daldı. Məclisdə oturanların üstünə sanki soyuq su ələndi. Heç kəs dillənə bilmirdi. Xüsusilə karvansara sahibi və Munis özlərini təhqir olunmuş sayırdılar. Burada, bu qonaqsevər diyarda qonağı təhqir olunmuş sayırdılar. Ədəbdən kənar iş olmasaydı, həmin cavanı indicə sözlə də, əməllə də əzişdirər, yerini tanıdardılar. Karvansara sahibinin hirsi başına vurmaqda, gözlərini qəzəb tutmaqda idi. Az qalmışdı ki, yerindən qalxıb sual verən gəncin yaxasından, ya boynunun ardından tutsun; bayıra tullasın, arxasından da bir təpik salsın. Elə bu zaman Zeynalabdin təmkinli səsini eşidib kiridi. Zeynalabdin şəfqətlə cavan müsahibinə baxıb deyirdi:

– Oğlum, deyirlər qədimdə bir qarı var imiş, bir neçə fərsəxlikdən gələn adamı nəinki asanca tanıyır, hətta onun başı üstündə uçan milçəyi

belə görüb seçə bilirmiş. Heyrət edib eşidənlər, soruşub öyrəndilər ki, qarı gözlərinə ta uşaqlıqdan, anasının təlimi ilə sürmə çəkməyə adət edibmiş.

Yerin dərinliklərində Allahın qüdrətilə yaranan sürmə qarının gözünə işıq verirmiş. İndi sənin sürməsiz gözlərinə ulu Tanrı elə bir işıq verib ki, sən keçmişi, indini deyil, gələcəyi də görürsən, görə bilirsən. Sən haqlısan, övladım, haqlısan. Yüz kərə, min kərə. Amma unutma ki, bu faciənin bir neçə səbəbi var. Ümdə səbəblərdən birincisi təhsil məsələsidir. Uşaqların savad aldığı mollaxana və mədrəsələrdə, ibtidai təhsil çərəkədən ərəbcə, sonrakı təhsil "Gülüstan" və "Bustan"dan fars dilində. Məşhur şairlər, güclü, qüdrətli şairlərdən şeir nümunələri farsca, elmi əsərlər ərəbcə... Uşaq da belə təlim-tərbiyənin nəticəsində adət edir. Digər tərəfdən ailə başçılarının tələbilə alınan ali tədris müəssisələri Ərəb ölkələrində, Farsistanda, Türküstanda olanların da müəllimi – müdərrisi ərəb, fars dillərində təhsil almış adamlardır.

Böyük alimin onunla həmyaş kimi danışması gənci daha da ürəkləndirdi. İnadla əvvəlki sualına qayıtdı:

– Bəs dərisi soyulan Nəsimi, Saray vəziri Nəvai? Bəs Ərəbistanın mərkəzində, din ocağında yaşayan Füzuli? Xivədə həmin ərəbdilli ruhanilərdən dərs alan Məxdumqulu? Mən biləni türk içində elmə, şerə həvəs, maraq azalmadığı kimi, əsil elmdə alim, əsil şeir və şair də azalmayıb, var...

Yer-yerdən gəncin səsini kəsib söhbətin istiqamətini dəyişmək istəyənlərin fışıltısı "sıss"lar eşidildi. Mehmanın qəlbinə toxunulacağından qorxurdular. Səyyah isə sağ əlini sükut xahişilə yuxarı qaldırıb cavab verdi:

– Elə şəxsiyyətləri zaman tək-tək, yüz illərdə bir və hər xalqa bir-iki nəfər qismət edir. Allahın töhfəsi, o xalqın xoşbaxtlığı, şöhrəti, tale ulduzudur həmin adamlar.

Karvansara sahibinin ürəyi yerini aldı. "Şükür Allaha, incimədi. Əsil alim, əsil də insandır. Haqq sualdan niyə incisin axı? Cavan da olsa, düz deyir oğlan. Amma hər halda sözü dəyişmək lazımdır". Bu fikirlə də Zeynalabdindən soruşdu:

– Hacı, deyirlər aləm yeddi iqlimə bölünür, bu doğrudurmu? Sizin fikriniz necədi?

Zeynalabdin karvansara sahibinin mətləbini anladı, xəfifcə gülümsədi və tez də gülümsəməsinin istehza, hörmətsizlik kimi qəbul oluna biləcəyindən ehtiyat edib cavab verdi:



– Ən qədim zamandan bizim islam aləminin, eləcə də türk diyarı alimlərinin fikrincə yer üzü yeddi iqlimə bölünür ki, bu da yeddi qatlı səma ilə bağlıdır. Əvvəlimci, yerə ən yaxın səma qatıdır ki, zümrüddəndir. İkimci qat gümüşdən, üçümcü iri, ağ mirvaridən, dördümcü yaqutdan, beşimci qızıldan, altımcı sarı giatsintdən, yeddimci işıq dənizindən ibarətdir.

Yenə də həmin cavan sual verdi:

– Ustad, Füzuli Bağdadi rəhmətullahın məzarını görmüsüzmü?

Zeynalabdinin gözləri önündə Kərbəla, Hüseynin dəbdəbəli məscidi önündəki sadə türbə canlandı; bir anlığa duruxdu, boğazına uşaqlıq illərinin xatirəsi qəhər kimi tıxanıb udqundu. Tez də özünü ələ alıb şerin, əsil poeziyanın pərəstişkarı olan cavana "Lap mənim o devrim, o çağımdı" düşüncəsilə cavab verdi:

– Nəinki görmüşəm, hətta beş yaşımdan, sənin yaşınacan hər gün o müqəddəs məzarın yanından keçib dərsə getmişəm. Onun mənsub olduğu Bayat tayfası ilə yaxından tanış olmuşam. "Qədimdən bəri Bayat bir tayfanın adıdır. Onların bir çoxu İran, Hindistan və Rus ölkələrində yaşayırlar. Onların əsli Türküstandan və Türk ibn Yafəs ibn Nuh əleyhüssəlamdır. Bayat tayfasının çoxu şiəməzhəbdir. Bir qismi hənəfidirlər. Onların arasından şanlı sultanlar və süreyyaməkanlı əmirlər olmuşdur. Fəqir (mən) o firqə ilə çox oturub durmuş, o tayfadan mərifət sahibləri və süluk əhlini çox görmüşdür".[1]

– Bəs siz özünüz, cənab hacı, hansı təriqətə mənsubsunuz?

Zeynalabdin adəti hərəkətlə əlini təkbirdən düşmüş saqqalına çəkib, bir-iki tumar verəndən sonra soruşanın cavabında dedi:

– Bilirsinizmi, mən "Nemətullahi silsiləsinə" mənsubam. Bir çox İran sakinləri və Hindistan ölkələrinin əhalisindən bəzisi bu zamanda bu təriqətə əməl edirlər. Fəqir otuz altı il islam ölkələrində gəzib, din övliyasının və sahibi-yəqin olan ariflərin və əsr alimlərinin və ruzgar hükəmasının xidmətinə yetişdim. Həmişə səyahət etdiyim müddətə doğru yola düzgün təriqətə talib idim. Hər bir təriqətdə gözəl güman etdiyim və yaxşı sandığım şəxslər ilə söhbət edirdim. Onların xidmətini özümə lazım bilirdim. Tainki Nemətullahiyyə-rəzəfiyyə silsiləsinin böyüklərinin xidmətinə müşərrəf oldum. O büzürgü varın bəndəlik və iradət dairəsinə daxil oldum. Ariflərin sultanı və mühərriqlərin bürhanı və arifi-rəbbani əlhacc Məhəmməd Qaragözlü həmədaniyə

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri, səh.1737.

mülazimi-xidmətkar oldum. O Məczubəli şah ləqəbində olanı intixab etdim. O həzrətin qüdsi nəfəsi təsiri bərəkətindən fitri qabiliyyəti miqdarınca feyziyab oldum.

Elə bu vaxt hücrənin kiçik qapısı açıldı. İçəriyə rəsmi libaslı bir nəfər daxil oldu. Sağ əlini ürəyinin üstünə qoyub baş əydi və Zeynalabdinə müraciətlə dedi:

– Möhtərəm qonaq, hörmətli alim! Burada olduğunuz müddətdə sorağınız sultanın qulağına çatıb. Hörmətli Munis cənabları da sizin qədim əlyazma kitablar və onların yerləşdiyi kitabxanalara böyük marağınız olduğunu söyləyib. Həşəmətli sultanımız sizi saraya dəvət edir, kitabxanasından və ərazilərimizi gəzmək üçün saray lütfündən istifadə etmənizi mümkün sayır. Razılıq versəz, sizi həşəmətli sultanın sarayına müşayiət etməklə xoşbəxt olaram.

...O, saray kitabxanasına belə yol almışdı.

## ACI XƏBƏR

Zeynalabdin, qardaşı Məhəmmədəlidən məktub almışdı bu gün. Dünyanın az qala o biri başında yazılan məktub gəlib onu altı aydan sonra tapmışdı.Bu gün Xivə bazarında dolaşırdı. Müxtəlif geyimli, müxtəlif dilli adamlar hərə öz qayğısı ilə məşğul idi. Heç kəsin onunla işi yox idi. Alan alır, satan satırdı. Kimi dükana mal daşıtdırır, kimi aldığı malı hambala yükləyirdi. Ayaqçıların, tabaqçıların səsi aləmi başına götürmüşdü. Əyinlərində sırıqlı xalat, bellərində qurşaq, başlarında ətrafına sarıq sarınmış şiş uclu papaq, ayaqlarında gen şalvar və çarıq olan adamlar bazarda dolaşırdı. Xalatlar rəngini itirmiş, bozarmış ağ, zolaqlı, əsasən çirkətab tünd rənglərdəydi.

Tabaqçılar bir nəfər kimi əyinlərinə ağ köynək, üstündən xalat geymiş, bellərinə üçkünc, ləçəkvari yaylıq bağlamış, ayaqlarına topuqdan yuxarı gödək şalvar və qondara adlanan ayaqqabı geymişdilər. Çiyinlərindən yüngül "Üçayaq" adlı tərəzi asmışdılar. Bütün günü başlarında gəzdirdikləri iri tabaqda müxtəlif şirniyyat, mövsümünə görə meyvə satırdılar.

Bazarın bir başında çayxana vardı. Burada xeyli adam açıq havada taxtların üstündə əyləşib çay içir, səhər yeməyi yeyir, söhbət edirdi. Aralıda xeyli uşaq vardı, bir neçəsi itlə vaxtlarını keçirir, fağır görəndə qısqırdır, o birilər isə aşıq-aşıq oynayıb toz qaldırırdı. Hərdən nahar



edənlər və ya yol keçənlərdən kim isə uşaqlara acıqlanıb qovur, az bir müddətə toz yatır, sakitlik çökürdü. Yəni bu sakitlik də nisbi idi. Taxtların ətrafını kor, çolaq, lal, şil dilənçilər əhatə etmişdi. Hərəsi bir dillə yalvarıb dillənirdi. Arabir çayçı şagirdi, önü ağ, çirk döşlüklü, başı araqçınlı oğlan əlində çaydan və xırda piyalələr çayxanadan çayı gətirib, müştərilərin qabağına qoyur və "nuş olsun, əkə" deyirdi. Sonra da az qala taxtlara hücum edib, nahar eləyən müştərilərdən nə isə bir şey qopartmağa çalışan dilənçiləri qovurdu:

– Rədd olun, qoyun əkələr çaylarını içsin.

Sonra da dişləri arasında kiməsə çımxırırdı: "Sən çolaqsan? Niyə camaatı aldadırsan?"

"Kalta minarə" və Məhəmmədəminxan mədrəsəsinin yaxınından keçdi; çini, firuzəyi və ağ kərpiclərlə bəzənmiş bu minarə doğrudan da kalta – nəhəng idi, onun on bir qurşaqlı boyuna nisbətən çox yorğun gövdəsi el içində "qanlı minarə" adıyla da tanınırdı. Elə ilk gəlişində bu minarənin zəriflik və gözəlliyilə nəhəngliyinin, "Müqəddəs Minarə" adı ilə "qanlı" sözlərinin uyuşmadığına təəccüb etmişdi. "Üstündən o qədər canlar atılıb dünyaya əbədi göz yumub ki!" sözlərini eşitmişdi. Gedə-gedə "Bustanüs-səyahə"yə yazacağı fikirləri qəlbindən keçirir, saf-çürük edib, nizama salırdı: "Xalq üç qisimdir: əvvəlimci, övliya – onların batini zahirindən yaxşıdır. İkimci, hükəma – onların zahiri ilə batini bərabərdir. Üçümcü, cahillər – bunların isə zahiri batinindən yaxşıdır".[1]

Çox görmüşdü səyahətində belələrini. O adamlar ki, övliya kimi təmizdi, pakdı, cır-cındır içində, gündəlik ruziyə möhtacdı. Cahillərin isə bu dünyada hər şeyi var. Malı-mülkü, adı-sanı, hər şeyi; bir insanlıqdan başqa. Onlar əsil aqilləri göz açmağa qoymur, əzirlər. Hakim mövqelərinin əldən getməsindən qorxurlar. "Bədbəxt o kimsədir ki, ona elm verərlər, əməl verməzlər". O hər şeyə sahib olan cahillər, bu elmi olanların əlindən hər şeyi alıb. Onların qəlbində insanlıq, məhəbbət naminə heç nə qalmayıb. Bəs məhəbbət nədir və neçə qisimdən ibarətdir? Məhəbbət yeddi göyün: 1. Eşq; 2. Şeir; 3. Musiqi; 4. Rəssamlıq; 5. Dərman otları, çiçəkləri; 6. Qiymətli mədən (qızıl, gümüş, daş-qaş); 7. Gözəllik isə insana lütf edib bağışladığı nemətlərin birincisidir.

Bu düşüncələrin kələfini açıb yumaqlaya-yumaqlaya, "Kalta minarə"nin arxasına keçdi və "Ata darvaza"nın qarşısına çıxdı. Şəhərin bir neçə gözəl darvazası var idi. Bu darvazalar bir qapılı idilər.

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri, səh.938.

O cümlədən "Ata darvaza"da bir qapılı, amma bəzəksizdi. O biri "Palvan darvaza", xüsusilə "Kuş darvaza" (yəqin ki, ikiqapılı olduğundan kuş-qoşa adlanıb) çox gözəl idi, zərifdi. Qara bürcləri, şəbəkəli, firuzəyi günbəzləri olan zərif qüllələr tağlı pəncərə – mazğallar, minarə kimi mavi göylərə baş çəkmiş; çini kərpiclərlə bəzədilmiş sütunlar o darvazalara xüsusi yaraşıq verirdi. Bu darvazalar daş-zərgərlik işinin təntənəsi olan binaları əhatə etmiş və "İçən qala" (İçəri şəhər) ilə "Dışan qalanı" (bayır şəhər) bir-birindən ayıran möhtəşəm qala divarlarını birləşdirmiş, daha doğrusu, sanki o azman, o nəhəng hasarı yarıb, gəlib-gedənə yol açmış, içəridə yaşayanları xarici aləmlə bağlayan insanlara "xoşgəldin" eləmişdi. "İçən qala" insanın yaratdığı möcüzədir. "Kəşf edən insan ağlı" nəyə qadir imiş. Qədim gözəllik xəzinəsidir. Bu nəhəng məscidlər, mədrəsələr, karvansaralar, hamamlar, yaşayış binaları... Cümə məscidi (1510), mədrəseyi-Şörqazi xan (1726), Pəhləvan Mahmud məqbərəsi, İslamxoca minarəsi, Taşhavli sarayı, Allahquluxan mədrəsəsi, Məhəmmədəmin mədrəsəsi, Kalta minarə və onlarla, yüzlərlə başqaları mavi, firuzəyi çini kərpiclərlə bəzədilmişdir. Səmərqənd və Buxaradan fərqli olaraq naxışları incə və zərif qələmə sütunlar heyrətamiz dərəcədə gözəldir. Bu nəhənglikdə qarağac gövdəsini harada, necə yetişdiriblər? Baba əkən qarağacı yüz il, yalnız yüz il sonra nəvə işlədə bilib. Güldanabənzər sütunlar üzərində zərgər naxışları açıblar. Yüz illərdir ki, bu incə naxışlı ağac sütunlar daş binalara dayaq olub, çürüməyib, qopub-tökülməyib. Buxarada belə sütunun bir-ikisini görmüşdü. Burada isə çox-çoxdur. "İçən qala"da abidə çoxluğu, əlvanlığı, minarələrin, sütunların əzəməti, naxışların bolluğu, insan əməyinin təntənəsi kimi onun köksünü qabardırdı. Bütün bu gözəllikləri insan yaradıb və o da bu gözəlliyi duyan insandır. Göy qübbəsinə meydan oxuyan günbəzlər, şəbəkə pəncərələr, əzəmətli darvazalar, azman hasar... Bütün bunları eyni zamanda, hamısın birdən-birə görür, hansına baxacağı, diqqətini hansında cəmləşdirəcəyini bilmirdi. Hara baxırdısa heyran qalır, bu gözəllikdən heç cür ayrılmaq istəmirdi. Bir-iki həftə nədir, bu gözəllikdən doymaq üçün onu aylar, illərlə seyr etmək lazımdı. Xoşbəxtdir xarəzmlilər. Xarəzmin bir qədər "kənarda" yerləşməsi onun birinci sipəri olub. Müstəqilliyini, dilini yad təsirlərdən qoruyub. Mavəraünnəhrin gözü olan Xarəzmi, onun da ən gözəl, bəlkə dünyanın ən möhtəşəm daş abidələrindən biri olan Xivəni o xoşbəxt xarəzmlilər özləri yaradıb. Bu möcüzə binaları onların babası tikib, bu torpaqların istiqlaliyyətini onlar qoruyub saxlayıb. Tək bircə "Şəcərəyi-



tərakimə"[1] müəllifi Xarəzmi dünyaya tanıtmağa kifayət edərdi. Ulularından qalan doğma torpaqları var. Heç kəs onlara "burdan dur, orda otur; bura sənin deyil" deyə bilməz. Ata-babalarının məzarı bu torpaqdır. Təkcə o Qızlar qəbiristanı..."

Zeynalabdin təmkinlə darvaza önündəki təpəcik üzərində dayanıb, əllərini köksündə çarpazlamış, hündürdən "İçən qala"nın seyrinə dalmışdı ki, qəflətən tanış, amma onu çox uzaq bir aləmlə bağlayan tanış bir səs çağırdı:

– Ağa!.. Bu sənsən? Şükür Xudaya. Tapdım səni, gördüm səni.

Səsə çevrildi. O idi. Bircə qardaşı Məhəmmədəlinin uşaqlıq dostu, sonradan tacir olmuş Kərbəlayı Səfər idi. Qucaqlaşdılar. Hər ikisinin gözləri yaşardı. Hal-əhval tuta-tuta Kərbəlayı Səfər əlini qoltuq cibinə saldı. Əvvəl birini, sonra o birini axtardı; əbanın altından arxalığının yan ciblərini gəzdi, axtardığını tapa bilmədi:

– Hə... Ox batmış yadımdan çıxıb, gör bir neçə aydı cibimdə gəzdirirəm. Gözümün işığı Kərbəlayı Məhəmmədəlinin Təbriz bazarında gördüm. Bir neçə gün karvansarada birgə qalıb dərdləşdik. Kağızı da mənə ehtiyat üçün verdi ki, "Ağama rast olsan, verərsən! Bir neçə müddət qoltuq cibimdə başqa kağız-kuğuz içində qaldı, gördüm qat kəsir... Qoydum səfər heybəmin içindəki Quranın arasına. İşə bax, yadımdan çıx..."

– Neynək... Neynək...

– Yaddaş neynəsin, qardaş? Gör haçandı kağız mənə verilən. Səfər ayının qürrəsindəydi (ortası), indi hansı aydı Şəban... Gör neynir?

– Ay saymağa dəyməz, Kərbəlayı qardaş; inşallah gedərik karvansaraya, verərsən. Bir danış görüm, necə keçdi ticarət, necə gəldiz çıxdız bura?

Kişi ağ tüklər görünən qaşlarını çatdı. Uzun, yekə sual işarəsinə bənzəyən vücudunun arıqlığını, donqarını ört-basdır eləyib gizləyən əbanın, kağızı axtararkən açılan yaxasını düzəltdi, uzun arıq qollarına nisbətən xeyli iri əllərinin əyri barmaqları ilə saqqalını tumarladı, kiməsə, nəyəsə qəzəblənən səslə sözə başladı:

– İş-gücə nə var? Gedir özüyçün. Buraya da pis gəlməmişdik. Yaxşı gəlirdik. Mərdimazara Allah lənət eləsin. Axır mənzildə bizi bir

[1] Xarəzm hökmdarı Əbülqazi Bahadırxan (1603-1664) – "Şəcərəyi-tərakimə" – "Türklərin sülalə tarixi"nin müəllifi, Macar alimi prof. Vamberi deyib: "Dünya ona "Şəcərəyi-tərakimə" kimi tarixi əsər üçün minnətdardır".

nəfər tacir yoldaşımız ləngitdi. Gəlib Xivəyə gec çatdıq. Darvazaların qapıları bağlanmışdı. Türkmən tərəflərdən gəlməyimizi biləndə heç pula, töhfəyə də baxmadılar dərbanlar (qapıçılar).

– Hə... Eşitmişəm. Bu yerlərdə Taşhauz tərəfdən gələn karvanlara çox da mehriban deyillər.

Kərbəlayı Səfərin uzun, əyri barmaqları yenə də saqqalını sığalladı:

– Mehriban nədi, əyşi?! Belə bizi "Kuş darvaza"nın o üzündəki meydanda gecəni səhərəcən saxladılar. Səhər mehindən, tez düşən ayazdan titrətmə tutdu bizi. Dilimiz söz tutmurdu. Əllərimiz kəndirləri, örkənlərin düyününü aça bilmirdi ki, qalın geyimdən-zaddan götürək mərfəşlərdən. Qala üstündən, darvaza mazğalından baxır, acıqla qapını gec açıb, özü də bizim karvanı hamıdan sonra buraxdılar şəhərə. Kənəyimiz kəsildi. Timodan, kəlləmənqodan-zaddan tutmasaq yaxşıdı. Səfəri adam...

– Hə... Deyirlər türkmən tərəfdən hərdən bu yerlərə qaçaq-quldur basqını olub...

Tacir yenə də qəzəblə, az qala bağırdı və səsi ətrafda gedib-gələnlərin diqqətini çəkdi:

– Ay kişi, ay atam-anam sənə qurban. Quldurnan, qaçaqnan nə işim var? Gözü kordu? Görmür ki, mən tacir babayam? Karvan gətirmişəm, mal gətirmişəm. Alış-verişə gəlmişəm. Belə eləsələr, bir köpəyoğlu bəzirgan bura karvan çəkib gətirməz...

Zeynalabdin qardaşının məktubunu gətirən, o doğma ellərdən xəbər verən bu adamın bazar gülüncü, avaralar diqqətinin mərkəzinə çevrilməsinə razı olmazdı.

– Eybi yox, hər nadana fikir verməz adam, sən dünya görmüsən. Olur, – deyə-deyə onun arıq, sümükləri çıxmış, az qala geyməsinin qolunu deşib çıxmağa hazır olan dirsəyindən tutub, apara-apara soruşdu:

– Hansı karvansaraya düşmüsən, Kərbəlayı?

– Örtülü çarşıbazarın böyründəki karvansaraya.

– Gedək... – deyəndən sonra Zeynalabdin tacirin fikrini darvaza məsələsindən yayındırmaq üçün söhbəti dəyişdi:

– Hə... Yaxşı karvansaradı. Elə mən də gələndə ora düşmüşdüm. Düşərgəlidi.

– Yaxşı, burdan nə alacaqsan?

– Buralarda məlum ipək parçadan başqa bir miqdar müşk-ənbər; bir qədər də Bədəxşan ləli...

– Bəs gətirdiyin nədi?



– Zərgərlik məmulatı, xüsusilə Yəmən yaqutu, bir də firuzənin beş növünün hamısından: ən yaxşısı Nişapur firuzəsidi. Ondan sonra "Əbu-İshaqi", "Süleymani-Əndəlusi" üzərində qırmızımtıl nöqtələr olan "Zərxuni" və "Əbdül-məcidi".

– Maşallah! Allah bazar versin.

– Amin. Allah ağzından eşitsin.

– Mən Bədəxşanda olanda, elə yerindəcə bir miqdar ləl almışdım. Əgər meylinə gəlsə, bazarın məzənnəsindən də xırda bir güzəştlə...

Kərbəlayı Səfər tacirdən gözlənilməyən bir səxavətlə, amma təbiətinə uyğun qızğınlıqla Zeynalabdinin sözünü kəsdi:

– Nə danışdığındı, qardaş?! Mən səndən güzəşt? Sənin ruzinə mane olum? Bəyəm mən bilmirəm ki, sən Allah adamısan, o xırdaca gəlir də sənin ömrünə, yol məxaricinə, ev əhlinə...

Bu dəfə Zeynalabdin onun sözünü kəsdi:

– Ev əhli sözünü yaxşı dedin. Amma demədin ki, burdan səfərin hayanadı?

– Xorasan vilayətinə, oradan da Şiraza... Əgər bir əmanətin varsa...

Zeynalabdinin əlləri əsdi, səsi titrədi; özündən asılı olmayaraq gözləri doldu, bütün bu gözəlliklər aləmi, bayaqdan bəri məftunluqla tamaşa elədiyi "İçən qala" binaları nəzərindən itdi, küçələrin hay-küyü qulaqlarını tərk etdi; gözləri önündə bağ-bağatlı, qızıl güllər diyarı Şirazın kənar küçələrindən birində yerləşən evin taxta, rəngi solmuş darvazası önündə dayanan bir qadın canlandı. Sağ dizi yanında 2-3 yaşlı bir uşağı – oğlu, ilki Cəlaləddin Məhəmməd, qucağındakı qundaqda ikinci oğlu Hüsaməddin Əli idi. Az qala üzlərinin cizgiləri qarışmış, sanki axan şəlalə, şığıyan leysan dalında dayanmışdılar. Ürəyi sıxıldı. Tacir Kərbəlayı Səfərin "biz" dirsəyindən daha da bərk yapışdı. Onun halı Səfərin nəzərindən yayınmadı.

– Rəngin uçdu, nooldu sənə, qardaş? Deyəsən, əhvalsızsan? Gəlsənə bu çayxanada oturub bir-iki piyalə "göy çay" içək, ürəyin üstünə gəlsin. "Bir qurtum bir gölə dəlalət elər..." "tikə dağ aşırar", – dedi.

Taqəti kəsilmişdi, dizləri əsirdi, təklifə sevindi.

– Oturaq, – dedi.

Evə məktub yazacaqdı, əvvəl əldə darıxdığından, qayıdacağından, tezliklə görüşəcəyindən yazacaqdı. Sonra da sədaqətli ömür-gün yoldaşına, qoşa oğlunun anasına, sevimli Hümeyraya yazacaqdı ki, kitablarını "Riyazüs-səyahə"ni, "Hədayüqüs-səyahə"ni möhkəm, əmin yerdə

gizlətsin. Şiraz qaragüruhundan, o ikiüzlü zahidlərdən əlyazmalarını, özünü və balalarını qorusun.

Kərbəlayı dedi:

– Sonra da gedərik karvansaraya, sənə əla bir qutab qonaqlığı verərəm, məktubunla...

Taxtlardan birinin üstündə əyləşdilər. Bayaqkı çayçı şagirdi cəld bir çaydan və iki piyalə gətirib, onların qarşısına qoydu. "Nuş olsun" deyib getdi.

– Hə... İndi necəsən? Qorxutdun məni ha... – ikinci piyaləyə çay süzə-süzə soruşdu.

– Allah razı olsun. Yaxşıyam, bir az... bəzi şeylər xatırladım... Nə isə... Kərbəlayı, düzü yorulmuşam. Ev-eşik üçün də darıxmışam. Amma neynəyəsən ki, əlimdə vacib işim var. Həm sultana söz vermişəm, gərək kitabxanasını qaydaya salam; həm də öz əlimdə yazım var. "Bustanüs-səyahə..." Qurtarmaq üzrəyəm. Yoxsa, vallah, elə qəribsəmişəm ki, sənin karvanına qoşulub, elə günü bu gün qayıdardım Şiraza...

– Qəribsərsən də... Allah sizi – iki qardaşı köçəri quş yaradıbmış...

...Məktub onu lap yerindən elədi. Qardaşı ona yazırdı ki, dərviş Müştaqəli şah və onun dostu Cəfər, Kirman şəhərinin yaxınlığındakı Mahan kəndinə gəliblərmiş. Yerli ruhanilərlə Müştaqəlinin sözləri çəpləşir, Müştaqəlini yaralayırlar, Cəfər onu qanına bulaşmış görüb qahmar çıxır. Bu insafsızlar hər iki günahsızı daş-qalaq edib öldürdülər. Paxıl zahid, Müştaqəlinin xalq arasında hörmət və şöhrətinə həsəd aparırmış, odur ki, qaragüruh ruhaniləri toplayıb heç bir günahı olmayan adamı dinsiz, islama zidd olan ayinlər icra etməkdə təqsirləndirir, qaragüruhu qızışdırır. Məqsədinə də çatır. Hadisə Zeynalabdinə elə təsir etdi ki, qələmi alıb bu hadisəni və dostu Müştaqəlinin qətlini nəzmə çəkdi. Müştaqəlini məhv edən zahidin dililə qaragüruhu üsyana çağırdı:

> Paxıl zahid bağırdı: gəlin, mömin firqəsi!
> Fisqü fücur doludur bu dərvişin xirqəsi.
> Ey əhli batin! Bu ki, dinə salıb rəxnələr,
> İcra edir təkyədə dinə deyən ayinlər.
> Cəhad edin! Labüddür dinimizdə ictihad.

Kəlmələr, misralar bir-birinin yanına düzüldükcə şair Təmkin – alim Zeynalabdinin ikiüzlü, yalançı ruhanilərə qarşı qəzəbi, nifrəti kağızın üzərinə tökülürdü. Bu axşam o gözəl bir alim, tanıdığı dostu Müştaqəlinin vaxtsız vəfatı haqqında, elə bil ölüm kitabəsi yazırdı...



Mənzumə həm də bir mərsiyə idi, bir maddeyi-tarix idi. Oxudu yazdığını:

– Sən daha böyük, daha gözəl və daha mükəmməl bir əsərə layiqsən. Təmkin öz zəif qələmi ilə sənin elminə, biliyinə, təvazökar insan, amma el dərdi çəkən döyüşkən, yalanla, ikiüzlülüklə barışmayan, cürətli ürəyinə layiq nəzm yazmağa qadir deyil. Hətta sənin qəlbimi yandıran, ox kimi bu üzümdən o üzümə keçən faciənə də layiqincə mərsiyə yaza bilmədim. Əfsus! Əlimdən gələn bu idi. Üzərinə atılan o daşların hər biri ürəyimə dəyib sanki. Qardaşımın şirin məktubu içindəki bu acı xəbər yandırdı məni. Sən də Həllac Mənsur, sən də Seyid İmadəddin Nəsimi kimi haqq yolunda keçdin canından. Nadanlar əlində. Tanrım rəhmətini səndən əsirgəməsin, ustad!

Nəzmi bitirəndən sonra istəkli qardaşının məktubunu mizin üstündən alıb bir də oxudu, müqəddəs nişanə türbət kimi gözlərinə sürtdü, titrək barmaqları ilə oxşaya-oxşaya qatlamaq istədi. Uzun müddət Kərbəlayı Səfərin qoltuq cibində, sonra da kitab arasında sıxılmaqdan qat kəsmişdi. Odur ki, sabah da, sonrakı günlər də dönə-dönə oxuyacağı məktubu qatlamağa ürəyi gəlmədi; qat kəsən yerlərdə sözlər elə indidən soluxub pozulmağa başladığı İbn əl-Əsirin "Tarixi-Kamil" kitabının arasına qoydu. Qardaşı yazırdı ki, Şirazda "Riyazüs-səyahə"nin üzü köçürülüb, xəttat işi qurtarıb. Bu əsərin I hissəsini o Qumşədə, ikincisini Şirazda bitirmişdi. Səyahətlərin başlanğıc dövrünü əks etdirən "Riyazüs-səyahə" iki hissədən və "Rövzə"lərdən ibarətdir. Az qala qırx il sürən səyahətinin əvvəlinci dövrlərini əhatə edir. Ondan sonra... Ondan sonra "Hədayüqüs-səyahə" kitabı yazıldı. İndi də qarşısında "Gülşən"lərə böldüyü, tamamlamaq üzrə olduğu "Bustanüs-səyahə..." Bitən kimi, bəlkə də heç bitməmiş qayıdacaq evinə. Onun nəfəsi, uşaqların səsi üçün yaman darıxıb.

Alim səyyah qəlbindəki tufanları sakitləşdirmək üçün qarşısındakı kürsünün üstündən əlyazmalarını götürüb, oxumağa başladı.

Turxan astaca qapını aralayıb içəri girəndə Zeynalabdin xəbər tutmadı. Şagird ustadının əlyazmalarına necə bir məhəbbətlə daldığını, dünyadan bixəbər oxumaqda olduğunu görüncə salam belə vermədi, onu öz aləmindən ayırmağa qıymadı. Bununla belə ustadını salamlamamağı ürəyi qəbul etmədi; Zeynalabdinə tərəf baş əydi; görsə də, görməsə də, gənc oğlan, böyük qarşısında kiçiklik borcunu yerinə yetirdi. "Səsu"dan yumşaq xalı – "sumağ"ların üstü ilə yavaş-yavaş, pəncələrinin ucunda yeriyib, öz yerinə keçdi. İşinə başladı. Rəflərdən kitabları

ehmalca götürür, yumşaq parçayla tozunu alır və ustadın öyrətdiyi kimi əlifba sırası ilə yerinə qoyurdu. Hər qəfəsə – rəf bir elm üçün ayrılmışdı. Və sevimli ustadının göstərişilə Turxan uzunsov qalın kağızlar üzərinə "elmi-hesab", "elmi-nücum", "elmi-təbabət", "əşar" və başqa sözlər yazıb hər elm üçün ayrılmış rəfin üstünə vurmuşdu. Kitabxananın girəcəyində qapının üstünə gözəl xəttat əlilə bir beyt yazılmışdı:

Çerağі-məscido mehrabo mənbər,
Əbubəkro Omər, Osmano Heydər.[1]

Turxan kitabları səliqəyə saldıqca Aybuta sultanın gəlib-gəlməyəcəyini düşünürdü. Oğlan bu gəlişi həm Allahın bəxşişi, həm də lənəti kimi sevinc və qorxu içində gözləyirdi. Sevinirdi, çünki o da qıza ürəkdən vurğun idi. Ölürdü görməyəndə; görəndə dirilirdi. Ürəyində həmişə onunla söhbət edir, məhəbbətindən danışırdı, amma görəndə lal olurdu; səsi batırdı, o şirin sözlərin, o əziz adların, yaraşdırmaların, o bənzətmələrin birini də deyə bilmirdi. Unudurdu hamısını; deməyə söz tapmırdı. Bu onun Allahın bəxşişi saydığı sevinc yükü idi. Amma bir də qorxu, lənət yükü vardı ki, hər şeydən ağır idi. O vaxtilə qul kimi, kölə kimi, əsir kimi saraya gətirilmiş bir cariyənin oğlu idi. Doğrudur, bu cariyə Aybuta sultanın dayəsi adlansa da, onu öz əllərilə yedirib, geyindirib böyütsə də, qoynunda bəsləyib, çiynində gəzdirsə də, ona döşlərindən süd verməmişdi. Cariyə oğlu, dayə oğlu ən "alçaq sinif"idi; bədbəxt idi. Məgər belə bir ananın, ondan daha yoxsul bir atanın övladı Aybuta sultanı sevə bilərdi? Bunun üçün ölüm cəzası da az idi. Bilirdi. Bu sevdanın sonu yoxdur. Qəlbində Aybutanı əzizləyəndə ona deyirdi, onu saqındırmağa çalışırdı. Amma nə fayda, qız ki, bu sözlərin birini də eşitmirdi. Nə şirinini, nə acısını. Düşünürdü: "Kaş Aybuta sultan məni heç sevməyəydi. Bəyənməyəydi. Qoy mən, təkcə mən sevəydim, yanaydım-yaxılaydım. Ömrüm uzunu heç kəsə evlənməyəydim, təkcə onu düşünəydim. Xidmətində duraydım, baxaydım, görəydim, yanaydım-yaxılaydım. Həsrətilə öləydim. Onasa bir şey olmayaydı".

Düzdür: hərdən-hərdən belə bir uca yerli gözəlin onu sevməsi cavanın qəlbini fərəhlə doldurur, köksünü sevinclə qabardırdı. Amma bu

[1] Məscid, mehrab və minbərin çırağı
Əbubəkr, Ömər, Osman və Əlidir (H e y d ə r – Həzrət Əlinin ləqəblərindən biri).



çox az hallarda olurdu. Çox vaxt isə xəyalında əllərini öpdüyü, ayaqlarına düşdüyü, xırda hörüklərinin ucundakı papuq-saçbağılara diksinə-diksinə toxunduğu qızın gələcəyi üçün, taleyi üçün qorxurdu. Qorxurdu ki, Validə sultan duyuq düşər. Ataya xəbər verər. Aybuta sultanın qəzəbinə gələr. Qorxurdu ki, kitabların arasına Aybutanın yazıb qoyduğu əlfəcinlər birdən ustadın əlinə düşər. "Aman Allah, rüsvay olduq. Ustad əlbəttə, sultana çuğulluq eləməz... birdən... Yox, yox elə şey olmaz, eləməz!" Amma şagirdindən də üz döndərər. Elə bilər ki, Turxan onun yanına bilik dalınca gəlmir. Eşq çağırır onu. Onda... Onda Aybutanın da ayağı kəsilər kitabxanadan... Kəsilsin. Təki sağ olsun. Gəlməsin – təki bəlaya düşməsin. Görünməsin Turxana, amma, təki sultanın qəzəbinə keçməsin. Cavan oğlan bir şeyi bilmirdi: o bilmirdi ki, indi bu saat kitabxanaya gəlməyə hazırlaşan Aybutanın qəlbindən nələr keçir. Dərdi nə, səri nədir. Axı onlar bir-birilə danışa bilmirdilər. Uzaqbaşı qız, əlfəcinlərə yazdığı rübailərlə bildirirdi öz eşqini. Bir neçə yüz il əvvəl ustad Pəhləvan Mahmudun böyük məhəbbətlə qoşduğu rübailər onların danışıq dilindən sevgi dilinə "tərcüməçisi" idi. Qız buna cürət edirdi. Turxan isə heç buna da cürət edə bilmirdi. O yalnız hərdənbir başını qaldırıb qızın üzünə baxmaq imkanı olanda, gözlərilə danışırdı. Sərhədi bundan o yana keçə bilmirdi. Keçə bilməzdi də.

Turxan bir şeyi bilmirdi. O bilmirdi ki, Aybuta sultan da onu – Turxanı qoruyur. Özünü deyil, onu düşünür. Atasının qəzəbini yaxşı bilirdi. Əgər Turxan bu qəzəbə keçsə, sağ qurtara bilməz. Onda heç Aybuta özü də sağ qalmayacaq. Amma Turxan olmayandan sonra bunun, yəni yaşamağın nə faydası?! Turxansız ömrünün nə mənası? Amma ona – Aybutaya nə olur olsun, təki Turxan sağ olsun. Bir dəfə gördüyü o zindana salınmasın. Dayənin əlindən tutub o bağlı qapıların, o zülmət saçan kahavari nəfəsliklərin önündən keçirdi bir dəfə. Uşaq idi. Amma heç yadından çıxmır. Elə bil qulağına iniltimi, zarıltımı, ya yanıqlı bir fəryadmı dəydi? Dayənin əlini sıxdı. Diksinmişdi. Dayə əyildi:

– Qorxdun? Canım-ciyərim, qorxma. Nədən qorxdun? Rəngin uçdu, bala can, – yerə çöküb qızcığazı bağrına basdı.

Aybuta incə barmağı ilə qarşısında gözətçi duran qapını göstərdi. Elə bu anda heykəl kimi durmuş gözətçi əsnədi və elə qəribə bir səs çıxartdı ki, bu dəfə dayə özü də diksindi. Canlı "heykələ" tərəf boğma çıxartdı:

– Vayy... Qadam ürəyinə, balamı, Aybuta sultanımı qorxutdun.

Qızı min şirin dillə dindirə-dindirə, ovundura-ovundura çəkib apardı: "Orada sultanımızın sözündən çıxanlara cəza verirlər, – dedi, – sən qorxma".

İndi Sultan xəbər tutsa, əlbəttə Turxanı zindana saldırar, ona ən ağır cəza verər. Əlbəttə ona, Aybutaya qorxu yoxdur. Oğulları, övladları içində sultan, Aybutanı çox sevir. Əzizləyir. Ona dəyməz. Könlünü qırmaz. Bütün istəklərini yerinə yetirib indiyəcən. Nə arzulayıbsa alıb, hara getmək istəyibsə aparıb, ya kiminləsə göndərib. Bəlkə... Bəlkə, qızının Turxanı sevdiyini, onsuz yaşaya bilməyəcəyini başa düşsə... bəlkə, bağışladı Turxanı?.. Bir ad, bir mülk verdi, ucaltdı qızının xətrinə. Sonra da toylarını elədi, bəlkə? Kim bilir? Görəsən Aybutanın alnına nə yazılıb? Əgər "Qalü-bəla" deyilən alın yazısını o "lövhü vəl qələm"i oxuya bilsəydi? Qız aynanın önünə keçdi. O üz-bu üz çevrikib alnına diqqət elədi. Təmiz, tərtəmiz, açıq alnında heç bir yazı görə bilmədi. Saçlarını həriki tərəfdən alnından yuxarı qaldırdı, diqqətlə baxdı... baxdı... Nəinki Turxanın adını... Heç bir hərif də görüb oxuya bilmədi. Yenidən şirin-şirin xəyala daldı. Kim kömək edə bilər ona? Kim cürət edib sultana qızın, sənin qızın cariyədən, kölədən, quldan doğulan insanı sevir. Quldan doğulanda nə olar? Gör, bir necə at çapır, qılınc vurur, bay oğlanlarından yaxşıdı. Gör, necə gözəldir, boylu-buxunlu, enlikürəkli, kişisurətli... Bu sözləri, bu şirin qız xəyallarını, sevən ürəyin arzu və təsəvvürlərini sultana kim deyə bilər? Validə sultanmı; Yox... Böyük alim kimi çox hörmət etdiyi ustad Zeynalabdinmi? Yooox... Hələ bəs bu sözləri ustadın özünə kim deyə bilər? Olsa-olsa buna təkcə sultanın bacısı Aytoğan xatun cürət edə bilər. Elə Aybuta özü də sirrini anasından da çox, bibisinə aça bilər. Övladsız bibi onu doğmaca balası bilir. Qardaş balasından çox istəkli qızı kimi sevib, əzizləyir. Bütün başqa qardaş balalarından Aybutanı çox sevir. Hərdən könlünün xoş vaxtında sultan, Aytoğan xatuna deyir: "Apa![1] Bu məhəbbətimizdə birləşirik".

Elə bil fal oldu. Elə bil günəş üzünə güldü. Bu fikirlərin içindəydi ki, vəliəhd içəri girib bacısını qucaqladı; gülə-gülə hörüklərini əlinə dolayıb balacalıqda olduğu kimi "biyəəə..." deyə "at çapdı" və dedi:

– Hə... Nə üz-gözünə tamaşa eləyirsən ayna qabağında? Yoxsa elə bilirsən dünyada səndən gözəli yoxdur? Qoy görək aaa. Birdən öz-özünə vurularsan...

[1] Böyük bacı; bəzi türk tayfalarında "abla"



Aybuta da güldü. Zarafatca qardaşının önündə "çapdı", sonra dayanıb saçlarını vəliəhdin əlindən çıxarmağa çalışdı:

– Burax saçlarımı Erkin! Burax...

Erkin vəliəhd inadla güldü, buraxmadı:

– Dayan hələ... Sənə şad xəbər gətirmişəm. Muştuluğumu ver deyim...

– Borc olsun.

– Aytoğan bibi gəlib!

Bax, xoş xəbər buna deyərəm. Xəyallarına cavab olan, arzularına səs verən xəbər. Qız qanrılıb qardaşını qucaqladı, üzündən öpdü:

– Xoş xəbər olasan, Erkin!

Qız qanrılanda incimәsin deyə vəliəhd onun hörüklərini buraxmışdı. Eləcə əl-ələ, çiyin-çiyinə qapıdan çıxdılar. Hər ikisi gülürdü. Qız xəyalına cavab almağını xeyir əlamət sayıb nə qədər sevinirdisə, bir az heyifsilənirdi də. Axı az sonra o, kitabxanaya gedəcək, içərisinə əlfəcinli məktub qoyduğu kitabı Turxan götürəcək, elə bu vaxt da həsrətlə arzuladığı gözlərə gözləri sancılacaq... Bir şərbət kimi içəcək o gözlərdən gələn işıqlı məhəbbəti... Təəssüfləndi ki, bibisinin gəlişi onu bu səadətdən məhrum edəcək... Amma eybi yoxdur. Bu kiçik hicrana dözər Aybuta. Təki axırı yaxşı olsun... Sonrası yaxşı olsun... sonrası... Düşüncələri qəlbini doldurduğu halda vəliəhd Erkinlə birlikdə bibisinə doğru uça-uça yüyürdü.

## "GÜLŞƏNİ-XEY"

"Bustanüs-səyahə" adlandırdığı iri həcmli kitabın "Gülşən"lərə bölməyi qərarlaşdırmışdı. Əlifbanın "əlif", "bey", "tey", "hey", (a, b, t, h – ərəb əlifbası ilə) hərflərlə başlayan ölkələr, gördüyü şəxsiyyətlər, adət və ənənələr haqqında bildiklərini yazıb qurtarmışdı. İndi də "xey" (X)[1] hərfilə başlayan sözləri və onların altında yazdığı qeydləri toplayıb qarşısına qoymuş, düşünürdü. Bu "Gülşən"ə kimlər, hansı məmləkətlər, nə kimi hadisələr daxil olacaqdı. Adı bu "xey" hərfi ilə başlamasa da, indi bu saat qonağı olduğu Xarəzm diyarının böyük alim

[1] "X" hərfinin gülşəni: oxuculara məlum olsun ki, Hacı Zeynalabdin öz əsərlərini fəsillərə bölərkən onlara müxtəlif adlar vermişdi; o cümlədən "Bustanüs-səyahə" kitabını da ensiklopediya kimi əlifba sırası ilə "gülşənlərə" bölüb.

və şairlərinin əsərlərindən hökmdarın kitabxanasında saxlanan əlyazmaları maraqlandırmış, xüsusilə Pəhləvan Mahmudun "Rübailər"i məftun etmişdi.

Naxandə məro to bər sərc-xane-kəsi,
Biqədr şəvi əgər xori nanc-kəsi.
Yek parçcc-nanc-qaq, yek kasee-ab
Behtər zc həzar bərrc-bəryane-kəsi.

Düz deyib, rəhmətlik – düşündü: tanımadığın, miqdarsız şəxsin süfrəsi başında oturma! Bir parça quru çörəklə bir kasa soyuq su özgələrin kababından yaxşıdır. Doğrudur. Yollarım boyu, diyarbədiyar gəzdiyim məmləkətlərdə gördüklərim məndə də belə bir qənaət hasil edib. Dünyada başqasına "boyunəti" olmaqdan, başqasının çörəyini yeməkdən ağır töhmət yoxdur.

Ya bu rübaidəki hikmət?

Əz səngi-seyah dacivərdi mətələb!
Vəz fclfelo zəncəfil sərdi mətələb!
Bcşno soxəni Məhmudc-Poryarlu
Əz adəmc-nadorost mərdi mətələb!

Daha yollarda ikən bu nadürüst adamları görmüşdü, öz həyat təcrübəsilə, qara daşdan mavilik, istiot və zəncəfildən soyuqluq tələb etmədiyi kimi, onlardan da mərdlik gözləməmişdi. Bu rübaidə böyük şair, mərd şair, canını xalqının səadəti, istiqlaliyyəti uğrunda qurban verən şair özünün xarəzmlilər, özbəklər arasında tanınan "Poryarlu" ləqəbini işlətmişdi. Pəhləvan Mahmudun sərt, olduqca dovtələb rübailəri onu daxilən titrədirdi...

Bircə bu küfr saçan rübaisi bəs elərdi ki, onu çarmıxa çəksin ruhanilər.

Hacı ki, zi Kəbə vo Mina bərgəşte,
Marist ke rəfte – əjdəha bərgəşte,
Zinhar fəribe – hərəməşra məxorid
Kin xanəxərab əz xoda bərgəşte.

– Sözə bax, – deyirdi. – Kəbəyə ilan kimi sürünən hacı, qayıdanda "Əjdaha"ya dönür; özünü bu evi yıxılmışdan qoru, çünki o Allahından da dönüb, cürətə bax! Bu cürəti ona həm də böyük qol gücü, pəhləvanlığı verib. Həm zərb-dəstindən çəkinib mollalar, işanlar, həm də xalq ara-



sında şöhrətindən. Yoxsa tükünü didərdilər. El yolunda fədakarlığına görə də ona elə bir abidə tikiblər, şeirləri kimi əbədi və gözəl. Bu yerlərə gələndən bəri bir neçə dəfə ziyarətinə getmişəm, karvan-karvan, dəstə-dəstə ziyarətçidir elə hey gəlir, ardı-arası kəsilmir. Atalar... babalar xırda oğulların, nəvələrin əlindən tutub gətirir, o memarlıq incisi olan qəbri göstərir. Pəhləvan Mahmuddan ən yaxın bir dost, baba kimi danışır, rübailərini oxuyur, deyirlər: "El yolunda, bizim yolumuzda canından keçib, şirin canından keçib, əsirlərimizi azad edib". Amma o böyük şair, o qüdrətli pəhləvan bircə xəta eləyib yazıb ki: "Təəssüf ki, ölümümdən sonra kimsə məni yad etməyəcək".

Və rübailərindən birini bu beytlə qurtarır:

Ma bər sərc-xakha zeyaret kərdim
Ta bər sərc-xake ma zeyarət kc konəd?

Nahaq bədgüman olub xalqından, "bizim torpağımızı kim ziyarət edəcək, yada salacaq?" deyəndə səhv edib. Budur, ziyarətçilər əlindən aman yoxdur...

Qərəz, bu vərəq "xey" "Gülşən"inə düşmür.

Bu düşüncələrlə də şair, qeydiyyatı "p" yazılmış vərəq dəstinin içərisinə qoydu:

– Hə... Xarəzm çox böyüklər yetirib, Mavəraünnəhrin gözü sayılan Xarəzm torpağında münəccimlər yeddi ərşin sirrinə vaqif olublar. Riyaziyyatçılar yetişib ki, hər biri bu yerləri cənnətə döndərən su yolları, qalalar, qalaçılar nəqşəsi çəkiblər. Bu yerlərdən Mahmud kimi şair, Məngburnu kimi ünlü hökmdar, şahlığın, sülalələrin tarixini gələcək nəsillər üçün yazan tarixnəvislər, xəttatlar, maarif yayan məktəbdarlar, müdərrislər yetişib. Təkcə bir Əl-Xarəzmi kimi alim... Şeyx Nəcməddin Xarəzmi kimi alim... Xarəzmşah Çağan... Görəsən, ərəblərə qarşı müharibə meydanında çarpışan bu Çağan Xarəzminin bizim o Şamaxı üstündəki Çağan kəndinin adı ilə əlaqəsi varmı?

İkinci dəfə Şirvanda olanda onu kükürdlü bulağı ilə şöhrət qazanmış, yay hamamlarında çox-çox xəstənin şəfa tapdığı Çağan kəndinə aparmışdılar. Gözəl, müxtəlif meyvə ağaclarıyla, yamyaşıl və sıx meşə ilə əhatə olunmuş dayaz dərədən axan bulağın ətrafı qəribə, sarımtıl – yaşılımtraq rəngə boyanmışdı.

Şəfa tapmaq istəyənlər tonqal qalayır, daşları qızdırıb yay hamamını təşkil edən hovuza tullayır, su qızanda girib uzanırdılar. Birdən-birə

ağlına gələn Xarəzmşah Çağan ilə Çağan kəndi arasında nə kimi əlaqə olub-olmadığını, düşünə-düşünə "X" hərfi ilə işarə edilmiş "Xarəzm", "Xocənd", "Xivə", "Xacə Qüstəntin" və nəinki Xarəzmdə, Özbəkistanda... bütün Türküstanda, Azərbaycanda, İran və Ərəb ölkələrində, Türkiyədə, Hindistanda, bütün Cənub Şərqi Asiya məmləkətlərində rast gəldiyi, "X" hərfi ilə qeydə aldığı yazılarını seçməyə başladı.

Hökmdar onu bu məşğələ üstündə tapdı. Alim yazılarına və bu qeydlərlə bağlı xatirələrinə elə dalmışdı ki, gələni duymadı. Duyanda da şagirdi zənn edib başını ağır-ağır qaldırdı və hökmdarı görüncə "güldəstə" barmağında üstü ayə yazılı əqiq üzük olan sol əlini qarşısındakı ağır kürsüyə dayaq verib təzim üçün qalxdı.

– Xoş gördük, ustad!

Zeynalabdin xəfifcə gülümsədi. Hökmdar ona əziz qızı Aybutanın dililə müraciət edirdi. Qız isə bu sözü şübhəsiz ki, Zeynalabdinin şagirdi Turxandan öyrənmişdi.

Sultan gülümsündü:

– Təəccüb etməyin, Aybuta sultanın dilindən düşmürsünüz. Səhərdən axşama haçan görsəm, dövlət işlərindən baş açıb hərəmxanaya haçan girsəm onu ya yazı məşq edən görürəm, ya oxuyan. Gah sizin şerinizi əzbər söyləyir, gah özünün onlara yazdığı nəzirələri oxuyur. Dinclik yox əlindən, elə hey ustad... ustad... ustad... deyib qaynayır.

Sultan danışdıqca Zeynalabdin öz aləmində düşünürdü: "Allah özü saxlasın, fərasətli uşaqdır, fərasətli qızdır, hayıf ki, qızdır. Bu fərasət dörd divar arasında məhv olub getməyə məhkumdur. Ər evi, oğul-uşaq... Hökmdar balası olsa da qızdı, qadındı. Kaş onda olan bacarığın, istedadın biri sənin vəliəhdində olaydı..." Ehtiram ilə hökmdarın danışıb qurtarmasını gözlədi. Susduğumu görüncə dedi:

– Ömrünüz uzun olsun, hökmdarım. Aybuta sultan fərasətli uşaqdır. Güclü də hafizəsi var. Lütfi-Xudadır. Gördüyünü, eşitdiyini, oxuduğunu çox tez qavrayır.

– Elədi, – sultan xəttatın təzəcə köçürdüyü bir əlyazmasını kürsünün üstündən götürüb baxdı, elə-belə oxumadan vərəqlədi, xəttin gözəlliyinə tamaşa eləyib dedi: – Hələ bəzənməyib?

Bu deyişdə həm sual, həm də təsdiq var idi. Zeynalabdin təmkinlə izahat verdi:

– Ustad ötən gün işə başlamaq istəyirdi. Saat xoşlayırdı. Amma Aybuta sultanın xahişinə görə ləngitdi. Sultan xanım ustad üçün nə isə hazırlayıb, özü də bəzək işlərində qocaya yardım eləyir.



Sultan hələ də əlyazmasını vərəqləyə-vərəqləyə söylədi:

– Ustadına kəm baxanın gözlərinə qan damar. Beləmi deyib deyəsən dədələr?! Ustada xidmət şagirdin borcudur və mən şadam ki, Aybuta sultan bunu bilir, yerinə də yetirir. Ona əlifbanı öyrədən onun birinci müəllimi həmin qoca ustadı. "Mənə bir hərf öyrədənin quluyam" deyən ululların nəsihətinə əməl edirəm.

Qapı olduqca yavaş açıldı. Sultan başını döndərmədi belə. Zeynalabdin isə gözaltı Turxanın otağa daxil olduğunu gördü. Cavan oğlan sağ əlini sol döşünün üstünə qoyub ustadını salamlamaq istərkən, hökmdarı gördü və cəld əllərini yanına salıb ikiqat təzim ilə əyildi. Sultanın onu görüb-görmədiyinin fərqinə varmadan dikəldi. Kirpiklərini qaldırmadan divar dibi ilə səssiz-səmirsiz uzaqlaşdı. Otağın lap o biri başındakı kitab rəflərinə tərəf getdi. Bir an da ustadının və hökmdarın olduğu səmtə arxa çevirmədən, yanpörtü elə yeridi ki, ədəb qaydalarına xələl gəlmədi. Sonra da rəflərin arxa qatında gözdən itdi. Orada qədim əlyazmalarını silib təmizləməli, cildi zədələnənləri ayırmalı, ustadının tapşırdığı qaydada kitabları elmə görə ayırıb əlifba sırası ilə düzməliydi. Bir neçə gün əvvəl sultan razılıq vermiş, qədim sandıqlar açılmış və alimin məsləhəti ilə kitablar yeni qaydada düzülməyə başlanmışdı.

Turxan öz yerinə təzəcə keçmişdi. Sultan hələ də yeni əlyazmanı vərəqləməkdə, gözəl xətti və başlıqlar üçün boş buraxılmış yerləri gözdən keçirməkdəydi. Bu "boşluqlar" bir az sonra sənətkar miniatürçü rəssamın əlilə, zərif fırçası ilə tünd sürməyi, mavi, qızılı, yaşıl, al və qara rənglərlə bəzədiləcək və əlyazmanın gözəlliyi də, qiyməti də birə-beş artacaqdı. Sultan qiymət qoya bilən adam gözü ilə o bəzəklərin kitaba verəcəyi gözəlliyi, o gülləri, o çiçəkləri, o naxışları indidən görür kimiydi.

Qapı yenidən üsulluca açıldı. Gələn Aybuta sultan idi. Qızın içəri girməyini ata qəlbi hökmdara, sanki irəlicədən xəbər vermişdi. Bayaq Turxanın gəlməsinə dönməyən baş kitabdan ayrıldı, qızının cingiltili səsinə səs verdi:

– Atam, sultanım, burdasız?

– Burdayam, qızım, sultanım.

– Nə yaxşı, nə yaxşı.

Qız sanki əlindəki kitabın alınacağından ehtiyat edərək sinəsinə basmışdı, vərəqlər arasından əlfəcinin ucu görünürdü. Qız sərbəst danışsa da səsində bir kiçik, bir gizli qorxu var idi. Zeynalabdinin daxilindən

ani olaraq həyəcanlı bir gizilti keçdi. Son günlər o görürdü ki, Aybuta sultan Turxanla sözləşibmiş kimi, oğlanla ara-sıra kitabxanaya gəlir. Bəlkə də, bu bir təsadüfdür. Amma nə isə... Oxumaqçun apardığı kitabları beləcə əlfəcinlə və məhz Turxana qaytarır. Dünən necə oldusa kitab yerinə qoyulmadı. Zeynalabdin qızın nəylə maraqlandığını, nələr oxuduğunu bilmək üçün kitabı açdı və əlfəcinin üstündə "Şəcər əlifbası" ilə yazılmış rübaini oxudu:

Hər dəm ço qol amofte konəm dəftəre-del,
Bərbad dəhəm ço lale xakestəre-del,
Çon şişeye-saət həme şəb kerd fəraq
Del bər səre-mən rizədo mən bər səre-del.[1]

Yadına düşdü: bu əlifbanı gənclərə o özü öyrətmişdi. Hələ məşğələlərin ilk günlərindən birində Aybuta sultan ondan "Şəcər əlifbası"nın nə olduğunu soruşmuşdu. Zeynalabdinin də əlifbanın dərvişlər, xəttatlar və başqaları arasında məlum bir şifr, gizli yazı növü olduğunu söyləmişdi. Qız da, Turxan da bir-iki gün ərzində əlifbanı əməlli-başlı mənimsəmişdilər. İndi qızın əlindəki kitabın arasında eynilə həmin əlfəcindən birini, həmçinin gənclərin ara-sıra gəlməsini gördükdə, Zeynalabdin özündən asılı olmayaraq daxili bir sıxıntı, içərisini çevirən bir narahatlıq duydu: "Kaş bu gəliş təsadüfi olaydı. Kaş bu əlfəcində də yeni bir rübai olmayaydı. Bu nədir? Yoxsa mən də sözbaz qarılar kimi şagirdlərimdən bədgüman oluram? Ola bilməz. Onlar ikisi də ağıllı cavanlardır. Boş, mənasız bir arzuya qul olmazlar... Neyçün də yox? Məgər Altıntelli Ömür bəy kimi bir zəngin əri qəbul etməyib, cavan canını yoxsul bir dərvişin yolunda qurban vermədi?"

Hökmdar ata ilə qızı öz aləmlərində, öz söhbətlərində olsalar da, arabir alimi də bu söhbətə cəlb edirdilər. Birdən sultan sağ əlilə qızının sağ çiynini tumarladığı halda Zeynalabdinə müraciət etdi:

– Ustad! Bu axşam hərəm əhliylə birlikdə sizin Hələb şəhərini ziyarətiniz haqqında söhbətləri dinləmək istərdik. Necə bilirsiniz?

Zeynalabdin başını sinəsinə endirdi, əllərini köksündə çarpazladı. Sol əlinin "güldəstə" barmağındakı əqiq üzük donuq bir parıltıyla hökmdarın diqqətini çəkdi.

– Əmr sizindir hökmdarım!

---

[1] Hər dəm gül kimi ürəyimin dəftərini açıram. Lalə kimi ürəyimin tozunu yelə verirəm. Şüşə saat hər gecə ayrılıq qumu səpələyən kimi. Mən də ürəyimin başına, ürəyim də mənim başıma qum səpir.



– Əmr deyil bu, hərəmlərin ricasıdır. Görünür Aybuta onlara nəsə danışıb. Onlar da sizin yolu bura düşən aşıqlardan "Aşıq Qərib" dastanında eşitdikləri Hələb haqqında dinləmək istəyirlər. Xüsusən də ki, bacım əvəzi möhtərəm əmizadəm Aytoğan xatun sevimli mehmanımız, Aybutanın həm əziz bibisi, həm də yaş fərqinə baxmayın, sirdaşıdır.

Alim Sultanın səsində əmrdən çox mehriban dəvət məqamları duyurdu. Bu onun məğrur könlünü oxşadı bir az: "Əmr də edə bilərdi..." deyə düşündü. "Amma etmədi. Xatunların xahişini çatdıran elçi kimi davrandı", ucadan isə söylədi:

– Göz üstündə, hökmdarım, ürəyimlə, canımla...

Hökmdar qızına dönüb, zarafatla:

– Hə... Aybuta sultan, kitabı nə basmısan bağrına? Qoy yerə, gedək, bibinin sənin üçün gətirdiyi atı göstər mənə.

Qız:

– Özüm yerini bilirəm. Ustada zəhmət olar.

– Quş kimi uçub, bir az əvvəl Turxanın getdiyi kitab rəflərinə tərəf yollandı. Zeynalabdinin bu hərəkət də nəzərindən yayınmadı. Yenə də qəlbində nə isə gizildədi. Lakin Aybuta rəflərin arxasına keçmədi. Əlfəcinli əlyazmasını özünə məlum olan harasa dürtüb, yenə də bir ahu çevikliyi ilə geri döndü. Qapını açıb, sultan ata ilə birlikdə otağı tərk etdi. Yalnız bundan sonra Zeynalabdinin ürəyindəki xəfif gizilti ötüb keçdi.

* * *

Məclisin bugünkü ən ləzzətli yeməyi, təzəcə bostanlardan dərilib gətirilmiş, doğranıb süfrəyə qoyulmuş məşhur Xarəzm-Ceyhun yemişləri idi. Qar kimi ağ, şəkər kimi şirin yemiş dilimləri elə ağıza qoyanda qar kimi, şəkər kimi əriyirdi. Yaraşıq üçün ortaya ətirli Xarəzm güllərinin qənşərinə bir dənə yemişi soyub doğramadan qoymuşdular. İştah açır, göz oxşayırdı bu "qızıl günbəz". Dəstərxanın başında Sultan əyləşmişdi. Onun sağındakı yaşı əllini haqlamış, dolğun bədənli qadın görünür. Aytoğan xatun idi. Sol yanağında, üst dodağının solunda və çənəsinin sağındakı döymə xallar ilə qaşlarına sürtdüyü enli rasıx zolağı onun dəyirmi fətir sifətini qəribə bir "üçbucaqla bölmüş", üzünə uzaqdan baxanı heyrətə gətirirdi. Koppuş əllərinin qısa barmaqları ilə tez-tez, adəti bir hərəkətlə sol qaşını sığallayır, sanki yerində olub-olmadığını yoxlayıb sakitləşirdi. Amma bu qeyri-təbii "üçbucağa" baxmayaraq, mehriban üzündə qayğıkeş insanlara məxsus "cümləqayğı" ifadəsi vardı. Böyrünə sıxılmış zərif, ahudan da incə Aybutanın gah çiyinlərini

oxşayır, gah çənəsi ilə əylənir, gah ucu qızıl qozalı-papuqlu (sacbağılı) "qırxkakili"nin incə hörüklərini oynadırdı. Görünür Ceyhun yaxınlığındakı malikanəsindən təzə gəlmişdi. Arabir yemiş parçalarından ağzına qoyub qardaşına sataşırdı:

– Yaxşıdı, amma bizə gəl, ova-zada çıxanda yolunu mənim bostanlarıma sal, yemişlərimin şirinliyindən cəhənglərin yara olar.

Sultan güldü:

– Elə ona görə də gəlmirəm, apa.

– Yalansa... – Aytoğan xatun vaxtında saxladı sözünü. Yad qonaq yanında, arvad-uşaq yanında hökmdara ərk, zarafat etmək istəmişdi. Pis qurtara bilərdi axırı. Nə desən baş verə bilərdi. Sultanın tündməcazlığına uşaqlıqdan bələd idi.

Hökmdarın solunda iki qadın əyləşmişdi. Əvvəlinci, onun birinci arvadı, baş hərəmi Validə sultan idi, vəliəhdin, eləcə də Aybuta sultanın anası Ullibibi... Bir neçə övlad anası, dolğun bədənli, şairlər demişkən "on dörd gecəlik ay təkin"dəyirmi üzlü, "qıyıq" gözlüydü; elə bil indicə yuxudan durmuş, hələ gözlərini əməlli-başlı dünyaya açmamışdı. Dərisinin mərmər ağlığını ənlik-kirşanla canlandırmışdı. Enli rasıx çəkdiyi qıyqacı qaşları bu üzə vaxtilə, cavanlığında təravət vermiş, bir cüt incə, xırdaca qaranquş qanadı kimi gərilmişdi. Köklüyü, yaşına uyuşmayan əlvan libası, bəzək-düzəyi, qızıl-gümüşü ilə baldızı Aytoğan xatunu üstələyirdi. Necə də olsa sultan arvadı, vəliəhd anası idi. Onun yanında ahu biçimli, eynən Aubyta yaşda, o zəriflikdə, eləcə o geyimdəki gözəl, hökmdarın təzə evləndiyi arvadı gəlin sultan yaşlılara nisbətən yaşmağını xeyli yuxarı çəkmişdi.

Vəliəhd gününün çoxunu ovda, hərbi məşğələlərdə keçirən, beli qoşa ovuca sığan zərif xilqətdi. Ona baxan, sultan atanın gəncliyini görürdü. Zahirdə nərmə-nazik görünsə də, hərbi məşğələlər, çöl-bayır havası onu xeyli bərkitmiş, yaşına, görkəminə nisbətən çox qüvvətli, güclü cavandı. Bununla belə ilk müəllimi şair Munis Xarəzminin[1] təsirilə şerə, gözəlliyə, şeriyyətə, musiqiyə qəlbində böyük bir maraq oyatmışdı. Elə bu maraq da onu arabir məşğələlərdən ayırıb, Zeynalabdin Təmkinin yanına gətirdi.

Ustad bu gün əski Suriya vilayətinə səfərindən danışırdı. Şam, Hələb adları oturanlara dini rəvayətlərdən, nağıl və dastanlardan tanış idi. Sultan özü isə ölkəsinə gələn yüksək ağıl və təcrübəsini, müsahibə

[1] Munis Xarəzmi (1778-1829) – tanınmış özbək şairidir.



qabiliyyətini qiymətləndirdiyi tacir və sarbanlardan Ərəb ölkələri haqqında çox söhbətlər eşitmişdi. Hərdənbir Xarəzmə, xüsusən Xivənin özünə adlı-sanlı karvan sahibləri – bəzirganbaşılar, böyük tacirlər gələndə sultanın xidmətinə müxtəlif hədiyyələr gətirdilər. Sultan onları adətən bir neçə gün saxlar, gəzib-gördüklərindən danışmalarını tələb edərdi. Uzaq məmləkətlərdə baş verən hadisələr, əcaib əhvalatlar, maraqlı insanlar, bazarlar haqqında söhbətləri bir nağıl şirinliyi ilə dinlərdi. İndi isə dünyanın bir çox məmləkətini gəzmiş alim, şair, səyyah onun əlinə göydən düşmüşdü. Taleyin hədiyyəsi idi.

Zeynalabdin görünür çoxdan başladığı söhbətinə davam edərək deyirdi:

– Hökmdarım! Şamda sıldırım dağ döşündə salınan Sid-Naya deyrini[1] gəzdim. Deyirlər dünyanın ən möhtəşəm deyrlərindən biridir. Qüdsdən sonra ikinci yer tutur. Hökmdar Yustinian[2] tikdirib. Haqqında maraqlı bir əfsanə danışdılar, xristian ərəb rahiblər mənə. Dedilər guya Yustinian ovda bir ceyran görür, ardınca düşür, qova-qova bu yerlərə gətirib çıxarır, bura çatanda ceyran dönüb müqəddəs Məryəm ana cildinə düşür. Hökmdara deyir: "Burada kilsə tikdir". Məryəmin əlindən daman bir damla zeytun yağının düşdüyü yerdə onun surəti həkk olunur. Zəncir hasara alınıb, indi də qoruyurlar o yeri. Müqəddəs məkana gələndə mütləq baş əyib ziyarət edirlər.

– Necə, indi də qalır?

– Qalır.

– Özünüz gördünüz?

– Bəli sultanım, gördüm, əl içi boyda yağlısov yerdə əlvan qadın surəti bilinə-bilinməyə mərmər pillənin bir tərəfində qorunur.

– İndi də yağla?

– Bəli.

– O vaxtdan Ərəbistan günəşi qurutmayıb onu?

– Yox deyirlər. Mən də soruşdum "yox" dedilər.

Vəliəhd gülərək dedi:

– Əh... Yəqin rahiblər ora özləri yağ damızdırırlar, yoxsa...

Validə sultan qaşlarını çatdı, həyəcanla hər iki əlini üzünə tərəf qaldırdı. Baş barmağından başqa qalan barmaqlarının səkkizinin də hərəsini bir neçə üzük bəzəyən bu əllər övladı üçün qorxudan titrəyirdi:

[1] Monastır

[2] Roma imperatoru Yustinian nəzərdə tutulur, eramızın 527-565-ci illərində yaşamışdır.

– Küfr danışma!.. Möcüzədi, salavat çevir.

Məclisdəkilərin hamısı özündən xəbərsiz hər iki əlini üzünə tərəf apardı. Ortalığa bir anlıq çəkən xoşagəlməz sükutu hökmdarın səsi pozdu:

– Davam edin söhbətə, möhtərəm səyyah!

Zeynalabdin sağ əli ilə təzə dən düşmüş şəvə kimi qara, məxmər kimi yumşaq və hamar saqqalına sığal çəkdi. Təkbir ağ tüklər bu "qara, yumşaq tüklər"in hələ ağarmağa üz qoyduğunu bildirmir, əksinə onlara incə, haradasa "gümüş tel" düşmüş "sırmalı Dara saqqalı" görkəmi verirdi. Elə bil saqqalını tumarladıqca fikrini cəmləşdirir, hadisələri yadına salırdı:

– Bəli... Yustinian həzrəti Məryəm eşqinə həmin gözəl deyri tikdirir. Xristian dünyasının zənginləri bu deyrə külli miqdarda nəzirlər, hədiyyələr, qızıl-gümüş əşyalar veriblər. Şamın yandırıcı, günəşdən dodaq çatladan isti havası bu yerlərdə sərin, mehli, saf sulu bir aləmə çevrilir. Bir gün dincələndən sonra Habilin dəfn olunduğu dağa çıxdım.

– O hansı Habildi elə?!

Sualı yenə də vəliəhd vermişdi.

– Hə... Həmin o Adəm oğlu Habildi ki, qardaşı Qabil onu öldürüb bu dağda basdırıb və Dəməşq – Şam şəhəri də onun – "İlk insan qəbrinin dağı"nın ətəyində salınıb.

– Habilin qəbrini də gördünüz?

– Yox... Görmədim. Qəbir özü durmur. Rəvayət durur, rəvayət yaşayır və dünyanın, ilk insanın, Adəm övladının yaranmasından danışan bütün tarixçilər Habilin qəbrinin məhz burada yerləşdiyini yazırlar. Dağ o qədər də uca deyil, amma bu hündürlükdən Dəməşq Şamını seyr etmək dünyanın bir çox ləzzətlərinə dəyər. Elə bil yamyaşıl bağdır, nəhəng bir sini içində sənin gözlərinin qarşısında cilvələnir. İxtiyarsız yadıma bir rəvayət düşdü. Deyirlər ki, peyğəmbərimiz (məclisdəkilər hamısı hər iki əlini üzünə sürtüb salavat çevirdi), bəli, peyğəmbər Dəməşqi fəth edəndə, aralıdan şəhərin gözəlliyinə valehliklə baxa-baxa "İnsan cənnətə yalnız bir dəfə girə bilər" deyib, şəhərə girmədən qayıdıb gedib. Şam Dəməşqdən bir qədər aralı Məlula dağında yerləşən qayada – mağara önündə tikilmiş "Müqəddəs Tekla" (Fekla) məbədi haqqında eşitmişdim. Dünyanın bu səmtində Məşriq zəmində şəfalı suyunun səsi yayılmışdı. Deyirlər ki, guya o yerlərdə haradasa zəngin bir ailə başçısının Tekla adında qızı varmış. Gizlicə bütpərəstliyimi, çoxallahlılığımı tərk edib isəvəliyi qəbul edibmiş. Onu zorla sevmədiyi bir



adama ərə vermək istəyiblər; qaçıb evdən. Arxadan atlı dəstəsi onu qovub tutmaq istəyirmiş. Məlula dağına yetişəndə ardınca gələnlərin ona çatacağını görüb diz çökür. Məryəm ananı imdadına çağırır. Dağ aralanır, qız atlıların gözü önündə ordaca qeyb olur.

Validə sultan da tələsik əllərini üzünə sürtüb salavat çevirdi:

– Möcüzənə şükür, ulu Tanrı!

Ustad danışdıqca Aybutanın qəlbini qəribə hisslər bürüyürdü. "Deməli, sevmədiyinə zorla arvad olmaqdansa, ölümü tərcih edənlər olub... Deməli, ata iradəsinə, ata hökmünə tabe olmamağa cürət edən qız var imiş bu dünyada... Həm də onun əməli cinayət deyil, qəbahət belə sayılmayıb, özü də müqəddəsləşdirilib... Deməli, ata hökmündən çıxmaq, öz əməlin, arzun üçün ata-ana yurdunu tərk etmək olarmış..." – düşündükcə yanaqları birdən-birə od tutub yanmağa başladı. Qəlbindən keçənləri "duyarlar"ın qorxusundan kirpiklərini aşağı – bu allaşan yanaqlara tərəf endirdi. Ürəyindən keçənləri qəlbinin dərinliklərində gizləyib yenidən diqqətlə ustadı dinləməyə başladı.

Zeynalabdin isə sözünə davam etdi:

– Tekla qız isə dağ ayrılan yerin bu biri üzündə sağ qalır, xilas olması şərəfinə o qədər gözəl, xeyirxah işlər görür ki, o qədər insana yardım göstərir, dadına çatır ki, isəvilər onu müqəddəslər silsiləsinə daxil edirlər. Bu deyri də onun şərəfilə ucaldırlar. Qayada qazılmış yeganə otaq "Müqəddəs Tekla"nın məzarıdı, ziyarətə gələnlər buraya nəzir verirlər. Otağın solunda dağdan – sal daş arasından sızan su heç vaxt lillənmir, iylənmir, zəncirə bənd edilmiş gümüş piyalə ilə adamlar bu sudan götürüb içirlər, şəfa tapırlar. Qayadakı mağara önündə tikilmiş bu zəngin, bu möhtəşəm, bu əzəmətli bina mənə vətnimdə Bakı ilə Şamaxı arasında yerləşən Mərəzə kəndinin yaxınlığındakı "Diri baba" abidəsini xatırlatdı. Təkcə sıldırım qayadakı təbii mağara önündə tikilməsi ilə. Bizim "Diri baba" türbəsi beş-altı əsr bundan əvvəl tikilib. Şair imiş Diri baba. "Diri" onun əbədiyyət nişanlı təxəllüsüymüş. Karvan yolundan azacıq aralıda tikilən o binada yurd-yuvasızlar, dərvişlər, gəzəri səyyahlar, səfərilər mənzilə çatmırsa, qışda qardan, çovğundan, yazda-payızda yağışdan, doludan daldalanır, yayda günəşdən kölgələnirlər. Mənim dərviş qardaşlarımla birlikdə "Diri baba"da daldalandığım olub. Oraya ətraf kəndlərdən ağbirçək anaların, ismətli gəlinlərin bişirib göndərdiyi halva-külçədən dadmışam. Çırağı həmişə yanır "Diri baba"nın, yol itirənlərə, yol azanlara yol göstərir "Diri baba".

Zeynalabdin nədənsə sanki xəyala daldı, fikri dağıldı, uzaqlara uçub getdi, xatirələrin dərin ümmanına daldı. Bu da hökmdarın nəzərindən yayınmadı. Öz vətəninin oğlu olan insanı doğma yurdundan süfrə başına qaytarmaq niyyətilə dilləndi:

– Çırağı həmişəlik yansın "Diri baba"nın.

Validə sultan "Amin" dedi.

Bu xeyirxah arzu səyyahın qəlbində səsləndi, bu xoş niyyət könlünü oxşadı və doğrudan da onu süfrə başına, müsahiblərinin yanına qaytardı.

– Tanrım hər diləyinizi qəbul etsin. Bir neçə günlük Şamda Əməvilər məscidinin hücrələrindən birində yurd saldım, gördüklərim hafizəmdə həkk olunsa da, yazıya aldım ki, təzə təəssüratla gələcək kitaba daxil olsun. Gündüzlər gedib "Həzrəti-Zeynəb camei" adlı çox zəngin, sizin bu yerlərin, xüsusilə Səmərqəndin mavi çini kərpicdən bəzəklərlə yapılmış məscidini, Səlahəddin Əyyubinin türbəsini ziyarət etdim.

Bu dəfə özünü saxlaya bilməyib sual verən, alimin sözünü kəsən Sultanın özü idi:

– Bu həmin o Səlahəddin Əyyubidi?

– Bəli, bəli, hökmdarım, tarixən tanıyıb bildiyiniz, səlib (xaç) yürüşlərinin qabağını alan, səlibçilərə qənim kəsilən Səlahəddin. Dünya şöhrəti qazanmışdı. Cəngavər hökmdar idi. Amma haqqına danışsan ədalətliydi də. Deyirlər Səlahəddin Əyyubi ölüm saatının yaxınlaşdığını duyanda, yatağında əmr edir: Carçılar gəlir, bir əsgər hökmdarın əmrilə ağ kəfəni nizənin başına taxıb irəli keçir, carçılar onunla birlikdə küçə, bazar, meydanları gəzib camaata belə elan edirlər: "Ey insanlar! Bilin, agah olun! Dünya hökmdarı, ölkələr fatehi Səlahəddin Əyyubi bu dünyadan köçür, apardığı bircə bu kəfəndir".

– Hə, eşitmişəm. Rəhmət olsun.

– İbrət olsun dünya malından ötəri başqalarına qan udduranlara.

Sultan diksindi, alim bu sözü onamı deyirdi, onamı eşitdirirdi? Ömrüylə gizlənpaç oynayır yoxsa! Amma bu fikirlərin birini də büruzə vermədi: "Vaxtı gələndə qulluğuna hesab çəkilər". İndi isə təmkinlə özünü saymazlığa vurub, qəzəb, kin büruzə vermədən maraqlı əhvalatlar dinləməyə qoyuldu. Zeynalabdin də daxilən diksinmişdi, hökmdar bu sözlərdən başqa nəticə çıxarda bilər, ondan inciyər, qəzəblənər, ölkəsindən, diyarından qovar, atdöşü sürgün edər, onun isə hələ bu yerlərdə görəsi işi çox idi; kənd-kəsəyin hamısını gəzməmiş, qumlar səhrasını, çiçəkləyən saksaulu görməmişdi. Bəlkə, elə acığı tutar ki,



onu məhv edə bilər. Qanlı minarədən atdırar. Amma nə olur olsun, hər insan bildiyini bilməyənə öyrətməlidir. Hər alim, arif zalimə nəsihət verməli, onu zülm etməkdən saqındırmalıdır. Bu onun – Zeynalabdinin şərəfli borcudur. O öz bildiyini, öyrəndiyini insanlara qaytarmalıdır. Yaxşıdan hamını xəbərdar etməlidir. Borcudur, borcu. Bəlkə də o, elə bunun üçün gəlib dünyaya. Odur ki, Sultanın hansı əhvali-ruhiyyə ilə susub, hekayəni dinləməyə davam etdiyinin fərqinə varmadı, varmaq istəmədi və sözünə davam etdi:

– Qərəz gəlib çıxırıq mətləb üstünə. Burdan yolum bir başa Hələbə idi. Daha ayrı bir yerə getmək xəyalım yoxdu. Doğrudan Dəməşq vilayətində mən Lətakiyyə, hazırda əlimdə məşğul olduğum "Xey" hərfilə başlayan Xoms kimi qədim şəhərləri, hələ cahilliyyət[1] dövründən qalan abidələri görə bilərdim. Xüsusilə Xoms yolunda əski yunan abidələri, yeraltı ibadətgahlar, yerüstü "sərdabə" – beşmərtəbəli 95 pilləli qüllə – sərdabə ki, oranın divarlarında zənginlərin ölənləri divardakı dərin taxçalara qalanardı... Xoms özü bu səhrada yaşıl oazisdi.[2] Burada böyük islam sərkərdələrindən Xalid ibn Vəlidin məzarı üzərində tikilmiş əzəmətli məscid... Axı bu yerlərə yaxın bir məkanda peyğəmbər salavatullahın (oturanlar yenə də hər iki əllərini üzlərinə çəkib salavat çevirdilər), şəxsən başçılıq etdiyi "Ühüd davası" cərəyan edib. Bu həmin Xalid ibn Vəliddi ki, əvvəllərdə, peyğəmbərin əleyhinə idi. Həmin bu yerdə məğlub olduqdan sonra Məhəmmədin əsas və sadiq müridlərindən, qılınc vuran sərkərdələrindən birinə çevrilib. Sonralar evində, xəstə yatağında ölməzdən əvvəl eşidib ki, onun yerinə başqası sərkərdə seçilib. Bu xəbəri eşidəndə deyib: "Mən heç də vəzifə davası eləmirdim. Mən islamın sıravi əsgəriyəm. "Evində, yatağında öləcəyinə təəssüflənərək: "Əsil sərkərdə döyüş meydanında ölməlidir" söyləyib. "Mənim bədənimdə bir barmaq qədər hamar, xəncər, qılınc, nizə yarası olmayan yer yoxdur. Bununla öyünürəm" sözləri də ona aiddir. "Xalid" sözü də "Xoms" sözü də yazmaqda olduğum "Bustanüs-səyahə"nin "Xey gülşəni"nə daxil olmalıydı. Amma nə isə, nədənsə ürəyim Hələbə tələsirdi. Heç Dəməşqdə bu bir neçə günü necə qaldığımı özüm də bilmirdim. Dincliyim dinclik deyildi. Mən onsuz da "hey" hərfi üçün də məlumat toplamalı idim. Amma Hələb mənim üçün ayrı bir məna daşıyır. Ora mənim həmvətənlərim üçün müqəddəs məkan

[1] Şərq tarixçiləri İslamiyyətə qədərki dövrü belə adlandırırlar.
[2] Vahə

idi. Orada vətənimin qüdrətli oğullarından biri yatırdı. Bəxti gətirmişdi də, gətirməmişdi də, tale ona görünməmiş bir istedad bəxş etmişdi. Şeir istedadı. Şair idi. İncə ürəkli, təmiz, pak, ülvi bir məhəbbət tərənnüm edirdi qəzəllərində. Bir yuxu kimi dadlı, bir doğma ana dilindəki şirinliyi can yandırırdı, könül ovlayırdı, oxuyanı da, dinləyəni də ovsunlayırdı. Amma tale həmçinin ona yağı kəsilmişdi; bəxti onda gətirmişdi ki, tale ona üsyankar bir ağıl, ağılirişməz, heç bir şeyi qəbul etməyən aydın bir zəkaya uyğun coşqun ürək vermişdi. Onun zamanından bəri insanların çoxu, xüsusilə ruhani qismi onu dərk etməmişdi, onu dinsizlikdə Allaha şərik qərar verməkdə günahlandırmışdılar. Nəsimi... Bu "səhər mehi"ni diri-diri soymuşdular, eşitməmiş olmazsınız.

– Sübhanallah...

– Buy Allah sən saxla...

– La ilahə illəllah...

Məclisdəki yaşlıların hərəsinin ağzından bir nida qopdu. Lakin Zeynalabdin artıq fərqində deyildi, axı o, Nəsimidən danışırdı:

– Nəsimi Seyyid İmadəddin... Dərvişə çevrildi, lap o yaxşı bildiyiniz "Aşıq Qərib" dastanında olduğu kimi gəlib Hələb şəhərinə çıxdı. Buranın insanlarına, buranın təbiətinə, başı göylərdən, buludlardan nəm çəkən, özülü yerin dərinliklərinə cuman qalasına, hər qəhvəxanası bir ədəb və şeir məclisi olan Hələb şəhərinə vuruldu. "Ayrı düşdüm vətənimdən, sənə gəldim, Hələb şəhri" deyən Qərib kimi Hələbdə yerləşdi. "Əlimdən getdi muradım; yanıram, Əslim, yanıram" deyə-deyə Dədə Kərəm Hələbdə yanmışdı; "Ana, Kərəm yandı deyin ağlaram" deyib Kərəmin külündən saçları qığılcım alan Əsli də burda, Hələbdə külə dönmüşdü. El içində Hələbə, onun qəribsevən, haqq aşığı sevən insanlarına nədənsə böyük məhəbbət var idi; bu da iki böyük məhəbbət dastanında özünə yer tutub. Bəlkə də, bu dastanlar elə Nəsimi şerinin Hələbdə el içində çox yayılması və tarixi faciəsi, neçə əfsanənin mövzusu olmuş ölümü Hələb ilə bağlıdır. El ustadlarına görə bir zamanlar Hələbdə şeri, aşıq sənətini sevən Kərəmi Əsliyə qovuşdurmağa can atan, Qəribi Sənəmə yetirən, Gülxan darğalar, paşalar var imiş. Amma Nəsimi Hələbə gələndə əksinə şerin qüdrətindən qorxan, işıqlı nə varsa onu məhvə çalışanlar çoxdu. Hələb qəhvəxanaları, Hələb karvansaraları, Hələb bazarı indi işıqlı insanların yeriydi; zamanın ötmüş, öz çağını arxada qoymuş gənclər bu yerlərdə toplaşır, Nəsimi şerini oxuyurdular. Adətən bu şeirlər bir növ dua, bir növ o çağ cavanlarının ibadəti idi. Böyük mövlana Cəlaləddin Rumi əsərləri mövləvilərin ibadət himni



olduğu kimi. "Həq mənəm, həq məndədir, həq söylərəm" deyən Nəsimi tərəfdarı cavanlar, Mənsur kimi dara, İsa kimi çarmıxa çəkilsələr də həq tərəfdarı, həqiqət tərəfdarı olmaqlarını söyləməkdən çəkinmirdilər. Onlar Nəsimi ilə birlikdə özlərini heç də (növzənbillah) Allah adlandırmır, həqqin, həqiqətin insan oğlunun varlığında, bu həqiqətin insan vücudunda olduğunu söyləyirdilər. Yoxsa "həq mənəm, həq məndədir" – hələ "mən Allaham" demək deyildi

Söz bura çatanda mənanı o qədər də dərindən dərk etməyən, amma bu sözlərdə nə isə bir küfr duyan Validə sultanla Aytoğan xatun qaşlarını çatıb, əllərini üzlərində gəzdirdilər. "La ilahə illəllah" deyib ürək döyüntüsü, maraq və qorxu qarışıq bir hisslə səyyaha qulaq asmağa davam etdilər. Səyyah elə bil onları unutmuşdu, sanki Turxan, Aybuta kimi gənclərin toplaşdığı mədrəsə otağında doğma elinin tarixindən, ədəbiyyatından dərs danışırdı; deyirdi:

– Mənsur ibn Həllac da, Nəsimi də, onlardan əvvəl İsa da ən əzablı ölüm anında "həq mənəm, həq insandır, mən insan oğluyam" demişlər, həqqə varan insanın ən uca zirvəyə irişdiyini söyləmişlər. Bunu anlamaq istəməyən, insan mənliyini alçaldanlar isə bu uca bəşər oğullarını öz taxt-taclarını, öz ali mövqelərini qorumaq üçün məhv etmişlər. O da Qərib kimi, Kərəm kimi, daha doğrusu Kərəmdən, Qəribdən əvvəl "hər gecə, hər gündüz Hələb şəhərində qüdrət şərabını" içmişdi. Bu "qüdrət"dən qorxanlar onu vətənindən uzaqlarda, qərib torpaqda məzara gömmüşdülər. Bilmək istəyirdim görüm beş-altı yüz il öncə Hələbi qazan kimi qaynadan, Hələb bazarına, Hələb karvansara və qəhvəxanalarına arı uğultusu salan o aləmdən, o adamlardan, o hürufilərdən nə qalıb, bir nişanə qalıbmı? Xüsusilə "Divan"ı islami qadağalara baxmayaraq, əl-əl gəzən Nəsimidən bir iz, bir nişanə qalıbmı?

Bu yerdə Zeynalabdin sanki nə sirsə yuxudan ayıldı, Sultana müraciətlə soruşdu:

– Nəsimini sizlərdə, buralarda da tanıyan var deyəsən?

Sultan fikirli-fikirli cavab verdi:

– Vardır. Şairlər... Özbək, Xarəzm şairləri Nəsimini yaxşı tanıyırlar. Türkmənlər də... Hərdən bizdəki şeir məclislərində söhbət düşür ondan. Eşitdiyimə görə bizdə Nəsimini tanımayan, onun adını çəkməyən şair az tapılar. Hətta deyirlər ki, onun bir qəzəlinə bizdə on bir şair nəzirə yazıb.

Zeynalabdin maraqla soruşdu:

– Eləmi?

Öz məlumatlılığından qürrələnən Sultan dedi:

– Hə... Şairlərimizdən Əfsus, Fani, Xəclət, Fəzli, Əda, Bəhcət, Tayib, Məzmər – yenə bir neçə ayrısı nəzirə yazanlardandır.

Səyyah həmvətəni üçün iftixar hissilə köks ötürüb, sözünə davam etdi:

– Maraqlıdır... Hə. Gəzəri dərvişlərdən eşitmişdim ki, əski, möhtəşəm Hələb qalasının dibindəki qədim evlərdən birində Nəsiminin məzarı durur. İstəyirdim bunu öz gözlərimlə görüm, o qərib məzarı ziyarət edim. Canımı da üstünə qoyub şeirlərini oxuyum. Dərbədər olsa da, uca yerli bəşərdost insan sözünü sığmadığı iki cahan qədər ucaldan Nəsiminin, bəşər oğlunun məzarına üz sürtüm, "Həq mənəm, həq məndədir, həq söylərəm" deyim, "Gətir, gətir, gətir ol badeyi-səfapərvər" söyləyim, "Məndə sığar iki cahan..." oxuyum... Xilqəti (insanı) Xaliqin (Allahın) səviyyəsinə yüksəldənin cismi də olmasa, məzarı başında ruhu, bəlkə də, mənim səsimi eşitdi...

Dəməşq Şamından Hələbə gedən karvanlardan birinə qoşuldum. Çoxu ərəb, türk tacirləriydi. Aralarında yəhudi, firəng tacirlərindən də var idi. Bəzirgan Ədnan bəylə elə vaxtlaşmağa gedəndə ürəyimiz bir-birini tutmuşdu. Mənim az miqdar malımı Hələb bazarında xırıd eləməyi də boynuna götürmüşdü. Bu sinnə gəlmişəm – hələ də ticarətdə səriştəm yoxdur. Alış-veriş, alıb-satmaq, alıb-aldatmaq əlimdən gəlmir. Görünür bunun üçün də təcrübə azdır, xüsusi istedad lazımdır. Məndəysə belə bir istedad yoxdur. Ömrüm uzunu səyahətlərim boyu gün ruzimi qazanmaq, ziyarətgahlarda, xanəgahlarda paylanan ehsanlardan asılı olmamaq (bunun nə demək olduğunu yaxşı bilirəm), dərviş qardaşlarımın ruzisinə ortaq çıxmamaq üçün müəyyən ölkələrdə, şəhər və kəndlərdə rəvac olan maldan bəzirganlar mənim xahişimlə alır və yeri düşəndə tacirlərə bir yerdən satır, az-çox qazancını mənə verirdilər. Uzun illərin səyahəti boyu yollarda bir neçə belə halal dost qazanmışdım bəzirganlar, sarbanlar içində. Onların çoxu təmizürəkli, gözəl əxlaq sahibi, savadlı insanlardı. Elmin, maarifin, şerin ölkələr, xalqlar arasında yayılmağında böyük iş görürlər. Bir neçə dil bilirlər. Karvanda hərəsinin yanında sevib-seçdikləri bir qədər kitab olur məfrəşdə. Hər böyük-kiçik şəhərə girəndə vaxt eləyib kitabsatanlara dəyirlər, təzə əlyazma divanı aşiqi olanları var... Qərəz bəxtimdən belə bir türk tacirinə rast olmuşdum. Hələb səfərimdə. O üç günlük yolda doqquz mənzil adladıq və hər mənzildə iş-gücünü yoluna qoyan Ədnan məni



tapırdı, irəlicədən sifariş verdiyi qəhvəni içir, yeməyi yeyir və söhbətə girişirdik. Çoxu da şeirdən, şeriyyətdən gedirdi. Mənzillərdən birində boğçalara büküb kiçik heybəyə qoyduğu, sonra da iri məfrəşin içində gizlətdiyi iki əlyazısını bircə-bircə göstərirdi. Hər əlyazmasını verdikcə diqqətlə üzümə baxır, qiymətləndirməyimi səbirsizliklə gözləyirdi. Əvvəlinci əlyazması "Səyahət, Ya Rəsul Allah" deyə ömrünü səyahətlərdə keçirmiş Övliya Çələbinin səyahətnaməsi idi. Bu misilsiz səyahətnamənin başqa nüsxələri mənə tanış idi. Ondan xeyli bəhrələnmişdim. Məni daima səyahətə qidalandıran mühüm, cahanşümul kitablardan biri, bəlkə də birincisi idi, ikinci əlyazmanı, mənə elə gəlirdi ki, bəzirgan Ədnan çox böyük ehtiyatla, ətrafını gözdən keçirəndən sonra verdi. Adına baxınca əllərim titrədi. Bu mənim həmvətənimin, məzarını görməyə can atdığım Nəsiminin "Divan"ı idi. Hər ikisini də İstanbulda Sultan Mahmudun saray kitabxanası üçün alıb aparırdı.

– Nəsimi... Nəsimi – pıçıldadım.

– Tanıyırsız?

– Həmvətənimdir. Hələbə də məzarından bir nişanə qalıb-qalmadığını görmək, baş qoyduğu, can təslim etdiyi torpağı ziyarətə gedirəm.

– Deyirəm axı... Qəbul olsun. Hələbdə Nəsimi təkyəsinin səmtini bilirəm – dedi.

Həyəcanla soruşdum:

– Qəbri görmüsünüz?

– Yox, görməyinə görməmişəm. Amma ötənlərdə Hələb bazarında bir dərviş ilə rastlaşdıq. Elə gətirdi ki, söz hürufilərdən düşdü. Çoxdandı ki, Nəsiminin əlyazma "Divan"ını axtarırdım. Dərviş mənə Hələbdə onların, o təriqət sahiblərinin bir təkyəsi olduğunu söylədi, səmtini nişan verdi. Doğrusu o zaman vaxt eləyə bilmədim. İlk dəfə sizinlə birlikdə, böyük maraqla gedərəm.

Sonra da gülə-gülə əlavə etdi:

– Görürəm axı... Ticarət üçün getmirsən, mal-madarın da ki...

Qəlbimə dəymək istəmədi görünür; sözünü bitirmədi. Mən əlyazmanı vərəqləyirdim, fikrim ondan aralanmışdı; amma sualı elə verdi ki, cavabsız keçinmədim.

– Bəs oradan, Hələbdən sonra yolunuz hayanadı?

– Görək... Xomsa getməliyəm...

Qızğınlıqla danışdı:

– Nə deyirsiz, canım? Xoms nədi? Karvanımız Türkiyəyə gedir. Gedək bizimlə. İranlılar İsfahana "Nisfi-cahan" (dünyanın yarısı) adını qoyanda İstanbuldan bixəbər olublar. İstanbul dünya içində ayrıca bir dünyadı. Sonra da Konyaya gedərik. Mənim vətənimdə belə bir məsəl var: "Gəz dünyanı – Gör Konyanı". Gedərsiniz. Ulu şair və alimimiz Mövlana Cəlaləddin Ruminin məqbərəsini görərsiniz. Mövlananı tanıdığınıza şübhə eləmirəm.

Bu son dəlil qəlbimə yatdı. Onsuz da mən Türkiyəni səyahət etməli, gəzməli idim. Buna söz yox. Amma belə, Ədnan kimi can dostun olmağa başlayan bir adamla, qanan, duyğulu, ağıllı, dünyagörmüş insanla səyahət etmək səyahətin zəhmətini yarıbayarı azaltmaq deməkdir; uğur deməkdir.

– Olsun, siz deyən olsun, Ədnan bəy, – dedim, – hələ bir Hələbə çataq... Görək...

Yenə də həvəslə, qızğınlıqla səsləndi:

– Çatacayıq, hələ lap o yana da keçəcəyik...

Bir vaxt Hələbdə yaşayan böyük şairimiz Nabi[1] İstanbulun tərifində deyib:

Elm ilə mərifətə cayi-qəbul,
Olmaz illah ki, məgər İstanbul.

İstanbula gedək. Elm, mərifət adamları ilə də görüşərsiniz. Məmnun olarsınız.

– Nə sözüm?

Şamdan Hələbə gedən yol cansıxıcı, sarı-boz qum səhralarıdır. Təkbir uzaqlarda görünən kəndmidir, sərabmıdır; Karvançılar ağac deyil, bir kol belə görünməyən düzəngahda yolu asan tapa bilsinlər deyə hər fərsəxdən[2] bir xüsusi nişanlar qoyublar. Bəzi yaxın kəndlərdən nəziri olanlar, yol üstündəki bu nişangahların yanına "ehsanı-şühhəda"[3] – su dolu meşk tuluq qoyublar... Təsadüfi yolçu üçün, suyu tükənmiş karvan üçün...

...Hələbə qaş qaralanda çatdıq. Məşhur "Yeraltı hələb bazarı" səmtindəki ikimərtəbəli "Yuca han"[4] karvansarasına düşdük. Ədnan

[1] L. Nabi – türk divan ədəbiyyatı şairi
[2] Təxminən altı kilometr
[3] Şəhidlər üçün ehsan
[4] Uca karvansara



bəylə iki yanaşı hücrədə yerləşdik. Ədnan bəy elə gəldiyi gecə əlaqədə olduğu tacirlərlə öz hücrəsində görüşməli nırxdan, qiymətdən xəbərdar olmalı, hal-əhval tutmalı, bazarın vəziyyətini bilməliydi. O axşam mən ancaq şam işığında Hələbə gələn yollarda gördüklərimi qeyd elədim. Səhər namazını Ədnan bəylə birlikdə qılıb yola düşdük. Yüksək bir təpə üstündə qərar tutmuş nəhəng Hələb qalasının yanına çatdıq. Qalanın ətrafını gəzib dolanmaq xeyli vaxt apardı; sonra qaladan azacıq aralandıq, yaşıl ağaclar arasında görünən yastı-yapalaq, birmərtəbə evlərin arası ilə uzanan küçəyə döndük, birdən Ədnan bəy bir darvaza önündə dayandı. Daş hasarlı həyətin darvazası üstündə "Təkyeyi-Nəsimi" sözləri həkk olunmuşdu. Yosun bağlamış, göyərmiş daşlar... Həyətdə xeyli qəbir var... Bizi ağ saqqallı, nurani üzlü bir ərəb qarşıladı. Ərəbcə danışır, Ədnan bəyin türk olduğunu biləndə ara-sıra türk ifadələri işlədirdi:

– Ulu babamız, mürşidimiz Seyid İmadəddin Nəsimi təkyəsinə səfa gətirmişsiniz. – Bizə xoşgəldin eləyib dedi:

– Bu həyətdə gördükləriniz onun nəslinin davamçısı – müridlərin məzarıdır. Öz sənduqəsi içəridədir. Mülkün sağındakı qapını göstərdi:
– Bu otaq həqirin (yəni özünün) külfətinə məxsusdur. Soyadımız Nəsimidir. Bəndə (yəni özü) o nəslin on doqquzuncusuyam. Burada yaşayıram. – Sol qapını göstərib, əlavə etdi:

– Bu böyük təkyəgah otağında isə öz məzarıdır.

"Bu həyətdə Nəsimi və hürufilər dolaşıb, – düşünə-düşünə otağa keçdim. – Bu otağın torpaq döşəməsinə Nəsiminin ayaqları dəyib. Bu yeganə nəfəslik – kiçik pəncərədən təmiz hava alıb, qalanın bir parçacığını seyr edib. Bu otaqda, bu səqf altında Nəsiminin səsi eşidilib, şeirlərini özü oxuyub, müridləri oxuyub" – fikirləri ürəyimdən keçə-keçə otağı seyr edirdim, geniş uzunsov, dördkünc otağın bir tərəfində böyük bir sənduqə qoyulub, daşın üstü şəbəkəli ağac və sənduqəyə tutulub. Onun da üstündən üzəri ayələr tikməli ipək örtük çəkilib. Məzarın dövrəsini gəzdikcə təqt ilə şeirlərindən oxuyurdum və necə oxuyurdumsa çağdaşım Nəsimi ilə Ədnan bəy ağlayırdı. Dayandılar, mən də dayandım; üzümüzü cənazə namazında olduğu kimi qəbrə çevirib "Fatihə" surəsini oxuduq. Həyətə enəndə yenə də "fatihə" verdik (gələndə darıxmışdım), "cavan Nəsimini" də özümüzlə götürüb yaxındakı Hələb qəhvəxanalarından birinə getdik. Sözarası Ədnan bəy qocadan Nəsimi əlyazmalarından bu yerlərdə olub-olmadığını

soruşdu. Qoca dodaqaltı "elə unutdurmayıblar ki..." mızıldandı, ucadan isə:

– Yox, yox... – dedi, – buralarda türki oxuyan... Doğrudur Hələb paşasının sarayında, bir də türklər arasında... Amma ərəblər... Biz... Yox... Onu heç şair kimi tanıyan qalmayıb ərəb içində... Hürufi məzhəbliliyinə görə adı da unutdurulub...

Mənə elə gəldi ki, o hələ də qorxur, bu o nəslin, o qovmun, o əqidə dostlarının üzərinə qonmuş qorxudur. Edamından sonra Nəsiminin cənazəsini dostları alıb buraya gətiriblər; öz ibadət yuvasında, öz ocağında dəfn ediblər. Yer üzərində ikinci mislini görmədiyim Hələb qalasının uca, əzəmətli kölgəsindəki xırdaca küçədə, xırdaca təkyə, xırdaca məzar... O nəhəng, o əzəmətli, o iki cahana sığmayan dahinin son yeridir. Məryəm oğlu İsa çarmıxa çəkilmişdi. Yoldan keçən, onu tanımayan birisi soruşdu:

– Ey bu ağır əzabı çəkən, kimsən?

Cavab verdi:

– Adəm oğlu, bəşər oğluyam, insan oğluyam.

Nəsimi dərisi soyulanda sordular:

– Neçin saralırsan?

– Günəş qürub edəndə saralar – dedi. – "Ənəl həqq". İnsan oğlunu həqqəcən yüksəltdi.

Sənə, səni yetirən torpağa, səni yaşadan insanlara, məzarını beş yüz ildən bəri darmadağın olmağa qoymayanlara halal olsun.

Adama bir fincan qəhvə içib Ədnan bəylə mən yeraltı Hələb bazarına, qoca isə evinə yollandı.

Hələb bazarı insanları qar-yağışdan, qışın soyuğundan, küləyindən, yayın yandırıcı günəşindən qoruyan nəhəng bir ərazidə – yerin dərinliyində yerləşir. Həm də buraya pillələrlə düşmürsən, darvazadan girəndən sonra yer ayağının altında hiss olunmazcasına üzüaşağı gedir və sən fasiləsiz – düzdə yeriyə-yeriyə enirsən. Bu böyük bazar heyrətamiz dərəcədə təmiz, xoş havalıdır, haradansa xoş bir meh alnını oxşayır. Sağa, sola, irəli küçələr, dalanlar, döngələr gedir və hər sənətin, hər ticarətin matahının öz cərgəsi yerləşdiyi küçə, döngə var. Bu fasiləsiz ticarət, fasiləsiz get-gəl aləmində bir qəribə sakitlik var. Bağırtı-qışqırtı eşitməzsən.

Sultan qəfil onun sözünü kəsdi.

– Bəs Bağdad, Xorasan, Buxara, Səmərqənd, İstanbul, bəs vətəninizin bazarları?



– Düzü gördüklərimin hamısı gözəl, təkrarolunmaz, özünəməxsus gözəlliyə malikdir. Hərəsinin öz xüsusiyyəti var. Məsələn, Şamaxı bazarı sənət növlərinə görə müxtəlif açıq küçələrdə yerləşir; Xorasan bazarı da get-gəlli küçələrdir, amma üstü örtülüdür. Səmərqənd bazarı da Şamaxı bazarı kimi hay-küylüdür. Tabaqçıların, suçuların, ayaqçıların, bir sözlə, ayaqüstü şey satanların, eləcə də malını tərifləyən, alıcı səsləyənlərin, qiymət üstündə çənə-boğaza çıxanların əlindən ağız deyəni qulaq eşitmir. Hamısı gözəldir, hamısı əlvandır bu bazarların. Yeniliklər, xəbərlər burda eşidilir, gəzəri oyunbazlar burda açıq havada tamaşa göstərir. Təzə cülus etmiş "Əliyallahi" dərvişlər meydan sulayır. Nəsiminin dindən dişarı elan olduğundan bixəbərlər onun gəncliyində Əli rəziyyalahı haqqında qəsidələrini oxuyurdular. Bir sözlə mənə elə gəlirdi ki, Bağdadda gördüyüm, deyilənə görə Harun ər-Rəşid zamanından mövcud olan "Suk ər-Rəşid" (Rəşidbazarı) dən sonra məni heç bir bazar heyrətə gətirə bilməz. Amma Hələb bazarı... Hələb bazarı... Onu əməlli-başlı tanımaq üçün həftələr, bəlkə də aylar lazımdır. Bu zəngin bazar əfsanəvi dünyadır, canlı-qanlı azman vücuddur, öz qanunları, öz həyatı ilə yaşayır. Burada dünyanın hansı millətinə desən rast gələ bilərsən. Burada yer üzündə istehsal olunan bütün şeylərdən, nə istəsən tapılar. Burada dəyəri milyon-milyonları keçən zərgər cərgəsində insanın ağlını uçuran sənət əsərləri, bəzək əşyası var. Zərli əlvan parça, əl işləri... Hərəsi bir qiymətli incidir. Ustalar elə buradaca gözünün önündə tuncdan, misdən elə şeylər düzəldirlər ki, hər biri qızıldan ləl-cavahiratdan qiymətlidir. Saymaqla, deməklə başa gəlməz. Onsuz da hekayətimiz çox uzandı, yordu yəqin sizi.

Sultandan əvvəl qadınlar səs-səsə verdi:

– Yox... Yox.

Sultan isə övladlarına baxıb söylədi:

– Nənə-bacı nağılları yorub onları. Belə səyahətlər, uzaq-uzaq ölkələr haqqında hekayətlərə daha çox maraq göstərirlər.

Vəliəhdin, Aybutanın üzündə, səsində, gözlərində müşahidə etdiyi maraq, Sultan atanı bu fikrə gətirmişdi, qəlbində "Hə... böyüyüblər... Artıq uşaq deyillər" – düşündü. Ucadan sözünə davam etdi:

– Bəli, vəliəhd heç olmasa bu marağını kişilər məclisində, mənim yanıma gələn bəzirganlar, adlı tacirlər, diyarbədiyar dünyanı dolaşan sizin kimi dərviş cildində alimlər, şairlər görür, eşidir... Xatunlar üçün

isə belə məclislər nadir ələ düşür. Hekayətiniz üçün var olsun ustad, süfrəyə yaxın oturun. Bayaqdan bəri sizi söhbətə tutmuşuq, dilinizə bir şey vurmamısınız. Buyurun.

Hansı bir daxili hissin əmriləsə Zeynalabdin süfrədən imtina etdi, üzür dilədi:

– Lütfən bağışlayın, hökmdarım, izin verin gedim. Yemək meylim yoxdur.

O sultan xanımları ilə onun hərəmxanasında yemək yeyə bilməyəcəkdi. Sultan da etiraz etmədi. Alim qalxdı, Sultana və məclisdə ən yaşlı adam olan Aytoğan xatuna tərəf baş əyib, arxasını süfrəyə çevirmədən geridədi və otağı tərk etdi.

Otağına çəkiləndə çox əzgin, yorğun olmasına baxmayaraq, "Bustanüs-səyahə"ni qarşısına çəkdi. Bugünkü söhbət zamanı yadına düşmüş bir görüş haqqında yazmağa başladı. Hələb ağsaqqallarından Həsən əfəndi ilə müsahibə idi bu qeyd:

"Hələb böyüklərindən Həsən əfəndi...

Bir gün fəqir ondan soruşdu:

– Doğruluğun mənası nədir və yalanın mənası nədən ibarətdir?

O cavabını buyurdu:

– Doğruluq və yalanın mənasında ixtilaf var. Bəziləri deyir ki, doğruluq bir kəlamdır ki, onun məzmunu həqiqətə müvafiq olsun. Yalan isə bir kəlamdır ki, həqiqətə mütabiq olmasın... Bir camaat deyər ki, doğruluq bir kəlamdır ki, danışanın etiqadına mutabiq olsun, yalan odur ki, danışanın sözü onun etiqadınca müvafiq olsun.

Hər iki yolda yalan əqlə və şərə ziddir"[1].

Bu gün o yalan danışmamışdı. Söylədiklərinin hamısı həqiqət idi və əqidəsinə, etiqadına uyğun idi. Amma nədənsə özündən çox narazıydı. Ona elə gəlirdi ki, söhbəti dinləyicilərin nə anlayışına, nə də etiqadına uyğun idi. Xüsusilə Sultanın.

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri, səh.907.



## ƏBƏDİYYƏT MAHNISI

O bir olan vahid Allaha inanırdı. Tərbiyəsi beləydi. Amma onun üçün Quranca müqəddəs və "bir olan Allahı haq bilən" yəhudi və xristianların da dini haq idi. Dəfələrlə məscid olmayan xristian vilayətlərinə yolu düşəndə kilsəyə və ya deyrə (monastıra) girib baş papadan, rahibdən izin almış, göstərilən yerdəcə öz qəlbində "İlahisi ilə söhbətini eşitmiş", dua-sənasını yerinə yetirmişdi. Yaxşı ki, yol yoldaşı, "dostu" dərvişlər, "din fədaisi" fanatiklər bunu bilmirdi.

Karvan gedir, o düşünürdü: "Yaxşı ki, zənglər səslənir, qəlbimin səsini eşitmirlər. Yoxsa ətimi aşıqca, qanımı qaşıqca edərlər. Bəli... Qəribə qurulub insanın işi. Bu uzun yollarda, o saysız-hesabsız səyahətlərdə aldığım dərslərdən biri də bu oldu ki, hərə bir cür danışır eyni həqiqəti... Biri öz gözü ilə gördüyünü, birisi eşitdiyini həqiqət kimi qələmə verir. Hərə öz dinini, öz etiqadını, öz imanını, əməlini həqiqət sayır: Şükür ki, o bunu etməyib, etməyəcək də. Gözlərilə görüb əmin olduqlarını "gördüm", görməyib eşitdiyini "Fəqir bunu görməmiş, adamlardan eşitmişdir" deyə yazıb "Riyazüs-səyahə"də də, indi əlində topladığı, yazmağa başladığı... "Hə, əvvəlimci cildi Şirazda dostum Hüseynəli şahın nəzarəti ilə xəttat köçürür. Görək... Məhəmmədəli qardaşım bu səfərdən Şiraza dönəndə nə görüb, nə yazacaq..." Kitabxananın ixtiyarı Zeynalabdinə veriləndə sanki dünyanı bağışladılar ona. O, bilik aşiqi idi. Gəzdiyi ölkələrdə, qonaq qəbul edildiyi bütün evlərdə, saraylarda ilk öncə kitablar, əlyazmaları ilə maraqlanırdı. Bilirdi ki, ulular deyib: "Bilik insanın ən yaxşı dövlətidir. Axı o səni çətinliklərdən qoruyur; dövləti isə sən qorumalısan". Odur ki, hər yerdə biliyə, keçmiş alimlərin yadigar qoyub getdiyi əsərləri oxumağa, öyrənməyə can atırdı və bu bilik səyahəti boyu ona nə qədər uğurlar qazandırmış, bağlı qapılar açmışdı üzünə. Geyindirmiş, yedirtmiş, hər bir ölkənin, şəhərin ən uca mərtəbəli insanları; alimləri, şairləri, xəttatları, ağılbənd hökmdarları ilə görüşmək, bəzisi ilə dostluq binası qoymaq üçün imkan yaratmışdı.

Burada da elə. Sultan, on iki mindən ziyadə əlyazması mühafizə olunan kitabxananın açarlarını ona verəndə daha bir bilik, fəzilət qapısı açıldı üzünə. Zeynalabdin hər yerdə olduğu kimi bu kitabxanaya da titrək ürəklə girdi. Burada nələr var idi. Nələr yox idi? Divarlar boyu nəsb olunmuş qəfəsələrdə cild-cild, qalın-nazik, dəri cildli, meşin, ipək,

gümüş, "sandıqça" cildli əlyazmaları elmin müxtəlif sahələrinə görə düzülmüşdü. Xüsusi qiyməti olan, nadir, müəyyən əlyazmaları ön divara söykənmiş, dəmir üzlüklü ağır sandıqlara, "dəmirağacı"ndan düzəlmiş iri qutulara yığılmışdı; cücülərdən, tozdan, kifdən mühafizə olunur – qorunurdu.

Ön divara söykənəkli sandıq və qutulardan bir qədər aralı alçaq miz qoyulmuşdu. Mizin üstündə müxtəlif ölçü və biçimli, əlvan naxışlı qələmdanlar, qamış qələmlər, Səmərqənd kağızı, mürəkkəb və müşk piyalələri düzülmüşdü. Mürəkkəbə müşk qatmaq dəb idi, yaxşı rəng və ətir verirdi müşk mürəkkəbə.

Hər səhər Zeynalabdin kitabxanaya girəndə nökərlərdən kim isə cəld cumub çıraqla onun yolunu işıqlandırırdı. Nökər də bilirdi ki, "alim ağa" kitab qoxusu verən bu havasız otaqda yeməyi-içməyi, dincliyi unudub Allah bilir haçanacan "kora-kor" çırağın işığında oxuyub yazacaqdı...

Həyat ona nə indi bu səfərlərdə, nə də gələcəkdə sevincli, istirahətli bir ömür verməyi vəd etməmişdi, o elə həminki dərvişməcaz səyyah idi, həmincə zənginliyi, dövləti elmin dərinliyində görən alim filosof – coğrafiyaşünas mütəfəkkir idi, həmin şair Təmkin idi ki, müsahibləri, dinləyiciləri karvan düşərgələrində özü kimi calayi-vətən alimlər, şairlər, filosoflar idi. Belə də olaydı gərək. Ayrı cür ola da bilməzdi. O bu taleyi, bu qədəri, bu "ələmi" ilk yaradılışından özü bəyənmiş, özü götürmüş, səadətdən, dinclikdən, var-dövlətdən özü imtina etmişdi. Sükunət istəsəydi – dayısı qızını və ya Altıntellini alıb sakit ömür sürərdi. Ehtiras əsiri olsaydı Süheylanın ekvator günəşi qədər yandırıcı qoynundan çıxmazdı. Var-dövlət istəsəydi – uğuruna gələn hökmdarlardan birinin, ən səxavətlisinin təklifini qəbul edib sarayda qalar, həm dövlətə, həm şöhrətə nail olardı.

Zeynalabdinə Pakistanda, Çinəqərdə, Portabçand, Hindistan paytaxtı Dehlidə Böyük Moğol hökmdarlarından Şah Aləm, Dəkkə hakimi Nasirüddövlə, Misir hakimi İbrahim bəy, Türkiyədə Sultan Mahmud və "nemsə konsulu" Tehranda Fətəli şah sarayında qalıb yaşamağı təklif etmişdilər. Lakin saray kitabxanalarında bir qədər işləyib, o cazibədar xəzinələrdən nəfsi istədiyi qədər götürdükdən sonra sarayları tərk etmişdi. O möhtəşəm divarlar onun arzu və istəklərinə – bu gözəl dünyamızı görüb öyrənmək və gələcək nəsillərə əsər yadigar qoymaq arzusuna dar gəlmişdi. Alim Zeynalabdin, – şair Təmkin saraylara sığmamışdı.



O dünyadan bir dünya qədər bilik axtarırdı. Cahanı gəzməyə çıxdığı ilk gündən insanlarla münasibəti ona bir şeyi qətiyyətlə öyrətdi: İnsan dini, milli mənsubiyyəti, irqi, cəmiyyətdə tutduğu mövqeyi, hətta istedadı ilə belə fitri deyil, yalnız və yalnız öz ağlı, kamalı, bilik və əbədi zəhməti ilə seçilir. Şair Təmkin qürurluydu, təmkinliydi, gözü tox idi. Heç kəsdən havayı, əvəzini vermədən, bir şey qəbul etməzdi. İndi də Sultanın çörəyini, qonaq otağını bir şərtlə qəbul etdi ki, saray kitabxanasını işləyib səliqəyə salmaqla həm nadir kitablar oxuyub biliyini artırsın, həm də yediyi çörəyin müqabilində saray kitabxanasını görkəmə salsın.

O bilirdi ki, bəzi hökmdarlar, sultanlar və əmirlər ona xüsusi hörmət üçün deyil, onun elminin dərinliyi, istedadının böyüklüyü üçün deyil, bəlkə də "bax, filan əmir, filan sultan alimlərə hörmət eləyib" şöhrətinin yayılması üçün edirdi. Zeynalabdin bunu yaxşı anlayırdı. Lakin sönməyən kitab həvəsi onu bu xəzinə sahiblərinin təklifini qəbula məcbur edirdi.

Arabir gah yollarda, gah az müddətə qaldığı saraylarda həqiqi dostlar tapırdı. Bunlarla uzun müddət yazışır, əlaqə saxlayır, kitab, fikir mübadiləsi edirdi. Əksərən rast gəldikləri saraylarda da, yollarda da paxıl, inamsız və... çəkişən, rəqabət edənlər olurdu. Sanki kiminsə yerin dar eləyir, tuturdu. Belələrinə qarşı soyuqqanlı, sərt olurdu, sonra da tez unudurdu.

Əsərlərinin bəzisinin üzü köçürülüb, əldən-ələ gəzirdi. Vətənin, boya-başa çatdığı Kərbəlanı, Bağdadı görməsə də, az-az rastlaşsa da o yerlər, oraların alimləri, şairləri olurdu. Qardaşı Məhəmmədəli, anası və yaxın əqrəbası ilə əlaqəsini kəsmirdi. Məktublaşır, kitab xəbərətər mübadiləsi edirdi. Ən çox rastlaşdığı, xəbər tutduğu sarbanlar, bəzirganlar idi.

O bu dəfə də çıraqçı nökəri oyatmadan kitabxanaya daxil ola bilmədi. Çıraq alaqaranlıq otağın divarlarındakı qəfəsələrdə görünməz nur saçan dühaları işıqlandırdı... Zeynalabdin qəlbində doğan qəribə müqayisəyə gülümsədi: Deyəsən, loğman deyib ki, "Səhhət sağlam adamların başında elə bir tacdır ki, onu yalnız xəstələr görə bilər. İndi bu qaranlıq otaqda əsərləri qəfəsələrə nur saçan alimlərin, dahilərin işığını da görə bilmək üçün Zeynalabdin olmaq lazım gəlirdi. Onun üçün bu otaq qaranlıq deyildi. Bax, orada, o üst qəfəsədən X əsr ərəb tarixçisi və səyyahı Müqəddəsi nurlanırdı. Soldakı qəfəsənin ortasında İbn Sina, bir az ondan aralı Əbülqazının "Şəcəreyi-tərakimə"si, ondan o yana Xarəzmşah

sarayında öz gücünə qiymətli kitabxana (beləmi idi görəsən?) yaradan alim Şəhabəddin Xivəki və daha kimlər, kimlər nur saçırdı.

Çıraqçı çırağı mizin üstünə qoyub çıxanda:

– Çay gətirimmi, ustad? – soruşdu.

Alim gəncin müti gözlərinə baxıb mehribanlıqla gülümsədi, başını bulayıb "yox" dedi. Çıraqçı çıxdı.

Zeynalabdin keçib mizin arxasında qoyulan, üstü yumşaq döşəkçəli alçaq kətilin üstündə oturdu. Bir neçə vaxt idi, Kəşmir-Bədəxşan tərəflərdən bu yana – Türküstana keçəndən bəri yazmağa başladığı qeydləri vərəqlədi. Buraya o, Türküstan ərazisində görüb-eşitdiyi hadisələri, rəvayətləri, həqiqəti toplamışdı. Onları asta-asta "Bustanüs-səyahə"nin məlum "Gülşən"lərinə daxil etməyə başladı:

..."Yafəsin 8-ci oğlu şücaətli, mərdanə, diribaş və hünərliydi. Buna görə Yafəs, Türkü özünə vəliəhd etdi. Ona "Yafəs oğlan" deyirdilər. O, nahiyələrdə seyrü səfər edirdi. Birdən bir yerə yetişdi ki, oraya türkcə "Seyluk" deyirdilər. Orada bir dəryaça gördü. Dəryanın ətrafında isti sular və dadlı çeşmələr, çəmənlik vardı. Türkə o məkan xoş gəldi, öz tabelərilə birgə ora köçdü. Ağac və otdan yaşamaqçın ev düzəltdilər. Sonralar xeymə və xərgah düzəltməyə məşğul oldu, qoyun dərisindən geyim və papaq tikdi, övladlarına da öyrətdi. Əksər kitablarda söylənmişdir: Türk adil, bəxşişkar və fazil bir hökmdar idi. Rəiyyətlə ədalətli dolanırdı. Onun rəşadətli oğlanları var idi. Onlardan biri də Fürəng adlı bir oğlandı, bir gün o, ova getmişdi. Ov tutub kabab edib yeyirdi, qəfil tikəsi əlindən duzluğa düşdü, götürüb ağzına qoyanda tikənin daha ləzzətli olduğunu gördü və ondan sonra xörəyi duz ilə birləşdirdi. O gündən bu qayda xalqın təbiətində yerləşdi. Gizli qalmasın: bütün Monqolustan, Türküstan, Tatarıstan, Turan, Xarəzm və Dəşti-Qıpçaq Şərq ölkələrinin ən gözəl yerləridir ki, Türk və onun övladları oraları abad etdilər. Xütən mülkü Türküstanda yeddi şəhərə aiddir. O cümlədən: Yarkənd, Qırğız, Ağsu, Xütən ölkəsindəndir. Çəkil, Daşkənd, Xülləh, Təraz, Fərxar, Fərqanə, Quba, Yəğma, Özkənd, Bikənd, Türküstan ölkələrindən olub, bunlardan başqa bir çox şəhərlər və hədsiz qəsəbələr o ölkədə mövcuddur. Sakinləri ümumən türkdilli olub, az bir qismi farsdillidir. Onların özgə bir dili var ki, ora xalqına məxsusdur. Hamısı gülərüzlü və gözəldirlər. Onlar qəribsevən, fəqir-füqəraya rəhimlidirlər. O şivələrdə mümtazdılar. Çoxlu hənəfiməzhəb,



bir qismi kafir-bütpərəstdir. Başqa bir qismi şiə, bir qismi ismailiyyədi, bir qismi Əliallahıdı. O vilayət bir müddət İslam təsərrüfündəydi, indi Xəta sultanlarının hakimiyyətindədir.

Xəta şahları düşməni məhv etməklə, dostları tərbiyət verməkdə, ölkələri təmir etməkdə və xalqı çoxaltmaqda yüksək dərəcəyə çatmışlar: Bütün Xəta, Xütən, Monqolustan, Tatarıstan, Uyğur və başqaları Xəta xaqanlarının ixtiyarındadır. Onlar Çingizxanın nəslindəndir. O zaman fəqir Türküstan nahiyələrində və sair yerlərdə olduqda İzmirxan adlı xaqan bütün zikr olunan məmləkətlərin xaqanı idi.

Fəqir deyir: məlum olduğu kimi küfrdə Xəta padşahları kimi və islamiyyətdə Qeysəri – Rum kimi sultan olmaz. Cəmiyyətin və vilayətin çoxluğundan, qüdrət və əzəmətin artıqlığından yer üzünün padşahlarından bu iki padşah mümtazdır. Bu 2 padşahdan sonra yüksəkmərtəbəli Çin xaqanı dövlətin hökmdarı olub üçüncü yerdə, demək olar.

## Turan haqqında

"Məruf ölkə, məşhur yerdir. Cənubdan Çətr-lal və Təxarstan, Şimaldan Xarəzm və Dəşti-Qıpçaq, Şərqdən Türküstan və Monqolustan, Qərbdən Xorasanla həmsərhəddir. Qədim farslar bura Dehistan deyərdilər, Firidun oğlu Tur ora hakim olduqdan sonra Turan adlanıb, Ceyhunun Şərq tərəfində vaqe olduğundan ora Məvəraünnəhr deyilib, ərazisi dörd və beşinci iqlimdədir. Dağlıq yeri çöl-biyabandan artıqdır. Müxtəlif tayfalar yaşasa da, özbək, türkmən və moğol qəbilələrinin sayı artıqdır. Burada və onun ətrafında taciklər, farslar və türkdilli köçəbələr yaşayır. Ölkənin hamısı soyuqtəbiətli, havası sağlamdır. Əvvəl xalq kafir bütpərəst, atəşpərəst və ulduzpərəst idi. Sonra islamiyyəti qəbul etdilər. Hicrətin 53-cü ilində o ölkə alındı, əksəri hənəfi məzhəb, şiə də çoxdur. Dağlıq yerlərdə ismaili məzhəblər çoxdur. Az bir qismi azğın və çox az bir qismi yəhudi, "caməsəfid" ağpaltarlıdırlar. Cəsur əsgər və qərib saxlayandırlar. İnsaf və comərdlikdə mümtazdırlar.. Xüsusilə o yerin alim və biliciləri bir çox bəyənilmiş sifətlərlə və gözəl əxlaqla seçilirlər".

## Çaç haqqında

...Turan ölkələrindən olub qədim zaman şəhərlərindəndir. Əvvəllər, orada ox-kaman qayırardılar. Necə ki, həkim Firdovsi Çaç kamanını tərifləmişdir.

## Taşkənd haqqında

Lüğətçədə taş sözünə daş deyərlər və kənd-cəmiyyət mənasındadır. O şəhər daşlıqda vaqe olduğundan ona "Taşkənd" demişlər.

Bir neçə gün idi ki, Sultanın xeyirxahcasına ona qoşduğu vəliəhdlə birlikdə atlı olaraq Xarəzmi gəzmişdi. İndi bu yerlər haqqında qeydlərini etməyə başlayırdı. Qələmdandan qamış qələmlərdən birini götürüb yoxladı; fikirləşdi: "Afərin, Turxan! Yaxşı yox, əla şagird və köməkçidir. Hər sübh namazından sonra mütləq işlədiyimi bilir, qələmləri gözəl çərtib" – bu düşüncələrlə də qələmi mürəkkəbə batırıb yazmağa başladı:

## Xarəzm haqqında

Xarəzm sözü iki kəlmədən mürəkkəb olub, xəbər kitablarında söylənmişdir ki, o ölkədə iki qoşun bir-birləri ilə dava edirdilər. O müharibədə çox adam öldü. Qoşunun böyüklərindən biri dedi: "Xarəzmi idi, yəni bərk və çətin dava idi". Ona görə o mülkə Xarəzm dedilər.

Bəziləri deyirlər ki, zəmanənin padşahı bir camaata qəhrü-qəzəb edib o yerə göndərdi ki, orada abadlıq yox idi. Onlar orada balıq tutub, gəz ağacı ilə od yandırıb kabab bişirib dolanırdılar.

Bundan bir zaman keçincə padşah onlara rəhm edib dörd yüz, bir rəvayətə görə səkkiz yüz əlli nəfər və neçə nəfər qadın tayfalarından ki, onların sayı da həmin miqdarda, yəni xarəzmlilərin sayınca göndərdi. Onlar haman yeri təmir edib, adına Xarəzmi dedilər.

Hər halda ora məşhur bir vilayətdir. Havasının sağlamlığı və suyunun saflığı, gözəlliyi ilə ad qazanmışdır. Ora qədim ölkələrə, böyük nahiyələrə, gözəl yerlərə, bəlli-başlı otlaqlara, şikarla dolu olan ovlaqlara və könülsevən çəmənliklərə mənsubdur. Ora şimaldan qıpçaq çölü



ilə, cənubdan Turan vilayəti ilə, şərq tərəfdən Türküstan mülkü ilə və qərb tərəfdən Cürcan və Xorasan torpağilə həmhüduddur. Onların hamısı beşinci iqlimdəndir, az bir hissəsi dördüncü iqlimdən.

Oranın sakinləri əksəriyyətlə iqtidarlı türk tayfasıdır, onlar hənəfiməzhəb, az bir qismi imamiyyə şiəsidir, o bir qismi başqa tayfalardır.

Ölkədən bir çox alimiqdar alimlər zahir olmuşlar. O cümlədən Xarəzm-şahiyyə padşahları və ariflərdən Şeyx Nəcmüddin Kübra və Seyid Kəmalüddin Hüseyn və Baba Kamal olub. Bir çoxları təsnifat sahibləri zahir olmuşlar.

Ora gözəl bir şəhər və fərəhli bir ölkə kimi dördüncü, rəvayətə görə beşinci iqlimdədir. Oranın suyu və havası ləyaqətli və torpağı məhsul gətirəndir, yeri fərəhlidir. Türküstan ölkələrindən olub, o yerin ən gözəl şəhərlərindən biridir. Deyərlər: o ölkə Əfrasiyabın işrətxanası olmuşdur. Orada eyş-işrətlə məşğul olmuş idi... Raqim... oranın tərifini hədsiz eşitmişdir.

Necə ki, gözəllərinin çoxluğundan Xoyu "İran Xarəzmi" adlandırmışlar.

## Xocənd haqqında

Xarəzm şəhərlərindən könülsevən bir şəhərdir. Xacə Hafiz Şirazinin müasiri olan şeyx Kamalüddin Xocəndi oradan nəşət etmişdir. Belə məlum idi ki, Xocənd Xarəzm mülkündən başqadır. Raqim xocəndliləri çox görmüşdür. Onların çoxu hənəfiməzhəbdir, xoş əxlaqdırlar, digər bir hissəsi türkdilli olub dərvişlərə mehribandırlar...

## Xivə haqqında

Xarəzm ölkəsində bir şəhərdir. Ora yaxşı bir yer və rəğbətli şəhərdir. Oranın xalqı tamamilə türk və hənəfiməzhəbdir və çox təəssübkardırlar. Şiənin əsirləri orada çoxdur.

## Örgənc haqqında

...Örgənc beşinci iqlimdə olub Xarəzm ölkələrindən kiçik və gözəl bir şəhərdir. Ürəkaçan bir yer olub. Orada iki-üç minə yaxın ev vardır. Oranın ətrafında bir neçə nahiyqələr vardır. Oranın əhalisi əksəriyyətlə türk... bəzi xüsusiyyətlərdə ürəyə yaxındır. Onlar tamamilə hənəfiməzhəblərdir. O təriqətdə təəssübkardırlar. Az bir qismi imamiyyə şiəsidir. Raqim... Örgənclilləri çox görmüşdür...

Nə qədər yazdığının, nə qədər işlədiyinin fərqinə varmamışdı. Qapının açılması ilə başını qaldırmağı bir oldu.

– Salaməleyküm, ustad!

– Əleyküməssallam, Turxan gəl, gəl...

Gələn şagirdi və köməkçisi Turxan idi. Sultan övladlarının dayəsi Ullibibinin oğlu.

– Yenə də çox erkən qalxmısız, ustad?

Gülümsədi:

– Erkən oyanan quş dənsiz qalmır, Turxan.

Bu bir neçə ayda oğlan xeyli dəyişmişdi. Əvvəlki çəkingənliyi, utancaqlığı yox olmuşdu. İlk günlərdə Sultan kitabxananı səliqəyə salmaqdan ötəri ona köməkçi verdiyi bu gənc elə sıxılğan, həyal idi ki... Bəzən bir sözü ona iki dəfə demək lazım gəlirdi. Zaman keçdikcə... Yox-yox... Həyasızlaşmamışdı Turxan, sadəcə, indi ustad və şagird, alim və köməkçi bir-birinə isinişmişdilər. Zeynalabdin onun kitab pərəstişkarı olduğunu görüncə, gəncə sadəcə bir fiziki qüvvə köməkçisi kimi deyil, biliklərini almağa hazır və müştaq olan bir şagird kimi baxmağa başlamışdı. Aralarındakı yaş fərqi "ata-oğul" qədər olmasa da, ata-oğul kimi idilər. Zeynalabdin artıq uzun illər idi ki, yollarda idi. İranı, Əfqanıstanı, Pakistanı, Hindistanı gəzmiş, ta Sərəndibəcən (Seylon-Şri-Lanka) gedib çıxmışdı. Bunun elə 7-8 ilini "möcüzələr" diyarı Hindistanda keçirmişdi.

Turxan ona tez-tez qəribəliklər diyarı haqqında suallar verirdi. Dərvişlərdən, saraya yolu düşən alimlərdən, tacirlərdən çox eşitmişdi. Hər şeyə yetik olan gəncin əlinə indi Zeynalabdinin simasında elə bir "xəzinə" düşmüşdü ki, rastına gələn çətinlikləri, kitablardan başa düşmədiyi sözləri, alimin gördüyü ölkələr, insanlar haqqında məlumatı acgözlüklə soruşub öyrənirdi. Əvvəlki "kitabçıbaşı"ya da o kömək edirdi. Saray mədrəsəsində dərs deyən müdərrislərin də yanında oxuyub-yazmaq öyrənmişdi, xəttat olmağa həvəsi vardı. Təki onu kitablardan ayırmasınlar.



Amma onlar hara, ustad hara; Turxanın bəxti gətirmişdi. Neçə gündən bəri ustad "səyahətdə" olduğundan bu gün yeni suallarına cavab alacaqdı.

Alimin göstərişilə gərək olan əlyazmalarını sandıq və rəflərdən çıxarıb gətirdi. Mizin yanında diz çöküb soruşdu:

– Ustad Hindistanda olanda Aqrada da olmusunuz?

– Olmuşam...

– Tac-Mahal məscidini...

– Görmüşəm... O məscid deyil...

...Və o, yer üzündəki ən gözəl bina, inşa hesab etdiyi ülvi, ölməz bir məhəbbətə həsr olunmuş memarlıq simfoniyası haqqında Turxana danışmağa başladı:

– Onu Ulu Moğol nəslindən olan Şah Cahan ibn Cahangir tikdirib və Mahalın tacı adı verib. Deyilənə görə o öz arvadı Mümtaz-mahalı çox, hədsiz məhəbbətlə sevirmiş. Bu məhəbbət ucaymış, pak imiş. Sifarişi alan memar özü də görünür ki, əsil pak məhəbbətə qiymət qoymağı bacaran, bəlkə də eləcə bir məhəbbətlə sevən insan imiş. Dərk edir, anlayır aşiq hökmdarın istəyini, ulu və incə sevgisini bu yerdə qara torpaqlara tapşıran aşiq insanın dərdini... Bu dərdin böyüklüyünü. Sənduqənin üstündə ağ mərmərdən zərif şəbəkələr şəklində tikilmiş binanın üç günbəzi, nəhəng minarələrilə birlikdə insanı ucalara, qüdsiyyətə, ülviyyətə, göylərə – eşq aləminə çağırır sanki. Binanın önündə uzunsov bir çarhovuz var. Hovuzun dumduru suları o zərif binanı elə əks etdirir ki, sanki memar deyir: "Sən də gözəlliyi torpaqlar altında dəfn olunmuş, lakin ölməz məhəbbətinə belə bir abidə qoyulmuş, xəyalı üzüqoylu çevrilmiş bir məhəbbətlə sevmisənmi?" Binaya həkk olunmuş qiymətli daşlarla işim yoxdur. Məncə, elə onlarsız da behişt bağı ilə əhatə olunmuş bu bina zərif, pak, toxunulmaz bir məhəbbətdən yoğrulmuşdur. Mən onu seyr etdikcə qulaqlarımda incə bir muğam səslənirdi. Aqranın aydın fəzasında gözəllik mücəssəməsi, uyğulu bir eşq rəmzi kimi görünür, önündəki sularda bir xəyal təkin canlanırdı Tac-Mahal. Mənim fikrimcə bu abidə bir Mahalın deyil, bütün dünyanın tacıdır – "Taci-cahan" adlansa daha doğru olar. Onun hər kərpici (mərməri), məhəbbətlə ləbələb dolu qəlbin qanı, şirəsi ilə bir-birinə

nəsb olub. Sevgilisinin göz yaşlarında – hovuzda əks olunan xəyalı da özü kimi gözəldir. Təmiz, pak məhəbbətlə sevən insanlara əbədiyyət mahnısı oxuyur.

Zeynalabdin susdu. Otağa sükut çökdü. Müəllim gözü önündə yenidən canlanan Tac-Mahalı, indicə görürmüş kimi heyrətlə tamaşa etdiyi günün xatirələrinə dalmışdı. Şagird isə ustadının təsvirini nəzərlərində canlandırmağa səy edir və düşünürdü: "Bəxtəvərmiş Şah Cahan, əsil bəxtəvər. Elə ülvi bir eşq ilə sevə bilib; bu sevgiyə qovuşub və itirəndə də dərdini heç olmasa məhəbbətinə layiq abidə yaratmaq imkanına malik olub. Məhəbbətinə, sədaqətinə dünyanı heyran qoyub. Bəs bu imkanı olmayanlar neynəsin? Neynəməlidi?"

Otaqdakı sükutu qapının açılması pozdu. Hər ikisi mürgüdən ayılmışlar kimi diksindi. Gələn Aybuta idi. Gümüş qumrovlar kimi cingiltili səslə salam verdi:

– Salam, ustad, salaməleyk. Elə bil yatmışdız, sizi yuxudan oyatdım.

– Əleykəssalam, qızların mələkəsi.

Turxan qəlbində əks-səda verən salama qarşı düşündü: "Əleykəssalam, bəli yuxudan oyatdın. Özü də necə yuxudan? Eşq ilə dolu bir yuxudan... Başqasının oyatmasını istəməzdim, mənim Mümtazi-cahanım[1] Aybutam".

## VƏLİƏHD ERKİN

Səhər lap erkəndən çıxmışdılar. Həyatı çöllərdə keçən Zeynalabdin üçün bu heç də əziyyətli bir şey deyildi. O, Erkin üçün narahat idi. Vəliəhd hələ axşam ona "Sübh namazından sonra çıxırıq" deyəndə, doğrusu inanmamışdı. Validə sultan kimi bir ananın övladı, üstəlik də bu oğul vəliəhdi ola. O tezlikdə çətin ki, yuxudan oyanar; oyansa da qəlyanaltı edənəcən, geyinib-kecinənəcən Allah bilir ona nə qədər vaxt lazım olacaq. "Təki Günəş iki cida boyu qalxanacan şəhərdən çıxa bilək" deyə düşünmüşdü. Amma sən demə vəliəhd cavan ömrünü hərbi məşqlərdə, ovda keçirdiyindən, erkən durmağı da, özü demişkən

[1] Dünyanın seçilmişi



"bir-iki" deyənəcən geyinib at belinə sıçramağı da bacarırmış. Yaxşı da müsahib imiş. Doğrusu aralarındakı yaş fərqi, mövqe fərqi hələ axşam, səfər qərarlaşdırılanda alimi xeyli narahat etmişdi. Dünya gəzmiş, çətinliklər görmüş, anamız təbiətin istisinə də, soyuğuna da dözmüş səyyah hacı Zeynalabdin, min bir kitabdan dərs öyrənmiş, Şərqin min bir alimi, şairi, sufisi – dərvişi ilə görüşüb sinəsinə elmlər, biliklər çinləmiş alim Zeynalabdin, Firdovsidən, Xəyyamdan, Sədi və Hafizdən, Nizami, Xaqani və Füzulidən, daha hansı şeir ulduzlarından ilham almış şair Zeynalabdin Təmkin ilə yol yoldaşı olmaq istəyən və atasından razılıq alan, bu südəmər deyiləcək dərəcədə gənc vəliəhd ilə o darıxmayacaqdı ki? Bir şey görüb-götürə, öyrənə biləcəkdimi?

– Sultanım, qoyun, izin verin hacı ilə mən gedim bu səfərə...

– Neyçün sən? Alimlərdən, Xarəzmi yaxşı tanıyan alimlərdən biri bələdçilik eləsə daha xeyirli olar.

– Yox, sultanım, özünüz bilirsiniz ki, mən ölkəmizi yaxşı tanıyıram. Yollara bələdəm. Özümüzlə qanacaqlı bələdçi də götürərik... İcazə verin sultanımız...

– Yaxşı, bəs buna hacı özü nə deyir; O da sənin yoldaşlığına razıdı? – qıyıq gözlərini bir az da qıydı. Amma bu gözlərdə elə bir hökm vardı ki... Elə bir parıltı vardı ki... Xəncər kimi kəsir, ox kimi baxdığını dəlirdi.

Zeynalabdin oturduğu yerdə baş əydi:

– Böyük məmnuniyyətlə, hökmdar.

– Sultanımız... – Vəliəhdin səsində atadan oyuncaq diləyən uşaq yalvarışı duyulurdu.

"Qəribədir, o da atasını sultanımız, sultanım adlandırır camaat kimi. Daha bunun nəyi qəribədir? Məgər sən özün atana "ağa" demirdin qohum-əqrəba kimi?" – düşündü səyyah.

Sultan da düşünürdü; oğlu xahiş etdikcə atanın qəlbindən bu sözlər keçirdi: "Nə olar? Qoy getsin. Ömrümün yarısı keçib. Qoy Erkin səltənətimizə yaxşı bələd olsun. Həm ziyarət, həm ticarət deyiblər. Bir tərəfdən kənd-kənd gəzib Xarəzmi daha yaxşı tanıyar. O biri tərəfdən də böyük alim yanında həm biliyi, həm də ədəb-ərkanı artar". Bu fikirlərlə də oğlunun xahişini yerinə yetirdi. Qəti qərarını bildirdi:

– Yaxşı... Sən deyən olsun. Get! Xeyirlə, salamatliklə qayıdın. Amma bir şərtlə: hər axşam düşdüyünüz mənzildən səhər çıxanda, ordan Xivəyə bir çapar göndərirsən.

Vəliəhd ərklə dodaqlarını büzdü:

– Mən uşağammı, sultanım?

– Yox, sən uşaq deyilsən, amma Validə sultan anadır. Səndən nigaran qalar.

O, hər bir rastına gələn, tanış, müsahib, dost olduğu adamda məhz müsbət cəhətləri görməyə çalışardı. Bu axşam Sultanın dedikləri içərisindəki son cümləni xüsusi qeyd etdi: "Özünü də deyə bilərdi, demədi. Ana dedi. Validə sultan anadır, səndən nigaran qalar".

Üç nökər müşayiət edirdi onları. Hər ehtimala qarşı silahlı idilər. Həm də arabir vəliəhd Erkin onlarla "döyüşəcək", gündəlik hərbi məşğələlərinin arası kəsilməyəcək idi. Erkinin elmə marağını görən alim deyirdi:

– Sənin əlinə qələm daha çox yaraşardı, vəliəhd!

Oğlan uyuşmayan bir təmkinlə cavab verdi:

– Neynəyəsən, hacı, Vətən torpağının alimdən çox əsgərə ehtiyacı var. Elə bir zamanda, elə bir şəraitdə yaşayırıq ki, hər xan özünü başqasından üstün bilir. O birisini yenib torpaqlarını ələ keçirmək istəyir. Özündən güclü xan, sultan, əmir tanımır, tanımaq istəmir. Əlinə keçən kişini əsir, arvadı-qızı yesir aparır. Gərəkməz ki, sən də öz namusunu, öz torpağını qoruyasan?

Zeynalabdin fikirli-fikirli onun sözlərini təsdiq etdi:

– Doğru deyirsən, vəliəhd, sənin ağlına, qeyrətinə əhsən. Amma mən o sözü deyəndə, təkcə bunu nəzərə almışdım ki, Xarəzm keşməkeşli, basqınlı yerlərdən bir qədər kənarda durur. Sizin adət-ənənələri, dilin təmizliyini, torpağınızın bütövlüyünü qoruyan da budur. Yoxsa səyahətim boyu ellər, ölkələr, məmləkətlər görmüşəm ki, bir gün dincliyi yoxdur. Sizdə isə... Sizdə isə şükür Allaha, səlamətlikdi.

Oğlan at üstündə qılınc vurarcasına əl-qolunu oynada-oynada cavab verdi:

– Siz bu yerlərə təzə gəlmisiz, hacı, çox çəkməz görərsiniz. Elə bizdə də çörəyi havayı yemirik, bizim də dincliyimiz yoxdu.

İrəlidə kiçik bir binə göründü; aralıdan bilinirdi ki, binə kasıb olsa da yarımköçəri, əkinçi ailəsinindir. Atların başını çəkdilər. Kəndin yanından aramla getməli, atı addım-addım sürməliydilər. Qədim türk adətiydi: kənd, binə yanından çaparaq at sürmək, özünü kəndin gəlininə, qızına "göstərmək" olmaz. Bir baxışdan Zeynalabdinin quşu qondu



binəyə. Binə on alaçıqdan ibarət idi. Burada gecələməyi arzuladı. Erkin də bu arzudan razı qaldı. Bir qədər tez düşəndə məşq üçün, bəlkə hələ ov üçün də vaxt qalacaqdı. Erkin arxaya dönmədən bələdçi-nökəri səslədi:

– Nepes...

O üç nökərdən biri irəli çıxdı; bu bazburudlu, sağlam, üzünü və əllərini külək, yağış və günəşin birləşib "aşıya qoyduğu" çöl adamı idi. At üstündə tuncdan qoyulmuş heykələ bənzəyirdi. Nəzərə çarpmayan bir hərəkətlə atı vəliəhdə tərəf sürdü. Bir at döşü geri qalmaq şərtilə yanaşı sürməyə başladı. Atla sahibi arasında sanki gizli, yalnız onlara məlum olan bir bağlılıq, bir anlaşma var idi. Zeynalabdin bunu da özlüyündə qeyd etdi, süvarinin göz oxşayan zahiri görkəmli, bu qızılıboz düzənliyin sərt iqlimi ilə həmahəngliyi şairin xoşuna gəlirdi.

Vəliəhd Erkin ceyran ayağından dəstəyə nəsb olunmuş, koramala bənzər, qəhvəyi-yaşılımtıl qamçısını qaldırıb aralıdan səhrada bir xəyal kimi görünən ağ keçə örtüklü alaçıqları göstərdi. Alaçıqlar nəhəng göbələyə bənzəyirdi:

– Kimin yurdudu?

– Hacı Osman bayın, təqsir.[1]

Get xəbər elə, burda gecələyəcəyik.

– Təqsir.

O yenə də atını vəliəhdin qabağınca sürmədi, hiss olunmaz hərəkətlə atı yana yönəltdi, bir qədər aralanandan sonra sürəti artırdı. Elə asta-asta gələn süvarilərin gözü önündə binəyə çatdı. Çata-çatmaya irili-xırdalı köpəklər süvarini əhatə etdi. İtlər gah aralıdan hürür, gah cumur, gah atın qarnının altına soxulub onu xamxalamağa çalışırdılar. Böyüklü-kiçikli, əlvan geyimli bir dəstə uşaq itləri atlıdan kənara qovmağa cəhd göstərir, at fınxırıb özünü qoruyurdu. Lakin yiyəsinə hörmət əlaməti olaraq Nepes qamçını qaldırır, "ay it, ay it" deyirdisə də itləri vurmurdu. Hay-küyə alaçıqlardan kişilər bayıra çıxdı. Uşaqların dalınca itlər binədən aralandı. Nepes nə dedi, nə demədisə, adamlar üzlərini gələnlərə tərəf çevirdi, yəqin ki, vəliəhdlə birlikdə kəndə alim gəldiyini xəbər verdi. Hava çox sərin olmasa da, Hacı Osman, içəridən gətirilən sarı, kəhrəba rəngli Xorasan kürkünü çiyninə salıb qonaqları qarşılamaq üçün irəlilədi. Arxasınca oğlanları, kiçik qardaşları, onların

[1] Burada "ağamız"

oğlanları, bir sözlə Hacı Osmanın ən yaxın əqrəbası gəlirdi. Hamısı da sağ əlini təzim və hörmət əlaməti olaraq sinəsinə qoymuşdu. Atlılara çatanda baş endirdilər. Hacı Osman özü Zeynalabdinin, böyük oğlu Baymurad isə vəliəhdin atının cilovundan tutub, üzəngisini basdılar. vəliəhd sıçrayıb düşdü, Zeynalabdin də atdan endi. Nökərlər piyadalandı.

Hacı Osman:

– Səfəriniz səlamətdi inşallah? Xoş gəlib səfa gətirmisiz.

– Səlamətlikdi.

– Sağ olun.

– Təşəkkür.

– Vəliəhdimiz, istəkli sultanımız necədir?

– Şükür.

– Allah qılıncını kəsərli eləsin.

– Allah ömrünü uzun eləsin.

– Validə sultan da sağ-səlamətdir inşallah?

– Dualarınızla...

– Xeyirli olsun.

– Qutlu olsun.

– Şərəfləndirdiniz binəmizi...

– Allahın kəráminə şükür.

– Binəmizin üstündə Allahın nəzəri var imiş.

– Ay uşaq, tez olun...

Salamlaşıb, hal-əhval tutub, əl-üzlərini yumaq istədilər. Alaçıqların birindən qalayı par-par yanan mis güyüm gətirildi. Hacı Osmanın oğlanları növbəylə qonaqların əlinə su tökməyə başladılar. Elə bu zaman at ayaqlarının səsi eşidildi. Üzünü silməkdə olan Zeynalabdin və vəliəhd səs tərəfə baxanda qucağında çəpəki qara, burmabuynuz bir qoç gətirən kəhər atlı süvarini gördülər. Hacı Osmanın oğlanlarından biriydi. Qurban gətirirdi. Qardaşlarının köməyilə qoçu atdan endirdi. Düz vəliəhdin qənşərində yerə yıxdı.

– Ayağına qurban olum, ayağını qoy üstünə, zəhmət çək...

Vəliəhd gülüb ayağını qoçun böyrü üstünə toxundurdu. Qurban kəsildi. Amma aralıda altı ayını təzəcə doldurmuş qara şikək də kəsilirdi. Kabab bunun ətindən olacaqdı, zərif, lətif. Qurbanlıq qoç vəliəhdin şərəfinə evlərə paylanacaqdı.

Hacı Osman mərasimindən sonra qonaqları içəri dəvət etdi. Alaçıq çöldən sarı-qızılı kəhrəba rəngli qarğı çətəndən qurulmuş, üstünə qara-



gəzmə naxışlı ağ keçə örtülmüşdü. Alaçığın yerinə başdan-başa əlvan Xarəzm xalıları döşənmişdi. Bir tərəfdə qoyulmuş dolu məfrəş üstünə təmiz, əlvan darayı üzlüklü yorğan-döşək yığılmış, o biri tərəfə çəpəki pərdə asılıb üzərinə də ləçək-ləçək, qotazlı pərdə başlığı vurulmuşdu. Bir-biriylə paxlava şəklində kəsişən qarğıların yaratdığı divarlara müxtəlif ev əşyaları asılmışdı: naxışlı çömçə, bəzəkli taxta əşya, əlvan tikmə əl işləri – evə xüsusi bir yaraşıq, dinclik, rahatlıq, səliqə vermişdi. Baş tərəfdə qarğı divar boyu iri yastıqlar – söykənəcəklər düzülmüş, yerə döşəkçələr salınmış, dirsəkaltılar qoyulmuşdu. Zeynalabdin, vəliəhd və Hacı Osman birlikdə içəri girən kimi bir baxışla elə ilk anda bütün bu təfərrüatı xırdalığınacan gözlərinə və hafizəsinə həkk etdi.

Hacı Osman:

– Buyurun, buyurun vəliəhdimiz, buyurun hacı... Öz evinizdi – döşəkçələri göstərdi.

– Ev sahibi sağ olsun.

– Ev sahibinin ömrü uzun olsun.

– Sağ olun, var olun.

Keçib əyləşdilər. Qapının dalında hazır imiş kimi cəld cavan bir oğlan içəri girdi. Hacı Osmanın nəvəsi Seyhun idi. Əlindəki dəstərxanı "əssəlamü-əleyküm" deyib, üçlüyün qarşısında diz çökdü və yerə sərdi. Çıxdı, tez də qayıtdı. Bu dəfə Seyhunun əlində iri bir çaydan və üç piyalə qoyulmuş sini vardı.

– Nuş olsun.

Seyhun piyalələri süfrə başında əyləşən qonaqların və babasının qənşərinə düzdü. Hacı Osman çaydanı götürüb öz əlilə qonaqlara və özünə çay süzdü.

– Buyurun, səhrada uzaq yol gedib yorulanın birinci əlacı çaydır.

"Bu yerlərdə göy çay içilir, piyalənin dibinə bir-iki qurtum süzülür. Piyaləni doldurmaq hörmətsizlik sayılır..." Səyyah bu adətləri qəlbindən keçirib təşəkkür etdi və xırdaca piyaləni qaldırdı, gözlərinin önünə tutub baxdı. Görəsən bu zərif, əlvan naxışlı, yumurta qabığı kimi incə çini piyalə bu qədər uzaq, qupquru səhraya necə gəlib çıxıb? Harada hazırlanıb? Hansı mahir usta düzəldib və hansı mahir gözəllik, gözəl sənət sevən gətirib, saxlayıb, köçə-köçlərdə necə qablaşdırıb ki, sınmağa qoymayıb? Şairi də gözəlliyi yaradan və gözəlliyi qoruyan, ona pərəstiş edən insanlar ilhamlandırmışdı:

Dostum! Nisyədən demə, sözü gözəllikdən aç!
Qoy açılsın gözlərin görsün bir həqiqəti.

Seyhun yenidən içəri girdi. Bu dəfə təzəcə bişmiş çörək və buğlanan xörək qabları ilə gəldi. Hacı Osman öz əlilə qonaqların qarşısına ət qoya-qoya:

– Buyurun, lütf eləyin, bismillah.

...Süfrə yığılandan sonra vəliəhd qalxıb bayıra çıxdı. Qılınc ustadı Əmir Ali ona demişdi ki, "yeməkdən sonra yatmaq və ya bir yerdə oturub dirsəklənmək kökəlməyə bərabərdi. Bu da ki, süvariyə, döyüşçüyə əsla yaramaz. Ululardan biri deyib ki, əgər görkəmini saxlamaq istəyirsənsə az ye, gözün yeməyin dalınca qalsın və hər yeməkdən sonra heç olmasa qırx addım yeriməlisən". Vəliəhd Hacı Osman oğulları ilə birlikdə, nökərlərinin müşayiəti ilə gəzintiyə çıxdı...

İçəridə isə yaşlıların söhbəti sakit axan çay kimi yönünü tapmışdı. Hacı Osman Zeynalabdinin hansı bir sualının qarşılığı olaraq deyirdi:

– Cənab Hacı! Çoxları elə bilir ki, biz yarımköçəri səhra adamları dünyadan bixəbər, korazehin, vəhşi adamlarıq. Amma çox-çox səhv eləyirlər. Biz də yeri düşdükcə dünyadan xəbər tuturuq. Binələrimizin böyründən keçən karvanlar əylənəndə, dərviş dəstələri rast olanda, səyyahlar, sizin kimi gəzəri alimlər, qələndərlərlə, dünyagörmüş bəzirganlar, sarbanlarla həmsöhbət oluruq. Elə cavanlıqda mən əlifbanı da, az-çox savadı da bu yolla öyrənmişəm. Sonra düşdükcə əlyazma kitablar almışam. Bir qismini də Həccə ziyarətim zamanı alıb gətirmişəm. Baaax, o gördüyünüz iki məfrəş mənim xəzinəmdi. Orada Firdovsidən tutmuş, Farabiyə, Nizamiyə, İbn Sinaya, Hafizə qədər çox-çox kitablar, divanlar var. İndi nəvələrə də öz bildiyimdən öyrədirəm. Mal-qaradan, əkin-biçindən başları ayılan kimi, görürsən ki, eləsi kitabı, bayazı, qələmdanı aldı əlinə... Eləsi də... Neynəyəsən, silah məşqinə keçdi...

– Əkin-biçin dediniz? Məgər siz...

– Bəli, bir az əkəri torpağımız var. Oralarda (başı ilə harasa işarə elədi) Ceyhunun suvardığı torpaqlarda. Oba kişilərinin çoxu ordadı... Bizdə sovruq bu vaxtlar olur, yazlıq əkini tayaya vurub yaylağa qalxırıq. Qayıdanbaş payızda xırman salıb dərzləri döyürük. O da taxıl sarıdan bizi görür. Qalan vaxtlar əsas işimiz heyvandarlıqdı.



– Xırmanlar burdan çox uzaqdı!

– Yox, bir mənzil yoldadı; əgər meyliniz çəksə sabah səhər gedib baxa bilərsiz.

Bayırda nə isə qarışıq bir səs eşidildi, söhbəti kəsdilər.

Cavan oğlan səsi deyinirdi:

– Əh... İlin günün bu vaxtında bu nə yağışdı?

– Hə... Demə... Sovruq atanların, xırmançıların kefinə soğan doğradı yağış...

– Eh, bunun nəyi yağışdı, "qurt quzulayır", bulud keçir, tez ötər.

– Çox keçsə, dərzlər islanacaq.

Qoca qarı səsi cavab verdi:

– Az danışın, şükür eləyin. Nur yağır, göydən nur yağır. Vəliəhdin ayağı şükümlüdü... Bərəkət yağır, nur yağdırır qurbanı olduğum.

Səslər kəsildi. Deyəsən, az sonra "nur yağışı" da ara verdi.

* * *

Səhər Zeynalabdin xırmanları görmək istədiyini bildirəndə vəliəhd Erkin daxilən sıxıldı: "Əh, nə var görməli o xırmanlarda? Amma neynəyəsən? Ahha!.. Tapdım" sözləri qəlbindən keçdiyi halda ucadan dedi:

– Hacı, inciməzsən ki, siz xırmanlara baxmağa gedəndə, biz də Hacı Osman bayın oğulları ilə ova gedək?!

Səsində sevinc var idi. Zeynalabdin də bu qərarı bəyəndi. Axı vəliəhd üçün xırmanın toz-torpağı, sovruğu, bəlimi, samanı içində maraqlı nə ola bilərdi. "Ova getsə əylənər; mən də arxayın öz müşahidələrimdə ollam" düşüncəsilə cavab verdi:

– Əlbəttə, əlbəttə. Nə söz ola bilər, vəliəhd; Əsil Süleyman qərarıdır. Hərənin öz marağı var bu göy çadır altında.

Bir-birindən və vəziyyətdən razı halda ayrıldılar. Hacı Osman bay:

– Möhtərəm mehmanımızı mən özüm aparacağam, – deyib atının yəhərlənməsini əmr elədi.

Bir dəstə gənc, başda əlindəki bəhlinin üstündə şahin tutan vəliəhd Erkin olmaqla, harasa səhrada bəlli ovlağa tərəf çapdılar. Hay-küy, gülüş, vəliəhdə ov yoldaşı olmaq sevincilə uçan bu gənclər Hacı Osman bayın kiçik oğlanları və nəvələri idi. Böyük binədə qalıb qonaqlar üçün

lazımi hazırlıq görməliydilər. Hacı Osman isə Zeynalabdinlə ikilikdə yola çıxdılar. Onları tək bircə dünən axşam süfrəyə qulluq edən cavan oğlan – Hacı Osmanın elmə, biliyə xüsusi meyil göstərən nəvəsi Seyhun müşayiət edirdi. O da qürurlu idi. Alim qonağın hər sözünü, danışdığını, səyahət hekayələrini eşidəcəkdi.

Ceyhuna tərəf gedən yol o qədər də uzun deyilmiş. Uzaqdan Ceyhunun sahili boyu qaralan Tuğay meşələri sübhün nazik dumanında xəyala bənzəyirdi. Günəş artıq istilik yaymağa başlayırdı ki, hacılar xırmanlara gəlib çatdılar. Üst-başı toz içində işləyən adamlar Hacı Osman bayın, Seyhun isə qonağın atının cilovundan tutdu, üzəngisini basıb enməsinə kömək elədi. Xırmanda xüsusi bir canlanma vardı. Hələ döyüm başlanmamışdı. Cavanlar dünən axşam burada ötəri buludun azacıq çilədiyi "nur yağışında" nəmlənmiş dərzləri açıb xırmana sərmişdilər; qurumasını gözləyirdilər. O biri tərəfdə dünən döyülüb əmbizə vurulmuş qırmızı buğdanın üstünə axşam yağışdan qorunmaq üçün salınan keçələr qaldırılmış, dən çalovlar, çanaqlarla çuvallara doldurulurdu. Bu xırmanda dənin ətrafına işləyəndən çox tamaşaçı yığılmışdı. Dərviş də, işan da, xırdavatçı da, tamamilə müxtəlif geyimdə olan bu adamların hərəsinin əlində bir qab var idi; heybə, xurcun, kisə, dağar, çuval... Əllərini bir şeyə vurub kömək etmədən acgözlüklə qablarını açıb buğda əmbizinə baxırdılar.

Hacı Osman bay bu həngaməni görəndə dən düşmüş qaşları çatıldı. Narazılıqla qohumlarından birini yanına çağırdı. Yavaşca, lakin yanında duran Zeynalabdinin aydın eşitdiyi bir səslə kişiyə acıqlandı:

– Bu sömürgəçilərin[1] "payını" əvvəlcədən verib rədd eləyə bilmirdiz? Gərək elə...

Üst-başı xırman tozuna, samana batdığından rəngi-rufu, yaşı bilinməyən adam cəld Hacı Osman bayın əmrini yerinə yetirmək üçün cumdu.

Hacı Osman bay üzünü Zeynalabdinə tutub bayaqkı narazı səslə deyindi:

– Görürsən də... Hacı... Bizim günümüz beledisə, gözünü bir ovuc dənə dikən fağır-füqəradan Allah xəbər tutur.

Yox, onun da, səyyahın da xəbəri var idi fağır-füqəranın vəziyyətindən. Otuz ildən bəri gəzdiyi ölkələrdə, kəndlərdə, obalarda kasıb

[1] Çəyirtkə



xırmanı da çox görmüşdü. O fağır xırmanının dövrəsini sarmış o sömürgəçilər – sümüryanlar – çəyirtkələrlə də çox rastlaşmışdı. Hər ləhcədə bir cür adlansa da, ceddinin payını istəyən seyidlər, ələm gəzdirib, nəzir yığan tuğçular, xüms, zəkat, fitrə yığan ruhanilər, vergi yığan sultan amilləri müşriflər[1], baskaklar, arvad-uşağın, qız-gəlinin başını tovlayıb nisyə mal, xırdavat satan tacirlər o kasıb xırmanını əhatə edirdi. Əli qoynunda xırman qırağında durub, çanaqlar dağarlara, xurcunlara boşaldıqca əmbizin azalmağını görüb ürəyi uçunan arvad-uşağı çox görmüşdü.

Kədərlə Hacı Osman baya cavab verdi:

– Görürəm, cənab hacı, görürəm. Dünyamızın hər yerində belədi. Hacı, hələ Hindistanda gördüklərimi yazsam, mənə belə gəlir ki, kağız yanar. Orada elə daşqın görmüşəm ki, maldarı, əkinçini, dehqanı quru yurdda qoyub. Mal-qaranı sel aparıb, əkənəcəkləri su basıb tələf eləyib. O təbii fəlakət, bu ictimai bəla. Bütün bəşəriyyətə ruzi-çörək verən yazıq kəndli. Biri əkir-biçir, tər tökür, o birisi gəlir, alır aparır, kef çəkir...

Onlar binəyə dönəndə vəliəhd Erkin də artıq başının dəstəsilə birlik-də ovdan qayıtmışdı. Cavanlar gülüşə-gülüşə xallı cüyürü soyur, göbəyi müşk qoxuyan xətta gözəlini diri-bütün kabab eləyib yeməyə hazırlaşırdılar. Vəliəhdin at çapmağını, ov məharətini hərə bir ağızdan tərifləyirdi.

Bacarığına məğrur vəliəhd Erkin kabab hazırlığına tamaşa edirdi.

– Nepes, dərini zədələməyin ha... Yaxşıca da duzlatdırdın onu. Əməlli aşılatdırarsan. Hazır olan kimi verəcəm ustada. İpək kimi yumşaqdı cüyürün tükləri. Yazıya, kitabətə əyləşəndə salar altına. Bu gündən yadigar.

Elə bu sözlərdə Hacı Osman bayla Hacı Zeynalabdin səyyah yurda çatıb böyük, ağ alaçığın önündə atdan endilər. Zeynalabdin atın cilovunu Seyhuna verib vəliəhdə dedi:

– Çox sağ olun, vəliəhd, lütfünüz çoxdur. Payınız artıq olsun.

[1] Maliyyə məmuru

Həkimbaşı kitabxanaya girəndə Zeynalabdin yazıya məşğul idi. Bir neçə gün idi, otağını tərk etmir, bayır-bazara getmirdi. Bir neçə gün idi ki, karvansaralardan xəbərsiz idi. Gələn karvanlar, bəzirganlar, sarbanlar, ya da qələndərlər, dərvişlər dünyanın harasındansa bir yeni xəbər, bir təzə soraq gətirir, bir qəribə olmuş, ya uydurulmuş əhvalat danışırdılar. Elə bu karvansaralarda da o tanınmış gəzəri alimlər, şairlər, musiqişünaslar görmüş, tanımış, bəzilərini sevmiş, dostlaşmış, uzun müddət imkan dairəsində yazışmış; bəziləri isə ürəyinə yatmamışdı; yalnız bircə dəfə görüşüb, əbədilik ayrılmışdı. İndi bir neçə gün idi ki, o canlı, o əlvan aləmlə demək olar əlaqəsi kəsilmişdi.

Odur ki, həkimbaşı otağa girəndə o, dünyadan ayrılmağına təəssüfləndi, oturub yazmaqdan az qala beli bükülmüşdü. Qalxdı, qoca həkimlə əl-ələ görüşdü. Qəddini düzəltdi, belinin ağrısını da indi duydu.

– Deyəsən, belin ağrıyır?

– Bir az.

– Oturmaqdandı. İki gündü soruşuram, "yazır" deyirlər, narahat eləmək istəmirəm. Amma axırı ki, dözmədim, ayırdım işdən...

– Xoşdur, xoşdur, həkimbaşı.

– Hələ bəlkə, savabdır da... Bu qədər işləmək olmaz. Cana ziyandır; havaya çıxmaq lazımdır.

– Təşəkkür edirəm, çox sağ olun, amma tələsirəm.

– Hara?

– Nə bilmək olar? Topladıqlarımı bitirib insanlara qaytarmalıyam.

Həkimin dən düşmüş qaşları çatıldı:

– Cavansan, mən də bir vaxt... Amma bədəni qorumaq vacibdir. Bu Allahın sənə əmanət verdiyi canı sən yaratmamısan ki, ona qəsd edirsən? Özünü üzmə. Onsuz da heç kəsə "qədir ağacı" əkmirlər...

Həkimin əhvalında nə isə bir narahatlıq duydu şair Zeynalabdin. Diqqətlə baxdı, oturmaq üçün yer göstərdi, özü də bənd-bəndinin açılışması üçün bir neçə dəfə var-gəl edib həkimbaşının yanında əyləşdi, bardaş qurub oturdu; qayğı ilə qoca həkimin üzünə baxıb soruşdu:

– Nədənsə narazısız, həkimbaşı?

Həkim diksindi, qorxu içində ətrafına baxındı. Heç kəs yox idi. Bir o idi, bir də Hacı Zeynalabdin. Bunu belə ahəstə səslə dedi:



– Vəliəhd üçün qorxuram, hacı?

– Yəni belə ağırdı dərdi?

– Yoox... Ay Allahın yaxşı bəndəsi. Sətəlcəmdi. Yaxşı baxılsa, cavandı, keçib gedər; sağalar, yadından da çıxar. Amma bu sətəlcəm elə şoğərib şeydi ki, balaca o yan-bu yan oldu bütün bəd naxoşluqların "anasıdı". Uzun azara da[1] çevirər, o yana da keçər...

– Yəni vəliəhdə də yaxşı baxmayanda kimə baxarlar? Yəni pis baxmaq ehtimalı var?

– Yox, canım, – həkim darıxmış izah etməyə başladı – beləsinə qalsa əla baxılır, zər-ziba içində, dünyanın ən ləziz nemətləri, yeməkləri... Əldən-ayaqdan gedir hamı...

– Bəs onda?

– Hə, elə məsələ də ondadır ki, adamı bəzən çox istəməkdən də öldürmək olar.

– Təzə şeydir mənimçün.

– Heç də təzə deyil, pir olmuş, mən deyim sən də görərsən ki, özün bilən əhvalatdır. Hamı onu əzizləyir – çox gözəl. Belə xəstəyə nə lazımdır? Qan almaq. Anası qorxur. Tərləməsi üçün dayə zərməxmər yorğan-döşəyi salıb. Deyirəm, ay əzizlərim, üzü pambıq parçadan olan yorğan lazımdır – tapılmır, bir də ayıb bilirlər ki, "vəliəhd pambıq yorğan içində yatsın? Deyirəm: başına dəsmal gətirin, ipək gətirirlər. İpək də ki, nə təri udur, nə də başında dayanır. Deyirəm: bu yaramaz, gözlərini döyürlər. Xəstəyə lazım olanı ona layiqsiz bilirlər. Doğrusu qorxuram vəliəhd üçün.

– Validə sultanı başa salaydınız.

– Heç dediyimi eşidir ki? Çırpına-çırpına qalıb.

– Neynək, sultanın özünə...

– Evdə yoxdu. Bilirsiz ki, iki gündü ovdadı. O gedəndə hələ naxoşun halı belə deyildi.

– Yaxşı... Onda görüm bəlkə, bir şey eləyə bildim... Bir çarə tapdım bəlkə.

Həkimə bu çarədən danışmadı, amma ürəyində Aybutanı tutmuşdu. Aybuta bir az sonra onun yanına gələcək: "Nə üçün? Kim? Harda?"... suallarına başlayacaqdı. Elə o zaman da həkimin vəliəhd Erkin haqqında qayğılarını qıza anladacaqdı.

[1] Vərəm xəstəliyi

– Yaxşı, bəs vəliəhd harda belə soyuqlayıb, bilmədiz?

Həkimbaşı damarları çıxmış, dərisi nazilib şəffaflaşmış əllərini bir-birinə sürtdü, sonra da ovuşdura-ovuşdura cavab verdi:

– Heç kim bilmirdi. Qorxudan nökərləri, tay-tuşları da boynuna almırdı. Təkbətək qalmışdıq, bir gün irəli, özü danışdı. Hələ qış əməlli çıxmayıb, bahar əməlli başlamayıb, xoş havaya aldanıb çıxıblar seyrə. Gedib çöldə ov ovlayıblar, kabab çəkib o ki var yeyib-içiblər. Sonra da yuxu aparıb onları. Qəfil soyuq külək əsib, qurudub canlarını quruda bildikcən. Üçü də yatır. Həm toxluq eləyiblər, həm də əməllicə soyuq alıblar. Külək, soyuq əsil-nəcabətə baxmır. Kasıbı da soyuqladır, dövlətlini də. İnsan nəsəbindən asılı olmayaraq təbiətin acıqlı qüvvələri qarşısında eyni dərəcədə acizdir, gücsüzdür. Gərək öz-özünü qoruyasan bu qüvvələrdən. Neynəyəsən? Cavanlıqdı, saymazlıqdı.

Həkimbaşı kitabxana rəflərinə nəzər salıb heyrət içində səsləndi:

– Maşallah! Hacı nə xeyir iş görmüsüz və gördürmüsüz şagirdlərə?!

Bu sözlərlə də o rəflər üzərində buradakı kitabların hansı elmə aid olduğunu bildirən lövhələri göstərib əlavə etdi:

– Hə... Bundan sonra gərək olan kitabı tapmaqçın sandıqları töküb-töküşdürmək lazım olmayacaq... – o bir-bir qəfəsələrin yanından keçirdi... – Bu fiqh... Hə... Bu işanın, əfəndinin, mollanın işidi. Bu məntiq... Hə... Bu da mənlik deyil... Qaideyi-şeir... İncimə, bu da sənlikdi... Hə, bax bu mənlikdi... Məndə bir nüsxə var. Əbu Əli İbn Sina, amma bilirəm ki, burdakı nüsxə daha qədimdi və dürüstdü. Bunuynan bəzi nüsxələri tutuşdurmaq istəyirəm.

O danışdıqca və gərəyi olan qəfəsədə axtardığını tapınca Zeynalabdin mizin qarşısında əyləşib qələm çərtirdi. Şirazı qələmdanda bir neçə qamış qələm var idi. Bir qismini səhər məşğələsi zamanı Turxan çərtmişdi. Amma Zeynalabdin onları bəyənməmiş, gəncin qəlbinə dəyməmək üçün ona başqa iş buyurub demişdi:

– Oğul, qələmimi özüm çərtməyə adət eləmişəm.

Birdən qapı açıldı. Sultan Aybuta ilə birlikdə kitabxanaya daxil oldular.

– Əssalaməleyküm.

– Və əleyküməssalam.

Sultan gülümsəyərək, qızının şıltağı ilə əylənməkdən bəxtiyar ata kimi səsləndi:



– Ustad. Atdan təzəcə düşmüşəm. Heç nədən xəbər tutmamışam, sizin bu şagirdiniz çəkib məni gətirib bura ki...

Sultanın sözü yarımçıq qaldı, gözü qəfəsələr arasından çıxıb ona baş əyən həkimbaşıya sataşdı, üzü ciddiləşib soruşdu:

– Həkimbaşı, vəliəhdin halı necədir?

Həkim:

– Bir qədər ağırlaşıb, sultanım. Kömək...

Sultan onun sözünü kəsdi; əsəbiləşdi:

– Nə kömək?

– Qəzəblənmə, sultanım – qoca həkimin dil-dodağı əsir, uzun, ağ, sivriuclu saqqalı titrəyirdi – qəzəblənmə, sultanım... Vəliəhd cavandı, canı möhkəmdi, tez də sağalar, amma...

– Nə amma? Amma nədi? Kim qoymur səni; Əllərini tutublar? Sağalt da...

Sultan sualları yağdırdıqca, qocanın ağ sarıqlı başı da əlləri də səyriməyə başladı.

– Aa...llahın köməyiylə sağaldaram, sultanım. Amma o zərli, zərxaralı yorğan-döşəkdə tərləməsi mümkün olmur. Üstünə yatmır, qalın, xara yorğan, tərləmir. Əynindəki ipək köynək islanır tərdən, dəyişənəcən təzədən soyuq alır.

– Bəs niyə deməmisən?..

Bu dəfə həkim, sultanın sözünü kəsməyə cürət etdi; uşaq kimi danlamağından, Zeynalabdinin yanında xəcalət çəkdiyindən ürəklənmişdi:

– Demişəm, sultanım, mənə qulaq vermədilər.

Sultan "qulaq verməyənin" kim olduğunu anladı. Və daha "kim?" sualını vermədi. Xan qızı Validə sultan görünür nəyisə bəyənməmişdi. Sultan kitabxanaya nə üçün gəldiyini unutmuşdu. Qəzəblə əlini əlinə çalanda, onunla birgə gəlib qapı dalında dayanan xas nökər içəri girdi:

– Təqsir...

– Həkimbaşı ilə vəliəhdin yataq otağına get, nə əmr eləsə yerinə yetirin.

– Göz üstündə təqsir!..

– Allah bəlanı bu xanədanın üstündən götürsün, sağ ol, sultanım! İki-üç günə vəliəhdi məndən istə Allahın köməkliyilə...

Xas nökər qapını açıb həkimbaşını irəli ötürdü; sonra da özü çıxdı və yavaşca qapını örtdü.

Sultanın hələ qəzəbi o qədər də soyumamışdı, deyinirdi:

– Yorğan... döşək... nə dəxli? Sən dərmanını elə... Bəhanə gətirmə... Əlindən gəlmirsə...

Sultan keçib xırda, tirmə üçlüklü kürsülərdən birinin üstündə əyləşdi. Aybuta onun yanında diz çöküb əllərini atasının dizi üstünə və başını da əlinin üstünə qoyub yalmandı. Atasını sakitləşdirmək istəyirdi. Qızın bu sadə hərəkəti nə səyyahın, nə də sultanın nəzərindən qaçdı. Sultan sağ əlinin xəfif hərəkətilə qızın çiynini oxşadı, sol əlilə hələ də ayaq üstə əllərini köksünə çarpazlayıb durmuş Zeynalabdinə yer göstərdi:

– Əyləş, əyləş ustad. Düz demirəm?..

Zeynalabdin keçib öz yazı mizinin arxasında, vəliəhdin ona bağışladığı cüyür dərisinin üstündə diz üstündə əyləşdi və qəlbində "yazıq həkimbaşı" deyib, sultana cavab verdi:

– Düzlüyünə düzdür, hökmdarım, hər şəxs öz sənətini yaxşı bilməli, onun sirlərinə dərindən agah olmalıdır. İzin versəniz sizə bir əhvalat danışardım.

– Buyur, buyur, Hacı!

Aybuta çənəsini əlinin üstünə söykəyib, maraqlı bir "nağıl" dinləyən uşaq marağı ilə gözlərini "ustad" dediyi Zeynalabdinə zillədi. Zeynalabdin hekayətinə başladı:

– Deyirlər bizim İbn Sina Bağdadda, xəlifə sarayında həkim imiş. Bir dəfə musiqinin insana, xüsusilə xəstəyə, daha doğrusu bəzi xəstəliklərə daha yaxşı təsir bağışlamağından, belə xəstələri sağalda biləcəyindən söhbət düşür. İbn Sinanın musiqinin insan əsəblərinə təsiri haqqındakı mülahizəsilə xəlifə razılaşmır. "Mən musiqi altında yata bilmərəm sağ-salamat vaxtımda; qaldı ki xəstə vaxtımda ola" deyir. Bir qədər sonra xəlifə nədənsə əsəbiləşir. Və bu zaman otaqdan ney səsi eşidilir. Guya İbn Sina ney çalmağa başlayır. Xəlifənin ruhu yavaş-yavaş dincəlir. Taxtın üstündə əyləşib çalınan neyin zərif, könül oxşayan nalələrinə qulaq asır. Az sonra tamamilə sakitləşir. Məxmər mütəkkəyə dirsəklənib, mürgüləməyə başlayır və ağır yuxuya dalır. Bir müddət yatandan sonra ayılır görür ki, həkimin çaldığı tütək onun dizinin üstündədir. İbn Sina qəsdən xəlifəni inandırmaq üçün o yatandan sonra neyi sübut olaraq onun dizləri üstünə qoyub gedib. Hökmdarım, hərə öz sənətinin ustadıdırsa, onun dediyinə şübhə ilə baxmaq olmaz. İnam,



inam lazımdır. Xəstə və onu əhatə edənlər həkimə inanmasalar şəfa tapmaq çətin, bəlkə də qeyri-mümkündür.

– Əlbəttə, haqlısınız, ustad, mətləb aydın oldu mənə.

– Vəliəhdə isə qorxu yoxdur. Sizdən bir az əvvəl elə söhbət onun mərəzindən gedirdi. Nigaran olmayın. Buraya da verəcəyi dərman nüsxələrini həkim Əbu Əli İbn Sinanın "Qanun"u ilə yoxlayıb tutuşdurmağa, dürüstləşdirməyə gəlmişdi.

Sultan səhvini dərk etsə də, daxili sıxıntısını büruzə vermək istəmədi, söhbətin mövzusunu dəyişdi. Azacıq qızına doğru əyildi, hələ də nağıl, əfsanə, maraqlı hekayət gözləyən uşağı xəyal aləmində ayıldırmış kimi Aybutanın başını dizinin üstündən qaldırdı. Qız aşağıdan yuxarı, ata yuxarıdan aşağı bir-birinin gözlərinin içinə baxıb gülümsədilər. Sonra sultan Zeynalabdinə xitabla soruşdu:

– Yaxşı, bu dəcəlin burda mənə göstərməli nəyi var? Nəynən öyünmək istəyir?

Zeynalabdin mizin bir tərəfinə qalanmış Səmərqənd kağızı dəstəsini götürdü və ehtiramla sultana təqdim etdi:

– Öyünmək yaxşı insani keyfiyyət olmasa da, Aybuta sultanın öyünməyə haqqı var. Az müddətdə o, çox uğur qazanıb. Xəttinin gözəlliyinə diqqət buyurun, hökmdarım! Başlıcası: bu gözəl rüqə xəttilə yazılmış nəzm də özünündür.

– Nəzm də? Yoxsa Aybuta sultan ulu nənəsi Gülbədən sultan kimi şairlik iddəasına düşüb?

Aybuta nəfəsini içəri çəkib dinmir; üzündəki təbəssümə baxmayaraq, daxilində çox həyəcan keçirirdi. Sultan bircə-bircə xətt nümunələrini götürüb baxır, gah yaxından, gah qolu gəldikcə uzaqdan tutub tamaşa eləyirdi. Qəlbində bəlkə də eyni xətlə, dönə-dönə təkrar olunmuş rübaini oxuyurdu da. Üzündə ata fərəhi vardı. Sonra yavaş-yavaş, bir mövləvi, bir sufi ibadət himni oxuyan kimi, təmkinlə, vurğuyla, ahənglə oxumağa başladı:

> Ömrüm xəzanə çöndərdi, ya rəb məni, ya rəb məni!
> Gülgün zamanə göndərdi, ya rəb məni, ya rəb məni!
> Bilsəm nə idi mətləbi "Qalü-bəla" deyəndə, mən,
> Əhdü peymanə göndərdi, ya rəb məni, ya rəb məni.

Başını qaldırdı, düz Zeynalabdin Təmkinin gözlərinin içinə baxıb soruşdu:

– Əl gəzdirilməyib ki, şair?

– Sübhanallah! Bu nə sözdü, hökmdarım? Elə indicə inamdan danışdıq. Maşallah Aybuta sultan qabiliyyətli qızdır. Allahın mərhəməti həmişə üstündə olsun.

– Amin, Allah ağzından eşitsin.

Sultan durdu, bayaqdan təriflənməsindən utanan, böyüklərin söhbətinə müdaxilə etməyən Aybuta da qalxdı. "Kaş Turxan burada olaydı; kaş eşidəydi" cümləları sevinclə keçdi qəlbindən. Ədəblə, özü haqqında danışılana qulaq verir, dinmirdi. Yalnız qığılcımlar saçan gözlərinin atəşlərilə ustadına təşəkkür edib atasının ardınca otaqdan çıxdı.

Zeynalabdin tək qaldı; Qəribə qurulub dünyanın işi. Bəşəriyyətin anası, Gülbədənbəyim, Həlimətün-Nisabəyim, Məhsəti xanım, lap elə indicə otağı tərk edən Aybuta sultan kimi fitri istedadı olan qadınlar dörd divar arasında, ərin, kəbinin əsiridir. Heç bir qanacağı olmayanlar yalnız kişi olduqları üçün azaddır, dünyanın bütün nemətlərindən bol-bol, qana-qana istifadə edirlər. Neyçün verirsən bu fitri istedadı qadınlara, ulu Tanrım, neyçün?

## BİBİ

Gecə düşmüşdü. Bibinin qıyıq gözləri bir az da qıyılmışdı. Nağılın axırına yaxın bir də görürdün ki, cümlənin ortasında sözün axırını uzatdı... kəsdi... Mürgülədi... mışıldadı... və qəfil ayılıb:

– Hə... Harda qaldım?.. – yuxulu gözlərilə ətrafındakılara baxıb soruşdu. Gülümsəyən üzləri görüncə:

– Hə... Mürgüləyirdim deyirsiz? Yoxaaa... Yatıb eləməmişdim, nağılın dalını unutmuşdum, yadıma salırdım.

Heç kəs, gəlinlərdən, qızlardan aralıda, qapıya tərəf oturub əmr gözləyən və fürsətdən istifadə edib, nağıla qulaq asan dayələr, kənizlər, cariyələrdən heç biri Aytoğan xatuna bir söz deməyə cürət etmirdi. Təkcə sevimli Aybutadan başqa. Bibisinin dizinin dibində əyləşib ağzından çıxan sözləri sinəsinə çiləyən nadinc, şux Aybuta başını arvadın çiyninə söykəyib, yanağını köksünə sürtə-sürtə pişik kimi "miyoldayırdı:"



– Bəs mışıltı, ay bibi?

Bibi də qardaşqızının saçını sığallayır, guya acığı tuturdu:

– Yaxşı, yaxşı... olur daaa... Gələrsən mən yaşa, Allah baxtını oxşatmasın, oxşarsan bibinə mışıltıda... Hə, yadıma sal görüm harda qaldım. Baş beyin qalıb məndə?

Qız əlüstü, hazırcavablıqla "filan yerdə" deyir və bibi də nağılı o yerdən davam etdirirdi

Bu axşam da nağıl çox uzun çəkdi. Əslində bu nağıl deyil, məhəbbət dastanı idi. "Tahirlə və Zöhrə"nin məhəbbət dastanı. Aytoğan xatun onu xüsusi məharətlə danışırdı. Gecə yarıdan keçənəcən söylədi. Neçə yerdə kəsib:

– Qalanını sabah gecə danışaram – dedi.

Heç kim razı olmadı. Səs-səsə verdilər, "yox, danış" dedilər. Aybuta bibisinin boynuna sarıldı.

– Can bibi, canım bibi! Canına canım qurban bibi...

– Allah eləməsin, az danış!.. Sabaha qalsa nə olar?

– O olar ki, bu gecəni sabahacan gözümü yuma bilmərəm. Yata bilmərəm.

– Yaxşı, yaxşı... Sən deyən olsun...

Arvad nağılı axıracan deyib qurtardı. Hərə durub öz otağına çəkildi; cariyələr Aytoğan xatunun yatacağını sərib düzəltməyə başladılar. Otaqda arvadın yanında təkcə bir Aybuta qaldı.

– Sən niyə gedib yatmırsan, qız?

Aybuta ondan gözlənməyən bir çəkingənliklə, ağız süründürərək dedi:

– Sənə sözüm var, bibi!

– Yuxudan ötrü ölürəm, ay qız, səhərə qalsa olmaz?

Deyəsən, bir az əvvəl eşitdiyi məhəbbət dastanı öz işini görmüşdü. Qız döşəyinin qırağında əyləşib corablarını soyunmaqda olan bibisinin yanında əyləşdi. Artıq sonuncu cariyə də Aytoğan xatunun yastığından bir qol məsafəsində gümüş sinidə su ilə dolu ibriq və piyalə qoyub getmişdi. Otaqda ikicəciyiydilər. Aybuta bibinin çiynini qucaqlayıb, üzünü onun sol tərəfdən sinəsinə sürtüb, nazlanmağa başladı.

– Di yaxşı, mənim balam, de görüm nə istəyirsən?

– Əvvəlcə, canıma and iç! And iç ki, kömək eləməsən də sirrimi açmayacaqsan.

– Bir sözüm bəs eləmir sənə? Nə sirdi o ki?

– Hər nədi, bəs eləmir.

– Bəs nəyə and içim? Allaha? Qurana?

– Yooox... Atamnan mənim canıma.

Arvad ciddiləşdi. Çıxardığı corabları yana atıb, qıza tərəf döndü, çiyinlərindən yapışıb dik gözlərinin içinə baxdı; qız bu baxışlara davam etməyib kirpiklərini endirdi, qaysı rəngli yanaqları pörtdü. Dünya görmüş, bəlkə də haçansa məhəbbətin şirin şərbətini içib ağulanmış qadın anladı... İzahata ehtiyac yox idi... Qızın qəlbinə toxunmamaq üçün yavaşca güldü; sağ yanağından yüngülcə, sığala bənzər bir çimdik aldı.

– Vurulmusan yoxsa? Ay Allah, balam böyüyüb lap. Ay sənin toyunu görüm.

Xəcalətdən Aybutanın başı bibisinin köksünə düşdü. Üzünü arvadın yumşaq sinəsinə sürtdü. Qanovuz köynək göz yaşlarından islandı. Qadın Aybutanın başını sığallaya-sığallaya qaldırmağa çalışıb deyirdi:

– Day, nəyə ağlayırsan, mənim balam? Allahın ən şirin neməti düşüb payına. Hamıya qismət olmur. Bəs götürüb heç tanıyıb-bilmədiyin, yad ellərdə iş-gücün, ədəsin-dədəsin bilmədiyinin birisinə versəydilər necə olardın!

Arvadın səsi qırıldı. Dünyada çox belə toylar görmüşdü. Sevmək bir yana, nifrət etdiyi ərin zülmündən özünü Ceyhunun sirr verməyən lal sularına atan gəlinlər tanıyırdı. Bütün onları xatırlamağın yeri deyildi. Şükür Allaha ki, xətrini çox istədiyi, bala bildiyi Aybutaya Allah xoş bəxt hazırlayar, o da sevinər, düşüncələrə indi qəlbində yer belə yox idi. Sevinc içində davam etdi.

– Şükür! Şükür Allaha ki, tanıyırsan, məhəbbəti də dolub ürəyinə. Səhər, Allah qoysa, deyərəm sultanımıza; toyunuzu eləyib qayıdaram Kuşkuma. Hə, indi de görüm kimdi?

Bu sözlərlə də qızın üz-gözünü islatmış yaşları örtüyünün ucu ilə silməyə başladı. Aybutanın hıçqırıqları daxili bir hıçqırtıya çevrilmişdi. Dillənmirdi. Turxanın adını dilinə gətirə bilməyəcəkdi. Bibi kölə oğlunu nə tanıyırdı? Turxan nə bilirdi? Anasını... Hə... Onu tanıyar; amma adam yerinə qoyub-qoymamağını bilmirdi Aybuta. Bibi isə toy həvəsinin sevinci ilə üyüdüb tökürdü:



– Əmin oğlanlarındandı? Yox? Dayı oğludu?.. Hə... O da yox?.. Mən sadalayım, sən dillənməsən də o nağıldakı həkim ürəyin döyünməyindən bildiyi kimi mən də gözlərindən anlayacağam. Vəzirin oğludu?.. Vəkilin?.. Yoox?..

Arvad saraya yaxın əyanların və qohumların adını sadalamağa keçdi:

– Qələndər bayın? Musulmanqulun? Yoox?.. Onun oğlu da deyil? Ömər bayın? Hə? Yox? Bəs kim olar bala? Dədənin sərkərdələrindəndi bəlkə, hamısını tanımıram...

Qız "yox" işarəsi ilə başını silkələyəndə arvad darıxmış halda səsləndi:

– Allah səni saxlasın, ay bala. Ürəyimi üzmə, de görüm kimdi? Yorma məni, onsuz da yorğunam, vaxt da keçir. Sonra yata da bilmərəm. Odu ey... xoruz ilk banını verdi...

Qız bir də, bu dəfə bibisinin dizlərinə qapanıb hıçqırmağa başlayanda, arvadın deyəsən dalağı sancdı:

– Yoxsa?.. – dalını gətirmədi. Qızın çiyinlərini oxşaya-oxşaya, kürəyinə əl gəzdirə-gəzdirə aramla sözünə davam etdi:

– Qorxma, qızım, de... kim olsa, əlimdən gələn köməyi elərəm sənə. Kasıblığa düşübsə, mal verrəm – bazarlıq elər; Mülk verrəm – ev olar. Təki... – yenə də sözün dalını gətirməyə dili gəlmədi.

Qız yenə də dillənə, hıçqırıqlarını boğub bir söz deyə bilmədi. Aytoğan xatun onu zorla yataqdan qaldırdı:

– Dillən, axı yazığın özünə gəlmir, bəs mən? Qoca adamam, niyə incidirsən məni? Demirdin, heç başlamayaydın...

Aybuta dili tutula-tutula, güclə deməkdənsə hıçqırdı:

– Dayə Bibigül... n... o...

Aytoğan xatunu sanki ildırım vurdu, dondu, sonra elə bil ilan çaldı, ağrısından, qorxusundan qıyya çəkdi:

– Necə? Necə? Dayə? Sənin kölən, cariyən, satınalma qulun Bibigül?

– ...

– Ay onu lənətə gəlsin. Deməli səni o yoldan çıxarıb. Demək bu yolnan nəslimizə soxulmaqdı niyyəti? İgid ölsün...

Aybutanın hıçqırıqları kəsmişdi: amma hələ də çiyinləri qalxıb-enirdi:

– Onun heç bir taqsırı yoxdu, bibi!

– Yalansa ay onun...

– Vallah, bibican, onun heç xəbəri də yoxdu...

Arvad yavaş-yavaş ilk qəzəbini yenməyə başladı: "Uşaqdı, anlamır, gözünü açaram, başa salaram. Çıxar ürəyindən. Ehtiyatlı olmalıyam. Yoxsa beyni qan vaxtıdı. Umudu üzülər... Gedib özünə bir şey elər, Allah göstərməsin. Yaşının elə çağıdır ki..." düşündü.

Sonra da Aybutanın əlini əlinə alıb sığallaya-sığallaya dedi:

– Ağlını başına yığ, qızım, Allah kərimdi. Düzdü, o gədə heç sənin tay-tuşun deyil. Bəlkə, indi bir az qoğalası xoşuna gəlib. Qızın ağlı gözündə olar... Neynək. Baax, Sultanımız dünən dedi mənə ki, qonşu xannan sözləri çəp gəlib, sərhəd deyişməsidi, o yana da, o Daşüzdü nədi, orda. Dava başlayırlar. Dedi ki, 20 gün, bir ay çəkəcək səfərim. İndi yeri deyil, atan hirslidir o xanın əlindən, qəzəbi bizə keçər. Qoy getsin davaya; Allah qoysa düşmanın yıxar; keyfi kök, damağı çağ qayıdar gələr. Baaax... onacan başından çıxdı, çıxıb; çıxmasa onda mən Sultana xahişçi düşərəm. Yıxıllam əl-ayağına. Sən axı mənim bircəmsən, gözümün işığı Aybutamsan. Get, get, bala, get yat. Qoy mən də bir gözümün acısını alım. Bir azdan sübh namazının vaxtıdı; duram gərək...

Aybuta qalxdı. Bibisinin üzünə baxmağa utanıb xəcalət çəkərək, başını aşağı salıb otaqdan çıxdı. Aram gedirdi. Ümidi qırılmışdı. Uşaq deyildi ki! Bibisi bu xəbəri Turxanın dayə oğlu olmaq xəbərini ilk anda elə qarşıladısa, nə atası, nə də Validə sultan qəbul edəcəkdi. Qəbul nədi? Heç eşitmək istəməyəcək, bəlkə də, bəlkə yox... elə bəlkəsiz qovacaqlar dayə Bibigülü də... Turxanı da... Təkcə qovsalar yaxşıdı; heç onlar da inanmayacaq ki, Aybutanı Bibigül öyrətməyib. Bibigülün heç nədən xəbəri yoxdur. Aybuta özü... özü... özü sevib Turxanı. Turxan heç ona... Qəzəbə keçəcək Turxan... Kaş heç deməyəydi..." qız qəlbinin çırpıntılarını, döyüntü səsini qulağı ilə eşidirdi. Əllərini ürəyinin üstünə basdı. Sanki bu "tup-tup" səsini başqası da eşidə bilərdi. Eləcə əlləri ürəyinin başına sıxıldığı halda otağına gəldi. Yatacağı çoxdan açılıb səliqəyə salınmışdı. Dayə isə... Dayə Bibigül... Onun anası... Turxanın anası qızın yastığının başı ucunda elə divaraca söykənib uyumuşdu. Oğlunu, özünü gözləyən təhlükədən xəbərsiz olsa da, nədənsə səksəkəliydi. Tez-tez diksinib ayılır, yatacağın hələ də boş olduğunu görüb: "Bibi-balanın söhbəti nə uzun çəkdi?" deyə yenidən yuxuya gedirdi.



Amma ayılanda qızı, bibisini, yatacağını düşünüb gülümsəsə də, qısa mürgüləri həyəcanlı, səbəbini bilmədiyi narahat yuxularla doluydu. Qapının cəhəngində isə bu irəlicədən duyan ana – Bibigül qəlbinə biganə bir qız, Aybutanın xidmətçisi Aybadaq yuxulamışdı. Aybutanın gəlişi ilə yerindən dik qalxması bir oldu. Elə bil heç yatmamışdı.

Dayə də oyandı, əlində, qucağında, qoynunda, döşləri, dizləri üstündə böyümüş qızı bikef görüncə, yuxusu dağılıb getdi:

– Ağlamısan nədi, dərdin mənə? Gözlərin nə yaman qızarıb?

– Yox... Yuxum gəldiyinə...

– Koram, başına dönüm? Görmürəm? Bəlkə, bir yerin ağrıyır?

– Heç yerim ağrımır, dayə; get yat. Namaz vaxtına az qalıb. Dayə Bibigül narahatlıq içində çıxdı.

Aybutanın laqeyd baxışları altında cariyə Aybadaq onu soyundurdu. Uzun, ağ ipəkdən tikilmiş gecə donunu geyindirdi. Dayanıb durdu.

– Nə gözləyirsən; Get yat!

– Bəlkə, bir şey...

– Heç nə lazım deyil, get yat.

Qız qənşər otağa keçdi. Xanımı çağırarsa tez eşitsin, bir şey istəsə qulluğunda cəld dura bilsin deyə o burada yatırdı. Elə geyimli-kecimli. Yorğunluqdan daş kimi bərk yatsa da səksəkəli yatır, tez oyanırdı.

Aybuta yatağına uzandı. Əlvan ipəklər içində ağ libası, qaysı rənginə çevrildi, sanki ay düşmüşdü yorğan-döşəyə. Səhərəcən o üz-bu üzə çevrikdi. Yata bilmirdi.

Aytoğan xatun da yatmadı səhərəcən. Yuxusu ərşə çəkildi. Pallı-paltarlı çırpındı səhərəcən. Dirigözlü açdı səhəri. Sübh namazınacan "dağı arana, aranı dağa köçürdü".

Səhər doğrudan da namazın son salavatını deyən bütün şəhər camaatı kərənay və təbil səsilə həyətlərə, küçələrə töküldü. Heyrət içində küçələrdən keçən silahlı döyüşçülərə baxırdılar. Təzəcə yuxudan oyanmış oğlan uşaqları qoşunun hər iki tərəfi ilə gedir, arxada və öndə nizami addımlarla əsgərləri yamsılayırdılar. Əlindəki bir parça kökəni gəmirən, şəkərləmə soran qız uşaqları isə qapıların önündə divar dibində dayanıb dörd gözlə silahlı böyüklərə və onları təqlidlə yürüyən "gələcək döyüşçülərə" – oğlanlara tamaşa eləyirdilər. Uca binaların pəncərələrindən, eyvanlardan, ağacların hündür budaqlarından baxanlar da az deyildi.

Qoşun sarayın önünə çatanda artıq burada da hazırlıq bitmişdi. Sultan Aytoğan xatun, Validə sultan, Aybuta və başqa hərəmxana adamları – qadın və qızlarla vidalaşıb çıxmış, atlanmışdı. Yanında adlı sərkərdələr və vəliəhd Erkin olduğu halda – süvarilər qoşunun çatmasını gözləyirdi. Sultan vəzirinə son tapşırıqlarını verirdi.

Sultanı yola salan saray adamları, alimlər, şairlər içərisində Hacı Zeynalabdin də vardı. Vəzirə tapşırıqlar verəndən sonra sultan nə düşündüsə birdən üzünü Zeynalabdinə tərəf çevirdi, yığılan adam içində ona "ustad" deyə xitab etməyi lazım bilməyib ötkəm səslə dedi:

– Hacı! Mən gələnəcən kitabxana işləri səliqəyə düşməlidi ha...

Alim əllərini köksünə çarpazlayıb, yüngülcə baş əydi:

– Əmr sizindir, sultanım. Sağlıqla, zəfərlə qayıdın inşallah.

– Amin! – səsləri yer-yerdən ucaldı.

– Tanrım ağzından eşitsin, hacı. Duan qəbul olunsun.

Yenə də "amin" səsi yüksəldi.

Bu ara qoşunun yaxınlaşması duyuldu, cərgələrin çatmasına bir qədər qalmış, qabaqda sultan, ardınca vəliəhd və sərkərdələr irəli keçdi, qoşunun önündə at sürüb, dava üçün müəyyən edilmiş sərhəd mövqeyinə yollandılar.

Sultan saraydan çıxandan sonra heç bir urub keçməmişdi ki, Aytoğan xatunun cariyəsi hərəm otağına keçdi və xanımın əmrilə arabanın hazır olduğunu söylədi. Aytoğan xatun qohum-əqrəbası ilə vidalaşıb çıxanda Aybutanın əlindən tutub, eyvana çəkdi:

– Baaax, ağlını başına top elə. Allah qoysa sultanımız davadan qalib çıxıb qayıdar, toy-bayram elərik. Onda özüm gəlib onuynan danışaram. Amma məsləhətim budu ki, çıxart başından gədə-güdəni. Arxayın olma haa!.. Atanı ki, yaxşı tanıyırsan. Bilirsən ki, gözü qızanda dədəsini də tanıyan deyil. Genə də deyirəm, ağıllı qızım, ürəyim səndən səksəkəli gedirəm, yaxşı-yaxşı fikirləş. Gədə-güdə tayı deyilsən. Yaylığını qoy qabağına əməlli düşün – dedi. Sonra da qızın bir gecədə solmuş "qaysılarını" – yanaqlarını öpüb həyətə endi. İçərisinə yumşaq döşəkçələr, yastıqlar qoyulmuş arabaya minib yola düşdü.

Bibisi gedəndən sonra kim qızın solğun simasını, ağlamaqdan qızarıb şişmiş gözlərini görürdüsə, "atasının, bibisinin ayrılıq xiffətini çəkir" deyə düşünürdü. Heç kəsin əsil mətləbdən xəbəri yox idi. Aytoğan xatun – qızın anasına – Validə sultana da bir söz deməmişdi. Görünür nəsihətlərinin qardaşı qızına təsir edəcəyinə, bu lüzumsuz məhəbbətin



ötüb keçəcəyinə, uşaq şıltaqlığından başqa bir şey olmadığına o qədər inanmışdı ki, sirri qardaşı arvadına belə açmağı lazım bilməmişdi.

Bibisi gedəndən sonra Aybuta bir neçə gün səksəkəli dolandı. Sonra anasından bir soraq çıxmadığını, ana münasibətlərində heç bir dəyişiklik olmadığını görəndə qismən arxayınlaşdı: "Ay sağ ol, bibi, məni dediyincə istəyirsənmiş, – düşündü. – Sirrimi açmadı. Əgər anam bilsəydi, heç atamın gəlməyini də gözləməzdi. Heç bir şeydən xəbərsiz olan yazıq dayəmin ətini şişə çəkərdi. Bir mərəkə qaldırardı ki, o sərhəd davası bunun yanında heç nə olardı. Turxanı da atam gələnəcən ilim-ilim itirtdirərdi. Sağ ol bibi, sənin canıvı yeyim, bibi, sağ ol".

## SEVƏNLƏR İNANIR

Daha dözə bilmirdilər. Turxan da, Aybuta da. Məhəbbət elə bir şiddətlə daxil olmuşdu qanlarına ki, Məcnun misallı, şah damarlarına nəştər vursaydın yəqin ki, axan qan "Tur-xan, Tur-xan" – "Ay-bu-ta, Ay-bu-ta" yazardı yer üzünə. Dünən qızın istədiyi təzkirəni ustadın xahişilə rəfdən götürüb Aybutaya verəndə, kitabın arasına əlfəcin qoymuşdu. Əlfəcinin üstünə bu rübaini yazmışdı. Ünvansız, adsız yazmışdı. Amma Aybuta bilirdi, bilirdi. Qız bilirdi ki, bir neçə əsr bundan əvvəl onun özü kimi bir gözələ deyilib bu sözlər. Turxanın qəlbi çırpınırmış bu sözləri deyən ürəkdə.

Deldare-məra qoft: "Çera qəmgini?
Dər qeyde-kodame-dilbəri-şirini?
Bərxastəm, ayine bedəstəş dadam,
Qoftəm ki: "Dər ayine kera mibini?[1]

Bir gün Aybuta təzkirəni geri qaytardı. İçində qızın öz əllərilə, qayçıyla zərif naxışlar açdığı əlfəcin var idi. Qız Turxanın əlfəcinini götürmüşdü, yerinə "Şəcər əlifbası"[2] ilə Turxan kimi üzərinə başqa iki rübai yazılmış əlfəcin qoymuşdu; əlfəcinin bir üzünə:

[1] Rübai Pəhləvan Mahmudundur. Tərcüməsi:
Sevgilim soruşdu: "Niyə qəmlisən? Hansı şirin gözəlin qeydini çəkirsən?" Qalxdım, əlinə güzgü verib dedim: Güzgüdə kimi görürsən?

[2] Şifrəli uydurma yazı növüdür. Ağac budaqlarını, ağacı sındırdığı üçün ərəbcə "şəcər (ağac) əlifbası" adı vermişlər.

Ey dust, əgər can tələbi, can beto bəxşəm,
Əz hər çe ezizəst, bequ, an beto bəxşəm,
Ey kafire-bədkiş, əgər suye-mən ayi,
Zünnar bexod bəndəmo iyman beto bəxşəm.[1]

İkinci üzünə:

Ey eşq, çe atəşi ke düdət nəbəvəd?
Vey ğəm, çe nəvayi ke sorudət nəbəvəd?
Ey kam, ze bərbədi ke budət nəbəvəd,
Ey eyş çe budi ke namudət nəbəvəd?[2]

yazılmışdı. Turxan da əlfəcini, eləcə, Aybutanın əllərinin ətri gələn, ürəyinin pıçıldadığı, xoşladığı rübailərin yazıldığı kağızı ən qiymətli hədiyyə kimi qoynunda gizlətdi.

Çoxdandı belə məktublaşırdılar. Özü də bu üsulu Aybuta tapmışdı. Hər ikisinin yaxşı bildiyi "Şəcərə əlifbası" köməklərinə gəlmişdi. Ustaddan, müəllimdən başqa hər savadlının bilmədiyi bu əlifba o zamanlar "gizli ordenlər – dərviş qardaşlar" arasında məlum idi.

Əgər məktub – şeirlər ələ keçsəydi də ya onu oxuya bilməyəcəkdilər, yaxud da oxuyarlarsa sadəcə şeir olduğunu düşünüb, məhəbbət ifadəsi məktub olduğunu zənn etməyəcəkdilər.

İndiki kimi... Üz-üzə, yan-yana, qabaq-qənşər duranda da... Əlfəcin məktubları oxuyanda da, çox vaxt bir-birinin səsini yalnız qəlblərində eşidirdilər. Gözləri, əlləri, ürəkləri başqa-başqa şey demir, qulaqları başqa bir şey eşitmirdi. Gözün, ürəyin, əlin dediyin eşidirdi qulaqlar. Halbuki, hər ikisinin ağlı, zəkası var idi və bu ağıl tamamilə başqa bir şey deyir, qızğın ürəyin, vurğun gözün, səsdə olan qulağın təlqinindən gənc vücudları qorumağa çalışırdı.

---

Hər iki rübai Mahmud Pəhləvanındır. Tərcüməsi:

[1] Ey dost, əgər can istəsən, sənə can bağışlaram. Xoşuna nə gəlirsə, de, onu bağışlaram. Ey kafir, əgər yanıma gəlsən, xaçı boynuma salar, imanımı sənə bağışlaram.

[2] Ey eşq, necə odsan ki, tüstün görünmür? Ey qəm, necə mahnısan ki, səsin eşidilmir! Ey kam, necə bərbədsən ki (musiqi aləti), varlığın bilinmir. Ey işrət, sən nəsən ki, xeyrin (feyzin) yoxdur?



Turxanın da, Aybutanın da ürəyi aşiq ürəyi idi, gənc idi, təcrübəsiz idi. Bu ilk, bu yandırıcı, bu şirindən də şirin hiss ürəkdə bircə söz döyündürürdü: "Se-vi-rəm". Bu atəşin, bu xumar gözlərdə bircə söz oxunurdu: "Se-vi-rəm". Bu nərmin, bu titrək əllər o sevdalı boyunlara dolanmaq, o sevdalı olduğu qədər də bəlalı başları çırpınan sinələrə sıxmaq, "se-vi-rəm" sözlərini dinlətmək üçün yanırdı. Bu səsdə olan qulaqlar yalnız və yalnız: "Sevirəm, gedək qovuşaq" sözlərini eşidirdi. Deyilməsə də, söylənməsə də, dillərdən çıxmasa da eşidirdi. Çünki buna maildi, bunu, yalnız bunu istəyirdi. Ağıl, qəlblərdən ucada duran ağıl qoruyurdu, bir-birini ovsunlayan gəncləri bəlaya salmaqdan çəkindirir, deyirdi:

– Saqının, sultan atanın qəzəbinə düçar olarsınız.

– Saqının daşqalaq olarsınız.

– Gözləyin özünüzü: Qanlı minarənin möhtəşəm olduğu qədər də gözəl, müəyyən qamətini bir-iki qana da siz boyamayın.

– Sultanın hökmündən çıxmayın...

– Şəriətə, adətə əks getməyin.

– Saqının.

Bugünkü xəbər hər ikisini ildırım kimi sarsıtmışdı. Xanla sultan dil birliyi, söz birliyinə gəlmişdilər. "Xan, sultanın qızı Aybutanı öz oğluna istəyib; sultan da razılıq verib" – sözləri xalqın dilində gəzirdi. Canı dava-dalaşlardan, basqınlardan, əsir-yesir olmaqdan, sonsuz müharibələrdə ər, oğul, ata itirməkdən qurtaran xalq sevinirdi. El toya hazırlaşırdı. İkili bayram olacaqdı. Qonşuluq davasından qurtarmağın bayramı və sultan qızının toyu. Hamı, bütün el sevinc içindəydi. Sarayda indidən xələtlər hazırlanır, toy paltarları tikilir, otaqlar bəzənir, şəhər evlərinin küçə divarlarına əlvan xalı-xalçalar, sumaqlar asılır, mehdə əlvan parçalar yellənirdi. Bütün ürəklərdə sevinc vardı... Tək iki ürəkdən başqa. Aybuta ilə Turxan bu sevinc dənizində bu bayram ümmanında bütün arzuları qərq olmuş iki bədbəxt idi. Hər ikisi həyəcan, hər ikisi kimsəsizlik, çarəsizlik içində boğulurdu.

Dilləri bir-birinə səssiz yalvarışlarla yovuncuyurdu.

O ğ l a n: Sevirəm...

Q ı z: Sevirəm...

T u r x a n: Sənsiz yaşamaram.

A y b u t a: Ölüm qorxusu ayrılıq önündə nədir ki?

Turxan: Gedək.
Aybuta: Gedək.
Turxan: Qaçaq.
Aybuta: Qaçaq.
Ağıl: Hara? Hara? – fəryad edirdi. Ancaq ürəklər heç nə qəbul etmir, qulaqlar daha heç nə eşitmirdi.
– Gedək.
Əks-səda: "Gedək".
– Qaçaq.
Əks-səda: "Qaçaq".
– Başqa çarə yoxdur.
Əks-səda: "Yoxdur".
– Qovuşaq.
Əks-səda: "Qovuşmaq".
– Sevirəm.
Əks-səda: "Sevirəm".

Kim deyirdi, hansı deyirdi bu sözləri, hansının qəlbi əks-səda verirdi? Bilmirik, bilə bilmərik də.

Aybuta çiyinlərinə səpələnmiş "qırxkakil" hörüklərinin ucuna bağlanmış papuğun (saçbağının) toxunduğu mirvarid dənələrini didişdirir, nazik çiyinlərinin incə hərəkətilə bunları arxaya – kürəyinə itələyirdi... Və sanki mirvarid, qiymətli daş-qaş səltənətindən, qızıl-gümüş xəzinəsindən qopunub ayrılmaq, vüsal xəzinəsinə qovuşmaq istəyir, vüsalın taxt-tacına can atırdı. Uzaşırdı, üz çevirirdi, nifrət edirdi bu üzərində gəzdirdiyi, onu Turxanın sadə məhəbbətindən ayıran xəzinəyə. O sadə, o adi olduğu qədər də zəngin dünyaya qovuşmaq üçün uçunurdu... Ölürdü... Vüsal idi, eşq idi o səltənətin, o taxt-tacın adı...

Turxan da bu dövlətə, bu zənginliyə nifrət edirdi. Amma necə? Niyə? Çünki bu zənginlik ona kölə, dayə oğlu olduğunu, "quldan qul doğulduğunu" andırırdı. Amma sevirdi də bu bəzəkləri... Axı onlar Aybutanın ay simasına bir az işıq, bir az da yaraşıq verirdi. Necə də uyuşurdu. Sırğalar gül qulaqlarına, bilərziklər şümşad qollarına, saçbağılar müşkdən qara, müşkdən ətirli "qırx kakil" hörüklərinə... Hər addımında səsi gəlməsə də gəldiyini o incə, o zərif səslər xəbər verirdi... Sanki böyük aşiq, böyük ustadın əsil bir eşq ilə yaratdığı bu sənət əsərləri də Aybutanın ay camalına uyuşa bildiyi, bu ali mərtəbyə çatdığı üçün fəxr edirdi.



Nə zaman dilləşdilər? Nə zaman sözləşdilər? Bilənmi vardı; Görən, eşidənmi vardı? Oğlanın gətirdiyi sübut və dəlillər qarşısında qızın bircə arzusu qələbə çaldı. Aybuta sevimli bibisi, əslində sultan atanın əmisi qızı olan Aytoğan xatunu seçdi.

Aytoğan xatun sultan sarayından xeyli aralı, eyyy... Ceyhunun o yuxarı axarında "Əlinin Xeybəri almağa gedərkən, Düldül atın tullandığı o Aslan əniyi" adlanan yerlərə yaxın qədim sarayda yaşayırdı Aytoğan xatun.

Aytoğan xatun hələ lap cavanlığında hansı bir çarpışmada, hansı bir qəbilə, tayfa didişməsində cavan ərini, körpə balalarını itirmişdi. Daha sonra ər, istəkli nə olduğunu bilməmişdi. İstəyənlərə getməmiş, ən yararlı, uyarlı elçiləri rədd etmiş, "Aslan əniyi"nə yovuq o müqəddəs, qədim yerlərdəki "Kuşk"[1] adlanan qədim saraya çəkilmiş, yenidən təmir etdirmişdi. Kiçik bir nökər-nayib dəstəsilə orada "kişi qızının, ər qızının ağca bədəni, qara başı bir yataqda, bir ər yastığı görər" deyib tək yaşayırdı. İbadətə vermişdi ömrünü. Varını qədim dini kitabların, Quranların, təfsirlərin üzünü köçürtməyə sərf edirdi. Qapısına gələn bir xəttat, bir sənətkar, bir diləkçi boş, ümidsiz qayıtmırdı. Sultanın da yanında, saray əyanı, qohum-əqrəba arasında hörməti vardı.

Bax, elə buna görə də "qaçmaq, getmək, qovuşmaq" ağıllarına gələn gündən Aybuta bibisinin yanına getməyi düşündü. O bibiyə – Aytoğan xatuna heç kəsin pis gümanı gəlməzdi. Sultan onları bağışlamasa, "bircəqız"la barışmasa, toylarını Aytoğan xatun edər, kəbinlərini də qazıya kəsdirər, onları övlad, vaxtilə itirib yenidən tapdığı övladları kimi bağrına basardı. Axı sultanın müharibəyə getməsindən əvvəl bir az narazı görünsə də, qıza ümid vermişdi. İş-işdən keçəndən sonra çalışar düzəltsin.

Gözəl xəyallar idi. Ürəyində öz-özünə danışır, öz-özünə ürək-dirək, ümid verir, arzularında istəklərinə qovuşurdu. Üz-üzə duranda Turxanla Aybutanın gözləri, qəlbi bir-birilə danışırdı:

– Bibim bizi qapıdan qovmaz.
(Qovmadı da.)
– Aybuta...
– Bibim bizə qahmar durar.
(Durdu da.)
– Ay...

[1] İri mülkədarın möhkəm, qalavari evi

– Bibim bizi ümidsiz qoymaz.

(Qoymadı da.)

– Aybuta... sultanımızın ona da qəzəbi tutsa, bibinizi işə sallıq.

(Saldılar da.)

– Siz Sultan atamı belə zalım bilirsiz?

– Ay...

– Məndən, bircəsindən keçsə də, sultan atam bacı bildiyi, böyük hörmət-izzət göstərdiyi Aytoğan xatundan keçməz...

(Keçdi də. Və bütün bunlar sonra oldu.)

– Ay...

Qızın rasıx çəkilmiş qıyqacı qaşları bir az da gərildi, amma yenə də dümdüz rasıx zolağı bu qaşlara sual şəkli, ifadəsi verə bilmədi.

– Bilirsənmi? Atam o davaya getməzdən əvvəl bibim bizdəydi. Mən sirrimi ona açmışdım...

– Necə?

– Hə...

– Bəs nə demişdi?

– Danlamışdı məni. Amma lap elə də yox. Atamın davaya getməyi... Sonra da bibim çıxıb getdi. Deyirəm əgər bibim lap çox narazı olsaydı, sənin ananı Validə sultana çuğullardı; anam da sizi qovardı saraydan, şəhərdən... Cəzalandırardı. Amma bibim heç kəsə heç nə deməyib. Sirrimi açmayıb... Məni çox istəyir bibim...

– Kim istəməz?

– Hə... Gedərik onun yanına...

– Təki olsun, işə düşməsin...

Bütün söhbətləri zamanı bu ən uzun sözü idi qızın. Ondan sona yenə də hisslərinə, həyəcanlarına uyğun gələn qısa cümlələr, nidalar, suallar şəklini aldı danışdıqları.

* * *

Saray bir-birinə dəymişdi. Validə sultanın ağlamaqdan gözləri şişmişdi. Qızarıb şişmiş gözlərini gülabla yuyur, ağrıyan başını sarıtdırıb oxlovla "çəkdirir", əllərini ovuşdurur, gah ürəyini tutub ufuldayır, gah da nökərlərə, qulluqçulara bağırırdı:

– Qız quş olub göyə uçmadı ki?

Sultana xəbər verməyə qorxurdular. Heç kəs cürət edib sultanın otağına girib, "Aybuta itib, yoxa çıxıb" deyə bilmirdi. Hadisədən



özü xəbər tutdu. Hərəmxanaya gəldi, qızı öz otağında görməyib, Validə sultanın yanına yollandı. Validə sultan döşəyin üstündə çırpınır, kənizlər, cariyələr qolunun qarasını, çiyinlərini, kürəyini, dizlərini ovurdular.

– Nə olub?

– Qız... Qız... yoxdu!

– Hansı qız; – Sultan heç nə başa düşmədi.

Arvad qəhərdən boğula-boğula söyləndi:

– Ehhh... Hansı olacaq?! Aybuta...

– Necə yəni yoxdu? Hara gedib?

– Nə bilim? Səhərdən yoxdu. Heç görünür gecədən yerinə girməyib. Xəbər tutandan axtartmamış yer qoymamışam.

Sultan kükrədi. Tez qəzəblənən idi:

– Bəs mənə niyə deyilməyib?

– Kim canından keçib?

– Bəs sən?

– Görmürsən ölürəm?

"Kaş dünən öləydin, bu gün iki günün olaydı. Anaya bax! Qız az qalıb bir gecə-gündüzü yox olub, bu oturub vaysınır, ataya da demir" – düşüncəsilə də sultan, arvadı zarıya-zarıya qoyub hərəmxananı tərk etdi. Ürəyindən min fikir keçirdi. Bəlkə düşmən oğurlayıb qızı; ona zərbə vurmaq istəyibmiş. İstəyib desin ki "sən nə hökmdarsan, nə kişi. Sən yatmısan, damının altından doğmaca qızını – namusunu çəkib aparırlar yatağından. Xəbər tutmursan. Beləcə sənin özünü də oğurlaya bilərik".

Qızın yox olduğunu ilkin duyan cariyəni çağırtdırıb dinlədi. Anladı ki, otaqda heç bir zor əlaməti olmayıb. Qız hətta deyəsən, pal-paltarından da nəyisə aparıb. Deməli özü gedib. Kiminlə? Sual sultanı titrətdi. Deməli qız, atasının onu xan oğluna ad elədiyini, söz verdiyini bilə-bilə kiməsə qoşulub qaçıb. Ata sözünü, sultan sözünü bir pulluq eləyib. Öz atasının, öz hökmdarının əmrindən çıxıb. Kim? Kiminlə qaçıb? Bütün bu düşüncələrlə qəzəbi artdıqca sultan saray adamlarını yoxlatdırdı. Kim yoxdur sarayda? Yalnız o birisi gün məlum oldu ki, dayənin oğlu, qonaq alimin şagirdi Turxan da yox olub. Sultan özü onu kitabxana işlərində alimə köməkçi vermişdi. Deməli, qızın "ustad yanına" qaçması bunun üçünmüş. O, sultan qızı Aybuta bir qul, bir qulluqçu oğluna qoşulub qaçıb. Bəlkə sarayın, nəslin görkəmli adamlarından birinin

oğluna qoşulub getsəydi, sultanın qəzəbi bu qədər dəhşətli, qərarı bu qədər qorxunc olmazdı. Ağzına gələn ilk hökmü yazdırdı, "Qəzəb gələndə ağıl gedər" atalar nəsihətini unudub əmr verdi: "Öz hökmdarının əmrindən çıxan Aybuta və Turxan tapılan kimi, sarayın önündə qazdırılmış quyulara quylanıb, daşqalaq edilsinlər. Onlara sığınacaq verən hər kim olsa, dəri torbaya salınıb Ceyhuna qərq edilsin. Sığındıqları ev yerlə-yeksan olunsun! Hökm qətidir; heç kəs, öz sultanından üz döndərən, onun namusuna təcavüz edən cinayətkarlardan ötəri xahişlə gəlməsin. Xahişkarlar da olsa ağır cəzalansın".

Sultan hökmü saray həyətində, karvansaralarda, küçə və bazarlarda, doqqazlarda, came məscid və mədrəsələr önündə kərənay sədaları altında oxundu. Carçılar şəhər və kəndlərə dağılıb Sultanın hökmünü hamıya elan etdilər.

"Yox... Bir gədə Sultanın namusuna əl atmağa cürət edibsə, bir qız ata Sultanın hökmündən çıxmağa cəsarət göstəribsə, onda başqaları nə edər? Rəiyyətin də namusu ayaq altında tapdanıb gedər. Sultana xəyanətə ürək eləyən, rəiyyətin namusuna tüpürər lap". Sultan öz-özünə deyindi. Qaçqınlar tapılmayınca sultan yuxusunu, yeməyi, dincliyi özünə haram eləmişdi.

## YALNIZ SEVDİYİ ÜÇÜN CƏZA

Sultan eşitdi ki, Turxan ilə Aybutanı tapıb gətiriblər. Tapıldığını, özü də doğmaca "bacı" dediyi əmisi qızı Aytoğan xatunun evində tapıldıqlarını bilirdi. Özü hökm vermişdi, hər ikisi edam edilməliydi. Hər ikisinə yer verən də Ceyhunda boğdurulmalıydı. Çapar gəlib ona qaçqınların Aytoğan xatunun sarayında tapdıqlarını söyləyəndə dəhşətə gəldi. Qəlbindən iki istəkli parçanı öz əlləri ilə, öz dırnaqları ilə, qanı çıxa-çıxa qazıyıb, didib qoparmalıydı... Hökmü özü vermişdi! Nədən biləydi ki, Aybuta məhz ona, bibisi Aytoğan xatuna pənah aparacaq. Bibisini özünə qahmar seçəcək. Nədən biləydi? Sultan atanın bacı Aytoğan xatunu çox istədiyini, hər sözünə, xahişinə əməl etdiyini, sultan qızı bilməmiş deyildi. Bircə şeyi bilmirdi qız. Qız bilmirdi ki, sultan öz hökmündən keçməyəcək. Bacısından, qızından – bircəsindən keçəcək – hökmündən yox! Heç olmasa Aytoğan xatunun ölümünü görməyəcək, yoxluğunu hər saat, hər gün, qadınlara məxsus iç otaqlarda, "Güllü-



gülzar bağında" hiss etməyəcək. Yeri görünməyəcək... Aybutanın isə... Hər qumrovu bir zərif, nərmin hava çalan papuq – saçbağılı qırx hörüklərin cingiltisini eşitməyəcək. Aybuta yeridikcə topuqlarını qucan xal-xallar, sinəsini örtən qızıllar, mirvarilərlə müzəyyən bəzəklər səslənməyəcək.

– Nə böyük dərd verirsən böyüklərə, ilahi! Böyüklərin dərdi də böyük olurmuş! O bilici alim necə demişdi?.. "Allahın bir millətə yazığı gələndə, onun hökmdarına ağıl, tədbir və səbir verir". Mən nə ağılla, nə tədbirlə, nə də səbirlə davrandım. Qızğın başda ağıl olmaz deyiblər. Mən hökmü qızğın başla verdim. Allahın bir millətə yazığı gələndə onun hökmdarına üç şey verir: "Ağıl, tədbir və səbir". Görünür ki, Allahın mənim millətimə yazığı gəlməyib. Elə özümə də. Təkcə millətim deyil, özüm də çəkirəm cəzasını. Çoxlarını ağlatmışam indi özüm ağlayıram. "Bıçağı əvvəlcə özünə vur – ağrıtmasa başqasına" – deyiblər. Mən bıçağı əvvəlcə başqalarına vururdum. İndi növbə özümündür, mənimdir. İndi bilməliyəm ağrısını, indi bilirəm ağrısını".

Dünən hökmə görə Aytoğan xatunu dəri kisəyə tikib Ceyhunda gömmüşdülər. Böyük məhəbbətinin biri dəri kisənin içində sulara axmışdı, sultanın. Əmir Mir əvvəlcə, Aytoğan xatuna toxunmağa cürət etməmişdi. Arvadın hökümlü, sultanınkına bənzəyən sifətini görüncə, paytaxta, saraya çapar göndərib xəbər vermişdi. Sonra da qarını böyük hörmətlə qumlarda batmasın deyə hər çarxı bir adam boyundan da hündür olan arabaya mindirmiş, Aybuta ilə birlikdə şəhərə tərəf yollanmışdı. Turxanı isə... əllərini qıl sicimlə bağlayıb ucunu köhlənlərdən birinin quşqununa bənd eləmişdilər, gah yeriyir, gah sürünürdü oğlan.

Əmir Mir qarşısına gələcək çaparla yeni hökm gözləyirdi. Qaçqınları sultan bacısı Aytoğan xatunun evində tapacağı onun da ağlına gəlməmişdi. Güman etmişdi ki, onlara ya bir komada, alaçıqda, ya da karvansara hücrəsində rast olacaq, buyruğa – hökmə görə tapdığı pənah evini yerlə-yeksan edəcək, ev sahibini dəri torbaya salıb, ağzını qıyıq və köşəylə möhkəm tikdirəcək, Ceyhuna atacaqdı. Oğlanla qızı daşqalaq edilmək üçün saraya, saray meydanına gətirməliydi. İndi, Aytoğan xatun məsələyə qarışanda, iş dəyişir, çətinləşirdi. Əmir Mir yeni əmr, təzə buyruq almamış iş görməzdi. Tədbirli, uzaqgörən adamdı. Bəlkə, sultan bacısının sözündən çıxmayacaq, bircəsini bağışlayacaqdı; Kim bilir. Ata ürəyidi – kim bilir. Şəhərə yaxınlaşdıqca Əmir Mirin təşvişi

də artırdı. Paytaxta iki fərsəx qalmış, hələ Ceyhunun gümüşü sularından o qədər də aralanmamışdılar ki, Əmir Mirin uzaqlara dikilmiş gözləri çaparın qaraltısını seçdi. Əslində qaraltıdan çox, əvvəl əldə göyə qalxan toz dumanını gördü. Əl elədi, araba və onu müşayiət edən nəfərlər dayandı. Hörmət əlaməti olaraq Aytoğan xatunun arabasının üstünə nimtarq[1] sancılmışdı... Bayaqdan bəri əmisi oğlu ilə görüşünü, sultana deyəcəyi sözləri: "Öz balandır, bir qələtdir eləyib; o gədənin dilinin toruna düşüb, kəsdir onun dilini. Çəkdir dara. Aybuta güldən təmizdi; aydan arı, sudan durudu. Görmürsən elə başını götürüb bibisinin üstünə gəlib? Günahsız balana qıyma" düşünə-düşünə mürgü döyürdü. Ürəyi arxayındı sultan əmioğlusuna. Hərdənbir də böyrünə qısılıb içini çəkən Aybutanın başını sığallayırdı. Araba dayananda arvadın mürgüsü gözündən çəkildi. Arabada dikəldi, qarılara məxsus uca, hökmlü, yarıkişi səslə soruşdu:

– Noolub, ay uşaq?

Müşayiətçilərdən kim isə dilucu cavab verdi:

– Çapar gəlir.

Çapar yaxınlaşdı. Əmir Mir ilə görüşüb astaca dedi:

– Sultandan buyuruq belədi: kim olur olsun. Hökm yerinə yetirilməlidi.

Aytoğan xatun nə olduğunu başa düşməyə macal belə tapmadı. Dəri torba başına geydirildi. Çırpınmağına, boğuq xırıltılarına məhəl qoymadan torbanın ağzını közədilər. "Sənə deyirdim, deyirdim, Aybutam! Ağbirçək, günahsız qarının da qanına bais olduq" – bunu kəndirin bağlandığı atın yanında dayanmış, sürünməkdən üst-başında, üz-gözündə salamat yer qalmayan Turxan düşündü. Özünün də indicə, burada həmin torbadan birinə salınacağını, Ceyhuna qərq olacağını gözləyirdi. Hökmlərdən xəbəri yox idi.

Nökərlər Əmir Mirin əmrini yerinə yetirdikcə, ilk fəryadından sonra donmuş, şüurunu itirib arabanın içinə yıxılmış Aybuta rəşələr içində qıvrılırdı.

Araba Mərkəzə – saray meydanına dünən axşama doğru gəlib çıxmışdı. Heç kəsin adam yerinə qoymadığı Turxanı elə həmin dəqiqəcə zəncirləyib, sarayın altındakı qaranlıq zirzəmi – zindana salmışdılar.

---

[1] Nimtarq – günəş və yağışdan qorunmaq üçün çətir



Aybuta nə anasını, nə nənəsini, nə də dayəsini görə bildi. Onu cəzalanan kənizləri salındığı balaca, pəncərəsiz, hücrəvari otaqçada tək buraxdılar.

İndi sultan atanın əmrini yerinə yetirən nökərlər saray meydanının ortasında iki quyu qazmış, azacıq aralı xeyli daş yığıb gətirib qalamışdılar Quyulardan birinin ətrafına dairə şəklində qırx tövlə mıxı çalınmışdı. Hökmdə deyilirdi: "Qaçqın, zinakar gədə quyulardan birinə, qız o birinə salınsın. Qız salınacaq quyunun dövrəsinə qırx ədəd tövlə mıxı çalınsın. Zinakar quyuya salınsın və "qırx kakilinin" hər hörüyü o tövlə mıxlarının birinə bənd edilsin. Sonra da hər iki qaçqın, sultan iradəsinin, şəriət hökmünün əleyhinə çıxan hər iki cani daşqalaq edilsin".

Saray meydanına, "Qanlı minarənin dibindən tutmuş qazılmaqda olan quyularacan adam dolmuşdu. Sultanın silahlı nökərləri qapı-qapı gəzib, adamları evdən çıxarır, gəlmək istəməyənləri zorla, nizə qabağına qatıb meydana qovurdular.

Arvad-uşaq, kişi-qadın, qoca-cavan meydanı doldurmuşdu. Aybutanın öz dayəsinin oğluna qoşulub qaçdığını hamı eşitmişdi. Carçı şəhərə açılan dörd darvazanın önündəki meydanlarda, bazarlarda, gur "dörd yol ayırıcları"nda, hər yerdə sultanın qəzəb saçan hökmünü oxumuşdu. Bilirdilər ki, hər iki sevgili və onlara sığınacaq verən adam kim olursa olsun edam ediləcəkdir. Budur bu gün... Bu qanlı faciə baş verəcəkdi və hərənin ağzından bir avaz gəlirdi. Hərə bir cür yozurdu:

– Edam etdirəcək..

– Yəqin təkcə oğlanı.

– Atadı, əlbəttə ki, qızına qıymaz.

– Ata ürəyi bircəsinə...

– Deyirlər minarədən atdıracaq.

– Qanlı minarədən?

– Elə olar, bəs nə?

– Nə qədər canlar uçub o Allaha yavuq yerdən!

– Dilini kəs...

– Eşidən olar.

– Nə dedim ki, axı?..

– Yoox... Deyirlər zindana saldıracaq, çürüyənəcən... zəncirdə...

– Bayyy... bayyy... Hayıf cavanlardan.

– Yox, kişi, mən eşitmişəm ki, saray eyvanının qabağında iki quyu qazdırıb. Hərəsinə birini saldıracaq, daşqalaq elətdirəcək... Özü də eyvanda oturub baxacaq...

– Elə şey olmaz!

– Niyə olmur?

– Ədalətli sultanımız hamını bir gözdə görür.

Hazırlıq bitdi. Məhkumu zindandan çıxarıb gətirdilər. Turxanın tanınmalısı qalmamışdı. Bir gecənin içində üz-gözü əzabdan, bəlkə də ağlamaqdan şişib tuluğa dönmüşdü. At arxasınca quşquna bağlanmış, sicim ucunda sürünməkdən pal-paltarı kol-kosa ilişib cırıq-cırıq olmuş, tozdan-torpaqdan bomboz ağarmışdı. Heç kim ona əvvəlki Turxan deyə bilməzdi. Amma ata sultan hökmüylə ikinci quyuya salınmalı olan Aybuta içəridən çıxarılanda, saray meydanına toplaşanların sinəsindən fəryad qopdu. Ağ yerlik üstündəki zər naxışları günəşdə qızıl kimi yanan uzun don geymişdi, üstündəki çəpkən yenə də zər bəzəkli mavi atlazdan idi. Başındakı araxçın üstündən zər yelənli "qaz"dan zərif ipək örtük örtmüşdü. Qızın qolbaqları qollarında, mirvarid saçbağıları hörüklərindəydi. Heç kəs cürət edib bu qiymətli bəzəklərdən birinə də toxunmamışdı. Üz-gözü dünən və bu gecə tökdüyü aramsız göz yaşlarından bir qədər qızarsa da, gözləri azacıq şişsə də gözəlliyini itirməmişdi. Qaşlarının yaşılımtraq rasıxı hələ də solub getməmişdi. Anasına və nənəsinə onunla görüşməyə icazə verilmədiyini, sultan atanın onu görmək istəmədiyini, hökmün iynə ucuycan dəyişilmədiyini biləndə, Turxanın da onunla eyni anda gömüləcəyini eşidəndən sonra qıza sanki bir sükunət gəlmişdi. İndi o heç nədən qorxmurdu. Əvvəl qorxurdu; qorxurdu ki, Turxanı öldürələr, o – Aybuta sağ qala. Qorxurdu ki, onsuz ömür sürə... İndiysə... İndiysə... Onun cürəti artmışdı: Turxansız ömür nəyimə lazımdı;" – deyirdi. "Kaş bir quyuya gömeydilər", – arzulayırdı. "İndi də, heç olmasa yanaşıyıq. Heç olmasa o qalın torpaq altında səsimiz-sədamız bir-birinə çatacaq. Ölüm nədir ki? Ayrılığın önündə ölüm heç nədir. Bir də nə aramız var ki? Buna da ayrılıq deyərlər? Əlimizi torpaq altda uzatsaq, barmaqlarımız bir-birinə qovuşar..." – düşünürdü. Bu düşüncələrlə də başını qaldırdı, dik qənşərinə baxaraq irəliləyirdi. Sanki ölümə, quyulanmağa, daşqalaq olunmağa deyil, taxta – "taxt-rəvana" çıxmaq üçün irəliləyən gənc hökmdar idi indi qız. Onu görüncə gəncliyinə, gözəlliyinə, nakamlığına heyifsilənib sinədən, bir qəlbi ah çəkənlərin fəryadına məhəl qoymadı. Gözləri ilə Turxanı axtardı. Bayaqdan bəri quyular tərəfə baxmamışdı, – indi qəlbinin sultanını, başının tacını yığılan, daş atmaq üçün, ibrət götürmək üçün saray meydanına gətirilən adamların arasında baxmaq istəmədiyi keşikçilər əhatəsində görmədi, quyular tərəfə baxdı və Turxanın başını tanıdı; dolmuş gözləri qıza dikilmişdi. Sevimli qıvrım saçları bomboz idi. Toz-torpaqdanmı bozarmışdı, yoxsa bircə gecənin içində ağarmışdı belə? Qız düşünə-düşünə irəlilədi. Quyunun başına gəldi, əyildi, oğlanın bozarmış saçlarından öpdü. Dikəldi, "öz quyusuna" tərəf döndü. Yavaş-yavaş yaxınlaşdı. Neyçün vurulduğunu bilmədiyi tovlə mıxından yapışıb quyuya endi. Quş kimi... Sıçradı... Uşaqlıq oyunlarında, sonra da at minmək öyrənəndə... Ata mindiyi, atdan endiyi sıçrayışla. Qəribəydi... Heç kim ona mane olmurdu. Nə cəllad, nə arxasınca gələn Əmir Mir, nə dərbar nökərləri, nə əmr qulları... Elə bil heç kəsin iş tutmağa heyi qalmamışdı.

Kiminsə gizli işarəsi ilə adamlar hərəkətə gəldi, hərə əyilib topalardan bir-iki daş götürdü. Elə bu zaman minarədən azan, saray qülləsindən təbil döyülməsinin səsləri eşidildi. Hər gün beş dəfə bu səslər mömin Allah qullarını ibadətə, namaza çağırırdı. Əmir Mirin öfkəsi ağzına gəldi. Gecikmişdi. Namaza qədər. Tələsməliydi. Təkbir sədası ucalmamış, möminlərdən ürəyi yumşaqların əlləri sustalmamış...

Təbil səslərini eşidəndə iç otaqda sultan ata elə zənn etdi ki, bu edam təbilidir. Həmişə edam vaxtında sarayın "Saray meydanı"na çıxan külafirəngisində əyləşər; al, ipək yaylığını yellər və edam başlanardı. Bu gün... Bu gün... Bu gün o bunu edə bilmədi. Aybutanın...

– Səsini eşitsəm... İlahi! "Ata" – necə deyərdi körpəliyində? "Aqqacan..." Bircə dəfə eşitsəm, yüz günahkar bağışlardım. Yüz xəyanətdən keçərdim... Təki, təkcə səsini eşitməyim. Özümünkünün... Edamlar görmüşəm, fəryadlar eşitmişəm... Bu isə... Bu isə... Bircəm... Yox, yox! Özümünkünü bağışlasam, təbəmə xəyanət etmiş ollam. Nizamsızlıq baş alıb gedər ölkəmdə... Heç kəs məni eşitməz... Vəliəhdim də... Görəsən burada olsaydı neynərdi?.. Bağışlaya bilmərəm. Gözlərini görsəm... Səsini eşitsəm... etirafımdan belə qorxuram... Öz gözümdə tiri görməsəm, özgə gözündə tük axtarmağa ixtiyarım yoxdur. Bu gün Sultan qızımı rüsvay etməyə cürəti çatanı bağışlansa – sabah rəiyyətimin namusuna toxunanlar baş alıb gedər. Təki səsini eşitməyim...

Cəllad elə bil ağasının düşüncələrini hansı bir hissin hökmilə duymuşdu, elə bil bilirdi ki, bala səsini eşitsə ata ürəyi yumşalar. Odur ki, əyilib quyunun içində dimdik dayanmış Aybutanın ucu mirvari saçbağlı hörüklərini bircə-bircə götürüb tövlə mıxlarına bağlamazdan əvvəl, qızın ağzını nazik, uzaqdan seçilməyən, şəffaf xam ipəklə bağlamışdı.

Bunlardan bixəbər övkələnirdi ata sultan.

Qapılar qəfil açıldı, hövlnak açıldı, tələsik addım səsləri eşidildi. Sultan dik atıldı, qəzəblə:

– Kimdir? Məni dinc qoyun demədimmi?

– Ataaa...

"İlahi! Necə də bacısının səsinə oxşayır səsi vəliəhdin? Hardan gəlib çıxdı? O ki, alimül-üləma Zeynalabdinlə kəndləri, qədim yurdları gəzməyə, diyarımızı öyrənməkçün oba-oba gəzən alimə kömək etməyə getmişdi" – buna bənzər düşüncələr fikrindən ildırım sürətilə keçdi.

Vəliəhd atasının dizlərinə qapandı. Hıçqırırdı. Sultan ata onun külahı düşmüş başını sığallayırdı ki, qonaq alimin Zeynalabdin Şirvaninin səsini eşitdi. Bu səsdə elə bir ağrı-acı, yavaş deyilsə də, elə bir fəryad var idi ki...

– Hökmdarım, aman...

Sultan əlini qaldırdı. Zeynalabdinə sözünü davam etdirmək imkanı vermədi. "Bədbəxt – düşündü qəlbində – bədbəxt! Kimin üçün aman diləyirsən? Kimdən aman istəyirsən? Qəlbimin ən əziz guşəsində bəslədiyimi ən qiymətli inci üçünmü? Sən hardan biləsən ki, mən balamın səsindən qorxuram; Gözlərini görməkdən qorxuram. Gözlərindən qorxuram, səsindən qorxuram. Gözlərini uzaqdan görməsəm də, səsini eşidə bilərəm deyin burda gizlənmişəm. Sən mənə ata olduğumu xatırlatmağa gəlmisən? Məgər mən bilmirəm? Bilmirəm ki, atayam? Axı mən təkcə ata deyiləm, hökmdaram da! Sən hökmümü eşitməmisənmi? Sualı ucadan təkrar etdi:

– Sən hökmümü eşitməmisənmi?

– Eşitmişəm, hökmdarım...

– Bilmirsən ki, "Onlar üçün aman istəyənin özü də ağır cəza ilə cəzalanmalıdır" demişəm?

Qəlbində "Yazıq bacım, Aytoğanım" – düşündü.



– Bilirəm.

– Bilmirsən ki, hökmümü dəyişən deyiləm?

– Bilirəm.

– Bilmirsən ki, bir dəfə dediyim sözdən dönmərəm?

– Bilirəm...

– Bilirəm.

– Tüfürdüyümü yalamaram...

– Bilirəm.

– Kamandan çıxan ox geri qayıtmaz...

– Qayıtmaz.

– Axan su geri dönməz...

– Dönməz...

– Amma bunları bilə-bilə...

– Amma bunları bilə-bilə...

– Yenə də gəldin?

– Yenə də gəldim, Pəhləvan Mahmudun bir rübaisini yadınıza salmağa gəldim:

Çeşm əz setəme-zəmane giryan didəm,
Hər rənco bəla ke momken əst an didəm,
Nuhi-ke həzar sal yek tufan did
Mən Nuh nəyəm, həzar tufan didəm.[1]

Hökmdar həm qarşısındakıları, həm də özünü inandırmaq, tutduğu işə bəraət qazandırmaq üçün topuq çalan dilinə möhkəmlik verməyə çalışaraq ucadan bağırdı:

– Sizin öz xanınız doğmaca qardaşı oğlunu xalqı rüsvay elədiyinə görə öldürtdürüb, bilirsənmi?

– Eşitmişəm.

– Mənim qızıma əl uzadan həyasız, elin namusuna daha tez əl atar... Mənim hökmümdən çıxan övlad cəzasız qalsa, sabah gədə-güdə sultan hökmü tanımaz...

[1] Pəhləvan Mahmud (1247-1326) – Puryoyvəli təxəllüslü Xarəzm şairidir. *Tərcüməsi*: Zəmanənin sitəmindən gözü yaşlıları gördüm. Nə ki, zəhmət, bəla var hamısını gördüm. Nuh min ildə bir tufan görmüşdü. Mən Nuh deyiləm, min tufan gördüm.

Zeynalabdin hələ də hıçqıran vəliəhdi atasının dizlərinə qapanmış qoyub, gəldiyi kimi də səssizcə çıxmaq istədi. Qapı yenidən, bu dəfə ehtiyatla açıldı. Əmir Mir içəri daxil oldu. Sultanın qənşərinə xeyli qalmış diz çökdü, sağ əlini sinəsinin üstünə qoyub baş əydi. Gözucu sultanın həyuladan qorxmuş kimi mütəkkələrə yaslandığını, hıçqırıqdan çiyinləri əsən vəliəhdin boynunu titrək əlilə sığalladığını görmüşdü. Bu əllər, sanki indicə daşqalaq olmuş Aybutanın qırx kakil hörüklü gözəl başını sığallayan əllər indi qəlbində atalıq adına nə qalmışdısa vəliəhdə keçirirdi.

Sükut ağır, sükut əzici, sükut qorxunc idi. Əmir Mirdən başqa otaqdakıların üçü də ürəyinin tappıltısını qulaqları ilə eşidirdi.

Zeynalabdin: "Bəlkə, namaz vaxtı mane oldu, sonra da vaxt keçər... Kim bilir?.."

Vəliəhd: "Bəlkə, göz yaşlarım atamın ürəyini soyutdu... bağışladı. Kim bilir?.."

Sultan: "Qəzəbimi cilovlaya bilmək üçün mənə qüvvət ver, Tanrım! Bəlkə... hələ..."

Bu çılğın, bu dilsiz, bu qorxunc sükut içərisində Əmir Mirin səsi eşidildi:

– Hökm yerinə yetirildi, sultanım!

Donmuşdular...

* * *

Həyətdə isə... Saray meydanının ortasında iki quyu vardı. Daşla dolu. Səs-səmir kəsilmişdi. Kürəyinə bata bilən nizələrin, cidaların qorxusundan titrək əllər daşın bəzisini quyunun ətrafına tullamışdı. İndi silahlı nökərlər, qullar bu daşları da toplayıb quyunun dolmuş ağzına atırdılar. Meydanı sulayıb süpürən cariyələrin göz yaşları su çiləyəndən tökülən sulara qarışırdı...

Və heç kəs bilmirdi ki, zaman gələcək, yalnız torpaq altında əllərini birləşdirə bilmək, heç olmasa barmaqlarını bir-birinə toxundurmaq ümidilə sultan hökmünə qarşı mərdanəliklə ölən iki gəncin, sevgilinin nakam vücudunun gömüldüyü o quyular yerdə düzəlmiş çini güldan kimi çiçəklərlə bəzənəcək. Bu yerləri səyahətə, görməyə gələnlərə, bu çini kərpiclərlə müzəyyən möhtəşəm sarayların gözəlliyinə valehliklə tamaşa edənlərə bu iki güldan, iki torpaq quyu, iki gəncin məzarı haqqında indi əfsanə, nağıl kimi görünən rəvayətlər danışacaqlar.



Və heç kəs bilmirdi ki, bu diyarın sevən cavanları əhdü-peyman edən gündə həmin güldan – quyuların – həmin nakam məhəbbət məzarının önünə gələcək, hər məzardan bir çiçək dərəcək, çiçəklərini verdikləri sədaqət əhdilə birlikdə biri digərilə dəyişəcəklər. Həmin çiçəklər məhəbbətlərinin rəmzi kimi "Leyli və Məcnun", "Tahir və Zöhrə" dastanlarından bəhs edən kitabların dönə-dönə oxunan vərəqləri arasında qorunacaq.

Məhəbbətin özü kimi.

## SON SÖZÜMÜZ

Aybuta ilə Turxanın faciəsi Zeynalabdini elə sarsıtmışdı ki, düz üç gün otağından bayıra çıxmadı, heç kəslə kəlmə kəsmədi. Sarayda ümumiyyətlə, hamı bir-birindən küsülü kimi gəzirdi. Səs-səmir yox idi. Elə bil hamı özünü nədəsə, nədənsə suçlu sanırdı. Elə bil hamı bir-birindən "bu gözəgörünməz günah" üçün utanırdı. Gənclərin gözündə dəhşətli, nifrət qarışıq qorxu görünürdü. Yaşlılar göz-gözə gələ bilmirdi. Sarayda yalnız ən zəruri söz deyilir, özü də çox astadan, yavaşca söylənirdi.

Dördüncü gün Zeynalabdin yerindən qalxdı. Ağır-ağır otağından çıxıb kitabxanaya gəldi. Yarıqaranlıq otaqda, ağır qəbir sükutu içində sanki Turxanın səliqəyə saldığı kitablar, Aybutanın içərisinə "məhəbbət əlfəcinləri" – qoyduğu kitablar dilə gəlib pıçıldayır:

– Nə üçün, nə üçün, nə üçün?

Sızıldayır:

– Hanı? Hanı? Hanı?

Saz kimi, öz-özünə səslənən köklü kaman kimi səslənirdilər. Əslində "qu desən qulaq tutulan" bu böyük otaqda o qədim, o əbədiyyət qazanmış kitabların hamısı bircə-bircə:

– Nə üçün? Nə üçün? – sorurdu.

Zeynalabdin ürəyi tələssə də, cavab verə bilməyəcəyi suallardan qaçmağa can atsa da, şair təxəllüsünə, alim xasiyyətinə xas olan təmkinlə qələmlərini qələmdanına topladı. "Bustanüs-səyahə"nin artıq yazılıb

qurtarmış vərəqlərini səliqə ilə aramla yığışdırırdı. Sonra yazacağı və kitaba daxil edəcəyi məlumat, qeydlər dolu vərəqlərin hərəsini öz "Gülşən"inə görə düzdü. İri bir yaylığa boğça kimi bağladı, üstündən də cibində gətirdiyi iplə möhkəm sarıdı. Bağlamanı götürdü. Qalxdı. Bir neçə ay həvəslə işlədiyi otağı tərk etmək istərkən, otaqdakı rəflərə göz gəzdirdi. Sanki o kitabların sahibləri alimlər, şairlərlə vidalaşırdı. Bu kitablar ona bir neçə ay yoldaşlıq etmiş, qürbəti, ailə, övlad həsrətini sovuda bilməsinə kömək göstərmiş, onlardan nəysə yeni-yeni biliklər də öyrənmiş, zövqlər almışdı. Bu kitabların üzərində onların, o iki nakam gəncin: Aybuta ilə Turxanın əllərinin izi vardı. Onlara da vida edirdi sanki. Məzarlarına, o daş qalaqlarına tərəf baxa bilməyəcəkdi. Qulaqlarından hələ də Turxanın həlim, Aybutanın şux səsi getmirdi. Gözlərinin önündə Turxanın yaşına yaraşmayan təmkinli, Aybutanın şən, oynaq vücudu cilvələnirdi. Danışmaq iqtidarı olmasa da çarəsi yox idi. Sultan ilə vidalaşmalı idi. Soruşdu. Sultanın bu gün nəhayət ki, qəbul otağına çıxdığını, amma hələ heç kəslə kəlmə kəsmədiyini, heç kəsi yanına çağırmadığını, heç bir əmr-filan da verməditini söylədilər.

Zeynalabdin Sultanın qəbul otağına yollandığını görən saray adamlarının gözləri bərələ qaldı. Səyyah cürətlə qapını açdı və ehtiyatla yavaşdan öskürdü. Heç kəsin edə bilməyəcəyi cürətə tərəf dönəndə, Sultan qəlbində həm sevindi, həm də kədərləndi. Sevindi ki, bu ölü sükutu, saraya çökən bu kabusu sındıran tapıldı. Axı nə olur olsun, həyat davam edirdi; etməliydi. Kədərləndi, çünki anladı ki, alim onunla vidalaşmağa gəlib. Əks halda heç kəs cürət edib, onunla ilkin görüşməzdi. Səyyah isə "çörəyini kəsdiyi" adamla vidalaşmadan gedə bilməzdi.

– Hə... Hacı... – inlədi Sultan.

– Bağışlayın, hökmdarım, vidalaşmağa gəlmişəm...

– Anladım...

– Çörəyinizi kəsmişəm, halal edin.

– Halal xoşunuz olsun, hacı, – əlini pərdədən asılmış zəngə apardı.

Zəng bircə səs çıxaran kimi qapının dalında hazır durmuş vəzir içəri girdi.

– Təqsir...

– Hacı yola düşür; nə lazımsa hazırlıq görsünlər... At-filan...

Vəzirdən əvvəl Zeynalabdin özü dilləndi:



– Çox sağ olun, hökmdarım, minnətdaram. Amma siz də, onlar da narahat olmasınlar, bir həftə irəli köhnə dostum bəzirgan Hacı Ömər bayın karvanı bura gəlib. Görüşmüşəm. İş-güclərini qurtarıb sabah yola çıxırlar. Mən bu gün karvansaraya köçürəm; sabah sübh namazından sonra yola çıxırlar. Onlarla gedəcəyəm.

Sizin istəyinizlə, hacı!

Əgər o "bədbəxt" sağ olsaydı alimlə vida belə asan, soyuq tamamlanmayacaqdı. Sultan xəyalında belə Aybutanın adını çəkə bilmirdi. Əlbəttə, o "bədbəxt" yalvaracaqdı atasına. Atasına?.. Hə... Xahiş edəcəkdi. "Saxla, qoyma getsin ustadı" deyəcəkdi... Vəzirlə Zeynalabdin qapını yavaşca örtüb, otağı tərk etdilər. Qapı örtüldü. Və Sultan öz böyük dərdi ilə təkcə, baş-başa qaldı. Əlləri ilə dağ çəkdiyi sinəsindən qopan inilini boğa bilmirdi.

Zeynalabdin isə artıq geriyə, Vətənə tələsirdi. Bəli, Vətənə. Bu Şiraza, sevimli Hümeyranın və qoşa oğlunun yanına getməzdən əvvəl onun Azərbaycana ikinci və sonuncu gəlişi idi...Behiştə bənzər yerlər gəzsə də, doğma Vətənini unutmurdu, unuda bilmirdi. Sanki bir irəlicədən duyma hissi qaplamışdı qəlbini. Elə bil bilirdi ki, bu son səfərdir Vətənə. Getməsə, Şirvanı, Şamaxını, Bakını, Təbrizi bir daha görməsə, o gözəlliklərdən, o şirinliklərdən doymasa... Yox, doya bilmirdi. Vətənin şirin sulu bulaqlarından, meyvəli bağlarından, zərif, yaraşıqlı, müdrik, ağıllı və istedadlı insanlarından doymaq bilmirdi. Əbəs yerə kitabında yazmamışdı ki: "Oranın əhalisi üzlərinin ağ, bədənlərinin gözəl quruluşu ilə seçilir. Çox hörmətcillik və qonaqpərvərlik onların əsas xüsusiyyətlərindən biridir. Onlar həqiqətsevən, təmizqəlbli, açıqürəkli və sədaqətlidirlər. Özgə yerli adamlarla və yoxsullarla rəftarları yaxşıdır, xasiyyətcə sakitdirlər. Ömürlərini şən keçirirlər". Şamaxını "Darülmülk" ləqəbilə yad edir, Şirvanda on iki padşahın hakimiyyət sürdüyündən bəhs açırdı.

Geriyə, səfərinə çox tələsirdi. Sürətlə keçirdi artıq bir dəfə gördüyü yerlərdən. Kəndləri, oba və binələri gəzmir, tanışlıqlara, görüşlərə vaxt ayırmır, məlumat toplamırdı. "Bustanüs-səyahə" bitmək üzrəydi. Odur ki, şəhərlərdə qalmır, gələn karvanla gəlir, o biri tərəfə gedən karvana qoşulub tez qalxırdı. Ev-eşik çağırırdı onu. Hümeyra, oğlanları Cəlaləddin Məhəmmədlə Hüsaməddin Əli çağırırdı onu. Bir də bəlkə... Şirazda görəcəyi yeni zülmü tale, daha sonra Məkkə səfəri, Cəddə yaxınlığında başını dərdli Hümeyranın dizi üstünə qoyub oğlanlarının

gözü qabağında onu aparacaq ölüm çağırırdı onu. Taleyin hökmüydü, yürüdürdü əli qamçılı, gözə görünməz tale qovur Azərbaycana – İrana – Səudiyyə Ərəbistanına onu.

Kapitanın və bu yolu dönə-dönə qət etmiş tacirlərin deməyinə görə Cəddəyə az qalmışdı. Sabah səhər üzü, sübh namazından sonra Cəddə limanında lövbər salmalıydılar. Hamı hazırlıq görürdü. Amma Hümeyra xanımın bütün bu hazırlıqlardan demək olar ki, xəbəri yox idi. O, kayuta xəstə yatağından artıq üç gün idi ki, heç qalxa bilməyən Zeynalabdinin yastığının kənarını kəsdirib oturmuşdu. Hərdənbir ömür yoldaşının dodaqlarına su piyaləsini yaxınlaşdırır, hərdənbir soyuq tər basmış alnını silir, yaş köynəyini dəyişdirir, kürəyinə dəsmal salıb, köynəklər quruyanacan tərini alır, azarlıya nəysə bir şey yedizdirməyə çalışırdı.

– "Sənə Bəhri-Əhmərin gözəlliklərini göstərəcəyəm", – demişdi. "Dəryayi-sorx – Qırmızı dəniz də deyirlər". Soruşmuşdu: "Bəs niyə qırmızı? Su da qırmızı olar?". "İlahidən olanda olar. Deyirlər suyun, dənizin dibindəki qırmızımtıl yosunlardandı, ya da gözə görünməyən xırdaca su "qarışqalarıdı"... o qədər çoxdular ki, suya qırmızıya çalan rəng veriblər". Soruşmuşdu: "Bəs o xırdaca heyvanlar bu qədər çoxdursa, gəmiyə doluşub, adamlara daraşmaz?" Gülmüşdü: "Hümeyram, qızıl gülüm, məgər dənizdəki balıqlar, o irilikdəki balıqlar gəmiyə "daraşırlar?"

İndi bu sözlər yada da düşmürdü. Nə Bəhri-Əhmər, nə də onun qırmızımtıl rəngi. Nə balıqlar, nə "qarışqalar", nə yosunlar... İndi o hərdənbir Hümeyranın qardaşına tapşırıb yola çıxdıqları oğullarını xatırlayırdı. Tez-tez dilinə Cəlaləddin Məhəmmədlə Hüsaməddin Əlinin adları evdə, ailə arasında olduğu şəkildə Məmməd, Əli şəklində gəlirdi.

– Uşaqlardan... Məmməd, Əli...

Ürəyi əsə-əsə Hümeyra onun sözünü bitirməyə, vəsiyyət eləməyə qoymurdu; guya nə deyəcəyini, nə tapşıracağını bilmirmiş kimi, kişinin sözlərini nigarançılığa yozurdu:

– Niyə nigaransan hacı, dayılarının yanındadırlar. Elə də isinişiblər ona ki...

Özü də dediyinə peşman oldu, "isinişiblər... Yəni sən illər uzunu çöllərdə qalanda atalıq eləyib onlara..." Gərək deməyə idi... Gərək yadına salmaya idi... Gərək... Keçib.



Hümeyra ərinin son günlərini yaşadığını, bəlkə də son saatlarını yaşadığını ağlına belə gətirmək istəmirdi. Təzəcə qovuşmuşdular. Heç iki il bir yerdə yaşamamışdılar ki... "Səni Məkkeyi-mükərrəməyə aparacağam" cümləsilə yerlərindən qopmaları bir oldu. İndi o müqəddəs yolun sahibi rəva görərdimi? Rəva görməzdi ki, o... Hümeyra illər həsrətinə qovuşduğu, "ərli arvad" olduğu, "diri-diri dul köynəyindən çıxdığı", ömrünün ən müqəddəs arzularından birinə – Məkkəyə ziyarətə getdiyi yolun üstündə ərini, ağasını, dostunu, balalarının atasını itirsin. Bu heç ağlasığan şey deyildi və Hümeyra da bunu ağlına gətirmirdi. Amma ölüm gəlirdi, son ayrılıq saatları yaxınlaşırdı. Və bu amansız, əbədi ayrılığın acısını duyduqca Hacı Zeynalabdin ikiqat əzab çəkirdi. Həm ayrılıq... Həm də Hümeyranı bu qərib məmləkətdə, yanında sadiq dostlarından dərviş Rəhmətəli şah olsa da, tək qoyub gedirdi. Əzabların da ən böyüyü bu idi. Mənəvi əzab idi: "Sənə bu dünyada bir gün verə bilmədim deyəsən axı... İllər uzunu töhmətə, sərkiyə hədəf oldun – qoruya bilmədim səni. İllər uzunu dərd-sərindən, ailə qayğılarından xəbər tuta bilmədim, köməyim az çatdı... Və çatdımı sənə? Bir az sonra qulluğunda duracağam pərvərdigarım bağışlayacaqmı məni, sən halal etsən də..."

Rəhmətəli şah içəri girdi. Hümeyra yaşmağını yuxarı qaldırıb örpəyini aşağı çəkdi. Yatağın yanından durub ərinin dostuna yer verdi. Zeynalabdinin son günündə, son saatında "çıraq yandırdığı" an idi. Fikri bütünlüklə özündəydi, nəysə vücudunda bir yüngüllük hiss edirdi. Gözlərini dolandırdı, kayutu gözdən keçirdi. Ərini Rəhmətəli ilə birlikdə qoyub harasa çıxmaq istəyən Hümeyranı səslədi:

– Getmə, yaxın gəl, bir-iki kəlmə hər ikinizə sözüm var.

Hümeyranın qəlbi sıxıldı, gözləri doldu, amma bir kəlmə də kəsə bilmədi, qayıdıb Rəhmətəlidən arxada, amma kişinin sözlərini aydın eşidə bilmək üçün döşəyə yaxın diz çökdü. Hacı Zeynalabdin yatağında çevrikmək, üzünü bütünlüklə onlara tərəf döndərmək istədi, bacarmadı. Son qüvvəsini də bu cəhdə sərf etməkdən vaz keçdi. Bacardıqca möhkəm səslə danışmağa başladı:

– Vəsiyyət yüngüllükdür, islamiyyətin qaydalarındandı, qulaq verin. Əvvəlimci və axırıncı iki yadigarımı tapşırıram hər ikinizə, kitablarım, yazılarım... bir də balalarım. Yazılarımı əmin yerdə saxlayın, yad əllərə düşməsin. Nəysə əminəm ki, gün gələcək, onlar insanlara lazım olacaqlar. Yoxsa heç ömür sərf eləməyə – balalarımdan, səndən kəsib

dünyanı dolaşmağa dəyməzdi. Can sizin can yazılarım əmanəti. İkincisi balalarımı oxudun, qoy anlasınlar ki, elm yük deyil, elə bir xəzinədir ki, insanı afətlərdən qoruya bilər, həmişə düz yola dəvət edər. Bu iki vəsiyyətimdən sonra bir tapşırığım da var: əgər bu müqəddəs məkanda bir yerdə gözlərimi yumub, köç karvanımı çəksəm, qardaşım, Məmməd ilə Əlinin anası sənin öhdəndə qalır, onu vətənə, qardaşı evinə, balalarımızın yanına çatdırmaq üçün əlindən gələni eləyəcəksən, bilirəm, amma naməhrəmlik əzabını yol uzunu çəkməmək üçün siğə oxudarsan, qardaşım.

Hər ikisinin, həm Hümeyranın, həm də Rəhmətəli şahın sifətindəki dəhşəti oxudu. Amma heç biri riyakar bir kəlmə işlətmədi, hər ikisinə ciddi şərait tələbindən doğan qanun bəlli idi. Zeynalabdin əlinin xəfif bir hərəkətilə dodaqlarını silmək, ya nə isə bir şey etmək istədi, bacarmadı, Hümeyra cəld su piyaləsini ərinin dodaqlarına yaxınlaşdırdı! Amma Rəhmətəliyə toxunmaq istəmədi, piyaləli əli uzana qaldı. Rəhmətəli qadını anladı, piyaləni alıb dostunun qurumuş dodaqlarına çatdırdı. Hacı Zeynalabdin suyu içdi, can gəlmiş dilini dodaqlarında gəzdirdi.

– Sağ ol, sucan ömrün olsun. Dediyim kimi elərsiz. Yazılarımdan muğa...ya...ttt oluuun.

Su içmişdi, amma təkcə sinəsində toplaşmış canı od-alov içində yanırdı, artıq soyumaqda olan əlini tərpədə bilmirdi.

– La ilahə illallah... – ucadan kəlmeyi-şəhadətin söyləməyə başladı və ara verib axan gözlərini dostundan çəkməməyə çalışaraq xahiş etdi:

– Yaaasin... baş-la... Qoy qulağım eşitsin...

Rəhmətəli şah dostunun tələbini cavabsız qoya bilmədi, oxumağa başladı. Çox oxumuşdu bu surəni, amma indiki kimi yanğı ilə oxuduğu yadına gəlmirdi...

Hümeyra ayrılıq dəminin çatdığını indi anladı, örpək altında leysan kimi axan göz yaşlarını saxlaya bilmirdi... Heç saxlamaq da istəmirdi. Dünyada oğullarından savayı ən çox istədiyi, ən yaxın adamını itirirdi... Dünyası çevrilirdi Hümeyranın... Uzun həsrət illərində qarasınca deyindiyi də olmuşdu, qarğadığı da... Gileyi də olmuşdu, güzarı da... Amma ərini bir, Allahını bir tanımışdı. Ərdən gələn Allahdan gəlmişdi onun üçün. Ayrı taleh arzulamamışdı da. Bir neçə il ərzindən soraq çıxmayanda Şiraz axundları, fəqihləri "bir il ər çörəyi yeməyib, ər paltarı



geyməyən arvad dilinə gətirsə boşdur ərindən, talaq da lazım deyil çıx get ərə, cavansan, çürütmə canını" demiş, dedirtmək istəmişdilər ona. Köhnə düşmənlərindən bu yolla da olsa intiqam almaq istəmişdilər. Hümeyra qol qoymamışdı. Şiraz cahillərinin, cəhalətpərəstlərinin arzusunu gözündə qoymuşdu. Gəlin otağındakı əhdlərini, oğullarının atasına sədaqətini bircə nəfəs də unutmamışdı. İndi acı günlər, o giley-güzarı ilə birlikdə tamamilə yadından çıxmışdı, yerində itirməkdə olduğu böyük, sadiq bir məhəbbət qalmışdı. Hümeyra ağlayırdı, için-için ağlayırdı, səs çıxarmadan ağlayırdı.

Əgər ruh deyilən şey həqiqətdisə, vardısa, indi Şirinbəyim ananın ruhu buralarda Cəddə limanına yaxın bir yerdə dəryada küləksiz havada "asılıb qalmış" gəminin dor ağacları üzərində uçur, arabir onun nəfəsi oğlunun alnına dəydikcə Zeynalabdin "canlanır", gözlərinin ağırlaşmaqda olan qapaqlarını qaldırıb ətrafa göz gəzdirir, kimiysə, nəyiysə axtarır, tapmır, qurşuna dönmüş kirpiklər öz-özünə enirdi.

...Yasin qurtarana Hacı Zeynalabdin qırx ilin səyyahı, alimi, şairi də son nəfəsini çəkdi. Rəhmətullah sağ əlinin ani bir hərəkətilə dostunun onsuz da qapalı gözlərini "sığadı" can verməkdə olduğunu bilirdi Zeynalabdin, odur ki, islami qanunla dümdüz üzü Məkkəyə sarı uzanıb keçinmişdi. Rəhmətəli şah qalxdı, dəfn ayinlərini icra üçün tələsdi, göyərtəyə çıxdı. Bura yasin səsini eşidən xeyli "gələcək hacı" toplanmışdı. Bir neçə gündən sonra onlar Qurban bayramı günlərində Kəbəni ziyarət edəcək, "Hacı" olacaqdılar. Hacı Zeynalabdini bu neçə vaxtda tanımışdılar, elə əvvəldən də tanıyan var idi, müsahibələrində olmuşdular. Xəstələndiyini bilirdilər, baş çəkəni də olmuşdu. İndi "səkaratda" – can verməkdə olduğunu eşidib yığılmışdılar. Yasini dinləyirdilər. Rəhmətəlinin çıxdığını görüncə məsələni anladılar. Gəminin kapitanı da burada idi. Müzakirə başlandı. Bəziləri Hacı Zeynalabdinin Məkkəyə aparılıb, o müqəddəs torpaqda dəfn olunmağını tələb edirdilər. Lakin kapitan aydınlaşdırırdı:

– Qardaşlar, bitməyən sövda nəyə lazımdır; Başa düşün, mənim də rəhmətlik hacıya böyük ehtiramım var. Özünüz görürsünüz ki, külək yoxdur, axşamdan bəri yelkənlər sallanıb durub, haçan Allahın rəhmi gəlib külək qaldıracaq, yola düşəcəyik, onu elə əlinin üstündə əl olmayan pərvərdigar özü bilir. Ərəbistan torpağının ad-havası sizə məlumdur. Heç Cəddəyə çatdıra bilmərik. Çatdıra bilsəydik nə vardı ki? Torpaq orada da torpaqdı. Biz hacını qədim dənizçilərin qaydasınca

dəfn edəcəyik. Siz dini ayini icra edin, qalanını biz billik, bizim işimizdi qalanı.

Elə də etdilər. Ölənin cənazəsini yuyub, kəfənə bükdülər, bütün gəmi camaatının iştirakı ilə cənazə namazını qıldılar. Bundan sonra gəmi kapitanının nəzarəti ilə kəfənli meyiti qaydası ilə dəfn etmək istədilərsə də, xanımı və bütün səfər dostlarının xahişi ilə Cəddəyə gətirib, müqəddəs torpağa tapşırdılar. Sanki Hümeyranın sinəsindən qopan nalə ilə birlikdə hayqıran qağayı deyil, Şirinbəyim ananın ruhu idi, buralarda uçurdu, sanki ağı deyirdi, oğul oxşayırdı:

– Ömrü qürbətdə keçən bala, qəbri də qürbətdə qazılan bala. Dəryalar atdı məni; naqqalar uddu məni; bir pakın, bir napakın qarğışı tutdu məni, heyyy...

Sanki bu heyyyəəə bütün Vətən torpağının anaları səs verdi.

"Su sənəyi suda sınar – ömrü qürbətdə, səyahətlərdə keçənin məzarı da vətənində olmaz...

Otuz yeddiillik səyahətində, yetmiş min kilometrəcən yol qət edəndən, islamiyyətin, atəşpərəstliyin, yəhudiliyin, bütpərəstliyin, xristianlığın və daha bir çox başqa din və təriqətlərin mahiyyətini, xalqların adət və ənənələrini, dünyamızın bir çox yerlərinin coğrafiyasını, tarixini öyrənəndən sonra bəşəriyyətə qiyməti olmayan dörd sanballı elmi əsər, şeir divanı, risalə bəxş etdi.

Şimalda Şirvan, Cənubda Sərəndib (Seylon) adası, Qərbdə Türkiyə, Şərqdə Çin.

Gətir gözünün qabağına, oxucu! Afrika – Avropa – Asiya xəritəsini. Bütün İslam dünyasını başdan-başa, eninə-uzununa, əriş-əriş, arğac-arğac gəzdi. Nə gördü, nə eşitdisə... Yazdı... Ustadi-mürşidi Məczubəli şah türkəsilli imiş. Özü "Məstəli şah təxəllüsü türkəm – "bu dudmandan" – türklərdənəm dedi"[1].

Heç yerdə, heç şey onu avaraçılıq, tənbəllik etməyə vadar eləmədi. Hər yerdə, həmişə oxudu, işlədi.

"Elm-bilik dövlətdən əfzəl və ucadır" sözünü atası Axund İskəndərdən çox eşidib və qəlbinin dərinliklərinə, qanına işləyən bu hökmü həmişə hər şeydən yüksək tutub: elm dalınca dərbədər olub, dövlət yığmayıb. Göz çəkib dünyanın malından, istirahətindən. Elə bu əqidəni ömrünün axırınacan qəbul etdiyi, davam etdirdiyi üçündür ki, Kəbə

[1] Hacı Zeynalabdin Şirvani. "Bustanüs-səyahə". Tehran, 1339 hicri, səh.1776.



yaxınlığındakı Cəddəyə çata-çatmaya da gəmidə vəfat edərkən, arvadına iki oğuldan və oğul qədər əzizlədiyi 5 kitabından, ömrünün 70 min kilometr ayaqladığı dünyada, 40 ilə yaxın gəzdiyi yerlərdən qazancı olan əlyazmalarından başqa heç bir şey, bircə aylıq ruzi belə qoyub getməmişdi. Onu candan sevən, əzizləyən dostları olmasaydı arvadı ilə oğlanları elə o ölən kimi çiyninə sail çantası keçirməli olardı. Halbuki, nə o, nə də arvadı ilə körpələri bilmirdi ki, dünyanın cahangir dövlətləri onun əlyazmalarına sahiblənmək üçün həmin kitabların çəkisindən qat-qat ağır qızıl xərcləyirlər.

Kitablarındakı məlumat eləydi ki, ona qədər nəinki islam aləmi, hətta dünyanın ən qabaqcıl ölkələri də bu genişlikdə, bu dürüstlükdə məlumata malik başqa kitab tanımırdılar.

Bu əsərlər Yaxın və Uzaq Şərqi, Asiyanın mərkəzini və cənubunu elə dərin, elə diqqətli, məzmunlu təsvir etmişdi ki, bir çox ölkələrin, birinci növbədə İngiltərənin, Rusiyanın, Almaniya və başqa cahangirlərin diplomatları həmin əsərlərin əlyazmasının özünü, mümkün deyildirsə, heç olmasa surətini əldə etmək üçün qızıl pullar əsirgəmədi, alimin ailəsinin, qardaşı "Şərafətül-insan" müəllifi Məhəmmədəli Şirvaninin, oğulları Cəlaləddin Məhəmməd və Hüsaməddin Əlinin yerini öyrənməyə çalışdılar. Əsərləri diplomatlar əlində dərsliyə çevrildi, haqqında dünyanın ən məşhur alimləri cild-cild tədqiqat əsərləri yazdı, kitablarını hərə öz dilinə tərcümə elədi...

Özü isə zəmanəsinin bir çox hökmdarları ilə görüşüb, saraylara dəvət olunsa da, əqidəsindən, səyahət məqsədindən dönmədi, bu hakimlərin bir çoxundan olmazın zülm gördü, təqib və sürgün olundu. Daimi evi olmadı. Dinc yaşayışa həsrət qaldı, ailəsinə rahatlıq nəsib olmadı və dövrünün hakimlərinin əsil simasını, ziyalılarının vəziyyətini bildirən bu sözləri yazdı: "Dünyanın hünər sahibləri heç zaman indiki kimi xar və etibarsız, alimlər isə ümidsiz və məhrum olmamışlar... Qəribə bir hal və təəccüblü bir vəziyyətdir ki, bilik sahibləri qəməkədərə batmış, nadanlar isə həmişə əmin-amanlıq bağlarında rifah və şənliklə yaşayırlar".

Zeynalabdin Şirvani bu cümlələri hələ ilk əsərində "Riyazüs-səyahə"də yazmışdı. İndi isə... İndi isə Zeynalabdin Şirvani elə bir səfər qarşısındadır ki, bu səfər ona 1821-27-ci illərdə "Riyazüs-səyahə", 1826-cı ildə "Hədayiqüs-səyahə" – 1832-ci ildə "Bustanüs-

səyahə", "Kəşfül-maarif" kimi əsərlər yazdırdı. Əlli səkkiz illik ömrünün qırx iki ilini bunlara sərf etdi. Bircə gün dinclik bilmədi. Bircə gün ana ocağı qırağında isinmədi... Ana! Ana sözü hər dəfə dilinə gələndə, qulaqlarında, haçansa eşitdiyi laylaya qarışmış bir bayatı səsləndi:

Əzizim, vətən yaxşı
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

Gəzdi, qərib ölkələri addım-addım gəzdi... Gözəl əsərlər yazdı. Vətəndə ölməyi arzuladı... Bu bayatını omu qoşdu, ya da onun kimi ürəyi həsrət dolu başqa bir didərginimizmi? İndi bunu kim bilir? Qoşdu. Amma vətəndə ölə də bilmədi. Nəsibi olmadı. Ananın "bala vay!" deməsi dünyada ən böyük faciələrdən də böyükdür. Ana bala çiynində getməlidir cahandan. Şirvan analarının çoxuna bu qismət olmadı. Bala əvvəl köçəndə dünyadan, ana onu ən yanğılı ağılarla oxşardı. Şirinbəyim anaya bu da qismət olmadı:

Balam ellər ayrısı,
Şirin dillər ayrısı,
Bir gününə dözmürdüm,
Oldum illər ayrısı –

deyəndə yeri də yandırırdı, göyü də. Başqa intizar analar kimi. Qürbət ellərdə can çürütmüş, qürbət torpaqlara tapşırılmış ünlü, ulu alimlər: Qiyasəddin Şirvani, Şəmsəddin Şirvani, şirindilli şairlər: Nitqi Şirvani və yüzlərlə başqaları kimi Didərgin. Sərgərdan. Vətənsiz. Amma yox! Yox, yox! Min kərə yox! Vətən onların hər birinin köksündə, ürəyində, içində dünyanı gəzib. Gözləri gözəllərə, gözəlliklərə baxıb: Vətəni görüb! "Ulu Tanrı cənnəti yaradanda Vətənimizi ülgü götürüb" – deyiblər çox güman ki! Çünki Şirvan – Vətən kimi beşikdən məzaracan onların ürəyini, gözünü, ruhunu bir an da tərk eləməyib. Adları ilə yanaşı durub əbədiyyətəcən: Zeynalabdin Şirvani şəklində.

Dostum! Tarixin elə mərhələləri olub ki, Şirvan deyəndə bütün Azərbaycan düşünülüb. Azərbaycan oğulları isə... didərgin düşüblər.



Şərqin bir çox ölkələrinə... Bir qismini zəlzələlər, təbii fəlakətlər əlimizdən alıb, başqa qismini təhsili ərəb, fars dillərində olduğundan vətənində vətənsiz, milləti içində anlaşılmayan alim olub, şair olub, yazdığını vətəndaşları oxuyub başa düşməyib, o da "dili" anlaşılan ölkələrə köçüb gedib; amma o da, yenə də Vətənin gülzar təbiətini unutmayıb. Üçüncü qismi zalım hökmdarların zülmündən, ardı-arası kəsilmək bilməyən müharibələrin dəhşətindən baş götürüb gedib...

Elə bütün didərgin alimlərimiz belə olub. Dünyanı gəzib, Azərbaycanı ürəyinin içində aparıb. Canı Vətəndə qalıb. Bu bakuvilərin (bakılı), qarabağilərin (qarabağlı), qübbəvilərin (qubalı), gəncəvilərin (gəncəli), naxçıvanilərin, nəxəvilərin (nuxalı-şəkili), təbrizilərin, şirvanilərin əsərləri İngiltərənin, Fransanın, Amerikanın, Almaniyanın, İranın, Hindistanın, hətta Qərbi Afrikanın belə əlyazma xəzinələrini bəzəyir. Təkcə üzünü belə göstərmək istəməyən "alimlər", kitabxanalar var. Onları dünya kitabxanalarından, əlyazma xəzinələrindən vərəq-vərəq axtarmaq lazım gəlir. Zeynalabdin də o cümlədən. Doğma yurdunda izi belə qalmayanlarımız. Amma vətəni, əsərləri yazmasalar da doğma, ana südü kimi şirin, halal dilimizi unutmayıblar.

Belə yaşayıb, əbədiyyətə belə qovuşub ulu babalarımız. Həyatı, elmi bilikləri, təcrübəsi örnək olub insanlara, insanlığa.

*Bakı-Mərdəkan*
*1980–1988*

# MÜNDƏRİCAT

*Ön söz* .... 4

I HİSSƏ – UŞAQLIQ

Ziyarət .... 7
Səfər .... 21
Yolda .... 27
Məktub .... 43
Ata .... 49
Məsləhət .... 54
Ana .... 61
Şamaxıda .... 65
Seyr .... 69
Şirinbəyim .... 71
Xoş gördük, səyyah .... 74

II HİSSƏ – GƏNCLİK

Çovğun .... 79
Yenə yolda .... 86
Yol yoldaşları .... 90
Zəlzələ .... 96
Təbriz .... 104
Süheyla .... 120
Məşhəd .... 125
Sual-cavab məclisi .... 131
Dostlar .... 135
Düyünçə .... 140
Məhəbbət .... 144
Altıntelli .... 149
Ömür bəy .... 168
Ayrılıq .... 181
Yenə Ömür bəy .... 184
Qazi .... 188
Qaytarıldı .... 201



Nemətullahilər .... 206
Yenə Altıntelli .... 211
Faciəli görüşün sonu .... 216
Gəncliklə vida .... 233

III HİSSƏ – KAMİLLİK

Kamilliyə doğru .... 239
Həlimətün-Nisabəyim .... 241
Aşırım .... 259
Buz şaqqıltısı .... 267
Axtaran tapar .... 271
Saraya .... 281
Acı xəbər .... 288
"Gülşəni-Xey" .... 299
Əbədiyyət mahnısı .... 321
Vəliəhd Erkin .... 330
Aybuta .... 340
Bibi .... 346
Sevənlər inanır .... 353
Yalnız sevdiyi üçün cəza .... 360
Son sözümüz .... 369

**ƏZİZƏ CƏFƏRZADƏ**

**ELDƏN-ELƏ**

"ŞƏRQ-QƏRB"

BAKI-2006

Buraxılışa məsul: *Əziz Güləliyev*

Nəşriyyat redaktoru: *Əlişirin Şükürlü*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Azər Quliyev*

Korrektorlar: *Tutu Məmmədova*
*Elnaz Xəlilqızı*

Yığılmağa verilmişdir 15.05.2006. Çapa imzalanmışdır 29.08.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 24. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 138.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Ш6
С50